# SU KİMİ SAKİT VƏ GÜCLÜ

Bakı-2019

*Tərtib edəni və redaktoru:* **Rəfail Tağızadə,**
*şair, publisist*

**Su kimi sakit və güclü**

Bakı, "Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2019, 472 səh.

Kitabda dünya şöhrətli alim, dəyərli ziyalı Rafiq Əliyevin publisistik yazıları, müsahibələri, dünya alimlərinin və Azərbaycanın görkəmli nümayəndələrinin onun haqqında fikir və yazıları yer alıb.

ISBN:978-9952-528-24-4

© R.Tağızadə, 2019



"Əsl ziyalı hər zaman öz vicdanının səsini dinləyən insandır. Ziyalı ölümündən sonra yaşayır. Ona görə də ziyalı ömrü, məmur ömründən uzundur. Nəfsinə hakim kəsilməyi bacaran, ən həssas yeri qürur olan ziyalı çox kövrək olur. Amma kimsə düşünürsə ki, ziyalını əzə bilər, yanılır".

## RAFİQ ƏZİZ OĞLU ƏLİYEV

Rafiq Əliyev 10 fevral 1942-ci ildə Azərbaycanın Ağdam rayonunun Novruzlu kəndində anadan olub. 1948-1958-ci ildə Ağdam 1 saylı orta məktəbində təhsil alıb, məktəbi medalla bitirib. 1958-1963-cü illərdə M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunda oxuyub. İnstitut təhsilini fərqlənmə diplomu ilə başa vurub. 1964-1967-ci illərdə Moskvada SSRİ Elmlər Akademiyası İdarəetmə Problemləri İnstitutunun aspirantı olub. 1967-ci ildə texnika elmləri namizədi, 1975-ci il texnika elmləri doktoru, alimlik dərəcəsi alıb. 1976-cı ildən professordur. 1989-cu ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü seçilib. 1989-cu ildən 2011-ci ilə kimi Azərbaycan Dövlət Neft Akademiyasının Avtomatlaşdırılmış idarəetmə sistemləri kafedrasının müdiri olub. 1998-ci ildən indiyə kimi Azərbaycan Dövlət Neft Akademiyası və Corciya Dövlət Universitetinin (Atlanta, ABŞ) MBA və BBA proqramlarının direktorudur.

2004-cü ildən «Zadə irsi və süni intellekt» Assosiasiyasının prezidentidir.

Azərbaycan və bir sıra xarici ölkələrdə informatika və idarəetmə sahəsində elmi-tədqiqat işlərinin təşkilində böyük rolu olub. Azərbaycan, Rusiya, Almaniya, ABŞ, İran və başqa ölkələrdə 160-dan çox elmlər namizədi, 35 elmlər doktoru hazırlayıb. Tələbələri hazırda təkcə Azərbaycanın elm mərkəzlərində deyil, digər ölkələrdə də (ABŞ, Almaniya, Türkiyə, Rusiya, İran və s.) fəaliyyət göstərirlər.

Bilavasitə rəhbərliyi və iştirakı ilə 1994-cü ildən başlayaraq hər iki ildən bir dünyanın müxtəlif ölkələrində "Qeyri-səlis sistemlərin tətbiqi", 2000-ci ildən "Sənaye intelektual sistemləri", "Sistem təhlilində, qərar qəbuletmə və idarəetmədə sözlə hesablama və Soft Computing" üzrə beynəlxalq elmi konfranslar keçirilir.

Dünyanın müxtəlif ölkələrində nəşr olunan bir çox jurnalların redaktoru və redaksiya heyətinin üzvüdür.

İnformatika və idarəetmə, süni intellekt, qeyri-səlis məntiq və Soft Computingə həsr olunmuş və dünyanın aparıcı nəşriyyatlarında və müxtəlif dillərində çap olunmuş 76 kitabın, 350-dən çox elmi məqalənin müəllifidir.

- 1971 — Elm sahəsində Azərbaycan Lenin komsomolu mükafatı;
- 1983 — Elm və Texnika üzrə SSRİ Dövlət mükafatı;
- 1992 — Təbriz Universitetinin (İran) professoru;
- 1999 — Corciya Dövlət Universitetinin (ABŞ) professoru;
- 2000 — Zigen Universitetinin (Almaniya) professoru;
- 2003 — Yakın Doğu Universitetinin (ŞKTR) professoru;
- 2014 — Elmdə Ömürlük Nailiyyət Ödülü laureatı (ABŞ);

- 2015 — "Dünyanın seçilmiş alimləri" mükafatı (ABŞ);
- 2016 — Beynəlxalq Qeyri-səlis Sistemlər Assosiasiyasının (İFSA) üzvü.

**Əsas elmi nailiyyətləri**

- Çoxölçülü və kombinə olunmuş determiristik, stoxastik (1967), qeyri-səlis (1981) idarəetmə sistemlərinin invariantlıq şərtlərinin formalaşdırılması;
- İntellektual sistemlərdə qərar qəbuletmə və idarəetmə proseslərinin inteqrasiya prinsiplərinin formalaşdırılması (1969);
- Stoxastik dəyişən strukturlu sistemlərin sintez metodlarının işlənməsi (1976);
- Çoxsəviyyəli paylanmış sistemlər üçün koordinasiya nəzəriyyəsinin işlənməsi (1980);
- ALI1, ALI2 ALI3 və ALI4 qeyri-səlis məntiqlərin yaradılması (1984-2010);
- Qeyri-səlis modellərin adekvatlıq şərtlərinin formalaşdırılması (1984);
- Qeyri-səlis intellektual robotların nəzəriyyəsi və qurulma prinsipləri (1986-1994);
- ESPLAN da daxil olmaqla qeyri-səlis ekspert sistemlərin işlənməsi (1987);
- Qeyri-səlis neyron şəbəkələrinin genetik alqoritmlərə əsaslanan öyrənmə metodlarının işlənməsi (1997);
- Genetik alqoritmlər əsasında qeyri-səlis reqressiya təhlilinin yeni konsepsiyasının işlənməsi (1998);
- Qeyri-səlis-xaos sinerji əsasında adaptiv idarəetmə sistemlərinin təklif olunması (2001);
- Ümumiləşmiş dayanıqlıq nəzəriyyəsinin yaradılması. Dinamik sistemlərin dayanıqlığının Zadə – Əliyev tərifi və meyarının təklif olunması (2003-2007);
- Qeyri-səlis məntiq əsaslı ümümləşmiş qərar qəbuletmə nəzəriyyəsi (2007-2013);
- Z – ədədlər hesabı nəzəriyyəsi (2013-2015);
- Ümumi qərar qəbuletmə nəzəriyyəsi (2012-2018).

## ÖN SÖZ

Seçilmiş insanlar haqqında ürəklərdə çox kitablar yazılıb. Çox sözlər deyilib. O sözlər ancaq yazıya çevriləndə onu tam şəkildə oxumaq mümkün olur.

Dünyanın ayrı-ayrı ölkələrində çap olunmuş kitabları hazırda Almaniyanın Zigen və Darmştadt, ABŞ-ın Boston və Kaliforniyadakı Berkeley, Avstriya, Fransa, Türkiyə, Kipr, Rusiya və başqa ölkələrin universitetlərində əsas dərs vəsaiti kimi istifadə olunan, ABŞ-ın Corciya Dövlət, Almaniyanın Zigen, Şimali Kiprin Yaxın Doğu, İranın Təbriz universitetlərinin professoru, MBA və BBA proqram direktoru, 76 kitab, 350-dən çox elmi məqalənin müəllifi, 160 elmlər namizədi, 35 elmlər doktoru yetişdirən professor Rafiq Əliyev haqqında da çox yazılıb, çox deyilib. Bütün seçilmişlər kimi Rafiq müəllim haqqında da yazarkən, "hansından yazım?" – deyə, düşünməli olursan. Çoxluqlar içərisində seçim etmək həqiqətən çətindir.

Rafiq Əliyevi başa düşmək, anlamaq üçün yaşadığımız dövr kifayət etmir. Bu təkcə onun alimliyi ilə bağlı deyil, bu həm də onun baxışına, yanaşmasına, dünya görüşünə görədir. Onun kimi baxmaq, yanaşmaq üçün ya gərək o zamana gedib çatasan, ya da onun kimi düşünə biləsən. Rafiq Əliyevin ucalığı da elə bundadır. O, tanıyanların qəbul etdiyi, hamının görmək və yanında olmaq istədiyi insandır.

Dünyanın elm nəhənglərinin onun haqqında fikirlərini oxuduqca qürur duyursan. Nəinki tərifi, etdiklərini belə dilə gətirməyə imkan verməyən, bu qədər nailiyyətləri ilə "Mən nə etmişəm ki?", – deyən, böyüklüyü sadəlikdə görən bu səmimi, mehriban insana baxıb insanlığına pərəstiş etməyə bilmirsən.

2001-ci ildə dünyanın məşhur elmi nəşriyyatı olan "World Scintific"də nəşr olunan, oğlu, professor Rəşad Əliyevlə birgə yazdıqları 450 səhifəlik "Soft Computing and its applications" kitabı bir neçə il ardıcıl bestseller olaraq dünyanın elmi nəşrləri arasında I-II yerləri tutdu və dünyanın bir çox aparıcı universitetlərində dərslik və dərs vəsaiti kimi tədris proqramlarına daxil edildi.

* * *

Son vaxtlar yazılar əsasən elektron informasiya vasitələrində − saytlarda getdiyindən saytlar fəaliyyətlərini dayandırdıqdan sonra orada gedən yazılara təzədən baxmaq, müraciət etmək mümkün olmur. Ona görə də Rafiq Əliyevin yazı və müsahibələrini bir yerdə cəmləmək zərurəti yarandı və Rafiq müəllim kimi təvazökar bir insan da sonda kitab təklifinə razılıq verməli oldu.

Bu kitabda yazıların, müsahibə və münasibətlərin müəyyən bir qismi (bəziləri ixtisarla) yer ala bildi. Əgər yazıların hamısı kitaba salınsaydı, bundan üç dəfə böyük kitab alınardı. Kitabın seviləcəyinə şübhəm olmasa da, informasiya bolluğunu, insanların zaman məhdudiyyətini nəzərə alaraq seçim etməli oldum.

**İnsan danışdıqca tanınır...**

İnanıram ki, "Su kimi sakit və güclü" kitabı oxucunun dünyagörüşünün formalaşması, zənginləşməsi, mənəvi qidalanması baxımından mühüm rol oynayacaq. Ona həyatda fərqli yanaşmaq üçün yol göstərəcək, baxış bucağını dəyişəcək, bütövlüyə, tamlığa stimul, güc və inam verəcək. Elmilik, həyatilik, qeyri-səlis məntiqdən doğan daha düzgün yanaşma oxucunun düşüncə tərzində yeni çalarların yaranmasında yardımçı olacaq.

Rafiq Əliyevdə yoxluğu varlıq kimi duymaq, insanda ancaq yaxşını görmək, dəyərləndirmək, (subyektivlikdən qaçmaq nə qədər çətin olsa da) obyektiv münasibət və tolerantlıq var. Onun daxili zənginliyi, tərbiyə və mədəniyyəti, intellekt və ziyalılığı açıq-aydın sezilən fikirləri ilə tanış olduqca, onunla təmasda olduğun, görüşdüyün düşüncəsində olursan və bu tanışlığa sevinirsən. Ədəbiyyatı, musiqini gözəl duyan, mükəmməl həyati və fəlsəfi baxışlara malik, alim kimi tanıdığın qərbli-şərqli Rafiq Əliyevin çoxşaxəli bir insan olduğu qənaətinə gəlirsən.

"Su kimi sakit və güclü" kitabında məqamın sakitliyi də, danışan sükutun gücü də duyulur. Sevgiylə dolu bu kitab onu oxumağa başlayan hər kəslə danışa bilir.

Kitabdakı bölmədən biri də "İctimai məsələlərə münasibət" bölməsidir ki, burada cəmiyyətdə baş verən proseslərə, hadisələrə Rafiq müəllimin ziyalı mövqeyi öz əksini tapıb.

"Kaspi" qəzetinin XX əsrin əvvəllərində dərc olunan "Bəs bizim ziyalılarımız haradadır?" məqaləsində suallara aydınlıq gətirən Əhməd bəy Ağaoğlunun fikirləri ilə Rafiq Əliyevin fikirləri üst-üstə düşür:

"Mən düşünmürəm ki, hər hansı bir millətin – istər alman, istər fransız, istər türk milləti olsun, onun ziyalıları həddən ziyadə çoxdur. Ziyalı millətin sayından asılı olaraq üç, beş və ya çox ola bilər. Bəzən bizdə hər oxuyana ziyalı deyirlər. Bu, yanlışdır.

O, fikir adamı ki, milli-ictimai mənafeyi öz mənafeyindən üstün tutur, həqiqətin yanındadır, ona ziyalı demək olar. Ziyalının vətəndaş mövqeyi olmalıdır.

Əsl ziyalı hər zaman xalqın yanında olan adamdır.

Ziyalının daim həssas yanaşdığı bir məsələ var ki, o da onun qürurudur.

Əsl ziyalılardan məhrum millət ölümə məhkumdur".

**Məmləkət bəzən bir vətəndaşına görə sevilir**

Lütfi Zadənin zəkasına, insanlığına, yaradıcılıq qabiliyyətinə, elmin dərinliyinə kimi gedə bilməsinə, həm şifahi, həm də yazılı formada özünü ifadə etməsinə heyrət etdiyi, heyran qaldığı Rafiq Əliyev alim olaraq alimliyə, insan olaraq insanlığa, dost olaraq dostluğa, vətəndaş olaraq vətəndaşlığa, yoldaşlığa şərəf gətirir.

Dünya alimlərinin, Azərbaycanın seçilmişlərinin onun haqqında fikir və münasibətləri, özünün müxtəlif səpkili yazı və müsahibələri, kövrək ehtirafları ilə zəngin olan bu kitab vətəndaş, alim, ziyalı, ictimaiyyət adamı olan Rafiq Əliyevin fikir və düşüncələrini öyrənmək, onunla tanış olmaq istəyənlər üçün bir mənbə, vasitə, körpü olacağı düşüncəsindəyəm.

“Rafiq Əliyev Amerikadan 7 min mil uzaqlıqda yerləşən Azərbaycanda yaşasa da, o, Amerikadan çox əzəmətli görünür”, – söyləyir, Amerikanın məşhur alimi Ronald Yager. Əzəmətli İnsanın balaca Azərbaycandan uzaqlarda görünən Böyük Görüntüsünün işığında millət olaraq görünmək və sevinmək, nə gözəl!

Rafiq müəllimə tez-tez “Amerikada, Avropada yaşasaydınız daha çox şeylər qazanardınız”, – deyirlər. Bu həqiqətdir. İndi isə daha çox qazanan canınızdan çox sevdiyiniz, ayrılmaq istəmədiyiniz, şərəf gətirdiyiniz, bəxti gətirən Azərbaycan oldu, Rafiq müəllim.

“Mənəvi meyarları ranqlaşdırmış olsaydım, birinci yerdə namus və ədaləti qoyardım”, – deyərək, həqiqi elmi onlarsız təsəvvür etməyən Rafiq Əliyevdə mənəviyyat, insanlıq, elmilik o qədər sıx və bütöv ki, onları biri-birindən ayırmaqda, hansı birinəsə üstünlük verməkdə tərəddüd edirsən.

Adamların tez tükəndiyi bu qarışıq dünyada, ağrılı cəmiyyətdə pozitiv olmaq çox çətindir. Hər şeydə yaxşını görmək istəyən Rafiq Əliyevlə bir məclisdə, tədbirdə olanda, aldığın müsbət enerji o qədər böyükdür ki, onu cəmiyyətə də daşıya bilirsən.

Azərbaycandan kənarda çap olunmuş kitab və indeksli jurnallarda, aldığı adlarda müəllif adının yanında Azərbaycanın adını görəndə, Azərbaycan insanının uğurunu eşidəndə, qürur hissi keçirir. Onun ən ümdə istəyi elmi uğurlarının zirvəsini və doğma Qarabağda – elində, yurdunda qalan sevincini təzədən yaşamaqdır.

Böyük Alimi, Böyük İnsanı, Azərbaycan sevdalı Vətəndaşı hamının sevimlisi edən də elə budur.

Rafiq Əliyev nurundan hamıya pay düşən ZİYALIdır. Nümunədir.

* * *

Uğur insana sevinc bəxş edir. Dayanmamaq, daima irəliyə doğru can atmaq insanı Rafiq müəlimin ifadəsi ilə desək: arzuya yox, hədəfə çatdırır.

“Dünya elminə girdinsə oradan çıxmaq yoxdur”, – deyən, Azərbaycanda yaşayıb “Amerikaya, Avropaya işə gedən”, yorulmaq bilməyən; hər kitabı yeniliklərə, yeni nəzəriyyələrə söykənən; yolu, hədəfi bəlli olan Elm Fədaisinə “hədəfinizə çatasınız!” – demək qalır bizlərə.

Hədəfinizə doğru Böyük Alim, Böyük İnsan! Çatacağınız o hədəf hamımıza – millətimizə, bəşəriyyətə uğur gətirəcək.

“Su kimi güclü və sakit” kitabı Rafiq Əliyevin ömür yoludur. Ömür yoluna sözlə səyahətdir. Çətinlikləri gizli saxlanılan, uğurlarının parıltısı bərq vuran, həyatı elmsiz təsəvvür olunmayan insanın zirvəyə uzanan elm yoludur.

Böyük insanlar haqqında kitab yazmaq, hazırlamaq çox çətindir. O ki, qaldı Rafiq Əliyev haqqında ola...

Söz deyiləndi.
Yazı oxunandı.
Kitab isə bizdən sonra da qalandı...

**Rəfail Tağızadə**

# *Rafiq Əliyevin publisistik yazıları*

*Əgər mən başqalarından daha uzaqları görə bilmişəmsə, onda bu, yalnız nəhənglərin çiyinlərində durduğuma görə mümkün olmuşdur.*

**İsaak Nyuton**

*Elm ideyalar dramıdır.*

**Albert Eynşteyn**

*Hər bir xalqın dünya elmindən aldığı dəyər, onun dünya elminə bəxş etdiyi dəyər qədərdir.*

**Xudu Məmmədov**

*Rafiq Əliyev dünyanın ən görkəmli alimlərindən biridir.*

**Lütfi Zadə**

*Rafiq Əliyevin nəzəriyyəsi elmdə yeni cığır açdı.*

**Lütfi Zadə**

*Rafiq Əliyev XX əsrdə Azərbaycanın dünya elminə bəxş etdiyi ən böyük, ən unikal bir alimdir.*

**Lütfi Zadə**

*Ancaq elm bəşəriyyəti həqiqətə, ədalətə və xoşbəxtliyə apara bilər.*

**Emil Zolya**

*Rafiq Əliyev Amerikadan 7 min mil uzaqlıqda yerləşən Azərbaycanda yaşasa da o, Amerikadan çox əzəmətli görünür.*

**Ronald Yager**

*Bu bir həqiqətdir ki, bəşəriyyətin bütün sivilizasiyası dövründə onu dolanbaclardan, kataklizmlərdən çıxaran elm olub.*

**Rafiq Əliyev**

## L.ZADƏ BÜTÜN ZAMANLARIN DAHİSİDİR

Dünyanın dahilərin çiynində dayandığı qənaətini özüm üçün bir aksiom saymışam.

Dünyanı çiynində saxlayan belə dahilərdən biri də Lütfi Zadədir, "L.Zadə bütün zamanların dahisidir". Bu yazımda da bu düsturun tam dürüstlüyünü qəbul edərək onun isbatı üçün bir neçə kəlmə demək istəyirəm.

Gəlin indi, sözün bir qədər ucuzlaşdığı dövrdə dahi kimdir? – sualına imkanımız daxilində cavab axtaraq.

«Fərdilik» nöqteyi-nəzərinə uyğun olaraq, dahi o kəsdir ki, say-seçməlik əlamətini özündə təcəssüm etdirir, öz zəmanəsini qabaqlayır və onun nailiyyətləri ya layiqincə qiymətləndirilir, ya da tanınmamış qalır. Bütün hallarda dahi olan şəxs cəmiyyətin fövqündə durur. Zənnimizcə, dahinin fərdiliyi və ümumi fəaliyyəti daha dürüst üç koordinatla – predmet-məntiq, sosial-tarixi və şəxsi-psixoloji koordinatlarla səciyyələnir.

Yaradıcı dahilər toplanmış bilikləri və mövcud nəzəriyyələri sintezləşdirməyə və "qeyri-müəyyənliyə sıçrayış" etməyə qadirdirlər ki, bunlar da elmdə inqilabi dəyişikliyə səbəb olur. Heç şübhəsiz, obyektiv elmi, ümummədəni, sosial-tarixi amillər inqilabi kəşflərin mümkünlüyünü müəyyənləşdirir, elmi yaradıcılığın psixoloji prosesinin əsasını təşkil edir. Lakin elm tarixi prosesinə Laplas determinizminə tabe olan proses kimi baxmaq olmaz. İdeya ilə onu doğuran şərait arasında həmişə mütəfəkkir şəxsiyyət durur. Elə bir şəxsiyyət ki, onun subyektiv olaraq məruz qaldığı problemi, məqsədqoyma bacarığı, fərdi tanınma seçimi, təkrarolunmaz təfəkkür tərzi və mənəvi aləmı var. Əgər L.Zadə bu dünyaya gəlməsəydi, yəqin ki, qeyri-səlis çoxluqlar nəzəriyyəsi 1965-ci ildə yox, 2065-ci ildə yaranardı. Aristotelin binar məntiqi, Lukaseviç və digər alimlərin çox qiymətli məntiqləri nə vaxt təklif edilmis olsa da belə, qeyri-səlis çoxluqlar və qeyri-səlis məntiq nəzəriyyələrinin yaradılmasının öhdəsindən təkcə L.Zadə gələrdi.

L.Zadənin yaradıcılıq gücü yalnız onun fitri istedadında deyil, eyni zamanda prosesləri güclü və dərin şəkildə əsaslandırma bacarığındadır. Bu əsaslandırma daxili xarakter daşıyır, o, L.Zadənin özünə inamı, düşüncə tərzinin sistemliliyi ilə müşayiət olunur.

Elm tarixində dahi alimlər adətən daha konkret şəkildə aşağıdakı meyarlarla səciyyələndirilirlər: məhsuldarlığa, yəni çap olunmuş əsərlərinin həcminə, elmi ideyalarının uzunömürlülüyünə, nəzəriyyələrinin məzmununun orijinallılığına və inqilabiliyinə görə.

Dahilərin nəzəriyyələri müasirlərinə güclü təsir göstərir, köhnə çərçivələri sökür, yeni axın yaradır, onların istinad göstəricisi çox böyük olur. Bu baxımdan L.Zadəni səciyyələndirsəm, qeyd etməliyəm kı, onun qeyri-səlis məntiqi əhatə dairəsinə və yayılma sürətinə görə elmdən çox dini xatırladır. Mübaliğə-

siz, bu gün dünyanın bütün ölkələrində insanlar bu və ya digər formada, yəni universitet və ya orta məktəb vasitəsilə, yaxud da məişət məhsulları alarkən qeyri-səlis məntiqlə təmasda olurlar. Uzun müddətdən bəri elmi yaradıcılıqla məşğul olan və azdan-çoxdan dünya elmi ədəbiyyatına bələd olan bir şəxs kimi deməliyəm ki, L.Zadə qədər yüksək istinad göstəricisinə malik alim tanımıram.

Nəhayət, dahi alimlərin nəzəriyyələri özünə saysız-hesabsız tərəfdarlar və ardıcıllar cəlb edir. 1998-ci ildə Almaniyanın Visbaden şəhərində qeyri-səlis məntiqə aid keçirdiyimiz 3-cü beynəlxalq konfransda çıxışında L.Zadə bildirdi ki, o, ilin 250 gününü dünyanın müxtəlif ölkələrində qeyri-səlis məntiqə aid konfranslarda, simpoziumlarda, elmi laboratoriya və institutlarda olur. Onun nəzəriyyələri bu gün ABŞ, Almaniya, Fransa, İngiltərə, Yaponiya, Hindistan, Çin, Rusiya, Azərbaycan və bir sözlə, dünyanın bütün ölkələrində öyrənilir.

Bu dahi şəxsiyyəti xarakterizə edən əsas xüsusiyyətlər – onun böyük istedadı, qeyri-standart təfəkkürü, problemə unikal yanaşma qabiliyyəti, ənənəvi təsəvvür və çərçivələri şübhə və təxəyyül ilə aşması, tədqiqatda latent (gizli) məqamları aşkar etməyə imkan verən çılğın tədqiqatçı intuisiyasıdır. Məhz bu keyfiyyətləri və hədsiz işgüzarlığı ona nəinki humanitar və təbiət elmlərinə böyük təsir edən, hətta qərarların qəbul edilməsi və idarəetmə nəzəriyyəsi sahəsində fundamental təsəvvürləri kökündən dəyişdirən inqilabi nəzəriyyələr yaratmağa imkan verdi.

Bu nəzəriyyələr haqqında bir neçə söz demək yerinə düşərdi.

Əgər L.Zadənin elmi kredosunu onun təklif etdiyi terminlərlə formalaşdırımağa çalışsaq, onda onu aşağıdakı lakonik formada təsvir etmək olar: real dünyanın qeyri-müəyyənliklərini aşkara çıxarmaq və onları elmi, texniki və sosial mühitin çoxüzlü prizmasında əks etdirmək.

L.Zadənin ilk elmi işləri stoxastik qeyri-müəyyənlik şəraitində fəaliyyat göstərən idarəetmə sistemlərində optimal süzgəcləmə məsələlərinin həlli ilə bağlı idi. Elmi ədəbiyyatda bu tədqiqatların nəticələri çətin proqnozlaşdırılan sistemlərin qurulması üçün mütəxəssislərin əsas götürdüyü Zadə-Raqassini tənliyi kimi məşhurdur. Bu tədqiqatlar məşhur Viner məsələsini əsaslı surətdə genişləndirməyə imkan verdi.

Professor Lütfi Zadənin dünya idarəetmə elminə ən əsaslı töhfəsi diskret və rəqəmli idarəetmə, informasiya və kommunikasiya sistemlərinin qurulmasının əsas nəzəriyyəsi olan və Z-çevirməsi kimi tanınan nəzəriyyəsidir (Z müəllifin soyadının birinci hərfidir).

Geniş oxucu auditoriyasına aydın olsun deyə qeyd edək ki, müasir rəqəmli sistemlərin təhlili və tədqiqi üçün Zadənin Z-çevirməsinin əhəmiyyəti riyaziyyatda və texnikada Laplas çevirməsi ilə müqayisə oluna bilər.

Şübhəsiz ki, L.Zadənin ən böyük elmi xidmətlərindən biri də idarəetmə məsələsinə onun təklif etdiyi müasir elmi baxışda avtomatik sistemlərin analiz və sintezini, həmçinin dinamik sistemlərin idarəolunma və müşahidə olunma xassələrini aşkar etməyə imkan verən vəziyyətlər fəzası üsuludur. Məlum ol-

duğu kimi, klassik idarəetmə nəzəriyyəsi idarə olunan obyektlərin giriş və çıxış koordinatlarının müşahidə olunmasına əsaslanır. Ancaq real şəraitdə müşahidə aparmaq mümkün olmadıqda, L.Zadə idarəetmə sisteminin və obyektin koordinatlarını vəziyyətlər vektoru ilə qiymətləndirməyi təklif etmişdir. Belə yanaşma müasir sənaye obyektlərinin və kosmik aparatların idarəetmə məsələlərində çox səmərəlidir. Bu yanaşmada təbii olaraq belə bir sual meydana çıxdı – bütün obyektlər idarə olunan və müşahidə olunandırmı? Alim buna mənfi cavab verir və dinamik sistemlər üçün bu şərtlərin ödənilməsinin təyini üsulunu təklif edir. Onun şagirdi – məşhur amerikan alimi Kalman isə bu şərtləri riyazi şəkildə formalasdırmışdır. Bu gün dünyanın aparıcı universitetlərində idarəetmə elmi Zadə tərəfindən təklif edilmiş bu nəzəriyyə əsasında öyrənilir və dünyanın ciddi elmi-tədqiqat mərkəzləri, məsələn ABŞ-ın Milli Kosmik Agentliyi kimi elmi mərkəz kosmik aparatların idarəetmə sistemlərinin mürəkkəb layihələndirmə məsələlərinin həlli zamanı bu nəzəriyyədən istifadə edir.

Min illərlə qərarlaşmış elmi dünyagörüşün əksinə olaraq, o öz qeyri-səlis məntiq nəzəriyyəsini əvvəlcə bir fərziyyə olaraq irəli sürmüş, sonra isə sübut etmişdir ki, təbiət və cəmiyyətdə baş verən mürəkkəb prosesləri, xüsusən də müxtəlif kataklizmləri Aristotelin binar məntiqinə əsaslanan klassik riyaziyyat çərçivəsində öyrənmək mümkün deyil.

O özünün orijinal, ancaq əvvəlcə "ortodokslar" tərəfindən qəbul edilməyən ideyalarını inkişaf etdirərək göstərmişdir ki, bu və ya digər mülahizənin doğruluq qiyməti iki məntiqi səviyyə – 1 (doğru) və 0 (yanlış) ilə deyil, bu səviyyələr arasında sonsuz qiymətlər çoxluğu ilə təyin edilə bilər. Beləliklə, binar – ikili məntiq və çoxluqlar nəzəriyyəsinə əsaslanan riyaziyyat qeyri-səlis məntiq və qeyri-səlis çoxluqlar nəzəriyyəsi (Zadə nəzəriyyəsi) sayəsində genişlənərək, yeni məzmun kəsb etdi. Bununla da, riyaziyyatın klassik (mücərrəd) və qeyri-səlis (gerçək, çoxçalarlı, müasir) riyaziyyata diferensiasiyası baş verdi. Konseptual əsaslarda belə ciddi tədqiqatlar, təbii ki, elmdə, texnikada və hətta incəsənətdə də inqilabi dəyişikliklərə gətirib çıxardı.

Oeyri-səlis çoxluqlar nəzəriyyəsi praktiki olaraq bütün təbiət elmlərinə, tibbə, ictimai elmlərə, sosiologiyaya, konfliktologiyaya "implantasiya" olundu.

Bu gün dünyanın qabaqcıl universitetlərinin kitabxanaları qeyri-səlis fizika, qeyri-səlis kimya, qeyri-səlis iqtisadiyyat, qeyri-səlis idarəetma və s. üzrə dərsliklər və monoqrafiyalarla zənginləşir.

Çox da uzaq olmayan tarixi keçmişdən şahidik ki, kvant mexanikası və statistik fizika sahələrində qeyri-müəyyənlik amilini nəzərə alan ehtimal ölçüsünün daxil edilməsi elmdə keyfiyyət, mərhələ dəyisikliyinə gətirib çıxardı. Qeyri-müəyyənliyin ehtimal nəzəriyyəsinə bağlı bu ölçüsünün əsasında artıq sizə tanış olan Aristotel məntiqi – binar məntiq durur.

Praktiki elmi tədqiqatlarda qeyri-müəyyənliyin qeyri-səlis ölçüsünün daxil edilməsi təbiətdə, cəmiyyətdə, mikro və makro aləmdə baş verən proseslərə adekvat olan qeyri-müəyyənliyin nəzərə alınmasını mümkün etdi. Məhz buna görə də, qeyri-səlis məntiq və qeyri-səlis çoxluqlar nəzəriyyəsi nəinki dialektik

təsdiqini tapmış yeni elmi istiqamətin yaranmasına, həmçinin daha geniş mənada idrak nəzəriyyəsinin növbəti pilləsi olan yeni fəlsəfi dünyagörüşün əmələ gəlməsi və başa düşülməsinə səbəb oldu.

Yalnız yaradıcı fantaziya, ümumiyyətlə elmin, o cümlədən idarəetmə nəzəriyyəsinin problemlərinin çox dəqiq və dərindən başa düsülməsi inkişafa apara bilər. Zadə özünün ən böyük elmi fantaziyasından birini gerçəkləşdirir – "Soft Computing" nəzəriyyəsi adlanan yeni nəzəriyyənin əsas postulatlarını formalaşdırır və süni intellektin qlobal metodologiyasının təməli olan eyni adlı texnologiyanın qurulma prinsiplərini işləyib hazırlayır. Bu nəzəriyyə özündə qeyri-səlis məntiqi, süni neyron şəbəkələrini, genetik alqoritmləri, xaos nəzəriyyəsini, müxtəlif hesablama paradiqmalarının intellektual kombinasiyasını, o cümlədən ehtimallı məntiqi nəticə çıxarmanı əhatə edir. Bu nəzəriyyədən bank işində, texniki və iqtisadi sistemlərdə çox geniş istifadə olunur.

Bu yazıda hətta tezis, eskiz şəklində belə, bu gün insan intellektinin bir çox sahələrində ən geniş tətbiqini tapmış belə çoxsaylı ideyalar və nəzəriyyələr generatorunun və belə bir dahinin elmi yaradıcılığını işıqlandırmaq çox ağır məsələdir.

Ancaq biz L.Zadənin axırıncı işlərinə toxunmaya bilmərik. Hal-hazırda onu rəqəmlərə deyil, sözlərə istinad edən hesablama nəzəriyyəsinin işlənib hazırlanması düşündürür.

Belə hesablama texnologiyasında informasiya qranulyasiyası kimi, rəqəm və kodlarla deyil, söz və cümlələrlə ifadə olunur. Belə kompüterlərin ən adekvat modeli informasiyanı təəssüratlar əsasında emal edən və təxmini məntiqi çıxarış qabiliyyətinə malik olan insan beynidir.

Sonda mən L.Zadənin həmkarı və onun çoxsaylı əsərləri ilə kifayət qədər yaxşı tanış olan, həmçinin onunla yaxın əməkdaşlıq edən bir şəxs kimi, elm dünyasının əfsanəvi klassiki ilə ünsiyyətdən aldığım təəssüratların bəzi cizgilərini sizinlə bölüşmək istəyirəm.

O, bəstəboylu, zəif bədənli, ancaq eyni zamanda çox səliqəli və ciddi idi. Elə ilk baxışda onun xeyirxahlığı, həmsöhbətinə qarşı yüksək diqqət və hörməti, qəribə təvazökarlığı, öz şəxsiyyətinin böyüklüyünə heç bir eyhamın hiss olunmaması adamı heyrətləndirir. Ünsiyyətin birinci dəqiqələrində siz onun yüksək ziyalılığının və cazibəsinin əsiri olursunuz. Onunla baxışlarınız qarşılaşanda başa düsürsünüz ki, onun gözlərində dərin zəka güzgüdəki kimi əks olunur. Siz qeyri-iradi alimin güclü intellektual cazibəsinin təsiri altına düsürsünüz.

Qərbin məşhur elmi ədəbiyyatlarında böyük alimləri şərti olaraq iki kateqoriyaya bölürlər: romantik alimlər və klassik alimlər. Birincilər ideyalar generatoru olmaqla, həyatı boyu bir sıra orijinal nəzəriyyələr təklif edirlər. Belə ki, onların hər biri 3-5 məqalə və ya kitab nəşr etdirirlər. Başqa sözlə, elm binasının əsasını qoyurlar. Sonra bütün dünyanın minlərlə alimi bu binanı tikib qurtarır. İkincilər isə bu binaların memarlarıdır və bu elm binasını çox möhkəm və əsaslı tikirlər. Heç bir tərəddüdsüz deyə bilərik ki, beş fundamental nəzəriyyəyə imza atmış L.Zadə romantik alimdir.

Bütün dövrlərdə nəsillər öz fikir titanlarını minnətdarlıqla xatırlayıb və xatırlayır. Məsələn, Almaniyada Maks Plank İnstitutu məşhur alman fizikinin adını əbədiləşdirir. ABŞ-da Xopkin İnstitutu var. Belə misallar çoxdur. Ancaq biz elə bir ikinci alim tanımırıq ki, sağlığında həm özünün, həm də işləyib hazırladığı nəzriyyənin adını daşıyan elmi mərkəz yaradılmış olsun. Təsəvvür edin, Berkeley şəhərində (Kaliforniya ştatı, ABŞ) informasiya texnologiyası üzrə institut yaradılıb – "Institute Zadeh – ZİFT". Həqiqətən, bu, bəşəriyyət qarşısında dahinin xidmətinə layiqli qiymətdir.

L.Zadə ilə ünsiyyətdə olanda mən belə bir böyük alimi yetişdirən torpaqdan olduğum üçün iftixar hissi keçirirəm. İstər-istəməz ümumi tarixi və genetik köklər vasitəsilə onun fenomeni ilə şəriklik qüruru yaşayıram. Deməlk lazımdır ki, Azərbaycandan uzun müddət ayrı qalmasına baxmayaraq, o öz vətəninə incə məhəbbəti qoruyub saxlamış, son illərdə alimin Azərbaycanla elmi əlaqələri nəzərə çarpacaq dərəcədə genişlənmiş və möhkəmlənmişdi.

Təbii ki, həm L.Zadənin biblioqrafiyasında, həm də onun dünya elminə verdiyi unikal töhfədə dahilik birinci yerdə durur. Bunlarla yanaşı, L.Zadəni 1965-ci ildən yaxından tanıyan bir şəxs kimi onun başqa xüsusiyyətlərini də qeyd etmək istərdim.

***Müstəqillik.*** Bunu mən onun qeyri-standartlığında, qeyri-şablon təfəkküründə, başqasının nüfuzu qarşısında çəkinmək hissinin olmamasında, zehinlərdə təşəkkül tapmış köhnə təsəvvürlərə uymamaq bacarığında görürəm.

***Çeviklik.*** O, mövcud qaydalara və şablonlara əməl etməkdə sərbəstdir, eyni zamanda keçmiş təcrübəni qəbul edərək lazımi nəticə çıxara bilir.

***Yüksək tolerantlıq.*** Bu onun ən yaxşı xüsusiyyətlərindən biridir. L.Zadədə mürəkkəb, qeyri-müəyyən və çətin həll olunan məsələlərə və hallara tolerantlıq qabiliyyəti çox yüksəkdir. Nəzərə çarpan xaosda gizli qanunauyğunluqlar görmək bacarığı onda çox güclüdür. Bunlarla yanaşı, L.Zadədə orijinallığa və yeniliyə, həmkarları tərəfindən bir peşəkar kimi tanınmağa tələbat güclüdür. Yüksək inkişaf etmiş estetik duyum, gözəlliyə və ahəngdarlığa həssaslıq ona məxsus hisslərdir.

## ALLAH XUDU MƏMMƏDOVA QOŞA QANAD VERMİŞDİ

Xudu müəllim Xudanın göndərdiyi bir fenomen idi. Həyatda belə bir bölgü var və bu təkcə Azərbaycana aid deyil, yer üzündəki bütün millətlərdə iki faiz insanlar var ki, onlar təkcə öz dövlətlərini deyil, bəşəriyyəti öz arxalarınca apara bilmək iqtidarında olurlar. Bu insanlar dahi hesab olunurlar. Yerdə qalan insanlarsa həmin iki faiz dahilərin ideyalarını həyata keçirən, onların dahiliyini dünyaya göstərən, sübut edən insanlardı. Yəni onların da iştirakları çox vacibdir. Xudu müəllim həmin iki faiz dahi insanlar kateqoriyasındadır.

Xudu Məmmədov Allahın bu millətə, bu məmləkətə pay göndərdiyi bir şəxsiyyət idi. Xudu müəllim çox böyük alim idi. Hətta sovetlərin qapalı vaxtında o, dünya miqyasına çıxa bilmişdi, İngiltərədə, dünyanın ayrı-ayrı elm mərkəzlərində çox böyük işlər aparmışdı. Xudu müəllimin məşhur "Qoşa qanad" kitabı da onun necə nəhəng bir filosof olduğunu ortaya qoydu. O, eyni zamanda incəsənətə bağlı bir insan, gözəl rəssam idi. 40-cı illərin axırlarında Ağdam teatrında Xudu müəllim dram tamaşalarda deklarasiyaları, rəsmləri ustalıqla hazırlayırdı. Hərtərəfli insan idi. Onun çox gözəl şeirləri və bayatıları, sənət haqqında fəlsəfi əsərləri var. Yəni, Allah Xudu müəllimə pərvaz etməsi üçün qoşa qanad vermişdi. O, həm elmi, həm də fəlsəfi dərinliyi, incəsənət biliciliyi ilə dünyaya çıxa bilirdi. Onun məşhur bayatısı var ki, çox adam yanlış olaraq elə bilir bu, qədimdən qalan bayatıdır, amma bu Xudu müəllimindir:

*Bu qala bizim qala,*
*Bizimdir, bizim qala.*
*Tikmədim özüm qalam,*
*Tikdim ki, izim qala.*

Məncə, Xudu yanılmayıb və onun izi dünya durduqca yaşayacaq. Mən Azərbaycan universitetlərində müxtəlif auditoriyalara girirəm, bəzən ümumi söhbətlər aparanda tələbələrdən Xudu Məmmədovu tanıyıb-tanımadıqlarını soruşuram. Bütün auditoriya qayıdır ki, məgər onu tanımayan var? Bax, ölümsüzlük budur. Adam var ki, sağlığında belə, onun öldü-qaldısı bilinmir. Amma o iki faiz insanlarsa öləndən sonra da diri olurlar. Onun bu günlə səsləşən bir bayatısı da var:

*Əlim köməyim olsun*
*Elim köməyim olsun*
*Kimsəyə möhtac olsam*
*Ölüm köməyim olsun*

Görün bu sözlərdə nə qədər dərin fəlsəfi fikir var.

2014

## ÇOXÖLÇÜLÜ BƏXTİYAR ZİRVƏSİ...

***Gücün yox, haqqın yanında olan Haqq Adamı...***

Hər bir millət özünü dünyaya tanıtmağa borcludur. Milləti "ura" – patriotları yox, seçilmişlər tanıdır. Onlar həm milli dəyərləri, həm də ümumibəşəri dəyərləri yaşadır. Millətimizin belə seçilmişlərindən biri böyük mütəfəkkir Bəxtiyar Vahabzadədir.

Hər bir insan dünyaya gələn andan qismətinə düşən bir ömür payı yaşayır. Yaşanan ömür payının yaddaşlarda necə iz qoyması isə insanın özündən asılıdır. Elə adamlar var ki, onun həyatda qoyduğu iz, açdığı cığır, keçdiyi şərəfli ömür yolu gələcək nəsillər üçün bir örnək olur. Adətən belə adamlar ümumi məqsəd üçün çalışan, özləri isə getdikcə daha alicənab olan adamlardır. Öz alicənablığı və təvazökarlığı ilə seçilən, şəxsi həyatını ictimai həyata qatmağı bacaran insan kimi Bəxtiyar Vahabzadə də məhz bu cür hörmətə layiq olan insan idi.

Bənzərsiz insan, gözəl şair, filologiya elmləri doktoru, professor, akademik Bəxtiyar Vahabzadə demək olar ki, mənalı ömrünün təxminən 65 ilini xalqına və elmin, sənətin inkişafına sərf etmişdir. Onun səsi auditoriyalardan, ciddi diskussiyalar aparılan elmi-nəzəri konfranslardan, ziyalılarla, adi insanlarla, əsgərlərlə görüşlərdən, dövrün nəbzi döyünən, xalqın taleyi həll olunan tribunalardan gəlirdi. Bəxtiyar müəllimin keçdiyi mənalı həyat yolu, onu əsl ziyalı, poeziya və elm fədaisi, zəhmətkeş alim, yüksək siyasi və ictimai təfəkkür sahibi, səmimi insan, gözəl şəxsiyyət kimi xarakterizə edir.

* * *

Bu bənzərsiz ömür yolu Bəxtiyar Vahabzadənin çoxölçülü bir Bəxtiyar zirvəsinə qaldırdı. Bu zirvənin ölçüləri (meyarları) poeziya, sənət, elm, məktəb və müəllimlik, gözəl ailə, dostluq, cəsarət və ən nəhayət, insanlıq ölçüləridir. İnternetdə mənim Facebook sosial şəbəkə saytımda belə bir ifadəm var: «Allah insanı Pareto optimal yaradır: kimə, nəyi, nə qədər». Allah birinə dövlət verər (maddiyyat), ağıldan əsirgəyər; qamət verər, səhhət kəm olar. Ancaq Tanrı nadir hallarda onun sevgisinə tuş gələn insanlardan çox şeyi əsirgəmir. Bəxtiyar Vahabzadə Tanrının bu sevgisinə tuş gələn insandır.

Yaxşı yadımdadır, 1989-cu ilin dekabrında Azərbaycan Respublikası Milli Məclisinin iclasında Bəxtiyar müəllim millətin, xalqın dərdlərini əks etdirən kəskin bir çıxış etdi. Biz yanaşı oturmuşduq. Çıxışını qurtaranda özünü çox pis hiss etdi. Mən onu ikinci mərtəbədəki həkim məntəqəsinə apardım. Qan təzyiqi 240/130 idi. O, millətin taleyi həll olunan yerdə özü haqqında düşünməzdi, canını belə əsirgəməzdi.

Bəxtiyar müəllimin 84 illik məsafəsi olan ömür yolunun tən yarısına bələd olan bir dost kimi deyə bilərəm ki, bu yol hamar olmadı, qızıl güllər içərisindən keçən prospekt olmadı, daşlı-kəsəkli cığır oldu, amma Bəxtiyar zirvəsinə apardı. O, bu

yolda nələrlə, kimlərlə üzləşmədi? O zirvəyə onu heç kim qaldırmadı. Özü qalxdı. O, əsl ziyalı ömrü yaşadı. O, heç vaxt gücün yanında olmadı, haqqın yanında oldu.

Bu dünya Tanrının yaratdığı möcüzəsidir. Bu dünyadakı seçilmişlər isə bəşəriyyətin az bir qismi olaraq cəmiyyətin yolunu işıqlandırır. Millətlər onları tütyə sayır, dünya onlarla fəxr edir, Tanrının onlara böyük sayğısı olur. Bəxtiyar Vahabzadə bu meyarlarla səciyyələnən ən ünlü dünya vətəndaşıdır.

Bəxtiyar Vahabzadə üçün millətin problemləri onun şəxsi problemləri idi. Belə olan halda, mərhum professor Xudu Məmmədov demişkən, fərd millətlə eyniləşir və o vaxtdan o, dünya vətəndaşı olur.

Portretini cızmaq istədiyim Bəxtiyar Vahabzadə zirvəsinin ən yüksək sıldırımı bu zirvənin poeziya ölçüsüdür. Lakin Bəxtiyar Vahabzadə öz poetik fəaliyyətini, fəlsəfi düşüncələrini heç vaxt xalqın taleyindən, ideallarından ayırmamışdır. Bu haqda o özü belə deyir: «Mən poeziyanın gücünü xalqın ideal və mübarizələrinə xidməti ilə ölçərdim. Tarixən də belə olub. Qılıncımız korlaşanda sözümüz itiləşib. Sərhədlərimiz balacalaşanda düşüncələrimizin, idrakımızın, arzularımızın üfüqləri genişlənib. Özümüz səngəri tərk edəndə sözümüz səngərdən çıxmayıb. Bəlkə klassiklərimizin yaradıcılığındakı böyük umumiləşdirmələr, ensiklopedik genişlik buradan gəlir. Onlar xalqın, vətənin taleyini dünya miqyasında, insanlığın taleyi ilə birgə götürürlər. Biz klassik şeirimizin səviyyəsinə yalnız xalqın mənəvi aləmi ilə daha sıx bağlı olan yüksək ideallar barədə gözəl sənət dilində söhbət açan əsərlər yaratmaq yolu ilə yaxınlaşa bilərik. Buna görə də mənim sənət idealım böyük məqsədlərə bağlı olan narahatlıq və yanğıdır. Xırda, intim duyğulardan yaranmış şeirin mənzili uzaq olmaz».

* * *

Bəxtiyar Vahabzadəni bir şair kimi səciyyələndirən əsas cəhət onun yaradıcılığının geniş spektrli olmasıdır. Onun poeziyasında səmimi, kövrək, lirik hisslərlə ictimai-siyasi kəskinlik bir vəhdətdədir. Deyərdim ki, onun poeziyası döyüşlər poeziyasıdır. Millətin idealları uğrundakı döyüş, həm də özü-özü ilə öz içərisindəki döyüşdür. Bəxtiyar Vahabzadə bir şair kimi, bir ədib kimi həmişə ikinci səsi ilə interaktiv münasibətdə olub. Özü demişkən: "İndi mən öz içimdəki döyüşü verməliyəm. Mənim mübarizəm özümlə öz aramda gedəcək. Söhbətim daxilimdəki ikinci səslə olacaq".

Bəxtiyar Vahabzadənin yaradıcılığında milli poetik fikir dominantlıq təşkil edir. Şəxsi və ictimai dünyagörüşünü tarazlaya bilən, yüksək kamilliyə, fitri istedada, fəlsəfi və mənəvi müdrükliyə malik olan, millətinin, xalqının önündə məsuliyyətini, güclülərin qabagında ləyaqətini gözləyən cəsarətli bir sənətkar tariximizi vərəqləyərək, ona düzgün qiymət verərək "Gülüstan"ı yaza bilərdi:

*Cənablar, bir damcı mürəkkəblə siz*
*Düşünün, nələrə qol çəkmisiniz?*
*Bir damcı mürəkkəb bir vətəndaşı*
*Qanına bulayıb ikiyə böldü.*

*Bir damcı mürəkkəb olub göz yaşı*
*İllərlə gözlərdən axdı, töküldü.*
*Min ləkə vurdular şərəfimizə*
*Verdik, sahibimiz yenə "ver" dedi.*
*Lap yaxşı eləyib doğrudan, bizə*
*Biri "baran" dedi, biri "xər" dedi.*
*Bizi həm yedilər, həm də mindilər,*
*Amma arxamızca gileyləndilər.*
*Hökmü gör nə qədər böyükmüş anın.*
*Möhür də basdılar varağa təkrar.*
*Yox, varağın deyil, Azərbaycanın*
*Köksünə dağ boyda dağ basdı onlar.*

Bu sözləri Bəxtiyar zirvəsinin cəsarət olçüsünə malik olan Bəxtiyar deyə bilərdi. Ümumiyyətlə, Bəxtiyar təbiətinə qorxu hissi həmişə yad olmuşdur. Onun poeziyasında fəal həyat mövqeyi, əsl vətəndaşlıq məqamı həmişə öndə olub. O, biganəliyi, ədalətsizliyə dözümü, cinayət və zamanın eybəcərliyini görməməzliyə vurmağı ən böyük rəzalət sayırdı. O, "Qorxu" şeirində yazırdı:

*Mən qorxuram, sən qorxursan,*
*O da qorxur, bu da qorxur,*
*Biz qorxuruq.*
*Təzə fikir beynimizə gələn kimi*
*tez qorxuruq.*
*Başqasından qorxduğumuz bəs deyilmiş,*
*özümüzdən biz qorxuruq!*
*Qorxu, qorxu!*
*Bir qurd olub yeyir bizi içimizdən,*
*Nə gözləyir Vətən bizdən?*
*İradə yox,*
*kişilik yox.*
*Biz qorxuruq,*
*biz susuruq.*
*Fikir ölür,*
*can sustalır,*
*ürək donub,*
*ruh boğulur.*

Bəxtiyar Vahabzadə yaradıcılığının önəmli meyarlarından biri, bəlkə də başlıcası "azadlıq" ideyası olmuşdur: vətənin azadlığı, millətin azadlığı, fərdin azadlığı. Bəxtiyar Vahabzadə yaxşı bilirdi ki, millətin bir fərdi belə azad olmasa, o millət azad deyil.

*Azadlıq əldən getdimi,*
*Dünya da xəyala darısqal gələr.*
*İnsan azadlığı itirən kimi,*
*Bütün fəlakətlər dalbadal gələr.*

*Gedər ağızlardan dad da, ləzzət də,*
*Ağıl da, ürək də gülər arzuya.*
*Azadlıq olmayan bir məmləkətdə*
*Həqiqət riyadır, ədalət boya!*

*İnsan ürəyində kin də, nifrət də*
*Əbədi köz bağlar, bir anlıq olmaz.*
*Azadlıq olmayan bir məmləkətdə*
*Adamlar yaşayar, insanlıq olmaz.*

*Düşünən beyinlər sönər zülmətdə –*
*Yalanla həqiqət üzbəüz olar.*
*Azadlıq olmayan bir məmləkətdə*
*Düz əyri adlanar, əyri düz olar.*

*İdrak da boğular, söz də, sənət də,*
*Ağıl kilidlənər dildə, dodaqda.*
*Azadlıq olmayan bir məmləkətdə*
*Nadan başda gəzər, aqil ayaqda.*

**("Azadlıq")**

Bəxtiyar Vahabzadə yaradıcılığında böyük bir prospekt var. Bəxtiyar zirvəsinə aparan əqidə prospekti. Bu prospekt hamar olmadı, gül-çiçək səpələnmiş olmadı, amma o düz zirvəyə apardı:

*Mənə biganədir soyuqqanlılıq,*
*Hər şeyə öz ölçüm, öz tərəzim var.*
*Sənin qərəzinin mənə dəxli yox,*
*Mənim öz görüşüm, öz qərəzim var.*
*De, necə od tutub alışmayım mən –*
*Fikirsiz, məsləksiz ölü canlara?*
*Bəli, əsəbiyəm,*
*heç çəkinmədən*
*Mənim əqidəmə toxunanlara.*

**("Bəli, əsəbiyəm")**

və ya

*Min-min illər bu dünya beləcə fırlansa da,*
*Bir yuvanın bülbülü min budağa qonsa da,*
*Aylar, illər, fəsillər bir-birini dansa da,*
*Dəyişməzdir əqidəm, çox da dünya fırlanlır.*

**("Axı dünya fırlanır")**

Biz yer adlı bir gəminin içindəyik. Bəxtiyar Vahabzadə də kitablarının birinin adını "Biz gəmidə yol gedirik" qoymusdu. Mən həmin gəmidən danışmaq istəyirəm. Gəminin içində bir huzursuzluq, nizamsızlıq var. Təbiətin ilahi düzəninə uyarlılıq itmişdir. Adəmdən bu yana cinayət, fitnə, şər, yalan üzərində olan qarşıdurmalarda İblisin dəst-xətti görünməkdədir. Dünyanın mənəvi entropiyası yüksəlməkdədir, heç vaxt bəşəriyyət Apokalipsisə bu qədər yaxın olmamışdır. Bir dünya vətəndaşı kimi, bir böyük mütəfəkkir kimi Bəxtiyar Vahabzadəni həmişə belə qlobal problemlər, ümumbəşər problemlər düşündürürdü.

*Böyük bir millətin taleyi bəzən*
*Tum kimi çırtdanıb tüpürülərkən,*
*Məəttəl qalırsan şərin hökmünə.*
*Baxırsan arxaya, baxırsan önə.*

*Nələr törəyərmiş qərəzdən, kindən,*
*Deyirsən, insanın hafizəsindən*
*Həqiqət silinib unudularmış.*
*Xeyir də bu qədər məhkum olarmış?*

**("Xeyir-şər")**

"Bu dünya belədir" şeirində isə belə deyir:

*Dünyanın əvvəli, sonu müəmma,*
*Cövhəri müamma, donu müamma,*
*Dünyanı anlayan qəmini çəkdi.*
*Anlaya bilməyin dəmini çəkdi.*

Bəşəriyyətin yaşaması üçün, Bəxtiyar gəmisinin dayanıqlığı üçün insanlara tövbə və anlaşmadan başqa bir alternativ qalmayıb. Ona görə də Bəxtiyar Vahabzadə insanlara müraciət edir:

*İnsana od bağışladı*
*Prometey!*
*Ehey!*
*Ehey!*
*Dayan, insan!*
*– Prometeydən pay aldığın o od ilə, axı bir gün*
*Cordanonu yandıran da sən özündün.*
*Qorxum budur, o od ilə*
*özünü də yandırasan*
*Aman, insan, dayan, insan!*

**("Dayan, insan!")**

Bəxtiyar Vahabzadə zirvəsində elm ilə poeziya sıldırımları həmişə yan-yana durmuşdur. Bəxtiyar müəllim yazırdı: "Elm və incəsənət ümumbəşər müdrikliyinin ayrılmaz hissəsi olmalı, biri digərini tamamlamalıdır".

O, elmi nailiyyətləri həmişə yüksək qiymətləndirirdi və həmişə düşünürdü ki, bu nailiyyətlər Adəm övladını xoşbəxt edə bilər və həmişə təəssüflənirdi ki, bunlar daha çox hərbə və təbiətin məhvinə yönəlib. O, görürdü ki, elmin yüksək sürətli inkşafı ilə ümumibəşəri əxlaqın tısbağa sürəti ilə irəliləməsi arasında böyük bir ziddiyyət var. "Elm-əxlaq" şeirində yazır:

*Təbiət həmişə təzədir, təzə,*
*Biz üz çevirməyək bu təzəlikdən.*
*Elm əxlaq ilə durub üz-üzə,*
*İndi biz hansına haqq verək, görən?*

Bəxtiyar Vahabzadəni bir şair kimi fərqləndirən başlıca cəhət onun fəlsəfi və mənəvi müdrikliyidir. Bəxtiyar Vahabzadənin poetik təfəkkür mədəniyyəti, intihasız fəlsəfi düşüncə dərinliyi onun bütün şeirlərinin, poemalarının, pyeslərinin və publisistik yazılarının mayasına hopmuşdur. Bu fəlsəfi təfəkkür tərzi, onun məntiqi postulatları və çıxarışları Aristotel məntiqinə sığmayan, dünyanı bütün çalarları ilə əks etdirən bir fəlsəfi təfəkkür tərzidir. Mən özümü çox xoşbəxt sayıram ki, mənim iki dahi dostum Bəxtiyar Vahabzadə və Lütfi Zadə eyni şərq qan yaddaşına söykənərək dünyanın kəsilməzlik fəlsəfəsinə, məntiqinə imza atmışlar. Biri poetik fəlsəfi təfəkkür tərzindən, o birisi elmin dərinliklərinə cəsarətlə təmas edərək analitik təhlil tərzindən bəhrələnərək.

Şəxsiyyətinə və təkrarolunmazlığına böyük sayğı bəslədiyim şairimiz Bəxtiyar Vahabzadə bir gün mənə, evə telefon açdı. Oqtay Babazadənin və Möhbəddin Səmədin "Yaxın və uzaq Zadə" filmi haqqında, L.Zadənin özü haqqında yüksək fikirlər söylədi. Həm də əlavə etdi ki, sənə bir şeir göndərirəm, gör qeyri-səlis məntiqlə bu şeirin qayəsi arasında bir uyarlıq varmı? Bəxtiyar müəllimin seçilmiş əsərlərində çap olunmuş bu şeirin adı belə idi: "Xeyirlə şər arasında".

*Vaxt gəmirir hər binanı,*
*Tavanla tir arasında.*
*Bir rəqəm də, demə, varmış*
*İkiylə bir arasında.*

*Ucaldıqca biz ucaldıq,*
*özümüzdən qisas aldıq.*
*O gündən ki, körpü saldıq*
*– Göy ilə Yer arasında.*

*Qardaş olub siçan-pişik,*
*Biz gül əkib, vay dərmişik,*
*Sərhədləri itirmişik*
*Xeyirlə şər arasında.*

Zadənin elmi məntiqi ilə Bəxtiyarın poeziya fəlsəfəsinin ahəngdarlığına çox sevindim. Düşünmürəm ki, Bəxtiyar Vahabzadə kimi nəhəng bir şair qafiyə və ya uyarlıq xatirinə deyir ki, "Bir rəqəm də, demə, varmış, ikiylə bir arasında..."

Yox, bu, Bəxtiyar Vahabzadənin və Lütfi Zadənin söykəndikləri dünyanın kəsilməzlik fəlsəfəsinin poeziya dilində təcəssümüdür. Bəxtiyar Vahabzadə poeziya dilində dünya reallığını qeyri-səlis məntiqə həmahəng olaraq görün necə əks etdirir. O, hamımızın dərin hörmət bəslədiyimiz görkəmli ziyalımız Sadıq Murtuzayevə həsr etdiyi "Sevincin zirvəsi, dərdin zirvəsi" şeirində deyir:

*Qarışıb dünyanın yaxşı-yamanı,*
*Əzabı, ləzzəti, sevinci, qəmi.*
*Göründüyü kimi gördüm dünyanı,*
*Çox vaxt görəmmədim olduğu kimi.*

Böyük düha sahibi Bəxtiyar Vahabzadə bu min "sifəti", "rəngi" olan dünyanı dərk etməyin lazımlığı, vacibliyi haqqında təbil vurur. O, "Hara gedir" şeirində yazır:

*İnsan oğlu qazananda uduzar,*
*Qədərinə yazılanı kim pozar?*
*Bu dünyanın min sifəti, rəngi var,*
*Qismətimiz – ağından çox, qarası!*

Məgər dünyanın bu min sifətini, min rəngini klassik Aristotel məntiqi güzgüsündə görmək mümkündürmü? Yox (axı o məntiq dünyanı iki rəngdə görür: ağ, qara).

Mənə tez-tez belə bir sual verirlər. Xoşbəxtlik nədir? Mən bu suallarla həm efirdə, həm də qəzet səhifələrində tez-tez rastlaşıram. Bu fəlsəfənin əbədi əzəli sualıdır. Çox qəribədir ki, bu həm də bu gün dünyanın sürükləndiyi iqtisadi böhran vaxtı iqtisadi təfəkkürü maraqlandıran ən vacib sualdır. Böyük bir mütəfəkkir kimi bu sual həmişə Bəxtiyar Vahabzadəni də maraqlandırmışdır. Onun cavabı belədir: mütləq xoşbəştlik yoxdur. Xoşbəxtlik onun baxımından çox atributlu bir anlayışdır. Bir atribut üzrə tapıntım olanda, o birisi üzrə itkim olmalıdır. O, «Tapmaq-itirmək» şeirində yazır:

*Dolaşırıq dünyanı*
*Əldə dəmir bir əsa,*
*Ayaqda dəmir çarıq.*
*Biz tapdıqca itirir,*
*İtirdikcə tapırıq.*
*Həvəsimiz, meylimiz*
*Gah suyadır, gah oda.*
*Tapdığımız qədər də*
*İtiririk dünyada.*

Biz həmişə klassikləri tarixdə axtarırıq, tarixin özünü yaradan klassikləri yanımızda olarkən çox zaman sezmirik. Bəxtiyar müəllim "Bəsdir" şeirində yazır:

*Köhnə hava içində*
*ürək susur, boğulur.*
*Kölgədə yatanların*
*öz kölgəsi yox olur...*

Mübaliğəsiz deyə bilərəm ki, Bəxtiyar Vahabzadə həm cismani sağ ikən, həm də haqq dünyasına qovuşmasından elə də böyük olmayan bir tarix keçməsinə baxmayaraq, poeziya klassikləri içərisində o, qürurla, ləyaqətlə durur. İnsanlar var ki, diri ikən ölüdürlər, insanlar var ki, öləndə də diridirlər. Bu ölməzliyə qovuşmuş insanlardan biri Bəxtiyar Vahabzadə zirvəsinə ucalmış Bəxtiyardır.

Əziz dostumuz, ustadımız Bəxtiyar müəllim! Siz böyük Üzeyir bəyə həsr etdiyiniz ürəkləri fəth etmiş "Muğam" poemanızda deyirsiniz:

*Daş ürəklərdə yanıb daşları sındırdı muğam.*
*Haqqa düşmən olanı haqqa tapındırdı muğam.*

*Nə güman eyləmisən ondakı tilsimləri sən,*
*"Kürü ahıyla qurutdu", "Salı yandırdı" muğam.*

*Dəfn edin siz məni "Zabul" segahın mayəsinə,*
*Deyirəm, bəlkə məni bir gün oyandırdı muğam.*

*Çox kitablar oxudum, zənn elədim bəxtiyaram,*
*Mənə çox mətləbi ahəstəcə qandırdı muğam.*

Siz daim bu dünyada, o dünyada oyaqsınız və Bəxtiyarsınız. Milyonlarla oxucuların, Bəxtiyarsevərlərin, Azərbaycan və dünya təəssübkeşlərinin qəlbində əbədi yaşayırsınız. Sizi oxuyanlar dünyanı oxuyurlar.

13.02.2010

## HƏMİŞƏ YADDAŞLARDA QALAN ŞAİR – FAMİL MEHDİ...

***Əziz dostum Famil Mehdinin 80 illiyinə...***

Bənzərsiz insan, gözəl şair, filologiya elmləri doktoru, professor Famil Mehdi demək olar ki, mənalı ömrünün təxminən 50 ilini xalqına və elmin, sənətin inkişafına sərf etmişdir.

Filosof-şair, alim-professor, pedaqoq-jurnalist və ən başlıcası böyük İnsan Famil Mehdi Ağdamın Sarıhacılı kəndində Ağalar kişinin ocağından başlayan və uca bir zirvəyə aparan böyük ömür yolu keçmişdir. Bu yol Familin öz yoludur.

Bu 68 illik məsafəsi olan yolun 50 ilinə bələd olan bir dost kimi deyə bilərəm ki, o, bu yolda, özü demişkən "sevinc də, qəm də..." yedi.

Famil müəllimlə ilk tanışlığım mən Ağdam 1 saylı orta məktəbdə oxuyarkən onun Ağdam mədəniyyət evində keçirilən poeziya gecəsində "Ana" şeirini oxuduğu dövrə təsadüf edir. Şeir həvəskarı idim, hərdənbir şeirlər də yazırdım. Familin iki bəndlik, lakin məna yükünə, süjetinə görə əzəmətli olan bu şeiri dinləyəndə gördüm ki, Famil Mehdinin poeziya yolu uzun və səmərəlidir, zirvəyə aparan yoldur. Famil Mehdi Qarabağ torpağını özü qalxdığı zirvəyə ucaltsa da, əsl mənada bütöv Azərbaycan şairidir. Azərbaycan onun poeziya dünyasının şah əsəridir. O, Qarabağı da, Şəki və Şirvanı da, Gəncəni, Naxçıvanı və Lənkəranı da, Qubanı da eyni məhəbbətlə sevən və tərənnüm edən şairdir.

*Min hava çalınıb könül tarımda,*
*Dünyanın nə çoxu, nə azıyam mən.*
*Fəsillər görüşür duyğularımda,*
*Elin həm qışıyam, həm yazıyam mən.*

*Anam Qarabağın, Milin, Muğanın,*
*Siz də mənim kimi eşqilə yanın.*
*Başına döndüyüm Azərbaycanın*
*Dəli Kürüyəm mən, Arazıyam mən.*

*Familəm, həmişə yanmaqdır peşəm,*
*Can deyən gözələ canan demişəm.*
*Bu yolda sevinc də, qəm də yemişəm.*
*Bir daha demərəm tamarzıyam mən.*

Mən deyərdim ki, bu şeir Azərbaycan haqqında yaradılmış ən böyük sənət incilərindən biridir.

Famil Mehdinin yaradıcılığında Qarabağ mövzusu dominantlıq təşkil edir.

*Mənə yer verərsən doğma yerində,*
*Uyuyub yataram, ana, ey ana.*
*Qarabağ, Qarabağ, sümüklərim də*
*Əriyib qarışar torpaqlarına.*

Son illər Famil Mehdinin şair nəfəsi daha da genişlənmiş, onu daha qlobal məsələlər, ictimai-siyasi ruhlu, milli və dünya məsələləri daha çox maraqlandırırdı. Bu dövrün şeirlərində nifrət də var, məhəbbət də, sarkazm da, acı qəhqəhə də, tolerantlıq da var, güzəştsizlik də.

Famil Mehdinin "Dilən, professor, utanma, dilən" şeiri dərc olunarkən, ictimaiyyət tərəfindən böyük maraqla qarşılansa da, bəzi məmurlar tərəfindən adekvat qarşılanmadı. Famil Mehdi elmə-təhsilə olan biganəlik barədə təbil çalırdı. Bəyəm bu gün universitetlərdə professor tələbəsindən rüşvət alırsa bu onun dilənməyi deyilmi? Onun bu şeiri, bu poetik fikri bu gün daha aktualdır.

*Dilən, professor, utanma, dilən,*
*Dillən, professor, utanma, dillən,*
*Qoy sənin yerinə zaman utansın,*
*Səni bu günlərə salan utansın.*
*Qırılan ağac yox, tufan utansın.*
*Vurulan turac yox, vuran utansın.*

Mən ədəbiyyatçı deyiləm, Famil Mehdi kimi geniş spektrli və fikir dünyasının dərin qatlarına nüfuz edən bir şairin, publisistin, professorun yaradıcılığını təhlil etmək kimi bir yükün altına girmək fikrindən uzağam. Onun poeziyası haqqında tutarlı fikirləri böyük ədiblərimiz söyləmişdir.

Xalq yazıçısı Mehdi Hüseyn yazırdı:

*"Əzizim Famil!*

*Bu yay günündə Buzovna qayaları üstündə oturub möhtərəm aktyorumuz Ələsgər Ələkbərovla balıq tutarkən radioqəbuledicini işə saldıq. Səhnələşdirilmiş poeziya əsəri verilirdi. Elə ilk dəqiqədən diqqətimizi cəlb etdi. Görəsən kimin əsəri idi? Hərəmiz bir neçə şairin adını çəkdik. Həm də güman etdiyimiz görkəmli şairlərin. Lakin diqqətlə qulaq asıb axırını gözləməli olduq. Axırda biləndə ki, poema görkəmli şairin deyil, sənin, cavan bir şairin qələmindən çıxmışdır, ikiqat sevindik. Hər ikimiz səni alqışladıq".*

Dəyərli şairimiz Məmməd Araz yazır:

*"Famil Mehdinin poetik məramında əbədi çağırışlardan biri insan taleyinə münasibət məsələsidir. İnsanın taleyi qorunmayan yerdə mənəvi azadlıqdan, əmin-amanlıqdan, ümumiyyətlə, heç bir sosial ədalətdən söz gedə bilməz. Bu mənada Famil dünyanın ürək döyüntüsünü duyan, ona cavab verən sənətkardır".*

1987-ci ilin axırlarında və 1988-ci ilin əvvəllərində Qarabağ məsələsi başlayan vaxt Azərbaycan KP MK-nın I katibi mərhum Kamran Bağırov MK-nın binasının 12-ci mərtəbəsində ziyalılarla məsləhətləşmə aparırdı. Mən akademik Eldar Salayevlə ( o vaxt AMEA-nın prezidenti) yanaşı oturmuşdum. Fikir mübadiləsi etdik. Mən öz peşəmlə əlaqədar konfliktalogiya elminə bir az bələd idim. Söylədim ki,

bu konflikt forma və məzmununa görə Fələstin-İsrail konfliktini xatırladır. Eldar müəllim razılaşdı. Bir neçə gündən sonra Famil müəllimlə görüşərkən bu təəssüratlarımı ona söylədim, özünü çox narahat hiss etdi. O mənə xitabən: yəni, sən demək istəyirsən ki, biz illər, 10 illər boyu Qarabağsız qala bilərik? Biz buna dözə bilmərik, bizim buna haqqımız yoxdur. Famil Mehdi haqlı imiş, o dözə bilmədi, həlli uzanan Qarabağın azadlıq yolu qısaltdı Famil ömrünü.

Famil Mehdi ilə böyük alimimiz Xudu Məmmədov arasında sıx dostluq var idi. Tez-tez bir yerdə Qarabağa döyüş yerlərinə gedərdilər. Famil müəllim mənə söyləyirdi ki, 1988-ci ilin payızında Xudu müəllimdən soruşdum: – nə vaxt Qarabağa gedirik? Mənə cavab verdi ki, "Ay Famil bu qədər getdik-gəldik, nə etdik ki, indi gedək camaata nə deyək?". Bundan cəmi bir gün sonra axşam saat 8-9 radələrində böyük şairimiz Bəxtiyar Vahabzadə (torpağı nurla dolsun) mənə evə zəng vurur və ona deyirlər ki, mən Famil Mehdigildəyəm. O, Familgilə zəng vurdu və telefonda ağlaya-ağlaya mənə dedi ki, Xudu şəhid oldu. Onda Famil bir söz dedi: Xudu bizə yol açdı. Doğrudan da araları bir o qədər çəkmədi.

Biz tez-tez Qarabağa gedərdik. Xocalı faciəsini Bakıda eşitdik, dərhal Famil Mehdi, şair Ramiz Məmmədzadə və mən Ağdama yollandıq. Famildən xahiş etdim ki, bizim şəhər evimizdə gecələyək, o israrla öz evinə getdi, Əsgəran yolunda yerləşən öz kəndlərinə, Sarıhacılıya.

Famil müəllim möhkəm olduğu qədər də kövrək idi. Səhəri gün Ağdam mədəniyyət evi, məscidi qarşısında əzizlərinin meyitlərini axtaran Xocalıdan olan anaların, bacıların, ataların nalələri Familin qəddini əymişdi. Bir neçə gündən sonra Bakıya qayıtmalı olduq. Lakin Famil Xocalı faciəsinin, bombalar altında olan ağdamlıların dərdini Bakıda çəkə bilməzdi. Bir həftədən sonra yenidən Ağdama qayıtdıq. Mərhum dostum, o vaxt Neft Akademiyasının rektoru işləyən akademik Tofiq Əliyev də bizimlə idi. Ağdama axşam saat 9 radələrində çatdıq. İsrarıma baxmayaraq yenə bizdə – şəhərdə yox, öz kənd evində gecələməyi qərara aldı (bu o qədər də təhlükəsiz deyildi). O mart gecəsini biz, həm Famil Mehdi, həm mənim dostum Tofiq Əliyev "kristaldan" daha təhlükəli olan "qrad" mərmilərinin yağışı altında keçirdik. Səhər saat 6-da tüstüsü, alovu ərşə qalxan Ağdam ticarət mərkəzi yanında görüşdük. Duya bilmədim – Familin alovu daha yüksəklərə qalxıb, yoxsa yanan Ağdamın.

İnsanlar var ki, dünyasını dəyişəndə də diridirlər. Bu ölməzliyə qovuşmuş insanlardan biri Famil Mehdi zirvəsinə ucalmış Famil Mehdidir. O, milyonlarla oxucunun, tələbələrinin, Qarabağsevərlərin, Azərbaycan təəssübkeşlərinin qəlbində həmişə yaşayır.

Dostum, qardaşım Famil, sənin bir şeirini xatırlayıram: "Nəvələrim məndən qabaq gördü Təbrizi". Amma düşünürəm ki, bu dəfə sən azad olmuş Qarabağı nəvələrindən tez görəcəksən, çünki, sənin ruhun əbədi Qarabağ səmalarında dolaşır. Bir gün nəvələrin azad olmuş Qarabağa qayıdanda sənin ruhun onları qarşılayacaq. Yaradıcılığına, insanlığına dərin sayğı bəslədiyim, ürəyində Qarabağ və başqa nisgil gəzdirən dostumuz şair Zakir Fəxri demişkən:

"Qalmaz belə, qalmaz dünya".

12.12.2014

## RAMİZ RÖVŞƏN, METAFİZİKA, İNVARİANTLIQ

*Əziz dostum və qardaşım Ramiz Rövşənin 70 illiyinə*

Söz vaxtına çəkər. 1963-cü ilin sərt dekabrında qatara minib Mockvaya yola düşdüm, SSRİ Elmlər Akademiyasının "İdarəetmə Problemləri" institutuna. Aspiranturaya imtahan vermək üçün. Qəbul olundum. Akademik B.Petrovun rəhbərlik etdiyi şöbəyə. Tədqiqat mövzusunu özum seçmişdim – "İdarəetmə sistemlərində invariantlıq". Bu vacib nəzəriyyə lap cücərti vəziyyətində idi. Lakin içərimdə uşaqlıqdan və yeniyetməlikdən formalaşmış davranış xüsusiyyətlərimə bu mövzu çox uyğun gəlirdi. İnvariantlıq nəzəriyyəsinin mahiyyəti budur ki, istər texniki, istər bioloji, istərsə də sosial-iqtisadi sistem elə formalaşmalıdır ki, istənilən həyacanlandırıcı təsirlərdən (basqılardan, zordan, təlatümlərdən) asılı olmasın, o təsirlərə invariant olsun. Məsələn, çəməndəki alaq otu külək əsəndə hər tərəfə əyilə bilir, qonşu palıd ağacı isə invariantdır, küləyin istiqamətindən və gücündən asılılığı yoxdur, çünki palıd qüdrəti var.

İnvariantlıq nəzəriyyəsinin ideyası dünyaca tanınmış professor G.Şipanova məxsusdur, o, bu ideyanı 1945-1946-cı illərdə təklif etmişdi. Əfsuslar ki, bir sıra Sovet alimləri 1949-cu ildə "Pravda" qəzetində idealoji təsir altında bu ideyanın əleyhinə bir məqalə çap etdirdilər (lap bizdə olan kimi). O məqalədə yazılırdı ki, "invariantlıq ideyası müəllifin elmə metofizik yanaşmasıdır, zərərli elmi uydurmadır". Vərəm xəstəliyindən əziyyət çəkən müəllif-professor tezliklə dünyasını dəyişdi. Lakin həqiqət idealogiyadan həmişə üstün olduğu üçün 1966-ci ildə Kiyevda keçirilən beynəlxalq konfransda "İnvariantlıq nəzəriyyəsi" elmi kəşf kimi elan olundu. Bütün konfrans iştirakçıları kimi mən də qürur hissi keçirdim, axı mənim də elmi işlərim bu nəzəriyyənin yaranmasına həsr olunmuşdu (sonralar mənim "İnvariantlıq nəzəriyyəsi"nə aid iki kitabım çap olundu).

Bu girişi ona görə verdim ki, həqiqi elm, həqiqi ədəbiyyat, həqiqi sənət hər zaman hər bir ideoloji təsirlərə invariantdır. Metofizik düşüncə daşıyıcısı olan böyük Hüseyn Caviddən sonra Azərbaycan ədəbiyyatında qırılmış metofizik poeziya bu gün 70 yaşını qeyd etdiyimiz dünyaca ünlü şairimiz Ramiz Rövşən tərəfindən güclü Sovet idealogiyasına invariant olaraq bərpa olmağa başladı. Düzdür Azərbaycan metafizik poeziyasının yenidən ərsəyə gəlməsində ünlü şairlərimiz Vaqif Səmədoğlu və Vaqif Bayatlının da xidmətləri danılmazdır.

Ramiz Rövşən tək poeziyada donmuş metofizik buzları qıran olmadı, o eyni zamanda poeziyamıza yeni bir poetik sistem, düzüm, kosmik düşüncə tərzi gətirdi. Ramiz Rövşən poeziyasının zənnimcə əsas xüsusiyyəti ilahi məntiq, dərin metofizik fəlsəfi fikir bolluğu, qəlbindəki duyğular və sevgi çələnginin vəhdətidir.

Deyirlər şairlər Allaha yaxın olurlar. Bir müddət əvvəl mən əsl ruhun zadəganı olan böyük şairimiz Ramiz Rövşənin poeziyasının qeyri-səlis məntiqə söykəndiyini "Qeyri-səlis məntiq haqqında poetik düşüncələrim" yazımda araşdırmışdım. İndi baxanda görürəm ki, Ramiz Rövşənin poetik məntiqi qeyri-sə-

lis məntiq və ilahi məntiq arasındadır. Onun bu məntiqi Allaha sevgidən doğan məntiqdir və bu sevginin qarşılıqlı payıdır. Hələ bu mövzular yasaq olan vaxtlarda da Allah və ölüm mövzusu Ramiz Rövşənin poeziyasında dominantlıq təşkil edirdi (zənnimcə yasaq ədəbi prosesin katalizatorudur).

Ramiz Rövşən görkəmli ziyalımız Aydın Məmmədovun xatirəsinə yazdığı "Tabut" şeirində deyir:

*Hələ çiyinlərdə gedir tabutun,*
*qəbrinin ağzı da açıqdı hələ.*
*Gözləyir o qəbrin dilsiz sükutu;*
*sənin sükut payın nə çoxdu hələ!..*

*Ən rahat, qorxusuz yoldasan indi,*
*dünyanın ən təmiz, ağ donundasan.*
*Bircə Allah bilir, hardasan indi;*
*ömrün əvvəlində, ya sonundasan.*

Qeyri-səlis məntiq? Hə, sənin sükut payın nə çoxdur hələ, ömrün əvvəli – ömrün sonu kəsilməzliyi. "Bircə Allah bilir, hardasan indi". Yox, bu fikir Tanrı məntiqinə söykənir. Tanrı məntiqinin dərkinə iddialı olmasam da bu şeir haqqında belə düşünürəm. Başqa bir şeirdə:

*Bir ölüm havası dəydi üzümə,*
*Nə gözəl, nə sərin havaymış, Allah.*
*Sən demə, ürəyim ölümdən ötrü*
*Darıxan bir bomboş yuvaymış, Allah.*

*Sən demə, çaşmışam yolu azmışam,*
*Dünyaya gəlməyim yalanmış mənim.*
*Sən demə, dünyada anasızmışam,*
*Sən demə, bu ölüm anammış mənim.*

Bu fikirlər tək qeyri-səlis məntiqə sığmır. Ondan yuxarıdadır.

Şəxsiyyətinə və əqidəsinə böyük hörmət etdiyim Ramiz Rövşən xalqını, millətini bütün varlığı ilə duyan bir insandır. "Təpədən dırnağa hirs içindəyəm" şeirində yazır:

*Sən də daşlamağa özgəsini tap.*
*Məni ömür boyu daşlayan adam,*
*Gilası mürəbbə, quzunu kabab,*
*Şairi heykəl tək xoşluyan adam.*

*Yox heykəl ummuram bu yer üzündə,*
*Mənim daş olmağa yoxdu həvəsim.*
*Daş olub lap ulu Füzulinin də*
*Yanında durmağa yoxdu həvəsim.*

*Mən sənin yanında dururam*
*Sənin... küçənin tinində dilənən qarı.*
*Başından var-dövlət yağan ölkənin,*
*Bəxtəvər günündə dilənən qarı.*

*Heç kəs sığal çəkməz dümağ saçına,*
*O gümüş telindən öpürəm sənin.*
*Qorxma pul qoymuram sənin ovcuna.*
*Əyilib əlindən öpürəm sənin...*

Bu qədər mənası olan fikirləri, ağrıları bir şeirə sığışdırmaq, milyon ürəyin dərdini bir ürəyə yerləşdirmək başqa planetlərə gedib-gəlməkdən asandırmı? Görünür Ramiz Rövşən qələminin qüdrətindən, kosmik təfəkkürünün böyüklüyündəndir bu. Ramiz Rövşən bütün varlığı ilə vətənə, torpağa bağlı bir şəxsiyyətdir. Onun vətən sevgisi, Allah sevgisi sonsuzdur.

*Qayçıtək Arazı da*
*Aralığa atdılar.*
*Bu kəfəni bir az da*
*Kəsdilər, qısaltdılar.*

*Kimin əli çıxdısa,*
*Kimin dili çıxdısa*
*bu kəfənin altından,*
*Əlini də kəsdilər,*
*Dilini də kəsdilər*
*bu vətənin adından.*

*...Bu kəfəni bir aç – bax;*
*hələ diriyik, Allah!*
*Bu kəfəndən ağappaq*
*bizə köynək tik, Allah!*

*Biz də bəndənik axı,*
*Bizə nə dərd, nə qəm ver.*
*Ölməyə yox, ilahi,*
*Yaşamağa vətən ver!..*

Palıd invariantlığı, kosmik təfəkkürü, ilahi məntiqi, qəlbində sevgi, duyğular çələngi olan böyük İnsan, əziz dostum Ramiz Rövşənə uzun və mənalı bioloji ömür arzulayıram. Əbədi sonsuz ömrü onsuz da özü qazanıb.

Ramiz Rövşəndən Ramiz Rövşənə uzanan yol daim nurlu olsun.

08.12.2016

## BÖYÜK ŞAİRİMİZ MUSA YAQUBA DOSTLUQ İSMARIŞI

...Əziz dostum Musa, yeni nəşr olunan kitabından anladım ki, hələ indi bildin ki bu həyat bir nağıldı. Biz səni sevənlər lap çoxdan bilirdik ki, sənin it hürəndən işıq gələnə bütün – bu 80 illik həyatın başdan-ayağa bir nağıldır, ibrət dərsi verən bir nağıl. Reallıqlardan doğan bir nağıl, kosmik dunyadan doğan bir nağıl, mənəvi aləmimizdən doğan bir nağıl. Musa Yaqub, sənin böyüklüyün, əlçatmazlığın elə ondadır ki, sən bütün həyatınla mifik bir nağıl olduğunu görməmisən, duymamısan. Tanrının millətimizə bəxş etdiyi ləyaqətli, dəyərli şəxsiyyətlərdən biri, böyük, təkrarsız şairimiz, nağıl insanımız Musa Yaqubdur. Bütövlükdə böyük insanlıq nümunəsi olan, hər fikrində, hər misrasında ana təbiətə, ailəsinə, çevrəsinə, vətəninə, torpağına sonsuz məhəbbət duyulan Musa Yaqub.

Hamının qəbul etdiyi kimi Musa Yaqub təbiət şairidir. Ozünün dediyi kimi ağac, daş, dəyirman, ...Musa Yaqubun poetik obrazlarıdır. Onun göyərməyən qara daşı elə insan taleyidir. Şair deyir ki, bu dünyanın "qara daşı" göyərməsə də insan onu ümidində, taleyində, məhəbbətində göyərdə bilər.

*Leyləklərin çöp yuvası boş qalıb,*
*Bahar gedib, payız gəlib, qış qalıb.*
*Göy çəməndə ocaq yanıb, daş qalıb,*
*Bu dünyanın qara daşı göyərməz.*

Daş göyərməsə də onun düşdüyü çəmən göyərəcək.

Musa Yaqub məhəbbət şairidir, dopdolu sevgi şairidir; yarına da, torpağına da, vətəninə də dolu sevgi.

*Tər-təmiz ürəklə dumduru gözlə*
*Dünyaya baxanda*
*Dünya nə gözəl,*
*Həyat nə işıqlı görünür, Allah!*
*Tikan da çiçəyə bürünür, Allah!*

Vətən sevgisini aşağıdakı misralardakından da tutumlu və lokanik demək mümkündürmü?

*Bəlkə də borcundan çıxmadım, Vətən!*
*Ömür bahar deyil bir də qayıtsın.*
*Ölsəm də qoynunda qoy ölüm ki, mən,*
*Çürüyüm, bir ovuc torpağın artsın.*

Musa Yaqub ləyaqət, əxlaqa sözlə heykəl qoyan şairdir. İndi dünyamızda əxlaqın aşılandığı bir vaxtda şair necə əxlaq nümunəsi gostərir. Mərhum həyat yoldaşına unvanladığı "Ruh söhbəti" şeirində deyir:

*Tək bənövşə bitib yaxınında,*
*Mənə deyəcəyin gizli sözündü –*
*Xırda ləçəklərdə titrəyir səsin*
*Atam da, anam da yatır yanında,*
*Necə danışaq ki, eşidilməsin.*

Musa Yaqub ədalət şairidir. O, qarışıq dünyamizda baş verən hadisələrə verdiyi qiyməti haqq-ədalət tərəzisi ilə ölçür.

*Bir gözün sən əydin, bir gözünü mən,*
*Niyə narazıyıq bu tərəzidən?*
*Sən çeşmə qurudan, mən ağac kəsən,*
*Bir günah sənindir, bir günah mənim.*
*Orda bulanıq su hopur torpağa*
*Burda üzə çıxıb dönür bulağa*
*Hələ ki vaxtımız var durulmağa*
*Bir sabah sənindir, bir sabah mənim...*

Musa Yaqub durulmağa çağırır hamımızı, bütün insanları, yoxsa Apokalipsisə cəmi 3 dəqiqə qalıb axirət saatında.

Musa Yaqub – şəxsiyyət, dünyaca ünlü şair. Tanrı bir insana hər şeyi əta etməz, birini verəndə o birindən kəsər. Şairin özünə də demişəm, ilahi, bənövşə kimi bu zərif bədəndə palıd əzəməti hardandır. Dağdan süzülən bulaq suyu kimi saf və şəffaf, coşqun dağ çayı kimi qüdrətli olmaq haradandır onda. Görünür Tanrının sevgisinə tuş gəlib.

Əziz dostum, təkrarsız şairimiz Musa Yaquba bir dostluq ismarıcım var. Dünyada heç bir məxluq günahdan xalı deyil. Özün deyirsən ki:

*Taleyin qisməti rast saldı bizi.*
*Yolumuz haradasa qırılacaqsa,*
*İtirəcəyiksə, bir-birimizi,*
*Xatirəm yadında qalmayacaqsa,*
*Bu əllər mənimki olmayacaqsa,*
*Bu tellər mənimki olmayacaqsa,*
*Gəl məni, özünə öyrətmə məni,*
*Hicran qorxusuyla göynətmə məni.*

Bəs niyə bu qədər öyrətdin bizi özünə, bax budur günahın. Onu yuya bilərsən. Əziz dostum, bunun üçün sənə uzun, mənalı bioloji ömür arzu edirəm, tarixi ömrü – 800, 8000 il ömrünü onsuz da qazanmısan.

10.05.2017

## QEYRİ-SƏLİS MƏNTİQ HAQQINDA POETİK DÜŞÜNCƏLƏRİM...

Elm, bilik sənətkara ağlın gözü ilə görünən aləmin üfüqlərini açır. Sənətin inkişafı isə dünya elminin tərəqqisini insanlığın xeyrinə yönəltmək üçündür. Elm – duyğu çalarlı fikir, sənət – fikir çalarlı duyğudur.

Əvvəlcə qeyri-səlis məntiq nəzəriyyəsi barədə qısa bir məlumat verək. Min illərlə qərarlaşmış elmi dünyagörüşün əksinə olaraq, Lütfi Zadə öz nəzəriyyəsini əvvəlcə bir fərziyyə olaraq irəli sürmüş, sonra isə sübut etmişdir ki, təbiət və cəmiyyətdə baş verən mürəkkəb prosesləri, xüsusən də, müxtəlif kataklizmləri Aristotelin binar məntiqinə əsaslanan klassik məntiq, riyaziyyat çərçivəsində öyrənmək mümkün deyil. Qeyri-səlis məntiqə görə, bu və ya digər mülahizənin doğruluq qiyməti iki məntiqi səviyyə – 1 (doğru) və 0 (yanlış) ilə deyil, bu səviyyələr arasında sonsuz qiymətlər çoxluğu ilə təyin edilə bilər. Bu məntiq mütləq hesab olunan nə varsa, hamısını rədd edir (Tanrıdan başqa) – mütləq mənada ağ rəng yoxdur, mütləq mənada qara rəng yoxdur, mütləq mənada sıfır yoxdur. Mütləq mənada vahid yoxdur. Mütləq mənada qəm, mütləq mənada sevinc yoxdur. Mütləq mənada yalan yoxdur, mütləq mənada həqiqət yoxdur. Ekstremizmin, mütləqiyyətin, totalitarizmin haqsızlığı və əsassızlığı bundadır. Beləliklə, binar, – ikili məntiq və çoxluqlar nəzəriyyəsinə əsaslanan riyaziyyat qeyri-səlis məntiq və qeyri-səlis çoxluqlar nəzəriyyəsi sayəsində genişlənərək, yeni məzmun kəsb etdi. Bununla da, riyaziyyatın klassik (mücərrəd) və qeyri-səlis (gerçək, çoxçalarlı, müasir) riyaziyyata diferensiasiyası baş verdi. Beləliklə elmlərin dili olan riyaziyyat real həyata bir addım da yaxınlaşdı.

Zəmanəmizin böyük şairi Ramiz Rövşən bir şeirində yazır:

*Dərd dərdi əridir, udur,*
*Dərd dərdin dibinə çökür.*
*Dərd dərdin əlindən tutur,*
*Dərd dərdin ipini çəkir.*

*Nə uzundu dərdin ipi,*
*Dolanır dörd bir tərəfi.*
*Dünyanın dərdli tərəfi*
*Dədrsiz tərəfini çəkir.*

*Dünyadan bezmir yenə də,*
*Şükür deyir bu günə də,*
*Adam lap öz dərdini də*
*Sevinə-sevinə çəkir.*

Şair demir ki, bu sevgi ya təmiz qəmdə, ya təmiz sevincdə yaşadı. O, göstərir ki, qəmin tərəfi var, dərəcəsi var. Bu real həyatın qeyri-səlis məntiqə söykəndiyini göstərmirmi?

Konseptual əsaslarda belə ciddi tədqiqatlar, təbii ki, elmdə, texnikada və hətta incəsənətdə də inqilabi dəyişikliklərə gətirib çıxardı. Qeyri-səlis çoxluqlar nəzəriyyəsi praktiki olaraq bütün təbiət elmlərinə, tibbə, ictimai elmlərə, sosiologiyaya, konfliktologiyaya “implantasiya” olundu. Praktiki elmi tədqiqatlarda qeyri-müəyyənliyin qeyri-səlis ölçüsünün daxil edilməsi təbiətdə, cəmiyyətdə, mikro və makro aləmdə baş verən proseslərə adekvat olan qeyri-müəyyənliyin nəzərə alınmasını mümkün etdi. Məhz buna görə də, qeyri-səlis məntiq və qeyri-səlis çoxluqlar nəzəriyyəsi nəinki dialektik təsdiqini tapmış yeni elmi istiqamətin yaranmasına, həmçinin daha geniş mənada idrak nəzəriyyəsinin növbəti pilləsi olan yeni fəlsəfi dünyagörüşün əmələ gəlməsi və başa düşülməsinə səbəb oldu.

Unudulmaz şairimiz Bəxtiyar Vahabzadə “Xeyirlə şər arasında” şeirində yazır:

*Vaxt gəmirir hər binanı*
*Tavanla tir arasında.*
*Bir rəqəm də, demə, varmış*
*İkiylə bir arasında.*

*Ucaldıqca biz ucaldıq,*
*özümüzdən qisas aldıq,*
*O gündən ki, körpü saldıq –*
*Göy ilə Yer arasında.*

Düşünmürəm ki, Bəxtiyar Vahabzadə kimi nəhəng bir şair qafiyə və ya uyarlıq xatirinə deyir ki, “Bir rəqəm də, demə, varmış, ikiylə bir arasında….”Yox, bu, Bəxtiyar Vahabzadənin, Ramiz Rövşənin və Lütfi Zadənin söykəndikləri dünyanın kəsilməzlik fəlsəfəsinin poeziya dilində təcəssümüdür. Bu kəsilməzlik fəlsəfəsinin mahiyyətini, belə demək mümkünsə, elmi-poeziya dilində açaq.

Real dünyamızda Tanrıdan başqa (O, mütləqdir) hər şeyin, hər kəsin şəriki var, dünyada hər bir rəng, hər bir səs, hər bir hadisə digərinə sərhədi kəsilmədən, ehmalca, qeyri-səlis (bu termini Azərbaycan elmi ədəbiyyata bu sətirlərin müəllifi daxil etmişdir, Türkiyə elmi ədəbiyyatında qeyri-səlis məntiq “bulanıq mantıq” adlanır) sərhədlə keçir. Elmi baxımdan yanaşsaq, formal riyazi dil ilə desək, qeyri-səlis çoxluqlar üçün klassik riyaziyyatın 2 əsas qanunu ödənmir. Birinci, “ziddiyyət” qanunu, ikinci, “üçüncünü istisna” qanunu. Bu, onunla əlaqədardır ki, klassik Aristotel məntiqində termlərin (məsələn, rənglərin, münasibətlərin, ovqatların) bir-birinə keçidi sərtdir, itidir, səlisdir (guya qırmızı ilə yaşıl arasında, dost və düşmən münasibətləri, sevinc və kədər arasında heç bir şey yoxdur, tükdən də nazik olan bir sərhəd var). Qeyri-səlis məntiqdə dediklərimiz termlər arasında uzun, mütəmadi bir keçid və kəsişmə var. Bax bu kəsilməz keçidin mövcudluğunu nəzərə ala bilmədiyinə görə də klassik məntiq real həyatı düzgün əks etdirə bilmir. Amma Ramiz Rövşən məşhur “Ayrılıq” şeirində bu kəsilməz keçidin xoşbəxtlik, zaman konteksində təsvirini necə adekvat verib:

*Yenə bu şəhərdə üz-üzə gəldik,*
*Neyləyək, ayrıca şəhərimiz yox.*
*Bəlkə də, biz xoşbəxt ola bilərdik,*
*Bəlkə də, xoşbəxtik, xəbərimiz yox.*

*Bizsiz yazılmışdı bu tale, bu baxt,*
*Sapanddan atılan bir cüt daşıq biz.*
*Bəlkə bu dünyada on-on beş il yox,*
*Min il bundan qabaq ayrılmışıq biz.*

Bəxtiyar Vahabzadə isə poeziya dilində dünya reallığını qeyri-səlis məntiqə həmahəng olaraq görün necə əks etdirir:

*Qarışıb dünyanın yaxşı-yamanı,*
*Əzabı, ləzzəti, sevinci, qəmi.*
*Göründüyü kimi gördüm dünyanı,*
*çox vaxt görəmmədim olduğu kimi.*

Bəxtiyar müəllim dünyanı çox vaxt olduğu kimi görə bilmədiyindən şikayət etdi. Ramiz Rövşən də real dünyanı görə bilmədiyindən gileylənir, hətta görə bilsəydi belə "Başımıza hava gələr"di deyir:

*Qəfil gün doğsa bir gecə,*
*Min-min gizli günah görsək,*
*Üstünü örtə bilməsə,*
*Bu dünyanı çılpaq görsək,*
*Başımıza hava gələr,*
*ağlımız çaşar bəlkə də.*
*Hamı birdən baş götürüb*
*dünyadan qaçar bəlkə də.*

Bu müəmmalarla, qeyri-müəyyənliklərlə dolu dünyanı görmək, dərk etmək üçün yeni fəlsəfə, qeyri-səlisliyə söykənən fəlsəfə lazım idi. Bu fəlsəfə prizmasından hörmətli şairlərimiz Bəxtiyar Vahabzadə və Ramiz Rövşən sevincdə qəmi görür, qəmdə sevinci, axı onlar real dünyamızda çulğalaşıbdır.

Bəxtiyar Vahabzadə bu min "sifəti", "rəngi" olan dünyanı dərk etməyin lazımlığı, vacibliyi haqqında təbil vurur. O, "Hara gedir" şeirində yazır:

*İnsan oğlu qazananda uduzar,*
*Qədərinə yazılanı kim pozar?*
*Bu dünyanın min sifəti, rəngi var,*
*Qismətimiz – ağından çox, qarası!*

Bəyəm dünyanın bu min sifətini, min rəngini klassik Aristotel məntiqi güzgüsündə görmək mümkündürmü, yox (axı o məntiq dünyanı iki rəngdə görür: ağ, qara). Bəs necə olur ki, həmahəng fəlsəfi fikir və çalarlar bir tərəfdən riyazi simvollarla yazılmış düsturla, o biri tərəfdən isə təbii poetik dildə əks olunur?

Təbii dilin imkanları son dərəcə böyükdür. Riyaziyyat yaranan vaxt təbii dilin gücü çatsaydı fizika, iqtisadiyyat, sosial həyat, ümumiyyətlə, yaşadığımız dünya indiki ideallaşdırılmış düsturlarla yazılmazdı. Bizim elmi tədqiqatlarımızın bir qolu təbii dilin imkanlarını müasir texnologiyalar vasitəsilə daha da genişləndirməkdir. Burada linqivistika alimləri üçün böyük elmi perspektivlər var. Ümumiyyətlə, təbii dilin vasitəsilə biz istənilən informasiyanı təsvir edə bilərik. Riyazi linqivistikanın köməyi ilə avtomatik tərcümə, yaradıcılıq proseslərinin modelləşdirilməsi, o cümlədən nağılların, hekayələrin, melodiyaların düzənlənməsi və s. məsələləri həll edə bilərik. Hesablamanı, məntiqi nəticə çıxarmanı təbii dildə apara bilərik. Sadaladığımız problemlərin həllinin açarı yenə də qeyri-səlis məntiqdir. Niyə? İntellektual maşınlar dövrünə, yeni bir inqilabi sıçrayışa keçdikcə təbii dilin inkişafına, ağılı, hissi modelləşdirmək üçün “qəliblənmiş” təbii dilin formallaşmasına daha çox ehtiyac duyulacaq.

Qrammatik formalizm və sintaktik təhlil prosedurların tərtibatı məqsədilə son illərdə təbii dilin emalı vasitələri meydana gəlmişdir. Hesablama cəhətdən mümkün semantik yanaşmanın və adekvat semantik interfeys vasitəsilə qrammatik səviyyəyə zəruri bağlantının əldə edilməsi böyük əhəmiyyət kəsb edir. Semantik interpretasiya prosedurlarının formallaşması çox vacib bir elmi məsələdir ki, bu prosedurlar vasitəsilə, sintaktik strukturlar semantik təsvirə əks olunur.

Klassik Aristotel məntiqi semantik təhlilə imkan vermədiyindən bugünkü internetin (onu axtarış mexanizmi klassik məntiqə əsaslanır) intellekt səviyyəsi “Əhməd hardadır” filmindəki Zülümov səviyyəsindədir, bütün Əhmədləri yığan Zülümov səviyyəsində. Yeni nəsil internet axtarış maşını qeyri-səlis məntiqə söykənəcəkdir. Semantik interpretasiya üçün metodologiyanın yaradılması təkcə nəzəriyyə baxımından deyil, həmçinin real həyati problemlərin müxtəlifliyi ilə üzləşən sistemlərin tərtibatı üçün yüksək praktiki əhəmiyyətə malikdir.

Təbii dil qavramanın (persepsiyanın) təsviri sistemidir. İndi klassik (Aristotel) məntiq sistemləri təbii dilin emalı və biliklərin inikası üçün istifadə olunur. Lakin qeyd etməliyik ki, qeyri-səlis məntiqə əsaslanan yanaşmanın təbii dilin modelləşməsində və formallaşmasında istifadəsi biliklərin inikası üçün daha ifadəli dil və təfəkkür və hesablama üçün daha çoxtərəfli imkan təmin edir.

Persepsiyanın, qavranılmış, duyulmuş informasiyanın, fikrin, sözün çoxçalarlığı, həmişə birmənalı olmaması, qeyri-dəqiqliyi təbii dilə ötürülür, bu da nəticədə semantik qeyri-dəqiqliyə, qeyri-müəyyənliyə gətirir. Beləliklə, təbii dilin semantik qeyri-müəyyənliyi təbii dilin modelləşdirilməsində bir maneə kimi görünür. Bax bu maneəni aradan qaldırmaq baxımından, təbii dilin semantik təhlili baxımından qeyri-səlis məntiqin əhəmiyyətli rolu var. Qeyri-səlis məntiq təbii dilin səciyyəvi xüsusiyyəti olan qeyri-müəyyənliyi, natamam məlumatları və məhdudiyyətləri nəzərə ala bilən güclü bir vasitədir.

Qeyri-səlis məntiqin tətbiq sahələrindən biri də (bəlkə ən başlıcası) nağıllardan, hekayələrdən, rəvayyətlərdən, bədii əsərlərdən semantik (fikir) nəticə, xülasə çıxarmaqdır.

20.06.2013

# SƏMİMİYYƏT AŞİQİ, VƏTƏN SEVDALISI

***Midhət Abbasov haqqında***

Deyilənə görə, akademik Aleksandrov (SSRİ EA-nın sabiq prezidenti), akademik Yakovlevə (Sov.İKP MK-nın sabiq katibi) deyibmiş: "Uzunluğu verilən əyrinin uzunluğuna bərabər olan düz xətt parçasına bu əyrinin açılışı deyilir. Açılmış zahirin düz görünsə də, için əyridir". Hiddətlənən Yakovlev xəbər alıb ki, bəs sənin haran əyridir? Akademik Aleksandrov MK katibinin sözünü belə kəsib: "Mən Qaus əyrisiyəm! Ehtimalın normal paylanma əyrisi!".

Növbəti müşavirələrin birində Yakovlev akademik Aleksandrova irad tutub ki, sənin şübhələrin həmişə əsassız olub. Akademik özünəməxsus təmkinini pozmadan "Yenidənqurmanın memarına" belə cavab verib: "Əsassız olsaydı çoxdan uçmuşdular. Əksinə, mənim şübhələrim sənin inamından əsaslıdır. Ona görə də qorxutmur səni. Niyə də qorxutsun?! Əminsən ki, uçan deyil, altında qalasan".

Görkəmli Azərbaycan alimi, akademik Midhət Abbasovun ömür yolu, sözün həqiqi mənasında, akademik Aleksandrovun dediyi Qaus əyrisidir! Ehtimalın normal paylanma əyrisi! Vətəndaş ehtimalının, ziyalı ehtimalının, müəllim ehtimalının normal paylanma əyrisi!

Midhət müəllim öz ömrü ilə çoxlarına sübut edə bilərdi ki, hər bir insanın içindəki şübhələr, çölündəki inamından əsaslıdır. Ona görə də akademik Abbasov heç zaman haqqı nahaqqa vermədi. Doğrudur, arabir onun ürəyindən qənşərdəki "dəmir-beton kəllə sahiblərini" taranlamaq da keçib. Lakin həmən düşünüb ki, tarana getmək hər iki tərəfin məhvi deməkdir. Bu dünyada taranlamaq uduzana yaraşır. Məhv olub məhv eləmək, məhv olub məhvə getmək insanlıq yolu deyil. Özü həmişə deyərdi ki, bax bu cür düşüncə, bu sayaq məntiq peşəkar ağayanalıq, peşəkar mənəviyyat, peşəkar əxlaq sayılmalıdır. Midhət müəllimin ömür kitabının hər sətrini oxuduqca çəkdiyi insanşünaslıq sərgisinin hər bir əsərini seyr etdikcə, bir daha məlum olur ki, bu ömür kitabının və həyat sərgisinin səbəbkarını, onun cismini və ruhunu bu qoca dünyada hər hansı bir işin maddi cəhətdən mənfəətdar olması və yaxud olmaması qətiyyən düşündürməyib. Çünki akademik Abbasov daima özünü öz ruhundakı sentimentdən qoruyub. Rəhmətlik həmişə deyərdi ki, sentimental adamları həm ucuz satmaq olur, həm ucuz almaq. Sonra da əlavə edərdi ki, sentimental göz yaşları teatral göz yaşlarıdır. Yaylığında qlesirin ətri var. Özü demişkən, tənasübsüzlük, uyğunsuzluq, əndazəsizlik və həqiqi tən gəlməmək, ağlasığmazlıq, mənasızlıq onun qəlbini üzəndə belə Midhət müəllim insana və insanlığa tapınırdı. Çünki onun güvəndiyi mənəviyyat və ləyaqət işığı idi!

Akademik Abbasovun kamilliyi bu zirvədə daha gözəl görünürdü. Dünən də, bu gün də, hətta sabah da Yer üzündə baş verən dəhşətləri faş

eləmək dönüş nöqtəsi, qiymət şkalası, əxlaq kriteriyası əldə etmədən mümkün deyil. Çünki dünyanın bütün siyasi, iqtisadi və sosial problemləri şəxsiyyətlərin və peşəkarların mənəviyyat işığına möhtacdırlar. Nəyə və kimə lazım o təkamül və təfəkkür ki, onun inkişafının maddi tərəfi mənəvi tərəfini üstələyir?

Görkəmli alman filosofu Albert Şveyserin ən kamil tədqiqatlarından biri budur ki, təbiət insana mənəviyyat dərsi keçmir. Çünki bu nəhəng və mürəkkəb kainat xeyir və şər nədir bilmir. Təbiətin qoynundakı yırtıcı da, bu yırtıcının şikarı da ümumi bioloji qanunlara tabedir. Əgər antik dünyada Sokrat qədər yunan müdrikləri həyatın baş oriyentirini kosmosun qanunlarında axtarırdısa, Sokrat təntənə ilə bildirdi ki, özümüzü dərk edək. Bu hərəkəti ilə Sokrat təbiət aləmindən mənəviyyat aləminə ilk addım atdı. Midhət müəllimi bizlərə sevdirən əsas səbəblərdən biri budur ki, onun zəngin təbiət aləmi daima müdrik mənəviyyat aləmində addımlayıb. Doğrudur, Midhət müəllimin elmindən və təcrübəsindən faydalanan insanların eləsinə də rast gəlmişik ki, onları inamın və imanın tamamilə başqa formaları ruhlandırıb. Akademik Abbasov üçün bütün bu təzadlar və ziddiyyətlər təbii görünüb: zəkaya inam, elmi-texniki tərəqqiyə inam. Midhət müəllim çoxlarından çox-çox əzəl dərk edib ki, bütün bu Tanrıdan və mənəviyyatdan kənar formalar gec-tezi, kor-koranə bütlərə çevrilib. Akademik Abbasovu bütün nəsillərə sevdirən əsas səbəblərdən biri də budur ki, onun insanlara bəxş etdiyi ümumbəşəri xeyir-dualar, həyatın yüksək mənasına, məişətin ali məqsədinə, estetik tələblərin obyektiv xarakterinə həsr etdiyi klassik və akademik ibadət məhəbbətin və mərhəmətin abajursuz lampasında nurlanır. Yalnız nurdan yoğrulan ömür dairəsi və həyat eşqi tarixin bütün dövrlərində insan zəkasının qüdrəti sayılan təfəkkür və təkamülün mənbəyini və köklü əsaslarını təşkil edib, yaradıb, qurub, təkmilləşdirib. Həmişə deyərdi ki, yalnız Nurun mahiyyəti xeyir və şəri dərk etməyin ilkin mənbəyi, yeganə müjdəsidir. Deyərdi ki, baxın Allaha, dinə, inam da buna bənzəyir. Quran və Bibliya onun üçün yalnız din və Allahdan bəhs edən kitab deyildi, həm də bizdən, insanlardan söhbət açan, bəşər nəslinin amansız həqiqətlər güzgüsündə əks etdirən projektor işıqlarıydı.

Dünyanı bürüyən ruhi düşkünlükdən, riyakarlıq, saxtakarlıq, əxlaqsızlıq bazarından söhbət düşəndə Midhət müəllim deyirdi ki, əfsuslar olsun ki, müxtəlif səbəblər üzündən bəzi nur sahiblərimiz axıracan səmimi olmağı bacarmırlar. Sonra da əlavə edərdi ki, "Mən Allahı dananlar cərgəsində əxlaqı təmiz insanlara rast gəlmişəm, fəqət axıracan səmimi olmayanların cərgəsində təmiz əxlaq sahibinə rast gəlməmişəm".

Bəli, akademik Midhət Abbasov həm Allahın aşiqi idi, həm də hər kəsə yetəcək qədər səmimiyyətin! Midhət müəllim insanın dilindəki yox, qəlbindəkinə qiymət verirdi. Akademik insanı hər bir vəziyyətdə şəxsiyyət görmək istəyirdi, düşünürdü ki, dualizm hər kəsin öz işidir. Akademik dərk etdiyi həqiqəti axırıncı mərhələdə axtarmayıb, ömrü boyu soraqlayıb. Midhət müəllim hər kəlməsində sanki belə deyirdi: "Ey insan oğlu! İnsanın dünyada ən

böyük səadəti faciəni üstələmək hünəridir, çünki dünyanın bütün faciələri səfehlikdən baş verir. Tarix boyu bəşəriyyət ağlasığmaz dəhşətlərə can ataraq, müsibətlər pəncəsində qıymalanıb. Fəqət dərd burasındadır ki, çox az müddət keçən kimi bu yaralar qaysaq tutub, fəlakətlər unudulub, faciələr yaddan çıxıb".

Mənə söylənildiyinə görə, 1980-cı ildə Gürcüstan səfərindən Vətənə qayıdan Midhət müəllim yolüstü Zaqatala Turizm Bazasının qonaq evində istirahətdə olan mərhum akademik Ələddin Quliyevi ziyarət edir. Bir də görür ki, bazanın yay kinoteatrının səhnəsində qanadları yaralanmış bir ana qartal çırpınır. Ətrafına toplaşan Sovet turistləri onun yarasına acımaq əvəzinə, imkansız çırpınmasına rişxənd edirmişlər. Bu əcaib mühitdən, yersiz sataşmalardan bezdikcə uçub uzaqlaşa bilməyən qartalın gözlərinə qan sızmışdı. Zirvələr fəth eləyən qartal bu yarımlüt təlxəklərin qarşısında aciz qalmasına dözə bilmirdi. Midhət müəllim elə ordaca hirsindən və hikkəsindən qartal dimdiyinin anbaan necə çatlamasının şahidi olur. Elə həmin anlarda anası Fatma xanım qədər sevdiyi (on bir yaşı olanda Şura hökuməti atasını güllələyib) Azərbaycanı düşünür. Elə ordaca, akademik Ələddin müəllimə deyir ki, qardaş, gün o gün olsun, yurdumuzda qaranquş dimdiklərini qartalların dimdikləri əvəz etsin. Azadlıq da, səadət də, müstəqillik və qüdrət də qartal yuvasında olur, qaranquş yuvasında yox! Ay Ələddin, arzum budur ki, xalqımızın "qanadları" hərdən yaralansa belə, bükülməsin, sınmasın, hikkəmizdən dimdiklərimiz çatlamasın.

Alim var ki, onun elmə yüksək vəzifə, şan-şöhrət həvəsi gətirir, alim də var ki, Vətən məhəbbəti, millət sevgisi! Akademik Midhət Abbasovu elmə bağlayan Tanrı-Vətən-Millət sevdası olub. Midhət müəllimi elmə bağlayan Ata dünyası, Ana laylası, Ömür-gün Leylası olub!

Akademik Abbasov müsahibələrinin birində demişdi: "İnsanın, xalqın və bəşəriyyətin vəzifəsi mütləq mükəmməllik haqda səmərəsiz arzulardan, ölüm kabuslarından, məhdud və şərəfsiz xidmətdən ibarət deyil, əksinə, insan, xalq və bəşəriyyətin vəzifəsi "yerdə olan hər şeyi" "göydə olan hər şeylə" razılaşdırmaqdan ibarət olmalıdır. Çünki yer üzündə Allahın hökmü, onun göydəki hökmünə tən gəlməlidir". Akademik Abbasovun ən böyük qüdrəti bax bu cür məntiqin yenilməz şeydası olmasındadır.

İtirə-itirə gəldiyimiz dünyada dəyərlər də ucuzlaşıb, insan taleyinin əlvan naxışları da. Elə ona görədir ki, seçilmiş insanlara sağlığında qiymət verməyi bacarmırıq. Hər şeyə tələssək də, müqəddəsləşən insanlarımızın qədir-qiymətini bilməkdə yaman gecikirik. Qəflət yuxusundan ayılanda isə çox gec olur. Gecikmiş canfəşanlıqlarsa toydan sonrakı nağaradan uzaq gedə bilmir və nə sızıldayan vicdanları, nə də narahat ruhları xilas edir.

Qoqol Rusiyadan Rusiyaya çağırırdı. Keçmiş Rusiyadan gələcək Rusiyaya. Fəqət bu səfərdə qəza, bəla, faciə və müsibət, fəlakət və bədbəxtlik cilidi var... Rusiyanın "ölü canları". Onun sözünə qüvvət, Mirzə Cəlil də bizi Azərbaycandan Azərbaycana çağırırdı. Keçmiş Azərbaycandan gələcək Azərbay-

cana. Bu səfərdə görünür, bizim də qəza, bəla, faciə və müsibət, fəlakət və bədbəxtlik cildimiz vardı...

M.Ə.Sabir sabun bişirəndə kirdən bədənləri deyil, könülləri təmizləməyi düşünüb. Sən də fani dünyamızda cıdıra çıxmamışdın. Ömrün karvan yoluydu. Sən həmişə deyərdin ki, acgöz atı yəhərləyib sərvət və şöhrət cıdırına çıxanlar unudublar ki, mənzil dəvə belindədir. Həm də yalnız asta dəvə belindədir. Çünki bütün karvanların sürətini asta dəvə nizamlayır. Bəzi nadanlar gileylənirlər ki, mənalı ömürlər də, mənasız ömürlər kimi mənasız ölümlə yekunlaşır.

Bəziləri də deyinirlər ki, bütün ömürlər mənasız olmasalar da, bütün ölümlər mənasızdır.

Əziz Midhət müəllim! Yerləri, göyləri dərk elədikcə nə ömürdə məna gəzdin, nə ölümdə! Dünyada qalacaq qədər dünya üçün, axirətdə qalacaq qədər axirət üçün mətanətin, məhəbbətin, mərhəmətin mübarək!

01.08.2016

## ZƏMANƏYƏ AYNA TUTAN "ZƏMANƏ ADAMI"

*Bağladı dilimi zamanın zəhmi,*
*Yüzdə bir sözümü deyə bilmədim.*
*Əyil keç, dedilər, saqqal altından*
*Vüqarlı qəddimi əyə bilmədim.*
**Vidadi Babanlı**

Böyük və dəyərli yazıçımız Vidadi Babanlı özü zəmanə adamı ola bilməsə də "Zəmanə adamı" haqqında iki hissəli möhtəşəm bir roman yazdı, roman içində roman. Bu əsəri mən vaxtilə böyük ədəbi hadisəyə çevrilmiş "Vicdan susanda" əsərinin davamı kimi təsəvvür edirəm. Rəngarəng, qeyri-adi olduğu qədər də təbii, gözlənilməz situasiyalarla zəngin bir romanla qarşılaşdım. Nə yaxşı ki, bu iki romanda bir dənə də müsbət qəhrəman yoxdur. Axı Vidadi müəllimin yaradıcılıq manerası köhnə stereotiplərdən həmişə uzaq olub. Sadə, həm də mürəkkəb sujet xəttinə malik əsərdə hadisələrin gedişatı qəhrəmanların ömrünü "yeyir". Elə yeyilməlidir də.

Romanda əsas qəhrəman (mənfi qəhrəman) Əfsun bütün əxlaq və mənəviyyat normalarını ayaq altına atan, öz mənfəəti üçün min bir sifətə düşən dələduz bir adamdır. O, birinci romanda fatalizmə və şəhvətə uymuş bir qadının ailəsini dağıdır, ailə namusuna təcavüz edir. Elə buna görə də müəllif roman içində birinci romanını "Ləkələnmiş namus" adlandırır. Sonra isə siyasi dələduzluğa başlayır, özünü xalq hərəkatına sırımaq istəyir, həyasızlığı o dərəcəyə çatır ki, xalqın elçisi də olmaq istəyir.

Əfsunları yetişdirən nədir? Zəmanəmizdəki insanların böyük bir kəsimində daxili senzor mexanizminin çalışmaması. İnsanlarımızın böyük bir kəsimində fərdlərin daxili senzor mexanizmi çalışmır. Tamah, şəhvət, ucuz şöhrət hissi çoxdan bu senzorun qoyduğu məhdudiyyət həddini aşıb. Bir sümük parçasına otuz-qırx illik dostlarını satan, varlanmaq xatirinə min sifətə düşən, abırsız eyş-işrətlə gün keçirən zəmanə insanı azdırmı?

Müəllifin əsas məqsədi cəmiyyətimizdə əxlaq və mənəviyyatda gedən aşınmaya diqqət çəkməkdir. Bizim coğrafi itkimizdən çox mənəvi itkimizin olmasına diqqət çəkməkdir.

Mənəvi itki ən təhlükəlisidir. İndi cəmiyyətdə əxlaq sipəri çox kövrəkdir. Cəmiyyətdə güclü əxlaq sipəri olsaydı, insana, vətəndaşa, ailə namusuna, peşə namusuna və vətən, torpaq namusuna münasibət də fərqli olardı. Müəllif zəmanəmizdəki əxlaq məsələsini qabardaraq insanın mənəvi baxışları və hissləri, həyat motivasiyalarını, istiqamətlərini və prinsiplərini əhatə edərək xeyir və şər, vicdan və vicdansızlıq, şərəf və şərəfsizlik, ədalət və haqsızlıq, normal və qeyri-normallıq, mərhəmət və qəddarlıq və sair arasındakı qeyri-səlis sərhədləri çox ustalıqla göstərir.

Mənəviyyat ictimai və şəxsi səviyyədə özünü göstərir. İndivid əxlaq normalarını sosiallaşma prosesində əldə edir. Humanizmə, xeyirxahlığa, şərəfə, ədalətə, alicənablığa yönəldilmiş proseslərdə mənimsəyir.

Mənəviyyat və əxlaq anlayışları müxtəlif çalarlara malikdir. Əxlaq bir qayda olaraq kənar qiymətləndirici subyektin (başqa adamların, cəmiyyətin, məscidin və sair) olmasını nəzərdə tutur. Mənəviyyat isə əsasən insanın daxili aləminə və onun özünün etiqadına yönəlib. Müəllif göstərir ki, bu gün zəmanəmizdə mənəviyyat əxlaqdan daha sürətlə aşılanıb.

Ailə insan cəmiyyətinin əxlaq və mənəviyyatının əsasını təşkil edən özəkdir. Buna görə də əxlaq və mənəviyyatı cəmiyyətdə müəyyən səviyyədə mühafizə etmək üçün ailə prinsiplərinin və dəyərlərinin mənəvi əsasını toxunulmaz olaraq qorumaq vacibdir.

Əks halda ailənin tənəzzülü qaçılmazdır, həmçinin ailə ilə birlikdə bütün cəmiyyətin tənəzzülü qaçılmazdır. Durnanın bunu qoruya bilməməsinin necə böyük faciələrə gətirdiyi hamı üçün Babanlı tərəfindən göndərilən dəyərli ismarışdır. Burada bir şeyi də qeyd etməyə bilmərəm. Real həyatda hər bir şeyin bir əndazəsi olmalıdır. Elə Bəhlulun da sadəlövhlüyünün, maymaqlığının əndazəsi də. Durnanın əri Bəhlul həyat yoldaşının "sevgilisi" Əfsuna belə müraciət edir: "Bir də tapşırıram ayağını çəkmə bizdən. Boş vaxtlarında təşrif buyur. "Üç telli" də, mən də yolunu gözləyəcəyik". Ailəni qorumaq kişi işidir. Bu baxımdan müəllifin bədii priyomu çox düzgündür ki, Bəhlulun həyatı belə faciəvi qurtarır.

Əfsuslar olsun ki, bu vicdan təbili çalan əsər cəmi 500 tirajla çap olunub. Axı V.Babanlının "Vicdan susanda" əsəri Moskvada 2 dəfə 100.000 tirajla çap olunmuşdu. Görünür, bu da zəmanə işidir. Heç yadımdan çıxmaz 1981-ci ildə Moskvada Kalinin prospektindəki kitab maqazininə gələrkən küçədən tutmuş 2-ci mərtəbəyə kimi böyük bir növbə gördüm. Düzü tez-tez baş çəkdiyim bu kitab evində heç vaxt belə bir növbəyə rast gəlməmişdim. Soruşdum nəyə növbədir. Dedilər: "Koqda molçit sovest". Fəxr etdim ölkəm üçün, millətim üçün.

Vidadi Babanlının "Zəmanə adamı"ndan insanlara ünvanlanan mesajı budur ki, müasir cəmiyyətin əsas əxlaqi prinsipləri bütün klassik əxlaqi imperativləri – "öldürmək olmaz", "oğurluq etmə", "yalan danışma" (böhtan atma), "canıyanan ol və başqalarına kömək et" – özündə ehtiva edir.

Romanda yazıçı rəvan bir dildə oxucu qarşısına çıxır.

Sonda oxucunun bu dəyərli romanı oxumağını tövsiyə edirəm. "Zəmanə adamı" bütün məziyyətləri ilə diqqətə layiq və maraqlı romandır.

Zəmanəyə ayna tutan bu əsərin müəllifi, ustad sənətkar V.Babanlı bu romanda bütün insanlara ismarış göndərir ki, çalışaq ki, həyatda çaşmayaq.

02.04.2016

# İLAHİDƏN GƏLƏN SƏS

Azərbaycanın mədəniyyətində və incəsənətində, ifaçılıq sənətində özünəməxsus yeri olan, tanınmış sənət sahibi Nəzakət Teymurova haqqında bu sətirləri "Qal sənə qurban"ın içimi yandıran həzin melodiyasının müşayiəti ilə yazmağa başlayarkən fikrim məni keçən əsrlərin 50-ci illərində Ağdamdakı Xudu Məmmədov (o vaxtkı Voroşilov) küçəsindəki evimizdə keçirdiyim uşaqlıq illərinə apardı. Şagird idim, hər səhər saat 8:00-da evimizdən çıxıb Maksim Qorki küçəsinə düşüb, Lenin küçəsinə keçib, musiqi məktəbinin yanından dünyanın bu gün də ən əzəmətli universitetlərindən daha uca sandığım 1 saylı məktəbə dərsə yollanırdım. Məktəbə çatmamış hündür elektrik dirəyində bərkidilmiş radionun yanında ayda bir dəfə, bəzən iki ayda bir dəfə ayaq saxlayardım, yerimdən tərpənə bilməzdim, axı 8:20 konsertində Rübabə Muradova oxuyurdu. Həmin günlər dərsə də gecikərdim, bütün günü halım özümdə olmazdı. İllər keçdi, fəsillər dəyişdi, zaman başıma ağ sığal çəkdi, küçələri də, o məbəd sandığım məktəbi də, o elektrik dirəyindəki radionu da itirdim (Mənim itirdiklərim tək bunlarmı oldu? Yox insanlar, insanlar...).

İndi mən dünyanın harasında oluramsa olum (Bakıda, Vaşinqtonda, Torontoda, Berlində, Zigendə, Barselonada, Romada, İstanbulda...) ayda bir dəfə, yox hər gün ayaq saxlayıram, gözümü yumub nəfəsimi dərmədən özümü məndən qoparan səsin içində əriyirəm. Bu səs Nəzakət Teymurovanın səsidir. Bu ecazkar səs məni qanadlarına alıb həqiqi Apokalipsis yaşamış qibləgahım Ağdamın həmin küçələrinə, Xudu Məmmədovun, Famil Mehdinin, Şahmar Əkbərzadənin, Fred Asifin, Ağdamın 6 min şəhidinin nigaran ruhları dolaşan yerlərə aparır.

Sağ olun Nəzakət xanım, yaxşı ki, Siz varsız.

Bir az optimistik notda davam etmək istərdim (optimizmə yer qalıbmı...).

Böyük sənət sahibi Nəzakət Teymurova Azərbaycan musiqi qalasına kərpic düzənlərdən biridir. Düşünürəm ki, onun izi mədəniyyət tariximizdə əbədi qalacaqdır. O, Rübabə Muradova, Şövkət Ələkbərova, Sara Qədimova kimi sənətkarların ənənələrinə əsaslanaraq özünəməxsus ifaçılıq üslubu yaratmış və zənnimcə onlarla bir sırada duran sənətkardır.

Bir sənətkar kimi onu fərqləndirən əsas cəhətlər onun orijinallığı, öz dəstixəttinin olması, hər bir ifaya yaradıcılıqla yanaşması, yaratdığı hər bir musiqi obrazında Nəzakətə məxsus çalarların olması; çeviklik (muğam dəsgahlarının əvəzsiz ifaçısı, opera solisti kimi rəngarəngliyi və uzun ömürlüyü və s.), interaktivlik (dinləyici ilə təmasda olmaq bacarığı); fenomen virtyozluq və geniş coğrafiya – onun auditoriyası dünya səhnələridir.

Mən, Nəzakət xanımın Bakıda keçirilən bütün solo konsertlərində iştirak etmişəm, onun "Leyli və Məcnun" operasındakı Leylisinə dəfələrlə baxmışam. Yadımdadır bir neçə il öncə Dövlət Flarmoniyasında Teymur Göyçayevin

drijorluğu və kamera orkestrinin müşayiəti ilə verdiyi izdihamlı konsertində mərhum həyat yoldaşımla iştirak edirdim. Mübağiləsiz deyim ki, həm evdə, həm ictimai yerlərdə uzun müddət bu möhtəşəm konsertin müzakirəsi kəsilmirdi.

Nəzakət Teymurovanın ecazkar səsinin məni tez-tez kövrəltdiyini özüm bilirəm. Onun haqqında söz düşəndə mən bir ifadəni işlədirəm: nəhəng şairi ağladan Nəzakət Teymurova. Bir il öncə yaxın dostum, nəhəng şair Ramiz Rövşənlə Nəzakət xanımın Muğam mərkəzində təşkil olunmuş solo konsertində iştirak edirdik. Həmişə olduğu kimi çox əzəmətli keçən bu konsertin axırında iştirakçıların xahişi ilə o, "Qarabağ şikəstəsi" oxudu. Halım özümdə olmasa da hərdən yanımda oturan Ramiz Rövşənə diqqət çəkirdim. Dağlar qədər dözümlü və qürurlu şairin gözlərindən yanağına süzülən damlaları sezməyə bilməzdim. Bu Nəzakətin ruhları oynadan səsinin qüdrətiydi.

1998-ci ilin payızında ABŞ-da Atlanta şəhərində Corciya Dövlət Universitetində dərs deyərkən bir mötəbər tədbirə dəvət olunmuşdum. Hava isti olduğundan tədbir böyük bir həyətdə keçirilirdi. Görüşdə dünyanın onlarla ölkəsindən (ABŞ, Almaniya, Əlcəzair, İran, Kanada, Hindistan və s.) alimlər, praktiklər, mütəxəssislər iştirak edirdilər.

Tədbir axşam saat 8-dən səhər saat 5-ədək davam etdi. Dünya xalqlarının musiqisindən nümunələr də təqdim olunurdu. Qəflətən bir qüvvə məni odu ilə yandığım, illər boyu həsrət qaldığım Qarabağ, Ağdam göylərinə apardı, bu Nəzakətin səsi idi. Çevrilib monitora baxanda Nəzakəti, Mənsumu və Aygünü gördüm. Bu musiqi fraqmenti "Sən bir nəğmə, mən bir nəğmə" verilişində bir iranlı professor tərəfindən kompüterə yazılmışdı və o tədbirdə təqdim olunurdu. Saydım, on barmağım kifayət etmədi, düz 11 dəfə həmin fraqment təkrar olundu. Fəxr etdim, qürur duydum Nəzakət üçün, Qarabağ üçün, Azərbaycan üçün. Mənim azərbaycanlı olduğumu bilənlərin bir sualı vardı – bu ecazkar səs hardandır, hansı torpaqdan, sudan, yoxsa ilahidən gələn səsdi?

Nəzakət Teymurovanı hər dəfə dinlədikcə mənə bir daha aydın olur ki, xalqın yaratdığı nə varsa, hamısı bir kökə, bir mənəviyyata bağlıdır. Bu torpağın havası, suyu, onun övladlarının sevinci, qəmi, kədəri muğamlara, mahnılara hopub.

Nəzakət xanımın "Segah"ında nə qədər yanğı varsa, o qədər də məhəbbət hissi var, "Rast"ında mərdlik və gümrahlıq, "Sur"unda şən, lirik əhval-ruhiyyə, "Bayatı-Şiraz"ında qəmginlik olsa da, o, ağ-qara oxumur, onun səsinin spektrinin minlərlə çaları, rəngi var. Mən bunu elə-belə demədim. Dünyada hər şeyin rəngi var, səsin, ömrün ayrı-ayrı çalarlarının. Aristotel (b.e.ə. 384-322-ci illər) "Ruh haqqında" traktatında yazır ki, rənglər öz aralarındakı cazibəli ayarlığa görə musiqi səsləri ilə müqayisə edilə bilər. Düşünürəm ki, mən, həm də tək mən yox, minlər, milyonlar Nəzakət Teymurovanın səsini həm eşidir, həm də görür, axı o səs insanı rəngarəng başqa bir dünyaya aparır. O ki, qaldı ömrün ayrı-ayrı çağlarının rənginə: uşaqlıq – al-əlvan, gənclik – yaşıl, cavanlıq – bənövşəyi, mavi, qocalıq isə payız yarpaqları rəngindədir. Tanrı

bu böyük sənətkarımızın həm səsini, həm də ömür çağını həmişə bənövşəyi rəngdə eləsin.

Sevimli sənətkarımıza nə arzu edərdim? Tanrı çox şeyi ondan əsirgəməyib (Allah insanı balansda yaradır, bir insana hər şeyi artıqlaması ilə verməz): könülləri fəth edən ecazkar səs, gözəllik, insanlıq, içinin azadlığı, övlad sevinci... O, çoxölçülü zirvənin başındadır. Mənim isə Nəzakət xanımla bağlı iki arzum var. Biri mənim içimdən gələn özəl arzumdur. Siz mədəniyyət tariximizdə qalan möhtəşəm əsərlər yaratmısınız. Ancaq birini də ərsəyə gətirsəniz nə yaxşı olar: Zəmixarə, Ramiz Rövşənin "Qara paltarlı qadın" və Nəzakət Teymurovanın nisgilli səsinin sintezindən yaranmış bir lövhə. Düşünürəm ki, bu lövhənin rəngi lap qara olmayacaq.

Əzizimiz Nəzakət xanım, Siz öz sənətinizlə dünyanın çox möhtəşəm salonlarını fəth etmisiniz. Ancaq iki ən möhtəşəmi qalıb: Ağdamın İmarəti, Şuşanın Cıdır düzü. Sizə bu hədəfə çatmaq yolunda fateh olmağı arzulayıram.

10.09.2014

## "YALAN"IN HƏQİQƏTLƏRİ BARƏDƏ DÜŞÜNCƏLƏRİM

*"Yalan var ki, günaha yazılmır"*
**(Müqəddəs kəlam)**

Bu gün Qarabağ müharibəsi haqqında maraqlı və dərin məzmunlu filmlərin çəkilməsi çox aktual bir məsələdir. İlk öncə bu filmlərdə müharibənin mahiyyəti açıqlanmalı, onun törətdiyi nəticələr, insanların düçar olduğu psixoloji gərginliklər işıqlandırılmalıdır. Eyni zamanda, Azərbaycan xalqının tarixi qəhrəmanlıq dövrləri, həm keçmişdə, həm də çağdaş dövrdə xalqın öz torpağı, azadlığı uğrunda dönməz mübarizəsi, hərb tarixinin şanlı səhifələri təbliğ olunmalıdır. Misal olaraq bir detalı qeyd edək ki, İkinci Dünya müharibəsi mövzusu Sovet kinomatoqrafiyasında başlıca mövzulardan biri idi və bu kinomatoqrafiyanın inkişafına böyük təkan verdi. Bütövlükdə, Qarabağ müharibəsi – minlərlə şəhidimizin həyat və müharibə yolu, qəhrəmanlarımızın, döyüşən şəhərlərimizin, rayonlarımızın, kəndlərimizin taleyi kifayət qədər işıqlandırılmayıb. Bu baxımdan, Qarabağ müharibəsi haqqında 2005-ci ildə çəkilmiş "Yalan" filmi özünün səciyyəvi cəhətləri, süjetinin maraqlılığı və dramatikliyi, obrazlarının rəngarəngliyi ilə seçilir. Filmdə müharibə dövründə yaşayan və şəhid verən bir ailənin həyatı, əzab və iztirabları işıqlandırılıb.

Mən Qarabağ müharibəsinin müsibətlərini bilavasitə görən bir insan kimi bu filmə baxandan sonra qələmə əl atmağa qərar verdim.

1990-cı illərin əvvəllərində mərhum şair Famil Mehdi ilə tez-tez Qarabağa, Ağdama gedərdik, özünümüdafiə batalyonunun əsgərləri ilə görüşlərimiz olardı. Mərhum Fred Asifin, Yaqub Rzayevin və başqa komandirlərin batalyonlarına və bölmələrinə baş çəkərdik. Belə görüşlərdən biri ərəfəsində Yaqubun oğlu Canpolad döyüşdə qəhrəmancasına həlak olmuşdu (O, Azərbaycanın Milli Qəhrəmanıdır). Biz əvvəlcə yasa getdik, sonra əsgərlərlə görüşüb söhbət etdik. Tankların önündə əsgərlərlə bir yerdə şəkil çəkdirdik. O şəkli indi mənim Facebook səhifəmə yerləşdiriblər. Bu günlərdə həmin şəklə bir də baxdım. Demək olar ki, şəkildəki əksər döyüşçülər, o cümlədən Yaqub, Baxşeyiş kişi və başqaları şəhid olublar. Düşünürəm ki, Famil Mehdi də Qarabağ uğrunda şəhid oldu, Xudu Məmmədov kimi. Bəzi ağzıgöyçəklər söyləyirlər ki, işğal olunmuş rayonlarda yerli camaat vuruşmadı, cəfəng fikirdir. Bunun üçün Facebookda həmin şəklə baxmaq, Ağdamın 6 mindən çox şəhidinin uyuduğu qəbiristanlıqlar üzərində dolaşan nigaran ruhları duymaq lazımdır. Onda belə insanlardan, şəhid olmuş şəhərlərdən, kəndlərdən onlarla film çəkməyin zəruriliyi dərk olunar. Bu boşluğu doldurmaq baxımından "Yalan" filminin müəllifləri çox uğurlu bir addım atmışlar.

Filmin quruluşçu rejissoru Ramiz Əzizbəyli və ssenari müəllifi Orxan Fikrətoğlu tanınmış imza sahibləridir. Onların hər ikisi milli-mənəvi dəyərləri üs-

tün tutan, onları ön plana çəkən şəxslərdir. Bu, onların yaratdığı əsərlərdə də özünü göstərir.

Filmin özü haqqında danışmazdan öncə, bir faktı qeyd edək ki, filmin baş qəhrəmanı olan çoban Yavər (aktyor Vidadi Həsənov) əsl Azərbaycan kişisi obrazıdır. Kişilik, qeyrət, ləyaqət baxımından çoban Yavər neçə-neçə akademikdən, professordan, şair və yazıçıdan, məmurlardan yüksəkdə duran şəxsiyyətdir. Bugünkü Azərbaycan reallığında Yavər və onu yaradan müəlliflər minlərə, milyonlara tutarlı dərs – milli hədəfə çatmaq dərsi verdi. Elə bu məqamda şəxsiyyətinə və insanlığına böyük sayğı bəslədiyim, dərin zəka sahibi, görkəmli ziyalımız Sadıq Murtuzayevin bu yaxınlarda "525-ci qəzet"də dərc olunmuş yazısındakı bir fikir yadıma düşdü: "Mən akademik tanıyıram, lakin məsləkdən əsər-əlamət yoxdur. Hərisliyi, əxlaqsızlığı, dələduzluğu göz qabağındadır, lakin böyük müsibətimiz ondadır ki, ona dözürük..." Sadıq müəllim ictimaiyyətin yaxşı tanıdığı çoban Əlini belə akademiklərdən haqlı olaraq qat-qat üstün tutur. Filmdəki çoban Yavər kimi. Necə də həmahəngdir.

Fikrim məni uzaqlara apardı. 1988-ci ilin əvvəllərində Qarabağ müharibəsi ilk şəhidləri – Əli ilə Bəxtiyar həlak olduğu vaxt böyük alimimiz Xudu Məmmədov, görkəmli şair, alim Famil Mehdi ilə məni Sadıq müəllim Ağdamda Xıdırlı kəndinə apardı. İki ayağından şikəst olan və köhnə dam altında qalan anasını və doğma kəndini gecələr mənfur erməni yaraqlılarından qoruyan 13 yaşlı qəhrəman oğlanla tanış etmək üçün. Dördümüz də bu tanışlığı özümüzə şərəf saydıq. Bir haşiyə çıxaraq deyim ki, rayon və kənd camaatının köməyi və Sadıq müəllimin bilavasitə təşkilatçılığı ilə iki günə bu ailəyə bir daş ev tikildi.

Qeyd etmək lazımdır ki, Vidadi Həsənov Yavər obrazını çox yüksək səviyyədə yaradıb. Bütün film boyu Yavərin daxili ruhi aləminin necə dəyişikliyə uğraması, psixoloji durumunun dinamikası çox yaxşı göstərilib. İlk dövrlərdə biz öz oğlunu müharibəyə, Vətənin müdafiəsinə göndərməyə hazır olan vətənpərvər bir ata obrazını görürük. Sonradan görürük ki, bu keyfiyyət bütöv bir ailəyə, nəsilə xasdır (onun babasının və atasının da müharibədə həlak olması faktı). Onun "Torpaq hamınındır, hamı da vuruşmalıdır", "Vətən hamı üçündür" ifadələri yuxarıda deyilənlərə əyani sübutdur. O, oğlunu görmək üçün cəbhə xəttinə gedən zaman hələ bu müharibənin nə qədər faciəli olduğunu tam dərk edə bilmir (qatarda gedərkən gənc əsgərlərin meyxanalarını dinləməsi səhnəsini yada salın). Həmin əsgərlər hələ müharibənin əzab-əziyyətlərini görməmiş yeniyetmə idilər. Lakin onları cəbhəyə aparan zabitin mənalı baxışlarında bu yeniyetmələrin taleyi ilə bağlı kədər hissi sezilirdi. Onu təəccübləndirən və qəzəbləndirən ilk acı reallıq bir nəfərin həlak olmuş əsgərlərin paltarlarını satmasıdır. Nəhayət, oğlu Vasifin xidmət etdiyi məxfi hissəyə gəlib çatan zaman oğlunun yaxşı kəşfiyyatçı və vətənpərvər bir əsgər olması haqda deyilənlər onda fəxr və sevinc hissi yaradır. Və sevinclə dolu bir gündə oğlunun qəfil ölüm xəbəri... Məhz bu məqam Yavəri kəskin daxili sarsıntıya və gərginliyə məruz qoyur, onun psixoloji durumunu dəyişdirir.

Oğlunun ölümü ilə yanaşı, onu ikinci bir fikir də sarsıdır və boğur: ürəyi xəstə olan həyat yoldaşına bu xəbəri necə deməli? Yavər həqiqəti gizlətmək və yalan danışmaq yolunu seçir. Ancaq bu seçim, aydındır ki, uzunömürlü ola bilməz və bu seçim onu daha bir daxili gərginliyə yuvarladır. Seçdiyi bu qərarı daha da əsaslandırmaq üçün növbəti yalana əl atır: kiçik oğlu üçün guya Vasifin göndərdiyi yalançı toqqa hazırlayır. O, içindəki sərt həqiqəti tütək çalmaqla, içkiyə əl atmaqla bir növ "çölə buraxmaq" istəyir. Lakin bu, mümkün deyil. Nəhayət, filmin sonunda şəkil çəkilən zaman, "yalançı toqqa" kiçik oğlunun belindən torpağa, otların üzərinə düşərkən bu həqiqət onun hönkürtülü göz yaşları ilə bayıra çıxır. Və ana həmin məqamda həqiqəti "eşidir".

Yavərin həyat yoldaşı Nisə xanım (aktrisa Gülşad Baxşıyeva) filmdə çox canlı obraz yaradıb. O, həyatda ailəsini, övladlarını səmimi qəlbdən sevən, onların xoşbəxtliyini arzulayan bir anadır. Oğlu müharibəyə gedəndən sonra çox narahatlıq keçirir, az da olsa, onun haqqında məlumat almaq istəyir. Bu müddət ərzində onun dünyagörüşü bir növ təkamülə uğrayır. Öz ailəsinə hədsiz sevgi və qayğı hissləri ilə yaşayan, həmişə məişət problemlərinə başı qarışan ana oğlunun cəbhəyə getməsindən sonra məlumatsızlığın yaratdığı qeyri-müəyyənliyin güclü təsiri altına düşür. Həyatın bütün ağrı-acılarına sinə gərməyi bacaran ana müharibənin problemlərini dərindən anlaya bilməsə də, intuitiv olaraq bu müharibənin törətdiyi faciəni hiss edir. Ərinin qayıtmasını gözləyən qadın televiziyadakı müharibə xəbərlərindən və səhnələrindən kəskin şəkildə təsirlənir. O biri tərəfdən, oğlunun yolunu səbirsizliklə gözləyərək, onun üçün toy keçirmək, sakit və mehriban ailə yaratmaq arzusu ilə yaşayır. Və evə qayıtmış ərinin oğlunun sağ olması haqqında dediyi yalana uşaqcasına inanır. Çünki o, məhz bu xəbəri eşitmək istəyirdi. Bu psixoloji mənzərəni seyr edərkən, belə bir fikrə gəlirik ki, hər hansı ailədə sülh və əmin-amanlıq, yaşadığın ətraf mühitdəki, ölkədəki sülh və əmin-amanlıqdan birbaşa asılıdır. Xüsusi qeyd etmək istərdik ki, ana obrazı yüksək səviyyədə ifa olunub. Ramiz Əzizbəylinin quruluşu əsasında ərsəyə gələn bu ana tipi ailə ocağının qoruyucu olan bir qadının ən gözəl obrazıdır.

Filmin rejissurasına gəldikdə, qeyd olunmalıdır ki, rejissor filmin aktyor heyətini uğurla seçib. Filmdə biz obrazların rəngarəngliyini, kənd həyatının özəlliklərini aydın şəkildə duyuruq. Ekrandakı təbiət mənzərələri özünün gözəllikləri və canlılığı ilə tamaşaçını cəlb edir. Bu cür gözəl və canlı təbiətə malik Vətənin düşmən işğalı altında olması hər bir insanda dərin təəssüf hissi doğurur və bu torpaqların azadlığı naminə mübarizəyə çağırır. Kənd insanlarının bir-birinə hər an dayaq olmaları da diqqəti cəlb edən məqamlardandır.

Filmin ssenarisi ilə bağlı onu vurğulamaq lazımdır ki, burada hamımızı düşündürən problemlər cəsarətlə əks olunub. Filmin süjet xətti Qarabağda gedən müharibə fonunda bir ailənin, bir ailə başçısının taleyini əks etdirir. Bu ailə özünün həm sevinci, həm iztirabı, həm də ümidləri ilə birgə tamaşaçının gözü önündə canlanır. Burada həmçinin kənd mühitində qorunub saxlanmış milli-mənəvi dəyərlərimiz də işıqlandırılır. Eyni zamanda, bəzi adamların Yavərin

düşdüyü durumu anlamaması, anlamaq istəməməsi, onun vəziyyətinə laqeyd yanaşması da filmdə gözdən yayınmır. Film bu cür yanaşmalar haqqında bizi ciddi düşünməyə vadar edir.

Bəstəkar Aydın Əzim Kərimoğlu filmin məzmununa uyğun musiqini yarada bilmişdir. Filmdə istifadə olunan musiqidə fraqmentlər, situasiyalar həm sakitləşdirici, həm kədərləndirici, həm də düşündürücü faktlarla tamaşaçıya təqdim olunur. Filmin əvvəlində musiqi kənd həyatının sakit axarını, daha sonra insanların çəkdiyi əzabı, yaşadığı kədəri, müharibənin amansızlığı düşüncəsini və nəhayət, Azərbaycanın sabahına olan ümidi canlandırır. Bu ümidi və inamı biz filmdəki Komandir obrazında (aktyor Ayşad Məmmədov) aydın şəkildə görürük. Özünün kiçik qardaşı hesab etdiyi əsgəri itirən zaman komandir kədər hissi keçirməsinə baxmayaraq, əsgərlərin məyus olmasına imkan vermir, onları ruh yüksəkliyinə çağırır: "Şəhidlər ölməzdir!"

Filmin sonundakı epizodda da gerçəyin üzə çıxması ilə yanaşı, başqa bir həqiqət də özünü aydın şəkildə göstərir. Yavərin əsgər forması geymiş, əlində silah tutmuş və bir az da gülümsəyən kiçik oğlu mübarizə aparan Azərbaycanın yetişməkdə olan gənc nəslinin Vətənin müdafiəsinə hazır olmasının rəmzidir.

"Yalan" Azərbaycan tamaşaçısını düşündürən, onun hisslərinə toxunan bir filmdir. Bu filmin əsas mahiyyəti Vətən torpaqlarının müqəddəsliyidir. Müqəddəs amallar uğrunda mübarizə hər bir insana, hər bir millətə şərəf gətirir. Bu şərəfli yolda ağrı-acılar, çətinliklər, maneələr də olacaq. Ancaq bütün bunları dəf etmək bizim borcumuz və vəzifəmizdir. Bu vəzifənin öhdəsindən uğurla gəldikdən sonra dünya millətləri arasında başımızı dik tuta biləcəyik. Azərbaycan xalqının əsrlərlə apardığı azadlıq, istiqlaliyyət və bütövlük uğrunda mübarizə öz nəticəsini verəcək. Qələbəmiz bizi birləşdirən və xoşbəxt gələcəyə yönəldən məşəl olacaq.

30.01.2010

## QİYAMƏTƏ QALMIŞ DÖRD DƏQİQƏ

Gənc dostum Vahid Qazi! "Ruhlar şəhəri"ni ərsəyə gətirdiyin üçün sənə təbrikdən çox təşəkkür düşür. Bu kitab yumruq boyda ürəkdə Qarabağın, Ağdamın özü boyda kədər gəzdirənlər üçün, qəlbi yurd həsrətilə çalın-çarpaz dağlanmış, amma hər an ağdamlı kimi ucadan-uca qürur hissi yaşayan və yaşadan, Ağdamı qibləgahı sayan yüzlər, minlər, on minlər üçün həm təsəlli, həm də Ağdamın, bütöv Qarabağın azadlığına bir çağırışdır. Səni əmin etmək istəyirəm ki, bu çağırışa qoşulanların birincisi mən olmaq istərdim, mənim kimilər isə minlərlədir...

Kitabının ayrı-ayrı fəsillərini mətbuatdan oxumuşam. İmzanı tanıyırdım, şəxsən özünü yox (hər ikimiz Ağdamda 1 nömrəli məktəbi bitirmişik, amma aramızda xeyli yaş fərqi var). Qələminin sadəliyinə və gücünə, janr orijinallığına, doğma torpağa olan məhəbbətinə, bir də intellektinin miqyasına heyran oldum. Bir kitabın təqdimat mərasimində (sağ olsun hörmətli yazarımız Laura Cəbrayıllı) yaxınlaşıb Səninlə tanış oldum. Yazıların haqqında fikirlərimi söylədim. Toplayıb, ümumiləşdirib kitab kimi çap etdirəcəyini dedin.

İndi həmin kitaba son söz yazıram.

Əziz dostum! Sən məni (tək mənimi?..) xəyalən Xudu Məmmədovun, Famil Mehdinin, Fred Asifin, başqalarının nigaran ruhları dolaşan, həqiqi Apokalipsis yaşamış qibləgahım Ağdama apardın. Sən məni igid əsgərlərinin uyuduğu qəbiristanlıqları ziyarət etdirdin. Sən məni 26 fevral 1992-ci ildə əzizlərinin meyitlərini axtaran Xocalı əhlinin naləsinə, Ağdam Mədəniyyət Evinin, məscidin qarşısındakı meydanlara apardın. Cəmi iki həftədən sonra tüstüsü, alovu ərşə qalxan Ağdam Ticarət Mərkəzinin qənşərində dayandığım (mərhum şair Famil Mehdi ilə) yerlərə getdim.

Bir az nikbin notda danışsam sən mənə Ağdamın düz mərkəzindəki Məhəbbət bulağından su içmək fürsəti yaratdın (bu bulaq 50-ci illərin bulağı idi, itmişdi, mərhum Aydın Quliyev bizə qaytardı, yenə qayıdacağına ümidim var...). Onu da deyim ki, Hafizin "Azan" yazılmış kasetini də ilk dəfə o mənə bağışlamışdı.

Sən məni 50-60-cı illərdəki bütün əlyazmalarımın itdiyi Voroşilov (sonralar Xudu Məmmədov) küçəsindəki evimizə apardın (bu evdə mənim itkilərim tək əlyazmalarım olmadı, adamlar oldu, adamlar...). Sən məni dünyanın ən əzəmətli universitetlərinin – Berkeley, Vaşinqton, Pekin, Toronto, Ziqen və başqalarının auditoriyalarından daha uca tutduğum 1 nömrəli məktəbin 2-ci mərtəbəsindəki 10 "a" sinfində oturtdun. Süsən müəllimə ədəbiyyat dərsi aparırdı, mən şagird idim...

Ağdam Ulu Tanrının qüdrətindən yaranmış, Azərbaycana, böyük Türk dünyasına, bütün dünyaya böyük şəxsiyyətlər, sənət və elm adamları bəxş etmiş bir diyardır.

Sənin "Playing Baseball on the Chessboard: Thoughts about Genocide" (Şahmat taxtasında beysbol: genosid düşüncələri) adlı məqaləni internetdə gördüm. Qarabağ haqqında oğlunla dialoq çox ibrətamiz və kəskin idi. Məni həm də seçdiyin janr və səlis ingiliscə valeh elədi. O yazını dünyanın müxtəlif ölkələrinə, xüsusən tanıdığım alimlərə, sənət adamlarına göndərdim. Bu yazının yayılma sürəti, ona verilən qiymətlər məni çox sevindirdi. Qarabağ, Ağdam, Xocalı faciəsinin tanınmasında ağdamlı müəllifin (elə Ağdamın da) zəhmətinin dünyada qiymətləndirilməsindən qürur duymamaq olarmı?

Atom nüvə proqramı üzrə "Manhetten" proyektində iştirak etmiş bir qrup görkəmli Amerika alimi "Qiyamət gününün saatı" adlı simvolik nəhəng bir divar saatı quraşdırıblar. Bu saatda gecəyarısı – 24:00 qlobal fəlakət anını ifadə edir. İndi bu saat gecə 23:55-i göstərir. Gecə yarısına cəmi beş dəqiqə qalıb. Bu simvolik saatın böyük bir mənası var: ay insanlar, dünyanı nə günə qoymusunuz. Bu gün əllərdəki silahlar dünyanı 500 dəfə dağıtmağa kifayət edər. Elm, əfsuslar olsun ki, insandan daha çox müharibələrə və təbiətin məhvinə xidmət edib. Enerjimiz tükənib, bütün müharibələr enerji uğrundadır. Enerji mənbəyi tapmışıq, bəs onu hara istifadə edirik? Atom, hidrogen bombası hazırlamağa. Ümumibəşəri əxlaqımız yüksək olsaydı, gəmimizdə bir hüzur olardı. Sənin kitabının əlyazmasını oxuyub qurtarandan sonra bu qənaətə gəldim ki, indi həmin saatın böyük əqrəbi bir dəqiqə irəli çəkilməlidir: 23:56.

Mən 1989-cu ildə bir yazımda göstərmişdim ki, Qarabağ problemi SSRİ-nin dağılmasına aparan yoldur. Qloballaşan dünyamızda bu tarixdən ibrət götürmək lazımdır. Yer adlı kosmik gəmimizdə pozulmuş ilahi düzüm nizamlanmalıdır, insanın yaşaması üçün tövbə, barışıq və anlaşmadan başqa yolu yoxdur. Qiyamətə qalmış 4 dəqiqənin içərisində dünya və biz başa düşməliyik ki, insanlığı xilas etmək üçün ilk növbədə

Qarabağ, deməli, həm də Ağdam azad olmalıdır...

Ağdamın – Ruhlar şəhərinin və onun sakinlərinin azadlığı arzusu ilə.

23.10.2010

## YENİ SİVİLİZASİYAYA DOĞRU VƏ YA QEYRİ-SƏLİS MƏNTİQ VƏ DİN

***Bu yazı dəyərli yazarımız Oqtay Qorçunun təşəbbüsü ilə ərsəyə gəldi...***

Aləmlərin ilahi düzümünü yaradan və onların taleyini idarə edən Tanrıdır. O, əvvəl və axır, aşkar və gizlindir. O, hər şeyi biləndir (Hədis surəsi, 3-cü ayə). Yerimizdə də hər şey onun iradəsiylə qanunauyğun harmoniyada qurulub. Əfsuslar olsun ki, indi insanlar bu qanunları çox vaxt dərk edə, onlara əməl edə bilmirlər.

Bu gün yer üzündə insanlar birgəyaşayış prinsiplərindən uzaq düşüb, təbiətlə, kosmosla vəhdətdə yaşamır. Hər tərəfdə ayrı-seçkilik, konfliktlər, iqtisadi və sosial bərabərsizlik, haqq və azadlığın tapdanması, mənəvi və fiziki ərazilərimizin zibillənməsi, çirklənməsi göz qabağındadır.

İnsanın bugünkü problemləri – müharibələr, oğurluqlar, yalanlar, sevgi qıtlığı, xəstəliklər, aclıq, təhqirlər və başqaları əsasən bir mənbədən qidalanır. Ruhi səbəb-nəticənin zədələnməsi. Elə bu gücdə olan başqa bir səbəb insanların fərdi və birgə mentalının, intellektinin səviyyəsidir. Bəşəriyyətin bu problemləri elə bir səviyyəyə çatıb ki, insan övladının məhvinə potensial səbəb ola bilər.

Bu gün bütün cəmiyyətlər mükəmməl olmayan sivilizasiya özülünə əsaslanır.

Dediklərimiz sivilizasiya üçün fərqli modelə əsaslanan yeni özülün lazımlığını diktə edir. Zənnimcə, bu özül özündə yeni sivilizasiyaya adekvat mütərəqqi təfəkkür və mənəvi kamilliyin vəhdətini ehtiva etməlidir.

Bəs adekvat təfəkkür necə olmalıdır? Yəqin çoxlarına bəllidir ki, insan sivilizasiyasının dönüş nöqtələrini həmişə sayca az olan mütərəqqi təfəkkürlü güclü şəxsiyyətlər müəyyənləşdirir. Belələrinin hansı intellektə, daha doğrusu, beyinlərinin mental qabığının (fiziki beynin yox) hansı gücə malik olduğu sualı çox önəmlidir. Bu gücün əsası isə onun yiyələndiyi məntiq tipi ilə səciyyələnir.

Mənim bildiyim qədər bu gün üç tip məntiqi fərqləndirmək lazımdır. Bəllidir ki, məntiq təfəkkürün qanun və formaları haqqında elmdir. Bir qədər elm tarixinə varsaq görərik ki, təxminən bizim eramızdan əvvəl 300-cü ildə Aristotel binar məntiqi yaratdı və sonralar bu məntiq bütün Avropaya yayıldı, xristianlığa da daxil oldu. Bu gün, zənnimcə, bəşəriyyətin çox böyük əksəriyyəti bu məntiqlə düşünür. Aristotel deyirdi ki, dünya əksliklər üzərində qurulub, Budda isə deyirdi ki, dünyada hər şey özündə eyni zamanda özünün müəyyən əksini (ziddini) saxlayır. Aristotelə görə isti-soyuq, yaş-quru var, onlar arasında keçid yoxdur.

Xristianlar Allah-İblis, səma-cəhənnəm və s. yaratdılar. Bu məntiqlə düşünən insanlarda aləmin qavranması fraqmentardır, sərtdir, hər bir şey bütövlükdə yox, hissələrdən ibarət qavranılır, panoram təsəvvür yoxdur. Bu məntiqlə düşünənlər üçün cəmiyyətdə insanlar "bizimki"nə, "yad"a bölünür, onlar üçün "mənim mülkiyyətim", "mənim olmayan mülkiyyət" var, cəmi iki fikir mövcuddur: "düzgün", "düzgün olmayan", "dürüst", "dürüst olmayan"; münasibət "xoşlayıram", "xoşlamıram" kimidir.

Aristotel məntiqindən məişət məsələlərində, bəzi dəqiq elmlərdə istifadə olunur. Məsələn, qatara bilet alanda, raketin uçma trayektoriyasını hesablayanda və başqa hesablamalarda. Bu məntiq bütün bəşər təkamülü dövründə, şübhəsiz, insanlara xeyli xeyir gətirib: intizam, dəqiq elmi düşüncə tərzi, texnoloji yeniliklər. Əfsuslar olsun ki, ciddi problemlər də yaradıb. Xaç yürüşləri, "müqəddəs inkvizisiya" ocaqları, Varfolemey gecəsi, məbədlərin dağıdılması, adi və dini müharibələr, etnosların qarşıdurması belə ikili düşüncəni ehtiva edən binar məntiqlə düşünən insanların təfəkkürünün məhsuludur. Elə burda yadıma bir neçə il öncə yazdığım bir fikir düşdü: qeyri-səlis məntiqlə düşünən adam İraqı bombalamazdı. "Xəttilik", "məhdudluq" bu məntiqin əsas xüsusiyyətlərindəndir. Bu məntiq bizim apximürəkkəb dünyamızın mürəkkəb hadisələrini və proseslərini, məsələn, bir dildən başqa dilə tərcüməni, tennis oynayan robotların qurulmasını, adekvat iqtisadi modellərin yaradılmasını təsvir edə bilməz. Hələ ruhi həyatımızın, şüurun inkişaf problemlərini demirəm.

Əgər bəşəriyyət yeni sivilizasiyaya doğru – əsas prinsipi humanizm, sosial bərabərlik olan sivilizasiyaya doğru getmək işləyirsə, indiki üçüncü minillikdə daha yüksək səviyyəli məntiqə keçməlidir. Bu məntiq, zənnimcə, qeyri-səlis məntiqdir. Üstəgəl daha yüksək məntiq – Tanrı məntiqi.

Niyə qeyri-səlis məntiq?

Yüksək tip məntiqə – qeyri-səlis məntiqə keçid insanlara böyük xeyir, rifah gətirər. Bu yüksək məntiqdə bulunan insanlarda birlik, bərabərlik, tolerantlıq hissi özü-özünə yaranır. Belə olanda eqoizm, savaş hissləri arxa plana keçir. Bu məntiqə söykənən təfəkkür nəticəsində iqtisadi problemlər həll oluna, mədəniyyət çiçəklənə, texnologiyalar inkişaf edə, ziyanlı həyat tərzindən doğan xəstəliklər azala bilər.

Bir qədər qeyri-səlis məntiqin yaranması tarixinə ekskurs edək. Hələ Aristoteldən əvvəl deyilirdi ki, hər şey özündə bir qədər özünün əksini saxlayır. Bu fikirdə "ya-ya" dualizimiylə məhdudlaşan Aristotel məntiqindəki "üçüncünün inkarı" yoxdur. Sonralar fizikada kvant qeyri-müəyyənliyi meydana çıxanda fon Neyman və Kajibski üçölçülü məntiqə ehtiyac olduğunu duydular: "doğrudur-yalandır – başqa cür də ola bilər". Elə bu zaman Lukaşeviç və Brauver bir-birindən asılı olmayaraq çoxölçülü məntiq təklif etdilər. Lakin elmdə, real həyat məsələlərində inqilab edən ciddi qeyri-səlis məntiq, həqiqətlə yalanın doğruluq dərəcəsinin sonsuz kəsilməz qiymət aldığı məntiq Lütfi Zadə tərəfindən 1965-ci ildə yaradıldı. Bir az sadə dildə bu məntiqə nəzər salaq.

Qeyri-səlis məntiqə görə, bu və ya digər mülahizənin doğruluq qiyməti iki məntiqi səviyyə – 1 (doğru) və 0 (yanlış) ilə deyil, bu səviyyələr arasında sonsuz qiymətlər çoxluğu ilə təyin edilə bilər. Bu məntiq mütləq hesab olunan nə varsa hamısını rədd edir (Tanrıdan başqa). Həyatın müxtəlif sahələrində sayı elə də çox olmayan talantlı və görkəmli insanların, yaradıcı yanaşmaya və panoram təfəkkürə sahib insanların məntiqidir.

Bu tip məntiqli insanların dünyanı qavraması qeyri-müəyyəndir, qeyri-səlisdir, onlar hər şeyi dəyişən, şərti, qarşılıqlı əlaqədə və səlis sərhədləri, keçidləri olmayan kimi qavrayır. Başqalarına münasibət tolerantdır, dözümlüdür, plüra-

lizmə əsaslanır. Bu məntiqlə düşünən insanlar üçün həqiqət var, yarımhəqiqət var, tərəfli, tərəfsiz, neytral münasibət var (Aristotel məntiqi ilə düşünənlər isə hesab edir ki, kim bizlə deyilsə bizə düşməndir). Qeyri-səlis məntiq çoxsaylı interpretasiyaları, sual-cavabların müxtəlifliyini (tək "hə" və "yox" deyil), alternativlər axtarışını, əks qütblərin yaxınlaşdırılmasını özündə ehtiva edir. Qısaca desək, qeyri-səlis məntiq tolerantlıq və humanizm məntiqidir. Qeyri-səlis məntiq bütün aləmlərdə tək Tanrını mütləq qəbul edir, qalan hər şeyin dərəcəsi var. Bir də qeyri-səlis məntiqin əsas fərqi ondadır ki, bu məntiq simvollarla, rəqəmlərlə deyil, sözlərlə, fikirlərlə, cümlələrlə, informasiya qranulları (topluları) ilə təbii dildə işləyir.

O, müsəlmandır.

O, Allahı sevir.

O, insanı sevir.

O, ləyaqətli insandır.

Sadaladığımız müddəalar, istər teoloji olsun, istər mənəvi, Aristotel məntiqi ilə qiymətləndirilə bilməz. Kim aydınlıqla deyə bilər ki, bu müddəalar mütləq olaraq ya doğrudur, ya yalan. Çünki "müsəlman" olmaq, "sevmək", "ləyaqətli" olmaq daha dürüst yanaşdıqda qeyri-səlisdir, axı bu sözlərin mənasının sərhədləri yoxdur. Bütün zamanların dahisi Üzeyir bəyin "O olmasın, bu olsun"unda Məşədi İbad müsəlmanlıq sərhədini aşıb "əsl müsəlman" anlayışına girir. Yuxarıda gətirdiyimiz 2-ci müddəada Mövlanənin Allaha sevgisi, 3-cü müddəada Dostoyevskinin insana sevgisi hansı sərhəd bilir?

Qeyd edim ki, dinlərdə doktrinal və etik müddəaların çoxu həqiqətdir. Ancaq cürət edib demək istəyirəm ki, bir çox doktrinal və etik kateqoriyalar qeyri-səlisdir (həqiqətdir, ancaq sərhədsiz həqiqətdir, çoxlu təfsirləri var, çalarları var). Fikrimi dəqiqləşdirim. Qurani-Kərimdə deyilir: Yaxşı iş görənləri cənnət və daha artıq mükafat gözləyir... ("Yunus" surəsi, 26-cı ayə). Məhəmməd peyğəmbərin bir hədisində deyilir: "Bir insanın həqiqi zənginliyi onun bu dünyada etdiyi yaxşılıqlardır". Və ya ölmüş itə baxanlar deyirdilər ki, nə pis üfunət iyi verir, İsa peyğəmbər (ə) isə "nə gözəl dişləri var" deyirdi. Burada işlənən "yaxşı iş", "daha artıq mükafat", "həqiqi zənginlik", "nə pis", "nə gözəl" ifadələri göstərir ki, qeyri-səlis məntiq dili və müqəddəs dinlər necə qovuşur. Zənnimcə, müqəddəs kitabların təfsiri qeyri-səlis məntiq dilində daha adekvatdır. Deyirlər, İncilin 5000-ə yaxın təfsiri var. Görünür ki, bunun səbəbi təfsir verənlərin hansı məntiqlə düşünməsindən çox asılıdır.

2012-ci ili dünyanın axırı kimi qəbul edənlər, ərzaq, şam tədarükü görənlər görən hansı məntiqlə düşünürdülər? Aləmlərimizin ilahi düzümünü, mövcudluq qanunlarını Tanrı yaradıb. Yaşadığımız aləmdə dünyanın axırını öncədən görə bilmərik, proqnoz edə bilmərik. Buna 3-cü səviyyəli məntiq cavab verə bilər – Tanrı məntiqi, müqəddəslərin məntiqi (bu barədə bir qədər sonra).

Bir çox insan dünyanın axırını astrofizik mənada deyil, ruhi mənada anlayır. Allahdan uzaqlaşmaq, mənəvi erroziya, əxlaqımızın güclü tənəzzülü, tək coğrafi deyil, həm də mənəvi ərazilərimizin işğalı, dünyamızı 500 dəfə dağıtmağa gücü çatan silahların yığılması dünyanın axırı deyilmi?

Bu gün dünyamızın insanlarını, xüsusən alimləri, teoloqları, ruhaniləri bir problem çox düşündürür – "böyük partlayış" nəzəriyyəsi və eksperimenti. Elmi ədəbiyyatda göstərildiyi kimi Oksford Universitetinin bir professoru görkəmli astronom dostundan xahiş edir ki, "böyük partlayış" (big bang) nəzəriyyəsini izah etsin. O, imkanı qədər çalışır ki, cavab versin. Oksford professoru sualın cavabından sonra deyir: "Bəs məkan və zamanın spontan başlanğıcının mümkünlüyünü fizikanın hansı fundamental qanunu ilə izah edək?" Astronom gülür: "Ah, indi biz elmin izah edə biləcəklərindən qıraqdayıq". Belə nəticəyə gəlirəm ki, (həmişə düşündüyüm kimi) aləmlərin İlahi düzümünü Tanrı yaradıb. Hansı məntiqlə? Bax, bu məntiqi bu gün 3-cü məntiq adlandırardıq – Tanrı məntiqi. Bu məntiqə görə aləm Tanrının ağlının içindədir. Bu məntiq birincilərdən fərqli olaraq hər cür real dünya məsələlərinin həllinə tətbiq oluna bilər. Bu məntiqi yalnız müqəddəslər yaxşı anlayır və insanların həyat normasına çevirməyə çalışır. Tanrı məntiqinə aparan yol ən düzgün yoldur.

Cəmiyyətin harmonik təşkili üçün müxtəlif məntiqi təfəkkürlü insanların münasibətləri böyük əhəmiyyət kəsb edir. Bu məntiq iyerarxiyasında bir səviyyədən digər səviyyəyə keçid yumşaq, təkamül yolu ilə olmalıdır, yuxarı pillədəki məntiqlə düşünənlər aşağıdakıları öz səviyyəsinə qaldırmalıdır. Daha doğrusu, müxtəlif məntiqli düşüncələr arasında özü-özünü inkişaf özüllü bir körpü yaradılmalıdır. Burada körpüsüz keçid, sıçrayış fayda verməz. Binar məntiqlilər qeyri-səlis məntiq təfəkkürünə sahib olmağa çalışmalı, alınsa Tanrı məntiqinə gedən körpü ilə irəliləməlidirlər. Bu təfəkkür təkamülünün pozulması, onu pozmağa cəhdlər, tarixdən bəlli olduğu kimi, dini savaş, inkvizisiya, "cadugər ovu" və başqa fanatizm təzahürləri ilə sonuclanıb. Qeyri-səlis məntiq təfəkkürünə keçən insanlarda tolerantlıq, dözümlülük, ağlın çevikliyi o qədər inkişaf etməlidir ki, müqəddəs kitabların sakral mənasını anlaya bilsinlər. Qeyri-səlis məntiqiylə düşünənlər özlərində şüurlu surətdə elə yüksək əxlaqi keyfiyyətlər, yaradıcılıq imkanları, özünüdərketmə, özünənəzarət xüsusiyyətləri formalaşdırmalıdırlar ki, bir vaxt ruhun zadəganları olsunlar.

Qeyri-səlis məntiqə keçid heç də anarxiya ilə assosiasiya olunmamalıdır. Dünyada hər şeyin dərəcəsi olduğu kimi, cəmiyyəti təşkil edən quruluşların da dərəcəsi var. Hər hansı cəmiyyətdə heç olmasa minimal davranış qaydaları, adekvat idarəetmə qanunları işləməlidir. Bir məntiqdən digər məntiqə keçid tək təfəkkür prosesinin yenilənməsi deyil, bütün vücudun yenilənməsidir, bütün 7 çakranın, ruhun örtüklərinin yenilənməsidir, Tanrı ilə ruhun əlaqəsinin güclənməsidir.

Düşünürəm ki, bəşəriyyətin gələcək sivilizasiyalarında yeni, daha mükəmməl məntiq sistemləri yaranacaq. Bu məntiq sistemləri bəşəri təkamülün məhsulu kimi ortaya çıxacaq. İslam alimlərinin müqəddəs vəzifəsi bu məntiqlərin dərkinə, təbliğinə və tətbiqinə hazır olmaqdır.

Deyirlər şairlər Allaha yaxın olurlar. Bir müddət əvvəl mən ruhun əsl zadəganlarından olan böyük şairlərimiz Bəxtiyar Vahabzadə və Ramiz Rövşənin poeziyasının qeyri-səlis məntiqə söykəndiyini "Qeyri-səlis məntiq haqında poetik düşüncələrim"də araşdırmışdım. İndiki yazımın kontekstində baxanda gördüm

ki, Ramiz Rövşənin poeziya məntiqi 2-ci və 3-cü məntiqlər arasındadır. Onun bu məntiqi Allaha sevgidən doğan məntiqdir və bu sevginin qarşılıqlı payıdır.

"Ölüm" şeirindəki –

*Çıx qapıya, ölüm küsüb getməsin,*
*sürt üzünü ayağına-əlinə.*
*Nə yaxşı ki, bu dünyada hər kəsin*
*haqqı çatır haqdan gələn ölümə.*

*Ölüm, nə var, nə döyürsən gözünü,*
*Niyə belə itirmisən özünü?*
*Ölüm, sən ki, aydan-gündən ayırıb,*
*ömrümüzü bizə pay-pay*
*bölüşdürən ölümsən.*
*Bu dünyada*
*sən hamını bir-birindən ayırıb,*
*o dünyada görüşdürən ölümsən.*

– qayə müqəddəs kitabımızdakı məntiqdən doğmurmu?

Bu fikirlər tək qeyri-səlis məntiqə sığmır. Ondan daha yuxarıdadır. Elə ona görə də bu çoxmənalı fikirlərin təfsirinə girişmirəm.

Fikirlərimi yekunlaşdıraraq demək istəyirəm ki, gəlin insanları ikili məntiqlə Allahın yanında, ya da İblisin yanında olanlara bölməyək. İnsanların böyük əksəriyyəti bu aralıqdadır, onlarda bu və ya digər pozitivlər var. Məqsədimiz bu pozitivləri tapmaq olmalıdır. İnsanı, insanlığı danışdığımız məntiq iyerarxiyasında aşağıdan yuxarı qaldırmalıyıq, yeni sivilizasiyaya doğru. Bu yolda humanizm yeni sivilizasiyaya aparan yolda əsasdır. Çünki humanizm hər bir insanın rifahı üçün öncül meyardır. Üstəgəl ruhi təşəkkül. Qeyri-səlis məntiq dili ilə desək, biz nə dərəcədə özümüzü xoşbəxt hiss edirik, nə dərəcədə Allaha yaxınıq, nə dərəcədə öz fikirlərimizin, hisslərimizin sahibiyik, nə dərəcədə ümumi tərəqqiyə xidmət edirik, nə dərəcədə yüksək əxlaqi dəyərlərimizi, namusumuzu (peşə, ailə, millət namusumuzu) qoruyuruqsa, o dərəcədə də tez yeni sivilizasiyaya keçə biləcəyik.

Nəhayət, qeyri-səlis məntiq təfəkkürü ilə oxuculara müraciət etmək istəyirəm: bu yazının "həqiqət" və ya "yalan" olması fikrindən (Aristotel məntiqi ilə düşünənlər belə nəticə çıxara bilərlər) uzaq duraraq onda nə qədər həqiqilik dərəcəsinin olduğunu müəyyən etməyi sizin öhdənizə buraxıram.

Faydalı müzakirələr və məsləhətlər üçün dəyərli ruhani alimimiz Hacı İlqar İbrahimoğluna təşəkkür edirəm.

**P.S.** Yazı üzərində işləyərkən məntiq, teologiya, astrologiya, astronomiya və başqa yaxın sahələrdə olan elmi kitab və məqalələrdən və internet resurslarından istifadə olunub.

11.04.2013

# ZİYALILAR ÖLKƏ, ÖLKƏ ZİYALILAR AXTARIŞINDA

Bugünkü durum bizə, burda toplanmış insanlara diktə edir ki, bizim cəmiyyətimizdə ziyalıların vəziyyəti, rolu və mənası problemini gündəliyə gətirək. Birincisi, ziyalı zümrəsi, intelligentsiya nədir? Mən tərif vermək fikrindən uzağam, bir onu bilirəm ki, onun məzmunu daha çox assosiativ-emosional yük daşıyır. Bizdə çox vaxt bu anlayışda məntiqi mənadan çox emosional konseptə üstünlük verilir.

Ziyalı, intelligent – bu tək oxumuş, savad görmüş adam deyil, intelligent əqli əməklə məşğul olan, əqli yaradıcılıq nizamı olan kəsdir. Mən "yaradıcı ziyalılar" terminini elə də qəbul etmirəm (yaradıcı olmayan ziyalı varmı?). Bütün ziyalılar yaradıcıdırlar. Ancaq ideoloji yönümlü sifarişlə yaradanlar bügünkü günümüzdə mənim nəzərimdə intelligent yox, "muzdlu" işçilərdir. Ziyalılıq zümrəsinə o insanlar daxildir ki, onlar iqtisadi, partiya, dövlət məcburiyyətindən, ideoloji öhdəliklərdən azaddır. Ziyalılığın əsas prinsipi – intellektual azadlıqdır. Ziyalı ancaq öz vicdanının səsindən, bir də fikrindən azad deyil. Ziyalı vicdanı tək onun şərəfinin qoruyucusu, senzoru deyil, əsasən onun azadlığının sükançısıdır. O imkan vermir ki, bu azadlıq nizamsızlığa, özbaşınalığa gətirsin, xüsusən indiki kimi qarışıq bir zamanda və məkanda ziyalıya həqiqi yol göstərir. Bu prizmadan baxaraq deməliyəm ki, biz hamımız professionalları və professionallığı yüksək qiymətləndiririk, lakin bilməliyik ki, ziyalı və ziyalılıq başqa şeydir. O, çoxmeyarlı bir anlayışdır. Geniş müzakirə mövzusuna çevrilmiş, lakin özünə stabil yer tutmuş aşağıdakı meyarlarla, ölçülərlə sizi tanış etmək istərdim:

1. Öz dövrü üçün qabaqcıl mənəvi ideallara sahib olmaq, yaxın ətrafına diqqətcil, təzahüründə yumşaq və ədəbli olmaq;
2. Aktiv əqli iş və davamlı özünətəhsil;
3. Öz xalqına inam, kiçik və böyük Vətənə fədakarcasına tükənməz məhəbbətə əsaslanan vətənpərvərlik (patriotizm);
4. Bütün ziyalı təbəqələrinin (bir çoxları tərəfindən yalnız bədii ziyalılara aid edilməsinə baxmayaraq ) yaradıcılıq tükənməzliyi, fədakarlıq;
5. Müstəqillik, azad özünüifadəyə meyil və onda özünü tapma;
6. Ədalətsizliyin, antihumanizmin, antidemokratizmin istənilən formada təzahürünün məzəmmət edilməsi;
7. Ən çətin şəraitdə belə vicdanı tərəfindən formalaşmış əqidəsinə sadiqlik, hətta, özünütəcridə meyillilik;
8. Özünü realizə (real və yaxud xəyali) olunmaması səbəbindən inciklik hissinin güclənməsi.

Bu kriterilər ziyalılara, intelegensiyanı identifikasiya etməyə imkan verir. Oturulmuş fikir belədir ki, bu kriterilərin 50%-dən çoxuna cavab verəni zi-

yalı zümrəsinə mənsub etmək olar. XXI əsrdə müharibələr tək ərazi, enerji və içməli su mənbəyi üstündə yox, daha çox fikir, ideya, identiklik üstündə gedir. İntelegensiya, mədəni və humanitar elita cəmiyyətin o hissəsidir ki, fikirləri, ideyaları, identikliyi yaradır, idarə edir. Bu gün Azərbaycan ziyalılarının əsas missiyası o olmalıdır ki, Azərbaycanın tarixi missiyasını anlasın, ictimai durumu bu indeferent vəziyyətdən çıxartsın, Azərbaycan özünüidentifikasiyanın statusunu və cəlbediciliyini yüksəltsin. Həmişə intelegensiya millət qarşısında yüksək çaplı məsələ qoyur. Azərbaycanın gələcəyi hər şeydən əvvəl Azərbaycan ziyalılarından və intellektuallarından asılıdır. Gözlənilən sivilizasiyada Azərbaycanın yeri necə olacaq? Əfsuslar ki, bu ritorik sual deyil. Bu gün biz elə bir ziyalı təbəqəsinə çevrilməliyik ki, bu ictimai məna yükü daşıyacaq təbəqə xalqın ağrısını başa düşsün, onun üzüntülərini hiss etsin, ona güc versin, bu ağrı və üzüntüləri aradan götürməkdə ona yardımçı olsun, onun birliyinə çalışsın. Mən birlik, yaxınlaşmaq deməkdə bir istiqamətdə fikirləşməyi, bir nöqtəyə baxmağı nəzərdə tutmuram, mən sinergetik təfəkkür tərəfdarıyam, qeyri-xətti nəticə çıxarma tərəfdarıyam. Bir az qərb təcrübəsinə müraciət etmək istəyirəm. Əksər qərb cəmiyyətlərində intelligensiya həqiqətdə ictimai-siyasi proseslərə təsir edən faktordur. Məsələ ondadır ki, inkişaf etmiş demokratik ölkələrdəki siyasi və iqtisadi dairələr intelligensiyanın ekspertizasının, məsləhətlərinin, tövsiyələrinin vacibliyini çox tez və aydın başa düşdülər. Birmənalı anlamalıyıq ki, intelligensiya millətin humanitar aurasını yaradır, "yumşaq güc" formalaşdırır və buna söykənərək, ölkə və xalq beynəlxalq siyasətdə və dünya tarixində təsdiqlənir.

02.07.2010

# Rafiq Əliyevin həyat yoldaşına yazdığı yazılar

*Dünyada hər bir şeyin qiyməti onun səndən nə dərəcədə uzaq olan məsafəsi ilə ölçülür.*

**Rafiq Əliyev**

*Həyat, Allahın verdiyi ömür payı, kiçik bir andır. Gərək elə yaşayasan ki, bu sonsuz kiçik anda belə izin görünsün.*

**Rafiq Əliyev**

*Ölməmək üçün unudulmamaq gərək.*

**Rafiq Əliyev**

## GÖZLƏRİN BURAXMIR MƏNİ…

***Unudulmaz ömür-gün yoldaşım Aidə xanımın əziz xatirəsinə***

**Əzizim Aidə,** sabah sənsizliyimizin 40-cı günüdü. Bu günlər ərzində gücüm ancaq məzarının üstünə çiçəklər düzməyə çatdı. Dünən təzəcə qoyulan başdaşındakı şəklinə baxanda sənsizliyin nə demək olduğunu ilk dəfə dərk elədim…

Bu şəkli mən seçdim, yüzlərlə şəklin içindən. Dünyanın Amerika, Almaniya, Fransa, İspaniya, Avstriya, Belçika, Türkiyə, Kipr, Rusiya, Finlandiya, Çexiya, Təbriz və Şuşasında, doğma Ağdamda – nə sadalayım, yüzlərlə, minlərlə şəkil çəkdirmişik. Bu sənin zahirini, daxili dünyanı bütün çalarları, özəllik və gözəllikləriylə əks etdirən şəklindi – mənim seçdiyim şəkil. 47 il birgə yaşanan ömrün acılı-şirinli anlarını, xatirələrini əks etdirən şəkil. Bu gün başdaşına həkk etdirdiyim şəkil.

Bu, 47 il əvvəl qəlbimə gömdüyüm şəklinin eynidi, sanki. O vaxtkı kimi fikirlisən, dərin düşüncələrdəsən, gözlərin yol çəkir, üzündə gülüşdən çox hüzn var. Narahatsan!

Qarabağdan, ilahi nizamı pozulmuş, böyük bir hüzursuzluq yaşayan dünyamızdan narahat idin. Deyirdin, bu gün dünyamız ədalətə hamilədi, özü də yarımçıq ədalətə yox! Bəlkə, elə o nigaran qaldığın dünyanın kölgəsidi, üzündə əksini tapıb?!

Əzizim, hələ gənc vaxtlarımda sənə bir şeir yazmışdım: “Gözlər”.

*Mən nə deyim o gözlərə,*
*Ulduz deyim…*
*Yox, ulduzlar Göydə yanır,*
*O gözlərsə ürəyimin*
*Lap içində alovlanır…*

O, sentimental gənclik qığılcımlarından törəyən alov idi. İndi isə mənə baxan o gözlər bir köz parçası kimi qəlbimi yandırır.

Əzizim Aidə, səni hər gün, hər an düşünürəm, düşünəcəm də. Lakin mənim bütün rahatlığımı alan sənin məzar daşındakı şəklindən baxan, yol çəkən, ürəyimdə dilim-dilim alovlanan, közərən, yandıran nisgilli gözlərindi. Hansı səmtdən şəklinə baxıramsa gözlərin mənimlədi.

…Hava qaralır, şəklinə baxa-baxa qəbiristanlıqdan çıxmaq istəyirəm. Gözlərin buraxmır məni.

Qulağıma səs gəlir! Novruz qabağı razılaşdıq ki, bir müddət Kiprdə qalıb müalicə alasan, mən də bir neçə günlüyə Bakıya gedib yarımçıq işlərimi bitirib qayıdım. Vida anında “Məni tək qoyub getmə!..”, – dedin. Getmədim, yanında qaldım. Oğlun da, gəlinin də, nəvələrin də – hamımız yanında idik. İndi qulağıma gələn həmin səsin əks-sədasıdı: “Məni tək qoyub getmə!”

Yarı ciddi, yarı zarafat deyirdin ki, haqq dünyasına qovuşanda məkanlarımız yan-yana olsun, əlin əlimdə. Həmişəki kimi bu istəyinə də əməl etməyə çalışdım.

Jurnalist dostum İlqar Rəsul "Azadlıq" radiosundakı verilişində bədahətən məndən soruşmuşdu: "Ölüm nədir?" "Ölüm borcdu, bir də ölümsüzlüyün başlanğıcı" – demişdim. Sən borc sevən deyildin… bizdən tez qaytardın borcunu. Allahın izniylə, mən də bu borcu qaytaranda əlim əlində olacaq.

Görüşənədək…

**Sənin Rafiqin**

30.05.2011

## İL OLDU...

***Unudulmaz ömür-gün yoldaşım Aidə xanımın əziz xatirəsinə ikinci məktub***

**Əzizim Aidə,** sənsizliyin bir ili tamam olur. Sənə birinci məktubumu sənsizliyimin qırxıncı günündə yazdım. İndi ikinci məktubu yazmamaq mənim gücüm xaricindədir. Bu günlərdə dost-tanışı, qohum-əqrəbanı il mərasiminə dəvət edəndə çoxundan eyni şeyi eşitdim: "Bir il nə tez keçdi?" Hardan bilsinlər ki, bir ilin hər günü mənim üçün bir əsrə bərabər idi. Hardan bilsinlər ki, gecələr bu qədər uzun olarmış. Nəvəmiz Nicatın Almaniyadan "Facebook" səhifəmə göndərdiyi Könül Xasıyevanın ifasındakı "Gecələr" şərqisi hər gecə könül həmdəmim olur. Bir də mənim gecə həmdəmim dəyərli dostumuz Şahbaz Xuduoğlunun sənin haqqında çap etdirdiyi "Gözlərin buraxmır məni" kitabıdır. Şahbaz bəyə bu ərməğan üçün həmişə mənən borclu olacam (O, maddiyyata yönəlik düşüncə sahibi deyil). "Dəyərlər" saytından gözəl jurnalist Kamal bu yaxınlarda mənimlə bir saatlıq söhbət elədi. Axırıncı sualı beləydi: "Aidə xanımsız bu bir ildə həyatınız necə keçdi?"

Əzizim, əfsuslar ki, sən o cavabı oxuya bilmirsən. Ancaq əminəm ki, o cavab ruhuna hopub: Əgər buna həyat demək olarsa, bu bir ildə bir an belə olmayıb ki, mən onun ruhu ilə bir yerdə olmayım. Ancaq nə etmək olar?" Dünyanın çoxsaylı ölkələrindən olan dostlarımız sənin haqq dünyasına qovuşmağınla əlaqədar başsağlıqları göndərərkən həyata fəlsəfi baxmağı, ailəmizin qalan üzvləri üçün, el üçün, xalq üçün yaşamaq gərəkdiyini tövsiyə edirdilər. Böyük şairimiz Nazim Hikmət demişkən, onsuz da birimiz o birimizdən nə vaxtsa tez getməliyik. Hörmətli yazarımız və dostumuz Elxan Xanəlizadə səndən sonra "Bizi tanıdanlar" adlı bir film çəkdi. Düşünürəm ki, sənsizliyimin acılarını və iztirablarını çox ustalıqla verib. "Gözlərin buraxmır məni" kitabında dəyərli şairimiz Mübariz Məsimoğlunun yazdıqları necə də həyatidir. Jurnalist Mübariz bəydən soruşur ki, yeni yaranan ədəbiyyatımızda qadına ali, ilahi sevgini görmürük. O isə cavabında deyir ki, bu günlərdə mən bu sevgini gördüm və çox təsirləndim, Rafiq Əliyevin qadınına yazdığı məktubu oxudum, bu, əsl ədəbiyyat nümunəsi idi. 10 fevralı – doğum günümü birinci dəfə sənsiz keçirdim. Yalnız bacıların, Kəmalə və Şamil, bir də dostlarım Pərviz və Ramin mənimlə idi. Hamımız səninlə görüşə gəldik. Pərvizin və Raminin həmin gündən yazısına sənin ruhun necə də hopmuşdu…

Əzizim Aidə, minnətdaram ki, mənə Kəmalə, Zülfiyyə, Rəşad kimi övladlar bəxş etmisən, Leyli kimi gəlin qismətimizə çıxıb. Bu bir ildə onlar məni heç tənha qoymadılar. Həmişə yanımda oldular. Hərdən Kəmalə mənə irad tutur ki, niyə yeməyini axıra kimi yemirsən. Görən, o bilirmi ki, hər dəfə sənin payını saxlayıram?.. Həyatın qəribə anları varmış. Təzada bax. İndi hər an mən üzülürəm ki, niyə mənimlə bir yerdə deyilsən. Əminəm, sən də düşünürsən ki, nə yaxşı bir yerdə deyilik.

**Sənin Rafiqin**

21.04.2012

## ÇƏHRAYI PALTARLI QADIN

***Unudulmaz ömür-gün yoldaşım Aidə xanımın əziz xatirəsinə üçüncü məktub***

**Əzizim Aidə,** sənsizliyimdən düz iki il ötür. Bu məktub mənə iki əsr kimi görünən müddətdə sənə yazdığım üçüncü məktubdur. Özün oxuya bilməsən də ruhunun gözləri ilə onları oxuyursan, əminəm ki, o nisgilli, həsrət dolu sözlərim sənin ruhuna hopub. Axı bu iki ildə elə bir dəqiqə olmayıb ki, sənin ruhunla dərdləşməyim.

Yadındamı, yarızarafat-yarıciddi tez-tez mənə deyərdin ki, bu qədər kitab yazmısan, onun heç birini mənə ithaf etməmisən. Mən isə səni inandırmaq istəyirdim ki, Şərqdə sağ olan həyat yoldaşına əsər ithaf etmək qəbulolunmazdır. Sən isə zarafatla deyirdin: "Ölməyimimi gözləyirsən?"

Taleyin gərdişinə bax...

Bu müddətdə Qərbdə iki yeni nəzəriyyəmi – ümumiləşmiş qərar qəbuletmə və dayanıqlıq nəzəriyyələrini əhatə edən bir kitab çap elətdirdim. Bu kitab, düşünürəm ki, yazdıqlarım bütün kitablar içərisində ən qiymətlisidir. Həm də ona görə ki, o kitabı sənin heç vaxt unudulmayan xatirənə, bir də sənin ürəyini xəstə salan oğlumuz Rahibin əziz və zərif xatirəsinə ithaf etdim. Keşkə sən sağ olanda bu ithaf olmuş olaydı.

Əzizim Aidə, keşkələr hər gün ruhumu bədənimdən qoparır. Dostum və qardaşım Ramiz Rövşənlə tez-tez görüşürəm və hər görüşəndə "Qara paltarlı qadın"dan söhbət düşür. Bu şeir milyonların ruhuna hakim kəsilib. Bir dəfə Ramiz Rövşənlə bir görüşdən qayıdarkən nəvən Rafiq dedi ki, Ramiz müəllimin şeirləri özünün dilində daha əzəmətli səslənir. O, hər dəfə "Qara paltarlı qadın"ı deyəndə mən yalnız sənin ruhunla söhbətləşirəm: "Axı niyə mənim qara paltarlı qadınım olmadın? Axı niyə?"

*...Hər kişinin öləndən sonra*
*qəbri üstə ağlayası*
*Bir qara paltarlı gözəl qadına*
*ümidi var.*

Axı niyə qoymadın ki, sənə deyə biləm:

*Yeri, yeri, qara paltarlı qadın,*
*Kiri, kiri, qara paltarlı qadın.*
*Bu qəbir də min qəbirdən biridi,*
*baş daşımı bəsdi basdın bağrına.*
*Bütün mənə ağlayanlar kiridi,*
*sən də kiri, qəbrim damır, ağlama!..*

Sonra isə özümə təskinlik verirəm. Deyirəm ki, Tanrının işinə heç kim qarışa bilməz. Bir gün gələcək ki, səninlə görüşəndə, qara paltarda yox, sənin və mənim çox xoşumuza gələn çəhrayı paltarında qarşıma gəlib əllərimdən tutanda, qəbrimə daması qəmli göz yaşların sevinc yaşı kimi ovcuma töküləcək.

Ovcumuzdakı göz yaşlarını görənədək...

**Sənin Rafiqin**

19.04.2013

## ÜÇ ƏSRDƏN UZUN ÜÇ İL…

*Unudulmaz ömür-gün yoldaşım Aidə xanımın əziz xatirəsinə dördüncü məktub*

**Əzizim Aidə,** sabah sənsizliyimin üçüncü ili tamam olur. Mənim üçün üç əsrdən də uzun olan üç il. Yadındamı, 80-ci illərin əvvəlində böyük yazar Çingiz Aytmatovun "Roman qazeta"da dərc olunmuş "Gün var əsrə bərabər" əsərini 3-4 dəfə dönə-dönə oxudum. Anlayırdım ki, an var, gün var, insanlar üçün əsrdən də uzun bir təlatümlü həyat yaşamıdır. Nə biləydim ki, başıma gələcək.

Niyə üç əsr? Axı hər an mən səni düşünürəm, mən səninləyəm. Bu hər anın ayrılıq yükü, əzab yükü toplananda heç üç əsrə də sığmaz. Bu yükü həmişə mənim real və virtual, xəyallar dünyamda daşıyıram. Bütün kodlarım da sənlə bağlıdır, sənin doğum gününlə, nişan günümüzlə, toy günümüzlə, sənsizliyimin başladığı günlə. Gücüm tək bircə şeyə çatır ki, bir an belə məzarının üstündəki qızıl gülləri solmağa qoymayım.

Yəqin deyəcəksən ki, axı bu nə yaşamdır, nə güzərandır, özünü üzmə. Sorma ruhi güzəranımı, əzizim. Bu böyük dünyada qərib olmaq, sənsizlikdən doğan qəriblik nə qədər ağırmış. İnsanın içərisindəki tənhalıqdan ağır nə varmış?!

Bu il Amerikaya ilk dəfə sənsiz getdim. Dəfələrlə birgə gəzdiyimiz prospektlər, yaşadığımız evlər, nəhəng ormanlar sənsiz mənə necə də xırda görünürdü. Təkcə böyük görükən səninlə axırıncı dəfə Amerikada olanda dostum, qardaşım professor B.Fazlollahinin Atlantdakı evinin həyətində onun həyat yoldaşı Afaq xanımla əkdiyiniz ağaclar idi, lap Ağdamın İmarətindəki çinarlar boyda… Eh, Ağdam boyda, Qarabağ boyda, Sən boyda və başqa neçə-neçə itkiləri olan adamın güzəranı necə olmalıdı axı. Hansı şəhərdə olurdumsa dostlar, tanışlar səndən söhbət açırdılar, sənli xatirələri çözürdülər.

Aidə, bu məktub bir tərəfdən də əvvəlki məktubumdan ötən bir il üçün hesabat məktubudur. Sənin əziz xatirəni əbədiləşdirmək üçün hörmətli şairimiz Rəfail Tağızadə və dəyərli yazarımız Seymur Əliyev "Yoxluğu hiss olunan İnsan" adlı nəfis bir kitab nəşr elətdirdilər. O kitabda sənə həsr olunmuş şeirlər, esselər, xatirələr toplanıb. Kitabın üstündəki şəkil sənin ən çox sevdiyin şəkildir, bu şəkil həm də məzar daşının üstünə həkk olunub. O şəkildə biz bir yerdəyik, oradan yalnız sənin şəklini götürmüşəm. Sən həmişə deyirdin ki, ikimizin bu şəklini böyütdür, vur otağımıza. Hələlik bu arzunu yerinə yetirə bilməmişəm, çünki sənin şəklinə baxa bilmirəm, baxanda ruhum bədənimdən oynayır. Lakin vəsiyyət edəcəyəm ki, bu qoşa şəklimizi böyüdüb, üç ildir qapısını aça bilmədiyim otağımızın divarından assınlar. Yadındamı, keçən məktubumda yazmışdım ki, sağlığında həmişə mənə yarı ciddi-yarı zarafat deyərdin ki, bu qədər kitab yazırsan, heç birini mənə ithaf etməmisən. Sənə yazmışdım ki, 2013-də Almaniya və Amerikada çıxan kitabımı, yeni nəzəriyyəmi sənə ithaf etdim. Ötən ildə "World Scientific" nəşriyyatında və Amerika "Springer" nəşriyyatında dərc olunan 2 kitabımı da sənin əziz xatirənə ithaf etdim. Ötən il sənin sevimli nəvən Günay Yaxın Doğu Universitetinin tələbəsi oldu. Yeri gəlmişkən, deyim ki, bu Novruz günlərində Kiprdə olarkən, Universitetdə doktor

tələbələrim üçün dərs keçərkən dostları, ailə üzvlərini bir ziyafətə dəvət etmişdim (həmişə səninlə etdiyimiz kimi). Söhbətlər getdi, xatirələr çözüldü, birdən tələbə Günay söz istədi. Dedi: "Heyif, bu dəfə sevimli Aidə nənəm bizim aramızda deyil, ancaq O, cismani olaraq aramızda yoxdu. O, həmişə mənimlədir, O, həmişə bizimlədir…" Qəhər onu boğdu, göz yaşına sahib çıxa bilmədi. O biri nəvələr də ona qoşuldu. Yaxşı ki, bir müddətdən sonra professor Nazim Mahmudov ovqatı bir qədər durulda bildi. Bu il sevimli nəvən Rafiq 12-ci sinfi bitirib dünyanın sayılan-seçilən top universitetlərindən birinə qəbul oldu. Sevimli nəvələrin Nicat Münhen Universitetini, Nihad isə İstanbul Universitetlərinin birini bitirdi.

Əzizim Aidə, mən səndən sonra bu üç ildə heç bir bayram keçirməmişəm, hətta bayram günlərində telefon zənglərinə də cavab vermirəm ki, məni təbrik etməsinlər. Lakin telefon ismarıcları olur. Dəyərli tələbəm dosent L.Qardaşova Novruz günlərində telefonuma bir bayram ismarıcı göndərmişdi. Əsasən sənə həsr olunmuşdu. O, yazmışdı ki, nəvələrinin uğurları Aidə xanımın ruhunu sevindirəcək. Düz deyir. Bu məktubu ruhunun gözləri ilə oxuyanda, nəvələrinin uğurunu görəndə ruhun bir daha təzələnəcək, sevinəcək.

Əzizim Aidə, mənimlə hər bir müsahibədə jurnalistlər hökmən səninlə bağlı suallar verir, sənə yazdığım məktublara istinad edirlər. Öz yazılarımda da həmişə sənli xatirələrim yer alır. Bu günlərdə dəyərli jurnalistimiz Şahanə Rəhimli məndən bir müsahibə götürmüşdü. Çox hissəsi sənə həsr olunmuşdu. Dostum, böyük şairimiz Ramiz Rövşən də çox yüksək qiymətləndirmişdi bu müsahibəni.

Şahanə soruşur:

– Çəhrayı rəngi sevirsiniz, bu rəngin içində nələr var, hansi sirlər gizlənib?

– Bu ayın 21-də həyat yoldaşımın dünyasını dəyişməsinin 3 ili tamam olur. Bir yazı hazırlayıram. Keçən il də birini yazdım: "Qara paltarlı qadınım olmadın, niyə". Ona "Mediaforum" saytında dəyərli dostlarım belə başlıq qoydular: "Çəhrayı paltarlı qadın". Çünki orada çəhrayı paltar barədə bir epizod var idi. Mənim də, həyat yoldaşımın da sevdiyi çəhrayı rəng idi. Adətən çəhrayı paltar geyinərdi. O rəng mənə bütün gəncliyimi, həyatımı xatırladır.

Bu müsahibə ilə eyni zamanda gözəl yazarımız İlqar Rəsul APA TV də mənimlə bir veriliş apardı. Orada da çox suallar sənlə əlaqədar idi. Onu da deyim ki, dəyərli şairimiz, əziz dostum Musa Yaqub gecə saat 12-də mənə telefon açıb kədərli-kədərli öz təəssüratlarını bölüşdü, axı o da bu həyatı yaşayır. İlqar Rəsulun axırıncı sualı belə idi:

– Rafiq müəllim, o dünyaya gedəndə nə aparacaqsınız və kimin görüşünə tələsəcəksiniz ilk olaraq?

Sual məni çox tutsa da, bir qədər pauzadan sonra cavabım qısa oldu: – Tanrıya şükür.

Ümid edirəm ki, məni çəhrayı paltarda qarşılayacaqsan və onda bir daha deyəcəyəm: "Tanrıya şükür…"

**Səni əbədi sevən Rafiq**

18.04.2014

## SƏNSİZ...

***Unudulmaz ömür-gün yoldaşım Aidə xanımın əziz xatirəsinə beşinci məktub***

***Göz yaşında çimən dünya,***
***Üzün-gözün təmizdimi?***
***Qalanların yaddaşında***
***Gedənlərin əzizdimi?***

**Ramiz Rövşən**

**Əzizim Aidə,** sənsizliyimin 4 ili tamamdır. 4 əsrə bərabər bu 4 ildə necə dözdüm, necə yaşadım, bir Allah bilir. Bir onu bilirəm ki, bu 4 ildə bir dəqiqə belə olsun sənsiz olmadım. Gecə də, gündüz də dünyanın harasında olursa olum hər bir an sənin ruhunla birgə oldum. Gücüm ayrı nəyə çatır ki, bir ona çatır ki, məzarın üstündəki qızıl gülləri solmağa qoymuram. Bir də sənin güllər içində ən çox sevdiyin yasəmən olduğundan məzarın ətrafında 4 yasəmən ağacı əkdim.

Sənsiz... sevimli nəvən Nihadın izdivac mərasimi oldu. Necə yerin görünürdü?! Özün olmasan da ruhunun o sarayda pərvaz etməsi aydınca hiss olunurdu. Bütün mərasim boyu sən anılırdın. Sağ olsunlar qızın Kəmalə və Şamil, gözəl, çox təsirli bir film ərsəyə gətirmişdilər və mərasim də o filmlə başladı. Mənə yüz Oskarlı filimdən də çox təsir edən bu filmdə sən və səninlə keçirdiyimiz günlər, aylar, illər də təsvir olunmuşdu. O filmə baxandan sonra ruhunun qanadlarında hara getdiyimi, dünyanın harasında olduğumu belə təsəvvür edə bilmirdim. Axı niyə sənsiz idim. Axı bu günü sən çox arzulamışdın.

Məni özümə qaytaran əziz qardaşım, böyük şairimiz Ramiz Rövşənin təbrik söyləyərkən, Aidə xanımın ruhu şad olsun və indi bu ruha ithaf olaraq gözəl sənətkarımız Nadir Hüseynovun Cəfər Cabbarlının “Ana” şeirini söyləyəcək, deməsi oldu.

El ağsaqqalı, böyük ziyalı, əziz dostumuz Sadiq Murtuzayev sənə yazdığım 4 məktubdan danışaraq bu məktubların hər il onu kövrətdiyini, göynətdiyini dedi və söylədi ki, ailə xoşbəxtliyi, sədaqət nədir sualına cavabı bu məktublarda tapıram. Dediyi, “Aidə xanımın ruhu qarşısında baş əyirəm” sözləri yenə də məni öz məhvərimdən çıxardı. Sevimli sənətkarımız, sənin də, mənim də böyük rəğbət bəslədiyimiz Nəzakət Teymurovanın “Qal sənə qurban”ı və “Qarabağ şikəstəsi” isə məni heç özümə dönməyə imkan vermədi. Heç bilmirəm bütün bu mərasim boyu mən özümə gələ bildimmi. Yox, sənsiz yox...

Sonradan mərasimin lent yazısına baxarkən gördüm ki, bu şad gündə, bu qədər dostlar, əqrabalar arasında üzümdə-gözümdə nə boyda hüzn var. Sənsizlikdən.

Sənsiz... Bu il Almaniyada Zigen Universitetinə getdim. Həmişəki kirayələdiyimiz evdə qala bilmədim. Axı o evin hər bucağına, divarına, həyətindəki hər ağacına sənin ruhun hopub. Ora yaxın başqa bir yerdə qaldım. Universitetin həyətindəki zoğal ağacı. Həmin ağac, budağından tutan isə sən yox, ruhun idi. Bir gün axşam üstü bir qədər hava almaq üçün Wiedenauya düşdüm. Gözümə sənin çox xoşladığın "Asiya" mağazası sataşdı. Sənli günlərimi xəyalən bir də yaşamaq üçün qeyri-iradi içəri girdim. Qarşıma yürüyən Koreyalı satıcı dərhal almanca soruşdu: bəs Aida xanım haradadır? Susdum. Bir də israrla sualını təkrar etdi. Nə deyəcəyimi bilmədən ordan uzaqlaşdım.

Almaniyada olan ailəvi dostlarımız bir gün də məni tək buraxmadılar. Hər görüşümüzdə də sənli günlərimizi anırdıq. Mən Almaniyadan Bakıya qayıdanda yaxın dostumuz Eberhard və həyat yoldaşı Ulrike mənə bir hədiyyə verdilər və xahiş etdilər ki, diqqət yetirim, sındırmayım. Nədir demədilər. Bakıda evdə açıb baxanda qeyri-iradi beynimdən və ürəyimdən bir hiss keçdi – bundan da böyük hədiyyə olarmı. Nə vaxtsa onların çəkdiyi və indi böyütdürüb çərçivəyə saldığı foto: biz qoşa, əlim çiynində, üzümüzdə xoşbəxt təbəssüm. İndi o təbəssüm də yox, o xoşbəxtlikdən əsər-əlamət də. Lakin əlim çiynindədir, ruhunun qanadlarında. Sənə qovuşanda da həmişə əlim çiynində olacaq (axı sağlığında sən belə arzulamışdın). O portret indi evimizin salonunda mərkəzi yerdə asılmışdır, hər gün əlim çiynində olan Aidəmi görürəm. Onu da deyim ki, hədiyyə – portret bağışlayan dostlarımız mənə məktublarında yazdılar ki, o şəkil onların da salonlarında asılmışdır.

Sənsiz... ötən ildə mənə elm sahəsində 2 beynəlxalq ödül verildi. Biri "Ömürlük nailiyyət" ödülüdür. Bunu elm, incəsənət sahəsində əbədi uğur qazanmış insanlara verirlər. Elvis Bresley, The Beetles, L.Zadə bu mükafata layiq görülüblər. Təqdimat Fransada, Parisdə oldu. Mərasimdə hər an gözüm səni axtarırdı. Axı hamıdan çox sən sevinərdin, mənimlə birlikdə. Bircə ruhunun gözündəki sevinci hiss edirdim. Bir ay bundan öncə mənə yeni bir ödül verdilər, Amerikadan, beynəlxalq ödül – "Elmdə seçilmişlər" ödülü. Təqdimat İspaniyada olacaq. Yenə də sənsiz...

Əzizim Aidə, sənli günlərimin bir anını belə, yüz belə ödülə dəyişərəmmi? Əsla. Nə etməli, qismət beləymiş.

Deyəsən çox uzatdım. Amma neyləmək olar, axı ürəyim doludur. Bir də ki, əzizim, axı bizlərdən nigaransan, məktub gözləyirsən, həm də asudəsən, vaxtın da çox, həm də yəqin yaman darıxırsan.

Sənsiz... Mən də yaman darıxıram. Qardaşım Ramiz Rövşənin poeziya dili ilə desəm –

*Bu nə təhər darıxmaqdı,*
*Axı, belə kim darıxır?*
*Cibimdə əlim darıxır,*
*Ağzımda dilim darıxır.*

*Darıxır qabım-qaşığım,*
*Darıxır yorğan-döşəyim,*
*Evdə qalsam, ev-eşiyim,*
*Yol getsəm, yolum darıxır.*

*Hara atım bu kədəri?*
*Yox hesabı, yox qədəri,*
*Görünür məndən ötəri*
*Hardasa ölüm darıxır...*

Sən də darıxırsanmı, əzizim Aidə? Darıxma? Görüşənədək...
**Sənin Rafiqin**

20.04.2015

# İNSAN TƏK VALİDEYNLƏRİNDƏN YETİM QALMIR...

***Unudulmaz ömür-gün yoldaşım Aidə xanımın əziz xatirəsinə altıncı məktub***

***Bu vaxtsız sevginin əcəli yetdi,***
***Buydu qismətimiz –***
***ya tez, ya da gec.***
***Hərə öz dərdini apardı-getdi,***
***Bəs niyə dərdimiz azalmadı heç?***

**Ramiz Rövşən**

**Əzizim Aidə,** içimdəki dərd özümdən də böyükdür. Hər axşam, hər səhər evin hər bir bucağında, hər tərəfində səni gəzirəm, səni axtarıram. Haraya baxıram ancaq səni görürəm. Sanki sənin surətinlə dolub ev-eşik də, çöl-baca da, bütün dünya da. Bilmirəm bu dərd dolu hicran niyə bizi seçdi. Səhərlər "sabahın xeyir", axşamlar "gecən xeyrə qalsın" kəlmələrini indi şəkilinə baxıb deyirəm. 21 aprel bu canlı, sevə-sevə söylədiyim kəlmələrin kəsildiyi gün, dünyama qaranlıq çökən gün. Sən dünyadan köçən gün, mənim dünyamı dəyişdiyin gün.

İçimə həsrət yağışı yağır. Sənin səsinə, nəvazişinə həsrət qalmışam. Qəm çəkmək nə qədər çətin imiş. Sən mənim içimdə sevinc, kədər, həyat eşqi olan dünyam idin, getdin dünyam boşaldı. Sən gedəli bağımızdakı cığırları da otələf basıb. O cığırlar da sənin ayaq izlərinə yaman qəribsəyib. Sən gedəli səhər tezdən oxuyan o quşlar da daha oxumurlar, sanki onlar da mənim kimi ayrılıq ağrısı keçirirlər.

Eh, indi sən məndən nə qədər uzaqdasan, əlim çatmır, ünüm yetmir. Elə bir yerdəsən ki, istəsəm də ora gələ bilmirəm, Tanrının işinə qarışa bilmirəm. Amma hər axşam yuxularıma gəlirsən. Yaxşı ki, yuxular var. Bir də ki, yaxşı ki, xəyallar var, axı bəzən insan elə xəyallarda, xatirələrdə yaşayır, mənim kimi. Səndən ayrı qalmaq və ömür boyunca (bilmirəm nə qədərdir) bu ayrılıq yükünü çəkmək çox çətindir, çox, çox... Necə qəribsəmişəm səninlə keçən o günlər üçün. Bir gününə dözə bilmədiyimdə 5 ilinə necə dözdüyümü sorma.

Əzizim, yəqin bilmək istəyirsən ki, bu 5 ildəki sənsiz günlərim necə keçir.

...Gecə keçir, siqaretin tüstüsünü sümürə-sümürə otağın pəncərəsindən mürgüləyən küçələrə, ağaclara baxıram, xəyalımda mürgüləyən baş daşın boylanır. Acılı-şirinli uzaqlardan boylanan xatirələrin üzür məni. İnsan tək valideynlərindən yetim qalmır, sənsizlikdən də yetim qalır. İndi təsəllimi xatirələrdən alıram, ancaq o xatirələr də, baxdığım şəkillərin də mənə təsəlli deyil. Şəkil demişkən. Axı son vaxtlar sən mənə deyirdin ki, bizim qoşa şəkilimizi böyütdür, otağımızdakı divardan as, xatirə üçün (o şəkili bu məktubum üçün

seçdim). Sənə göndərdiyim əvvəlki məktublarımda yazmışdım ki, sən gedəndən bəri o otağımıza girə bilmirəm. Ancaq bu məktubu yazmağa başlayarkən o şəkili götürüb böyütdürmək üçün otağa girəndə təəccüb məni boğdu. Divardan bizim böyüdülmüş həmin qoşa şəkilimiz boylanırdı. Qızımız Kəmalədən soruşdum bu necə olub. O, mənə dedi ki, sən getməmişdən öncə bu şəkili böyütdürüb divardan asmışdım. Əzizim, ürəyinə nəsə dammışdımı? Deyəsən, hə.

Pəncərədən ayrılıram, soyuq yatağıma uzanıram, yeganə təsəllim olan yuxuda sənlə görüşmək üçün...

Gəldin, xeyli söhbət etdik, hiss etdim ki, məndən çox niğaransan, hər sözündə, hərəkətində bunu görürdüm. Nə tez getdin, istədim dalınca su atım ki, tez qayıdasan. Sən qapıdan çıxarkən yuxudan dik sıçradım, gördüm ki, əlimdəki arxanca atacağım su yox, yanaqlarımdan süzülən iki yaş damcısıdır. Eybi yox, qoy o damcılar arxanca atdığım su olsun.

Əzizim Aidə, sonuncu məktubumdan keçən bir il ərzində sənə sonsuz sayğı bəsləyən, səni öz doğma övladı kimi sevən böyük dostumuz Lütfi Zadə ilə birlikdə ABŞ-da bir kitab çap etdirdik, dürüstlüyü ehtiva edən ədədlər hesabı kitabı. Sən gedəndən sonra bütün yazdığım kitabları sənin unudulmaz xatirənə (unudulmayanlar ölmürlər) həsr etdiyim kimi, bu kitabı da sənin əziz xatirənə həsr etdik. Ancaq bu yeni hesab da görəsən 5 ildəki sənsizlik əzablarımın hesabını verə bilərmi. Əsla yox, bunun üçün qeyri-səlis məntiqə söykənən hesab yox, İlahi məntiqə əsaslanan hesab lazımdır.

Əzizim, çox yormaq istəmirəm bu məktubu oxuyacaq ruhunu.

Yadındamı, mənim heç kimdən iqtibas etmədiyim, tez-tez sənə də söylədiyim bir fikrim var idi – dünyada hər bir şeyin qiyməti onun səndən olan məsafəsi ilə ölçülür. Görən o dünya ilə bu dünya arasındakı məsafə nə qədərmiş? Heç kim bilmir. Sonsuzluq boyda, sənsizlik boyda. Sənin də qiymətin mənim üçün sənsizliyim boydadır.

Görüşənə kimi...

**Sənin Rafiqin**

19.04.2016

## TƏNHALIQ YÜKÜ AĞIR OLURMUŞ

***Unudulmaz ömür-gün yoldaşım Aidə xanımın əziz xatirəsinə yeddinci məktub***

***Bu vaxtsız sevginin əcəli yetdi,***
***Buydu qismətimiz -***
***ya tez, ya da gec.***
***Hərə öz dərdini apardı-getdi,***
***Bəs niyə dərdimiz azalmadı heç?***

**Ramiz Rövşən**

**Əzizim Aidə,** bilmirəm bu dünyanın qəsdi nəymiş, dərdimiz heç azalmadı, sənsizlik dərdim azalmadı, Qarabağ dərdim azalmadı. Bu dərdlər dünyanın özündən də ağır imiş. Səndən ayrı qalmaq və bu ayrılıq yükünü çəkmək çox çətindir. Həsrət yağışı içimdə, həsrət dumanı sənə aparan yollarımda. Səsinə həsrət qalmışam, xoş nəvazişinə həsrət qalmışam. Tənhalıq yükü nə ağır olurmuş. Gecələr daha çox hiss edirəm bunu. Qaranlıq otaq və dörd divar üzümə vurur tənhalıq rüzgarını. Otaq buz kimi, duyğularımda buza dönüb, özüm də, çünki məni isindirən o baxışların indi yoxdur. Heç bilmədim hardan yol alıb gəldi bu ayrılıq. Niyə məni isindirən, yaşadan o gözləri itirdim. Bu dünyada insanı tənhalıq qədər əzən ikinci bir şey varmı?

Yeməyə otururam, boğazımda ilişib qalan tikənin təkliyidir tənhalıq.

Səfərə çıxıram, arxamca atılmayan su, quru pilləkənlər, budu tənhalıq. Ovucumda əllərinin istiliyinin yoxluğudur tənhalıq. Minlərlə insan içində də tənhayam. Mənim tənhalığımı sonlaşdıran o izdihamlar deyil, sənin nəfəsin, sənin səsin olardı. Yeganə təsəllim budur ki, səni tez-tez yuxularımda görürəm. Dünən gəlmişdin, dedin ki, çox üzülmüsən, özünə fikir ver, soyuqdur isti geyin. Əllərindən tutmaq istədim, uzaqlaşdın, gedirəm dedin. Eybi yoxdur, sevgisi son nəfəsilə canından çıxanların qismətidir tənhalıq. Sən sevgini ürəyimdə keşikçi kimi qoyub getmisən. Sənin sevginin qoruduğu ürəyə yad nəfəs yaxın düşə bilməz. İçimdəki bu tənhalıq boşluğunu yalnız sən, o yerin sahibi doldura bilər.

Əzizim Aidə, əvvəlki məktublarımda da yazdığım kimi səndən sonra mən heç bir şənlik tədbiri keçirmirəm. Sevimli dostlarım bu günlərdə mənim ad günüm üçün bir yığcam tədbir keçirdilər. O gün səhər sənin məzarın üstünə gəldim. Qızıl gül çələngi gətirmişdim sənə. Bilirsənmi o gün ən böyük hədiyyəm nə oldu. Məzar daşındakı gözlərindən axan damcılar. Qulağıma pıçıltılar gəldi: axı niyə sənin çiyninə bu qədər ağır ayrılıq yükü qoydum.

Bir də hörmətli ağsaqqalımız, layiqli ziyalımız Sadıq Murtuzayevin yüzlərlə şəkillərimiz içərisində sənin və mənim ən çox xoşladığımız qoşa şəkilimiz olan hədiyyəsi.

Sevimli dostum Fərhadın (yadındamı, bizim toyumuzun tar ifaçısı o olmuşdu) hədiyyəsi isə özünün ifa etdiyi "Zəminxarə" (axı o muğamın nisgilli sədaları həmişə məni sənin yanına aparır), bir də sənə ithaf olunmuş "Həkim qız" şərqisi oldu.

O şəkil, bir də nəvələrinin hədiyyə etdiyi boşqab üzərində həkk olunmuş həmin qoşa şəkilimiz hər bir otağımızın divarından asılıb. Öncə sənə yazmışdım ki, o şəkilin başqa bir böyüdülmüş forması qapısını 6 ildir aça bilmədiyim sənin otağının divarından asılıb.

Əzizim Aidə, gözlərinə, sözlərinə, nəvazişinə həsrət qalandan yoxa çıxdı səadətim, çiyinlərimə ağır tənhalıq yükü düşdü.

Bu tənhalığın sonu sənə qovuşana qədərdir.

Hələlik isə gücüm bir məzarın üstündə solmağa qoymadığım güllərə çatır, bir də dualara. Bir də ona çatır ki, hər yazdığım yeni kitabı sənin solmaz, sönməz xatirənə həsr edirəm, indicə sonladığım və ABŞ-da cap olunan "Qeyri-müəyyənlık hesabı" kitabı kimi. Görən bu yeni hesab çiynimdəki tənhalıq yükünün nə qədər olduğunu hesablaya bilərmi. Düşünmürəm əzizim, bu qeyri-müəyyən dünyanın hesab kitabı yalnız Tanrı tərəfindən yazılıb.

Görüşənədək,

**Sənin Rafiqin**

18.04.2017

## AYRILIĞIN ÜZÜ DÖNSÜN...

***Unudulmaz ömür-gün yoldaşım Aidə xanımın əziz xatirəsinə səkkizinci məktub***

***Könlümü hansı gecə ayrılığın qan etməz?***
***Hansı çarən sınıq qəlbimi nalan etməz?***
***Bir gün olmaz ki, sənin möhnatı-eşqin, gözəlim,***
***Qəlbim atəşkədə, göz yaşımı ümman etməz.***

**Fələki Şirvani**

**Əzizim Aidə,** bu gün 21 aprel, sənin anım günündür. Ömrümün qədəhinə sənsiz daha bir gün dolur, qəhərli, kədərli, nisgilli bir gün. Həsrət nə tez döydü qapımızı. Gedişinin qəlbimdə açdığı yara sənə qovuşana qədər sağalmayacaq. Bu qərinələr qədər uzanan sənsizlik günlərimdə səni bir an olsun belə unutmadım, səni hər dəqiqə içimdə yaşadıram. Dünya səninlə necə də işıqlı və gözəl idi. Min günəş qaranlığımı işıqlandıra bilərmi indi? Sənsizliyə alışmaq sular üzərində rəsm çəkmək qədər çətin, yoxluğuna dözmək ölüm qədər acı. Ayrılığın üzü dönsün...

Yəqin sən də öyrəşməmisən mənsizliyə, sənsiz səninlə yaşayacağam həmişə, bir-birimizə qovuşana qədər. Sən həmişə mənimləsən, bunu beynimə də, qəlbimə də, xatirə dəftərimə də yazmışam. Hə, xatirə dəftəri demişkən, əziz dostum, böyük şairimiz Musa Yaqubun sənin əziz xatirənə həsr etdiyi və bu günlərdə çap etdirdiyi "Sən mənimləsən..." şeirindən bir parçanı sənə ərmağan etmək istəyirəm.

*…Ucalığa və kamilliyə gedən birgə ömür yolumuz birdən-birə daraldı, təkləndi, qırıldı və bitdi. Neynək, bu da Allahın işidi! Düzdür, indi o, yanımda yoxdur, amma yaxşı ki o, hələ mənimlədir…*

**Professor Rafiq Əliyevin xatirə dəftərindən**

*Nə yaxşı bilmisən xəstə halımı*
*Həqiqət eylədin xoş xəyalımı.*
*Sənin nəfəsindir, sənin əllərin*
*Oxşayır ruhumu, ovur alnımı –*
*Kövrəltdi əlimi isti yaşların...*
*Var ol, bu istəyə, təmasa görə,*
*Mənimçin Allaha yalvarışların,*
*Nə deyim bu nəzir-niyaza görə?..*
*Mən indi bildim ki, sən mənimləsən...*
*Sən ey mavi göylər,*
*Səmavi göylər!*

*Görəsən göylərin qəfəsi varmı?*
*Görəsən ruhların nəfəsi varmı?*
*Üfüqdən-üfüqə uça bilirsə,*
*Durna qatarında nizam qalacaq.*
*Bizi o qatara yazan qalacaq.*
*Qalacaq, məhəbbət təzə qalacaq!*
*Sədaqət rəmzidir,*
*Bir yaşam tərzi,*
*Leylək yuvaları,*
*Haqq tərəzisi,*
*Bir gözündə mənəm,*
*Bir gözündə sən,*
*Yer üzündə mənəm,*
*Göy üzündə sən.*
*Göyün azadlığı saxlayar bizi,*
*Yerin tarazlığı saxlayar bizi.*
*Qalarıq yer ilə göy arasında,*
*Gedərik ələnmiş ələklər ilə,*
*Gələrik qanadlı mələklər ilə.*
*Deməli əbədi sən mənimləsən.*

Şair düz deyir, gördüyünü, eşitdiyini, bildiyini deyir. İstər ailə, istər dostlar çevrəsində elə bir söhbət olmaz ki, orada sən anılmayasan. Bu günlərdə yeni yazdığım 600 səhifəlik bir kitab ABŞ-da çap olundu. Sənsizlik vaxtlarımda yazdığım bütün kitablar kimi bu kitab da sənin unudulmaz xatirənə ithaf olunmuşdur. Bir də əziz qardaşım, dünyaca ünlü şairimiz Ramiz Rövşənə və sənin də, mənim də dünya qədər sayğımız olan Lütfi Zadənin xatirəsinə.

Əzizim, cəmi bir neçə ay öncə bu böyük dostumuzu – Lütfi Zadəni də itirdik. O, səni doğma balası qədər istəyirdi. Dünyasını dəyişməmişdən bir qədər əvvəl mənə yazdığı bir məktubunda sənin itginin nə qədər acı olduğunu, mənim üçün sənsizliyin necə bir zillət olduğunu necə də doğma hisslərlə göstərmişdi.

Dostlarım bu kitabın təqdimatını keçirdilər (sən bilirsən ki, mən yazdığım kitabların heç birisinin təqdimatını keçirməmişəm), sənin həyatın, mənim kimliyimdəki yerin barədə gözəl bir film göstərdilər. Sənin sevimli nəvən Rafiqin (İngiltərədən bir neçə günlüyə gəlmişdi) çıxışı da elə bütöv ailəmizdə və mənim yaradıcılığımdakı ölçüyə gəlməz yerin barədə oldu, iştirakçıların diqqətini şəkdi. Kaş orada olaydın, yanımda, onda içim-içim kövrəldiyimi duyardın.

Eh, niyə taleyimizə belə tez həsrət qisməti düşdü. Biz necə nağıla dönmüş sevgı ilə yaşayırdıq, amma nağılın bu qədər tez bir sonu olacağını heç düşünməmişdim. Həyat nağıllardakı kimi deyilmiş. Dünyanın üzü çox sərt imiş.

Deyirlər ki, insan bu zalım dünyada hər şeyə alışır. Əzizim, yalandır. Ancaq varlığına alışdığım sənin yoxluğuna necə alışım. Niyə birdəfəlik əlvida

dedin mənə, axı, dünyanın şirinini, acısını, yaşadığım bütün gözəlliklərini səninlə tapmışdım. Axı, həmişə sən mənə deyirdin ki, səni heç vaxt üzmərəm, sənə narahatlıq verməröm, bəs nə oldu, yoxluğunla bunların hamısını apardın. O gün yuxuma gəlmişdin, "özünə yaxşı bax" – deyirdin, axı sən gedən gündən yaxşı deyil heç nə. Ayrılığın yaman sarsıdıb məni. Birdən oz-ozümə düşünürəm ki, səni layiq olduğun qədər sevməyə, oxşamağa vaxt tapmadım, amma sən ayrılığa nə tez vaxt tapdın.

Neynək, indi əlacım bir ona çatır ki, səni düşünürəm hər an əlimdə siqarım, ürəyimdə sənsizlik kədəri, səni axtarıram gecələrin bitməyən sonsuzluğunda, səni gözləyirəm hər axşam-səhər, bilsəm də ki, gəlməyəcəksən.

Əzizim, yormayım ruhunu, hələlik, görüşənədək,

**Sənin Rafiqin**

19.04.2018

## İKİNCİ ÖMÜR…

***Unudulmaz ömür-gün yoldaşım Aidə xanımın əziz xatirəsinə doqquzuncu məktub***

***Budur fərqi, könül, məhşər gününün ruzi-hicrandan,***
***Kim, ol can döndərər cismə, bu cismi ayırar candan.***

**Məhəmməd Füzuli**

**Əzizim Aidə,** indi mən sən gedəndən sonra ümüdlərlə yox, sənli xatirələrimlə yaşayıram. F.Dostayevski demişkən: istər şirin olsun, istər isə acı olsun, bu xatirələr bilirsənmi mənə nə qədər əzab verir. Amma indi bu xatirələr mənim üçün getdikcə zənginləşən bir sərmayədir. Deyirlər, zamanın unutdura bilməyəcəyi an yoxdur, zaman böyük loğmandır, hər bir ağrı-acını unutdura bilir. Axı, mən bunu görmədim. Sənin itgin hər an məni yandırır, yoxluğunu daha dərindən hiss edirəm. Buna loğman əli neyləsin. Sənsizliyimin bu səkkiz ilində səni səkkiz saniyə də olsun unuda bilmədim. Səninlə keçirdiyim günləri qaytara bilsəydim, saniyələrin nəbzini tutardım. Gündüzlər hər an xəyalımda sənli günlərimi yaşasam da, gecələr mən qürbətin içindəyəm. Qürbət də mənim içimdə. Ölümün ağrısı, acısı heç vaxt yaddan çıxan deyil. Çünki o, ondan betər ayrılığa aparır. Amma əzizim, bu sənin məndən cismani ayrılığındır. Cismanı olsa da, ayrılıq ölüm qədər acıymış.

Əzizim Aidə, sən getdin, amma baxdığın hər yerdə, gözlərinin izi qalan hər nöqtədə, ayaq basdığın hər torpaqda xoşbəxt günlərimizin anları yaşayır. İndi bu anların xatirələri ilə yaşamaqdı, ayrılıq.

Bu xatirələrlə yaşamaq bilmirəm ömrü uzatmaqdır, yoxsa qısaltmaq. Fərq etməz, əzizim, hər iki halda səninləyəm. Keçmiş günlərimiz ruhumun məskənidir. Nə vaxtsa keçirdiyimiz hisslərin, hətta duyduğumuz qəm-kədərin həsrətini çəkirəm.

Əzizim, öncəki məktublarımda da yazdığım kimi unudulmayanlar ölmürlər. Sən həmişə mənimləsən, bizimləsən. Dostlarımla, əqrabalarımla olan elə bir görüş ola bilməz ki, orada sən anılmayasan.

Bu il ABŞ-ın "World Scientific" nəşriyyatında sənə də, mənə də dünya qədər sayğı bəsləyən Lütfi Zadə ilə birlikdə yazdığımız 650 səhifəlik kitabımız nəşr olundu. Əfsuslar olsun ki, Zadə bu kitabı görə bilmədi. Ancaq mən çox rahatam ki, onun vəsiyyətinə əməl edə bildim. Həmişə olduğu kimi bu kitabı da sənin əziz və unudulmaz xatirinə ithaf etdim. Sənin adın və özün mənim ürəyimdə, varlığımda və dünyanın hər yerinə yayılmış bu kitablarda yaşayır. Tək mənim kitablarımda, yazılarımdamı? Çox sevdiyin nəvən Günay bu il Yaxın Doğu Universitetini qızıl medalla bitirdi, dissertasiyası yüksək qiymət aldı. Mənim üçün isə o dissertasiyanın ən böyük qiyməti ön sözdə yazılan

bu cümlədə idi: "Bu işi sevimli nənəm Aidə Əliyevanın əziz xatirəsinə ithaf edirəm".

Əzizim, ruhunu çox yormayım. Dahilər demişkən insan həyatı ilə ölür, ölümü ilə yaşayır. Böyük Hüseyn Cavid demişkən:

*Ölüm var ki həyat qədər dəyərli,*
*Həyat var ki ölümdən də zəhərli.*

Sən dünyanı dəyişsən də səni torpaqlarda deyil qəlbimizdə axtarırıq. Qəlblərdə yad edilmək, insan üçün ikinci ömürdür. Sən bizi tez tərk etdin, amma nə qədər yaşamaq yox, necə yaşamaq mühümdür. Dünyada namuslu addan şərəfli heç nə ola bilməz. Bu adı həyatınla sən özün qazanmısan. Səni həyatda saxlamağa gücüm çatmadı, amma nə qədər varamsa, səni yaşadacağam.

Görüşənədək,
**sənin Rafiqin**

19.04.2019

## RAFİQ ƏLİYEVİN AFORİZMLƏRİ

*Onun sadəliyi böyüklüyü qədərdir.*

*Allah insanı Pareto optimal yaradır: kimə nəyi, nə qədər.*

*Ağıl daim insanı irəli aparır, lakin bir vaxt o elə bir həddə çatır ki, o, yiyəsi üçün buxova çevrilir.*

*O, çox mülayim və kövrək insandır, lakin onu sındırmaq mümkün deyil.*

*Dahilik elə bir zirvədir ki, ora qaldırılmırlar, qalxırlar.*

*İnsan ucaldıqca parıldayır, bir həddən sonra fəlakət alovuna yaxınlaşır.*

*Bugünkü situasiya gələcəkdə olmuşdan o qədər də pis deyil.*

*Ölüm borcdur, onu qaytarmalısan. Bu borcun qaytarıldığı gün ləyaqətli insanlar üçün ölməzliyin başlanğıcıdır.*

*Həyat, Allahın verdiyi ömür payı, kiçik bir andır. Gərək elə yaşayasan ki, bu sonsuz kiçik anda belə izin görünsün.*

*Ölməmək üçün unudulmamaq gərək.*

*İnsanın təbiəti elədir ki, bir övladdan başqa çevrəsindəkilərin hamısına qısqanclığı var.*

*İnsanlar arasındakı münasibət ziyalılıq dərəcəsi və zəka səviyyəsi ilə müəyyənləşir.*

*Nə əkdiyini bilməyənin biçdiyi külək olar.*

*Günəşin üzünü palçıqla suvamaq, zülmlə haqqa yetişmək olmaz.*

*Nadanlıqdan qəhqəhə, sarkazmdan acı gülüş təbəssüm deyil.*

*İnsanların sifəti qədər də dünyanın sifəti var.*

*Mənəvi meyarları ranqlaşdırmış olsaydım, birinci yerdə namus və ədaləti qoyardım.*

*Əgər nəsə sənin haqqındırsa, gec-tez sən onu alacaqsan, ancaq qürurla, ləyaqətlə bu yola çıxmaq lazımdır.*

# Rafiq Əliyevin müsahibələri

*Elm adamlarının qiymətini bilməyən, onlara layiq olduqları mükafatı verməyən ölkələr inkişaf edəcəklərinə ümid bəsləməsinlər.*

**Volter**

*Rafiq Əliyev fundamental nəzəriyyələr yaratmaq və onları tətbiq etmək baxımından nadir qabiliyyətə malikdir.*

**Lütfi Zadə**

*Hər bir ölkə istəyər ki, onun Rafiq Əliyev kimi alimi olsun.*

**Lütfi Zadə**

*Problemin düzgün qoyuluşu onun həllinin yarısıdır.*

**Rafiq Əliyev**

# QARABAĞ MƏNİM ÜÇÜN ALLAHDAN SONRA HƏR ŞEYDİR

***Professor Rafiq Əliyev 70 illik yubileyi ərəfəsində Facebookdakı "Ağdamdan Qarabağa" qrupu üzvlərinin suallarını cavablandırıb***

**"Bu millət torpaqlarımızı zəka və silahla azad edəndə özünə qayıdacaq"**
**"Bu əsrin insanı ən çox ədalətə ehtiyac duyur"**

Məşhur türk yazıçısı Cəmil Meriçin bir sözü var: "Ulu çinarlar fırtınalı diyarlarda yetişir". Professor Rafiq Əliyevi mən həmin ulu çinarlardan hesab edirəm. Uşaqlıq illəri elə də ürəkaçan olmayan Rafiq Əliyev Böyük Vətən müharibəsinin gətirdiyi o dəhşətli burulğanın içərisində böyüdü. Müharibənin dadını hələ o vaxtlardan bilən Rafiq Əliyev 43 ildən sonra yenidən müharibə ilə qarşılaşdı və bu dəfə müharibə ona ömrünün sonuna qədər unutmayacağı bir dərd verdi – vətənsizlik dərdi.

Facebook sosial şəbəkəsində yaratdığımız "Ağdamdan Qarabağa" qrupunun üzvləri ənənəvi olaraq öz aralarında seçim edib tanınmış şəxsləri qrupa qonaq dəvət edir, hərəyə bir sual ünvanlayır. Budəfəki qonağımız isə fevralın 10-da 70 yaşı tamam olacaq dünyaca məşhur alim, professor Rafiq Əliyev oldu.

Rafiq müəllimlə qrup üzvləri arasında körpü olmaq mənə tapşırıldı. Düzü, bir qədər tərəddüd etdim. Onunla söhbət etmək mənim üçün həm çətin idi, həm də asan. Amma bir tərəfdən də bu böyük xoşbəxtliyi yaşamaq fürsətini əldən vermək istəmirdim.

Qrupumuzun digər üzvü Şükür Cavadla birgə Vahid Qazinin bələdçiliyi ilə vədələşdiyimiz gün Rafiq müəllimin mənzilində olduq. Düz 40 dəqiqə gecikməyimizə rəğmən Rafiq müəllim bizi elə qapıdaca gülərüzlə, mehribanlıqla qarşıladı. Onun çay süfrəsi ətrafında açdığı səmimi söhbəti, təbəssüm dolu nəzərləri bayaqdan bizi sarmış narahatçılığa son qoydu, "gecikmə sindromu"nu buz kimi əritdi.

Söhbətə qrup üzvlərinin verdiyi sualların onu olduqca təsirləndirməsindən başladı: "Bu suallar məni səhərə qədər yatmağa qoymayıb. Azərbaycanda bu cür intellektual, vətənpərvər gənclərin olmasına çox sevinirəm".

Sonra "Ağdamdan Qarabağa" qrupu üzvlərinin suallarını bir-bir cavablandırmağa başladı.

**Zaur Hacılı:**

*– Salam, Rafiq bəy! "Ovqat" verilişində çox gözəl demişdiniz ki, biz Qarabağı beyinlərdə işğaldan azad etməliyik. Bəli, bu əsl ziyalı yanaşmasıdır, bu fikirdən yola çıxaraq dəyişən dünyada qəbul olunmamız üçün dövlətimiz dəyişməni haradan və necə başlamalıdır?*

– Qarabağın ən çətin, ən qara günü onda başladı ki, bu problem beynəlxalq müstəviyə çıxarıldı, onun həlli ATƏT-in Minsk Qrupunun himayəsinə verildi. Dünyanın güc mərkəzlərinin öz mənafeyi var və Qarabağ kartından hərəsi özü üçün istifadə edir. Bu gün problemin həlli Rusiya, Amerika, Fransa üçün o qədər də prioritet məsələ deyil. Bu, beş-on adamın beyni deyil, oturub fikirləşsin, siyasi fəzada elə bir nöqtə tapsın ki, dünya güclərinin hamısından optimal bir məsafədə uzaqlaşa və onların mənafeyini nəzərə ala bilsin. Bunun da yolu elmdir. Konfliktologiya elmi var. Dünyada bu cür konfliktlər ancaq bu yolla həll olunur. Mənim bildiyimə görə, bu cür konfliktlər üzrə təxminən 20-yə yaxın etalon model var. Təbii ki, bu konfliktlərin oxşarlığı olsa da onlar bir-birindən fərqlənir. Ona görə də mən bu fikirdəyəm ki, institutlar yaranmalıdır. Hətta bu yaxınlarda mən bir yerdə oxudum ki, Ermənistanda Qafqaz İnstitutu yaradılıb. Adı Qafqazdı, amma Qarabağ problemi ilə məşğul olur. Yəni elmi araşdırmalar aparır. Bizdə niyə yoxdur ki?! Lakin istənilən halda elmin çıxaracağı o optimal qərarı həyata keçirmək üçün güclü ordu lazım ola bilər.

**Şah Şirin Türksoy:**

*– Rafiq müəllim, "ərəb baharı" adı altında inqilablar oldu və davamı da gözlənilir. Sizcə, bu, xalqların istəyi ilə baş verdi, yoxsa maraqlar vardı? Burada xarici amil rol oynaya bilərmi, yoxsa həqiqətən xalq diktatoru öz istəyi ilə devirdi? Əgər belədirsə, xalq bunu niyə əvvəllər etmirdi?*

– Ərəb ölkələrində olan hadisələr düşünmürəm ki, maddiyyat hesabına idi, ya da kiminsə mənafeyinin ifadəsi kimi baş verirdi. Liviyada həyat şəraiti yaxşı idi, o biri ölkələrdə də onun kimi. Yaxşı yaşamaq hələ ədalətli yaşamaq demək deyil. Heç düşünmürəm ki, Amerika Mübarəkin devrilə biləcəyini proqnoz eləmiş olsun. Bu əsrin insanı ən çox ədalətə ehtiyac duyur. Mən buna bütün varlığımla inanıram. Bu baxımdan da düşünmürəm ki, Misirdə və ya digər ərəb ölkələrində baş verən hadisələr kiminsə mənafeyi üzərində qurulmuşdu. Bu, dünyada bu gün gedən prosesdir və bir az gec, bir az tez dünyanın bütün bucaqlarını əhatə edəcəkdir. Hesab edirəm ki, bu, ancaq xalqların istəyidir. Bugünkü dünya bir il əvvəlki dünya deyil. Biz iki il əvvəl "Toplum" jurnalında bir müsahibə çap elədik, adı belə idi: "Wikileaks dünyanı dəyişəcək". Orada qeyd etmişdim ki, dünyada diktatorların hamısı gedəcək. Hələ onda bu hadisələr baş verməmişdi.

**Qabil Hüseyn:**

*– Rafiq bəy xalqın ziyalı nümayəndəsi kimi bu gün Qarabağa qayıdış yolumuzun haradan keçdiyini düşünür?*

– Bu yol Cənubi Qafqazda demokratiyadan keçir. Gərək Cənubi Qafqaz ölkələrində demokratiya olsun. Bu ölkələrdə iş başında xalqın etimad etdiyi hakimiyyətlər olsun. Ümumiyyətlə, hakimiyyətin gücü xalqın etimad dərəcəsi ilə ölçülür. Əgər etimad varsa, onda bu ölkələr də dil tapa bilər. Demokratiyanın əsas şərtlərindən biri tolerantlıqdır. Yəni bir masa arxasında oturub danışmağı bacarmalıdırlar. Düşünürəm ki, belə bir mühit burada da yaranacaq və mənim fikrimcə, Qarabağın azadlıq yolu oradan keçir.

**Kənan Məmmədzadə:**

*– Rafiq bəy, üstünüzə bu qədər sərt düşmələrinin səbəbi forumlardakı çıxışınız və müsahibələriniz ola bilərdimi?*

– Bu sualın cavabını ən dürüst şəkildə "Paralel" qəzetində Şahnaz Salahqızı verib. Burada söhbət bir şeydən gedir – siyasi partiyalar, ayrı-ayrı şəxslər, media nümayəndələri biz dediyimizdən qat-qat sərt və qat-qat çox deyirlər. O sözləri onsuz da yüz dəfə eşidirlər, amma baxır sözü kim deyir. Bu baxımdan təvazökarlıqdan uzaq olsa da, mən o xanımın yazdığını müdafiə edirəm.

**Zərifə xanım:**

*– Nəyə əməl olunsa, bu millət birləşə bilər? Nəyə görə biz bir millət kimi formalaşmaqdansa, əksinə, daha geri gedirik?*

– 10 il bundan əvvəl Amerikaya gedirdim, darmacalda Tahir Aydınoğlunun xahişi ilə "Xalq cəbhəsi" qəzeti üçün atüstü bir müsahibə verdim. Müsahibənin sonuncu sualı belə idi: "Qarabağ nə vaxt azad olacaq?" Belə cavab verdim: "Meydana Azərbaycanın Atatürkü çıxanda". Bu gün də həmin fikirdəyəm. Bu millət o zaman özünə qayıdacaq, bir millət kimi özünü tanıyacaq ki, zəka və silahla gedib Qarabağı azad etsin. Onda bu millət özünə qayıdacaq. Təzadlı olsa da Qarabağ Azərbaycan milləti üçün böyük bir şansdır, amma bu şərtlə ki, Qarabağı zəka və əsgəri yolla azad edə bilsin. Bilirsiniz, başqa dövlətlərdən fərqli olaraq Azərbaycanda böyük dövlətçilik ənənəsi olmayıb. Sovet vaxtı dilimizi, mədəniyyətimizi saxlaya bilsək də bir millət kimi təşəkkül tapa bilmədik. Bu yaxınlarda məlum olay vaxtı bir ay susandan sonra bir cavabımda yazmışdım ki, gəlin bir ümumi ideologiya, xüsusən də Qarabağ ideologiyası ətrafında birləşək. Çünki Qarabağın geri alınması üçün ən yaxşı vasitə budur.

**Elnur Quliyev:**

*– Rafiq müəllim, bugünkü Azərbaycan gəncliyi sizi qane edirmi? Azərbaycan gəncliyinin necə olmasını istərdiniz?*

– Ortadan bir az aşağı! Xaricdə oxuyan azərbaycanlı gənclərin təbii ki, dünyagörüşü başqadır. Çünki onlar daha demokratik mühitdə formalaşırlar. Düzdür, burada da təpərli gənclər var. Ancaq mən istəyərdim ki, daha savadlı, dünyagörüşlü və ən əsası içindəki o qul hissini dəf etmiş gənclik yaransın. Hələ ki, elə gənclik yoxdur Azərbaycanda. Çoxunun içərisində qul hissi var. O yerdə ki, təhsil almaq, işə girmək rüşvətlə həll edilir, rəhmətlik Cavid demişkən, "Sarmış yurdu qabalıq, yaltaqlıq. Yüksəliş varsa, səbəb alçaqlıq", o yerdə ki alçala-alçala yüksəlmək var, gərək bütün gənclik onlardan azad olsun.

**Gülnar Ağdamlı:**

*– Rafiq müəllim, uşaqlıq illərini yaşadığınız Ağdamdan hansı xatirələriniz var ki, onu yada salmaq Sizə nağıl qədər şirin gəlir?*

– Elə bu axşam məni yatmağa qoymayan suallardan biri də bu olub. Uşaqlıq xatirəsindən ən yadımda qalan və tez-tez xatırladığım bir xatirəm var. Orta məktəbin 8-ci, ya da 9-cu sinifdə oxuyanda "Ana" adlı mənzum bir pyes yaz-

mışdım. O vaxt həmin pyesimi istedadlı jurnalist İlqar Rəsulun atası, mərhum Ramiz Rəsulov rejissorluq edib məktəb kollektivi ilə səhnəyə qoymuşdu. Bizə avtobus verdilər. Mingəçevirə qastrola getdik. Dörd "aktyor", bir müəllif, bir də pioner baş dəstə rəhbəri Mahirə müəllimə getdik, Mingəçevirdə tamaşa göstərdik, gözəl də qarşılandı. İndi görün sovetlərdə mədəniyyətə, ədəbiyyata nə qədər diqqət var idi. Bunu sovetlərə bir nostalji kimi demirəm.

Bir də Ağdamın qonaq evinin yanında bir bulaq vardı. Biz şagirdlər həmişə o bulağın ətrafına toplaşardıq. "Lenin yolu" qəzetində həmin bulağa həsr etdiyim "Bulaq" adlı bir şeirim də çıxmışdı. Sonra üstündən 10-15 il keçəndən sonra Ağdama qayıdanda gördüm ki, o bulağın yerində ev tikiblər. Rəhmətlik Famil Mehdi ilə yenə 1989-cu ildə Ağdama getdik, qonaq evində rayon partiya komitəsinin birinci katibi Aydın Quliyevlə söhbət etdik. Ona dedim ki, bu oturduğumuz yer var ey, burda bir bulaq var idi. O bulaq necə oldu? O da baş arxitektoru, rəhmətlik Firdovsini çağırıb dedi ki, o qoca kişini tap, soruş gör orda bulaq olubmu. Beş aydan sonra Famil Mehdi ilə yenidən Ağdama gedəndə gördük ki, orada böyük bir bulaq tikilib, üstünə də "Məhəbbət bulağı" yazılıb.

**Nuridə Turan:**

*– Sizcə, Qarabağ bizim üçün daha çox darıxıb, yoxsa biz Qarabağ üçün? Təşəkkürlər...*

– Qarabağ bizim üçün darıxıb. O, daha fədakar oldu. Bax bu yanvar günü (suallar yanvarda cavablandırılıb) o torpaq bizdən qat-qat çox üşüyür. Yiyəsizlikdən üşüyür. Biz yenə bir dost, qohum-əqrəba tapırıq, bir-birimizin istiliyində qızınırıq. Amma o, yiyəsizlikdə üşüyür. Bir də Vahid Qazinin "Ruhlar şəhəri" kitabında – mən o kitaba böyük kitab deyirəm – göstərildiyi kimi, o, daima ruhları qucaqlayır, biz isə vəfasızıq, qucaqlaya bilmirik. (Rafiq müəllimin bu sualı cavablandırdığı zaman gözləri dolur və bir neçə dəqiqə bizə məlum olmayan xatirələrə dalır).

**Barat İmani (Sankt-Peterburq):**

*– Dəyərli ziyalımızı salamlayıram. Mərhum Famil Mehdi yazırdı:*

*"Susacaqsa könül tarım,*
*Simlərini dartım qırım,*
*Millətim bədbəxtsə Tanrım,*
*Sən məni xoşbəxt eləmə".*

*Bu gün istər millətin, istərsə də Ağdam camaatının maddi və mənəvi sarsıntı keçirdiyi bir zamanda, ləyaqətli Azərbaycan vətəndaşlarının birmənalı əsl ziyalı saydığı Rafiq Əliyev özünü xoşbəxt saya bilirmi?*

– Bir Tanrıdan başqa hər şeyin bir dərəcəsi var. Xoşbəxtliyin də dərəcəsi var. Təbii ki, özümü xoşbəxt saya bilmərəm. Bayaq Ağdamdan danışanda kövrəldim. Bilirsiniz, bu nisbi, dərəcəylə olan anlayışdır. İnsan yaşa dolduqca torpaqlaşmaq istəyir, o torpaqlara qayıtmaq istəyir. Mən necə özümü xoşbəxt saya bilərəm ki, 20 ildir ata-anamın qəbrini ziyarət edə bilmirəm. Özümü necə

xoşbəxt saya bilərəm ki, mənim bütün o hisslərim, bütün vücudum hamısı heçə getdi. Aristotel məntiqi ilə birmənalı desəm ki, mən bədbəxtəm, yox, (çünki o, belə deyir ki, ya xoşbəxtsən, ya bədbəxtsən) mən bədbəxt də saymıram özümü. Orta xoşbəxtlikdən bir az aşağıda hiss edirəm özümü.

**Vahid Qazi:**

*– Fevralın 10-da 70 yaşınız tamam olur. Təbrik edirəm! 70 dəfə doğum gününüz qeyd olunub. Bunlardan hansı biri digərlərindən seçilir, sizə doğmadı? Bu, ömrün hansı çağına aiddir, neçə yaşınız vardı? O günü bizə də danışa bilərsinizmi?*

– Vahid müəllim həmişə belə suallar verir. Mən də elə onun öz stilində cavab verəcəm (gülür). Cavabım cavabsızlıqdır! Cavab verə bilməyəcəm bu suala. Ona görə ki, o günü xatırlamıram. O gün sıfırıncı gün idi, anadan olduğum gün. Ondan sonrakı yaşlarım o qədər təlatümlü, o qədər müxtəlif çalarlı olub ki. Özü də mən onu iki yerə bölərdim: Ağdamlı və Ağdamsız. Qarabağsız mən necə ad günü keçirərəm? Qarabağlı günlərimdə isə müharibə, müharibədən sonrakı hadisələr. Amma ən yaxşı günüm sıfırıncı günümdür.

**Sükür Cavad:**

*– Rafiq Əliyev azərbaycanlı olmasaydı indiyədək Nobel mükafatı ala bilərdimi və Rafiq müəllimə o mükafatı almaqda nə mane ola bilər?*

– Bizdən daha yaxşı işin ortaya qoyulması. Bütün müsəlman dünyasında cəmi bircə nəfər elm sahəsində Nobel mükafatı alıb, Abdus Salam. O da bu mükafatı Pakistandan almayıb, İngiltərədən alıb. Mən düşünürəm ki, bu elmi mühitin olmaması ilə əlaqədardır. Bugünlərdə "Nə üçün müsəlman dünyası bu gündədir?" başlığı altında çox maraqlı bir yazı oxudum. Düşünürəm ki, burda bir şey mane ola bilər, bizim işdən daha yaxşı iş ortaya qoyan bir adam olsun. Mən hesab edirəm ki, əgər mən o mükafatı alsam, bu, Ağdama – Qarabağa verdiyim ən böyük töhfəm olacaq.

**Aygün Əliyeva:**

*– Ağdamsız ağdamlı olmaq nə qədər çətindir sizə?*

– Ağdamsız ağdamlı olmaq atasız-anasız yetim olmaq kimidir. Bilirsiniz, mənim anlamımda vətən doğulduğum komadan başlayır. Əgər o komanı, öz ailəni sevə bilmirsənsə, nə Tanrını sevə bilərsən, nə Vətəni. Bu baxımdan da mən vətənlə ananı sinonim hesab edirəm. Əgər anam, atam, yurdum yoxdusa, yetim kimi hiss edirəm özümü.

**Asəf Quliyev:**

*– Qarabağ münaqişəsinin həllində qeyri-səlis məntiq nəzəriyyəsi ilə yanaşmanı mümkün sayırsınızmı? Mümkün sayırsınızsa bu yanaşmanın konturlarını göstərin.*

– Konfliktologiya elmində məlumatlar, informasiyalar, insan düşüncələri – bunlar hamısı qeyri-dəqiqdir. Yəni onlar ədədlərlə yox, sözlərlə ifadə olunur. Qeyri-səlis məntiqin də kökü ondadır ki, təbii dildə olan müddəaları işləyə bilsin, təbii dildə olan prosesləri nəzərə ala bilsin. Ona görə də müasir konfliktologiya modelləri qeyri-səlis məntiqə söykənir. Obamanın, yaxud da Sarko-

zinin fikirlərini mən necə rəqəmlərlə ifadə edə bilərəm? Bu baxımdan təbii ki, mən hesab edirəm ki, super kompüterlərdə modelləşdirilə bilən qeyri-səlis məntiqə söykənən, bütün dünya güclərinin fikirlərini nəzərə alaraq Qarabağın həlli modelini yaratmaq lazımdır. Məsələn, bir misal deyim. Bin Ladeni necə tutdular? Obama iki professor dəvət edib yanına. Bu professorlar ehtimal nəzəriyyəsi ilə, qeyri-səlis məntiqlə, proqnozlaşdırma ilə məşğul olan professorlar olub. Onlara deyib ki, belə bir üsullarınız varsa, bin Ladenin yerini tapa bilərsiniz? Onlar da deyib ki, bütün kəşfiyyat informasiyasını versəniz çalışarıq hesablayıb tapaq. Hesablayıb tapdılar ki, evindədir, filan yerdədir. Hətta onun boy ölçüsünü və digər amilləri hesablayıb buna nail ola bilmişdilər.

**Vüqar Tofiqli:**

*– Fikrinizcə, sizin qeyri-səlis məntiq nəzəriyyəsinin köməyi ilə Azərbaycanda 50 ildən artıq kök atmış regionçuluq prinsiplərini sındırmaq olarmı? Ümumiyyətlə, belə bir məqamı aradan qaldırmaq üçün nəyi təklif edərdiniz? Əvvəlcədən təşəkkürlər!*

– Aristotel məntiqindən uzaq düşünən lider lazımdır Azərbaycana. Aristotel məntiqində deyirdi ki, ya dost var, ya düşmən. Bu həm də Lenin təfəkkürüdür. Leninin də bir məşhur kəlamı var idi: "Kim bizdən deyil, o bizim düşmənimizdir". İliç (Lenin) təfəkküründən fərqli bir insan milləti bu yola çəkə bilər.

**Vüsalə Məmmədova:**

*– Rafiq müəllimə Lütfi Zadənin davamçısı deyirik... Bəs kimə Rafiq Əliyevin davamçısı deyəcəyik?*

– Bu çətin sualdır bir az. Mənim təxminən yüz əlliyə yaxın aspirantım müdafiə edib, onun otuza qədəri elmlər doktorudur. Dünyanın hər yerinə səpələniblər. Son illərdə isə Azərbaycanda elm inkişaf etmədiyi üçün, şərait olmadığı üçün onların əksəriyyəti başqa ölkələrdə yaşayır. Əlaqələr kəsildi, bir yerdə işləyə bilmədik. Oğlum Rəşad Əliyevlə bərabər bir neçə kitab yazmışıq. Onun məndən qat-qat üstün bir çox keyfiyyətləri var. Məsələn, o ingilis, alman dilini məndən yaxşı bilir, başqa sahələr var ki, məndən yaxşı bələddir, bir sıra ölkələrdə çalışıb. Amma ona həmişə bir nəsihətim olub ki, bir otağım var, orada hamısı kitablardır, onların hamısını itirsən də Lütfi Zadənin mənə vəsiyyət etdiyini itirmə, onları möhkəm saxla.

**Hazer Baycan:**

*– Salam, müəllim! Əgər Allahdan sizə fürsət verilsəydi, dünyası dəyişmiş olsa belə, hansı filosof, alim və yaxud hər hansı bir insanla həmsöhbət olmaq istərdiniz?*

– İndiki şəraitdə bu sualı tez-tez özümə verirəm. Həmişə də üç insanla dərdləşmək istəmişəm. Onlarla itkilərimi, fikirlərimi bölüşüb, məsləhət almağa ehtiyac duyuram. Bunlar Xudu Məmmədov, Famil Mehdi və Bəxtiyar Vahabzadədir. Onların üçü də mənim yaxın dostum olublar. Allah onlara min rəhmət eləsin. Əqidələri olan, sınmayan, əyilməyən insan olublar. Dördüncü həmsöhbət olmaq istədiyim rəhmətlik həyat yoldaşımdı.

**Günel Musa:**

*– İndiki statusumdan sui-istifadə edib iki sual verəcəyəm:*

**1.** *Rafiq müəllimin həyat mövzusundakı fikirlərini almaqla başlamaq istəyirəm, fransalı antropoloq Levi Strauss "Həyat böhranlar ardıcıllığıdır" deyib. Bəs sizin üçün həyatın mənası nədir?*

**2.** *Sizcə, elmdə məqsəd güc axtarışıdır, yoxsa həqiqət?*

– Mən həyatı iki anlamda duyuram. Əbədi həyat, bir də yaşam həyatı. Ümumiyyətlə, yaşam həyatı doğum, yaşam, ölüm – bu mərhələlərin bir yerdə olan vəhdəti kimi qəbul edirəm. Təzadlı olsa da ölüm böyük mənada həyatın yaşaması deməkdir. Yəni insanlar ölür ki, həyat yaşasın. Lakin mən belə hesab edirəm ki, əqidəli, Allahı sevən, ali dəyərləri özündə ehtiva edən insanlar üçün ölüm ölümsüzlüyün başlanğıcıdır.

Elmdə məqsəd həqiqət axtarışıdır. Güc həmişə həqiqətin yanındadır. Həqiqətsiz güc dəyərsiz bir şeydir. Elm həmişə həqiqət axtarmalıdır. Mən bilirəm siz nəyi deyirsiniz. Siz deyirsiniz ki, kosmosa uçanda ulduz müharibəsi aparaq, yoxsa insanların rifahını yaxşılaşdırmaq üçün başqa planetlərdə şərait axtaraq? Yaxud da atomu kəşf edəndə işıq axtaraq, enerji axtaraq, yoxsa atom bombası yaradaq? Amma inanın ki, onları yaradan o böyük insanlar bilsəydilər ki, yaratdıqları bəşəriyyətə qarşıdır, yaratmazdılar. Onlar həqiqət axtarırdılar. Böyük alimlər həmişə böyük ideallarla yaşayan insanlar olublar. Ancaq siyasətçilər o enerjini başqa istiqamətlərə yönəldiblər.

**İltifat Əliyev:**

*– Rafiq müəllim İctimai Televiziyanın "Ovqat" verilişində qonaq olarkən Lütfi Zadə haqqında danışanda onun bütün var-dövlətindən çox Qərbə uzanan təhsil körpüsünü üstün tutduğunu demişdi. Bəs Rafiq müəllim özü necə, Qərbə uzanan təhsil körpüsünümü, yoxsa Qarabağa uzanan döyüş körpüsünümü gənclərimizə rəva bilərdi? Rafiq müəllimin fikrincə, hansı daha üstündür?*

– Təbii ki, müqayisəyə gəlməyən bir şeydir. Qarabağ mənim üçün Allahdan sonra hər şeydir.

**Günel Musa**
07-08.02.2012

## GÜNƏŞİN ÜZÜNÜ PALÇIQLA SUVAMAQ OLMAZ

**“Mənəvi meyarları ranqlaşdırmış olsaydım 1-ci yerdə namus və ədaləti qoyardım”**
**“Sözün gücü tükənəndə dəyənək də kömək etmir”**
**“Əgər nəsə sənin haqqındırsa gec-tez sən onu alacaqsan, ancaq qürurla, ləyaqətlə bu yola çıxmaq lazımdır”**

“Bu gün Azərbaycan cəmiyyətinin yaşadığı problemlər içərisində bəlkə də ən təhlükəlisi sosial kodlaşdırmanın doğurduğu fəsadlardır”

***Rafiq Əliyev: “Mənim valideyinlərim və müəllimlərim mənə həyati vacib olan iki şeyi aşılamışlar: necə insan olmaq olar və necə müstəqil insan kimi yaşamalısan”.***

Yəqin hər kəs etiraf edər ki, bu gün Azərbaycan cəmiyyəti üçün aktual olan problemlərdən ən önəmlisi əxlaq və mənəviyyat problemidir. Sürətlə artan və rişələnən xərçəng hüceyrələri kimi cəmiyyəti tamamilə əhatə edən, onu küll halında məhvə – ali mənəvi dəyərlərdən məhrum formal insan yığınına çevirən bu problemlər ötən hər gün öz dağıdıcı sürətini daha da artırmaqda, dünənə nisbətən bu gün daha çox aktuallıq qazanmaqdadır. Əslində cəmiyyətdə mövcud olan dərin sosial təbəqələşmə, zülm və haqsızlıq kimi ədalətsizliklərin kökündə də məhz mənəvi dəyərlərin aşınması, bu dəyərlərin saxta, qeyri-insani dəyərlərlə əvəz olunması gerçəyi dayanır. Tanınmış elm xadimi, elmi ideyaları ilə yanaşı demokratik düşüncə tərzi, əxlaqi-mənəvi saflığı ilə də xalqın dərin rəğbətini qazanan professor Rafiq Əliyevlə söhbətimizdə də, məlum problemlərə aydınlıq gətirməyə, onlardan qurtulmağın üsul və vasitələrini aramağa çalışdıq.

*– Rafiq müəllim, bu gün cəmiyyətdə müşahidə edilən ən böyük mənəvi problemlərdən biri vicdan və ləyaqət qıtlığıdır. Sizcə vicdan və ləyaqətin bunca qəhətə çəkilməsinin səbəbi nədir? Ola bilərmi ki, insanların bir çoxu ona görə öz vicdan və ləyaqəti ilə vidalaşır ki, hər zaman olduğu kimi bu gün də onlarsız yaşamaq daha asan, daha ağrısızdır?*

– Bu sualın cavabını “Sosial kodlaşdırma”da axtarmaq lazımdır. Sizin qeyd etdiyiniz kimi, bu gün Azərbaycan cəmiyyətinin yaşadığı problemlər içərisində bəlkə də ən təhlükəlisi sosial kodlaşdırmanın doğurduğu fəsadlardır. Cəmiyyətimiz müxtəlif ruhi-psixoloji təsir vasitələrilə elə erroziyaya uğrayıb ki, bu gün qarşımızda vicdan və ləyaqət qıtlığı olan bir toplum görürük. Mənim peşə təhsilim idarəetmə nəzəriyyəsi sahəsindədir. İdarəetməyə tərif versək deyə bilərik ki, idarəetmə bu və ya digər obyekti məqsədyönlü bir vəziyyətdən digər vəziyyətə (arzu olunan vəziyyətə, koordinatlara) müəyyən zaman kəsiyində keçirməkdir. Belə bir obyekt adamdırsa, fərdsə onu manqurtlaşdır-

maq da olar (məqsəd belədirsə), ləyaqətli, vicdanlı bir vətəndaş da etmək olar. Allan Dallesin "soyuq müharibə" strategiyasında (1945-ci il) belə bir obyekt Sovet cəmiyyəti idi. O, yazırdı: "…biz bu cəmiyyətin mövcud dəyərlərini hiss olunmadan saxta dəyərlərlə əvəzləyəcəyik, toplumu məcbur edəcəyik ki, bu saxta dəyərlərə inansınlar, xalqın özünüdərkin birdəfəlik, geriyədönməz öləzimәsinə nail olacağıq... İnsanların şüuruna şəhvət, sadizm, zor, satqınlıq, bir sözlə mənəviyyatsızlıq pərçim edəcəyik. Məmurlara özbaşınalıq, rüşvətxorluq, prinsipsizlik, biganəlik hisslərini aşılayacaq, toplumda cahillik və nadanlıq, yalan və şər, narkomaniya, insanlar arasında biri-birindən heyvani qorxu hissinə pərəstiş oyadacağıq. Vicdan və ləyaqət gülüş obyekti olacaq və heç kimə gərək olmayacaq, keçmişin tullantısına çeviriləcək. Çox az insanlar anlayacaqlar ki, nə baş verir, belə insanları köməksiz vəziyyətə salıb gülünc obyektinə çevirəcəyik, yalanlar üzərində qurulmuş elə yollar tapacağıq ki, onları cəmiyyətin tullantılarına çevirək". Allan Dalles həmin yazıda göstərir ki, bəs bunları necə həyata keçirəcəyik. Həmfikirlərimizi, köməkçilərimizi və müttəfiqlərimizi Rusiyanın (yəni Sovetlərin) özündə tapacağıq.

*– Vaxtilə məşhur fransız yazıçısı O.de Balzak fərd olaraq uğur qazanmağın ən optimal düsturunu bu şəkildə müəyyənləşdirmişdi: "Cəmiyyətdə namuslu kimi görün, amma namuslu olma". Sizə elə gəlmirmi ki, bu gün öz maddi rifahını yüksək səviyyədə təmin edən insanların böyük bir qismi məhz bu düsturun tələblərinə əməl edərək bu həddə çatıb?*

– Düşünmürəm ki, O.de Balzak kimi düşüncə sahibi bu düsturu ümumi qanuna uyğunluq kimi versin. Bu ifadənin hansı kontekstdə deyildiyinin fərqində olmaq lazımdır. Ümumbəşəri düsturu isə Mövlanə vermişdir: "Ya olduğun kimi görün, ya da göründüyün kimi ol". Mövlanə bu gün bəşəriyyətin fikir dünyasına təsir edən 4-5 böyük şəxsiyyətdən biridir. Mənim həyat kredom bu düstura söykənib, Balzak düsturuna yox. Mənim valideyinlərim və müəllimlərim mənə həyati vacib olan iki şeyi aşılamışlar: necə insan olmaq olar və necə müstəqil insan kimi yaşamalısan. Ümumilikdə götürəndə namus anlayışı çoxatributlu anlayışdır. Ailə namusu, peşə namusu, ictimai namusu fərqləndirmək lazımdır. Özü də bu atributlar qeyri-asılı deyillər, namuslu şəxsiyyəti formalaşdıran hər üç atributun sinergi effektidir, birgə təsir effektidir. Yaxın dostum, böyük şairimiz Ramiz Rövşənin bir deyimi var: "ailəsinin namusunu qoruya bilməyən insan vətəninin namusunu qoruya bilməz". İctimai namusu olan adam haram tikə yeməz. Bir aksiom var: Özünə rəva bilmədiyin yaşam tərzini başqalarına tətbiq etmə. Bu gün ölkəmizdə orta statistik dünya insanı kimi yaşamaq üçün hər bir cəmiyyət üzvünə şans yaranmışdır. Ancaq bir çoxlarının acgözlüyü bu şansı əlimizdən alır. Keçmişdən miras qalmış eqoizm və dardüşəncililik çoxlarını bir ölçülü Homo economicus-a çevirdi, istənilən yolla maddi varlanmağa yönəltdi. Bundan ancaq cəmiyyətin bir təbəqəsi faydalandı. Qətiyyən onlar fərqində olmadılar ki, onların bu firavanlığı üçün başqa yaşayanlar və hələ anadan olmamışlar hansı böyük qiymət ödəmişlər. Əfsuslar ki, cəmiy-

yətimizdə xeyirxah, yumşaq rəftarlı, tolerant olmaq əvəzinə özünəvurğunluq, eqoizm prinsiplərinə daha çox üstünlük verildi.

*– Sizcə, insanın malik olduğu mənəvi dəyərlər içərisində elə bir dəyər varmı ki, insan onu itirməklə əslində hər şeyini itirmiş olur və bundan məhrum olan insanın artıq nəyə sahib olmasının heç bir önəmi qalmır?*

– İnsanın mənəvi dəyərlər sistemi çox meyarlıdır, çox ölçülüdür. Yer üzərindəki hər bir insanın bu meyarlarının fərqli bir nisbəti var. İnternetdə mənim bir deyimim qoyulub: "Allah insanı Pareto optimal yaradır: kimə, nəyi, nə qədər". Tanrı hər bir yaratdığı insana hər şeyi, yəni hər meyara görə maksimumu verməz. Ancaq onun sevgisinə tuş gəlmiş insanlara bu meyarlara görə payı daha optimal proporsiyada verər. Pozitiv insan baxımından götürsək bu meyarlar əxlaq, mənəviyyat, dürüstlük, ədalətlilik, sağlamlıq, maddi rifah, namus və başqalarıdır. Sizin sualınız onunla əlaqədardır ki, bu meyarlar içərisində dominantı hansıdır. Bunu hər bir fərd özü müəyyən edir. Orta statistik adam üçün bu seçim onun yaşadığı cəmiyyətin mənəvi durumundan asılıdır. Əgər mən bu meyarları ranqlaşdırmış olsaydım 1-ci yerdə namus və ədaləti qoyardım. Mən ilk növbədə azadlığa münasibətdə ədaləti nəzərdə tuturam. Sosial ədalət insan inqilabının əsas məqsədidir. Təbiətdə, cəmiyyətdə böhranlar, ziqzaqlar sürət yığıb müxtəlif mutasiyalar verə bilər. İdeya aləmi də belədir. Bu gün tək Azərbaycan insanının deyil, müasir dünya insanının da yaşadığı və yaşatdığı ideya sosial ədalət ideyasıdır. Bu ideya yeni humanizmin əsas prinsipi olaraq yeni dünya düzümünə ruhlandıran və təkan verən yumşaq gücdür. Beləliklə, ədalət bu gün dünyada və cəmiyyətimizdə "sine qua non" (dəyişməz şərt) kimi qəbul edilməlidir. Bunlar itəndə siz dediyiniz baş verir.

*– XX əsrin tanınmış siyasətçilərdən biri insanların yaşamla bağlı verdiyi mücadiləni bir cümlə ilə bu cür dəyərləndirir: "Ala biləcəyin hər şey sənin haqqındır". Sizcə, həyatda uğur qazanmaq, bəlli bir səviyyəyə yüksəlmək üçün bu prinsipi rəhbər tutaraq hərəkət etmək nə dərəcədə doğrudur? Ümumiyyətlə, gerçəkdənmi nəyi necə, hansı yolla əldə etməyin heç bir əhəmiyyəti yoxdur və önəmli olan tək şey buna nail olmaqdır?*

– Mən fərqli düşünürəm. Məqsədə çatmaq üçün hər vasitə gərəklidir fəlsəfəsi məndən uzaqdır. Haqqına qovuşmaq, onun üçün mücadilə etmək hər bir fərdin, millətin borcudur. Azadlıq istəyən çoxdur, amma onun üçün canından keçənlər seçilmişlərdir. Cəmiyyətimizdə göstərdiyiniz prinsipi rəhbər tutanlar çoxdur. Böyük H.Cavid deyirdi:

*"Sarmış yurdu qabalıq, yaltaqlıq*
*Yüksəklik varsa, səbəb alçaqlıq".*

Alçala-alçala ala biləcəyini al yolu, çox naqis yoldur. Əgər nəsə sənin haqqındırsa gec-tez sən onu alacaqsan, ancaq qürurla, ləyaqətlə bu yola çıxmaq lazımdır. Günəşin üzünü palçıqla suvamaq olmaz, zülmlə haqqa yetişmək olmaz. Nə bu dünyada, nə də o dünyada.

*– Necə düşünürsünüz, həqiqətənmi cəmiyyət mənəvi baxımdan elə bir vəziyyətdədir ki, artıq söz belə onu ətalətdən qurtarmaqda, diriltməkdə acizdir?*

– Sosiologiya elmi bizdə zəif inkişaf edib. Bu gün cəmiyyətimizin indiki böhranlı vəziyyətində onun durumunu ölçmək, identifikasiya etmək sosioloqların ümdə məsələsidir. Belə ölçmə persepsiya informasiyası və qeyri-səlis meyarlar istifadə etməklə aparılmalıdır. Mənim qavranış, təəssürat informasiyaları əsasında qiymətləndirməmə görə Azərbaycan cəmiyyəti bir qədər öləzisə də, ətalətlilik dərəcəsi, yəni bir vəziyyətdən digər vəziyyətə keçid zamanı lazımından böyük olsa da o, ayaqdadır, diridir. Mən bir fərd kimi həm də düşünürəm ki, xalqımız da sözün gücünə çox inanır. Bir şeyi bilməliyik ki, insanın bir vid (növ) kimi başqa canlı varlıqlardan başlıca fərqi, unikallığı ondadır ki, o, dəyişən mühitə daha çox genetik mexanizmləri ilə deyil, mədəni mexanizmləri ilə uyğunlaşır. Burada isə sözün gücü əvəzsizdir. Bax bu yolla cəmiyyətdəki hər bir fərdin içində uyuyanı görmək, anlamaq və yaratmaq hissini aşkarlamaq, öz ləyaqətli gələcəklərini yaratmaq üçün daxili mənəvi enerjisini istiqamətləndirmək olar. Sözün gücü tükənəndə dəyənək də kömək etmir. Bugünkü sosioloji tədqiqatlarda sosial şəbəkələrdəki yorumlar yaxşı informasiya mənbəyidir. Onları araşdırıb görərsiz ki, ziyalıların, söz səlahiyyətlərinin, ləyaqətli qələm adamlarının cəmiyyətin keçid dinamikasına təsiri necə böyükdür.

*– Gerçəkdənmi xalq bir bütöv olaraq öz təbəssümündən məhrum olub? Əgər bu, həqiqətən də belədirsə, o zaman sizcə itirilən, qeybə çəkilən bu təbəssümü geri qaytarmaq üçün nə etmək lazımdır?*

– Bu gün bütövlükdə xalqın və ayrı-ayrı fərdlərin üzündəki təbəssüm tütyə kimi bir şeydir. Nadanlıqdan qəhqəhə, sarkazmdan acı gülüş təbəssüm deyil. Təbəssüm azad xalqın, azad insanın içəri rahatlığının, qafa açıqlığının doğurduğu dominant hissdir. Haqq barədə verdiyiniz suala qayıtmaq istəyirəm. "Qeybə çəkilən bu təbəssümü geri qaytarmaq üçün" xalqın və onun hər bir fərdinin haqqını tanımaq lazımdır. Onlar nə istəyir? Ədalət, sosial bərabərlik, ümumbəşəri insan haqları, söz və ifadə azadlığı, ictimai əxlaq və mənəviyyat, halal cəmiyyət, rüşvətsiz təhsil və səhiyyə (ümumiyyətlə korrupsiyalaşmamış cəmiyyət), vicdan azadlığı və başqa normal insani dəyərlər. Bunun üçün mücadilə etməyə dəyər, onda xalqın da, onun hər bir müstəqil fərdinin də üzündə təbəssüm olacaq.

**Seymur Əliyev**
2012

## SÜRƏTLƏ DƏYİŞƏN ZAMANDA ZAMANLA AYAQLAŞAN İNSAN

Həyatda çox səxavətli olan, amma özü və etdikləri haqqında danışmağa xəsisliklə yanaşan, zamanına qıymaq istəmədiyim Rafiq Əliyevin son günlər çox qiymətli zamanını aldım. Dərdləşdik. Söhbətləşdik.

*– Rafiq müəllimin bir alim, bir ziyalı kimi Azərbaycan elminə, Azərbaycan cəmiyyətinə baxışı.*

– Mənim anlamımda elmin vətəni yoxdur. Ümumiyyətlə, elm nədir, alim nədir? Bu həmişə müzakirə obyekti olub. Mənim özümə örnək saydığım iki insanın heç birindən "mən aliməm" sözünü eşitməmişəm. Bunlardan biri Xudu Məmmədov, digəri isə Lütfi Zadədir. Alim odur ki, istər təbiətdə, istər cəmiyyətdə və istərsə də idrak proseslərində olan həqiqətləri görüb, sintez edib, onun cəmiyyət və həyat üçün istifadə olunma yollarını göstərə bilsin. Biz cavan vaxtı "o alim adamdır, çox bilir" kimi sözlər eşidirdik. Hələ bilmək alimlik, elm demək deyil. Elm bəşəriyyət üçündür. Mənim sizin sənətə, sizin poeziyaya, Ramiz Rövşənin poeziyasına, ədəbiyyata, incəsənətə çox böyük hörmətim var. Elmin ümumi mənasına gəldikdə isə, bu bir həqiqətdir ki, bütün bəşəriyyətin sivilizasiyası dövründə onu dolanbaclardan, kataklizmlərdən çıxaran elm olub.

O ki qaldı Azərbaycan elminə, çox böyük əfsuslarla deyirəm ki, bu gün Azərbaycan elminin vəziyyəti urək açan deyil. Və bunun da obyektiv səbəbləri var. Əgər elmə sosial sifariş olmursa, o cəmiyyətdə elmin heç bir rolu olmur və elm də inkişaf etmir. Ümumiyyətlə, elmin özünün belə bir qanunu var. Əgər hər hansı bir ölkədə ümumi daxili məhsuldan elmə ayırmalar 2 %-dən aşağı olursa, elm ölkənin iqtisadiyyatına qətiyyən təsir etmir. Bizdə isə bu ayırmalar həddən artıq aşağı bir vəziyyətdədir. Və bu baxımdan da deyək ki, Azərbaycan elminin dünya elmində hansısa bir yeri var, əfsuslar olsun ki, mən onu deyə bilmərəm. Soruşa bilərsiz ki, niyə sosial sifariş yoxdur? Sosial sifariş bu və ya digər ölkənin iqtisadi modelindən gəlir. Ölkə hansı iqtisadi modellə öz iqtisadiyyatın necə inkişaf etdirir, siyasətin o iqtisadiyyat üzərində necə qurur?

*– Elə bir məqama toxunduz ki, istərdim elə fikrinizin davamı olaraq, alimlik, alim olmaq, dünya elmi və dünyada Azərbaycan alimi haqqında düşüncələrinizi bölüşəsiniz.*

– Bilirsiniz, Azərbaycan aliminin dünyaya çıxmasında iki böyük çətinlik var. Birinci problem, elmi araşdırmaların yoxluğudur. Çünki sosial sifariş yoxdur. Düzdür akademiya, universitetlər var. Amma dünyaya çıxa bilmək üçün elmi nəticə yoxdur. Əgər olsaydı, gərək o indekslı jurnallarda, dünya müstəvisində çap olunaydı.

İkinci problem, dil məsələsidir. Dünyanın elm dili ingilis dilidir. Jurnallar, kitablar rus dilinə bir neçə ildən sonra tərcümə edilir. Bizə gələnə kimi 10-12

il keçir. Elmdə belə gecikmələr olmaz. Əgər elmi nailiyyətin varsa, onu dünya səviyyəsilə müqayisə etməlisən. Əgər səndə bir az üstünlük varsa, bu zaman dünya səni qəbul edəcək. Bəzən deyirlər ki, mən Azərbaycanda, SSRİ-də birinci dəfə filan şey etdim. Elmin də Azərbaycanı, SSRİ-si var? Görün bu gün Azərbaycan aliminə nə dərəcədə istinad olunur.

Bir az da cəmiyyətlə bağlı... Sizinlə bu barədə söhbətlərimiz olub. Hamı deyirdi ki, Rafiq Əliyev niyə susur. Mən də bu suallara Mövlanənin bir sözü ilə cavab verdim:

*Korlar bazarında ayna satma,*
*Karlar bazarında qəzəl atma.*

Orda ki sən eşidilmirsən, susmaq daha faydalıdır. İki-üç ay bundan əvvəl müsahibə verməyə başladım. Düşünürəm ki, Azərbaycan tarixində seçim və qərarvermə, hansı tərəfə getmə baxımından – gün çıxan və ya it hürən tərəfə – Azərbaycanın ən çətin vəziyyəti indidir. Bugünkü gündür. Mən hesab edirəm ki, heç vaxt belə çarpaz təzyiqlər olmayıb. Səməd Vurğun deyirdi:

*Bir yandan Türkiyə,*
*bir yandan İran,*
*bir yandan Rusiya*
*göndərir fərman.*

Bu hər zaman belə olub. Amma indi seçim etmək vaxtıdır. Bu seçim ağır seçimdir. Müstəqillik seçimidir. Müstəqillik mənim anlamımda namus məsələsidir. Millətin namusu, milyonların namusu məsələsidir. Və Azərbaycan kişilərinin heç vaxt namusu ilə oynamayıblar. Bu baxımdan bir neçə müsahibə verdim və söylədim ki, ən əsas faktorlardan biri milli birlik faktorudur. Gərək xalqın, millətin səsi olsun. Xalqa arxalanmaq mümkün olsun. Onda başqa ölkələr də səninlə hesablaşacaq.

Cəmiyyət məsələsinə gəldikdə, cəmiyyətdə sosial acizlik sindromu var. Cəmiyyəti xarakterizə etmək üçün müxtəlif eksperimentlər aparıblar. Məsələn, uçan böcəkləri doldururlar qapalı qaba. Qabın ağzını açıq qoyurlar, onlar da uçub gedirlər. Başqa bir eksperimentdə isə qabın ağzını bağlayıblar. Açanda isə o özü uçmur. Çünki onun oradan çıxmaq cəhdləri uğursuz olduğundan acizlik sindromu yaranıb. Təzə doğulmuş dəvə balasını ayağından bağlayırlar. O, bir neçə dəfə ayağını açmağa cəhd edir. Bir müddət bağlı qaldıqdan sonra ayağını açanda, heç ayağını da tərpətmir. Cəmiyyətdə də bu acizlik sindromu var. Bu sindrom nə vaxt məhv olur: ya böcəklər öləndə, ya da tam ölməsin deyə, vaxtında o qapağı açanda.

Bu xalq həmin o, 80-ci illərin xalqı deyilmi? Bu xalq genetik olaraq, həmin xalqdı. Amma o zaman qapaq açılmışdı. Mən cəmiyyətin vəziyyətini bu cür xarakterizə edirəm. İndi o qapağın açılmaq, xalqa arxalanmaq dövrüdür.

*– Azərbaycan ailəsi, Azərbaycan cəmiyyəti bunlar biri-birini tamamlayırmı?*

– Bu mövzu məni və dostlarımı hər zaman düşündürüb. Azərbaycan cəmiyyətinin bugünkü vəziyyətə düşməsi düşünürəm ki, sosial yenidən kodlaş-

dırma problemidir. Dəyərlərin dəyişməsidir. Dəyərlərin dəyişməsi – hər kəsin evinə daxil olan şou verilişləri, kişi və qadın münasibətləri və s. Məgər bizim başqa problemlərimiz yoxdur? Bütün bunlar bu gün ailə institutunun dağılmasına səbəb olur. Sanki məqsədyönlü şəkildə aparılır. Cəmiyyətin nüvəsi ailədir. Cəmiyyət onun əsasında yaranır. Ailə institutu Azərbaycanda çox aşılanır. Bunun üçün KİV, əsasən televiziya kanalları ailə institutunun güclənməsinə dəstək olmalıdır. Bəzən bunları Qərblə müqayisə edirlər. Qərbdə ailə institutu çox güclüdr. Ona görə cəmiyyət də güclüdür. Orda azadlıq var, amma ailədən söhbət gedirsə, bu çox möhkəmdir. Formanı götürürük, məzmunu isə götürə bilmirik.

Azərbaycan cəmiyyətini durultmaq, üstün meyarlara sahib cəmiyyət kimi görmək istəyiriksə, ilk növbədə ailə institutunu qorumalıyıq. Burda isə proses tam əksinə gedir.

*– Azərbaycanlılarda şərqlilik və qərblilik. Azərbaycan qərblilərin gözü ilə...*

– Mənim fərd kimi mentalım Qərb, əxlaqım Şərqdir. Millilik haqqında kimsə öz naqisliyini ört-basdır etmək istəyirsə, bu düzgün yol deyil. Bu cəmiyyət tərəfindən də görünür. Biz bəşəri meyarlara söykənməliyik. İnsan haqları, azadlıq... İnsan öz içində azad olmalıdır. İnsan öz içində qul gəzdirməməlidir. Adam böyüyün üzünə ağ olmaz və ya ayağını yorğanına görə uzat kimi ifadələri hər kəs bir cürə interpritasiya edir. Bu baxımdan demək istərdim ki, ümumbəşəri meyarlara, xüsusilə indiki Avropa meyarlarına söykənmək lazımdır. Milli əxlaq dəyərlərini gözləmək şərtiylə. Əxlaqda millilik lazımdır. Bizim televiziyada göstərilən geyimlər Qərbdə yoxdur. Xüsusi kanallarda var, amma Qərbin, Avropanın ümumi kanallarında belə şeylər yoxdur. O ki qaldı qərblilərin gözüylə. Qərblilər heç Azərbaycanı bir o qədər də tanımırlar. Onlar Azərbaycanı geocoğrafi mövqeyə və Avropa üçün enerji baxımından qənimət bir ölkə kimi tanıyırlar.

*– Azərbaycan türklərini fərqləndirən cəhətlər. Dünya bizdən nələr götürə bilər? Bizdə hansı baxışlar, münasibətlər dəyişməlidir ki, Qərb və dünya bizi normal qəbul etsin? Bizə lazım olan dəyərləri saxlamaq şərtilə biz dünyanın lazımlı və önəmli parçası ola bilək.*

– Bu çox lazımlı sualdır. Bütün parametrlərinə görə Avstriya Azərbaycanla eynidir. Ərazi, əhali baxımından və başqa parametrlərlə. Amma dəyərlər başqadır. Məsələn, əfsuslarla deyirəm ki, Azərbaycanın dünya çapına çıxan alimlər yoxdur. (Siz varsınız) Düzdür əvvəllər dünya çaplı alimlər olub. Zahid Xəlilov, İbrahim İbrahimov, Murtuza Nağıyev, Azad Mirzəcanzadə, Xudu Məmmədov, Mirabbas Qasımov. SSRİ dağılandan sonra bu alimlərin bir çoxu dünya çapına çıxdı. Amma təəssüflər olsun ki, SSRİ dağıldıqdan sonra davamı olmadı. Avstriyada səhv etmirəmsə 20-yə yaxın, İsraildə 20-dən çox Nobel mükafatçısı var. Başqa sənət sahələrində də müxtəlif mükafatlar var. Tək neft-qaz çıxarmaqla, dünya ailəsinə qovuşmaq bir az çətindir, mümkün deyil. Belə olsaydı Səudiyyə Ərəbistanı və ya başqa ərəb ölkələri dünya ailəsində ən görkəmli yer tutan

ölkələr olardı. Mən bir yazımda da bunu demişəm: Qərb o millətlərə dəstək olacaq ki, öz ailəsinə qəbul edəcək ki, o millətlər zülm götürməsin, cazibədar olsun. Cazibədar olmaq nə deməkdir? Sənin böyük sənətkarların, insanların olmalıdır. Heç bir ölkəni nə nefti, nə qazı, nə qızılı ilə tanıyıblar. Ölkəni onun insanlarına görə tanıyıblar. Bütün bəşər sivilizasiyası boyu hansı ölkənin dünyaca məşhur insanları olub, dünyaya belə insanları bəxş edib, o, ölkəni tanıyıblar. Həmin ailəyə qovuşmaq istəyiriksə, elmimiz inkişaf etməlidir. Bunun üçün o qədər olmasa da, heç olmasa 7-8 yaxşı universitetimiz olmalıdır. Rüşvətsiz. Təmiz. Dünya çapında alimləri olan, tələbələri və müəllimləri sərbəst, içi azad olan universitetlər lazımdır.

Təxminən 4 il bundan qabaq olardı. İctimai Televiziyadan Cəsarət Valehov mənə zəng vurdu ki, "Açıq dərs" verilişində "Azərbaycanda qərbyönümlü universitet yaratmaq mümkündürmü" mövzusunu qoymaq istəyirik. Təhsil naziri Misir Mərdanovu dəvət etmişik. O, xahiş edir ki, əgər Rafiq Əliyev iştirak etsə, verilişdə mən də çıxış edərəm. Mən də həmin gün Amerikaya gedirdim. Dedi ki, onda verilişi siz gələnə saxlayarıq. Həmin səfərdə Amerikada konfrans bitəndən sonra hər kəs banketdə öz məcməyisini götürdü. Öz növbəsini gözlədi. Lütfi Zadə ilə 20-30 adamdan sonra yeməyimizi götürdük. Heç kim bir-birinə yol vermədi. Çünki azadlıqdır. Səhərə yaxın Bakıya uçdum. Mən Bakıda pasport nəzarətindən keçəndə bir nəfər əməkdar artist gəldi. Bunun qarşısına 7-8 polis qaçdı. Dedim, yəqin hadisə baş verib. Bunu nəzarətsiz buraxdılar. Bu hadisədən sonra bir yazı yazdım ki, Azərbaycanda məcməyi və polis məsələsi dəyişməsə, heç bir qərbyönümlü universitetdən söhbət gedə bilməz. Hüseyn Cavid deyirdi ki:

*Türkə qılıncdan daha kəskin, ulu qüvvət,*
*Yalnız mədəniyyət, mədəniyyət, mədəniyyət.*

O olmasa bizi heç bir ailəyə qəbul etməyəcəklər. Mədəniyyətə sənət, insanlar, elm... daxildir.

*– Dünyanın, ən çox da qonşularımızın Azərbaycana olan marağı yalnız coğrafi mövqe ilə bağlıdır? Sizcə zaman-zaman torpaqlarımızın işğalı acizliyimizdənmi irəli gəlib, yoxsa milli xarakterimizdə başqa çatışmamazlıqlar, boşluqlarmı mövcuddur?*

– Bilirsiz, İran və Rusiya böyük tarixi olan imperiyadır. Əfsuslar olsun ki, Azərbaycanda dövlətçilik ənənəsi olmayıb. Millətin millət kimi formalaşmasında bu faktorun çox böyük rolu var. Sosial acizlik kompleksi də əfsuslar ki, milli mənliyin formalaşmasına öz mənfi təsirini göstərib. Buna görə də uzun müddət İranın, Rusiyanın təsiri altında olmuşuq. Şəhidlərin qanı bahasına əldə etdiyimiz müstəqilliyi qoruyub saxlamalıyıq. Tarix üçün 20 il çox azdır. Əgər biz müstəqilliyimizi qoruyub saxlasaq, 50-100 ildən sonra bir millət kimi özünüdərk, milli şüur formalaşsa, başqaları da bizimlə hesablaşacaq və təzyiqlər, basqılar olmayacaq. Düzdür geocoğrafi mövqe də bu məsələyə təsir göstərir. Azərbaycan Asiya və Avropa arasında körpüdür. Bu gün enerji məsələsinə

görə də dünya güclərinin maraq dairəsindədir, kəsişməsindədir. Amma hesab edirəm ki, milli mənlik güclü olsaydı, bu qədər təzyiq olmazdı.

*– Azərbaycan, Qarabağ barəsində çox söhbət etmişik. Bu dəfə Vətən və yurd yeri haqqında...*

– Vətən yurd yerindən başlayır. Ailəsini sevməyən insan vətən sevgisinə sahib ola bilməz. Bu qəti fikrimdir. Mən bunu regionçuluq baxımından demirəm. Qətiyyən. Vətəni ailə qədər qorumaq lazımdır. Kimsə deyə bilər ki, vətən ailədən daha üstündür. Mən belə hesab etmirəm. Hər şey ailədən başlayır. Vətənini ailən qədər sevməlisən. Ailə insan həyatının özəyidir. İnsanın bütün həyatı ailə üstündə qurulub. Cəmiyyət və milli mənlik də ailə üstündə qurulub. Ailəsi üçün canını fəda edə bilməyən insan vətəni üçün də bunu edə bilməz. Məndən jurnalistlər tez-tez soruşurlar ki, xoşbəxtliyə necə baxırsınız? Mənim standart cavabım var. Mən necə xoşbəxt ola bilərəm ki, ata yurdum işğal altındadır. Vətənimin, torpağımın bir hissəsi yoxdursa, mən necə xoşbəxt olum? Vətən onun üstündə ölməyi bacaranda Vətəndir.

*Bayraqları bayraq yapan üstündəki qandır.*
*Toprak əgər uğrunda ölən varsa vətəndir.*

Vətən uğrunda hər şeyə hazır olmalısan. Dediyim sosial acizlik sindromu olmasaydı, onda vətəni göz bəbəyimiz kimi, ailəmiz kimi qoruyardıq. Bir ovuc torpağımızı da heç kimə verməzdik. Bu sizin üçün də, mənim üçün də ağır sualdır. Ən böyük dərdimizdir. Əgər ata-anamızın, qohumlarımızın məzarı üstünə gedə bilmiriksə, həyatda hansı xoşbəxtlikdən söz gedə bilər. Mən ata yurdu ilə vətən anlayışını eyni hesab edirəm. Sinonim sayıram. Hər şey ata yurdundan başlayır. Ata yurdunun da isti ocağı ailədir. Ailə institutunu qorumaq, dəyərləri dəyişmək lazımdır. Bu gün Azərbaycanda ən çatışmayan cəhət budur. Ailə institutu, ata yurdu hər şeyin köküdür.

*– Sizin üçün nə qədər ağrılı olsa da... Sevgi, ayrılıq, həsrət...*

– Bu əzəli və əbədi mövzudur. Heç kim sevgiyə tərif verə bilməz. Bu fiziki anlayışdan çox, metafizik anlayışdır. Sevgi, insanlar arasında və dünyada olan ən ali münasibətdir. Burada da irearxiya var. Mənim üçün ən birinci yerdə duran, ən böyük sevgi Tanrıya-Allaha olan sevgidir. Çünki dünyanı, aləmləri də yaradan odur. Ateistlərin, bəzi fiziklərin bundan xoşu gəlməyə bilər. İkinci yerdə ailə, vətən sevgisi durur. Mən onları eyni səviyyədə görürəm. Sevgi deyəndə, adətən, qadına sevgi nəzərdə tuturlar. Amma mən buna metafizik cəhətdən yanaşıram. Oxucularımız üçün aydın olsun deyə deyirəm. Siz "Narahat ruhlar" şeirinizdə deyirsiz:

*Bu gecə özümü harda basdırım,*
*İçimdə özümə qəbir yerim yox ...*

– bu nə deməkdir?

Bu metafizik yanaşmadır. Ola bilsin adi bir, bəlkə də 80% oxucu da sizin bu fikrinizi anlamasın, necə ki, Vaqif Səmədoğlunun "Bir axşam taksidən düşüb

payıza" fikrini anlamır. Mən sevgiyə nə tərif verim. Adət, alışmaq deyil. Bu tam başqa anlayışdır. Sevgi, həsrət və ayrılıq dözüm tələb edir. Sevmək çətin şeydi. Sevmək qurban tələb edir. Əgər sevə bilirsənsə, hər bir qurbana hazır olmalısan. Həyatın ən böyük qurbanı ölümdür, ayrılıqdır. Və sən gərək ona hazır olasan. Necə ki, siz deyirsiz, yazmısınız: "Xatirə yaşadır insanı bəzən"... Əgər o sevgini ayrılıq dövründə yaşayıb, yaşada bilirsənsə, deməli, sən əsl insansan.

Mənim o məktubları yazmaqda məqsədim, ancaq rəhmətlik Aidə xanımı yaşatmaqdır. Sevgi o deyil ki, o sənin əlində, yanındadır, sən onu sevirsən. Qadını, övladı... Allah səndən nə qədər uzaqdır və laməkandır. Amma onu sevirik.

*– İndi yurdumuz yoxdur deyə onu əvvəlkindən də çox sevirik.*

– Mən çıxışlarımda onu demişəm ki, Ağdamın küçələrindən keçəndə o bizim ovcumuzun içindəydi. Məsafəcə bizə çox yaxın idi. Qiymətini bilmirdik. Amma indi o yerlər təkcə məsafəcə deyil, mənəvi cəhətdən də çox uzaqdır. Sonsuz qədər uzaq.

*– Yəqin uzaqlıqdı sevgini artıran?*

– Əlbəttə, Tanrıya sevgimiz görün nə qədərdir. Bir də o fikrimə qayıdıram ki, sevə bilirsənsə, həsrətə, ayrılığa dözməyi bacarmalısan. Amma bu şərtlə ki, həminki insan olaraq qalasan.

*– Bu gün istəyirəm ki, sizdən danışaq. Siz danışasınız. Bu mənim üçün də, oxucular üçün də maraqlı olar.*

– Mənim üçün həyatda bir fərd kimi ən vacib, ən dominant, ən yuxarıda duran şey, hətta sevgidə və həyatın bütün sahələrində də nəfsdir. Nəfs təkcə maddiyyat baxımından deyil, şəhvətdə də, şöhrətdə də nəfs olmamalıdır. O insan ki nəfsinə qalib gələ bilir, ən böyük sərkərdə, ən böyük insan odur. Mən etdiyim heç bir şeyi fərd olaraq Rafiq Əliyev üçün etməmişəm. Bu barədə heç vaxt düşünməmişəm. Etdiklərimi, bu gün elədiklərimi və Allah ömür versə, bundan sonra edəcəklərimi pafoslu çıxmasın, ancaq millət üçün, milləti tanıtmaq üçün edirəm. İnsan bir müddət özü üçün, ailəsi üçün yaşayır. Amma elə məqam gəlir ki, sən yalnız millətin üçün yaşayırsan. İstəyirsən ki, millətini tanısınlar. Qeyd etdiyim kimi, milləti heç vaxt nə nefti, nə qızılı ilə tanımayacaqlar. Bu baxımdan mən kitablarımla, əsərlərimlə yaşayıram. Yadda qalıram. Mənim yaşatmaq istədiklərim budur. Məsələn, Youtubeda və ya internetdə filmlərdə, elmi əsərlərdə Rafiq Əliyev, Azərbaycan adını görəndə fikirləşirsən ki, yaşamağına dəyər. Deməli, millət üçün, xalq üçün nəsə vermisən. O məndən asılı deyil, onları başqaları yerləşdirirlər. Bəzən şərhlərdə, məqalələrdə "heyf ki, bu dövlət Rafiq Əliyevin qədrini bilmədi" kimi fikirlərə rast gəlirəm. Amma mən bu haqda heç düşünmürəm də. Qətiyyən. Bilib mənə nə verəcəydi. Orden, medal verəcəydi? Mənim ordenə, medala ehtiyacım yoxdur. Əgər mən, bir azərbaycanlı kimi beynəlxalq konfranslarda dünyada sayılıb-seçilən 100-lərlə alimlərin tədbirini açıb yönəldirəmsə, dünya elmi barədə fikir söyləyə bilirəmsə, 5 il, 10 il dünya elmi bu istiqamətdə gedəcəyini deyə bilirəmsə və bununla

razılaşacaqlarsa, deməli, yaşayıram. Yaşamağımı bunda görürəm. Demək ki, mən xalqım üçün nəsə edə bilmişəm. Mən övladlarımı, nəvələrimi də bu istiqamətdə yönəltmişəm. Onlar rüşvət, yaltaqlıq anlayışının nə olduğunu bilmirlər. Onlar daxilən azaddırlar. İstəyirəm ki, onlar da elə bu yolla getsinlər. Millət üçün nəsə edə bilsinlər. Mənim yaşamım budur. Bundan da qorxmuram. Utanmıram. Çəkinmirəm də. Mən xaricdə məruzə oxumaq üçün çağırılan 10 tədbirdən 1 və ya 2-sinə gedirəm. Əvvəla vaxtım olmur. Həm də eyni sözü hər yerdə təkrar demək olmaz. Elmdə bu intihardır. İşləmək üçün vaxt lazımdır. Hər yerdə Ağdam rayonunun Novruzlu kəndində doğulduğum yazılır.

Mənim üçün tək Azərbaycanı yox, Qarabağı, Ağdamı tanıtmaq da önəmlidir. Bu regionçuluq deyil, bu mənim ata yurduma bağlılıqdır. O yer, o yurd əlimizdə deyil, heç olmasa belə yaşadaq.

*– Bu qədər dərs keçən Rafiq Əliyevə zamanın və həyatın verdiyi, keçdiyi dərs nə oldu?*

– Bu bir az həyatın ironiyasıdır. Bunu deyəcəm, amma mən bir az başqa cür fikirləşirəm.

*Xərabət evindən bir ay ucaldı,*
*Fələyin evinə bir çadır saldı.*
*Çadırdan ucaldı qəflətən bir səs,*
*Bu dünya bir saman çöpünə dəyməz.*

Bunu böyük Ömər Xəyyam deyib. Bilirsiniz nə mənada deyib? Bu dünya çox amansızdır; neçə sifəti olan dünyadır! Amma Allah dünyanı belə yaratmayıb. Bu insanları ki faili-muxtar yaradıb, insanların sifəti qədər də dünyanın sifəti var. O baxımdan dünya çox sifətlidir. Ancaq dünyadan aldığım ən böyük dərs bu oldu ki, insan tək bioloji ömür yaşamamalıdır. Ən böyük insan odur ki, ölümündən sonra da yaşasın. Övladlarıma, nəvələrimə də ən böyük nəsihətim odur ki, dünyanın bütün sifətlərinə, kataklizmlərinizə baxmayaraq dünya üçün yaşasınlar. Dünyanın sonu yoxdur. Mən axirət gününə astronomik baxmıram. Bu da metafizik anlayışdır. Söhbət astronomik tarixdən getmir ki, hansısa gün dünya dağılacaq. Dünya o zaman dağılacaq ki, dəyərlər dəyişəcək, insanlar bir-birinin ətini yeyəcək, həqiqətlə yalanın qütbləri yerini dəyişəcək. Hesab edirəm ki, dünyanın sonu yoxdur. Əgər sən dünyadan köçəndən sonra da yaşayırsansa, ondan böyük xoşbəxtlik yoxdur. Mənim həyatdan aldığım ən böyük dərs budur. Bəzən soruşurlar ki, təzədən doğulsaydın necə yaşamaq istərdin? Mən bu sualı heç sevmirəm. Mən heç yenidən doğulmaq, o iztirabları yenidən yaşamaq istəmirəm. Həyatdan aldığım dərs budur ki, mən elə bu cür yaşamaq istərdim. Həzrəti Peyğəmbərin belə bir deyimi var ki, alim olmaq cəhənnəmə yüz dəfə gedib gəlmək qədər ağırdır. O ağırlığa gərək dözəsən. Əlbəttə burda söhbət əsl elm adamından gedir. Ordan-burdan köçürənlərdən, məmur olub müdafiə edənlərdən yox. Bu ağırlığa baxmayaraq, deyirəm ki, mən elə bu cür də yaşayardım. Həyatdan bunu götürmüşəm.

*– Zaman bizdən sormadan zaman-zaman bizdən alır. Zamanla hansı mənada ayaqlaşa bildiniz?*

– Bəzən atlı, bəzən piyada. Zaman atını çapanda əgər onun üstündə möhkəm dayanıb, yəhərdən möhkəm tuta biləcəksənsə, piyada olmayacaqsan, zamanla ayaqlaşacaqsan. Niyə deyirəm bəzən piyada. Qəribədir, Rəfail müəllim, yəqin sizdə də, sizin yaradıcılıqda da belədir. Mənim hər çıxan kitabımda yeni bir nəzəriyyə olur. Kitab əlimə gələnə kimi bir il, il yarım vaxt keçir. Sonra kitaba baxanda deyirəm ki, indi bunu başqa cür yazardım. Başlayıram başqasını yazmağa. O müddəti piyada sayıram. Deməli, zaman atını minə bilməmişəm, zamanla ayaqlaşa bilməmişəm. Gərək vaxtında onu görəydim. Xüsusən, elm aləmində 6-8 ay ara vermək, elmi intihardır. Çünki elm sürətlə inkişaf edir. O, zaman atının sürəti böyükdür. Qurani-Kərimdə deyilir ki, aləmlərin Tanrısı. Başqa aləmlər var, amma energetik çəpər olduğu üçün ora keçə bilmirik. Orda zaman atlarının sürətləri müxtəlifdir. Bizim qalaktikada fərqli sürətdir. Çalışdım ki, yəhərdən bərk yapışım. Bugünkü kitablarım, məqalə və nəzəriyyələrim dünyadakı sürətlə ölçülə bilsin.

*– Sizinçün vaxt anlamı nədir? İnsan proqramla idarə oluna bilərmi?*

– Aytmatova çox böyük hörmətim var. Bunu hər zaman demişəm. Bəlkə də bu fərddən asılıdır. Mənim aləmimdə yazarın iki xüsusiyyəti önəmlidir. Birincisi metafizik olsun. Bir də zamanı heç olmasa 30-50 il qabaqlaya bilsin. "Gün var əsrə bərabər" düzgün tərcümə etməyiblər. Bu Tövratdan götürülüb. "Əsrdən uzun gün". Orada proqramla idarə olunan insanlar var. Bu gün Azərbaycanda nə qədər adam proqramla idarə olunur. O həmin sosial yenidən kodlaşdırma insanları zombiləşdirmək, robotlaşdırmaq, hətta lazım gəlsə anasına ox atmaqdır. Dosta sədaqət yox. Nə cür istəyirlərsə, o cür dəyişə bilirlər. Bu sosial yenidən kodlaşdırmadır. İnanıram ki, proqramla idarəetmə mümkündür. Bu fərdlərə, millətlərə və ölkələrə də aiddir. Amma gərək zombiləşdirəsən. Alen Dallesin planı kimi: "Biz bütün insanların beyinlərinə yeridəcəyik ki, əsas maddiyyat və digərləridir. Buna inanmayanları isə gülüş obyektinə, zamanın tullantılarına çevirəcəyik".

Mən Ağdamda 1 nömrəli məktəbdə oxuyanda, deyəsən, 1956-cı ildə – SSRİ ilə Çin arasında münaqişə olanda – hər gün radioda xəbərdarlıqlar edilirdi ki, 101-ci xəbərdarlıq: sabah SSRİ-yə hücum olacaq; 102-ci xəbərdarlıq: sabah SSRİ-yə hücum olacaq. Tarix müəllimindən soruşdum ki, bu qədər də yalan olar. Dedi: "Ay bala, bir yalanı 100 dəfə deyəndə, hamının beyninə batır". Çinlilər də bunu edərək SSRİ insanın beyninə fikir yeridirdilər. Sosial kodlaşdırma yalanı beyinə yeritməkdir. Sonda proqramla idarə olunan adam olacaq. Bu gün Azərbaycanın ən böyük bəlası proqramla idarə olunmaqdır. Belə olsa, 37 bu və ya digər formada təkrar olacaq. (Bakı Dövlər Univerisitetinin professorları eyni proqramlaşdırılmış mətni iki müxtəlif adam haqqında yazdılar. Təkcə adlar dəyişmişdi).

Ofisimdə masamın üstündə bir yazı var. Qoymuşam ki, gələnlər görsün. Orada yazılıb ki, "Vaxt sərvətdir". Bir başqası da var. Orda da yazılıb ki, "babanı öyrən". Yəni keçmişini bil. Vaxt da zaman atıdır. Əgər piyada olmaq istəmirsənsə, gərək onun qiymətini biləsən. Bəzi insanlar hiss etmir ki, 40 dəqiqə,

yoxsa 4 dəqiqə danışır. Ölçünü ititir. Mən sözü kəsmədən, susmağı bacarıram. Kibernatikanın atası Norbet Vinerin kitabında yazılıb ki, istənilən idarəetmənin əsası əks rabitə prinsipidir. 1948-ci ildə çıxan sarı rəngli bu kitaba SSRİ-də sarı olduğu üçün "sarı şeytan" deyirdilər. Yəni sən ölçüb korrektə etməlisən ki, düz edirəm və ya etmirəm. Ölçü pozulubsa, Ataksiya xəstəliyinə gətirir. Bu xəstəlikdə ölçmə beyində pozulur. Bir stəkan suyu verirsən. Əlindəki stəkanı ağzına gətirə bilmir. Çünki əliylə ağzı arasındakı əlaqəni itirib. Ölçünü müəyyən edə bilmir. Mən də vaxta heyifslənirəm, amma sözünü kəsmirəm. Çalışasan ki, piyadaya çevrilməyəsən. O baxımından vaxtı çox qiymətləndirirəm. Etdiklərim dırnaq ucu boydadırsa, etmədiklərim kainat boydadır. Buna görə vaxt istəyirəm.

*– Rafiq müəllim, istərdim ki, tədris prosesinizdən, eyni zamanda dünya və Azərbaycan tədrisindən, onun fərqliliyindən və Azərbaycan təhsilinin dünya, Avropa təhsilinə çatdırılması yollarının mümkünlüyündən danışasınız.*

– Dünya təhsil sisteminə inteqrasiyadan başlayaq. Təhsildə Baloniya sistemi var. Azərbaycan hökuməti də bu sistemə qoşulub. Amma formal olaraq bəzi atributları işləyir. O sistem burada tam işləmir. Burada əsas məsələ, tələbələrin bir ölkədən digərinə transfer olunması, tədris proqramlarının sillabus, karrikumların uyğunluğudur. Məsələn, tələbə iki il burada oxuduqdan sonra Almaniyaya gedirsə, burda keçdiyi dərsləri orada saya bilsinlər, qəbul etsinlər. Baloniya sisteminin canı o idi. Burada isə formal olaraq keçildi. Proqramlar həmin universitetlərdəki kimi deyil. Amma heç nə dəyişmədi; əvvəl keçirilən dərslər necə vardısa qaldı. Çünki bunun üçün müəllimlər, professorlar hazırlamaq; şərait, tələbələr lazım idi. Azərbaycan təhsil sisteminin dünya təhsil sisteminə inteqrasiyasını deyirik. Biz heç Baloniya sisteminə keçə bilmədik. Bunun üçün kadrlar yetişdirilməli idi. Elmdə çox böyük uçurum yaranıb. Universitetlərdə dərs deməyə adam yoxdur. Qorxuram ki, sovet dövrünün əvvəllərində olduğu kimi başqa ölkələrdən dərs deməyə adam dəvət etsinlər. Çünki elmə gedən olmadı. Gedənlər də məmurlar və ya evdar qadınlar oldu. Bunlar diplom aldılar. Buna görə də düşünmürəm ki, yaxın vaxtda dünya təhsil sisteminə inteqrasiya oluna bilək. Hətta istənilən şəraitdə də. Çünki təhsil çox ətalətli bir prosesdir. Əvvəla, orta məktəb, sonra mənəviyyat dəyişməlidir. Mənəviyyatın dəyişməsi isə çox ağır və çətindir. Elm dəyişməlidir. Elmi də bir günə dəyişmək olmaz. Sabahdan yeni bir nəzəriyyə verəcəm, yeni bir elm yaradacam. Belə olmur. Bu çox çətin məsələdir.

Dəfələrlə yazmışam ki, təbabət bir az emprik elmdir, yəni təcrübəyə söykənən elmdir. Bu gün Azərbaycanın demokl qılıncı səhiyyədir. Səhiyyə pis vəziyyətdədir. Bunun üçün çox pul tələb olunmur. 10 min, 20 min tələbəni təbabət üzrə Amerikaya, Avropaya göndərsinlər. Qorxmasınlar ki, beyni dəyişəcək. Demokratik insan olmağın nəyi pisdir. Sənə onun o beyni lazımdır ki, əlində alət tutub əməliyyat apara bilsin. Düzgün diaqnoz qoya bilsin. Getsin 10 il qalsın. Orda tibbi təhsil 10-12 ildir. Əgər Azərbaycanın gələcəyini fikirləşiriksə, heç olmasa təbabət sahəsindən olanları göndərmək vacibdir.

*– Rafiq Əliyev tələbələri üçün təkcə yaxşı müəllimdirmi? Tələbələri Rafiq Əliyev üçün kimdir? Yəqin ki, təkcə tələbə deyil, sizin onlara münasibətiniz fərqlidir. Bu fərqlilik nədədir?*

– Mən uzun müddət xaricdə dərs demişəm. Demokratik mühiti görmüşəm. ABŞ-da, Almaniyada, Kiprdə, İranda, Fransada və başqa ölkələrdə gəncləri, tələbələri vətəndaş kimi çox azad görmüşəm. Bizdə müəllim içəri daxil olanda tələbə ayağa qalxmalıdır. Mən isə 1964-cü ildən bəri tələbələrimdən xahiş edirəm ki, mən gələndə ayağa qalxmasınlar. Siz azad olmalısınız. O biri müəllimlərin başqa cür söylədiklərini deyirlər. Mən də deyirəm ki, istəyirəm siz içinizdəki qul hissini atasınız. Bəziləri deyir ki, bu böyüyə ehtiramdır. Deyirəm ki, ən böyük ehtiram millətə qulluq etmək, yaxşı tələbə olmaq, elminə sadiq olmaqdır. Ayağa qalxmaq deyil. Amma bir şərtlə. Mən hər zaman, hətta Amerikada da Qurani-Kərimə istinadən tələbələrimə deyirəm ki, mənim azadlığımın çevrəsi o yerdə başlayır ki, sənin azadlığının çevrəsi bitir. Sən istənilən şeyi edə bilməzsən. Yəni müəllimin azadlıq çevrəsinə girmə. Onlar da bunu çox gözəl başa düşürlər. Hətta indi də facebookda yazarlar ki, bizdə o günlərin nostalji hissləri var.

Dünyada iki tədris sistemi var. Birinci, professora mərkəzləşmiş sistemdir. Dərsi aparan professor, müəllim, əsas aktyor olur. İkinci isə tələbə mərkəzdə olan sistemdir. Burda isə yük tələbəyə düşür. Birincidə professor ya bir saat, ya da çox danışa, izah edə bilər. İkinci sistemdə isə professor 15-20 dəqiqə danışar, sonra qruplar yaradar, tələbələr müzakirələr aparарlar. Professor onlara istiqamət verər. Bütün ağırlıq tələbənin üzərindədir. İnternetlə onlara misallar, məsələlər göndərərlər. Hətta imtahanı da internet vasitəsilə götürərlər. Dünyada hazırda əsas təhsil sistemi ikincidir. Tələbəyə mərkəzləşmiş təhsil sistemi. Amma bizdə müəllimlər öz bildiklərini yazdırır və onu da tələb edir. Ayrı kitabdan oxumağa məhdudiyyət qoyur. Tələbə gərək vətəndaş kimi böyüsün. Müəllim eyni zamanda həyatdan da dərs deməlidir. Mütəxəssis olanda yalnız bilik daşıyıcısı olmayacaqsınız, həm də vətəndaş olacaqsınız, söyləyirəm tələbələrə. Şeir bilirsinizmi, operaya gedirsinizmi? Bu kimi suallar verirəm. İstəyirəm ki, onlar hərtərəfli inkişaf etmiş vətəndaş kimi yetişsinlər. Eyni zamanda tələbələrlə dost, yoldaş münasibətləri qururam. Qorxmaq, çəkinmək bizim münasibətlərdə yoxdur.

*– Biznesin idarəolunması üzrə ABŞ-Azərbaycan birgə MBA Proqramının rəhbərisiniz. Bu tədris ocağını necə yaratdınız? Təhsili davam etdirmək üçün tələbələrinizi xaricə göndərirsiniz. Göndərdiyiniz tələbələrlə əlaqə saxlayırsınızmı? Gördüyünüz işlər haqqında danışmağı sevmədiyinizi bilirəm. Amma bütün bunlar Azərbaycan ictimaiyyəti, oxucusu üçün olduqca maraqlıdır.*

– Mən, 1997-1998-ci illərdə ABŞ-ın Corciya Dövlət Universitetindən, Atlantadan bir qrup alimləri bura dəvət etdim. Bir az işlədik, xahiş elədim ki, burada bir proqram yaradılsın. 3-5 il onlar özləri burada dərs desinlər. O vaxtadək biz öz müəllimlərimizi yetişdirək. Və dərslər də ingilis dilində keçirilsin. 40-a yaxın müəllim, professor göndərdik Amerikaya. Atlantaya. Onlar imtahan verib sertifi-

kat alanadək amerikallar 4-5 il burda gəlib dərs dedilər. Böyük, zəngin bir kitabxana yaratdıq. Ümumiyyətlə, bizim oxucular üçün də bu çox maraqlıdır, Qərbdə əgər universitet adı gəlirsə, birinci növbədə kitabxanadan söhbət gedir. Zənginliyi, jurnallar, dərsliklər... Elektron və ya digər formada olan bu kitabxanadan, dərsliklərdən tələbələr istifadə edə bilirmi? Əsas məsələlərdən biri də budur.

Almaniyada çalışdığım Zigen universitetinin prezidentini (rektoru), kanslerini, prezidentin xarici əlaqələr idarəsinin rəisini Bakıya dəvət etdim. Azərbaycanlı tələbələrlə görüşlərini təşkil etdim. Universitetin prezidenti çıxışını bitirəndə tələbələrə dedi ki, mənə nə sözünüz var. Azərbaycan tələbələri də bir az çəkinən olur. Heç kim sual vermədi. O da heç nə demədi. Bizim onunla həm də dost münasibətimiz var idi. Sonda mən ona dedim ki, tələbələrin olmasa da, mənim sizə sualım var. Dedim tələbələrin qarşısında söz verin ki, ən azı 100 tələbəni buradan aparıb öz universitetinizdə oxudacaqsınız. Tapşırıq verdi ki, müqavilə hazırlansın və burada da imzalansın. O müqavilənin əsasında bu gün Zigen Universitetində 67 nəfər tələbə təhsil alır. Xeyli sayda univerisiteti bitirən də var. Həmin şəkildə Yaxın Doğu Universiteti, Doğu Ağdəniz Universitetinə 300-ə yaxın tələbə göndərmişik. Almaniyada təhsil pulsuzdur. Amerikada da tələbələrimiz qrantlar hesabına oxuyurdular. İngiltərə, Kipr və Türkiyədə pulla olsa da, çalışırıq ki, müəyyən güzəştlər olsun. Hər dəfə bu ölkələrə gedəndə bir qayda olaraq Aidə xanımla onları bir yerə toplayardıq. İndi də belə edirəm. Restoranda oturub söhbət edərdik. Oradakı restoranlar buradan çox ucuzdur. Əsas restoran söhbəti deyil. Problemləri – yataqxana, dil kursları, ixtisası dəyişmə kimi məsələləri ilə maraqlanıram. Qiymət yazdırma söhbəti ola bilməz. Burada bir neçə ingilis dilli yeni ixtisas açdıq. Həm Almaniya, həm də Amerika proqramları bu gün də davam edir. Ən əsas da odur ki, tələbələrin azı 90-95 %-i özlərini ya Almaniyada, ya Amerikada oxuyurmuş kimi hiss edirlər. Burada proqramlarda etik standartlar yüksəkdir. Tapşırıqdan, rüşvətdən söhbət belə gedə bilməz. Burada dərs deyənlərin bir çoxu mənim aspirantlarım, doktorantlarımdır. Mən onlardan hər hansı bir tələbədən ötrü qiymət yazmaqla bağlı xahiş etməmişəm. Çünki hər şey ordan korlanır. Balıq başından iylənər. Qoymamışam ki, başqa yerdən də təmas olsun.

*– Bir qədər də yetirmələriniz barədə... Müəllim üçün tələbələrinin sevincini eşitməkdən gözəl nə ola bilər? Bu baxımdan keçmiş tələbələriniz, onların alim və mütəxəssis kimi cəmiyyətdə və dünyada yeri və rolu barədə fikirlərinizi bilmək istərdik.*

– Elmi tərəfdən baxanda mənim 150-dən çox aspirantım müdafiə edib. Xaricdə onlara fəlsəfə doktoru deyirlər. Hardasa 30-dan çoxu da elmlər doktoru kimi müdafiə ediblər. Azərbaycanda Azad Mirzəcanzadədən başqa belə bir göstəricinin kimdəsə olması yadıma gəlmir. Təkcə Sumqayıt Universitetində hazırladığım 10-a yaxın professor var. İndi kafedra müdirləridirlər, başqa vəzifələrdədirlər. Texniki Univerisitetdə, Neft Akademiyasında, başqa univerisitetlərdə. Dünyanın əksər ölkələrində də doktorantlarım, aspirantlarım var. Hansı ki, müdafiə ediblər. ABŞ-da, Kanadada, Almaniyada, Türkiyədə, Kiprdə və dünyanın başqa ölkələrində onlarla müdafiə etmiş tələbələrim var. Şadam

ki, onlar özləri indi məktəb yaradıblar. Yadınızdadırsa, mətbuatda da getdi; Rusiyada S300, S400-ilə bağlı. Həmin o, Aşurbəyli də mənim tələbəm olub. Elmlər namizədliyini mənim rəhbərliyim altında müdafiə edib. Rusiyada müdafiə etmiş aspirantlarım, doktorantlarım lap çoxdur. Sevinirəm ki, bu məktəb şaxələnib. 25 il bundan qabaq ABŞ-a getmiş bir tələbəmlə bu yaxınlarda görüşdük. Uzun illərdən sonra birinci dəfə idi görüşürdük. Söhbət elədik. Dedi ki, 90-cı illərin əvvəllərində getdim. Universitetlərə işlə bağlı sorğu göndərdim. Məni sorğuya çağırdılar, dedilər ki, biz səninlə sorgu aparmayacağıq. Sənin bu əsərlərin kifayət edir. Bayaq dediyim kimi, indeksli jurnallarda sənin üç-beş məqalən çıxıbsa, dünya səni qəbul edir. Bir keçmiş aspirantım, sonra Kanadada professor oldu. Təxminən 20 gün bundan qabaq bu cavan oğlanı "Biznesin idarə olunması" kafedrasına rəhbər seçdilər. Hansı ki, kafedrada ABŞ-dan, Kanadadan və başqa ölkələrdən 11 əcnəbi professor var idi. Mən bunlarla fəxr edirəm. Məktub da yazdım.

Əbiyev adlı bir aspirantım da Yaxın Doğu Universitetində kafedra müdüri oldu. İndi onu böyük indeksli bir jurnala aparıcı redaktor seciblər. Bu hadisəylə fəxr etdim, böyük göstəricidir. Hamısı ilə də əlaqə saxlayıram. Qəribədir ki, Azərbaycanda olanlar bir qədər çörək qədri bilmirlər, amma kənarda olanlar bilirlər. Bəlkə də bu mühitdən asılıdır. Kənarda olanlar daxilən azad olduqları üçündür. Düşüncə azadlığı var. Burdakılar ya axtararlar, ya yox.

*– Rafiq Əliyev Məktəbinin özəlliyi barədə nə deyə bilərsiniz?*

– Bu barədə danışmaq çətindi. Ən birinci özəlliyi odur ki, dünya bunu qəbul edir. Məsələn, mən "World Scientific" nəşriyyatı üçün bir kitab yazırdım. Bu mənim axırıncı nəzəriyyəmdir. Çox gərgin proses idi. Hətta yadınıza gəlirsə, telefonu da söndürmüşdüm. Bu vaxt Amerikadan mənə məktub gəldi ki, indeksli jurnallarda olan məqalələrinizi oxuduq. Ən çox istinad olunan, istifadə olunandır. Bunlara da o lazımdır. Çox istinad olunan olsun. Məktubda yazdılar ki, sizdən xahiş edirik bu kitabı bizə yazın. İkinci dəfə məndən xahiş etdilər ki, bu kitabı hazırlayın. Axırı müqaviləyə qol çəkdim. Göndərdim. Şükürlər olsun ki, hər ikisini bitirdim. Sonuncunu bir ay bundan qabaq qurtardım. O biri kitab artıq istehsaldadır, uzağı bir aya çıxacaq. Nəşriyyatlar tərəfindən internetdə hər iki kitab haqqında məlumat yerləşdirilib. Başqa bir yerdən mənə yazdılar ki, yeni ədədlər hesabı var, bu barədə bizə kitabı siz yaza bilərsiniz. İndi o kitabı yazıram. Nəyə gətirirəm. Mən demirəm ki, çox kitab yazıram. Demək istədiyim odur ki, bu məktəb qəbul olunub. Mən rus dilində çoxdan idi kitab yazmırdım. Çünki auditoriya kiçikdir. Sovet dövründə rus dilində daha çox yazırdım. Sibir alimləri çox gəlib-getdilər. Qəti yazmaq istəmirdim. Sonda onlara kömək üçün yazmağımı istədilər. O kitab bir ay bundan əvvəl Moskvada "Nedra" nəşriyyatında çap olundu. Bu, məktəbin qəbul olunmasıdır. Və təkcə Rafiq Əliyevlik deyil. 25 ildən sonra görüşdüyüm insanla internet vasitəsilə görüşərək 2012-ci ildə dünyanın bir nömrəli jurnalında birgə bir məqalə çap elədik. Oturub bir yerdə işləməmişdik də. O, göndərdi, mən düzəltdim. Mən göndərdim, o düzəltdi. Bu gün bunun üçün üz-üzə işləmək lazım deyil. İnternet var. Bu şeylər bizdə da-

vam edir. Bu məqaləyə çoxlu sayda istinadlar getdi. Həmin məktəb təkcə Rafiq Əliyevin əməyi deyil. Tələbələrimə, doktorantlarıma, aspirantlarıma nə qədər vermişəmsə, bir o qədər də almışam.

*– Siz, Azərbaycanda, xaricdə ən çox çap olunan alimsiniz. Hamı bilir ki, Rafiq Əliyevin kitabları çıxıb. Amma nə qədər kitabı çıxıb, xəbərsizik. Sizin hər bir kitabınız həddindən artıq dəyərlidir, qiymətlidir. Sayla keyfiyyət sizdə eynidir. Xaricdə indiyə qədər neçə kitabınız çıxıb?*

– Mənim 72 kitabım çapdan çıxıb. Publisistik, orta məktəb üçün həm rus, həm Azərbaycan dilində informatika dərsliyi kitablarım var. Bu kitablar 10-15 ildir ki, ardıcıl olaraq çap olunur. Ali məktəblər üçün dərsliklər yazmışam. 1992-ci ildə yazdığım idarəetmə nəzəriyyəsi ilə bağlı kitabım 750 səhifədir. Moskvada müxtəlif nəşriyyatlarda 20-yə yaxın monaqrafiyalarım, elmi kitablarım çıxıb. Təbii ki, ən çox sevdiyim kitablar Almaniyada, Amerikada, İngiltərədə alman və ingilis dilində çıxan kitablarımdır. Bir şeyi qeyd edim ki, mən heç bir kitabımı tərcümə etməmişəm. Alman dilində olan kitabımı almanca yazmışam, ingiliscə olan kitabımı ingliscə, rusca olan kitabımı rusca yazmışam. Bir kitabımı Azərbaycan dilinə tərcümə etmişəm. Onu da akademiklərimiz çox xahiş elədilər ki, niyə Azərbaycan dilində yazmırsan. Auditoriyanın olmadığını dedim. Sonra Almaniyada onu 4 aya ingiliscədən azərbaycan dilinə tərcümə etdim. Bir az da korrektə, düzəliş etdim, uyğunlaşdırdım. Mənim kitabalarımda tərcümə yoxdur, amma kitablarımı tərcümə ediblər. Məsələn, 2004-cü ildə “Şplinger” nəşriyyatında çıxan bir kitabımı Sakarya Universiteti türk dilinə tərcümə edib. 1992-ci ildə çıxan “İdarəetmə nəzəriyyəsi”ni İranda fars dilinə tərcümə ediblər. O artıq mənlik deyil, sadəcə icazə alırlar.

*– Məncə, sizin nəzəriyyələrinizə uyğun olaraq dünyanın bəzi universitetlərində müxtəlif ixtisaslar açılıb. Bu barədə də məlumat verərdiniz.*

– Bu da qəribə sualdır. 2001-ci ildə çıxan kitabım ingiliscə “Soft Computing” adlanır. Təvazökarlıqdan uzaq olsa da deyim ki, bütün dünya ədəbiyyatında bu sahədə ilk kitabı mən yazmışam. Bu, qeyri-səlis məntiqi, neyron, təkamül və xaos sistemlərinin sinerjisidir. O kitab üç il dünya ədəbiyyatında bestseller oldu. Birinci yerdə oldu. Bəzən ikiyə, üçə keçirdi. Sonra yenə birə qalxırdı. Dünyanın bütün qitələrində universitetlərdə bu kitab dərslik kimi istifadə olunur. Bax Azərbaycanı tanıtmaq budur! Mən bunun üçün yaşayıram. Dünyanın müxtəlif qitələrində universitetlərində bu kitab təqdim olunanda, içində Azərbaycan adı da keçir. Azərbaycan aliminin adı keçir. Bundan başqa mən Təbriz, Zigen, Corciya Dövlət Universiteti, Yaxın Doğu Universiteti və digər universitetlərdə yeni ixtisaslar açdım. Təbriz Universiteti üçün çox iş gördük. Magistr pilləsi açdıq. İngilis dilində 3 dərslik kitabı çap elədim. Azərbaycanı tanıtmaq odur ki, azərbaycanlının kitabı bu dünya universitetlərində tədris olunur.

*– Sovet dövründə o vaxtın ən böyük mükafatı olan SSRİ Dövlət Mükafatına layiq görülmüsünüz. İndi artıq bütün sərhədləri keçmisiniz. Öz sahənizdə dünyanın ən sayılan ideya daşıyıcılarından, nəzəriyyə müəlifflərindən, alimlərindən birisiniz. Gözlənilən, dünyanın ən ali mükafatı olan Nobel mükafatı ilə bağlı nə yeniliklər var?*

– Axırıncı informasiyam, iki ay qabaq Lütfi Zadənin bu barədə mənə yazdığı məktubdur. Yazdı ki, Rafiq darıxma, onlar bu işə adət etməlidirlər. Onlara nə dövlət, nə anonim məktub təsir eləmir. Yalnız gözləmək lazımdır. Öz tərəfimizdən bacardığımız hər şeyi eləmişik.

*– İnşallah, o sevinci də yaşayarıq. İşlərinizlə bağlı hansı yeni informasiyalar var?*

– Əvvəla bir informasiya verəcəm sizə. Bunu heç yerdə deməmişəm, demək fikrim də yox idi. Bir ay bundan qabaq mənə Amerikanın böyük bir elm mükafatını veriblər – "LIFETIME ACHIEVEMENT AWARD". Tərcüməsi təxminən belədir – "DÜNYA ELMİNDƏ ÖMÜRLÜK NAİLİYYƏT". Parisdə sentyabrıın 2-də təqdim edəcəklər. Amma surətini mənə göndəriblər. Bunu ilk dəfə sizə deyirəm.

*– Təbrik edirəm! İnşallah, o biri xəbərin sevincini də ilk yaşayanlardan biri mən olaram.*

– İnşallah. 2000-ci ildə belə bir mükafatı Zadə alıb. İnternetdən oxudum bunu. Bir də Almaniyanın Zigen Universitetində, ümumiyyətlə dünya universitetlərində belə bir qayda var – uzun müddət orada professor işləyən, elmi və təhsili inkişaf etdirənlərə ömürlük yer verirlər. Onu mənə 4 il bundan qabaq verdilər. Bu münasibətlə məni həmin universitetin prezidenti, kansleri və bir neçə professor universitetin restoranına dəvət edib təqdim etdilər. Diplomu mənə verəndən sonra o yeri görməyə getdik. O yerdə sən öləndən sonra da heç kim otura bilməz. Burası bizim Azərbaycan ictimaiyyəti üçün çox maraqlıdır. Universitetin prezidenti, kansleri və bir neçə professorla gəlib o yerə çatanda, oradakı məsul şəxs dedi: "olmaz". İdarə rəisi söylədi ki, bu universitetin prezidentidir. O, da təkrar etdi ki, olmaz. O yerin yanında dərs keçilir. Dərs qurtarsın, buyurun, keçin. Prezident də incimədi. Dərsin bitməsini gözlədik.

İnsan bu xoş xəbərləri eşitdikcə, Azərbaycan aliminin uğurlarını gördükcə, bir vətəndaş olaraq Sizinlə qürur duyur. Sizə bir daha uğurlar, Rafiq müəllim!

**P.S.** Bu müsahibədə Rafiq müəllim bəzi sualların üstündən sükutla keçdi. Elə mən də. Bu, çox şey deyən sükut və pauzalardan başqa bir yazıda danışılacaq...

**Rəfail Tağızadə**
05.07.2014

## LÜTFİ ZADƏNİN XƏBƏRSİZ OLDUĞUMUZ BÖYÜK ELMİ NƏZƏRİYYƏLƏRİ RAFİQ ƏLİYEVİN TƏQDİMATINDA

Dünyanın nəhəng alimlərindən biri, bəşər tarixində elmə yanaşmanı dəyişən, elmi nəzəriyyələri ilə inqilab yaradan Lütfi Zadə dünyasını dəyişsə də, onun irsi həm davamçıları, həm də soydaşları tərəfindən davam etdirilməlidir.

Bu istiqamətdə ən böyük addımı onun elmi irsinin varisi, dünya çapında tanınan həmyerlimiz, professor Rafiq Əliyev atıb. Rafiq Əliyev Zadənin ona vəsiyyət etdiyi mirası "Lütfi Zadə irsi və Süni İntellekt" Assosiasiyasına bağışlamaqla Zadə irsinin təbliği ilə yanaşı, gənc alimlərin uğurlarına da töhfə verəcək.

Rafiq Əliyev həm də dünyada Lütfi Zadə şəxsiyyəti və elmi irsinin ən yaxşı bilicisidir. 40 ildən artıq dönəmdə onunla birgə müxtəlif elmi layihələr üzərində işləyən professor Rafiq Əliyev Lütfi Zadənin şəxsiyyəti, Azərbaycana bağlılığı həmçinin, zəngin elmi irsi barədə fikirlərini bölüşüb.

*– Rafiq müəllim, Zadə cismən də olsa, dünyasını dəyişdi. Azərbaycan torpağında dəfn edildi. Zadə ilə bağlı bir cəmiyyət və ziyalı toplum olaraq, bundan sonrakı əsas vəzifəmiz nə olmalıdır?*

– Bundan sonra Lütfi Zadənin elmi irsini öyrənmək, geniş yaymaq, Lütfi Zadə dühasına sadiqlik əsas vəzifəmiz kimi qarşımızda durur.

*– Rafiq müəllim, Zadənin elm aləmində ilk böyük işi hansıdır?*

– Lütfi Zadənin ilk böyük elmi göstəricisi elə onun doktorluq işi olub. O, həmin doktorluq işini 1949-cu ildə bir konfrans materialında dərc edib. Bu elmi nəzəriyyə parametrləri zamana görə dəyişən dinamik sistemlərin tezlik üsulları ilə işlənməsi üsuludur. Bir az aydın şəkildə deyək. 1930-1940-cı illərdə idarəetmə sistemləri nəzəriyyəsi yaranmağa başlayırdı. Ancaq mütəxəssislər belə hesab edirdilər ki, bu sistemlərdəki bütün göstəricilər, parametrlərin hamısı sabitdi, yəni, dəyişmir. Misal üçün, nümunə olaraq, insana dinamik sistem kimi baxaq. Klassik nəzəriyyələrdə – yəni, Zadənin adını çəkdiyimiz nəzəriyyəsinə qədərki elmdə belə hesab olunurdu ki, insan yaşa dolduqca, qocaldıqca onun damarlarının daralması baş vermir; eyni vəziyyətdə qalır. Həmçinin, beynindəki proseslər də dəyişməz qalır. Yəni, nümunə olaraq götürdüyümüz insana stasionar, dəyişilməz sistem kimi baxırdılar. Bu baxış, təbii ki, bütün sahələrdə eyni idi. İdarəetmə elminin dünyaya baxışı sabit, dəyişilməz pəncərədən idi... Zadə isə gördü ki, yox, istər raket texnikası, istər hərbi, istərsə hər hansı iqtisadi sistem olsun, oradakı parametrlər getdikcə dəyişir. Məsələn, bir sadə misal çəkək: Neftayırma zavoduna aid kiçik bir qurğu götürək. Bu qurğunun içərisində reaksiyaların aparılması üçün katalizator var. Onun vasitəsilə qurğuda benzin, mazut və başqa maddələr ayrılır. Burada iş prosesi zamanı katalizatorun aktivliyindən çox şey asılıdır. Bu aktivlikdən də asılı olaraq xüsusi rejim seçilir

ki, onunla ən lazımlı məhsulu, deyək ki, benzini daha çox almaq olsun. Amma zaman keçdikcə iş prosesini həyata keçirən katalizator köhnəlir. Bu zaman artıq əvvəlki tətbiq olunan rejim işə yaramır. Çünki uyğun katalizatorun iş mexanizminə yaramır. O zaman isə yeni rejim seçmək lazımdır. Həmin rejim üçün də yeni göstəricilər "uyğun temperatur, təzyiq və s." parametrlərini seçmək vacibdir ki, qurğuya gələn neftdən bu şəraitdə maksimum benzin almaq mümkün olsun. Müşahidə etdinizmi, həmin sistemin parametrləri, göstəriciləri məhz zamana görə dəyişdi. Çünki zaman amili katalizotarun iş fəaliyyətinə təsir etdi və bu zaman yeni rejimin tətbiqi qaçılmaz oldu. Bax, Zadə ilk elmi işində dünyaya belə bir üsulu hədiyyə etdi. Zadənin dissertasiya işi olan bu nəzəriyyə idarəetmə elmində çox böyük yenilik kimi qiymətləndirildi.

*– Böyük elmdə ilk işi olsa da, kifayət qədər uğurlu alınıb. Ondan sonra hansı elmi nəzəriyyələri dünyaya bağışladı?*

– Lütfi Zadə mənə həmişə çox böyük minnətdarlıq hissi ilə öz ilk müəllimindən danışardı, o, Raqassini adlı professor idi. Zadənin elmi rəhbəri olub. Zadə mənə deyərdi ki, yuxarıda haqqında danışdığımız dissertasiyanın müdafiəsi qurtarandan sonra yeni bir elmi məsələyə baş vurduq. Bu elmi məsələ barəsində danışaq. Raqassini ilə ərsəyə gətirdikləri bu elmi nəticə ilə bağlı 1950-ci ildə məqalə çap etdilər. Məqalə ABŞ-ın "Tətbiqi fizika" adlı beynəlxalq elmi jurnalında çap olundu və dünya elmi bunu çox böyük maraqla qarşıladı.

*– Elə isə, biz də Zadənin ikinci böyük elmi işindən – Raqassini ilə birlikdə ərsəyə gətirdiyi nəzəriyyədən danışaq:*

– Danışaq. Amma məqsədli şəkildə bir alimin adını çəkməliyik – kibernetikanın atası sayılan böyük alim Norbert Vinerin... O, həm də riyaziyyatçı idi. "Mən riyaziyyatçıyam" adlı kitabı da var idi. Hə, demək, həmin Viner çox maraqlı bir elmi məsələ həll etmişdi. Qeyd edək ki, onun həmin elmi məsələni işləməsi II Dünya müharibəsinə təsadüf edirdi. Müharibə zamanında da alimlər əsasən, o məqsədə yönələrlər. Viner həmin elmi mülahizəsində bir məsələyə toxunmuşdu: zenit artilleriyasını necə idarə etmək lazımdır ki, düşmən obyektlərini, məsələn, təyyarələrini vurma əmsalı böyük olsun. Yəni, hava obyektini elə dəqiqliklə vura bilim ki, zərbə yalnız dəqiq hədəfə dəysin. O, bu əsnada belə qənaətə gəldi. Uçan düşmən təyyarəsinin koordinatları barədə siqnal alınır. Həmin siqnal isə təsadüfi dəyişəndir, havada obyekt ora-bura yayınır ki, onu vura bilməsinlər. Ancaq alınan həmin siqnalın qəbul vaxtı müxtəlif proseslər baş verə bilər. Məsələn, hava dəyişimi baş verər, bulud qatı, müxtəlif əngəllər yaranar. Viner də məhz bu problem haqqında düşünürdü: mən o siqnalı süzgəcdən necə keçirim ki, alınan siqnallar təmiz olsun, onun əsasında obyekti daha dəqiq vura bilim. Yəni, onun elmi mülahizəsində iki məsələ diqqət mərkəzində idi: göndərilən siqnal və onun üzləşə biləcəyi ehtimal olunan müəyyən əngəllər. Bu, elmi ədəbiyyatda, idarəetmə sistemlərində Viner məsələsi kimi çox məşhurlaşdı.

*– Müəllim, yəqin ki, məşhur Vinerin bu uğurunun Zadə ilə Raqassininin ortaq elmi işi ilə hər hansı əlaqəsi var. Olmaya Viner bu nəzəriyyədə onlar üçün hər hansı boşluqlar saxlamışdı?*

– Mən də elə buna gəlirdim. Qayıdaq əvvələ. Demək, Zadə dərin hörmət bəslədiyi müəllimi Raqassini ilə məhz Vinerin bu məsələsinin genişlənməsinə çalışdılar. Dedilər ki, Viner bu məsələni çox gözəl həll edib, amma bir şeyi unudub, nəzərə almayıb: həmin gələn siqnal ki var, nə qədər əngəllərə bulaşmış olsa da, o siqnalların üzərində koordinatlar barədə informasiya ilə bərabər obyektin hədəfə getdiyi yol haqqında da informasiya var. Amma bu informasiyanı, siqnalın mürəkkəbəsini Viner nəzərə almayıb. Burada bir haşiyəyə çıxım. Qeyd edim ki, ilk dəfədir ki, bu barədə danışıram. Mən də öz işlərimdə Vinerdən gələn bu məsələni sonralar inkişaf etdirmişəm. Amma bu barədə sonra danışarıq. Deməli, Zadə ilə Raqassini Viner məsələsinə əlavələr etməklə, oradakı boşluğu doldura bildilər. Vinerin nəzərə aldığı iki faktora – alınan siqnal və onun qarşılaşma ehtimalı olan əngəllərə üçüncüsü – konkret hədəfə gedən yol barədə informasiya daşıyan siqnal da əlavə edildi. Zadə müəllimi ilə bu üç siqnal qarışığını nəzərə alaraq, Zadə–Raqassini nəzəriyyəsini yaratdı. Bu nəzəriyyəyə görə, sistemi elə idarə etmək lazımdır ki, alınan siqnallar əsasında daha dəqiq idarəetmə mümkün olsun. Bu elmi ədəbiyyatda Zadə–Raqassini məsələsi adlanır.

Hə, burada çox vacib bir məsələni qeyd etməliyəm. Zadənin bütün elmi irsinin kökündə bu qayə dayanır.

*– Buyurun...*

– Zadənin elmdə atdığı ilk addımdan son günlərinə kimi məşğul olduğu bir əsas elmi qayə olub – real həyatda olan qeyri-müəyyənlikləri, təsadüfləri nəzərə alıb, onların əsasında düzgün qərar qəbul etmək! Onun bütün elmi nəzəriyyələri məhz bu qayənin üzərində qurulmuşdu. Qeyri-səlis məntiq də, ondan əvvəlki və ondan sonrakı nəzəriyyələr də bunun üzərində qurulub.

*– Rafiq müəllim, Viner, Raqassini və Zadə üçlüyünün ərsəyə gətirib, inkişaf etdirdikləri bu elmi mülahizələr idarəetmədə nəyi dəyişdi və nələrin əsasını qoydu?*

– Viner, Zadə və Raqassinidən qabaq hamı belə hesab edirdi ki, idarəetmə sistemin girişində ancaq əvvəlcədən məlum olan konkret bir siqnal var. Həmin sistem qabaqcadan təyin edilən konkret göstəricilərlə işləməli olurdu. Məsələn, temperaturu 20°C saxlayan sistemdə tapşırıq siqnalı kimi 20 ədədi göstərilirdi. Mən deməzdim ki, bu, o zamankı alimlərin zəifliyi idi. Xeyr, sadəcə, bütünlükdə dünya elminin yeni baxışa – Vinerdən başlanan yeni elmi mülahizəyə gücü çatmırdı. Mənim də bəxtim onda gətirib ki, elmi həyatımda ilk addımlarımdan başlamış bugünkü günə kimi ancaq real dünyanın qeyri-müəyyənliklərini tuta bilmək və onlardan istifadə edərək optimallaşdırmaq, daha əlverişli qərar qəbul etmək məsələləri ilə məşğul olmuşam. Bütün elmi fəaliyyətimin əsasında bu qayə dayanır. Və çox qəribədir ki, namizədlik dissertasiyam da məhz bu qayəmə uyğun oldu. Zadə–Raqassini məsələsinin genişləndirilməsinə baxdım. Necə ki, vaxtilə onlar Viner məsələsini genişləndirmişdilər, eləcə də mən də Zadə–Raqassini məsələsinin inkişaf etdirilməsi ilə məşğul oldum.

– Sizin bu məsələdə genişləndirməniz nədən ibarət oldu?

– Zadə–Raqassini məsələsinə mən də xüsusi əlavəmi etdim. Nə Vinerdə, nə də Zadə–Raqassinidə həmin əlavə nəzərə alınmamışdı. Yuxarıda dediyimiz

kimi, Vinerin məsələsində idarəetmə sisteminə təsir edən 2, Zadə–Raqassinidə isə 3 siqnal nəzərə alınırdı. Oxucular üçün gəl, bir daha xatırlayaq. Zadə–Raqassini məsələsi alınan təsadüfi siqnal, qarşılaşa biləcəyi əngəl və hədəfə gedilən yol barədə informasiyadan ibarət idi. Bizim isə buna bir əlavəmiz oldu: axı sistemə çoxlu həyəcanlandırıcı təsirlər də ola bilər. Amma Zadə–Raqassini məsələsi bunu nəzərə almamışdı. Belə sistemlər kombinə olunmuş sistemlər adlanır. Sistemə çoxlu başqa təsirlər də olur. Bəs bu halda onu necə optimallaşdırmaq olar? Mürəkkəb sistemlərdə həyəcanlandırıcı siqnalları nəzərə almaqla Viner və Zadə–Raqassini məsələsini genişləndirməklə yeni bir nəticə alındı. Bu elmi nəticə 1967-ci ildə müdafiə etdiyim dissertasiyamda və 1971-ci ildə Moskvada çap etdirdiyim kitabımda şərh olunmuşdur. Orada Zadə–Raqassini tənliyinin genişləndirilmiş forması öz əksini tapıb.

*– Rafiq müəllim, çox təşəkkür edirik ki, elə söhbətin gedişində sizin də elmi uğurunuz haqqında məlumat aldıq. Viner, Zadə, Raqassini kimi alimlərin mülahizələrindəki boşluqları doldurmaq həqiqətən də böyüklükdür. Demək, Zadə–Raqassini məsələsi Lütfi Zadənin elmdə ikinci böyük işi idi. İndi icazənizlə, onun növbəti elmi uğuruna, nəzəriyyəsinə keçək.*

– Biz də dəfələrlə demişik, siz də bir neçə dəfə yazmısınız; Necə olur ki, bu qədər böyük alim olasan, amma heç bir kitab yazmayasan. Zadənin ömrü boyu yalnız bir kitabı olub. O kitabı 1963-cü ildə yazıb. Özü də tək yox, Çarlz Dzoyer adlı professorla birlikdə... Həmin kitabda idarəetmə sistemlərinə tam yeni bir baxış irəli sürüb. Çalışacam ki, onu anlaşıqlı üsulla izah edim. Yuxarıda da dedik ki, Viner və iki davamçısına qədər elmdə hər şey stasionar, dəyişilməz sayılırdı. Mütəxəssislərə görə, qeyri-müəyyən olan heç nə yoxdu. Bütün sistemlərə də belə baxırdılar. Kosmik obyektin, kimyəvi reaktorun içərisində təbii ki, temperaturu sabit saxlayan sistem lazımdır. Bütün klassik sistemlərdə isə o temperaturu ölçürdülər. Əgər temperatur artırdısa, onu soyudur, azalırdısa, qızdırırdılar. Bunu ona görə edirdilər ki, temperatur verilmiş sabit qiymətdə qalsın. Zadə ilə Dzoyer bu kitabda sistemlərin vəziyyəti nəzəriyyəsini irəli sürdülər. Hər hansı sistemdə temperatur niyə ölçülür? Niyə temperatur sistemin içərisində artıb-azalır? Buna nələr təsir edir? Bu cür sualların cavab verdiyi və kitabda da əksini tapan yeni nəzəriyyəyə vəziyyətlər fəzasına əsaslanan idarəetmə nəzəriyyəsi dedilər. Bu anlayış dünya elminə ilk dəfə Zadə və Dzoyer tərəfindən daxil olundu. Onlar elmdə ilk dəfə tək nəticəyə görə yox, həm də səbəbə əsaslanan bir nəzəriyyə yaratdılar. Daha anlaşıqlı olsun deyə, həyatla bağlı sadə bir misal götürək: İnsan xəstələnəndə, temperaturu qalxanda, yəni məhz son nəticədə onun hərarətini ölçürük ki, görək nə qədərdi. Əgər hərarət yüksəkdirsə, bu, artıq orqanizmdə baş verən hansısa prosesin son nəticəsidir. Hansısa proses getməlidir ki, bədəndə temperatur da qalxmalıdır. Amma Zadənin yeni nəzəriyyəsi həmin temperaturun, yəni nəticənin yox, onu yaradan səbəbləri, insanın vəziyyətini təyin edən əsas parametri öyrənmək üzərində qurulub. İdarəetmə elmi bu anlayış hesabına çox böyük uğur qazandı. Doğrudur, biz sadə misal dedik. Amma bu nəzəriyyəni mürəkkəb idarəetmə sistemlərinə tətbiq edəndə, nə qədər faydalı olduğunu bütün dünya gördü.

Bu gün də bütün kosmik obyektlərdə, NASA-nın oyektlərində, ondan sonra mürəkkəb vacib sistemlərdə, esktrimal situasiyalarda bu nəzəriyyə tətbiq olunur. Demək olar ki, bütün dünyada bu üsullardan istifadə edirlər. Bəzən, elmdə elə situasiyalar olub ki, çıxışı, yəni nəticəni ölçə bilməyibər. Elə situasiyalar var ki, orada nəticəni hesablamaq mümkün olmur. Məsələn, kimyəvi reaksiya zamanı ortaya elə məhsul çıxır ki, onun tərkibini mütləq ölçməlisən. Tərkibi ölçmək üçün də 40-50 dəqiqə vaxt keçir. Həmin müddətdə isə reaksiya zamanı partlayış da ola bilər. Məsələn, mənə elə gəlir ki, Ukraynadakı atom fəlakətinin, Çernobl hadisəsinin də əsas səbəbi idarəetmənin düzgün olmaması olub. Çünki onlar situasiyanı yalnız çıxışa görə idarə edirdilər. Bu nəzəriyyəyə görə idarə etmirdilər.

*– Müəllim, bu kitab 1963-cü ildə buraxılıb. Amma bayaq söhbətimizdə dediniz ki, Zadə bu işdən qabaq, 1952-ci ildə təxminən, qeyri-səlis məntiqə bərabər olan bir nəzəriyyə yaradıb. Çoxusu Zadəni qeyri-səlis məntiqə görə tanıyır. Bəs, ona bərabər olan bir nəzəriyyə barəsində niyə çox da geniş məlumat yoxdu? Bir az o barədə danışa bilərikmi?*

– Zadə 1952-ci ildə Raqassini ilə birlikdə pioner ola bilən nəzəriyyə irəli sürdü. Nəzəriyyə "Z-çevirmə nəzəriyyəsi" adlanır.

1940-ci illərdə həm idarəetmə elmində, həm kommunikasiya texnologiyalarında iki böyük cərəyan var idi: biri Viner, o biri isə Şennon cərəyanı idi. Viner cərəyanında yuxarıda danışdığımız məsələlər kəsilməz təsirli sistemlər üçün keçərli idi. Məsələn, temperaturu, kosmik aparatda trayektoriyanı ölçürüksə, onu hər dəfə kəsilməz surətdə ölçürük. Viner bu üsulla gedirdi. Məsələn, yenə bayaqkı sadə misala qayıdaq. Təsəvvür edək ki, hərarəti bilmə üçün termometri silkələyirik və bədənlə təmasından sonra hərarətin qalxdığını hər an izləyə bilirik. Amma Şennon deyirdi ki, bu cür ölçmək, hesablamaq lazım deyil. Məsələn, bizim termometrimizdə civə hər saniyədə müəyyən qədər qalxır. Şennon da deyirdi ki, sən onu 0,1 addımdan bir hesabla. Həm də deyirdi ki, bu cür olanda informasiyanı effektli olaraq daha uzaqlara ötürmək mümkündür. Amma bu zaman kvantlaşmanı gərək elə seçəsən ki, informasiyanı itirməyəsən. Doğrudan da elədir. Biz öz termometrimizlə bədənimizin hərarətini ölçəndə hər saniyə ona baxmırıq ki?! Ya da lap baxsaq belə, hər saniyə dəyişən rəqəmi nə edirik ki?! Doğrudur bu bəsit misaldır. Amma daha mürəkəb nümunələr çəksək, bu cərəyanın nə qədər effektli olduğunu görə bilərik. Məsələn, bu gün bir dövlətdən başqa dövlətə siqnallar, Yerdən Aya siqnallar ötürülür. Onların hesablanmasında Şennon nəzəriyyəsindən istifadə edilir. Yəni Yerdən aya kəsilməz surətli yox, diskret formalı siqnal ötürülür.

*– Belə anladıq ki, Zadə məhz bu iki cərəyandan çıxış edərək, hansısa elmi uğura imza atıb. Özü də qeyri-səlisə bərabər olan elmi işə...*

– Bəli, Zadə başa düşdü ki, elmin, texnikanın gələcəyi diskret sistemlərdir. Amma o zaman bu sistemlərlə bağlı hansısa bir nəzəriyyə yox idi. Bütün dünyada mövcud nəzəriyyələr ancaq kəsilməz təsirli sistemlər üçün idi: istər Viner, istərsə də ondan qabaqkılar da həmçinin... Bu böyük boşluğu məhz Zadə doldurdu. O, ilk dəfə yeni nəzəriyyəsi ilə diskret sistemlərin sintezi üsulunu təklif etdi. Kəsilməz

sistemlərin diskret sistemlərə çevrilməsinin əsasını özündə əks etdirən nəzəriyyə yaratdı və adını da "Z-çevirmə nəzəriyyəsi" qoydu. Ondan sonra bütün dünya diskret sistemə keçməyə başladı. Bu çox böyük işdi. Bütün idarəetmə elmini dəyişdi. Elə təxminın qeyri-səlis məntiq miqyasında bir elmi nəzəriyyə idi.

Yeri gəlmişkən, bir əlavə edim ki, məni Zadə ilə ilk dəfə SSRİ Elmlər Akademiyasında Tsıpkin adlı bir professor tanış etdi. O da uyğun nəzəriyyə üzrə işləyirdi və bu işlərinə görə Lenin mükafatı aldı. Amma Zadə bu nəzəriyyəni 1952-ci ildə yaratmışdı. Tsıpkin isə 1960-cı ildə bu işlərə başlamışdı. Amma SSRİ-də təzə idi deyə Lenin mükafatı verildi. Mən də yazdığım dərsliklərdə Z-çevirməyə çox böyük yer ayırmışam. Tələbələr 20-25 ildir ki, həmin dərslikdən yararlanırlar. "Z-çevirmə nəzəriyyəsi"ni oradan öyrənirlər.

*– Rafiq müəllim, Lütfi Zadə qeyri-səlis məntiqə qədər həqiqətən böyük işlər görüb. Bir neçə nəzəriyyəsi ilə idarəetmə elminə baxış təmiz dəyişib.*

– Əlbəttə, hələ onun qeyri-səlisə qədər gördüyü başqa elmi işlər də var. Amma onlar Z-çevirmənin yanında bəsit göründüyü üçün toxunmaya da bilərik. Amma onu da deyim ki, həmin elmi nəzəriyyələr də öyrənilir və Zadənin bioqrafiyasında onlara da xüsusi yer ayrılır. Elə bu silsilədən birini də deyim. Amma təkrarlayıram, onlar qeyri-səlis məntiq və "Z-çevirmə nəzəriyyəsi" ilə müqayisədə o qədər də böyük deyil. Amma elmi ədəbiyyatda Zadədən danışanda həmin nəzəriyyənin də adını çəkirlər.

*– Elə isə biz də həmin nəzəriyyə barəsində danışmağı sizdən xahiş edək...*

– Zadə 1953-cü ildə yeni bir elmi yanaşma irəli sürdü. Bu gün də kosmik texnikada ən çox tətbiq olunan nəzəriyyədir. Dahi də məhz o şəxslərə – öz zəmanəsini 50–100 il qabaqlayan insanlara deyilir. Görün nə zaman irəli sürüb – 1953-cü ildə. Amma bu gün də kosmik sənaye o nəzəriyyədən yararlanır. Zadə qeyri-xətti filtrlər nəzəriyyəsi verdi ki, faydalı siqnalı əngəllərdən xilas etsin.

Baxın, dahi bu insanlara deyilməlidir. Biz sizinlə hələ qeyri-səlisə keçməmişik. Amma görün, hələ buna keçməzdən əvvəl də biz nə qədər böyük elmi işlərdən danışdıq. Xüsusən də, "Z-çevirmə nəzəriyyəsi" elmdə böyük dönüş nöqtəsi oldu. Bu gün də digital-rəqəmsal anlayışları çox məşhurdur. Onun əsasını Lütfi Zadə elə bu nəzəriyyələrlə qoydu.

*– Rafiq müəllim, Zadənin şah əsəri olan qeyri-səlis məntiq həm də dünyada yeni təfəkkür hadisəsi sayılır. O nəzəriyyə təkcə elmi göstərici olaraq qəbul edilmir. Onu bəzən, həyata yeni baxış sistemi də adlandırırlar. Nə üçün bu nəzəriyyə yarandığı ilk vaxtlarda elmdə qəbul olunmayıb?*

– Lütfi Zadənin elmi yaradıcılığında ən böyük zirvə 1965-ci ildə çap etdirdiyi qeyri-səlis məntiq, qeyri-səlis çoxluqlar nəzəriyyəsidir. Sizə bir epizod deyim: demək, ABŞ-ın Berkeley Universitetində məşhur bir alimlə, Kanadadan olan professor M.Gupta ilə söhbətim zamanı o, mənə qəribə bir hadisə danışdı. Burada haşiyə çıxaraq, onu da deyim ki, ilk qeyri-səlis hesab kitabını elə M.Gupta yazıb. Mənə danışdı ki, köhnə Yuqoslaviyada bir elmi konfransda imiş. Konfrans başlamazdan öncə səhər yeməyinə gedib. Deyir, səhər yeməyində mənə bir nəfər yaxınlaşıb oturmaq üçün icazə istədi. Razılaşdım. Sonra tanış olduq, hə-

min alim Zadə idi. Görüş 1967-ci ildə olub. Deməli, Zadə həmin görüşdə qeyri-səlis məntiqlə bağlı çap olunan məqaləsini oxumaq üçün ona verib. Siz də bilirsiz ki, ilk vaxtlar dünyanın çox yerində bu nəzəriyyə qəbul olunmayıb. M. Gupta da qeyri-səlis məntiqi ilk olaraq, düzgün anlamayanlardan biri olub. O, deyirdi ki, Kanadaya qayıdandan sonra həmin məqaləni oxumağa başladım. Oxuyandan sonra Zadəyə yazdım ki, bu riyazi mozaikadır. Heç bir elmi dəyəri olmayan riyazi oyundur. Amma sonra görün nə oldu? Demək, M. Gupta bir müddətdən sonra məqaləni bir daha oxuyub. Onda qeyri-səlis məntiqin inqilabi gücünü anlayıb. Mənə deyirdi ki, məhz o vaxtdan bu günəcən, yəni, 1967-ci ildən indiyəcən elmi həyatımı həmin nəzəriyyəyə həsr etdim. Ən maraqlısı isə budur ki, ikinci oxunuşdan sonra Lütfi Zadəyə məktub yazaraq, əvvəlki ifadələri üçün ondan üzr istəyib.

*– Qeyri-səlis məntiqin əsas mahiyyəti, canı nədə idi?*

– Bu nəzəriyyəyə qədər hər şey Aristotel məntiqi ilə hesablanırdı. İnsanların düşüncəsində bu məntiq hakim idi. Bütün klassik riyaziyyat da hamısı o məntiqin üzərində qurulmuşdu. Bu ikili məntiq – yəni, ya sıfır, ya bir, ya ağ, ya qara seçimləri üzərində qurulan məntiq – uzun əsrlər dünya elmində aparıcı qüvvə olub. Ötən əsrin 20-ci illərində Lukaseviç adlı alim üçlü məntiq təklif etdi. Aristotel məntiqi dediyimiz kimi ikili idi. Lukaseviç isə deyirdi ki, Aristotel məntiqindəki ağla qaranın, sıfırla birin arasında da bir rəqəm, yaxud hansısa element var. Məsələn, deyək ki, o, sıfırla birin arasında neytral rəqəm kimi 0,5-i göstərirdi. Bir kəs başqa birisiylə dost ola bilər, neytral ola bilər, ya da düşmən. Amma bu nəzəriyyə də natamam idi. Ona görə də elmdə çox yayıla bilmədi. Çünki birlə sıfırın arasında sonradan gördük ki, nə qədər sonsuz sayda kəsilməzlik var. Zadə ilk dəfə məhz bu kəsilməzliyi gördü. Bunların hamısı əslində, çox çətin elmi mülahizələrdi. Mən geniş oxucu kütləsinin başa düşməsi üçün sadə şəkildə izah etməyə çalışıram.

*– Rafiq müəllim, şəxsən biz sizdən xahiş edirik ki, bu cür çətin elmi mülahizələri bizlərin anlayacağı şəkildə izah edəsiniz. Çünki Zadədən danışan hər kəs qeyri-səlis məntiqdən da nəsə deməyə çalışır. Qeyri-səlis məntiqi geniş kütləyə bir-iki sadə mülahizələrlə necə anlatmaq olar?*

– Bir neçə çoxluq nümunələri ilə qeyri-səlis məntiqi anlatmaq daha faydalıdır. Aristotel məntiqinə söykənən ikili məntiq, ikili çoxluqu biz orta məktəbdə oxuduğumuz vaxtda riyaziyyat dərsində müşahidə etmişik. Bizim vaxtımızda dərsliklərdə iki cür mötərizə var idi; bir böyük fiqurlu mötərizə, bir də intervalı göstərmək üçün orta mötərizə... O fiqurlu mötərizə ikili qiymətli çoxluqları əhatə edirdi. Məsələn, deyək ki, həmin fiqurlu mötərizə heyvanlar çoxluğunu göstərir. O çoxluğun daxilində tutaq ki, maral, canavar, pələng və s. heyvanlar var idisə, quşun, bülbülün orada yeri olmazdı. Fiqurlu mötərizə quşu birbaşa həmin çoxluqdan kənar edirdi. Yəni bülbülün heyvanlar çoxluğuna mənsubluq dərəcəsi 0-a bərabər olur. Çünki o yalnız ikili məntiq üzərində qurulmuşdu. Çoxluğun hər bir elementi ya heyvandır, ya da deyil! Ya "hə", ya da "yox"! Belə götürəndə, həqiqətən də quş heyvanlar sinfinə daxil deyil. Yəni, burada biz mübahisəsiz klassik çoxluqlar ilə razılaşa bildik. Amma hər şey buradakı kimi sadə deyil axı... Sonradan yüzlərlə

mürəkkəb çoxluqlar yarandı ki, orada birbaşa "hə", yaxud, "yox" cavabları vermək sadəcə, yanlışlıq olardı. Məsələn, dəniz ulduzu və ya bakteriya haqqında belə fikir söyləmək olmaz. Onların heyvanlar çoxluğuna mənsubluğu qeyri-müəyyəndir, müəyyən dərəcə ilədir. Real həyatdan başqa bir misal çəkək. İnsanın yaşını göstərən bir çoxluq sistemini misal çəkək: uşaq, gənc, cavan, orta yaşlı, ahıl, qoca. Bunların hamısı insanın müəyyən yaş mərhələsinin göstəricisidir.

Birinci çoxluqda məlum idi, orada konkret deyə bilərdik ki, pələng quş deyil. Amma bu çoxluqda yüzdə-yüz nəsə demək olmaz. Məsələn, demək olmaz ki, 35 yaş yüzdə-yüz gənc, ya, cavan deyil. 35 yaş gənc deyil, amma onun gənclik göstəricisinin dərəcəsi var axı... 35 yaş müəyyən dərəcə ilə gəncdir, yaxud, müəyyən dərəcə ilə cavandır.

Gördünüzmü, biz hələ sadədən sadə bir misal çəksək də, orada yenə də konkret cavab verə bilmədik. Çünki burada bir kəsilməzlik var. Bu cür çoxluğa "hə" və "yox"la cavab vermək olmaz. Yaxud dostluq çoxluğunu götürək: yaxın dost, uzaq dost, kölgə dost. Yəni, yaxşı olmayan dost kölgə kimidi. Sən zenitdə olanda arxanca sürünür. Buludlu havada isə yoxa çıxır. Bu çoxluqda dostluq müxtəlif dərəcələr ilə ölçülür. Bu cür hesablamalar aparmaq üçün ikili və üçlü məntiqlər artıq işə yaramır.

*– Rafiq müəllim, çox sağ olun ki, mən də daxil olmaqla, böyük kütlənin qeyri-səlisi anlaması üçün bu cür anlaşıqlı nümunələrdən istifadə etdiniz. Amma mən hiss edirəm ki, siz əslində, beyninizdə böyük riyazi prosesləri bu sadə nümunələrin üzərinə qismən köçürüb bizə çatdırırsız...*

– Doğrudur, mən bunları sadə metodlarla, sözlərlə ifadə etdim. Amma təbii ki, hamısının riyazi simvollara çevrilmiş ədədlərlə ifadə olunan versiyaları da var. Söhbət təbii ki, bizim çəkdiyimiz sadə misallardan getmir. Onlar sadəcə qeyri-səlis məntiqlə ibtidai tanışlıq üçün bir vasitədir. Əslində, bütün həyati proseslər qeyri-səlis məntiqin riyazi dilinə də "tərcümə edilə" bilər. Zadə də elə bunu etdi. İlk dəfə elmdə kəsilməz çoxluqlar anlayışını verdi. İkili, üçlü məntiq yox, kəsilməz çoxluq anlayışını irəli sürdü. Adını da ingiliscə fazzy qoydu. Türkiyədə ona "bulanıq məntiq" deyirlər. Azərbaycan dilində isə "qeyri-səlis məntiq" kimi bilinir. Biz uzun illər idi ki, Zadə ilə bərabər işləyirdik. O barədə ilk dəfə kitab yazmağa başlayanda çox fikirləşdim ki, nəzəriyyənin adını necə yazım. Əvvəllər yaponların buraxdığı ŞARP adlı radioqəbuledicilər var idi. Səsi çox səlis verirdi. Şarp sözü də oradan gəlir. Amma yüzdə-yüz kəskin olmayanları da nəzərə alaraq, mən "səlis" anlayışının qarşısına "qeyri-səlisi" də əlavə etdim. Bunu 1980-ci illərin ortalarında Azərbaycan elmi leksikonuna daxil etdim. İranda da bunu çox yaxşı qəbul etdilər. Ruslar isə bu məntiqi "Нечеткая логика" adlandırırlar.

*– Qeyri-səlis məntiq klassik riyaziyyatın mahiyyətini, kökünü necə dəyişdi?*

– Lütfi Zadə qeyri-səlis çoxluq və onun xassələrini verəndən sonra riyaziyyatçılar qeyri-səlis riyaziyyat yaratmağa başladılar. Bu isə riyaziyyatın bütün sahələrini, başda ədədlər nəzəriyyəsi olmaqla tamamilə genişləndirmək demək idi. Ədədlər nəzəriyyəsi demişkən, yenə sadə misallara toxunaq: məsələn, biz sizinlə danışmışdıq ki, 12:30-da görüşəcəyik. Amma mənim düşüncəmdə belə de-

yil. Dostlarıma da hər dəfə elə demişəm. Yəni, konkret olaraq 12:30 yox, 12:30 ətrafı demişəm. Çünki gəlib çatmaq da bir prosesdir. O prosesin müddətində tıxac olar, hər hansı bir səbəb yaranar. Ola bilməz ki, yüzdə-yüzə bir rəqəm söyləyəsən və o dəqiqliklə yerinə otursun. Heç 12:30-un özü də konkret zaman dilimi deyil. Onun da müxtəlif kəsilməz nöqtələri var. Sən o zaman kəsiminin də yüzdə-yüz halında çata bilməssən? yüzdə-yüz bircə Tanrıdır. Məsələn, biz otaqda oturmuşuq. İçəridəkilərdən soruşsam ki, bayırda temperatur neçədir, heç bir insan onu yüzdə-yüzə deyə bilməz. Biz yalnız bir intervalda deyə bilərik. Ya da deyə bilərik ki, temperatur 12 dərəcənin ətrafındadır. Bu, 11 də ola bilər, 11,5 də, 13 də... Dediyim odur ki, qeyri-səlis çoxluqlar sistemi ədədlər sistemini də dəyişdi. Qeyri-səlis ədədlər meydana gəldi. Qeyri-səlis funksiya anlayışı yarandı. Qeyri-səlis funksiyalar üzərində olan xassələr, onun törəmələri, onun inteqralları, qeyri-səlis fəzalar yarandı. Beləcə riyaziyyatın bütün kökü dəyişdi. Yeni bir riyaziyyat əmələ gəldi. Riyaziyyat dediyin nədir ki? Riyaziyyat dildir. Yəni, biz riyaziyyat vasitəsilə prosesləri simvollar üzərində aparılan əməliyyatlar üzərində dərk edirik. Əgər dil, riyaziyyat dəyişdisə, deməli digər elmlər də genişləndirildi, yeniləşdi.

*– Rafiq müəllim, söhbətimizin əvvəlində qeyri-səlis məntiqin əsas uğurlarından biri kimi, onun klassik riyaziyyatın çata bilmədiyi sərhədlərə varmasını göstərdiniz. Bəs, qeyri-səlis məntiqlə ölçmə, rəqəmli riyaziyyata alternativ hesablama necə aparılır?*

– Qeyri-səlis məntiqin canı iki şeydir: birincisi budur – dünyada hər bir şeyin öz dərəcəsi var. Mütləq heç nə yoxdu. Mütləq yalnız Tanrıdı. İkincisi də budur – qeyri-səlis məntiqdə qavrayış toplum halında olur, dənəvari yox. Məsələn, həkim analizdən, mümkün prosedurlardan qabaq əvvəlcə yanına gələn xəstənin üzünə baxır. Xəstənin simasına baxanda onun durumu barədə özündə ilkin təəssürat yaradır. O, bu zaman durub xəstənin simasındakı rəngi, solğunluğu ölçmür ki! Yaxud, xəstəliyin əsas nişanələrindən biri olan göz saraltısını durub cihazla ölçmür ki! O, sadəcə olaraq, xəstənin siması vasitəsilə onun səhhətindəki problemləri ölçmə aparmadan qavrayır. Yəni, toplum halında qavrayır, dənəvari şəkildə, ayrı-ayrılıqda xırda zərrəciklər halında yox! Bax, qeyri-səlisin canı budur! Yəni, qeyri-səlis məntiqdə klassik rəqəmlər işləmir. Daha bir misal çəkək: tutaq ki, bir qum təpəsini götürək. Kim deyə bilər ki, o qum təpəsində neçə ədəd qum zərrəciyi var? Heç kim durub oradakı qum zərrəciklərini bir-bir saya bilməz! O yalnız həmin təpə haqqında toplum halında qərar verə bilər: qum təpəsi böyükdür, ortadı, yaxud kiçikdir... Yəni, burada toplumsal qavrama əsas rol oynayır.

*– Qeyri-səlis məntiq təbii ki, çox mürəkkəb elmi mülahizələr sistemidir. Oxucuların adından bu nəzəriyyəni anlamaq üçün sizdən anlaya biləcəyimiz nümunə xahiş edərdik.*

– İnternetdə belə bir tipik hesablama proqramı var; ona akademik dildə “bençmantrk” deyirlər. Bundan proqram istifadəçisi həyat yoldaşını seçmək qərarını vermək üçün yararlanır. Bu, çoxmeyarlı bir məsələdir. İnternetdə bunu görmək olar, amma klassik variantda. Biz, qeyri-səlis məntiqin mahiyyətini sadə üsulla təsvir etmək üçün həmin proqramı nümunə çəkək. Məsələn, deyək ki, beş nəfər namizəd var və istifadəçi onların arasından özünə həyat yoldaşı

seçə bilər. Bu seçim zamanı tələb olunan kriteriyalar ölkədən ölkəyə dəyişir. Amma ümumən dünyada proqramın bir neçə oxşar meyarları var: birinci kriteriya – gözəllik! Burada namizədlərin gözəllik göstəricilərinə diqqət edilir. Axı istifadəçinin elə bir cihazı yoxdu ki, durub bir-bir namizədlərin gözəllik dərəcəsini hesablasın. Bu, persepsiyadır. Ümumiyyətlə, informasiyanın iki növü var: hesablama və persepsiya. O şeyi ki, ölçüb dəqiq qiymət vermək olar, bu, hesablama informasiyasıdır. Məsələn, biz təzyiqimizi ölçüb dəqiq nə qədər olduğunu bilirik. İkincisi isə qavrayış, persepsiyadır. Məsələn, gözəlliyi ölçmək mümkün deyil. Kimin gözəl, kimin isə çox gözəl olması insandan asılıdır. Amma istənilən insan təbii ki, seçəcəyi insanın gözəllik dərəcəsini öz özlüyündə qavrayır.

Proqramdakı ikinci meyar isə evdarlıqdır. Yaxşı, mən bu evdarlıq göstəricisini həmin namizədlərdə necə ölçüm?! Elə bir cihaz varmı ki, mən bir-bir gedib həmin beş namizədin evdarlıq qabiliyyətini hesablayım? Yoxdur! Demək, burada yenə də qeyri-səlis məntiq köməyə gələcək. Seçim edən şəxs bu meyar əsasında kimin nə qədər qabiliyyətli olduğunu ölçə bilməsə də, qavrayacaq. Bu qavrayış hesabına da ümumi nəticəyə varacaq.

Üçüncü meyar isə ailədə tolerantlıq, ailədaxili münasibətlər sistemidir. Gördünüzmü, heç bunu da ölçmək mümkün deyil. Mən bir adamın öz ailəsində necə dil tapdığını necə hesablaya bilərəm ki?! Bunu da ancaq qeyri-səlis yolla qavramaq olar.

Növbəti meyar isə ziyalılıqdır. Biz heç vaxt həmin xanım namizədlərin ziyalılıq göstəricisini hansısa yolla dəqiq hesablaya bilmərik. Yuxarıda meyarlar dedik, onların hansını klassik yolla hesablamaq olar? – Heç birini! Bax, bu zaman mən qeyri-səlis informasiyalar vasitəsilə qərar qəbul edib, beş namizədin içərisində həmin meyarlara ən yaxın olanı seçməliyəm. Bu misalı mən internetdən dedim. Kifayət qədər populyar proqramdır, həm də həyati bir misaldır. Deməli, qarşıdakı sivilizasiyada biz elə bu cür hesablamalarla qərarlar verəcəyik. Qeyri-səlis məntiq həyatın özünü də idarə edəcək. Biz əslində, çox sadə misal çəkdik. Amma gördünüzmü, təkcə o misalda belə, qeyri-səlis məntiq beş dəfə köməyimizə çatdı.

*– Çəkdiyiniz nümunə bir məsələni xatırlatdı: deyilənə görə, qeyri-səlis məntiqin yaranması da qadınların gözəlliyinin müqayisəsi zamanı meydana çıxıb. Aralarında Zadənin də olduğu alimlər qrupu kimin həyat yoldaşının daha gözəl olması ilə bağlı mübahisə edib. Sonda qərara gəliblər ki, əslində, hər bir qadın gözəldir. Amma həmin gözəlliyin yanında onun dərəcəsini göstərən bir əmsal da olmalıdır... Bu versiya nə dərəcədə ciddidir?*

– Xeyr, bu uydurulmuş bir əhvalatdı. Amma Zadənin xanımı Fey son dərəcə gözəl bir qadın olub. Baxın, mən burada da sizə qeyri-səlis məntiqlə cavab verdim. Yəni, "son dərəcə gözəl" dedim. Gözəlliyini hansısa faiz göstəricisi və konkret rəqəmlərlə demədim. Siz deyən əhvalatı mən də eşitmişəm. Amma bu, uydurmadır.

*– Qeyri-səlis məntiqin humanitar sahələrlə, məsələn, ədəbiyyatla əlaqəsindən danışaq. Qeyri-səlis məntiq humanitar sahələrə, yaradıcılığa nə dərəcədə təsir göstərdi?*

– Son 10 ildə qeyri-səlis məntiqin ən çox tətbiq olunduğu sahələrdən biri də humanitar elmlərdir. Məsələn, qeyri-səlisi tətbiq etməklə bədii mətnlər-

dən müəyyən nəticələr çıxarılır. Tutaq ki, nağıl oxuyuruq. Nağılda ibrətamiz məqamlar çoxdu. Böyük bir nağıldakı ibrətamiz məsələləri mən üç cümlə ilə necə əhatə edə bilərəm? Qeyri-səlis məntiq həmin bu nəticə çıxarmaqda insanlara çox kömək edir. Biz qeyri-səlis məntiqi tətbiq etməklə, istənilən böyük romanın ümumi qayəsini bir neçə cümlə ilə ümumiləşdirə bilərik. Bu bilirsiz harada lazım olur? Təsəvvür elə ki, bir müəllifə aid xeyli sayda mətnlər var. O mətnlərin hamısını kompüter proqramına cəlb edib, müəllifin ümumi qayəsini, nə demək istədiyini bir neçə cümlə ilə müəyyənləşdirmək olar. Bu başdan-başa qeyri-səlis məntiqdir. Nağıllarda nəticə çıxarmaq, mətni üç cümlə ilə əvəz etmək qeyri-səlis məntiqin vasitəsilə həyata keçirilən proseslərdir.

*– Rafiq müəllim, bu gün qeyri-səlis məntiqin ən çox tətbiq olunduğu sahələrdən biri də təbabətdir. Bu baxış sistemi gələcəyin təbabətində nəyi dəyişəcək?*

– Bəli. Bu gün qeyri-səlis məntiq bəlkə də, ən çox elə təbabətdə tətbiq olunub. Tibbdə çoxlu ekspert sistemləri var. Onlardan birini misal çəkək: ekspert öz sahəsinə mükəmməl vaqif olan mütəxəssisdir. Allah hamıya uzun ömür versin. Amma həmin mütəxəssislər də nə zamansa dünyalarını dəyişəcəklər. Həmin bilikləri də özləri ilə aparacaqlar. Çünki onların biliklərinin hamısı kitablarda yazılmayıb. Bir usta həkim çox zaman əli ilə yoxlayandan sonra orqanizmdəki problemi bilir. Onun əl ilə yoxlanışı kitabda yazılmayıb ki! Odur ki, həmin sistem mütəxəssislərin biliklərini alıb, verilənlər bazasına daxil edir. Həmin biliklər bazası vasitəsilə gələn simptonların əsasında diaqnoz qoymaq mümkün olur. Həmçinin, bu zaman diaqnozda müəyyən ehtimallar da olacaq. Çünki, bu, qeyri-səlis informasiyadır. Məsələn, qərar veriləcək ki, insanda 80 faizə yaxın bu xəstəlik, 20 faizə yaxın isə başqa xəstəlik var. Biz hələ yalnız bir nümunə çəkdik. Bu cür metodlar xeyli çoxdu. Qeyri-səlis məntiq gələcəyin tibb elmini bu cür dəyişəcək. Amma təkcə təbabət deyil ki! Bax orada bir kitab var – qeyri-səlis kimya. Bu artıq ayrıca bir elm sahəsidir və təbii ki, qeyri-səlis məntiqin bazasında yaranıb. Yaxud qeyri-səlis fizika, qeyri-səlis biologiya və s. Bütün emlər, sahələr qeyri-səlis məntiqə keçdi. Artıq qeyri-səlis iqtisadiyyat anlayışı yaranıb. Bu nəzəriyyə iqtisadiyyatı da dəyişib. Mənim qeyri-səlis iqtisadiyyatla bağlı məqalələrim var. Zadə ilə qeyri-səlis qərar qəbuletmə üzərində uzun illər bərabər çalışmışıq. Burada verilən bütün qərarlar qeyri-səlis yolla ölçülür. Qarşındakı insanla bağlı necə qərar qəbul etmək olar? Onun dürüstlük göstəricisi nə qədərdir? Sən ona inanmaqla nə dərəcədə riskə yol verirsən? Bunları hesablamaq üçün xüsusi cihaz yoxdur! Bunların hamısı qeyri-səlis məntiqlə anlaşılır.

Görürsünüzmü, təkcə qeyri-səlis məntiq nəzəriyyəsi Lütfi Zadənin adını bəşəriyyətin mövcudluğu boyu qoruyub saxlaya bilərdi. Çünki gələcək sivilizasiya da dediyim kimi, qeyri-səlis məntiq sivilizasiyasıdır. Amma Zadə bunlarla kifayətlənmədi. O, ömrünün sonuna qədər çalışdı və başqa mükəmməl elmi nəzəriyyələr də yaratdı.

**Elmin Nuri**
13.12.2017

# İNTELLEKTUAL ROBOTLARIN ÜSYANI DÜNYADA ƏN QORXULU HADİSƏ OLA BİLƏR

Dünya çapında tanınan alim, planetdə qeyri-səlis məntiq nəzəriyyəsi, süni-intellektin əsas mütəxəssislərindən olan professor Rafiq Əliyev cəmiyyət, elm, təhsil və başqa sahələrdə yaşanan problem-perspektivlər, həmçinin Vətən, torpaq, yurd, millət sevgisi ilə bağlı sualları cavablandırıb.

*– Sizinlə müsahibə Kəlbəcərin işğal gününə təsadüf edir. Sabah əlinizə silah götürüb döyüşəsi olsaydınız və seçim etmək şansınız da olsaydı Kəlbəcər, yoxsa Ağdam istiqamətini seçərdiniz?*

– Fərq qoymazdım, mənim üçün Azərbaycanın hər bir zərrəsi əzizdir. Əgər qərar qəbuletmə baxımından yanaşsaq – bilirsiniz ki, mənim elmi istiqamətim qərar qəbuletmədir – bunlara tam bərabər şans verərdim. Mənim üçün heç fərq etməzdi. Çünki Azərbaycanın Şimalı, Cənubu, Şərqi, Qərbi də, hətta öncə itirilmiş o torpaqları da – hamısı mənə əzizdir. Bu cür seçim – Ağdam, ya, Kəlbəcər istiqamətində döyüşmək – həm də qeyri-korrektdi. Azərbaycanın işğal edilən torpaqlarını azad etmək bir rayondan başlamır ki... Burada sistemli yanaşma lazımdır və bu bizim, sizin – elm adamları və jurnalistlərin işi deyil. Burada hərbi strategiya lazımdır. O məsələdə optimal hərbi strategiyanın diktəsindən yararlanardım.

*– Səmimiyyətinizə şübhəmiz olmadığından millətin köksündə qaysaq bağlamayan yaraya cavab istəyək: indiki nəsilə işğaldan tamamilə azad edilmiş Azərbaycanı görmək nəsib olacaqmı?*

– Tarixə ehtiyac var. 1988-ci ilin əvvəllərində bu hadisələr başlayan zaman AKP Mərkəzi Komitəsində böyük iclas keçirildi. Yaxın dostum və böyük alimimiz Eldar Salayevlə yanaşı oturmuşdum. Eldar Salayev məndən soruşdu ki, bu nə qədər çəkəcək? Bir iləmi, iki iləmi bu məsələlər qurtaracaq? Onda ona cavabım belə oldu: bu, mənə ərəb-İsrail konfliktini xatırladır. Görürsünüz, bu gün də o məsələ həll olunmayıb. Dünyada belə modellər var və onlar da böyük güc dövlətlərinin maraq kəsişməsindədir. Nə vaxt həll olacaq, bunu deyə bilmərəm. Hətta düşünürəm ki, elmi hesabat da aparmaq mümkün deyil. Ancaq həmişə son ölən ümid olur. Mən ümidimi itirmək istəmirəm. Yəqin, torpaqlarımız azad olacaq və əgər intellektual gənclər əsl intellektual Azərbaycan yaratsalar, o zaman bu proses tezləşəcək.

*– Qarabağı qanla almaq asandır, yoxsa sülhlə?*

– Mən “qan” ifadəsini işlətmək istəməzdim. Təbii ki, tutulmuş torpaqlar təkcə sülhlə azad olmur. Əvvəlki yazılarımda da yazmışam, ən böyük müharibələr cəbhələrdə deyil, masa arxasında həll olunur. Bayaq dediyim dünya güclərinin kəsişmə nöqtəsini özününkü edə bilsən, o zaman hərbi gücə ehtiyac qalacaq. Mən yenə də “qan” demək istəməzdim, amma o hərbi gücə mütləq ehtiyac qalacaq.

*– Bu gün dünyada təkcə İslamafobiya deyil, həm də TÜRKfobiya da tüğyan edir. Şəxsən sizi dünya universitetlərində türk, yoxsa azərbaycanlı kimi tanıyırlar?*

– Təbii ki, dünyanın hər yerində, ya universitetlərdə mühazirə oxuyarkən, ya nüfuzlu elmi jurnallarda məqalə çıxarkən, ya da məşhur nəşriyyatda kitab çap olunarkən öncə alim haqqında tanıtım yazılır. Tanıtım hissəsində "kimdi", "nəçidi", "hansı ölkədəndir" kimi qeydlər var. O qeydlərdə təbii ki, mənim Azərbaycandan olduğum göstərilir. Bilirəm, hansı nöqtəyə vurmaq istəyirsiniz. Amma o dairələrdə heç vaxt millilik söhbəti olmur. Konkret aid olduğun ölkə yazılır. O ki qaldı mənim fərdi fikrimə, özüm də, yeddinci, onuncu babam da türkdü. Mən özümü türk hesab edirəm.

*– Qiyamətin əlamətləri haqqında çox yazılıb, çox deyilib. Siz İslamdan kifayət qədər məlumatlı bir alim kimi gerçəkdən bu əlamətləri hiss edirsinizmi?*

– Bu, qeyri-səlisdir. Bu yaxınlarda bir ABŞ aliminin məqaləsini oxudum. Təxminən, eyni ərəfədə yazmışdıq, fikirlərimiz də səsləşirdi. Bu saat dünyada ən qorxulu şey intellektual robotların insana qarşı çevrilməsidir. İntellektual robotların üsyanı dünyada ən qorxulu hadisə ola bilər. Robotun insandan ağıllı olması elmi baxımdan mümkündür. Amma elmin də elə bir açarı olmalıdır ki, o bəşəriyyətin rifahı naminə istifadə olunsun. Bu gün dünyanın əksər ölkələri iqtisadi böhrandadır. İqtisadiyyat elmi hazırda dünyada ən geridə qalmış elmlərdən biridir, o cümlədən, bizdə də vəziyyəti o cürdü. Bu elm inkişaf etsəydi, yeni iqtisadi modellər yaranmış olsaydı, sabiq resursları təmin edən elmi istiqamətlər yaransaydı, bugünkü böhran olmazdı. Düşünürəm ki, elmi bu sahələrin inkişafı xəttiylə aparmaq lazımdır ki, o "beş dəqiqə" (simvolik saatda kotarlisisə 5 dəqiqə qalıb) bizi tez yaxalamasın. Məcazi mənada olan "beş dəqiqə" beş milyon il də ola bilər, beş min il də... Amma şəxsən heç bir variantı qəbul etmirəm. Bu yaxınlarda bir xarici ölkədə olarkən, orada evlənmə və boşanmaların statistikasına baxdım. Boşanmalar statistikası evlənmədən 1,5 dəfə çoxdur. (Yaxşı ki, bizim ölkədə bu, o qədər də yüksək faizli deyil). Bu faktın özü də həmin lokal mənada qiyamət gününün yaxınlaşmasıdır. Əxlaqın aşınması, milli dəyərlərin, ümumbəşəri dəyərlərin dəyişimi qiyamət gününün yaxınlaşmasını göstərir. Amma fiziki mənada, yəni, zaman baxımından mən bu yaxınlaşmaq müddətini "beş dəqiqə" hesab etmirəm.

*– Son elmi işlərinizdən, uğurlarınızdan söz açaq.*

– Bu yaxınlarda elmi fəaliyyətimdə ilk dəfə olaraq dünyanın nüfuzlu nəşriyyatları ilə kontraktımda olan tələbləri pozmuşam. Həyatımda birinci dəfə idi... Dünyanın tanınmış nəşriyyatlarından olan "World Scientific" nəşriyyatına müqavilə əsasında 600 səhifəlik kitab təqdim etməli idim. Kitab belə adlanır: "Qeyri-müəyyənliklər hesabı və onun qərar qəbuletmədə tətbiqi". Əfsuslar olsun, işimin çoxluğu imkan vermədi ki, bu günə kimi onu təhvil verim. Amma Allahın köməkliyi ilə təxminən, may ayında təhvil verə biləcəm. Bu maddələri niyə pozmuşam? Ona görə ki, bu gün görə biləcəyim işlər qarşımda duran işlərdən azı 5-8 dəfə azdır. Qarşımdakı işlər bacardıqlarımdan 5-8 dəfə çoxdur. Sual verə bilərsiniz ki, elədirsə, bəs, niyə düzgün planlaşdır-

mırsınız? Bir dəfə İctimai televiziyanın "Ovqat" verilişində dedim ki, əsl elm azartlı oyundu, ora düşdünsə, asılılığın yarandısa, daha çıxa bilmirsən. O nəşriyyatda mənim 4-5 kitabım çıxıb. Birinci kitabım təxminən, 1999–2000-ci illərdə çox böyük çətinliklə çap olundu. İki alim çox gözəl rəy yazmışdı, amma üçüncüsü mənfi rəy vermişdi. Yazmışdı ki, professor Rafiq Əliyevi çox gözəl tanıyıram, amma o kitabı çapa məsləhət görmürəm. Filan yerlərin düzəltməlidir. İradlarını da bir-bir yazmışdı. Mən də həmin iradları düzəldərək, bir ildən sonra təhvil verdim və kitab çapdan çıxdı. O kitab sonra dünya elmi ədəbiyyatında düz 3 il bestseller oldu. Ancaq o nəşriyyat sonrakı kitablarımın heç birini rəyə göndərmədi. Elə indi yazdığım kitabı da rəyə verməyiblər. Bu cür münasibətlər çərçivəsində onlar mənə sifariş verirlərsə, bundan necə imtina edə bilərəm?! O baxımdan da deyirəm ki, qarşımda duran məsələlər bacardığımdan çoxdu.

İkinci məsələni də deyəcəm və ondan sonra sizin də cavabınız mənə maraqlı olacaq. Demək, dünyanın, xüsusən də, biz Azərbaycanın fəxri olan professor Lütfi Zadə ömrü boyu bir kitab yazıb. Hər zaman məqalələr yazıb və bütün dünya alimləri o məqalələrin əsasında işləyib. Haradasa, altı ay bundan öncə mənə məktub yazdı. Bilirsiniz ki, yaşla bağlı səhhətində bəzi problemlər var. Məktubda yazırdı ki, Rafiq, istərdim ki, bu elmin yaşaması və tarixdə qalması üçün birlikdə qeyri-səlis məntiqlə bağlı bir kitab yazaq. Kitab iki hissədən ibarət olmalıdır. Bir hissəsində nəzəriyyəsini biz ikimiz yazırıq, ikinci hissəsini isə dünyada qeyri-səlis məntiqin tətbiq olunduğu bütün sahələrin bir nömrəli ekspertlərinə müraciət edək, ikincini də onlar yazsınlar. Redaktəni isə biz ikimiz edək. Bu, çox ağıllı təklifdir. Hazırda həmin ekspertlərin bəzilərndən lazımı materialları almışıq. İndi mənim də sizə sualım o idi ki, mən Zadəyə "yox" cavabı verə bilərdim?

*– Əlbəttə ki, xeyr...*

– 1994-cü ildən bu yana hər iki ildən bir beynəlxalq elmi konfranslar keçiririk. İndi onu saxlayım ki, keçirməyək?! Ona görə deyirəm ki, qarşımda dayanan işlər bacardığım işlərdən çoxdur. Amma inşallah, Tanrı nə qədər ömür veribsə, çalışacağıq ki, bu işlərdən bəzilərini görək.

Elmin bir istiqaməti var, nüvəsi Azərbaycanda və ABŞ-ın Berkeley Universitetindədi. Bizim Lütfi Zadə ilə yaratdığımız, təklif etdiyimiz "Z–ədədlər nəzəriyyəsi" riyazi həyatdan çox, real həyata yaxındır. Bəşər yaranandan bəri bütün hesablamalarda hesab ediblər ki, verilən məlumat, informasiya yüzdə- yüz doğrudur. Amma informasiyanın dürüstlük dərəcəsini mütləq nəzərə almaq lazımdır. Bayaq mənə sual verdiniz ki, indiki nəsil işğaldan azad edilən Azərbaycan torpaqlarını görə biləcəkmi? Mən o suala yüzdə-yüz cavab vermədim, o cür ancaq Tanrı bilir. Mən fikrimi "ümid sonda ölür" şəklində dedim. Kimsə buradan nəticə çıxaracaq, yəni sabaha gümanım azdı. Gələcəkdə hər şey qeyri-müəyyəndi, müəyyən heç nə yoxdur. Əgər müəyyən heç nə yoxdursa, o zaman həmin informasiyanı ədədlərlə necə ifadə etmək olar? Bunun üzərində necə hesablama işləri aparmaq olar? Bax, bizim son elmi işləri-

miz bundan ibarətdir. Zadə ilə 3 illik kontraktımız var, Tanrı izn versə, həyata keçirəcəyik.

*– Bir neçə il bundan əvvəl sizinlə söhbət zamanı Azərbaycan cəmiyyətinin bugünkü təfəkkürünün qaranın neçə çalarını görə bildiyini xəbər almışdıq. O vaxtdan bu yana cəmiyyətdə "ağ"a nisbətən, "qara"nın çəkisi artıbmı?*

– Qeyri-səlis məntiqdən danışırıqsa, tək "ağ-qara" yox, onlar arasındakı müxtəlif çalarlara, keçidlərə də toxunaq. Dediyiniz o nisbət bir çox faktorlardan asılıdır. Amma bir nömrəli, dominant faktor kimi təhsili görürəm. Soruşsanız, bu illər ərzində təhsilimizin səviyyəsi çox yüksəldimi, buna müsbət cavab verə bilmərəm. Cəmiyyətin "ağ-qara" funksiyasına təkcə təhsil yox, müxtəlif sahələr, mədəniyyət, iqtisadiyyat, sənaye və s. müsbət, ya mənfi mənada təsir edir. Amma yenə deyirəm, dominant təhsildirsə və o da çox inkişaf etmədisə, demək, o proporsiya – "ağ-qara" nisbəti – "ağ"ın xeyrinə dəyişməyib. Burada çox vacib məsələ var: "Ağ" tərəfə çoxalmaq üçün ədaləti bərpa etmək lazımdır. Ədalət, Tanrıya münasibət, vicdan – içindəki Tanrı səsi – pozulanda "ağ"dan "qara" tərəfə doğru sürüşmə gedir. Bu gün elmimizdə, təhsilimizdə, ümumiyyətlə, cəmiyyətimizdə ən vacib məsələ vicdan səsinin amplitudunun nə boyda olmasıdır. İnanmıram ki, onda vicdan səsi – amplitudu sıfıra bərabər hər hansı adam olsun. Bu, çox nadir hallarda mümkün ola bilər. Amma dediyimiz amplitud insanlarda, xüsusən də məmurlarda yüksəlməsə, o zaman "ağ" tərəfə sürüşmədən söhbət gedə bilməz. Fikrimizi konkretləşdirək: ömrü boyu həm təhsilə, həm də elmə obyektiv yanaşmışam. Elə universitetlər tanıyıram ki, orada vaxtilə məşhur akademiklər, akademiyanın müxbir üzvləri, görkəmli professor və alimlər tərəfindən idarə olunan kafedralar bu gün heç bir mənəvi və intellektual haqqı olmayan adamların əlindədir.

Yaxud da, elm... Bu sahədə hər hansı sosial sifariş mümkündür, amma məmur sifarişi ola bilməz. Həmişə demişəm, indi də təkrarlayıram: elmin öz siyasəti var, elmi siyasiləşdirmək olmaz! Elmin öz daxili inkişaf siyasəti mövcuddur. Bax, bunların hamısını toplayanda dediyiniz o 4 illik zaman müddətində "ağ-qara" keçidində heç bir fərqin olmadığını görürəm.

*– Bu gün Azərbaycan elmində yeni Rafiq Əliyevlərin, Xudu Məmmədovların, İbrahim İbrahimovların və başqalarının yetişə bilməməsinin əsas səbəbi budur?*

– Burada təbii ki, daha qlobal məsələlər var. Daxili "Mən"in sifarişi əsasında qurulan təhsil, elm çox gedə bilməz. Məsələn, 2006-cı ildən Baloniya sisteminə keçmişik. ABŞ-da, Şimali Amerika və Avropa ölkələrində təhsilin üç pilləsi var: bakalavr, magistr və fəlsəfə doktoru. Bunların hamısı təhsilə aiddir, bizdə isə elə deyil. Əgər dünya ilə ayaqlaşmaq istəyiriksə, bu yolu niyə yarımçıq gedirik?! Bizdə bakalavr, magistr təhsilə, amma fəlsəfə doktoru elmə aiddir. Niyə? Bu axı təhsil prosesidir və dünyanın heç yerində elə deyil. Sizin də, bizim də səcdə etdiyimiz professor Lütfi Zadənin bircə dənə elmi dərəcəsi var: fəlsəfə elmlər doktoru. Yoxsa, bizdəki kimi yenidən gedib elmlər doktoru adını almaq, Ali Attestasiya Komissiyasının süründürməçiliyinə düçar olmaq, gərginliklər yaşamaq – bunların heç birisi yoxdur. Dünyanın ən böyük alimlərindən heç

kim fəlsəfə doktorundan yuxarı dərəcə almayıb. Yaxud da, elmi mühit... Dünya elmində bir qanun var: əgər, ölkədə milli gəlirin iki faizdən az hissəsi elmə ayrılırsa, o elm o ölkənin iqtisadiyyatına təsir edə bilməz. Başqa faktorları misal gətirək: ən vacibi elmdə və təhsildə, ümumiyyətlə, hər yerdə rüşvəti götürmək lazımdır. Yalnız o zaman siz dediyiniz alimlərin niyə yetişə bilməməsindən danışa bilərik. Sovet dövrünə qəti nostalgiyam yoxdu. Dünyada qəbul olunmağım da sovetdən sonra daha asan oldu. Ancaq o dövrdə orta məktəb, universitetdə hər hansı müəllimin tələbəsindən rüşvət alması bir adamın ağlına belə gəlməzdi. Biz oxuyan dövrdə bunu heç zaman görmədim. Belə bir hadisəni heç təsəvvürümüzə gətirə bilməzdik. Xudu Məmmədov da o mühitdə yetişdi. İbrahim İbrahimov, Murtuza Nağıyev, Zahid Xəlilov, Mirabbas Qasımov da.

*– O zaman elmimizin gələcək perspektivi haqqında nə danışa bilərik?*

İstəyirsiniz, Eynşteyni, yaxud, Zadənin özünü sabah bura gətirin, aylıq 100-200 min verin, amma o biri tərəflərdə boşluqlar qaldığı üçün bunun heç bir faydası olmayacaq. Elm bu cür inkişaf edə bilməz. Sualınıza birinci cavabım budur.

İkinci cavabım isə belədir: rəhmətlik Qabil demişkən:

*Müsibət oluruq biz,*
*səhv düşəndə yerimiz.*

Elmdə o insan qiymətləndirilməlidir ki, həqiqətən, hansısa bir elmi nəticəsi var və dünya da onu qəbul edir. Həmçinin, elə bir şərait yaratmaq lazımdır ki, elmə sosial sifariş olsun, o cəmiyyətə gərək olsun. Elm lazım deyilsə, istəyirsən, yüz akademiya, universitet saxla, faydası olmayacaq. Harvard Universitetinin büdcəsi 32 milyard dollardır. Şimali Kiprin Yaxın Doğu Universitetinin ən az 50-60 binası var. Xəstəxanasının qiyməti isə 360 milyon dollardı. Şərq ölkələrindəki bir-iki super kompüterdən biri də oradadır. Əgər belə ayrılmalar olmayacaqsa, Azərbaycanda elmin gələcək inkişafından bədgümanam. Bu iki faktoru yenidən təkrarlayıram: yerimiz səhv düşməsin və elmə lazımı ayrılmalar olsun. Bir də hökmən Qərbə inteqrasiya...

Elmə sosial sifariş cəmiyyətdəki iqtisadi modeldən irəli gəlməlidir. Bir neçə il bundan qabaq Zadəyə belə bir sual vermişdilər: "Azərbaycanın gələcək inkişafını necə görürsünüz? Sadə cavab vermişdi. Demişdi ki, inkişaf etmiş Şərq ölkələrinə – Cənubi Koreya, Malayziya, Sinqapura baxın.

Onlar nəyin üstündə inkişafını qurdular? – Ancaq elmin! Elmə milli sosial sifariş o oldu ki, millətin gələcəyini onun üzərindən qurdular. Resursları, "nöyütü" yox, bəs iqtisadiyyatı nəyin üstündə qurmalı idilər?... Elmə sifariş olanda elm də inkişaf edəcək!

*– Süni intellektdəki 0 və 1 aralığına toxunaq. Elmsiz cəmiyyəti o sıfırın içindən nə xilas edə bilər?*

– Qısa cavab verim: Allah da xilas edə bilməz!

*– Müasir dünya, eləcə də Azərbaycan alimləri elmin üzərindən əxlaq, mənəviyyat örtüyünü qaldırmaqla, onu Tanrıdan, Göydən ayırmaqla elmə nə dərəcədə ağır zərbə vurdular?*

– Yuxarıda bu suala qismən toxunduq. Əfsuslar olsun, siyasətdə olduğu kimi elmdə də bəzən, mənəviyyat amili önə çəkilmir. Bunun özü də siyasətin elmə təsirindən irəli gəlir. Eynşteynin ABŞ prezidentinə təkliflər məktubu var. O məktubun bütün dünyada dəqiq elmlərin inkişafında xüsusi xidməti oldu. Ancaq Eynşteyn sonradan yazdı: "Bilsəydim ki, bu nəticələr Xirasimaya gətirib çıxaracaq, həmin təklifləri etməzdim". Elm adamları çox fağır adamlar olurlar, düzünü deyirəm sizə, yəni, onları çox şeylər maraqlandırmır. Eynşteynin həyatında maraqlı hadisə yaşanıb; xanımı ilə bir tədbirə dəvət olunur, hər kəs öz ovqatında, əyləncəsində olduğu halda Eynşteynin ovqatı yerində olmur. Xanımı "sənə nə olub?", – deyə xəbər alır. O, dinmir. Bir azdan xanımı sualı yenidən təkrarlayanda Eynşteyn cavab verir ki, mənim ovqatım pis deyil, sadəcə, baxıram ki, burada xanımların üzərindəki qızıl və briliyantlardan neçə dənə elmi laboratoriya düzəltmək olardı... Yəni, alimlər bu cür böyük mənada fağır olurlar. Yüksək intellektlə yanaşı, yüksək mənəviyyata da sahiblənirlər. Heyif ki, siyasətçilər, hərbçilər bu elmi nailiyyətləri başqa səmtə yönəldirlər. Əvvəldə də demişik, bu gün ən çox çəkindiyim intellektual robotların üsyanıdır. Alimlər robotları bəşəriyyətə, xəstə adamlara yardım etmək məqsədilə yaradırlar. Almaniyada olarkən, bir evdə qonaq idik. Qonşu otaqdan səs eşitdim. Ev yiyəsi çox simsar adam idi, ondan xəbər alanda dedi ki, robot o biri otağı təmizləyir. Bu hələ sadə işdi. Bu gün ABŞ-da cərrah oturub Hindistan, Yaponiya kimi ölkələrdə mikrorobotlar vasitəsilə ürək əməliyyatı aparır. Robotlar bu məqsədlə yaranır. İndi isə 200-250 min dollara intellektual robot əsgər satırlar. Dörd tərəfi görür, 250-300 kq yük daşıyır, üzərində hər cür döyüş təchizatı var. Sualınıza yenidən qayıdıram: elmin üzərindən mənəviyyat örtüyünü alimlər yox, siyasətçilər, hərbçilər götürür.

*– Bu gün Rafiq Əliyev üzərindən əxlaq, mənəviyyat köynəyi çıxarılan elmdə özünü tənha hiss etmirmi?*

– Xeyr, təbii ki, tək hiss etmirəm. Soruşa bilərsiniz ki, siyasətçilər, hərbçilər robot düzəltmirlər ki, gedib onunla da vuruşalar? Təbii ki, düzəltmirlər, amma sifarişi onlar edir, alimlər isə yerinə yetirir. Hər zaman, xüsusən də, şair və yazıçılar üçün bir şey fikirləşirəm: inanmıram ki, böyük şəxsiyyəti olmayan bir yazıçı yaxşı roman yaza bilsin. Çünki onun qələminin ucundan çıxanlar içindən gələnlərdi. Yazarın içərisində bir səs var, qələmə də o səs diktə edir. Eynən, elmdə də elədir. Elə alimlər var ki, onlar siyasətçilərin həmin sifarişlərini yerinə yetirməyəcəklər. Yəni, gedib dediyimiz örtüyü götürməyəcəklər. Eləsi də var ki, malın, dövlətin, pulun, ya nəyinsə xatirinə çox böyük məmnuniyyətlə nəsə düzəldəcək.

Bir dəfə Stalin aralarında məşhur fizik Kapitsanın da olduğu bir neçə alimi çağıraraq tapşırıq verir ki, ABŞ atom bombası düzəldib, bizdə də tez bir zamanda bu hazır olmalıdır. Kapitsa bu sifarişdən imtina edir. Çünki bilir ki, o, həmin örtüyü götürə bilməz. Demək, alimdən tək elmi cəhətdən deyil, şəxsiyyət cəhətdən də böyüklük tələb olunur. Beriya iki dəfə gedib Stalinə deyir ki, o, sənin əleyhinə getdi, aradan götürmək lazımdır. Stalin birinci dəfə dinmir, amma ikinci dəfə deyir ki, Kapitsa böyük alimdir, ona dəyməyin.

Əbdüs Səlam Nobel nitqində sovetlərə istinad edərək, yazır ki, 1945-ci ildə, müharibə qurtarandan sonra maliyyə naziri büdcəni Stalinə təqdim edəndə o, elmə ayrılmaları dördə vurdu. Büdcədən elmə ayrılan vəsaiti dörd dəfə artırdı, məhz ona görə Sovet İttifaqında atom bombası, Qaqarinlər yarandı. Sualınızdan çıxış edərək, alimləri iki yerə bölərdim: örtük götürənlər və götürməyənlər. Amma ikincilər azdı...

*– Siz milli yaddaş sistemində qopmadan modern elmə bağlandınız. Təfəkkürün alt qatına sadiqlik sizə nə qazandırdı?*

– Düşünürəm ki, Şərqdə, eləcə də, Azərbaycanda əxlaq və əxlaq məsələləri hər zaman güclü olub. Bu misalı bir neçə dəfə də demişəm: atamdan həmişə nəfsinin əfəndisi olmağı əxz etmişəm. O, müxtəlif idarə, zavodlarda müdir işləyib, amma 90 manat məvacibindən artıq bizim evə bir manat da əlavə pul girməyib. Bunu atamdan əxz etmişəm. Anam atam kimi savadlı deyildi, vurtut orta məktəb təhsili görmüşdü, amma 3-4 saat dayanmadan bayatı söylərdi. Uşaq idik, küçədə oyun oynayırdıq. Aralarında məndən yaşlıları da var idi. Dedilər, gəlin, komanda düzəldək. Bir nəfər çıxıb dedi ki, kim mənimlə oynamaq istəyir. Mən və başqaları əlimizi qaldırdıq. Sən demə, anam pəncərədən baxırmış. Oyundan sonra evə gələndə dedi ki, oğul, mən kimlə yox, kim mənimlə olacaq deyə fikirləş. Hər zaman liderliyə can atmaq lazımdır. Liderlik deyəndə diktatorluğu nəzərdə tutmuram, sadəcə, öz sahəndə birinci olmağı deyirəm. Bir sahədə getdinsə, onun içərisində sürünmək, kiminsə quyruğunda hərəkət etmək lazım deyil. Quyruqda getmək pis şeydi, gərək, elmin sadiq və vəfalı dostu olasan. Vəfasız dost olmaq lazım deyil. Vəfasız dost kölgədir, günəşli havada arxanca sürünür, buludlu havada isə yox olur. Elmdə də belədir, hava sənin üçün buludlu olanda həmin adamlar həmən yoxa çıxır. Amma heç kimin arxasınca sürünməyən şəxsiyyətli insanlar hər zaman qalırlar; buludlu havalarda da, günəşli havalarda da...

*– Amma təkcə çağdaşlarına yox, tarixi qəhrəmanlarımıza da hədyan qoşanlar tapılır. Bəzən, Nizami, Füzuli, Nəsimi, Xətai kimi dəyərlər üçün də "havanı buludlu edirlər". Biz, yəni, bu dərəcədəmi deqredasiyaya uğradıq? Sizin təbirinizcə desək, bu dərəcədəmi 0-a yaxınlaşdıq?*

– Onları heç kimi silə bilməz. Qısqanclıq hissi həmişə olub. Hər zaman bir həyat kredom olub: heç kimdən kömək istəmirəm, heç kim də mənə mane olmasın. Doğrudan da, heç kimdən heç bir kömək istəməmişəm. Neçə müddətdir ki, Zadə ilə qardaş münasibətlərimiz var, amma bircə dəfə də olsun, ondan kömək istəməmişəm. Təbii ki, elmi məsləhət-məşvərətimizlər olub, bu ayrı şeydi. Yoxsa ki, filankəsə tapşır kitabını çıxartsın, filankəsə de, nəsə etsin, bunlar ömründə olmayıb. Nə onunla, nə də başqalarıyla. Sualınızın cavabı belədir: qısqanclıq hər zaman olub. Amma narahat olmayın, onları heç kim silə bilməz. Ancaq o silmək istəyənlərə bir ismarıcım var: ədəbiyyat fəzasında da, elm səmasında da hər kəsə yer var, o fəza çox böyükdü və heç kim bir-birinə mane olmur. O fəzaya girə bilmirsənsə, o birilərini oradan dartıb çıxarma...

*– Bizə bir düstur deyin... Naqislikdən xilas olmağın, cəmiyyətdə fərddən şəxsiyyətə çevrilməyin düsturunu...*

– AİLƏ NAMUSU+PEŞƏ NAMUSU+VƏTƏN, TORPAQ NAMUSU= BÖYÜK ŞƏXSİYYƏT.

Bayaq da dedik, düşünmürəm ki, şəxsiyyəti olmayan yazıçı böyük roman yaza bilər. Şəxsiyyəti olmayan alim böyük nəzəriyyə tapa bilər. Hər bir şey ailədən başlayır. Ailə namusu olmayan (“namus”u tək məişət anlamında demirəm), peşəsinə sadiq olmayan və Vətən, torpaq sevgisi olmayan insan ömründə fərddən şəxsiyyətə çevrilə bilməz!

**Elmin Nuri**
03.04.2017

# LÜTFİ ZADƏ RAFİQ ƏLİYEVİN NOBEL MÜKAFATI NOMİNASİYASINI DƏSTƏKLƏDİ

Professor Rafiq Əliyev bu günlərdə Kanadadan qayıdıb. O, Kanadanın müxtəlif universitetlərində mühazirələr oxuyub, seminarlar keçirib və elmi araşdırmalar aparıb.

*– Rafiq müəllim, Kanada səfəriniz nə ilə əlaqədar idi? Bir qədər müfəssəl informasiya verə bilərsinizmi?*

– Mən hər il təxminən 15-20 beynəlxalq elmi konfransa, ya da dünyanın müxtəlif universitetlərində mühazirə oxumaq üçün dəvətlər alıram. Lakin bunların yalnız bir neçəsini qəbul etmək zorunda qalıram. "Zorunda" sözünü təsadüfən işlətmədim. Mən əvvəlki yazılarımda, "Alim" filmində, "Ovqat" verilişində də demişəm ki, dünya elmi azartlı oyun kimi bir şeydir. Düşdün, çıxa bilmirsən. Xüsusən də əgər səni beynəlxalq forumlarda plenar məruzə üçün dəvət edirlərsə, imtina etmək, "oyundan çıxmaq" çox çətin olur. Onu deyim ki, mən son 10-15 ildə beynəlxalq konfranslara, simpoziumlara plenar məruzəm olanda gedirəm.

*– İndi də belə idimi?*

– Məni indi Kanada və ABŞ-a üç universitet dəvət etmişdi. Kanadanın Toronto universiteti, Edmontondakı Alberta universiteti və ABŞ-ın Kaliforniyadakı Berkeley universiteti. Toronto universitetində Amerika Qeyri-səlis İnformasiya Cəmiyyətinin 29-cu beynəlxalq konfransı keçirilirdi. Hələ bir il öncə bu konfransın sədri Amerikalı alim Bill Tastledən belə bir məktub aldım:

***"Hörmətli professor Rafiq Əliyev,***

*Şimali Amerika qeyri-səlis informasiya cəmiyyətinin (NAFİPS) 2010 Təşkilat Komitəsi adından Sizi NAFİPS cəmiyyətinin 2010-cu il beynəlxalq konfransında (12-14 iyul, 2010, Toronto, Kanada) əsas (plenar) məruzə ilə çıxış etməyə dəvət edirəm.*

*Sizin, qeyri-səlis sistemlər sahəsində çox böyük hörmət bəslənilən bir lider kimi beynəlxalq nüfuza malik olmağınız bu ilki konfransda da Sizin ideal məruzəçi olmağınızı şərtləndirir. Əlbəttə, məruzənin mövzusunu özünüz seçə bilərsiniz, təşkilat komitəsi isə öz tərəfindən bu məruzəyə görə hər bir şey edəcəkdir.*

*Dəvətimizi qəbul etməklə bizə şərəf verəcəksiniz. NAFİPS 2010 konfransında iştirakınız bu tədbirin nüfuzunu xeyli yüksəltmiş olacaqdır. Əlavə hər hansı məlumata ehtiyac olduğu halda mənə bildirməyinizi rica edirəm.*

*Müsbət cavab ümidi ilə,*

***Dərin ehtiramla,***
***Doktor Bill Tastle***
***Sədr:***
***NAFİPS 2010"***

Əlbəttə, belə bir mötəbər ümumdünya forumunda plenar məruzə ilə iştirak etmək hər bir elmi işçi üçün şərəfdir və hər bir kiçik və böyük ölkə üçün nadir hadisədir. Ona görə də bu dəvəti qəbul etdim.

*– Çoxmu plenar məruzə vardı?*

– Yox, nə qədər böyük forum olsa da orada cəmi 3-5 əsas məruzə olar. Bu plenar məruzələr ciddi elmi nəticələrə malik olmalı, yeni istiqamət, yeni söz deməlidir. Bu beynəlxalq konfransda cəmi üç plenar məruzə vardı. Bütövlükdə məruzələrin sayı yüzlərlə idi. O biri iki əsas məruzə yaxın dostlarım, birgə elmi araşdırmalar apardığımız professor W. Pedrycz, professor B. Türkşen idi. Hər ikisi dünyaca ünlü alimlərdir.

*– Məruzəniz hansı elmi problemə həsr olunmuşdu?*

– Məruzənin adı belə idi: "İmperfekt informasiya şəraitində qərar qəbuletmə nəzəriyyəsi". Bugünkü mürəkkəb iqtisadi, sosial, maliyyə, siyasi sistemlər ilkin informasiyanın natamamlığı, yüksək qeyri-müəyyənliyi, dürüst olmaması şəraitində fəaliyyət göstərir. Həm də belə mürəkkəb sistemlər insanın və ya insan kollektivinin iştirakı ilə səciyyələnir (Human centric systems). Belə sistemlərdə əlverişli, optimal qərarların qəbul olunması əlahiddə məsuliyyətlə (məsələn, Obama ABŞ-ı iqtisadi böhrandan çıxara biləcəkmi), tək bir fərdin, ölkənin deyil, bəzən kollektiv, qrup qərarların qəbulu üçün qərar qəbul edənlərin xüsusiyyətləri, baş verə biləcək proseslər haqqında məlumatların dürüstlüyü və başqa faktorlarla səciyyələnir. Əlverişli qərar qəbuletmə, çoxsaylı alternativlər içərisindən seçim strategiyası əsasən iqtisadi nəzəriyyənin predmetidir, bu nəzəriyyənin özəyidir. Bu sahədə çox müfəssəl, aksiomatik əsaslandırılmış nəzəriyyələr təklif olunmuşdur. Məsələn Nobel mükafatı laureatları Von Neumann, Morgensternin verdiyi gözlənilən faydalılıq nəzəriyyəsi, Kahnemanın həmkarı professor Tversky ilə birlikdə təklif etdikləri Prospekt nəzəriyyəsi, Hurvitzin pessimizm-optimizm nəzəriyyəsi və b. Bu nəzəriyyələrin geniş tətbiq olunmasına rəğmən onlar yuxarıda göstərdiyimiz mürəkkəb sosial, siyasi, iqtisadi, maliyyə və texniki, mərkəzində insan dayanmış sistemlər üçün özünü doğrultmur. Niyə? Biz bu suala cavab vermək üçün yüzlərlə, minlərlə elmi mənbələri tədqiq etmişik, tətbiqlərin nəticələrini araşdırmışıq.

Əvvəla, bütün bu nəzəriyyələrin kökündə alternativlər arasında seçim üstünlüyünün qiymətləndirilməsinin bəsitliyi, insan təfəkkür tərzinə uyğun gəlməməsi ilə səciyyələnən bir hipotez durur.

İkincisi, bu nəzəriyyələrin heç biri qərar qəbul olunan mühitin, alternativlərin faydalılığının, mühitin vəziyyətlərinin, onların baş vermə ehtimallarının imperfekt olmasını və çox zaman bütün bu informasiyaların təbii dildə formalaşmış olmasını nəzərə ala bilmir. Amma real həyat məsələləri bu iki amilin nəzərə alınmasını diktə edir. Daha mükəmməl nəzəriyyəyə ehtiyac duyulur. Bunları nəzərə alaraq biz (professor L.Zadə ilə birlikdə) imperfekt informasiya şəraitində yeni qərar qəbuletmə nəzəriyyəsi yaratdıq.

*– Bu təklif etdiyiniz yeni nəzəriyyənin mövcud nəzəriyyələrdən əsas fərqləri və üstünlükləri nədir?*

– Təklif etdiyimiz nəzəriyyənin əsas fərqli xüsusiyyəti odur ki, əvvəla, seçim strategiyasında alternativlərə üstünlük verilmə konsepsiyası linqvistik konsepsiyadır; ikincisi – qərar qəbul olunan mühitdə mövcud informasiya imperfektdir, yəni natamam, qeyri-müəyyən, bəzən dürüst olmayan, yarım həqiqi olan informasiyadır; üçüncüsü – bu informasiya rəqəmlər şəkilində deyil, təbii dildə formallaşır; dördüncüsü – bu nəzəriyyədə qərar qəbul edən şəxsin xüsusiyyətləri, qərar qəbul etmək gücü nəzəriyyənin kökündə duran məntiqi-riyazi modelə daxil edilir. Bu nəzəriyyənin üstünlüyünə gəlincə, birincisi – mövcud nəzəriyyələr yuxarıda göstərdiyimiz şəraitdə işləyə bilmir, ikincisi – bu nəzəriyyə real həyata daha yaxındır, daha adekvatdır. Burada iki məsələni xüsusilə önə çəkmək istəyirəm.

Birincisi, ilk dəfə olaraq biz qərar qəbulolunan mühit və qərar qəbul edən insan (iqtisadi agent) haqqında olan informasiyaya qiymətləndirilə bilən (precisiated) və qiymətləndirə bilməyən (unprecisiated) kimi baxırıq. Birinci halda mühit haqqında qeyri-dəqiq də olsa informasiyamız var, məsələn ABŞ-ın iqtisadiyyatının vəziyyətləri, yəni onun qalxan, stabil və ya enən olması barədə təxmini bir qavranış (persepsiya) informasiyam var, belə informasiya adətən təbii dildə formalaşır: "ABŞ-ın iqtisadiyyatının 2011-ci ildə qalxma ehtimalı çox azdır". Bu informasiyada heç bir rəqəm yoxdur (çünki yoxumuzdur). Hesablamalar sözlə getməlidir. Burada Zadənin klassik qeyri-səlis məntiqi istifadə olunur. Elə situasiyalar olur ki, yuxarıda göstərdiyimiz ehtimalın və yaxud da qəbul edəcəyimiz qərarın nəticəsini hətta sözlərlə belə ifadə etmək mümkün olmur, qərar qəbul edən ümumi bir persepsiya məlumatına malikdir (burada rəqəmdən söhbət gedə bilməz). Bu halda nə klassik Aristotel məntiqinə, nə də Zadənin qeyri-səlis məntiqinə söykənən riyazi dil yaramır. Yeni bir məntiqə ehtiyac var. Bu genişləndirilmiş qeyri-səlis məntiqdir. O, qeyri səlis həndəsəyə əsaslanır. Təklif olunan yeni qərar qəbuletmə nəzəriyyəsi bu ikinci halı da ehtiva edir.

*– Qeyri-səlis həndəsə nədir, onun bildiyimiz həndəsədən fərqi nədir?*

– Qeyri-səlis həndəsə Evklid həndəsəsinin genişləndirilmiş formasıdır. Mövcud Evklid həndəsəsinin məlum 5 aksiomu adaptasiya olunur. Bizim verdiyimiz yeni nəzəriyyədə qeyri-səlis nöqtə, qeyri-səlis xətt, qeyri-səlis oxşarlıq və s. yeniləşmiş anlayışlardan istifadə edirik.

*– Bunların qərarın qəbul edilməsi ilə nə əlaqəsi var?*

– Qərar qəbul edən şəxs mühit və onun özü barədə (risklidir, yox, qərar qəbul etdiyi vəziyyəti emosionaldır, yoxsa yox və s.) informasiyanı əlindəki adi qələmlə (ya da kompüterlə işləyirsə elektron qələmlə) hadisələrin, nəticələrin ehtimalını 0-1 şkalasında bir səlis olmayan nöqtə və ya interval kimi, ya başqa bir həndəsi işarə kimi göstərə bilər. Adi rəqəm və ya qeyri-səlis rəqəm soruşsanız o cavab verə bilməz. Bax bu cür informasiya əsasında qeyri-səlis həndəsi fəzada həmin fiqurlardan yaranmış biliklər bazasından istifadə etməklə məntiqi nəticə çıxarmaq olar, qərar almaq olar.

*– Önə çəkiləsi ikinci məsələ hansıdır?*

– Klassik və neoklassik iqtisadiyyatın əsas zəif yeri onun əsasında rasionallıq hipotezinin dayanmasıdır. Bu nəzəriyyələr belə hesab edirlər ki, bütün iqtisadi agentlər, o cümlədən qərar qəbul edənlər rasionaldırlar və yalnız öz mənafelərini güdəndirlər, istər istehsalçı olsun, istər istehlakçı. Lakin görkəmli iqtisadçılar, Nobel mükafatı laureatları Kahnemanın, Akerlof və b. göstərdilər ki, seçim vaxtı hər bir alternativin faydalığını hesablayarkən qərar qəbul edənin xüsusiyyətlərini nəzərə almaq lazımdır, bu faktorlar nəzərə alınmalıdır. Professor Kahnemanın Prospekt nəzəriyyəsi bu məqsəddən yaranmışdı. Davranış iqtisadiyyatının yaranması ilə əlaqədar olaraq bu işlər daha da intensivləşdi. Kimisi qərar qəbul edənin dürüstlük dərəcəsini, bir başqaları emosionallıq dərəcəsini və insanın başqa motivasiyalarını faydalılıq funksiyasına daxil etməyə çalışır. Bu yol, həmin xüsusiyyətləri (hamısını eyni vaxtda yox) eksternal yoldur, yəni qıraqdan faydalılıq funksiyasına daxil etmək yoludur. Bəs insanın (qərar qəbul edənin) o xüsusiyyətlərinin sinerjisi, qarşılıqlı əlaqəsi, həm də onun bütövlükdə qiymətləndirilməsi?

*– Siz insanı modelləşdirmək istəyirsiniz?*

– Düz fikirdir. Biz insanı bu və digər baxımdan, məsələn iqtisadi baxımdan, sosial davranış baxımından modelləşdirmək istəyirik. Bu model, məsələn, qərar qəbul edənin risklilik, dürüstlük, emosionallıq, qarşılıqlıq və s. xüsusiyyətləri əsasında onun personal qərar qəbuletmə qabiliyyətini hesablaya bilər. Beləliklə, mövcud nəzəriyyələrdən və elmi araşdırmalardan fərqli olaraq biz ilk dəfə ikiqat vəziyyət qərar qəbuletmə nəzəriyyəsini təklif etdik. İkiqat vəziyyət deyəndə seçim üçün faydalılıq funksiyasını qurarkən eyni zamanda həm mühitin vəziyyəti, həm də qərar qəbul edənin vəziyyəti (personal qərar qəbuletmə dərəcəsi) nəzərə alınır.

*– Toronto Universitetindəki məruzəniz bu problemlər ilə əlaqədar idi? Necə qarşılandı?*

– Düşünürəm ki, fəal qarşılandı. Böyük maraq hiss etdim. Bu həm sualların çoxluğundan, həm də məruzədən sonrakı söhbətlərdən, diskussiyalardan açıq görünürdü. Onu da qeyd edim ki, bu konfransda dünyanın çox seçilib sayılan alimləri iştirak edirdilər. Yaponiyadan Takagi (onun Takagi– Sugeno nəzəriyyəsi dünyanın bir çox universitetlərinin dərs proqramlarına və dərsliklərinə salınmışdır), ABŞ-dan B.Tastle, T.Veylan, V. Kreinovich, V. Lodvick, İtaliyadan L.Leottaum və s. Sualınıza cavab olaraq deyim ki, Kanadadan qayıdandan sonra konfrans iştirakçılarından bir neçə məktub almışam.

Professor V.Lodvick yazır: "Sizin mühazirəyə qulaq asmaqdan məmnun oldum. Bizim ABŞ-dakı beynəlmiləl qrup, Çilidən 3 professor, Macarıstandan olan professor B.Bede, Avstriyadan professor M.Obergugenberger, Braziliyadan R. Bassanezi və İtaliyadan olan L. Stefanni sizin məqalələrinizi çox böyük maraqla oxuyuruq".

*– Növbəti plenar məruzələriniz barədə nə deyə bilərsiniz? Axı siz dediniz ki, əsas məruzələr üçün konfranslara gedə bilirsiniz.*

– Növbəti məruzəm 2010-cu ildə Praqada keçiriləcək İCAFS-2010 konfransda olacaq. Onun adı belədir "İkiqat qeyri-müəyyənlik və vəziyyətlər fəzası və

qərar qəbuletmə". Mən keçən il ABŞ-da Sinsinnati Universitetində və bu il Toronto Universitetində yeni qərarlar analizi nəzəriyyəsi barədə məruzələr etmişdim. İCAFS-2010-cı ildə məruzəm qərar qəbuletmə sahəsindədir, lakin bu məruzədə fərqli məqamlara baxılacaq. Bir neçə ay bundan öncə NATO konfransı təşkilatçıları tərəfindən belə bir dəvət adım:

***"Hörmətli professor Əliyev.***

*Sizi NATO-nun keçirdiyi "İntellektual hücumlardan müdafiə" istiqamətində müasir tədqiqatlara həsr olunmuş konfransda plenar məruzəçi kimi çıxış etməyiniz bizə şərəf gətirərdi.*

*Konfrans 24-26 may 2011-ci ildə Türkiyə, Antaliyada keçiriləcək".*

Mən məruzəmi konfransın təşkilat komitəsinə göndərdim. İnşallah, çalışacam iştirak edim.

*– İkinci dəvət Edmontonun Alberta Universitetindən idi?*

– Torontoda konfrans qurtaran günü mən Edmontona uçdum. Orada məni həmkarım professor W.Pedrycz gözləyirdi. Onu qeyd edim ki, o, dünyada çox tanınmış gərgin işləyən, məhsuldar bir alimdir. Qeyd edim ki, o, Toronto konfransına cəmi 3-4 saatlıq gələ bilmişdi. Plenar məruzəsini oxudu, 1 saatdan sonra yenidən Edmontona qayıtdı (təyyarə ilə Torontodan Edmontona zaman məsafəsi 4.5-5 saatdır, az deyil). O, bir neçə beynəlxalq indeksli jurnalın baş redaktoru, onlarla jurnalın redaksiya şurasının üzvüdür. Alberta universitetinə iki məqsəd üçün dəvət olunmuşdum. Mən orada natamam informasiya şəraitində qərar qəbuletmə üzrə seminar keçirdim. Bu sahədə alınan nəticələrimizlə iştirakçıları tanış etdim. Bu seminarda əsasən ikiqat ehtimallı qeyri-müəyyənlik, bunu ehtiva etmək üçün iyerarxik model və qərar qəbuletmə məsələləri müzakirə olundu. İkinci məqsədimiz isə birgə apardığımız elmi araşdırmalarımızı təhlil etmək, alınan nəticələri müzakirə etmək və yeni yaradıcılıq və tədqiqat məsələlərinin müəyyən edilməsi idi. Bu yaxınlarda çap olunacaq kitabımız və elmi jurnallarda dərc ediləcək məqalələrimiz üzərində çalışdıq. Bundan əvvəl bir çox beynəlxalq istinad indeksli jurnallarda ümumiləşdirilmiş dayanıqlıq nəzəriyyəsi, məntiqi neyron sistemləri və b. sahələrdə bir çox birgə əsərlərimiz dərc olunub.

*– Professor L.Zadə ilə görüşə bildinizmi?*

– Əfsuslar olsun ki, bu dəfə görüşə bilmədik. Mən Kanadaya getməmişdən əvvəl mənə dəvət göndərmişdi ki, Kanadaya gedəndə, ya Kanadadan qayıdanda yolüstü (elə belə də yazmışdı) Berkeleydən keçməyim və müxtəlif məsələləri müzakirə etməyimiz yaxşı olardı. Mənim budəfəki planım buna imkan vermədi. Kanadaya vizanı Ankaradan gec aldım, Edmontonda ləngiyəsi oldum. İyul ayının 12-də onun Las-Vegasda beynəlxalq konfransda plenar məruzəsi vardı, bildiyimiz kimi mənim də Torontoda. İnşallah, tezliklə onunla görüşərik. Mən Kanadada olarkən o mənə yenə məktub yazdı və yaxın vaxtlarda görüşməyimizi məsləhət bildi.

– Ayrı nə yazmışdı?

– Məktub budur.
– Dərc edə bilərikmi?
– Hamısını yox, sizə lazım olan hissəsini.
– Təşəkkür edirik...

***“Əziz Rafiq:***

*Göndərdiyin elmi hesabat monumental bir işdir. O, qeyri-müəyyənlik çərçivəsində qərar vermə sahəsində indiyədək görülən bütün işləri xeyli üstələyir. Fikrimcə, bu iş əsasında iqtisadiyyat üzrə Nobel mükafatına namizəd olmalısınız.*

*Qərarın təhlilinə qeyri-səlis həndəsənin (FG-nın) tətbiqi məni heyrətləndirdi. Genişləndirilimiş qeyri-səlis məntiq haqqında işimdən xeyli irəli getdin. Təqdim etdiyin əsas konsepsiyaların misallarını da çəkməlisən. Bu elmi hesabatın həm üçüncü, həm də ikinci hissəsinə aiddir. Başa düşməkdə qəliz olarsa ideyalarının gücü itirilmiş olacaqdır.*

*NAFİPS-də mühazirən necə keçdi? İştirakınla razı oldunmu? İstərdim ki, NAFİPS-dən sonra Berkeleyə gələ biləsən ki, hesabatı daha təfərrüatı ilə müzakirə edə bilək.*

*Bir çox sualım var, amma onları sonrakı məktublarımda yazacağam.*

***Ən dərin hörmətimlə,***
***Lütfi”***

*– Siz belə bir təklifi və dəstəyi gözləyirdinizmi?*

– Düzü, mən indi professor L.Zadənin bu təşəbbüsdə bulunacağını gözləmirdim. Mən Kanadadan gələndən sonrada telefon danışığımızda o, israrla bu təklifi dəstəklədiyini bildirdi. Hətta bir neçə dəfə bizim bu işlərimizi mükafata layiq görülmüş işlərlə müqayisə etdi. Digər tərəfdən gözlənilən idi. Çünki Corciya Dövlət Universitetinin, onun və mənim belə bir hədəfimiz bir neçə il qabaq formalaşıb.

*– Bu təklifdən Azərbaycandakı dostlarınız, həmkarlarınız, Azərbaycan alimləri sevinəcəkmi, qürur hissi duyacaqmı?*

– Birinci, hələ hədəfə çatmaq lazımdır. İkincisi, bu məni az maraqlandırır. Bircə onu deyə bilərəm ki, əlbəttə, dostlarım, tələbələrim üçün bu bir qürur yeridir.

*– Rafiq müəllim, L.Zadənin təbiri ilə desək belə “monumental bir iş”in yerinə yetirilməsində ölkəmizdə sizə maddi, mənəvi və b. dəstəklər oldumu?*

– Maddi dəstəkdən heç söhbət gedə bilməz. Mən belə dəstəyi ancaq Berkeley və Corciya Dövlət Universitetindən, bir də Siegen Universitetindən görmüşəm. Bizim iş adamları havayı 1-2 milyonlar xərclədiyi halda, elmə manatlar belə xərcləməz. İndi mən Torontoda olanda “NAFİPS– 2010” universitetin yeni modern bir mühəndislik və kompütinq mərkəzində keçirilirdi. Bu nəhəng mərkəzi George Vari adlı bir iş adamı universitet üçün tikmişdir. Professor L.Zadə, W.Pedrycz və başqa həmkarlarımız bizim kiçik tədqiqat qrupumuzu çox yüksək, dünya səviyyəli tədqiqat qrupu kimi qiymətləndirirlər. Maddi təminat ucbatından bu qrupun üzvlərinin hərəsi əlavə bir yerdə işləməli olurlar.

O ki, qaldı mənəvi dəstəyə mən xalqımdan, ictimaiyyətdən, jurnalistlərdən lazımi mənəvi dəstəyə görə dünya qədər razıyam və ömrüm boyu minnətdaram.

*– İndi hansı elmi problemin üstündə işləyirsiniz?*

– Klassik və müasir qərar qəbuletmə nəzəriyyəsi əsasən faydalılıq funksiyası konsepsiyasına söykənir. Bu o deməkdir ki, qərar qəbul edən şəxs alternativləri müqayisə edib birinə nisbətən o birisinə üstünlük verməsi üçün hər bir alternativi (o həmişə çox meyarlı olur) müəyyən bir şkalada bir sadə ədədə (ya adi, ya da qeyri-səlis) çevirir və o ədədləri müqayisə edir. Von Neumanndan indiyə kimi qərarlar analizi elmi belə inkişaf edib. Ancaq hər bir alternativ o qədər mürəkkəbdir ki, onu ancaq vektor şəklində, çoxkomponentli bir şəkildə təsəvvür etmək lazımdır. Belə olan halda biz ümumiyyətlə, uzun müddət elmdə oturuşmuş faydalılıq funksiyasından imtina edirik, insan təfəkkürünə daha adekvat olan alternativlərin özlərinin vektor şəkilli müqayisəsi əsasında seçim aparırıq. Burada əsas özək qeyri-səlis optimallıq konsepsiyası olacaq.

**Ramiz Mikayıloğlu**

## ZAMAN MAŞINI GERİ QAYTARA BİLSƏYDİM…

***Rafiq Əliyev: "Mən özümü necə xoşbəxt hiss edə bilərəm ki, vətəndə vətənsizəm, torpağımızın 20%-i işğal altındadı, atamın, anamın məzarını ziyarət edə bilmirəm, cəmiyyətimizin nuru öləziyib…"***

Fevralın 10-da Azərbaycanın dünya şöhrətli alimi, professor Rafiq Əliyevin 70 yaşı tamam oldu. 70 illik yubileyini də özünəməxsus sadəlik və təvazökarlıqla doğmalarının əhatəsində qeyd edən, sanki bununla hər cür dəbdəbə və təmtəraqdan ucada dayandığını diqqətə çatdıran hörmətli professor, bütün çıxışlarında olduğu kimi qəzetimizə müsahibəsində də maraqlı fikirlər səsləndirdi. İnanırıq ki, hədsiz səmimiyyəti və yalnız Rafiq Əliyevə məxsus heyrətamiz məntiqi fikirlərlə diqqət çəkən bu müsahibə oxucularımıza sevimli alimimizi daha yaxından tanımaqda kömək edəcək, gənc və yeniyetmə nəsillər üçün isə həm də yüksək əxlaqi-mənəvi dəyərlərə çağırış rolunu oynayacaqdır.

*– Rafiq müəllim, fevralın 10-da 70 illik yubileyiniz tamam oldu. Maraqlıdır, 70 illik ömür yoluna nəzər salan Rafiq Əliyev bu ömrü bir neçə kəlmə ilə necə xarakterizə edə bilər?*

– Deyə bilmərəm ki, sıfırdan yetmişə kimi keçən həyat traektoriyam optimal olub. Yəni, bütün mümkün olan traektoriyalar içərisində, yaşamlar içərisində özüm və cəmiyyət üçün ən əlverişlisi olubdur. Bir onu bilirəm ki, bir neçə vacib həyat atributlarında səhvə yol verməmişəm. Birincisi, peşə seçimində. Zaman maşınını geri qaytara bilsəydim, yenə də bu peşəmin üstündə dayanardım, elm yolu ilə gedərdim və idarəetmə, kibernetika sahəsini seçərdim. İkincisi, həyatda bir şeydə də səhv etmək olmaz – həyat yoldaşının seçilməsində. Tanrıya minnətdaram ki, mənə gözəl həyat yoldaşı və layiqli ailə bəxş etdi. Üçüncüsü, bir şeydə səhv etməmişəm ki, xəyanətdən, məddahlıqdan, nəfsə qul olmaqdan özümü qoruya bilmişəm. Həmişə çalışmışam ki, xalqımın, millətimin mənafeyini daha üstün tutum, həqiqətin yanında olum. Səhvsiz həyat olmur. Ölkəmizin parçalanmasında, cəmiyyətimizin indiki durumda olmasında bütün Azərbaycan vətəndaşları kimi mən də özümü günahkar sayıram. Optimallıq prinsipinə əsasən, zamana görə həyatın gərək bütün mərhələləri optimal olsun. Ömür vəfa eləsə, çalışacam ki, 70-dən sonrakı mərhələ də xalqımın, millətimin mənafeyi meyarı baxımından optimal və ya optimala yaxın olsun.

*– Şübhəsiz ki, yubileylə bağlı saysız-hesbsız təbriklər ünvanlandı, haqqınızda xoş sözlər səsləndirildi. Bütün bu təbriklər arasında elə bir təbrik oldumu ki, Sizə bu təbrik mənən daha çox lazım idi və belə bir gündə məhz həmin insan tərəfindən xatırlanmanız sizi daha çox məmnun etdi?*

– Mən heç bir yubiley tədbiri keçirmədim. Fevralın 10-u qabağı bir mərasimdə yazıçı və jurnalist dostlarımla görüşəndə, dəyərli dostumuz Qabil Abbasoğlu ilə də görüşdüm. Mənə həyatım boyu olan təbriklər içərisində hafizəmdə həkk olunmuş Qabil Abbasoğlunun təbrikini bir daha ona və oradakı dostlarıma xatırlatdım. O təbrik belə idi: "Rafiq müəllim arzu edirəm ki, dünyanızı dəyişəndə övladlarınızın çiynində Qarabağda, Ağdamda Novruzlu qəbirstanlı-

ğına gedəsiniz”. Bir də, ayın 10-da səhər-səhər həyat yoldaşımın məzarı üstünə gedəndə onun gözlərindən oxuduğum təbrik idi, ruhunun təbriki.

*– Həyatınızda elə anlar olub ki, sadə bir insan ömrünün sizi dünya miqyaslı alim şöhrətindən daha artıq xoşbəxt edə biləcəyi haqda düşünmüsünüz?*

– Düşünürəm ki, mən çox sadə bir insan ömrü yaşamışam. Siz dediyiniz dünya şöhrətini heç vaxt görməmişəm və görmürəm. Ailədə də, dostlar arasında da, cəmiyyətdə də öz yerimi həmişə ortada, simmetriklik guşəsi olan bir yerdə görmüşəm.

*– Ümumiyyətlə, Rafiq Əliyevə görə xoşbəxtlik nədir və o, özünü nə dərəcədə xoşbəxt hiss edir?*

– Bu gün dünyada həm bədii, həm də elmi ədəbiyyatda ən çox müzakirə olunan sual, mövzu Sizin qoyduğunuz bu sualdır. Mənim təfəkkür tərzim binar Artistotel məntiqinə yox, kəsilməz mənalı qeyri-səlis məntiqə əsaslanır. Bu məntiqin əsas postulatı odur ki, Tanrıdan başqa dünyada hər bir şeyin dərəcəsi var, Tanrı mütləqdir, o, vahiddir. Bu baxımdan xoşbəxtlik anlayışı da ancaq dərəcə ilə səciyyələnə bilər. Allah bir insana nə qədər onun sevgisinə tuş gəlsə də, hər şeyi verməz. Qısaca desəm, ideal xoşbəxt insan yoxdur. Allah birinə çoxlu pul verər, amma o qədər çox zəka verməz, birinə çoxlu zəka verər, amma möhkəm sağlamlıq verməz. Bir neçə il öncə Amerikadan qayıdanda “American Economic Review” jurnalından (bu jurnal dünyanın ən mötəbər elmi jurnallarından biridir) iki məqalə götürdüm. Bu məqalələr dünyanın müxtəlif ölkələrində alimlərin apardığı xoşbəxtlik barədə tədqiqatlarının nəticəsini əks etdirirdi. Ümumi nəticə belə idi: Qərb ölkələrində gəlir, zənginliklə xoşbəxtlik dərəcəsi arasında heç bir korrelasiya yoxdur. Şərq ölkələrində isə, bu korrelasiya çox güclüdür. Pulun, zənginliyin bir balaca artdısa özünü çox xoşbəxt hiss edirsən, bizim məmləkətdə olduğu kimi. Başqa bir elmi tədqiqatda isə xoşbəxtliyə təsir edən əsas faktorlar kimi, aşağıdakı atributlar qəbul olunub:

1. Sənə cəmiyyətdə hörmət hissi;
2. Müstəqillik;
3. Ailə və yaxşı dostlar;
4. İş yeri.

Bu tədqiqat 96 ölkədə 100 min adam üzərində ABŞ alimləri tərəfindən aparılmışdır. O ki qaldı mənim xoşbəxtlik dərəcəmə, bu qeyri-səlis məntiqdəki 0-1 şkalasında 0.5-in yanındadır. Mən özümü necə xoşbəxt hiss edə bilərəm ki, vətəndə vətənsizəm, torpağımızın 20%-i işğal altındadı, atamın, anamın məzarını ziyarət edə bilmirəm, cəmiyyətimizin nuru öləziyib. O biri tərəfdən Tanrıya minnətdaram ki, ürəyimcə olan ailəm var, övladlarım və layiqli nəvələrim var. Azərbaycan və dünyanın hər yerində yaxşı ziyalı dostlarım var. Azdan-çoxdan elmdə bir şey eləmişəmsə (bunu tarix göstərər), bu məni xeyli sevindirir. Mənim xoşbəxtlik dərəcəm o zaman yüksələcək ki, xalqım, millətim işıqlı gələcəyə qovuşacaq, insanlarımız yüksək rifaha sahib olacaq, cəmiyyətimiz demokratikləşəcək, onun hər bir fərdi müstəqil olacaq.

*– Sizcə, elliklə bədbəxtlik və fəlakətin yaşandığı bir cəmiyyətdə hər hansı bir insanın fərd olaraq xoşbəxt olması mümkündürmü?*

– Sizin bu sualınıza dəyərli dostum və qohumum, Qarabağ dərdi ilə dünyasını dəyişmiş Famil Mehdinin şeirindən bir parça ilə cavab vermək istəyirəm:

*Susacaqsa könül tarım,*
*Simlərini dartım qırım,*
*Millətim bədbəxtsə Tanrım,*
*Sən məni xoşbəxt eləmə.*

*– Belə bir fikir var ki, bədbəxtlik insanı başqa insanların dərd və problemlərinə daha duyarlı, daha həssas edir. Bu məntiqlə yanaşsaq, söyləmək olarmı ki, əslində hər bir insanın qəlbində xoşbəxtliklə yanaşı müəyyən qədər bədbəxtliyin də məskən salması gərəklidir?*

– Əsl insan üçün monoton həyat təsəvvür eləmirəm. İnternetdə professor Zadənin bir yaxşı deyimi var: "Həyat qızıl güllər içərisindəki çarpayıda keçən ömür deyil". Real insan həyatı təzadların, əksliklərin vəhdətindədir. Ona görə də, mən öz xoşbəxtlik dərəcəmi müəyyən edəndə 0.5-in yanında dayandım.

*– Həyatınızda elə bir an, elə bir gün olub ki, məhz həmin anı, həmin günü yenidən yaşamaq üçün indiyə qədər əldə etdiyiniz bütün uğurları, elmi nailiyyətlərinizin sizə qazandırdığı şöhrət və titulları qurban verməyə hazır olasınız?*

– Mən zaman maşının geri dönməsinin əleyhinəyəm. Yenidən doğulmaq və yaşadıqlarımı yenidən yaşamaq istəməzdim.

*– Bütün bir ömrü elmin inkişafına, yalnız doğma xalqının deyil, bütün bəşəriyyətin rifahına sərf edən Rafiq Əliyevin Azərbaycanla bağlı arzu və istəkləri nədən ibarətdir? R.Əliyevin görmək istədiyi Azərbaycan hansıdır və o, aradığı Azərbaycanı görəcəyinə inanırmı?*

– Bu günlərdə "Amerikanın Səsi" radiosu mənim iştirakımla iki saatlıq canlı forum təşkil etmişdi. Orda mənə verilən suallardan biri belə idi: Azərbaycanın inkişaf düsturunu yaza bilərsinizmi? Mən bədahətən o düsturu yazdım. Sonra onun üzərində çox düşündüm. Gördüm ki, məqbuldur. Bu düstur belədir: Azərbaycanın inkişafı = "Demokratiya x Demokratiya + Texnoloji İqtisadiyyat + Azadlıq x Azadlıq". Burada sözlər üzərində olan bütün hesablama əməliyyatları qeyri-səlis hesab əsasındadır. Bir az geniş izah etsəm, bu düstur onu deyir ki, mənim görmək istədiyim Azəbaycan yüksək demokratikliyə, texnoloji-iqtisadi modelə, yəni xammala yönəlmiş modelə yox, istehsala yönəlmiş modelə malik olmalıdır və üstəgəl vicdan azadlığı, söz azadlığı, fikir azadlığı və hər bir Azərbaycan vətəndaşının yüksək müstəqilliyi. Ümid axırıncı ölür, Tanrının izni ilə yaxın bir neçə ildə bunu görəcəyik.

*– Rafiq müəllim, bu günlərdə ölkə gəncliyinə müraciətiniz dərc olundu. Maraqlıdır, bu müraciət hansı zəruriətdən irəli gəldi və sizcə, gəncliyə ünvanlanan bu müraciət müsbət mənada nəyisə dəyişəcəkmi?*

– Həyatımız 3 mərhələnin zaman ardıcıllığıdır: dünən – keçmişimiz, bu gün – indimiz və sabah – gələcəyimiz. İndi hamımız üçündür, gənclər, ahıllar üçündür. Dünənimiz əsas bizimdir, yaşlı nəslindir. Bizim keçmişimiz böyükdür, gələcəyimiz dardır. Gənclərimizin isə keçmişi dar olsa da, çox böyük gələcəyi var, sabahı var. Gənclik sabahdır. Biz o sabahı dəyişmək üçün gənclərə müraciət etdik. Bu o demək deyil ki, məsuliyyət yükünü gənclərin çiyinilərinə atırıq. Biz bir yerdə daha güclüyük, belə halda effektimiz sinergetik effekt olacaq.

**Seymur Əliyev**
13-16.02.2012

# КАМНИ ВСЕГДА ЛЕТЯТ ТУДА ОТКУДА ИСХОДИТ СВЕТ

***Все должно быть для человека, а не против него: «Камни всегда летят туда откуда исходит свет», – уверен профессор Рафик Алиев***

Чтобы определить, «что такое наука, и в чем ее фундаментальная миссия», можно, конечно, высказать целый ряд дополняющих или противоречащих друг другу мнений, предположений и убеждений.

Но, кажется, наиболее детально и последовательно это сделал один из основоположников психоанализа, швейцарский мыслитель Карл Густав Юнг, написав в одной из своих работ, что «цель, стремление и назначение науки заключаются в постановлении закона, а закон есть не что иное, как сокращенное выражение для многообразных процессов, имеющих, однако, нечто общее между собой. Таким образом, цель науки благодаря научному пониманию возвышается над тем, что лишь опытно познаваемо; цель эта всегда останется продуктом субъективной психологической констелляции исследователя, несмотря на всеобщую и доказанную значимость».

Заинтересовавшись в интервью с известным азербайджанским ученым, членом-корреспондентом НАНА Рафиком Алиевым особенностями разрабатываемой им долгие годы теории «нечеткой логики», корреспондент газеты «Зеркало» заметил, что вышеприведенная формулировка как нельзя кстати перекликается с видениями и доводами, которые излагаются в концепции приближенных вычислений. В свою очередь в ходе беседы внимение было акцентировано на таких, может, и не строго научно-теоретических, но весьма общественно значимых темах, как «Интеллигент и интеллектуал», «Технологический прогресс и мораль», «Запад и Восток». Хотя, конечно, социальные и культурологическо-цивилизационные категории тоже есть объекты научного исследования, в том числе и в рамках теории «нечетких множеств».

*– «Нечеткую логику» нередко называют и «размытой», она отвергает двойственность и дихотомичность. Ведь данная теория все объясняет согласно иной закономерности предметов, событий и процессов? Значит, «нечеткая логика» тоже рациональна?*

– Она более толерантная. Теория «нечетких множеств», как вы правильно заметили, не ссылается на традиционную бинарную (двойственную - прим. автора.) аристотелевскую логику, в которой, скажем так, нет терпимости к реальной жизни, процессам и событиям, к их разнообразию. В аристотелевской логике есть только место для «да» и «нет».

*– Основополагающий принцип данной логической системы tertium non datum - «третьего не дано»...*

– Вот именно. Например, некто или мой «враг», или «друг». Но «нечеткая логика» нацелена на то, чтобы воспринимать мир во всей его бесконечности. Конечно, и эту теорию не следует воспринимать «истиной последней инстанции». Это не итог, а всего лишь очередной шаг в миропонимании.

Главным постулатом теории «нечеткая логика» является то, что каждый феномен следует рассматривать степенью истинности. Наш выдающийся соотечественник профессор Лютфи Заде недавно в авторитетном научном издании "Formation scienceds" опубликовал материал, в котором выведена теория «Z-числа». В целом в данной концепции указано, что каждое явление можно лишь прогнозировать, руководствуясь принципом «вероятности-возможности».

*– Но это целесообразно в том случае, когда явление еще не есть само по себе, а лишь предполагаемо. А как «нечеткая логика» формулирует уже существующее?*

– Очень хороший вопрос. Есть, например, такое изречение, что «мы утопаем в океане данных, но готовы отдать жизнь для приобретения капли знаний». Настоящая наука должна упорядочить из бесконечных данных некую отдельную закономерность. Кроме того, отмечу, что при исследовании того или иного объекта «нечеткая логика» оперирует не цифрами как конкретными знаками, а словами, учитывая их многозначность. Здесь цель именно в том, чтобы определить закономерность «пользуясь словами». Из отдельных объектов «нечеткая логика» перцепционным методом моделирует совокупность.

*– «Вначале было Слово». Примерно так? Выходит, «нечеткая логика» больше гуманитарная дисциплина?*

– Этим методом пользуются и в технических науках. Но на самом деле это естественно гуманитарный предмет. Тут все «вычисляется словами». Слова вкладываются, вычитаются, умножаются, возводятся в квадрат. Спрашивается, по какой причине это делается? Ну вот обратим внимание на понятие «красивая женщина». Под данным термином понимается некая совокупность женщин, наряду с тем, что феномен «красота» тоже разностепенный. Но есть и явление «очень красивая хенщина». Значит, мы возводим словосочетание «красивая женщина» в квадрат, придавая этому определению иное значение.

*– Но иногда «нечеткую логику» объясняют и числами? К примеру интервал 0 1.*

– Да, это есть. «Между нулем и единицей есть бесконечное число чисел. А эти числа есть в степени». Но это опять «выводится» словами. Скажем так - «Между понятиями «друг» и «враг» существуют такие определения, как «лучший друг», «неважный друг», «лютый враг», «ничтожный враг», а также «просто товарищ», «соперник», «знакомый», «незнакомец» в конце концов.

*– А в «нечеткой логике» принимается во внимание аристотелевский принцип достаточного основания. «Не следует привлекать новые сущности без самой крайней на то необходимости».*

– Да, конечно. Так судья, который ведет процесс, может ссылаться на множество прецедентов, но он вынесет решение на базе некоторых из них. «Нечеткая логика» не опровергает этого.

*– Так или иначе, в «нечеткой логике» нет места детерминизму, то есть тому, что все процессы обусловлены и взаимосвязаны?!*

– Просто, согласно детерминизму, все в природе и мире четко, понятно и объяснимо. Но ведь это не так. В каких параметрах объяснить понятие «красота»? Всегда существует «дефицит информации». И в рассуждениях, и в утверждениях всегда остаются некие пробелы. Всегда есть место сомнению.

*– В целом сомнение действительно двигатель диалектического развития. «Я знаю, что ничего не знаю».*

– Вот именно.

*– Понимается, что «нечеткая логика» соотносима также с популярной «деконструкцией текста» французского теоретика Жака Дерриды и с текстовой интерпретацией «герменевтический круг»? «Нечеткая логика» занимается внутри и затекстовыми смыслами и значениями?*

– Естественно, и деконструкция, и интерпретация-текста - одни из основных направлений в «теории нечеткой логики». Из целого текста надо всегда выводить определенный «итог - summary». Тут необходимо внедриться в текст и разложить содержание, чтобы ухватить его суть. Вот в политической науке есть такая формулировка, как «дипломатия лестницы».

Два политика или дипломата, спускаясь по лестнице, могут говорить о чем угодно, имея в виду какой-то один конкретный вопрос, в котором и заключается смысл обсуждаемого.

Хороший политик и дипIомат уловит суть уже в начале беседы или в ходе дискуссии. Плохой поймет все уже на последних ступеньках или не поймет вообще. «Нечеткая логика» - это и есть исследование текстовой проблематики.

Так, в одной из моих книг приводятся самые простые примеры. «Карандаш упал на стол, и он сломался». Что именно сломалось? Или «цыплята готовы к обеду». Как это понимать? Подобные вопросы исследуются и в моих материалах, которые напечатаны в некоторых англоязычных научных журналах.

*– Поскольку вы не только серьезный и неординарный ученный, но и представитель азербайджанской интеллигенции, пора, наверное, от актуальных научных теорий перейти к не менее актуальным общественным. Как известно, в ноябре текущего года скончался писатель и публицист Рафик Таги. Поскольку он был знаменит неоднозначными высказываниями, после покушения на него и его смерти в обществе стали звучать разные противопоставления касательно «радикальности ислама и европейской терпимости», «просвещенной Европы и дикой азиатчины». Как вы можете все это оценить?*

– Надо сказать, что меня очень потрясла смерть Рафика Таги. Вне зависимости от его взглядов, на мировоззрение нельзя устанавливать моно-

полию. Можно не соглашаться с его мнением, но убийство – это всегда ужасное преступление. Между тем я всегда был против того, чтобы противопоставлять Европу и Азию, западную и восточную культуры, так как каждая имеет свою самобытность и является общечеловеческой ценностью.

Когда мы говорим, что у нас «восточная ментальность, основанная на особой нравственной системе», имеются в виду моральные императивы, обозначенные в Священной книге Коран, которая «напоила» философию Низами, Насими, Физули, «Ахлаги-Насири» Насиреддина Туси.

Исламский Восток в средние века был мостом между античной Грецией, Древним Римом и Европой эпохи Возрождения. История состоит из зигзагов, и вспоминаются слова лауреата Нобелевской премии, пакистанского физика-теоретика Абдус Салама. В своей нобелевской речи он сказал: «Мусульманский мир сегодня является отсталым не потому, что служит исламу. Это происходит потому, как он отдалился от ислама».

*– Вы как-то сказали, что определения «ученый», «интеллектуал» и «интеллигент» - абсолютно разные понятия?*

– Я всегда был убежден в этом. У каждого своя миссия, но, если кто-то действительно является и интеллектуалом, и интеллигентом, и ученым, этот человек является национальным достоянием. Несомненно, носить на себе подобную ношу очень трудно. Ведь если выразиться метафорично: «Камни всегда летели туда, откуда исходил свет».

Но интеллигенты и ученые должны понимать, что на них, кроме всего прочего, лежит огромная ответственность перед обществом. Интеллигенция всегда должна быть в оппозиции. Это не значит, что она должна быть против государственности или правительства. Представители интеллигенции должны бороться против лжи, обмана, беззаконности, попрания прав, антиконституционных мер, коррупции, чиновничьего своеволия.

Как говорил Ататюрк: «Нации, у которых трусливая интеллигенция, обречены на рабство». В свою очередь социум также обязан осознать, что преодолеть исторические катаклизмы возможно, только если не игнорировать научную деятельность, гражданскую позицию, мнение истинных ученых, интеллектуалов, интеллигентов. Различные общества выходили из кризиса только при подобном раскладе.

*– А бесконечный научно-технический прогресс - это все же больше во благо или во зло?*

– Любой материальный прогресс без гуманизации и утраты нравственности есть развитие без будущего. Конечно, современное общество нельзя представить без науки и техники. Но недопустимо без конца эксплуатировать нравственные ресурсы. Все должно быть для человека, а не против него.

**Н.Самедоглу**
10.12.2011

# ŞƏXSİYYƏT ÜÇÜN ƏN MÜHÜM MEYAR XEYİRXAHLIQDIR

***Rafiq Əliyev: "Ziyalı, alim və şəxsiyyət problemində birinci yerdə nəfs dayanır".***

Rubrikamızın qonağı Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, Dövlət Neft Akademiyası (ADNA) «Avtomatlaşdırılmış idarəetmə sistemləri» kafedrasının müdiri, MBA Proqram direktoru (ADNA), professor Rafiq Əziz oğlu Əliyevdir.

**İnsan gərək yaxşını görməyi və onu dilə gətirməyi bacarsın...**

***Professor Əjdər Ağayev:*** Rafiq müəllim, Sizi ziyarət etmək bizimçün xoşdur. «Təhsil və zaman» qəzetində şərəfli ömür yolu ilə örnək olan insanların tanıdılması bir ənənə halını almışdır. Bu, şəxsiyyət formalaşdırılmasında, eləcə də elmin inkişafında mühüm rol oynayan məsələdir. Biz Sizi bir alim, insan, vətəndaş, tam kamillik keyfiyyətlərini daşıyan səmimi bir yoldaş olaraq tanıyır və qiymətləndiririk. Elmi ictimaiyyət də Sizi belə tanıyır.

– ***Rafiq Əliyev:*** Çox sağ olun. Sizin kimi bir ziyalının mənim haqqımda mətbuatda yazdığı fikirlər mənimçün hər cür təltifdən, rəsmi addan önəmlidir.

– ***Əjdər Ağayev:*** *Bu, təkcə mənim fikrim deyil. Mən elmin zirvəsində dayanan insanların fikrini ümumiləşdirib demişəm. Ürəyimin istəyini ifadə etmişəm. İnsan gərək yaxşını görməyi və onu dilə gətirməyi bacarsın. Bunları biz deməsək, kim deməlidir?*

Məşhur psixoloq Uznadzenin «Müəyyənlik nəzəriyyəsi» var. Biz həmin nəzəriyyədən pedaqogika və psixologiyada istifadə edirik. Orada göstərilir ki, əgər insan haqqında məlumat verilməyibsə, o cəmiyyətə tanıdılmayıbsa, onu necə təqdim edəcəksənsə elə də qəbul ediləcək. Gərək insanı tanıdasan, onun məziyyətlərini şərh edəsən, bir sözlə onun haqqında müəyyənlik verəsən. Xeyirxahlıq, dəqiqlik, qiymətvermə bacarığı insanın ən ali keyfiyyətidir. Və bizim bir sıra ziyalılarımızda mən onu müşahidə etmişəm.

Yalnız əxlaqi keyfiyyətlər formalaşandan sonra insan şəxsiyyət zirvəsinə ucalır.

Mən istərdim ki, Sizinlə cəmiyyətimizi narahat edən bir sıra məsələlərə aydınlıq gətirək. Fikrimcə, yalnız əxlaqi keyfiyyətlər formalaşandan sonra insan şəxsiyyət zirvəsinə ucalır. Təəssüf ki, bu gün elmimizdə elə yüksək dərəcəli diplomlu adamlar var ki, özünü cəmiyyətə alim kimi təqdim edir, amma şəxsiyyəti heç nəyə dəymir. İstərdim öncə alim və şəxsiyyət məsələsinə toxunaq. Məsələn, mənim tanıdığım elə həmkarım, elmlər doktoru adını daşıyan alimlər var ki, heç nə bacarmayan, istedadsızlığı ilə gələcəkdə də elmdə heç nə meydana qoya bilməyəcəyini ifadə edən adamların elmi ad almasına şərait yaradırlar. Bəzən özləri onlar üçün namizədlik, doktorluq dissertasiyaları yazırlar. Düşünürəm ki, elmin də qeyrəti var. Əgər o, alimdirsə, nə üçün onun

təssübünü çəkmir. İstərdim ki, Siz dünya görmüş bir alim kimi bu məsələyə münasibətinizi bildirəsiniz…

**Şəxsiyyət üçün ən mühüm meyar, fikrimcə, xeyirxahlıqdır**

– ***Rafiq Əliyev:*** Bu suala həm Azərbaycan, həm də dünya prizmasından cavab vermək istərdim. Mənim düşüncəmə görə, o insan ki, özünə alim deyir o, alim deyil. Allah Xudu Məmmədova rəhmət eləsin, o deyərdi ki, alim Eynşteyndir, Nyutondur. Bu, Xudu Məmmədovun yüksək əxlaqından xəbər verirdi. Mən bir dəfə qəzetlərin birində «Katibəmdən üzr istə» adlı köşə yazısı oxudum. Yazının məzmunu belə idi ki, bir nəfər idarə müdirinin yanına gəlir. Öncə katibə ilə görüşməli olur. Vəziyyət elə gətirir ki, katibə ilə yaxşı danışmır. Səhəri gün həmin adamı katibə ilə danışıq qaydalarını pozduğuna görə işdən azad edirlər. Bu olmuş əhvalatdır. Ondan sonra hamı həmin katibə ilə necə danışmağı öyrənir. İndi bəzi millət vəkilləri, iş adamları bir də görürsən ki, elmlər namizədi, elmlər doktoru oldular. Hansı ki, ömürlərində nə bir laboratoriya üzü görür, nə bir elmi tədqiqat aparırlar. Belələri Azərbaycanda kütləvidir. Mən bilmirəm onlar bu adı necə qəbul edib, necə daşıyırlar? Dünya prizmasından məsələyə yanaşdıqda heç vaxt düşünə bilmirəm ki, Eynşteyn, Nyuton özünə alim deyib. Onlar deyirdilər ki, bu bizim peşəkar sənətimizdir. O ki qaldı şəxsiyyət məsələsinə, bu bir qədər çətin məsələdir. Birini verir, birini vermir. Baxın, o, pullu adamlar ki, var, mənim həm müşahidələrimə, həm də əsaslandığım faktlara görə onların heç biri xoşbəxt deyil. Allah pul verər, ağıl verməz, ağıl verər, şəxsiyyət verməz, şəxsiyyət verər, səhhət verməz. Yəni bütün bunları Allah heç vaxt bir yerdə verməz. Ancaq Allahın sevgisinə tuş gəlmiş insanların varlığını da danmaq olmaz. Mən yazılarımın birində göstərirəm ki, Allahsız alim tanımıram. Elə bu adda bir məqaləm də var. Bu yazı internetdə də yayımlandı. Ətrafında xeyli müzakirələr aparıldı. Eynşteyn də, Nyuton da Tanrıya sonsuz inam bəsləyiblər. Lütfi Zadənin leksikonunda ən çox işlənən söz «İnşaallahdır». Allahın sevgisinə tuş gəlmiş insanlar var ki, Allah onlara həm elm verir, həm də şəxsiyyət əta edir. Belələri var və onlar dünyada çoxdur. Şəxsiyyət üçün ən mühüm meyar, fikrimcə, genetik olaraq ötürülmüş xeyirxahlıqdır. Əxlaqı aşılanmış Azərbaycan cəmiyyətində elə insanlar var ki, ürəyində bir damcı da olsun xeyirxahlıq yoxdur. Hər şeyə pul gözü ilə baxılan cəmiyyətdə xeyirxahlığın aşınması labüddür. Amma insanlar var ki, xeyirxahlıq onların həyat amalıdır. Mən də həyatımda belə insanlarla rastlaşmışam. 1963-cü ildə mən ali məktəbi bitirəndə SSRİ rəhbərliyinin qərarına əsasən məzunlara diplom bir il istehsalatda işləyəndən sonra verilirdi. Həmin il Moskvaya SSRİ Elmlər Akademiyasının İdarəetmə Problemləri İnstitutunun aspiranturasına gedirdim. Amma diplom tələb edirdilər. Rektora müraciət etdim. Qanunu poza bilmərəm deyb, etirazını bildirdi. Odur ki, istehsalata getməyi qərara aldım. Sənədlərimi götürəndə akademik Paşa Quluzadə kabinetindən məni görüb səslədi. Gəlişimin səbəbini soruşdu. Dedim ki, Zərifə xanımın yanına gedib sənədlərimi almaq istəyirəm. Vəziyyəti ümumilikdə ona danışdım. Dedi ki, Zərifə xanım bu gün yoxdur.

Sabah gəlib deyərsən ki, Paşa Piriyeviç tapşırdı ki, sənin sənədlərini Moskvaya diplomsuz göndərsin. Diplomunu sonra alıb yola salarıq. Bundan sonra mənim Moskvada oxumağım, müdafiə eləməyim üçün daha bir maneə qalmadı. 6-7 ildən sonra dostum İsmayıl İbrahimovun Moskvada Qubkin adına İnstitutda müdafiəsində iştirak etmək üçün SSRİ paytaxtına getmişdik. Faiq Bağırzadə, mən, İsmayıl İbrahimov və Paşa Quluzadə «Moskva» mehmanxanasında nahar edirdik. Mən orada sağlıq dedim. Paşa Quluzadənin şərəfinə badə qaldırdım. Paşa müəllim dedi ki, oğul, sən məni tanıyırsanmı? Mən ona mənə etdiyi yaxşılığı xatırlatdım. Bilirsinizmi, Əjdər müəllim, biz belə kişilər, belə insan görmüşük. Xeyirxahlıq heç vaxt unudulmur.

**Şəxsiyyətin ən ali keyfiyyətlərində biri də nəfsinə qalib gəlməsidir.**

SSRİ Elmlər Akademiyasının vitse prezidenti, İnterkosmosun sədri Boris Nikolayeviç Petrovla işimlə əlaqədar mütəmadi olaraq şəxsi, elmi münasibətlərdə olurdum. Onun nə iş prosesində, nə də ailəsində bir dəfə də olsun səsini ucaltmasının şahidi olmadım. O, 1980-ci ildə dünyasını dəyişəndə mən dəfndə iştirak etmək üçün Moskvaya yollandım. Akademiyanın həyətində çoxlu sayda adam toplaşmışdı. Orada Səlim Axundov adlı bir tanışımı gördüm. Soruşdum ki, Siz Boris Nikolayeviçi tanıyırdınızmı? Bəli, dedi. Onu xeyirxah insan kimi tanıyırdım. Aspiranturanı qurtarıb ailə qurmuşdum. İki övladım və həyat yoldaşımla Moskvada 7-8 il idi ki, kirayədə yaşayırdıq. Mənə dedilər ki, deyə Səlim Axundov sözünə davam etdi: Boris Nikolayeviçə müraciət et, o, sənə ev almaqda kömək edər. Onu heç vaxt görmədiyim üçün yanına gedə bilmirdim.

Səlim Axundov deyildiyi kimi etməyə məcbur olur. Boris Nikolayeviçlə görüşür. Vəziyyətini ona danışır. O, Səlimin vəziyyətindən xeyli narahat olur. Lazımı yerlərə müraciət edib Səlim Axundova Moskvada ev verdirir. Fikrimcə, bu, şəxsiyyətə xas olan əsl xeyirxahlıq nümunəsidir. Şəxsiyyətin ən ali keyfiyyətlərindən biri də nəfsinə qalib gəlməsidir. Ən böyük sərkərdə nəfsinə qalib gələn insandır. Ziyalı, alim və şəxsiyyət problemində birinci yerdə nəfs dayanır. Ötən il «İbrus» teatrında bir toplantımız keçirildi. Orada çıxışımda mən qeyd etdim ki, ziyalının meyarları çoxdur. Ziyalı gərək azad, müstəqil ola bilsin. Bilirsinizmi, elə adamlar, alimlər var ki, onları müzakirə etmək olmaz. Elə şairlər, yazıçılar, elm adamları var ki, öz sənətlərində yüksək mərtəbəyə ucala biliblər. Amma Allah onlara şəxsiyyət verməyib, onlar tanrının sevgisinə tuş gəlməyiblər. Elə böyük alimlər var ki, ailə əxlaqı yoxdur, yaxud öz əxlaqı yoxdur. Bir jurnalist məndən soruşdu ki, nə üçün yazılarınızda əxlaq sözünü çox işlədirsiniz? – Ona görə ki, cəmiyyətdə ən çox aşınan əxlaqdır, dedim.

– ***Əjdər Ağayev:*** *Elə alimlərimiz var ki, yaxşıya pis, pisə yaxşı deyir. Elmi dəyəri olmayan bir işi yüksək səviyyəli elmi tədqiqat işi kimi təqdim edirlər. Amma düzgün yanaşma odur ki, meydanda olan işin nöqsanlı cəhətləri göstərilsin, onların aradan qaldırılması üçün tövsiyələr verilsin. Əslində elmi tədqiqat işi ilə məşğul olana bu yolla xeyirxahlıq etmiş olarlar, nəinki, onun keyfiyyətsiz işini yaxşı iş kimi təqdim etməklə. ADPU-nun rektoru Yusif Məmmədov konfransların birində bu məsələyə münasibət*

*bildirdi. Dedi ki, yaxşı alim kimi tanıdığım bəzi adamların heç bir elmi dəyəri olmayan bir işə müsbət qiymət verməsi məni təəccübləndirir. Rafiq müəllim, Sizcə, bu, şəxsiyyətləmi, xarakterləmi, yoxsa nə ilə bağlıdır?*

**Əgər sənin əlində bir alət var, o da yalnız çəkicdirsə, hər şey sənə mismar kimi görünəcək.**

– ***Rafiq Əliyev:*** Bu məsələdə bir dünya, bir də Azərbaycan reallığı var. Dünya reallığında Sizin toxunduğunuz bu məsələ var, amma cüzi… Lütfi Zadənin "Çəkic" adlı elmi prinsipi var. Ehtimal nəzəriyyəsi ilə məşğul olanlar "Qeyri-səlis məntiqi" qəbul eləmirdilər. "Çəkic" prinsipinə görə, əgər sənin əlində bir alət var, o da yalnız çəkicdirsə, hər şey sənə mismar kimi görünəcək. Dünya elmində belə bir məsələ var. Əgər sən elminlə bir addım irəlidəsənsə, sənə qarşı qısqanclıqlar başlayır. Mən öz yazılarıma qarşı da belə bir münasibətin şahidi olmuşam. Lakin əsərlərimə qarşı tutarlı bir irad irəli sürə bilməyiblər. Fikirlər ümumi səciyyə daşıyıb. Bunu sənət paxıllığı adlandırmaq olar. Amma dünya təcrübəsində nə isə ummaq yoxdur. Bizdə isə əksəriyyət nə isə umur. Heç olmasa bir zəng vurulmasını, tapşırılmasını gözləyir. İkincisi isə elmi bilməməzlikdən irəli gəlir. Elmdən xəbəri olmayan adam onun haqqında nə fikir söyləyə bilər.

– ***Əjdər Ağayev:*** *Bizdə belə bir təcrübə də var ki, çoxları öz işlərini özləri yazmırlar, kiməsə yazdırırlar. Yazan adam da bəzən peşəkar olmur. Sonra da iş haqqında yalançı rəylər təşkil edirlər. Hətta nə danışmalı olduğunu, ona hansı sualların veriləcəyini də yazıb əlinə verirlər ki, oradan oxusun. Bu gün bu çox geniş vüsət alıb. Mənim qəbul edə bilmədiyim cəhətlərdən biri də qabiliyyətli adamlara yaradılan maneələrdir. Qabiliyyətsizlərə hər cür şərait yaradılır. Qabiliyyətlilərin işi isə çətinə salınır. Bunu edənlər də bizim alim həmkarlarımızdır. Niyə bizim cəmiyyətimiz bu gün bu hala gəlib çıxıb. Görünə-görünə, bilinə-bilinə saxtakarlıq baş alıb gedir, niyə bunun qarşısı alınmır?*

**Əgər elmə ümumi gəlirdən 2%-dən az vəsait ayrılırsa, o elm o iqtisadiyyata təsir göstərə bilmir.**

– ***Rafiq Əliyev:*** Bu, mənə tanış mövzudur. Bu suala bir neçə dəfə də cavab vermişəm. Bunun bir əsas səbəbi var. Bu da odur ki, bu gün Azərbaycanda elmə sosial sifariş yoxdur. Biliyə, bilikli adama ehtiyac yoxdur. Ümumi daxili məhsuldan ayrılan ayırmalar elmə xidmət etmir. Elm və iqtisadiyyat arasında bir proporsiya var. Əgər elmə ümumi gəlirdən 2%-dən az vəsait ayrılırsa, o elm o iqtisadiyyata təsir göstərə bilmir. Bizdə isə elmə 0,2% ayrılırdı. Azərbaycanda iqtisad elmi aşağı səviyyədədir. Bizdə sadəcə diskriptiv statistika var. Neçə oğlan, neçə qız uşağının doğulduğunu, urbanizasiyanı müzakirə etməkdən savayı bir şey bilmirlər. Hələ neçə il bundan əvvəl mən üzümü məmurlara tutub deyirdim ki, iqtisadçıları yığıb bunu müzakirə edin. Nə isə istehsal etmək, nə ilə pul qazanmaq barədə düşünməliyik. Elmdə də bu prinsipə əməl etmək lazımdır. Əgər elmə sosial sifariş olarsa, onda pul qazanmaq istəyənlər başqa istiqamətə yönələcək, elmlə məşğul olmaq istəyənlər elmə… O ki qaldı bizim

vəzifə sahiblərinin – millət vəkillərinin, iş adamlarının elmlər namizədi, elmlər doktoru adını almasına – mən buna bir izafi hiss kimi baxıram. Elə adamlar var ki, villalarının sayını bilmir. Sürücüsüz getsə heç tapa da bilməz. O insanlar var-dövlətdən artıq doyublar. İndi onlara professor, akademik adı və bu adın hissi lazımdır. Sonra isə əxlaq məsələləri başlayır. Bakı Dövlət Universitetinin jurnalistika fakültəsində multi-mediadan xüsusi kurs aparıram. Məni həmin kursu aparmağa rəhmətlik Famil Mehdi və Şirməmməd Hüseynov dəvət eləmişdi. Qeyd edim ki, jurnalistika fakültəsinin tələbələri açıqfikirli və demokratik düşüncəli insanlardır. Bizim onlarla həyatımızın, cəmiyyətimizin problemlərinə həsr olunmuş açıq söhbətlərimiz olur. Fakültənin tələbə qızlarından biri dərs zamanı belə bir fikir söylədi ki, Dubaydakı qadınlarımız daha şərəflidir, nəinki tələbəsindən pul alan professor. Çünkü bədən onunkudur. Əgər əxlaq imkan verirsə istədiyi kimi manipulyasiya edə bilər. Əgər əxlaqsızlıq edirsə bu, fərdidir, onun öz işidir. Amma tələbəsindən pul alan professor millətini, onun gələcəyini satır. Əxlaqsızlıq da elə bundan sonra başlayır.

***– Əjdər Ağayev:*** *Siz Azərbaycanı dünyada təmsil edən alimlərimizdənsiniz. Və dünyanın çox böyük önəm verdiyi Azərbaycanlı alim Lütfi Zadənin varisisiniz. Mən istərdim ki, alimlərimizin dünyaya çıxış problemlərindən və bu sahədəki mövcud vəziyyətdən bəhs edəsiniz. Bu gün dünya alimləri dünya elminə nə ilə xidmət edirlər. Dünya elmi Azərbaycan elminə nə verir, Azərbaycan elmi dünya elminə nə bəxş edir. Ümumiyyətlə, Sizin beynəlxalq elm aləmində iştirakınız Azərbaycana nə kimi əhəmiyyət gətirir?*

***– Rafiq Əliyev:*** Əvvələn, dünya elminə çıxmaq asan deyil. AMEA-nın iclaslarının birində akademik Ziya Bünyadov üzünü alimlərə tutub dedi ki, özünüzə dünya şöhrətli alim deyirsiniz. Amma Sizi Xırdalandan o tərəfə heç kim tanımır. Onun bu sözündə böyük həqiqət var idi. Dünya elminə çıxmaq üçün gərək alim öz fikrini yüksək səviyyədə ingilis dilində ifadə edə bilə.

İkincisi, gərək sənin elə əsərlərin olsun ki, dünya çapında indeksli jurnallarda dərc olunsun. Dünya gərək səni öncə bu jurnallardan tanısın. Yoxsa hansısa konfransı, seminarı aparmağa təşəbbüs göstərsən sənə gülərlər.

Üçüncüsü, imzan tanındıqdan sonra nəşriyyatlar, jurnallar səndən əl çəkməyəcək. Dalbadal sifarişlər verəcək, konfranslara dəvət edəcəklər. Dünya elmində gərək elə bir yerə qalxasan ki, söz deyə biləsən.

Mənim dünya üzrə üç konfransım işləyir. Bu konfranslar dünyanın hər yerində keçirilir. Almaniyada, İtaliyada, Portuqaliyada, Təbrizdə, Kiprdə, Türkiyədə və digər ölkələrdə təşkil olunur. Dünyanın aparıcı alimlərinin iştirakını təmin etmək üçün gərək konfransda maraqlı mövzu qoyasan. Böyük alimlər də ora nə isə öyrənməyə, yeniliklərdən xəbərdar olmağa, fikir mübadiləsi aparmağa gəlirlər. Birinci elmi konfransımı Təbrizdə keçirdim. Doğrudur, xeyli maneələrlə qarşılaşdım. İran hökuməti Tehranda keçirməyi təklif edirdi. Amma Təbrizdə keçirilməsinə nail oldum.

Mənim kitablarımın bir neçəsinə Lütfi Zadə ön söz yazıb. Həmin kitabların birində mən onun bəzi fikirlərinə tənqidi münasibət bildirmişəm. Zadə bizim ağsaqqalımızdır. Dünya alimləri belə hala soyuqqanlı yanaşırlar. Adi hal kimi

qəbul edirlər. Deyilən tənqidi qəbul edir və ona yüksək mədəni səviyyədə öz cavablarnı verirlər. Bizdə belə bir şey olanda elə bilirlər ki, ata-baba düşmənçiliyi var. Ola bilər ki, bizim hansısa alimimiz xaricdə konfransda iştirak edib və məruzəsi dinlənilib. Amma dünya miqyasına çıxan alimlərimiz azdır.

– ***Əjdər Ağayev:*** *İstərdim Lütfi Zadə ilə əlaqələrinizdən bəhs edəsiniz…*

– ***Rafiq Əliyev:*** Lütfi Zadə ilə tanışlığımızın tarixi 1964-cü ildən, mən Moskvada SSRİ Elmlər Akademiyasının İdarəetmə Problemləri İnstitutunun aspiranturada oxuyandan başlayır. Bu institut dünyada çox məşhur idi. Ora həm öyrənməyə, həm də öyrətməyə gəlirdilər. 1964-cü ildə Lütfi Zadə də ora gəlmişdi. İnstitutda çalışan dünya şöhrətli yəhudi alim, Lenin mükafatı laureatı Çıpkin Lütfi Zadə ilə məni tanış etdi. Dedi ki, Zadə sənin həmyerlindir. Onunla bir müddətdən sonra Amerikada konfransda görüşdük. Həyat yoldaşı ilə birlikdə gəlmişdi. O, məni restorana dəvət etdi. Birlikdə yemək yedik. Konfransdakı məruzəm onun xoşuna gəlmişdi. O, mənə təklif etdi ki, gəl bir yerdə elmi işlər aparaq. Təbii ki, razılaşdım. O vaxtdan biz bir yerdə xeyli iş görmüşük. Bizim birlikdə işlədiyimiz son nəzəriyyə psixologiya baxımdan da maraqlıdır. Nəzəriyyə nədən ibarətdir? Bu gün dünya iqtisad elmi böhrandadır. Bunun bircə səbəbi var. Bu gün dünyanın bütün istehsalçılarını düşündürən yalnız bir məsələ var: maksimum gəlir əldə etmək. İstehlakçı isə düşünür ki, mənim tələbim maksimum yerinə yetirilsin. İnsanın xarakterində eqoizm də var, alturizm də… Mənim vicdanım qəbul eləməz ki, mən kabab yeyim, onun iyi qonşuya getsin, onun uşaqları o iyi hiss edib narahat olsunlar.

İkincisi, biz heç bir zaman hər hansısa bir məsələ ilə bağlı konkret rəqəmlərlə düşünmürük. Məsələn, deyə bilmərik ki, iki ildən sonra Amerikanın iqtisadiyyatı 20% yüksələcək. Konkret rəqəm reallığa əsaslanmayacaq. Amma desək ki, 20-30% civarında olacaq. Bu, inandırıcı görünə bilər. Amma bəzi, hətta Nobel mükafatçısı olan alimlər birinci variantda versiyalar irəli sürürdülər. Yalnız bircə nəfər 2002-ci ildə Nobel mükafatı almış Daniel Kahnenman dedi ki, iqtisadiyyatda çox şey qərar qəbul edən insanların risqindən asılıdır. O, qeyd edir ki, risqli, neytral və risqi sevməyən insanlar var. Kahnenman iqtisadiyyatda risqi nəzərə almağın vacibliyi funksiyasını irəli sürdü. O, psixoloqdur. İrəli sürdüyü ideya da yaxşı ideyadır. Qərar qəbul etmək üçün insanın ayrı xüsusiyyətləri də var. Biz isə qeyri-səlis məntiq nəzəriyyyəsinə əsasən deyirik ki, elə şeylər var ki, onu ölçmək mümkün deyil. Məsələn, insanın ziyalılığını necə ölçüb, konkret rəqəm söyləmək olar. Bizim axı belə bir cihazımız yoxdur. Bu barədə irəli sürdüyümüz informasiya dəqiq olmaz. Amma həyat, gündəlik qərarlar hamısı bugünkü informasiyaya əsaslanır. Qərar qəbul edilməsində dürüstlük mühüm rol oynayır. Dürüstlüyü də heç bir cihazla ölçmək mümkün deyil. Dünya alimləri belə bir iqtisadi eksperiment aparıblar. Ölkələri insanların dürüstlüyünə və adam başına düşən ümumi daxili məhsulun səviyyəsinə görə klassifikasiya ediblər. Hər iki göstəriciyə görə, bir sıra Şərq ölkələri, o cümlədən Azərbaycan aşağı səviyyədədir. Bu, eksperimentin nəticəsidir. Digər tərəfdən bizim cəmiyyətimizin necəliyini görmək üçün heç eksperiment aparmağa da ehtiyac yox-

dur. Hər şey göz önündədir. Yazılarımın birində göstərirəm ki, ən böyük dərdim Qarabağ dərdidir. Amma indi görürəm ki, ondan da böyük dərd var imiş: təhsil və səhiyyə… Niyə biz barmağımıza batan bir tikanı çıxarmaq üçün İrana, Türkiyəyə qaçmalıyıq. Ona görə ki, müalicə edənin dürüstlüyünə inam yoxdur. Körpü də lazımdır. Amma ən böyük körpü elm, təhsil körpüsüdür. Bu gün dünyanın yeni, mükəmməl iqtisadi nəzəriyyəyə ehtiyacı var. Elm sərhəd tanımır. O bəşəriyyət üçündür. Amma gərək vətəndaş olasan, Azərbaycanlı olasan.

**Vətəndaşlıqdan daha çox danışmaq yox, vətəndaş mövqeyində dayanmağı bacarmaq lazımdır**

*– **Əjdər Ağayev:** Tamamilə doğrudur. Vətəndaşlıqdan daha çox danışmaq yox, vətəndaşlıq mövqeyində dayanmağı bacarmaq lazımdır. O hissi məqam düşən kimi oyatmaq və aşılamaq gərəkdir. İnsan ayaq açdığı torpağın üzərində böyüyüb ucalır. O topağın qədrini bilmək vətəndaşlıq borcu sayılır. Rafiq Əliyev dünyanın müxtəlif konfrans salonlarında məruzə edir, məşhur alimlərlə bir yerdə olur. Yəni o, dünyaya çıxmış bir insandır. Amma ürəyində həmişə Azərbaycan məhəbbəti yaşadır, insanlıq duyğuları yaşadır, Vətənini tanıdır. Azərbaycan ziyalıları da onu yüksək səviyyədə qiymətləndirir. Siz Təbrizin adını çəkdiniz. İlk konfransınızı Təbrizdə keçirdiyinizi dediniz. Əlbəttə bu mövzuda uzun-uzadı danışmaqdansa, bir-iki fakt o hissi bəyan eləyir.*

**Vətəni nə mənsəbə, nə də şöhrətə satmaq olmaz**

– ***Rafiq Əliyev:*** Almaniyanın «Şpigel» jurnalı sovet dönəmində məndən müsahibə almışdı. Müxbirin verdiyi suallardan biri də belə idi ki, Siz özünüzü Azərbaycan, yoxsa sovet vətəndaşı hesab edirsiniz? Mən cavab verdim ki, əlbəttə Azərbaycan vətəndaşı… Üstündən bir neçə gün keçəndən sonar partiya rəhbərlərindən biri mənə dedi ki, sən müsahibəndə belə bir ifadə işlətmisənmi? Bəli – dedim. Çox yaxşı eləmisən – deyə cavab verdi. Vətəni nə mənsəbə, nə şöhrətə satmaq olmaz. Çünkü Vətənin bizim heç birimizə borcu yoxdur, bizim ona borcumuz var. Kim olursan ol, birinci növbədə vətəndaş olmalısan, vətəni, onun insanlarının qeyrətini çəkməlisən. Yazılarımın birində qeyd edirəm ki, buna necə dözəsən ki, birinin villaları olsun, o birisi isə ilan vuran zirzəmidə yaşasın. Vətəndaş vicdanı olan insan heç vaxt belə bir şeyə yol verməz.

*– **Əjdər Ağayev:** Sizin Azərbaycanda və dünyada öz elm sahənizdə olan adamlarla əlaqələriniz bəllidir. Amma digər elm sahəsinin adamları, ziyalılarla da geniş ünsiyyətiniz var. Bu, münasibətlər Sizə nə verir?*

– ***Rafiq Əliyev:*** Mənim «Azərbaycan ziyalılarının çoxu sındı» adlı bir yazım dərc olunmuşdu. Təmasda olduğum insanlar, Əjdər müəllim, Sizin kimi sınmayan adamlardır.

Alçala-alçala yüksələn adamlarla mən ünsiyyət saxlamıram. Mən onlarla dostluq edə bilmirəm. Mənim dünya miqyasında da çox yaxşı dostlarım var. Həmin münasibətlər, bizim təhsilimizin inkişafına də təkan verir. 10-12 il əvvəl mənim bir dostum soruşdu ki, Azərbaycanın Kanadadakı səfirini tanıyırsanmı? Ondan bir xahiş etmək lazımdır. Tanıyıram dedim. Amma xahişi yerinə

yetirməyə imkanı çatacağını deyə bilmərəm. Dostum dedi ki, kürəkənim İngiltərədə slavyan dilləri üzrə bakalavr dərəcəsini başa vurub. İndi Kanadada Toronto Universitetində master dərəcəsi almalıdır. Amma pulu çatmır. Ona güzəştə getmək olarmı? Toronto universitetinin məşhur professorlarından birinə telefon açdım. Vəziyyəti ona danışdım. Kömək edib-edə bilməyəcəyini soruşdum. Dedi ki, sabah Sizə nəticəsini deyərəm. Səhəri gün həmin professordan mənim ünvanıma faks gəldi. Yazılmışdı ki, tələbə gəlsin, onu istədiyi yerə pulsuz qəbul edirlər. Bu günə kimi Alaminiyanın Zigen Universitetinə 37 tələbə göndərmişəm. Hər dəfə Almaniyaya gedəndə onların hamısını bir yerə yığıb problemləri, qayğıları ilə maraqlanıram. Amerikaya azı 30-40 tələbə, 30-35 müəllim göndərmişəm. Bunlar hamısı münasibətlərin hesabınadır. Tanımadığım adamlar üçün xahiş edirəm. 20-25 gün bundan əvvəl tanımadığım bir qadın uşağı ilə içəri daxil oldu. Dedi ki, oğlum alman dilini bilir, sertifikatı da var. Biz istəyirik ki, Almaniyada oxusun. Dedim ki, bu yaxınlarda bir tələbəmiz Almaniyaya gedəcək. Get onunla tanış ol. O, nə edibsə sən də et. Sonra eşitdim ki, həmin uşaq qəbul olub. Çox sevindim. Qəbul olandan sonra heç üzlərini də görməmişəm. Gəlib "sağ ol" da deməyiblər. Heç gözləmirəm də… "Sağ ol" üçün etmirəm. Azərbaycanlı balalarıdır, qoy gedib oxusunlar. Kiprə bu yaxınlarda zəng edib bir gənci universitetə qəbul elətdirdim. Amma gənc tam hazırlıqlı olmalıdır. Əks halda oxuya da bilməyəcək, getməyinin də mənası olmayacaq. Mən burada hansı rektora zəng edib deyə bilərəm ki, bu uşağı qəbul edin, istedadlıdır? Dünyanın istənilən ölkəsində bizim elmin nümayəndələri çox mehribandırlar. Çünki başçımız Lütfi Zadədir. Bizim aramızda hər şey təmənnasız və təmizdir.

– ***Əjdər Ağayev:*** *Bu gün yetişən gəncliyi necə görmək istərdiniz?*

– ***Rafiq Əliyev:*** 2009-cu ildə Berkeley universitetində seminarım var idi. Bu universitet dünyanın ən böyük universitetlərindən biridir. Dünya çapında ikinci yerdə dayanır. Universitetin çoxlu korpusları, klinikası tələbələrin ixtiyarındadır. Seminara hazırlaşarkən tanımadığım bir cavan oğlan yaxınlaşıb Azərbaycan dilində salam verdi. Dedi ki, adım Aslandır, məni Zigen universitetinə Siz göndərmisiniz. Xatırladım. Dedim ki, Tofiq Köçərlinin nəvəsisən? Bəli, dedi. Deməli bu cavan oğlan Zigen universitetini bitirdikdən sonra, Berkeley universitetində magistraturanı başa vurub. Demək istəyirəm ki, bizim belə istedadlı, ümidverici gənclərimiz var və çoxdur.

Əgər gənclikdən söhbət gedirsə, mənim ən böyük ümidim xaricdə təhsil alan gənclərdir. Onlar Azərbaycanı inkişaf etdirəcəklər. Azərbaycanda da belə istedadlı, müstəqil düşüncəyə malik olan, daxilində qul psixologiyası olmayan gənclər var. Ümumiyyətlə, mən gənclərimizi belə görmək istəyirəm. Əminəm ki, belə gənclərimizin sayı tezliklə çoxalacaq və Azərbaycan onların sayəsində tam demokratik bir dövlətə çevriləcək.

Elmin tarixi həqiqətləri var. Onun üçün zaman böyük önəm daşıyır.

– ***Əjdər Ağayev:*** *Lütfi Zadə Sizi elmdə varisi elan edib. Bu sizin üzərinizə hansı elmi və mənəvi cavabdehliyi qoyur?*

– ***Rafiq Əliyev:*** Biz Lütfi Zadə ilə birlikdə daha çox elmi axratışlar aparmışıq. Onun mənə olan bu münasibəti mənim elmi dünyagörüşümə olan münasibətindən irəli gəlir. O, öz dəsti-xətti ilə Nobel mükafatı komitəsinə məktub ünvanlayaraq məni bu mükafata layiq bildiyini onların diqqətinə çatdırıb. O, bunu Azərbaycanlı olduğumuz üçün yazmayıb. Mənə bir elm adamı kimi inandığı və mənim də dünyada qəbul olunduğum üçün yazıb. Bir dəfə bir jurnalist mənə sual verdi ki, klassiklərimizi nə üçün tənqid edirsiniz? Cavab verdim ki, biz nə qazanmışıqsa onların çiyinlərində qazanmışıq. Amma indi elə bir dövr yetişib ki, klassiklərimizdən hansınınsa irəli sürdüyü bir fikrin zamanı keçib. İndiki zaman üçün davranış, insan üzərində qurulmuş iqtisadiyyat aktualdır. 100 il bundan əvvəlin iqtisadiyyat haqqında düşüncələri bu gün üçün axı real görünmür. Dünyada qəbul olunmuş «Dayanıqlıq» nəzəriyyəsi var. Biz Lütfi Zadə ilə birlikdə çap edib göstərdik ki, bu nəzəriyyə işləmir. Yalnız nadir hallarda işləyir. Bu o demək deyil ki, o pis nəzəriyyədir. Xeyr, vaxtında o da aktual olub. Elmin tarixi həqiqətləri var. Onun üçün zaman böyük önəm daşıyır.

Zadə mənim üzərimdə çox böyük bir məsuliyyət qoyub. Hesab edirəm ki, mən onun etimadını doğruldacağam. Bizim hələ qarşıda onunla görüləcək çox işlərimiz var.

– ***Əjdər Ağayev:*** *Maraqlı söhbətə görə Sizə minnətdarlığımızı bildiririk.*

**Söhbəti qələmə aldı: Böyükağa Mikayıllı**
14.10.2015

## BƏXTİYAR VAHABZADƏ YARADICILIĞINDA QEYRİ-SƏLİS MƏNTİQ NƏZƏRİYYƏSİ

Dünya şöhrətli alimimiz Rafiq Əliyev dahi şairimiz Bəxtiyar Vahabzadə yaradıcılığının vurğunu kimi şairin bütün lirikasına və dramaturgiyasına bələd olan və yüksək dəyərləndirən ziyalılarımızdandır. Bu günlərdə Rafiq müəllimlə telefon söhbətimizdə o, çox maraqlı bir məqama toxundu. Qeyd etdi ki, B.Vahabzadə hələ 1980-ci illərdə yazdığı bir çox şeirlərində indi müəllifi dünya şöhrətli alim Lütfi Zadə olan qeyri-səlis məntiq nəzəriyyəsinin sirlərinə şeir dili ilə fəlsəfi mahiyyət vermişdir. Rafiq müəllimlə söhbətimizdə də məhz L.Zadənin elmi məntiqi ilə B.Vahabzadənin poeziya fəlsəfəsinin ahəngdarlığına işıq salmağa çalışdıq.

*– Rafiq müəllim, poeziyanın, musiqinin gözəl bilicisi olan dahi alimimiz Xudu Məmmədov elm ilə sənət arasında bir körpü yaratmışdı. O, deyirdi ki, "Elm və sənət insan mədəniyyətini yüksəklərə qaldıran qoşa qanaddır. Uçuş yüksəlişi hər iki qanad eyni qüvvədə olduğu zaman mümkündür". Siz bir çox yazılarınızda, çıxışlarınızda, "Alim" filmindəki fikirlərinizdə dahi Lütfi Zadə məntiqinin bir qanad, dahi Bəxtiyar Vahabzadə poetik fəlsəfəsinin o biri qanad olmasından danışmısınız. Bu məsələyə bir də qayıtmaq istərdik.*

– Bu körpünün özülündə xəlqilik dururdu. Mən L.Zadə məntiqi ilə Bəxtiyar fəlsəfəsinin uyarlığını tapanda Xudu Məmmədovun bu dahiyanə fikirlərinin nə qədər həmişəyaşar olduğunu bir daha aydın gördüm. Onun qeyd etdiyi kimi, elm, bilik sənətkara ağlın gözü ilə görünən aləmin üfüqlərini açır. Sənətin inkişafı isə dünya elminin tərəqqisini insanlığın xeyrinə yönəltmək üçündür. Elm – duyğu çalarlı fikir, sənət – fikir çalarlı duyğudur. Min illərlə qərarlaşmış elmi dünyagörüşün əksinə olaraq Lütfi Zadə öz nəzəriyyəsini əvvəlcə bir fərziyyə olaraq irəli sürmüş, sonra isə sübut etmişdir ki, təbiət və cəmiyyətdə baş verən mürəkkəb prosesləri, xüsusən də müxtəlif kataklizmləri Aristotelin binar məntiqinə əsaslanan klassik məntiq, riyaziyyat çərçivəsində öyrənmək mümkün deyil.

Konseptual əsaslarda bu kimi ciddi tədqiqatlar, təbii ki, elmdə, texnikada və hətta incəsənətdə də inqilabi dəyişikliklərə gətirib çıxardı. Qeyri-səlis çoxluqlar nəzəriyyəsi praktiki olaraq bütün təbiət elmlərinə, tibbə, ictimai elmlərə, sosiologiyaya, konfliktologiyaya "implantasiya" olundu. Praktiki elmi tədqiqatlarda qeyri-müəyyənliyin qeyri-səlis ölçüsünün daxil edilməsi təbiətdə, cəmiyyətdə, mikro və makro aləmdə baş verən proseslərə adekvat olan qeyri-müəyyənliyin nəzərə alınmasını mümkün etdi. Məhz buna görə də qeyri-səlis məntiq və qeyri-səlis çoxluqlar nəzəriyyəsi nəinki dialektik təsdiqini tapmış yeni elmi istiqamətin yaranmasına, həmçinin daha geniş mənada idrak nəzəriyyəsinin növbəti pilləsi olan yeni fəlsəfi dünyagörüşün əmələ gəlməsi və başa düşülməsinə səbəb oldu.

*– Rafiq müəllim, olarmı ki, bu kəsilməzlik fəlsəfəsinin mahiyyətini, belə demək mümkünsə, elmi-poeziya dilində açasınız.*

– Düşünürəm ki, real dünyamızda Tanrıdan başqa (O, mütləqdir) hər şeyin, hər kəsin şəriki var, dünyada hər bir rəng, hər bir səs, hər bir hadisə digərinə sərhədi kəsilmədən, ehmalca, qeyri-səlis sərhədlə keçir. Elmi baxımdan yanaşsaq, formal riyazi dil ilə desək, qeyri-səlis çoxluqlar üçün klassik riyaziyyatın 2 əsas qanunu ödənmir. Birinci, "ziddiyət" qanunu, ikinci, "üçüncünü istisna" qanunu. Bu, onunla əlaqədardır ki, klassik Aristotel məntiqində termlərin (məsələn, rənglərin, münasibətlərin, ovqatların) bir-birinə keçidi sərtdir, itidir, səlisdir (guya qırmızı ilə yaşıl arasında, dost və düşmən münasibətləri, sevinc və kədər arasında heç bir şey yoxdur, tükdən də nazik olan bir sərhəd var). Qeyri-səlis məntiqdə dediklərimiz termlər arasında uzun, mütəmadi bir keçid və kəsişmə var. Bax bu kəsilməz keçidin mövcudluğunu nəzərə ala bilmədiyinə görə də klassik məntiq real həyatı düzgün əks etdirə bilmir.

Bəxtiyar müəllim dünyanı çox vaxt olduğu kimi görə bilmədiyindən şikayət etdi, çünki bu müəmmalarla, qeyri-müəyyənliklərlə dolu dünyanı görmək, dərk etmək üçün yeni fəlsəfə, qeyri-səlisliyə söykənən fəlsəfə – Bəxtiyar Vahabzadə fəlsəfəsi lazım idi. Bu fəlsəfə prizmasından hörmətli şairimiz sevincdə qəmi görür, qəmdə sevinci, axı onlar real dünyamızda çulğaşıb.

Bəxtiyar müəllimin həmin şeirindəki "Arzu tənliyində, hiss tənliyində" həll klassik riyaziyyat, hesab, məntiq vasitəsilə mümkün deyil. Çünki qeyri-səlis tənliklərin həlli heç bir adi, bizim orta və ali məktəblərdə öyrəndiyimiz riyazi üsullarla mümkün deyil. Bunun üçün qeyri-səlis məntiq, sevincdə qəmi, qəmdə sevinci nəzərə ala bilən düstur lazımdır.

Bu gün bu mürəkkəb, dəyişkən dünyamızı qavramaq üçün dəyişmiş, həyat reallıqlarını daha dürüst ehtiva edən dilə (ya riyazi dil, ya da "qəliblənmiş" təbii dil) möhtacıq.

*Necə dönür bu dövran, necə dönür bu gərdiş,*
*Tazıların üstünə dovşanlar da gülərmiş,*
*Dünya bina olandan hər şey dəyişilərmiş,*
*Dəyişməsin neyləsin, axı dünya fırlanır.*

**("Axı dünya firlanır…")**

Həm Zadənin, həm Bəxtiyar Vahabzadənin sərkərdəyə çevrilən nəzəriyyə və poetik fəlsəfəsi, əsgər şücaəti göstərən düsturları və misraları bir tarix yaratdı. Bu məqamda Leonardo da Vinçinin "Nəzəriyyə sərkərdədir, təcrübə əsgər" deyimini xatırlamalı olursan. Dahi İtaliya rəssamı, alimi Leonardo da Vinçinin böyük uzaqgörənliklə söylədiyi bu fikrə tam əminlik və inam yaranır. Əgər belə olmasaydı, Bəxtiyarlar, Zadələr tarixin yaddaşında qala bilməzdilər. Çünki tarix hər adamı yox, yalnız öz əməlləri ilə tarix yaradanları yaşadır.

*– Rafiq müəllim, bəs necə olur ki, həmahəng fəlsəfi fikir və çalarlar bir tərəfdən riyazi simvollarla yazılmış düsturla, o biri tərəfdən isə təbii poetik dildə əks olunur?*

– Təbii dilin imkanları son dərəcə böyükdür. Riyaziyyat yaranan vaxt təbii dilin gücü çatsaydı fizika, iqtisadiyyat, sosial həyat, ümumiyyətlə, ya-

şadığımız dünya indiki ideallaşdırılmış düsturlarla yazılmazdı. Bizim elmi tədqiqatlarımızın bir qolu təbii dilin imkanlarını müasir texnologiyalar vasitəsilə daha da genişləndirməkdir. Burada linqivistika alimləri üçün böyük elmi perspektivlər var. Ümumiyyətlə, təbii dilin vasitəsilə biz istənilən informasiyanı təsvir edə bilərik. Riyazi linqivistikanın köməyi ilə avtomatik tərcümə, yaradıcılıq proseslərinin modelləşdirilməsi, o cümlədən nağılların, hekayələrin, melodiyaların düzənlənməsi və s. məsələləri həll edə bilərik. Hesablamanı, məntiqi nəticə çıxarmanı təbii dildə apara bilərik. Sadaladığımız problemlərin həllinin açarı yenə də qeyri-səlis məntiqdir. Niyə? İntellektual maşınlar dövrünə, yeni bir inqilabi sıçrayışa keçdikcə təbii dilin inkişafına, ağılı, hissi modelləşdirmək üçün "qəliblənmiş" təbii dilin formallaşmasına daha çox ehtiyac duyulacaq.

Qrammatik formalizm və sintaktik təhlil prosedurların tərtibatı məqsədilə son illərdə təbii dilin emalı vasitələri meydana gəlmişdir. Hesablama cəhətdən mümkün semantik yanaşmanın və adekvat semantik interfeys vasitəsilə qrammatik səviyyəyə zəruri bağlantının əldə edilməsi böyük əhəmiyyət kəsb edir. Semantik interpretasiya prosedurlarının formallaşması çox vacib bir elmi məsələdir ki, bu prosedurlar vasitəsilə, sintaktik strukturlar semantik təsvirlə əks olunur.

Semantik interpretasiya üçün metodologiyanın yaradılması təkcə nəzəriyyə baxımından deyil, həmçinin real həyat problemlərin müxtəlifliyi ilə üzləşən sistemlərin tərtibatı üçün yüksək praktiki əhəmiyyətə malikdir.

**Asif Mərzili**
17-19.02.2009

## NƏ DÜNƏN, NƏ BU GÜN ŞƏRQDƏ NOBEL ALMAQ ÜÇÜN MÜHİT OLMAYIB

Dünya şöhrətli alimimiz, professor Rafiq Əliyevlə söhbəti təqdim edirik:

*– Sizin İlahi ədalətə inandığınızı bilirəm və bu barədə xeyli söhbətlərimiz də olub. Elə isə həmin ilahi ədalətə söykənərək iddia etmək olarmı ki, bu torpağın sərvətindən – neftindən əldə edilən gəlirdən formalaşan Nobel mükafatı nə zamansa bu torpaqda doğulan Allah bəndəsinə də qismət olmalıdır?*

– Əvvəla, bir daha təkrarlamaq istərdim ki, ilahi ədalət var. Mən buna yüz-də-yüz inanıram, özü də qeyri-səlis məntiqlə yox, səlis məntiqlə. Amma bəzən də deyirlər ki, əgər belədirsə niyə nadanlar yuxarı başda, aqillərsə bəzən aşağı başda oturur. Tanrı öz ədalətinə görə bütün insanları faili-muxtar yaradıb. Allah gəlib hər adam, hər millət üçün ədalət yaradan deyil. Allah ədalət yolunu azanlara da deyir ki, mən səni bu yoldan saxlamıram, get, amma aqibətinin necə olacağı görünəcək. İnsan oğlu çox səbirsizdir və biz deyirik ki, ədalətsiz adamlara gərək elə bu saat nə isə olsun. Amma bu elə deyil. Siz onun aqibətini gözləyin. O ki, qaldı Nobel mükafatına, bunun üçün mühit lazımdır. Bütün Şərq dünyasında elm sahəsində cəmisi iki adam – pakistanlı Əbdüs Salam və Misirli Əhməd Nobel mükafatına layiq görülüb. Amma onların hər ikisinin elmi fəaliyyəti Qərblə bağlı olub. Əbdüs Salam da İngiltərədə işləyib, digər mükafatçı da Qərbdə yaşayıb işləyib. Yəni nə dünən, nə bu gün qos-qoca Şərq dünyasında Nobel Mükafatı almaq üçün mühit olmayıb. Səbəbi də İslam deyil. Əbdüs Salamın Nobel nitqində bir ifadəsi var: "Müsəlman dünyası ona görə bu vəziyyətdə deyil ki, İslama xidmət etdi, ona görə bu vəziyyətdədir ki, İslama xidmət etmədi". Bu baxımdan Qərblə çox sıx əlaqəsi olan, Qərb institutları ilə işləyən alimlər içərisində ola bilsin ki, kimsə çıxacaq. Mətbuatı izləyirəm, fizika sahəsində 3 yapon alimi Nobel mükafatı aldı və bizim sahədə olanların hamısı səslərini qaldırdılar ki, niyə iqtisadiyyat sahəsində Zadəyə və onunla işləyən adamlara verilmir. O qədər məktublar yazıldı ki. Bilirsiniz, bu elə bir təşkilatdır ki, ora heç kimi təqdim etmirlər, ekspertlər özləri seçirlər. Təsəvvür edin ki, bu il fizika sahəsində həmin mükafatı alanlar 90-cı illərdəki işlərinə görə qazanıblar. Yəni ekspertlər dönə-dönə öyrənirlər ki, bu ixtira və ya iş nə qədər tətbiq olunur. Yəni kimsə desin ki, tutaq ki, Yazıçılar Birliyi götürüb kimisə təqdim etdi, yaxud hansısa bir təşkilat təqdim etdi, belə bir şey yoxdur. Mən mətbuatda oxuyuram ki, filankəsi təqdim etmək lazımdır.

*– Azərbaycanda "Nobel Fondu" deyilən bir qurum var və bu qurum Allahşükür Paşazadənin adını gələn ilki mükafatlandırmaya təqdim etdiyi iddia olundu…*

– Axı orda elə bir şey yoxdur ki, kimsə kimisə təqdim etsin. Yəni bu mükafatın verilməsi üçün təqdimat deyilən bir prosedur yoxdur. Vaxtilə Sovetlər dönəmində mən SSRİ Dövlət Mükafatı alanda onun təqdimatı var idi. Nobel

mükafatının verilməsi isə tamam ayrı prosedurdu. Burada isə ancaq özləri seçirlər mükafatçıların kimliyini. Yəni bunların müxtəlif elm sahələri üzrə ekspertləri var, onlar müəyyənləşdirir ki, kim daha çox bu mükafata haqq edir. İlahi ədalət məsələsinə qayıdıram. Düşünürəm ki, ola bilər nə vaxtsa hansı ölkə daha çox demokratikləşsə, normal elmi və ictimai mühit yaransa, o zaman təbii ki, oradan da Nobel mükafatçısı çıxa bilər.

*– Amma Azərbaycanda belə bir ictimai rəy formalaşdırılıb ki, kiminsə namizədliyi verilməlidir, ardınca kimlərəsə ağız açılıb tapşırılmalıdır və s.*

– Nobel mükafatının əsasnaməsini hər biriniz internetdən götürüb oxuya bilərsiniz. Onların özlərinin ekspertləri seçirlər ki, kimə verilməsi doğru olar. Yəni min dənə işə baxaraq qərar verirlər. Tutaq ki, iqtisadiyyat sahəsində bir neçə iş götürüb analiz edirlər ki, bu tədqiqatların, ixtiraların hansı yetişib. Onların 7-9 ekspertləri var ki, onlar yüzlərlə, minlərlə işin içindən seçim edirlər.

*– Bir o qədər işi belə deyək ki, 5-10 adam necə oxuyub çatdıra bilir? Fiziki cəhətdən də bu mümkün deyil axı?*

– Elm bir az başqadır. Çox qəribədir, məsələn, mənimlə çox adamlar təsadüfən və ya rastlaşıb görüşürük. Ən azı onların 60 faizi sonradan yadımda qalmır. Dostlarıma da hər zaman bunu deyirəm ki, deyəsən yaşla bağlıdır. Onlar da deyir ki, yox, bu adi bir şeydir. Amma indi siz məndən soruşsanız ki, 1965-ci ildə filan jurnalda hansı məqalə çıxıb, inanın ki, əzbərdən hətta səhifəsini də deyərəm. Yəni, professional yaddaş bir az başqadır. Əsl elm adamlarında professional yaddaş çox güclüdür. Bu baxımdan həmin ekspertlərin də elə bir çətinliyi olmur.

*– Amma bu mükafat təsis edildiyi gündən bəri bu günədək onun verilməsində siyasi çalarların olduğu iddiaları səslənir.*

– Digər sahələri deyə bilmərəm, elmdə siyasiləşmə yoxdur. Amma ədəbiyyatda və sülhdə təbii ki, var. Məsələn, Obamaya niyə o mükafatı verdilər? Yəni ona mükafatı prezident seçiləndən bir neçə ay sonra verdilər. Bu mükafat onun fəaliyyətinə görə verilmədi. O boyda Amerika ictimaiyyəti başqa irqdən olan adamı ki, prezident səviyyəsinə qaldırdı, buna görə o mükafatı verdilər.

*– Yəni əslində o mükafatı Obamaya deyil, onu prezident edən Amerika xalqına verdilər.*

– Tamamilə doğrudur, o mükafatı Amerika xalqına verdilər. Yəni burada da bir siyasi çalar və bir başqa rəng var. Yaxud ədəbiyyat sahəsini götürək. Ədəbiyyat sahəsində Nobeli alanların əksəriyyəti dissidentlərdi. Məsələn, hamının tanıdığı Orxan Pamuk qatı dissident olmasa da, Türkiyədə qəbul olunmurdu. Digər nümunələr də gətirmək olar. Amma elm sahəsində mən düşünmürəm ki, belə bir şey olsun.

*– Erməni Nobel mükafatçısı da yoxdur, eləmi?*

– Ümumiyyətlə, Yaponiya və Uzaq Şərqi saymasaq, bütün Şərq aləmində yoxdur. Rusiyadan isə 10-15 nəfər var.

*– Tanıdığınız dünyaca məşhur erməni alimləri varmı?*

– Ambarsumyan vardı. Bilmirəm bu informasiya nə dərəcədə doğrudur, mətbuatdan oxuduğumu deyirəm. Məsələn, ona Nyutonun şinelini bağışlamışdılar. Yəni çox güclü bir astronom idi. Bundan başqa dünyada tanınan çox məşhur Əlixanyan qardaşları vardı.

*– Özünüz üçün müqayisə aparmısınızmı tutaq ki, Cənubi Qafqazın üç Respublikasını götürsək, həm fərd, həm də millət olaraq ən istedadlı toplumu hansılardı?*

– Mən bunu həmişə demişəm, Azərbaycan nəinki Zaqafqaziyada, bütün dünyada ancaq özünün fərdləriylə seçilib. Bu millətin fərdləri çox talantlıdır. Hətta bu gün də istər Amerikada olsun, istər İngiltərədə, Almaniyada və ya digər ölkələrdə, azərbaycanlı uşaqlar çox talantlıdır və çox yaxşı da oxuyurlar, başqalarından xeyli fərqlənirlər. Mən vaxtilə Sumqayıtda institutda rektor işləyəndə orada tez-tez tədbir keçirirdim, rəhmətlik Bəkir Nəbiyev, Mirəli Seyidov, Hüseyn Cavidin qızı Turan xanım da dəvət olunurdu, digər incəsənət xadimləri dəvət olunurdu. Bu tədbirlərin birində ədəbiyyatçı olmasam da, dedim ki, mən Hüseyn Cavidi qətiyyən Şekspirdən aşağı tutmuram. Ən azı bərabər tuturam. Əgər Hüseyn Cavidin də normal mühiti olsaydı, o da Şekspir kimi bütün dünyada məhşurlaşardı. Amma mənə qalsa, Hüseyn Caviddə orijinallıq daha çoxdur, nəinki Şekspirdə. Çünki Şekspirin bütün mövzuları o vaxtkı İtalyan intibahı dövründə olan hekayələrdən götürülüb. Amma Cavidin yaradıcılığına baxın, "Ana", "Peyğəmbər", "İblis" və digər əsərlərinin hamısı ümumbəşəridir və orijinallıq çoxdur. Yaxud Azərbaycanın simvolu olan Üzeyir bəyi götürək. Bütün dönəmlərdə hamı tərəfindən Üzeyir bəy haqlı olaraq Azərbaycan ziyalılığının simvolu hesab olunub. Musiqidə də inqilab edib, ədəbiyyatda da. Onun bənzərsiz felyetonlarını necə unutmaq olar? Təsəvvür edin ki, mən onun hesab kitabını gördüm. Yəni bu adam digər sahələrdə də inqilab etdiyi kimi talanta baxın ki, uşaqlar üçün dərslik də yazmağa vaxt tapıb. Yaxud Mirzə Cəlili, Əhməd Ağaoğlunu, Əli bəy Hüseynzadəni götürək. Yəni hamısını saymağa vaxt çatmaz. Deməyim odur ki, bu millətin talantlısı çoxdur. Amma çox əfsuslar olsun ki, bu günə kimi də bizdə milli təfəkkür çox zəifdir. Görünür, bu da dövlətçilik təcrübəmizin olmamasıyla bağlı olub. Baxmayaraq ki, biz bunun əksini sübut etməyə çalışırıq bəzən və deyirik ki, lap qədim dövrlərdən dövlətçilik ənənələrimiz olub. Amma görünür bu da mütəmadi dövlətçilik olmayıb.

*– Ortada əsrlərlə fasilələr o ənənələri də alt-üst edib...*

– Bəli, doğrudur. Etiraf etməliyik ki, dövlətçilik təcrübələri olmasa da, milli təfəkkür qonşularımızda daha çoxdur. Əyani olsun deyə internetdən götürülmüş bir informasiyanı diqqətinizə çatdırım və ümumi mənzərə oxucularınız üçün də aydın olsun. Burada bu və ya digər ölkədə elmin inkişafının bir göstəricisi də hər min təqdiqatçıya düşən, ancaq dünya miqyasında tanınan elmi məqalələrin sayıdır. Yəni bu məqalələr dünyanın qəbul etdiyi hansısa jurnalda çıxmalıdır. Burada keçmiş sovet respublikalarının statistikası öz əksini tapıb. Yəni bu ölkələrdə hər min təqdiqatçıya düşən elmi məqalələrin sayıdır. Baxın, birinci yerdə Rusiya 38, ikinci yerdə isə Ermənistan gəlir, 37 məqalə ilə. Azərbaycansa 9 nəfərlə Qırğızıstanla ən sonuncu yerləri bölüşdürür. Həmin

9 nəfərin də böyük əksəriyyəti xaricdə işləyən azərbaycanlılardır. Çünki onlar məqalələrini ikili yazırlar. Yəni həm faktiki işlədikləri universitetin adını yazırlar, həm də vaxtilə Azərbaycanda işlədiyi universitetin adını. Ola bilər ki, oxucularınızın xoşu gəlməsin bu statistikadan. Amma nə qədər acınacaqlı olsa da reallıq belədir. Bunda xalqın heç bir günahı yoxdur.

*– Üzeyir bəyi Azərbaycanın ziyalılıq etalonu adlandırdınız. Bunu hamı belə qəbul edir ki, Üzeyir bəy son 100 ildə ziyalılıq etalonu adını alıb. Bir neçə gün öncə görkəmli ziyalımız Firudin Cəlilov Moderator.az-a müsahibəsində son 50 ildə isə Xudu Məmmədovun millətin ziyalılıq etalonu olduğunu iddia etdi. Onun iddiasını bölüşürsünüzmü?*

– Tam razıyam. Qohumum, dostum olduğu üçün demirəm, Xudu Məmmədov Xudanın bir möcüzəsi idi. Bilirsiniz, bu qədər saf, bu qədər intellektual, bu qədər xalqa-torpağa bağlı, bu qədər cəsarətli, heç bir şeydən, hətta ölümün özündən belə qorxmayan adam tapmaq çətindir. O zəmanəmizin çox nadir şəxsiyyətlərindən biridir. Bir də Xudu təmasda çox rahat idi. Ziyalılığın ən birinci cəhəti mən bunu hesab edirəm. Ziyalının ən dominant tərəfi odur ki, təmasda rahat olsun. Ziyalı üçün bu çox vacib şeydir. Yəni gərək ziyalıda tolerantlılıq, dözümlülük olsun. Mən Xudu müəllimi çöxölçülü bir zirvə hesab edirəm. Bir ölçü insanlıq, bir ölçü elm, bir ölçü sənətdir. Onun "Qoşa qanad" kitabını oxumayan az adam tapılar. O biri tərəfdən ziyalılıq, Vətən-torpaq sevgisi də bir ölçüdür. O ölümdən qorxan adam deyildi, əksinə, ölümün gözünün içinə çəkinmədən baxmağı bacaran adam idi. Hədsiz dərəcədə cəsarətli olsa da çılğın da adam deyildi. Bir daha təkrar edirəm ki, siz demişkən, son 50 ildə mən Xudu müəllimi həmişə millətin bir nömrəli ziyalısı və özüm üçün örnək saymışam.

*– Elmi fəaliyyətiniz ortada və son bir ildə yazdığınız 5 mükəmməl kitab suala yer qoymur. Bəs pedaqoji fəaliyyətinizdə nə yenilik var? Neft Akademiyasında dərs deyirsiniz yenə?*

– Mən Neft Akademiyasının strukturunda dərs demirəm. 1998-ci ildə ABŞ Dövlət Departamentinin qərarı ilə yaradılmış idarəetmə üzrə Amerika–Azərbaycan proqramı var, o proqramda dərs deyirəm. İngilisdilli proqramdır. Proqram haqqında da onu deyim ki, mən bilən o proqram haqqında çox adamın informasiyası var, burada etik standart çox yüksəkdir. Nə bir tapşırıq, nə bir tanışlıq, nə Allah eləməmiş, rüşvət kimi şeylər ola bilməz. Bizim 350-400-ə yaxın məzunumuz dünyanın müxtəlif ölkələrində – Amerika, Kanada, Almaniya universitetlərində çalışırlar.

*– Neft Akademiyasının məzunlarıdır onlar?*

– Yox, dünyanın müxtəlif ölkələrindən, o cümlədən, Azərbaycandakı müxtəlif universitetlərdən məzunlardır.

*– İçərilərində nə qədər azərbaycanlı var?*

– Çox şükür ki, 90-95 faizi azərbaycanlılardı.

*– Deməli, gələcəyimiz etibarlı əllərdə ola bilər…*

– Onların bir çoxu xaricdəki nüfuzlu elm mərkəzlərində və universitetlərdə işləyirlər. Onlarla daim əlaqə saxlayırıq. Onların içərisindən o qədər tutaq ki, BP və digər nüfuzlu şirkətlərdə yüksək postlarda, hətta şirkət prezidenti kür-

süsündə çalışanlar var ki. Yəni çox yaxşı inkişaf etmiş məzunlarımız var. Mən həmin proqramda dərs deyirəm. Eyni zamanda dünyanın başqa universitetlərində, məsələn, Kiprdə mənim çoxlu doktor tələbələrim var. Orada magistrlər üçün dərs demirəm, ancaq doktorlar üçün məruzələrim, həm də dissertasiya rəhbərliyim olur. O cümlədən, Amerikada, Almaniyada da dissertasiyalara rəhbərlik edirəm. Yəni pedaqoji fəaliyyətim də çox sıxdır. Bunlardan ən öncülü də vallah adam deməyə utanır, mənim kitablarımın bir neçəsi 5 qitədə dünyanın nüfuzlu universitetlərində dərslikdir. Hesab edirəm ki, mühazirə deməkdən daha önəmlisi bu kitabların dərslik kimi universitetlərdə tədris olunmasıdır.

*– Rafiq müəllim, bu sualı verməsək, oxucularımız bir yana, həmkarlarımız bizi qınayar ki, axı bir insan fiziki olaraq bu qədər işləri necə çatdırır? Yəni Siz dincəlmək bir yana, yatmırsınız, yaxud yemək yemirsiniz?*

– Mən heç vaxt gecə saat 2-3-dən tez yatmıram. Bütün ömrüm boyu da belə adət etmişəm. Mən heç vaxt şənbə-bazar nə olan şeydi, onu bilmirəm. Hərdən bir sizlərlə vaxt tapıb bir neçə saatlıq istirahət istisna olmaqla bütün ömrüm boyu yazı-pozuyla məşğul olmuşam. Bir dəfə Almaniyada – Visbadendə bir konfransda idik, Lütfi Zadədən soruşdum ki, yayda istirahətə hara gedirsiniz? Məndən soruşdu ki, hara? Dedim məzuniyyətə. Dedi o nədir? Dedim yəni, gedib bir ay hardasa istirahət etmək. Dedi mən ömrü boyu istirahətin nə olduğunu bilməmişəm. Dedi bax bu konfranslar, elmi araşdırmalar elə mənim istirahətimdir. İndi ola bilsin, onun və başqa təsirlərin nəticəsidir, mən də vallah, istirahətin nə olduğun görmədim. Tutaq ki, hansısa ölkəyə ezamiyyətə gedirəm, yüküm 20 kilodursa onun 15 kilosu hökmən yazı-pozularım, kitablarım, kompüterimdi.

*– Heç Lütfi Zadə sizə deməyib ki, Azərbaycandan yığış gəl Amerikada yaşa? Bəlkə bir sınayaydınız, bəlkə yaşaya bilərdiniz?*

– Bu sualı 18 il bundan qabaq mənə veriblər. O vaxt "Mir" telekanalı məndən bir müsahibə götürürdü, elə sizin kimi elmdən-filandan suallar verirdi, birdən qayıtdı ki, niyə getmirsiniz Amerikaya, axı Siz Corciya Dövlət Universitetinin seçilmiş professorusunuz? Onda cavab verdim ki, mən Qarabağda doğulmuşam, əgər o işğalda olmasaydı, bəlkə də bu barədə fikirləşərdim. Amma indi getsəm, özümü fərari sayaram, ona görə də fərarilik etmək istəmirəm. Nə qədər ki, torpağım, Vətənim, doğulduğum komam əsarətdədir, nə qədər ki, Xudu Məmmədovun, Famil Mehdinin, Fred Asifin, Şahmar Əkbərzadənin ruhu o torpaqlardan nigarandır, mən həmin torpaqlardan uzaqda yaşaya bilmərəm.

*– Bu qədər vaxt qıtlığında "Qurani-Kərim"i də şübhəsiz ki, bir neçə dəfə oxumağa vaxt tapmısınız. Belə iddialar var ki, bütün elmlərin açarı ordadır. Siz orda qeyri-səlis məntiq nəzəriyyəsinin hansı işarələrini, eyhamlarını görə bildiniz?*

– Təbii ki, oxumuşam. Əvvəllər rusca oxumuşdum. Sonra isə bir neçə Azərbaycan variantını oxumuşam. Mənim bu barədə bir yazım vardı və sizin saytınızda da getmişdi. Çox hörmət etdiyim Oqtay Qorçu xahiş etdi məndən belə bir mövzuda yazım. Çətin bir mövzu idi – qeyri-səlis məntiq və din. İnanırsınız, düz 3 ay işlədim o mövzunun üstündə. Çünki din elə həssas mövzudur ki, orda

qələt etmək, səhv buraxmaq olmaz. Təsəvvür edin ki, getdim bir də "Quran"ı, "Tövrat"ı, "İncil"i oxudum, digər dini ədəbiyyatları gözdən keçirdim ki, səhv olmasın. Mən həmin yazıda Qurani-Kərimlə qeyri-səlis məntiqin əlaqələrini yazmışdım. Yazının adı belə idi – "Yeni sivilizasiyaya doğru və ya qeyri-səlis məntiq və din". Yaxın dostum Ramiz Rövşən həmişə o misalı çəkir ki, Rafiq müəllim deyir Məşədi İbad əsl müsəlmandır. Yəni bununla nəyi demək istəyirəm. Bir var müsəlman, bir də var əsl müsəlman. Bax bu, qeyri-səlis məntiqdir. Müsəlmanlar çoxdur, amma onu fərqləndirən, onu şiddətləndirən, interpretasiya etmək ancaq qeyri-səlis məntiq vasitəsilə mümkündür. Mən o məqaləni hazırlayanda oxudum ki, "Tövrat"ın 5 min dənə təfsiri var. Yəni çox adam deyir ki, "Qurani-Kərim" doğmadır. Yox, o doğma deyil, onun təfsirinə baxmaq lazımdır. Baxır onu kim təfsir edir. "Quran"da tolerantlıq çoxdur. Yəni "Quran"ın hikmətini adi məntiqlə yazmaq mümkün deyil. Məsələn, Aristotel nə deyirdi? Əfsuslar ki, bu gün bizim cəmiyyətimiz də elə o məntiqlə işləyir. Amma 30-40 ildən sonra yeni sivilizasiya qeyri-səlis məntiqlə düşünən insanlar sivilizasiyası olacaq. Amma Aristotel məntiqində ya dostsan, ya düşmən yanaşması hakimdir. Aristotel məntiqi deyirdi ki, Məşədi İbad ya müsəlmandır, ya da müsəlman deyil. Amma qeyri-səlis məntiq deyir ki, Məşədi İbad adi müsəlmandan da bir az yuxarıdır, əsl müsəlmandır. Yaxud "Qurani-Kərim"in hədislərindən də bu barədə çox nümunələr gətirmək olur. Yenə deyirəm, baxır onu kim təfsir edir. Yəni orda yüzdə-yüz ki, doğma bu cür olmalıdır, bu belə deyil. Ona görə də mən hesab edirəm ki, "Qurani-Kərim" gələcək sivilizasiyanın ən əsas əxlaq və din sistemi olacaq.

*– Səhv etmirəmsə, Əbdüs Salamın belə bir fikri var ki, Şərqə getdim müsəlman gördüm, İslam görmədim, Qərbə getdim müsəlman görmədim, İslam gördüm. Siz az qala bütün Şərqi və Qərbi dolaşmış adamsınız. Bəs Siz müsəlmanı və İslamı daha çox harada gördünüz? Doğrudanmı bayaq Məşədi İbadın obrazını ifadə etdiyimiz kimi əsl müsəlmanı Qərbdə gördünüz?*

– Nə qədər ağır da olsa, mən də belə hesab edirəm. Təxminən bir ay bundan qabaq mən bir tədqiqat oxudum, özü də bu hansısa qəzet məqaləsi deyildi, alimlərin apardığı tədqiqat idi ki, dünyada ən çox İslam qanunları hansı ölkələrdədi. 20 ölkənin adın çəkmişdilər. Amma əfsuslar olsun ki, onların içərisində bir dənə də müsəlman ölkəsinin adı yox idi. Orada Finlandiya, İsveçrə kimi ölkələrin adları var idi. Amma birinci yerdə bilirsiniz hansı ölkə idi? Yeni Zellandiya. Yəni İslamın ən çox tədqiq tapdığı, islami dəyərlərin cəmiyyət həyatına ən çox tətbiq olunduğu yer bu ölkədir. Biz çox vaxt ümumbəşəri dəyərlərdən danışırıq. Mən həmişə yazıram ki, mentalım Qərbdir, amma əxlaqım Şərqdir. Ümumbəşəri dəyərləri mən həmişə milli dəyərlərdən də üstün tuturam. Yəni biz ümumbəşəri dəyərlərlə yaşayırıq. İfrat millətçilik qoymaz millət və dövlət inkişaf etsin. Bu baxımdan da "Qurani-Kərim"də olan dəyərləri ona görə götürürlər. "Qurani-Kərim"də ümumbəşəri dəyərlərdir.

*– Qiyamət gününə inanırsınızmı?*

– Qulu Məhərrəmli haqqında bir yazı yazdım. Orada da bu barədə fikir bildirdim. "Qurani-Kərim"də qiyamət günü anlayışı var. Ancaq o astronomik

anlayış deyil. Yəni tutaq ki, filan ildən sonra dünya dağılacaq, bu belə deyil. O qeyri-səlis təfəkkürdür. Yəni bunu o baxımdan deyirlər ki, təxminən bu gün Azərbaycan cəmiyyətində baş verənlər elə axirət kimi bir şeydir. Yəni tülkünün Həccə getməsi, insan oğlunun ata-anasını, bacı-qardaşını qanına qəltan etməsi, əxlaq və mənəviyyatın bu qədər tapdanması elə axirətin əlamətidir. Quluya da yazdım ki, mən astronomik axirət günü tanımıram, çünki dünyanın ömrü sonsuzdur, sənə astronomik olmayan axirət günü arzulayıram. Yəni sən tarixdə qal və tarixdə yaşa.

*– Yerdəki insanlar bəs nə vaxt o biri planetlərdəki "qohum-qəbiləsiylə" ünsiyyətə girə biləcək? Təxminləriniz necədir, yüz illərmi gərək olacaq, min illərmi?*

– Bu gün hətta elmi müddəalar var ki, başqa planetdə həyat mövcud ola bilər. Bayaq bu barədə danışdıq. Mən "Qurani-Kərim"i dünyada ən böyük əxlaq və mənəviyyat sistemi sayıram. Qurani-Kərimdə aləmin yox, aləmlərin Tanrısı deyilir. Mən buna elmi baxımdan dəqiq inanıram ki, orada yüzdə-yüz düz yazılıb və aləmlər var. Amma biz o aləmə keçə bilmirik. Energetik çəpər o qədər qatı və qalındır ki, bugünkü elmimiz və texnologiyamız onu keçə bilmir ki, biz gedib görək o biri aləmlərdə nələr var.

*– O biri aləmlərdəkilər də bizim kimi çəpərdə ilişib qalıb?..*

– Bəlkə də onlar keçə bilir, onu demək çətindir. Uçan boşqablar, rastlaşdığımız anormal hallar var ki, bəzən buna inana bilmirik, çünki elm isbat edə bilmir. Elmin də isbat etdiyi nədir? Mən düşünürəm ki, bizi əhatə edən kainatın, aləmlərin maksimum 1 faizini də bugünkü elmi açmağa qadir deyil. Yəni o sonsuzluqdakı 99 faiz ki, var, mən həmişə demişəm ki, o Allahınkıdır. Bu baxımdan mən elmi dəlillərlə deyə bilmərəm, ola bilər ki, o biri aləmlərdə yaşayış da var, insanlar da.

*– Dünyanın və Amerikanın nüfuzlu alimləriylə müxtəlif səpkili təmaslarınız olur. Hətta deyilənə görə Amerikada NASA nəzdində çox nəhəng bir institut var ki, başqa planetlərdəki həyatla bağlı çoxsaylı dəlillərə malikdirlər. Sizdə bu barədə hansısa informasiya varmı?*

– Təbii ki, Amerikada daha çox bununla məşğul olurlar. Amma dünyanın bir çox ölkələrində belə laboratoriyalar var ki, bu tədqiqatları aparırlar. Bu istiqamətdə onlarda bəzi dəlillər də var. Amma elm belədir ki, gərək bunun dürüstlüyünü sübut edə biləsən. Ona görə də hələlik bir aksiom kimi deyə bilmirlər ki, bu belədir.

**Moderator.az**
13-15.10.2014

# ƏN BÖYÜK BƏLAMIZ HİKKƏDİR

Budəfəki müsahibim texnika elmləri doktoru, professor Rafiq Əliyevdir.

*– Müsahibəmizə hazırlaşarkən sizin bir fikrinizə rast gəldim: "Həqiqət qütblərdə yox, onların arasındadır. Amma insanlar bu həqiqətin yanında deyillər" deyirsiniz. Bəs siz 70 ildə bu aralıqda qalmış həqiqətə necə yaxınlaşdınız?*

– Adamın özü haqqında danışması, nəsə deməsi çətindir. Bir onu deyə bilərəm ki, təvəzökarlıqdan uzaq olmasın, həyatımda yalan danışmamışam. Hətta xırda şeylərdə də. Mənim üçün ən böyük senzor daxilimdəki senzordur. Gərək o, insanı qoymasın ki, yalana getsin. Bu baxımdan, həmişə çalışmışam ki, həqiqətin yanında olum. Və həyatda ondan düzgün yol görmürəm. Mənim elmi istiqamətim həmişə, indi də "qərar qəbuletmə nəzəriyyəsi" olub. Ən düzgün yol və qərar həqiqətin yanında olmaqdır. Maddi zənginliyi, şəhvət hissini, başqa bir şeyi müvəqqəti əldə edə bilərsən. Ancaq o, düzgün yol deyil, gərək insan həqiqətin yanında olsun. Yəqin soruşacaqsınız ki, həmin aralıqda mən haradayam? Sağ qütbdə – 1-in yanında ancaq Tanrıdır. Mütləq həqiqət tanrıya məxsusdur. Mən çalışmışam ki, həmişə 1-ə yaxın olum.

*– Buna yaxınlaşmaq üçün çoxmu qüvvə lazım oldu sizə?*

– Oy, nə qədər… Mən bəzən buradakı və Amerikadakı tələbələrimə də deyirəm ki, baxın, mənim üzüm gömgöydür. Deyirlər ki, professor, axı göy deyil. Deyirəm, siz fiziki rəng axtarırsınız, mənəvi zərbələri görmürsünüz axı! O mənəvi zərbələrin də əsas səbəbi həqiqətin yanında olmaqdır.

Bu gün cəmiyyətimiz belədir: düz sözü qəbul etmirlər. Özü də heç bir qütb. Nə o tərəf, nə də bu tərəf. Həqiqət deyəndə ancaq belə deyirlər, iki alternativ var: "Biri səhvdir, biri mən dediyimdir". Yəni ki, mən dediyim mütləqdir. Bax, bütün çətinliklər də bundadır. Mən də bundan çox əziyyətlər çəkmişəm. Ancaq bu yola gedən gərək heç bir əziyyətdən qorxmasın.

*– Belə bir deyim var ki, doğru qərarlar təcrübədən, təcrübə də yanlış qərarlardan yaranır. Siz bu mərhələlərdən necə keçmisiniz?*

– Həyatımda Tanrıya ən çox ona görə şükür edirəm ki, məni nəfsimə qul etməyib. Həmişə nəfsimdən yuxarı durmuşam. Nəfs tək maddi tərəf deyil, şöhrəti, şəhvəti, nəfsin maddiyatı və müxtəlif tərəfləri var. Ən böyük sərkərdə odur ki, nəfsi ilə cihadda qalib olsun. Ondan böyük sərkərdə yoxdur. Mən, düzü, heç bir riyazi formuldan istifadə etməmişəm nəfsə qalib gəlməkdə. Görünür, genetik olan bir şeydir. Atam Ağdamda idarə rəhbəri olub. Ancaq mənim, qardaşımın, bacımın məktəb kitabını almağa maaşı çatmırdı. Bizim Novruzlu kəndində evimiz var idi, orada barama qurdu saxlayırdıq, böyüdürdük, aparıb təhvil verirdik. Onunla da kitab-dəftər alırdıq. Bu şəraitdə böyümüş bir adamam. O vaxt maaş 90 manat idi. Bu, görünür, genetik yaddaşdan gələn bir şeydir.

İkincisi isə, mən həyatımda müəllimlərimə çox minnətdaram. Xüsusən də iki nəfərə. Çox saf, dürüst insanlar olublar. Onun biri SSRİ Elmlər Akademiya-

sının vitse-prezidenti, akademik Boris Nikoloyeviç Petrov çox böyük şəxsiyyət idi. Birdən işə gəlmirdi, o saat bilirdik ki, sabah Baykonurdan bir kosmik gəmi qalxacaq. Yəni son sözü bu deyərdi. O qədər yüksək çinli bir adam idi. Amma o qədər də təmiz, düz, nəfssiz bir adam idi. Digər müəllimim isə Lütfi Zadə olub. Mən yazımda da bildirmişəm, Lütfi Zadə evi orta statistik azərbaycanlının evindən də aşağı səviyyədədir. Daim mətbəxdə çörəyini yeyərdi. İki stulu olardı: biri özü, digəri isə həyat yoldaşı üçün. Əlavə, lazımsız heç nəyi yoxdur.

Uşaq vaxtdan mən əgər bu mühitdə böyümüşəmsə, necə nəfsimin qulu ola bilərdim?!

*– Qərar qəbuletmə nəzəriyyəsinin yaradıcısı olan bir insan kimi həyatınızda necə, qəbul etdiyiniz qərarların nəzəriyyəsində az da olsa, dəyişiklik etmək istəmisinizmi?*

– Bir insan elmin hansısa sahəsi ilə uzun müddət məşğul olursa, artıq onun düşüncəsi dəyişir. Düşüncə tərzim, fikrim, həyat fəlsəfəm qeyri-səlis fəlsəfədir. Əfsuslar olsun ki, bu gün bizim ictimaiyyətdə çoxu ikili – ağ-qara məntiqlə düşünür.

Hər bir qərarı qəbul edəndə gərək biləsən ki, hansı situasiyada edirsən. Ona elmi dildə "təbiətin vəziyyəti necədir" deyirlər. "Təbiət" deyəndə biz başa düşdüyümüz təbiət yox, yəni baxılan məsələnin təbiəti nəzərdə tutulur. Lütfi Zadənin, mənim, bəzi kolleqalarımızın əlavə etdiyimiz, isbat etdiyimiz fikir budur ki, qərar qəbul olunanda nəticə təkcə o situasiyadan, şəraitdən asılı deyil. Hansı insan o qərarı qəbul edir, o insanın determinantları, xüsusiyyətləri nədir? Yəni bu insan risklidir, ya risksizdir, dürüstdür, ya deyil, başqası haqqında fikirləşəndir, yoxsa yox? Bunlardan çox şey asılıdır. Burada da tolerantlıq lazımdır. Belə demək olmaz ki, filankəs dürüstdür ya deyil, hər şeyin dərəcəsi var, bir Tanrıdan başqa. Və üstəgəl, qərar qəbul edəndə bir şeyi də nəzərə almaq lazımdır ki, səndə olan informasiyanın dürüstlüyü nə qədərdir? Həmin informasiyaya nə qədər inanırsan? Bu təzə hesab, təzə riyaziyyat, yeni bir yanaşma tələb edir. Bunlar artıq mənim düşüncə tərzimə dönüb. Qərarlar qəbul edəndə riski, dürüstlüyü, şəraiti, şəraitdə olan qeyri-müəyyənliyi çalışaram çox vaxt nəzərə alım.

*– Hər bir səs tezliyi müəyyən rəngə çalır, deyirlər. Sizin səsiniz hansı rəngə çalır?*

– Yaman suallar verirsiniz ha… Vallah, bilirsiniz, ömrün rəngləri var, qızım. Bax, indi sizin rənginiz, ömrünüzün rəngi başqadır, səs də ömrün bir parçasıdr. Gözəl çələngdir. Orada hər bir rəng, ətir var. Ömür keçdikcə isə bu rənglər dəyişir. Orta yaşa çatanda yaşıllaşır. İndi mənim rəngim payız rəngidir. Düşünürəm ki, səsimdə də bir payız rəngi var. Yəni bilirsiniz, üfüqün sonu görünür, 3-5 il, Tanrının verdiyi nə ömürdüsə, o qalıb. Siz gənclərin üstünlüyünüz ondadır ki, ömrünüz uzundur, hələ qabaqda çox var. Çox işlər görə biləcəksiniz. Allahdan da arzulayıram ki, heç belə payız rəngi gəlməsin. Sizə hallı qocalıq versin, həmişə də yaşıl çələng qalsın.

*– Geriyə dönüş etmək istəsəydiniz, keçmişə qayıtmaq istəsəydiniz, hansı çalardan digərinə keçid etmək istərdiniz?*

– Təbii ki, uşaqlığımda müxtəlif rənglər olub. Əsasən lalələr, başqa çiçəklər, yəni rənglərin simbiozu, çələngi olub. Sonra isə gənclik gəlir, bənövşəyi rəngə

çalır. Amma hətta mən indi deyirəm e, bənövşəyi olub, bu rəngin özünün də minlərlə çaları var. Baxır kim necə yaşayıb. Ondan sonra bir az ahıl vaxtı gəlir gənclikdən sonra, yaşıllaşmış rəng. "Bir az da yaşıllaşmış" o baxımdan deyirəm ki, Allaha yaxınlaşırsan. Cavan, uşaq vaxtı bir o qədər dərk edə bilmirsən. Ondan sonra isə payız gəlir. Amma istəmərəm kiminsə ömrünə qış gəlsin.

*– Çəhrayı rəngi sevirsiniz, bu rəngin içində nələr var, hansi sirlər gizlənib?*

– Yaman hazırlaşmısınız siz… Heç bu sualları mənə verən olmamışdı…

Bu ayın 21-də mənim həyat yoldaşımın dünyasının dəyişməsinin 3 ili tamam olur. Bir yazı hazırlayıram. Keçən il isə bir yazı hazırladım: "Qara paltarlı qadınım olmadın, niyə". Ona "Mediaforum" saytında belə başlıq qoydular: "Çəhrayı paltarlı qadın". Çünki orada çəhrayı paltar barədə bir epizod var idi. Mənim də, həyat yoldaşımın da sevdiyi çəhrayı rəng idi. Adətən çəhrayı paltar geyinərdi. Və orada yazdım ki, "Bir gün gələcək, səninlə görüşəndə, qara paltarda yox, sənin və mənim çox xoşumuza gələn cəhrayı paltarında qarşıma gəlib əllərimdən tutanda, qəbrimə daması qəmli göz yaşların sevinc yaşı kimi ovucuma töküləcək". O rəng mənə bütün gəncliyimi, həyatımı xatırladır.

*– "Kaş ki"lər hər gün ruhumu bədənimdən qoparır" yazmısınız Aidə xanımla bağlı yazınızda. Nələrdir bu "kaş ki"lər? İndi ruhunuzun vəziyyəti necədir?*

– Ruhum çox da yaxşı durumda deyil. O barədə ki, ruh tam öz yerində deyil. Sormasanız yaxşıdır. Burada söhbət hansısa sentimental hisslərdən getmir. Başqa bağlılıqlardan, həyatdan, sədaqətdən söhbət gedir. Mən bu boyda dünyada, öz dünyamda özümü qərib hiss edirəm. Öz içində kimsəsiz olmaq ən ağır bir şeydir. Allah heç kimə qismət etməsin. Ən ağır şey odur ki, həyatda içərində tək olasan. Dostlarım da var, allaha şükür, tələbələrim də var, qohumlar da… Ancaq içəridə tək olmaq çox çətin məsələdir.

*– Dostluq demişkən, bilirəm ki, Ramiz Rövşənlə sıx dostluq edirsiniz. Ramiz Rövşəni Allahın sevgisinə tuş gəlmiş bir adam kimi təqdim edirsiniz. Bəs Allahın sizə münasibəti necədir? Siz bu sevgi çəmbərinə düşə bilmisinizmi?*

– Onu mən özüm qiymətləndirə bilmirəm. Ramizə bir dəfə sual verdilər ki, kimi özünüzə ən yaxın dost hesab edirsiniz? O da dedi, "Mənim həyatda bir dostum var, o da Rafiq Əliyevdir". Bu, simmetrikdir. Həyatda ümumiyyətlə, hər bir şey – ailə də, dostluq da simmetrik olmalıdır. Belə bir deyim var ki, "əyri xurcun yükü başa vurmaz". Yəni bir gözü əyilsə, hökmən aşıb düşəcək. Dostluq da belədir. Baxın həyata, Allah Xudu Məmmədova rəhmət etsin. O, bütün kristallarda olan simmetriyanı görürdü. Ornamentlərdə, muğamda və s. olan simmetriyaları görürdü. Ailədə, dostluqda simmetriya dağılanda, xurcunun gözü pozulur. Ramiz, doğurdan da, Allahın sevgisinə tuş gəlmiş adamdır. Ona görə ki , Ramizn ömrü uzundur. Bilirsiniz, nə qədər? Nizaminin ömrünü kim deyə bilər, Füzulinin ömrünü kim deyə bilər? Bioloji ömür deyil ki?! Nə qədər bu xalq, millət, dünya var, Ramizin ömrü o qədərdir. Amma mənimki nə qədərdir, bilmirəm.

*– Çoxmu rast gəldiniz başqalarına "0", özlərinə isə "1" kimi baxan insanlara? Necə dayanıqlıq göstərdiniz?*

– "Başqalarına "0", özlərinə isə "1" deyən, nə gözəl tapıntıdır. Mən xahiş edirəm, bu sözümü yazın, bu, Şahanənin müəllifliyidir, çəkinməyin, təvazökarlıq etməyin. Bəs məni həyatda yandıran əsas budur da. Bu gün Azərbaycanın ən böyük bəlası hikkədir. İnsanların hikkəsi. Bu gün və sabah astronomik olaraq demirəm, bizim bugünki durumumuzda hər tərəfdən bu qədər ki, basqılar var və çoxalacaq bu basqılar, onun qarşısında bircə şey dura bilər. Nə Qərbin köməyi, nə Şərqin köməyi, yalnız milli birlik, barış. Başqalarına "0", özlərinə isə "1" deyənlər isə buna imkan vermir.

*– AL1, AL2, AL3 qeyri-səlis məntiqi Rusiya kosmik texnikasında, aparatlarında, xüsusən də naviqasiya cihazlarında idarə etmənin qurulmasında əsas götürülüb. "Çin bumu"nun kökündə qeyri-səlis məntiqin durduğunu deyirlər. Sizin həyat gəminizi idarə etməkdə bu məntiq nə qədər yararlı oldu?*

– Təbii ki, o məntiq ağ-qara məntiqindən uzaqdır. Həmin məntiqlər həyat informasiyasını, şəraitini düzgün qiymətləndirə bilir. O da mənim həyat tərzimə çevrilib. Mənim də yadıma gəlmir ki, bir dəfə səsimin tonunu qaldırım. Auditoriyaya girəndə tələbə ayağa dursun – belə şeylər ömrümdə olmayıb. Biz tələbə ilə dost olmuşuq, hüququmuz eyni olub. Mənim bir azadlıq çevrəm var, onun bir azadlıq çevrəsi var. Onun azadlığı mənim azadlığım başlayan yerdə qurtarır.

*– Bəxtiyar Vahabzadə deyirdi ki, şairi şair edən dərd, kədərdir. Siz deyirsiniz ki, dərdsiz insanı bütöv insan hesab eləmək olmaz. Geriyə baxanda sizi bütöv edən o dərdləri yox etmək istəyiniz olubmu?*

– Dərdi qazanmırlar ki, qızım… Onu yox etmək də mümkün olmur. Dərd qismətdir.

Mənim imanım dinimdən yüksəkdir. Bəzi dini atriubutları etmirəm. Amma o iman, daxili vicdan senzoru ki, var, o, çox vacibdir. Bu baxımdan, qismətə inanıram. Mən namizədlik dissertasiyası müdafiə edən gün, 1967-ci ildə oğlumu itirmişəm. Bu, mənim qismətim olub. Qarabağı, torpağımı itirmişəm, doğulduğum komamı, həyat yoldaşımı itirmişəm, bunun qarşısını ala bilməzdim. Mən həyatda bütün gücümlə çalışmışam ki, bunlar olmasın, amma qismətdən qaçmaq çətindir.

**Şahanə Rəhimli**
17.04.2014

## BU GÜN İNFORMASİYA İNQİLABI QURTARIB VƏ BİZ BAŞQA BİR İNQİLABIN ASTANASINDAYIQ

Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, Dövlət Neft Akademiyasının kafedra müdiri olan alim Rafiq Əliyev Corciya (ABŞ), Təbriz (İran), Zigen (Almaniya) universitetlərində dərs deyir, Lütfi Zadə məktəbinin davamçılarından sayılır. R.Əliyev ötən əsrin 80-90-cı illərində Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin şöbə müdiri kimi ictimai-siyasi fəaliyyətlə də məşğul olub.

*– Rafiq müəllim, kimliyiniz, bioqrafiyanız geniş auditoriyaya tanış deyil. Bəlkə haradan doğulmağınızdan başlayaq?*

– Mən Qarabağ bölgəsində, Ağdamın Novruzlu kəndində doğulmuşam. 1942-ci ildə. Beş il bu kənddə yaşamışıq, sonra isə rayon mərkəzinə köçmüşük. Birinci sinfə Ağdamdakı 1 nömrəli orta məktəbdə getmişəm. İndi çoxlarına qəribə görünsə də, uşaqlıqda həmişə ədəbiyyata meyil göstərmişəm. Sovet dönəmində iki istiqamətə xüsusi diqqət yetirilirdi – mədəniyyətə və silaha…

İqtisadiyyat isə yada düşmürdü. Mənim sovet rejiminə heç vaxt rəğbətim olmayıb. Amma onun da müsbət xüsusiyyətlərini danmaq mümkün deyil. Rusiya kimi geridə qalan kotanlı bir ölkə raketə sahib bir dövlət həddinə çatdı. O dövrdə yaşamaq istəməzdim, pafoslu çıxmasın, mən demokratik təbiətli insanam. Sözümü bir məqama gətirmək istəyirəm: müharibə təzə qurtaranda, daha doğrusu, soyuq müharibə yenicə başlayanda Sovetlər ölkəsinin büdcəsini Stalinə təqdim edəndə, o, elmə ayrılmaların məbləğini 4-ə vurub. Bildirib ki, bu və digər ölkəni, onun xalqını ağ günə çıxaran elm olacaq. Yeri düşmüşkən, onda ABŞ yaxşı anlayırdı ki, silah gücünə SSRİ-ni dağıtmaq mümkün deyil. Əsas mənəviyyatı dağıtmaq lazım idi, elə bu yola da əl atıb uğur qazandılar…

Sözümü ora gətirirəm ki, SSRİ-nin özünün də müsbət cəhətləri var idi. Elmə, mədəniyyətə, ədəbiyyata fikir verilirdi. Biz dərsdən sonra yeməyimizi yeyib, günortadan sonra təzədən məktəbə qayıdırdıq ki, müəllim riyaziyyat fənnindən bizimlə məşğul olsun. İndi pul verməsən, müəllim heç bir uşağa elm öyrətməz. O dövrdə insanların içərisində inam, daxili motivasiya var idi. Bütün müsbət proseslərin təkanvericisi də bu idi…

Söhbəti ona gətirirəm ki, orta məktəbdə bizim gözəl bir ədəbiyyat müəllimimiz vardı. Hətta mənim "Ana" adlı pyesimi orta məktəbdə tamaşaya da qoymuşduq. Bir müəllimim də fizika fənnindən dərs deyən Kamal Qaradağlı, müharibəni görmüş ağıllı adam idi, həyatı başa düşməklə yanaşı praqmatik ziyalı idi. Bir gün o mənə dedi ki, bilirəm, ədəbiyyata meyil edirsən, amma gəl mənim sözümə qulaq as, təzə informatika ixtisası açılıb, ora daxil ol. Müəllimimin sözü ilə bu ixtisası seçdim. Bu gün həyatıma yenidən başlamış olsaydım, elə bu ixtisasda qalardım…

*– Bəs valideynləriniz? Onların Sizinlə bağlı ilkin arzuları, belə deyək, görüşləri nəydi?*

– Məni həkim görmək istəyirdilər… Düzdür, həkimlik gözəl və vacib peşədir, amma mən bu peşəni sevmirdim. Orta məktəbi qızıl medalla bitirmişdim, istədiyim instituta gedə bilərdim. Amma düşünürəm ki, bəzən bir fikir, verilən bir məsləhət insanın həyatını, gələcəyini müəyyənləşdirir. İndi gördüyünüz kimi, mənim otağımda iki şəkil var, ikisi də mənim müəllimlərimdir. Divarda gördüyünüz bu şəkildəkilərdən biri SSRİ Elmlər Akademiyasının vitse-prezidenti, İnterkosmosun sədri, akademik Boris Petrovdur. Bu şəxsin icazəsi olmadan bir sovet kosmik gəmisi göyə qalxmazdı. O biri isə dünyaşöhrətli Lütfi Zadədir. Ümumiyyətlə, əgər elmdə bir balaca uğur əldə etmişəmsə, buna görə müəllimlərimə borcluyam. Nə isə… orta məktəbi qurtarıb, sənədlərimi indi əyləşdiyimiz Neft Akademiyasına verdim, o zaman Azərbaycan Sənaye İnstitutu adlanırdı.

*– Elm dalınca getmək fikrini özünüzdə nə zaman qətiləşdirdiniz?*

– Bu fikir məndə orta məktəbdə var idi. Əlbəttə, mən elm dalınca gedəndə aydın başa düşürdüm ki, bu, fərqli yoldur. Bilirdim ki, alimin kitabı, kəşfi, elmi nəzəriyyəsi olar, pulu olmaz... Doğrusu, əsl elm adamı heç buna ehtiyac da duymur. Dünya şöhrətli Lütfi Zadə bütün elmi nəzəriyyələrini balaca mətbəx otağında işləyir. Onun elmi nəzəriyyələrindən iqtisadiyyatda böyük gəlirlər əldə edirlər, amma onun bu gəlirlərdən nə xəbəri var, nə də ona marağı… Elmi şəkildə sübuta yetirilib ki, insanın bir çox qərarları uzun müddətə hesablanmır, strateji mahiyyət daşımır. Tutalım, səhhətinə ziyan gətirən siqaret çəkir, əhəmiyyətsiz gəzintilərdə, səyahətlərdə olur, artıq mal-dövlət yığır…

*– Böyük elmə gəlişiniz nə zaman başladı?*

– Sənaye İnstitutunun aspiranturasında cəmi bircə saat oxudum. Həmin illərdə institutun rektoru akademik İsmayıl İbrahimov idi. O, tərəqqipərvər insan idi və mənə məsləhət gördü ki, Moskvaya gedim. Mən də SSRİ-nin paytaxtına getdim, təzədən imtahan verib SSRİ Elmlər Akademiyasının İdarəetmə Problemləri İnstitutunun aspiranturasına daxil oldum.

Tam mübaliğəsiz sizə deyim ki, o zaman institut bu sahədə dünyanın bir nömrəli elm ocağı idi. 1965-ci ildə Zadə ilə orada tanış olmuşam. 70-cı illərdə mənim 10-12 kitabım çıxmışdı. Lakin bunu böyük elm saymırdım. Böyük elm bilirsinizmi nəyə deyirəm? Böyük elm odur ki, sən dünyaya nəsə vermisən və dünya universitetlərində öyrənilən hansısa dərslikdə bir nəzəriyyə, dünyada qəbul olunan hansısa bir düstur sənin adınla bağlıdır…

*– Rafiq müəllim, yeri gəlmişkən, belə çıxır ki, SSRİ qapalı ölkə sayılsa da, elm sahəsində mühit tamam fərqli imiş. Lütfi Zadə və digər alimlər SSRİ-yə gəlib-gedirmiş…*

– Həmişə ən böyük demokratiya elm sahəsində olub. Tutalım, 1971-ci ildə SSRİ-nin ən qüdrətli vaxtında mən xaricdə – Helsinkidə mühazirələr oxuyurdum. Cəmi-cümlətanı 29 yaşım vardı. 1964-cü ildə institutda aspirant olanda gördüm həmkarlarım öz aralarında gülüşürlər. Dedim nə olub belə? Cavab verdilər ki, bəs Xuruşov akademiyaya keçmədi. O boyda dövlətin rəhbəri SSRİ Elmlər Akademiyasının kənd təsərrüfatı üzrə akademik yerinə namizədliyini irəli sürmüşdü, cəmi “0” səs almışdı. Hansı ölkədə elm yoxdursa, onun axırı da yoxdur.

*– Şərqin sufi düşüncəsinə görə, yola çıxmış insan uzun müddət ustad axtarışında olur və sonda ustadını taparaq kamilliyə yetişir. Bu mənada Sizin axtarışınız necə inkişaf etdi, ustadınız kim oldu?*

– Düzünü deyim ki, belə bir axtarışda olmamışam. Mənim özümün sufiliyə rəğbətim var… Bir türk alimi var, sufilikdən gələn yeni bir nəzəriyyə yaradıb. Deyir ki, Türkiyənin, Azərbaycanın özünün iqtisadiyyatı olmalıdır, çünki qloballaşma bizi əzir. Mən bununla razı deyiləm. Bilirsinizmi, elə axınlar, hərəkatlar var qaçılmazdır. Qloballaşma da bu kateqoriyaya daxildir. Gərək dünyaya düz çıxasan. Küləyə qarşı getmək cəsarətdir, amma biləsən ki, hansı küləyə qarşısan.

*– Bəs Lütfi Zadə? Onu ustadınız saymırsız?*

– Şübhəsiz ki, o, mənim ən böyük ustadımdır. Mən içində Nyuton, Eynşteyn olmaqla dünyada ondan böyük alim tanımıram və bu sözü pafos xatirinə demirəm. Burada milli təəssübkeşlik də yoxdur. Təsəvvür edin ki, o biri alimlərin hərəsi bir sahəni dəyişdi. Amma Zadə hər şeyi dəyişə bildi. Böyük kəşflər üçün həm də elmi mühit tələb olunur. Dünyagörüşün üç başlanğıcı var. Birincisi Allah; ikincisi, insanın daxilindəki "mən"; üçüncüsü, universitetdir. Ona görə də həmişə deyirəm ki, körpü tikmək, yol salmaq yaxşı şeydir. Ancaq universitet də tikmək gərəkdir…

*– Rafiq müəllim, qeyri-səlis riyazi məntiqi sadə dillə necə izah eləmək olar?*

– Bilirsiz ki, məntiq elmi antik yunan fəlsəfəsində formalaşıb. Daha doğrusu, Aristotelin hesabına… Aristotelə görə, hər hansı bir müddəa ya doğrudur, ya yalan, bir şey ya ağdır, ya qara. Hər hansı müddəanın doğruluğunu da məntiqlə müəyyənləşdirmək olur. Tutalım, hər hansı bir müddəa ətrafında fikirlər səsləndirilir, bir növ, söz güləşdirilirdi – kimin məntiqi güclüdürsə, o, qalib sayılırdı. Sonra yunan alimləri bunu formaya salmaq barəsində düşündülər. Beləliklə, məntiq, riyazi-məntiq meydana çıxdı.

Qeyri-səlis riyazi məntiq Aristotel məntiqindən fərqlidir. Qeyri-səlis nəzəriyyə yalnız iki alternativdən birini – ağ və qaranı – seçmir. Bu nəzəriyyəyə görə, ağla qaranın, "bir"lə "sıfır"ın arasında başqa qiymətlər də var. Elmi dil həmişə riyaziyyat olub. Təbii dilin gücü çatsaydı, bir dənə də riyazi düstur yaranmazdı. Düşünürəm ki, vaxt gələcək, təxminən 80-100 ildən sonra riyazi düsturlara ehtiyac qalmayacaq. Bütün hesablamalar sözlə, düşüncə, semantika ilə olacaq. Bu gün informasiya inqilabı qurtarıb və biz başqa bir inqilabın astanasındayıq. Söhbət intellektual maşınlar inqilabından gedir. 20-30 ildən sonra ağıllı maşınlar meydana gələcək. Maşınla ünsiyyətin yaranması isə yalnız təbii dillə mümkündür. Daha doğrusu, burada klassik riyaziyyat işləməyəcək.

*– Son zamanlar ağıllı maşınların meydana gələcəyi barədə danışırlar…*

– Bu artıq riyaziyyatın dili yox, təbii dilin sayəsində gerçəkləşdiriləsi kəşfdir. Biri var maşınlar riyazi düsturlar hesabına hərəkət eləsin, biri də var qarşıdakı insanın danışığını anlasın, qavrasın, məntiqi nəticə çıxarsın, sənin semantikanı başa düşsün və cavab versin.

1992-ci ildə "Süni intellekt: miflər və reallıqlar" adlı kitab yazmışdım. Həmin kitabda mən bəzi məsələlərlə bağlı fikirlərimi açıqlamışdım. Misal üçün,

belə bir cümlə götürək: "Qələm masanın üstünə düşdü və o, qırıldı". Bunu hansı bir ağıllı insana desən, dərhal anlayacaq ki, qırılan masa yox, qələmdir. Amma maşın bu semantikanı anlayırmı? Daha doğrusu, bugünkü maşınlar bunu başa düşmür, amma sabahkı intellektual maşınlar anlayıb dərk edəcəklər.

Qeyri-səlis məntiqə qədər hamı bir müddəanı deyir və qəti olaraq bir nəticə çıxarılırdı: ya doğrudur, ya yalan. Bu zaman semantik təhlilə yer yox idi. Zadə isə dedi ki, həyat ayrı cürdür, ideallaşdırılmış model deyil. İndi biz istəyirik ki, reallıqla elm arasında bir körpü salaq, həyatda birdəfəlik "hə" və "yox", "dost" və "düşmən" söhbətini aradan qaldıraq. Aristotel məntiqilə düşünsək, bəli, filankəs ya sənin dostun olmalıdır, ya da düşmənin.

Bizim siyasi düşüncədə də bu formul hakimdir. Kim bizim partiyanın dostu deyilsə, deməli, düşmənidir. Niyə? Siyasət, iqtisadiyyat, sənaye və bir çox elm sahələri qeyri-səlis məntiqlə idarə olunmalıdır, real həyat qeyri-səlisdir. Buna görə də Zadə bəyan etdi ki, real həyatda bütün müddəalar, proseslər, məfhumlar dərəcə ilə səciyyələnir, yəni onların dürüstlüyü, həqiqiliyi kəsilməz qiymət alır. Bununla da yeni bir fəlsəfə, yanaşma tərzi ortaya çıxdı.

*– İnsani planda götürsək, qeyri-səlis məntiqlə xoşbəxtlik nədir?*

– Söhbət qeyri-səlis məntiqdən gedirsə, xoşbəxtlik dərəcə ilə ola bilər. Mahiyyətindən asılı olmayaraq istənilən prosesə yanaşsaq, onu dərəcələrlə qiymətləndirmək gərəkdir. Yalnız geriqafalı adam iddia edə bilər ki, bu ya belədir, ya da belə deyil, ya xoşbəxtsən, ya bədbəxt... Real həyatsa tamam fərqlidir.

*– Belə anlaşılır ki, bir fəlsəfə riyazi dildə iqtisadiyyatda, texnologiyada böyük dəyişikliklər yaradır...*

– Bu gün ən azı Yaponiyanın istehsal etdiyi elektron cihaz və qurğularının çox böyük faizi qeyri-səlis məntiqlə idarə olunur. Amma Zadə deyir ki, mən nəzəriyyəmi bu aparatlar üçün yox, sosial, iqtisadi, siyasət sahələri, klassik riyaziyyatın çətin tətbiq olunan sahələri üçün vermişəm. Yəni bu fəlsəfədən, bu yanaşmadan insanların davranışında, siyasətdə, sosiologiyada istifadə etmək daha səmərəli olardı.

*– Qeyri-səlis məntiq nəzəriyyəsini yeni insanın yaradılmasına cəhd adlandırmaq olarmı?*

– Mən bu cür düşünmürəm. Hissləri, emosiyaları, ağlı tam təkrar eləmək və modelləşdirmək mümkün deyil. Yaradılacaq ağıllı maşınlar insana ancaq kömək gətirir. Digər tərəfdən, proqnozlara görə, yalnız 2080-ci ildə insan beynini yamsılaya bilən kompüter meydana çıxacaq.

İndi internetdə istifadə etdiyimiz axtarış maşınlarının "ağlı" təxminən Zülümovun ağlı qədərdir. "Əhməd haradadır" filmindəki Zülümovu xatırlayırsız da... Ona Əhmədi tapmaq tapşırılanda tikintidəki bütün Əhmədləri bir yerə yığmışdı. Misal üçün, axtarış sisteminə "siyasət" sözünü yazıb versəniz, bütün "siyasət"ləri tapıb bir yerə cəmləyəcək... Çünki semantika prinsipi ilə işləmir.

*– Bütün bunlar insanın Allah haqda düşüncəsinə nə əlavə edir, insanı Allahdan uzaqlaşdırır, yoxsa ona yaxınlaşdırır?*

– Allah bağışlamağı bacarandır. Qeyri-səlis məntiqdə dünyaya böyük tolerantlıq var. Professor Zadənin leksikonunda ən çox işlənən sözlərdən biri "inşallah"dır. Söhbətimizin əvvəlində insandakı üç başlanğıcdan danışanda Allah başlanğıcını birinci sıraya qoydum. Tanınmış klassikimiz Abdulla Şaiqin oğlu Kamal Talıbzadə danışırdı ki, atası deyərmiş ki, "Tülkü həccə gedir" əsərini uşaqlar üçün yazmamışam, bilmirəm, onu niyə uşaqlara oxudurlar… Müsəlman o adamdır ki, Allahla özü arasında tarazlıq yarada bilir. Alim həmişə Allahın yanında olub. Söhbət Xudu Məmmədovun təbirincə desək, Eynşteyn, Zadə kimi alimlərdən gedir.

*– Dediniz ki, hər bir alim özünün təsdiqi üçün kəşfini etməlidir. Sizin bu cür elmi kəşfləriniz varmı?*

– Kəşfini eləmiş alim deməz ki, mən bunu etmişəm.

*– Hər halda, özünüzün ən dəyərli işinizi hansı hesab edirsiz?*

– Onu deyə bilərəm ki, son dövrlər Zadə və bir kanadalı alimlə birgə bir iş görmüşük: mürəkkəb dinamik sistemlərin ümumiləşmiş dayanıqlıq nəzəriyyəsi. Bundan özgə, indi Zadə məntiqi, klassik məntiq var. Eyni zamanda mənim soyadımla bağlı olaraq Ali-1, Ali-2 məntiqləri də var. Bu nəzəriyyədən Rusiyanın Birinci Pyotr adına Strateji Raket Qoşunları Akademiyasında kosmik aparatların idarə olunması üçün istifadə olunub.

Bir məqamı da deyim. Əvvəl-əvvəl amerikalılar qeyri-səlis nəzəriyyəni qəbul etmək istəmirdilər. Təxminən 10 il öncə bir məsələdə bərk təlaş keçirdilər. Bəzi ölkələrin təzə tip raketləri çıxanda onu vura bilmədilər. Düşündülər ki, sistem yenidən qurulmalıdır. Bunun üçünsə milyardlar xərclənməli idi. Onda bir qrup alimi çağırdılar, onların içərisində Kosko da var idi. Onlara deyiblər ki, raketləri tutmaq yolunu öyrənmək lazımdır. Həmin alim qeyri-səlis hesablamaya üstünlük verməklə bunun yolunu tapdı. Bundan sonra ABŞ yeni nəzəriyyədən beş əlli yapışdı. Kosko qeyri-səlis məntiq sahəsində indi böyük alimdir.

*– Rafiq müəllim, bir az da Azərbaycandan danışaq. Görünür, hər bir xalqın, toplumun da taleyi olur. 1990-cı ildən sonra bizdə yeni dövr başladı – müharibə və itkilərlə yanaşı müstəqillik və neft amili hesabına coşqunluq… Siz Azərbaycandakı mövcud vəziyyəti necə dəyərləndirirsiniz?*

Düşünsək ki, neft millətə həmişə xoşbəxtlik gətirir, bu, səhv yanaşmadır. Mən deyirəm ki, qafa – savad, elm, təhsil çox vacibdir. Bəyəm Cənubi Koreyada yeraltı sərvətlər çoxdur? Amma orada gözəl təhsil, texnologiya var. İndi ki, Allah bizə bunu verib və bu yolla gedirik, gərək postneft dövrü üçün iqtisadi model barədə düşünək. Bu məsələ Azərbaycan elminin bir nömrəli ümdə məsələsi olmalıdır.

Bir dəfə bir müzakirəyə qatılmışdım. Akademiyanın müxbir üzvlərindən biri dedi ki, biz bu yaxınlarda bilik modelinə keçsək, yaxşı olar. Mən də dedim ki, heç olmasa, texnoloji modelə keçək, yaxşı bir məhsul istehsal edək. Bilik is-

tehsal etmək bilirsən nə deməkdir? Sənin elə alimlərin, universitetlərin, tələbələrin, institutların olmalıdır, mütəxəssislərə elə əməkhaqları verilməlidir ki, dünya səviyyəsində ciddi elmi nəticələr ala bilsinlər. Mən belə fikirləşirəm ki, postneft dövrü üçün ciddi və elmi konsepsiya yaradılmalıdır.

*– Bizim cəmiyyətdəki vəziyyət haqda nə düşünürsüz? İnsanlarda bir ümidsizlik var…*

– Mənim fikrim bir qədər fərqlidir. Onu da deyim ki, mənim təfəkkürüm Qərb, əxlaqım isə şərqlidir. Milli çərçivədə dünyada heç nə etmək olmaz. Ona görə də sualınıza dünya kontekstində cavab verməliyəm. Düşünürəm ki, Azərbaycanın gələcəyi var. Konkret vaxt deyə bilmərəm, qeyri-məntiq nəzəriyyədən çıxış eləsək… Əslində, dünya dəyişəcək. Düşünürəm ki, dünyada yeni sivilizasiya əmələ gələcək. Buna görə də millət elə inkişaf etməlidir ki, dediyim sivilizasiya meydana gələndə onunla ayaqlaşa bilsin. Yəni insana insan kimi baxmalısan. Dünya səviyyəli universitetlər qurulmalıdır. Ancaq bu halda yeni sivilizasiyada yer tuta bilərik. Eyni zamanda hesab edirəm ki, dünyanı kataklizmlər gözləyir. Əgər dünya, insanlıq bundan çıxa bilsə, məncə, vəziyyət yaxşı olacaq.

*– Kataklizmlərin səbəbi nə olacaq?*

– Fikrimcə, bu kataklizmlərin əsasında təbii ehtiyatlar uğrunda mübarizə duracaq. Dünyanın neft, su ehtiyatları tükənməyə doğru gedir. Yadınızda qalsın, yaxşı nəzəriyyə min praktikadan əfzəldir. Praktika dəyişə bilər, amma nəzəriyyə əbədidir. Nəzəriyyəyə görə, birqütblü dünya dayanıqlı ola bilməz. Çünki dünyada harmoniya lazımdır. Mən bunu Amerikada həmkarlarıma da demişəm. Rəhmətlik Xəlil Rzaya deyərdim ki, o qədər də inqilabilik lazım deyil. Soruşardı nəyə görə? Cavab verərdim ki, təbiətdə inqilabçılıq yoxdur.

*– Misal üçün, Azərbaycandakı durum barədə tənqidi fikriniz varmı?*

– Gərək ölkədə elm elm, sənət sənət olsun, vəziyyət isə demokratik olmalıdır. Ümumi insanlarımızın hamısı, iqtidar və müxalifəti də nəzərdə tuturam, dözümlü və tolerant olsunlar. Tək Azərbaycanın yox, bütün dünyanın nicatı bundadır. Qeyri-səlis məntiqin ən ümdə başa düşülən müddəası tolerantlıqdır.

*– Fikrinizcə, bizim Şərq dünyamızda, o cümlədən Azərbaycanda nə vaxt Nobel mükafatçısı olacaq? Professor Lütfi Zadə, Siz, həmkarlarınız nə üçün bu mükafata cəhd etməmisiniz?*

– Əvvəla onu deyim ki, Lütfi Zadənin, mənim və mənim amerikalı və alman həmkarlarımın elmi nəticələri əsasən mühəndislik və riyaziyyat sahələrindədir. Bu elmi istiqamətlər Nobel mükafatı nominasiyasında nəzərdə tutulmayıb. Bunun üçün biz gərək aldığımız fundamental elmi nəticələrimizi o nominasiyada nəzərdə tutulmuş elm sahələrinin birinə tətbiq edək. Ömür vəfa etsə və siz yenidən müsahibə götürmək istəsəniz, bu mövzuya 2010-cu ildə qayıda bilərik.

*– İndiki və gələcək əsas elmi problemləriniz nədir?*

– Birinci problem neoklassik iqtisadi nəzəriyyənin əsaslandığı rasionallıq prinsipinə söykənən iqtisadi agentlərin inkarını nəzərdə tutan yeni konsepsi-

yanın işlənməsidir. İqtisadi agentlərin (istehsalçıların, istehlakçıların, makroiqtisadi qərarlar qəbul edən institutların və s.) davranışını adekvat ehtiva edən modellərin yaradılması, belə modellər əsasında daha realistik nəzəriyyənin qurulması əsas elmi məsələlər kimi mənim və amerikalı həmkarlarımın qarşısında durur. Mən və mənim həmkarlarım (o cümlədən, professor Lütfi Zadə) belə düşünürük ki, iqtisadi və sosial-iqtisadi agentlərin modelləşdirilməsinin əsas dili klassik riyazi dil deyil, qeyri-səlis məntiqə əsaslanan "qəliblənmiş" təbii dil olmalıdır.

İkinci elmi istiqamətimiz mürəkkəb, qeyri-müəyyənlik şəraitində fəaliyyət göstərən dinamik sistemlərin tərəfimizdən təklif olunmuş (L.Zadə, R.Əliyev, V.Pedries və b.) ümumiləşmiş dayanıqlıq nəzəriyyəsinin nəzəri baxımdan genişləndirilməsi, müxtəlif iqtisadi, sosial-iqtisadi, texniki sistemlərin optimal trayektoriyasının sintezi, dayanıqlılığının analizi və müvazinətinin tədqiqinə tətbiq etməkdir.

*– Yüksəkixtisaslı elmi kadrların hazırlanması, keyfiyyəti Sizi qane edirmi?*

– Birinci, sifariş verilmiş elmlər namizədi və doktorluq dissertasiyalarının yazılmasını və diplomlanmasını əngəlləmək lazımdır. Dissertasiya işi bilavasitə elmlə məşğul olan insanın elmi nəticələrinin yekununu ehtiva və təsdiq etməlidir. Prosedur baxımından başlıca neqativ amillər attestasiya zəncirində elmi monopoliyanın olması, şəffaflığın çatışmazlığıdır. Onu demək istəyirəm ki, bu gün dissertasiya müdafiələri istisnasız bu və ya digər kollektivlərin və alimlərin monopoliyasındadır. Çünki hər bir ixtisas şifri üzrə yalnız bir müdafiə şurası mövcuddur. Bu isə azad elmi rəqabətə əngəl törədir, mövcud elmi məktəblər (beləlləri varsa) arasında konfliktə gətirir. Bir də bir şeyi qeyd etməliyəm. Müdafiə şuraları bəzən elmi ənənə, kadr potensialı nəzərə alınmadan verilir.

İkinci, amillə əlaqədar demək istəyirəm ki, bəzən müdafiə üzrə elmi şurada anonim rəyçilər institutu yaradırlar (bir qayda olaraq bu rəylər mənfi olur).

Axı biz niyə özümüzün müdafiə etdiyimiz anları unuduruq? Hər bir qeyri-obyektiv, əsası olmayan iradın arxasında insan, insan taleyi, onun sağlamlığı durur. Bir fikrimi də deyim: dissertasiya işinin müdafiəsi prosedur qaydalara uygun olmayaraq bəzən 1-2, hətta 3 il uzadılır. Axı müasir elm üçün lap qısa bir müddət də o işin köhnəlməsinə gətirir.

*– Siz cəmiyyətə, dünyaya, insana, Azərbaycana münasibətinizi bildirdiniz. Bəs, onların Sizə münasibəti necədir, Sizi qane edirmi?*

– Mən sizə deyim, siz də inanın. Bu münasibət məni qane edir. Birdən düşünərsiniz ki, ilahi, Rafiq müəllimin baxışları, ətrafa münasibəti korlaşıb… Yox. Mən görürəm ki, bir nəfəri gətirib professor və ya akademik edirlər. Buna dözümlü yanaşıram. Dünyanı da düz qiymətləndirirəm. Dünya çox obyektiv dünyadır. Bir cəmiyyətin, elin, kəndin ümumi fikri həmişə düz olur. Avstriyada, Çində, Almaniyada, ABŞ-ın yüzlərlə universitetlərində gördüyünüz bu kitabım dərslik kimi istifadə olunur. İnterneti açsanız, görərsiniz ki, bu kitablar dünya universitetlərinin tədris proqramına daxil edilib. Bunları özünütərif üçün de-

mirəm. Bir şey dünya üçün yaxşıdırsa, o bunu qəbul edəcək. O mənada dünyanın mənə olan münasibətindən son dərəcə razıyam. O ki qaldı Azərbaycana, mən buna tolerant yanaşıram.

*– İndi «Şöhrət» ordeni, başqa dövlət mükafatları dəbdədir. Sizin belə mükafatlarınız varmı?*

– Mən dövlətdən heç bir mükafat almamışam. Yalnız elmi işlərimlə əlaqədar olaraq SSRİ dövlət mükafatına layiq görülmüşəm.

*– Deyəsən, siyasətlə də maraqlanırsınız…*

– Məşğul olmuram. Amma maraqlanıram.

*– Azərbaycandakı siyasi proseslərə münasibətiniz maraqlı olardı…*

– Mən istəməzdim ki, siyasətlə bağlı söhbət aparaq.

*– Bəlkə bir az da Qarabağdan danışaq…*

– Mənim həyatım Qarabağla bağlıdır. Onu unutmaq mümkün deyil. Amma münaqişənin həlli çox çətin, həm də dünya güc mərkəzlərinin marağında olan bir problemdir. Ən böyük arzum dünyamı dəyişməmişdən qabaq Qarabağımı görməkdir.

**Qurban Yaquboğlu,**
**Nemət Hüseynli**
**Media forum**

## İNTELLEKTUAL ROBOTLAR ARTIQ İSTEHSAL EDİLİR VƏ YAXIN ZAMANLARDA ONLARIN HİSSLƏRİ DƏ OLACAQ

Dünya şöhrətli alim Rafiq Əliyevlə söhbət etmək çətindir: kimin qarşısında əyləşdiyini yaxşı bilirsən... Onunla söhbət etmək asandır; çox mürəkkəb elmi nəzəriyyələri olduqca səlis, aydın bir tərzdə izah edir...

*– Bu gün dünyanın yaranma səbəbini tapmağa çalışan alimlərin qeyri-adi eksperiment keçirmək istəyi birmənalı qarşılanmadı. Siz necə düşünürsünüz, layihə bəşəriyyət üçün təhlükəli ola bilərmi?*

– Mən fizik deyiləm, amma həmişə deyirəm ki, bir yaxşı nəzəriyyə yüz təcrübədən irəlidir. Düzdür, nəzəriyyəni həmişə axıra çatdırmaq olmur. Bu layihədə yalnız dünyanın əvvəli və sonunun öyrənilməsi nəzərdə tutulmayıb. Zərrəciklərin toqquşması nəticəsində həmçinin digər fiziki proseslərin öyrənilməsinə də eksperimental cəhd göstərilir. Bu layihənin müsbət tərəfləri var. Əvvəla, dünyanın diqqəti siyasətə deyil, alimlərin tədqiqatlarına yönəlib. İkincisi, tədqiqatlara, demək olar ki, dünyanın bütün alimləri cəlb edilib. Bu layihə dünya alimlərinin böyük miqyaslı əməkdaşlığına imkan yaradıb. Ehtimal edilir ki, təcrübə zamanı o qədər çox informasiya əldə ediləcək ki, onu emal etməyə dünyanın əksər ölkələri cəlb olunub. Eksperimentin əsas məqsədinin dünyanın yaranma səbəbini tapmaq olduğunu düşünmürəm. Dünyanın yaranmasında bir başlanğıc var – Allah. Layihənin dünya üçün təhlükəli olacağına inanmıram. Alimlərin ən xırda detalı belə nəzər aldıqlarına əminəm.

*– Sizcə, müasir elm nəyə can atır; dünyanın yaranma səbəbini tapmağa, yoxsa onu təzədən yaratmağa?*

– Dünya balaca bir gəmidir. Göründüyü kimi, maliyyə böhranı hazırda bütün dünyanı əhatə edib. Bu böhranın nə ilə qurtaracağını, həmin bu balaca gəmini gələcəkdə nə gözlədiyini indi heç kim bilmir. Bu gün dünya zəncirvarı şəkildə bir-birinə bağlanıb. Heç bir uğur və ya təhlükə artıq konkret ərazi tanımır. Dünyanın diqqətini özünə çəkən yeni eksperimentin bir cəhdi də elə budur ki, alimləri bir yerə yığıb həyəcan təbili vursunlar.

*– Bəs elm özü bu gün hansı səviyyədədir, nəyə qadirdir?*

– Mən düşünürəm ki, elm bu gün çox yüksək səviyyədə inkişaf edib. Elm inkişaf edib, amma ümumbəşəri əxlaq çox geri qalıb. Əgər belə olmasaydı, İraqda qan tökülməzdi. Yerdə belə problemlərə nə qədər ehtiyac var? Nəyimiz əskikdir, yaşamaq üçün burada hamıya yer çatır axı! Ən böyük problem budur ki, siyasətçilərin əxlaqı elmin səviyyəsi ilə uzlaşmadı. Məndən tez-tez soruşurlar ki, doğrudanmı, amerikanlar robot əsgərlər istehsal ediblər? Deyirəm, bəli. Elm bundan da artığına qadirdir, baxır onu nəyə, hansı səmtə yönəldirsən. Eyni zamanda çəkinmədən bunu da deyirəm ki, klassik iqtisadi və neoklassik iqtisadi

nəzəriyyələr iflasa uğradı. Çünki bu nəzəriyyələrin əsasında real olmayan bir postulat durur: bütün iqtisadi agentlər rasionaldır. İstehsalçı öz gəlirini, istehlakçı öz faydalılığını, istəklərini maksimallaşdırır. Qərar qəbul edənlərin motivasiyaları, sosial normaları nəzərə alınmır. Eqoistik nəzəriyyə, Alturizm yoxdur. Yəni heç kim qonşusunu, Afrikada acından ölənləri fikirləşmir. Ona görə də dünya yeni iqtisadi model axtarır. Bu gün elmi bəşəriyyətin sabahı, taleyi düşündürür. Gəlin, dünyanın xəritəsinə baxaq, neft ölkələrinin hamısının ərazisindən qan iyi gəlir. Yalnız Norveçdən başqa, çünki bu ölkə Avropada yerləşir. Həm də Norveçin iqtisadiyyatı yalnız neftdən gələn gəlirə söykənməyib. Əgər biz dünyanı bu vəziyyətdən xilas etmək istəyiriksə, onda alternativ yanacaq tapılmalıdır. Neftin yerini tuta biləcək bu alternativ yanacağın tapılması dünyanın nicatı olacaq. Bunu isə yalnız elm bacara bilər. Digər tərəfdən isə, elm dünyanın sirlərinin heç milyonda birini hələ açmayıb. Xüsusən də, anomaliyalarla bağlı olanları.

*– Bizi hansı yeni elmi sıçrayışlar gözləyir?*

– Bunu yalnız proqnoz şəklində demək olar. Mənim fikrimcə, ilk sıçrayışlar intellektual maşınlarda olacaq. Onlarla insan arasında ünsiyyətin təbii dildə olması hazırda alimləri çox düşündürür. Onda maşınları idarə etmək qat-qat asanlaşacaq. Bu dil isə daha çox qəlibləşmiş, yəni hamı tərəfindən başa düşülən ümumi dil olacaq. Mən yaxın 30-40 ildə bu ideyanın gerçəkləşməsini gözləyirəm. Digər tərəfdən, elmin alternativ yanacaq məsələsini həll ediləcəyinə ümid edirəm. Törəmə məsələlərə gəlincə, elmi nəzəriyyəyə görə, dünya birqütblü yaşaya bilməz. Ona görə də, dünya bu gün dayanıqlı deyil. Amerikadakı, Avropadakı çıxışlarımda, mühazirələrimdə də bunu vurğulayıram. Söhbət iki rəqibin üz-üzə dayanıb müharibə aparmasından getmir. Artıq hamının taleyi bir-birinə elə birləşib ki, dünyanın bir tərəfinin əyilməsi bütün yer üzünün silkələnməsi deməkdir. Başqa sözlə, artıq hər kəsin mənafeyi başqasının mənafeyi ilə uzlaşmalıdır. Dünyada iqtisadi bərabərsizliyin aradan qaldırılmasına yönələn yeni iqtisadi modelin yaranması növbəti sıçrayışlardan biri olacaq.

*– Bir vaxt qeyri-səlis məntiq nəzəriyyəsi də dünya elmində, istehsalatda bir sıçrayış yaratdı. Bu sahə dünya elmi üçün hələ də modern sayılır, yoxsa artıq onu qabaqlayan başqa istiqamətlər yaranıb?*

– Dünyada bu günə kimi elmin üç inkişaf modeli olub. Hər üçünün bəşəriyyət üçün əvəzsiz xidmətləri olub. Əvvəllər, determinizm dövründə deyirdilər ki, bütün məsələlər bizə məlumdur, hər şey barədə tam informasiyamız var və hər şey məlum qanunla yazılır, necə deyərlər, qətiyyən əl yeri qoymurdular. Alimlər təbiət və cəmiyyət proseslərinin sadə bir modelini yaratmağa çalışırdılar. Əslində heç bir elm real həyatın üzərində yox, onun modeli üzərində qurulur. Dünyada elm həmin modelin reallığa yaxın olduğu qədər inkişaf edib. Sonralar kvant mexanikası, riyaziyyatda ehtimal nəzəriyyəsi meydana gəldi. Ehtimal nəzəriyyəsi dünyada olan qeyri-müəyyənliyi nəzərə almağa imkan verir. Ehtimal nəzəriyyəsi ikili Aristotel məntiqinə əsaslanır, onun real həyat proseslərindəki qeyri-müəyyənlikləri nəzərə almasına ciddi məhdudiyyətlər var. Mən həmişə belə bir misal çəkirəm: ABŞ-da qadının prezident olması ehtimalı

nə qədərdir? Klassik ehtimala görə, gərək, məsələn, 43 belə nəticə qeydə alınsın ki, onun əsasında nə isə deyəsən. Tutaq ki, 43 əvvəl seçilmiş prezidentdən ikisində qadın prezident olubsa, onda deməlisən ki, 43-də iki ehtimalı var. Real həyatda isə heç vaxt belə hadisə olmayıb, lakin qadının ABŞ-da prezident olması ehtimalı qüvvədə qalır. Lütfi Zadə də bunu dedi. Başqa sözlə, nəzəriyyənin kökündə duran modeli köklü yaxşılaşdırdı, reallığa körpü saldı. Hazırda müasir sənayenin çox sahələri qeyri-səlis məntiq üzərində qurulub.

*– Qeyri-səlis məntiq nəzəriyyəsi yeni texniki avadanlıqlarla yanaşı artıq insan yaratmağa can atır. Robotlarla insanlar bir-biri ilə necə yola gedəcək?*

– Bu çox ağır sualdır, bütün bəşəriyyəti düşündürən bir məsələdir. Mənim ən qorxduğum məsələ robotların insanları əvəz etməsidir. Qorxuram ki, robotlar insanlardan daha ağıllı ola bilər və üsyan edər. İndi virtual hisslər, onların modelləri yaradılıb. Robotlar artıq istehsal olunur və yaxın zamanlarda onların hissləri, "mənəviyyatı" da olacaq. Amma bu, proqramlaşdırılmış "mənəviyyat" olacaq. Bu o deməkdir ki, robotlar rüşvət almayacaq, üz vuranda güzəştə getməyəcək... Yəni robotlar ümumbəşəri əxlaq baxımından insanlardan üstün olacaq, əxlaqsızlığa meyil etməyəcəklər. Ona görə də hazırda məni ən çox qorxudan insandır, robot deyil. İnsanın mənəviyyatı elmin inkişafı ilə ayaqlaşa bilmir. İnsan-robot müstəvisində qərarı ağıl və mənəviyyat verəcək. Yəni "mən-mən" iddiası insanı da, dünyanı da məhvə apara bilər.

*– "2009-2015-ci illər Azərbaycanda elmin inkişafı üzrə milli strategiya və həmin strategiyanın həyata keçirilməsi üzrə Dövlət Proqramı"nın layihəsi artıq hazırlanıb. Bu layihədə konkret təklifləriniz əks olunubmu?*

– Xeyr. Mən fikirlərimi bildirməmişəm və mənə müraciət edən də olmayıb. Mən islahatı yalnız belə görürəm: elmə ayrılan vəsait 10 dəfələrlə artırılmalıdır, elmlə məşğul olanların məvacibi dəfələrlə bugünkündən çox olmalıdır. Mənim həmkarım, Corciya Dövlət Universitetinin professoru ildə təxminən 180 min dollar məvacib alır. Amma maliyyədən də vacib olan amil elm adamlarının vicdanlılığı, dürüstlüyüdür. Nəhayət, üçüncü amil – elmə sosial sifariş olmalıdır. Bu gün Azərbaycanda elmə sosial sifariş, tələbat yoxdur.

*– Yaxın 40-50 ildə dünyanın tamam dəyişəcəyini, elmi potensialı olmayan ölkələrin təkrar neolitə qayıdacağını deyirsiniz. Güclü elmi potensialın yaranması üçün ən azı neçə il lazımdır?*

– Bir millət vəkili bir dəfə dedi ki, Allahın altında bizimkilər özümüzünkülərə başqalarından daha tez inanaydılar. Bizdə dünyada yaxşı tanınmış alimlər var. Bir dəfə Zadədən soruşdum ki, Azərbaycanın gələcəyini necə görürsünüz? Cavab verdi ki, Sinqapura, Malayziyaya baxın, onların nə qızılı, nə də nefti var. Yaxşı seçilmiş gəncləri, mütəxəssisləri qabaqcıl ölkələrə təhsil almağa göndərmək lazımdır. Qoy onlar bu ölkədə həm elm, həm də dürüstük, dəqiqlik öyrənsinlər. Deyirlər ki, o millət azaddır ki, axırıncı qulu ölür. O universitet yaxşı ola bilər ki, axırıncı rüşvətxoru yox olsun. Yalnız ciddi elmi-texniki baza, seçilmiş, tanınmış alimlərin olması, kreativ və rüşvətsiz təhsili böyük elmi potensial yarada bilər və bunun üçün də onilliklər lazımdır.

*– Elmin, texnikanın tərəqqisi ilə dünya təbiilikdən animasiya olunmuş bir şəklə çevrilir. Elm süni dünya, süni insan yaradır... Sizcə, bu yaxşıdır, yoxsa pis?*

– Bütöv götürəndə, bu yeniliklərə münasibətim müsbətdir. Elmi-texniki inkişaf qorxulu deyil, əsas məsələ bütün bu imkanların kimin əlində olmasıdır. Ona görə də bu gün Madonnanın modelləşdirilməsini, insanı necə öldürməyin təsvirini, ölümü sürətləndirmək üsulunun açıqlanmasını anlaya bilmirəm. Bu baxımdan, alimlər dönə-dönə qeyd edirlər ki, elmin inkişafı ilə bərabər ümumbəşəri mənəviyyat da yüksəlməlidir. Mənəviyyatın tərəqqidən geri qalması bizi xoşagəlməz mənzərə ilə üzləşdirir ki, bu da əsla alimlərin günahı deyil.

*– Sizin müasir informasiya anlayışına münasibətiniz necədir? Bu xəbər bolluğunda ürəyiniz istəyən məlumatları oxuya bilirsinizmi?*

– Bugünkü xəbər bolluğunu alimlərdən biri belə qiymətləndirib: "İnformasiya dənizində boğulduq, bir damla bilik üçün ürəyimiz gedir". Müasir dünyanın televiziya, internet, mətbuatında yer alan xəbərlərin insan beyninə yüklənməsi fiziki baxımdan çox zərərlidir. Əsl elm adamı, səviyyəli oxucu odur ki, bu bolluqdan lazımlısını qəbul edir. Gəlin görək, bugünkü mətbuatda bir alimlə müsahibəyə nə qədər tez-tez yer ayrılır? Alimlərin fikirləri nə qədər oxucunu maraqlandırır? Bu problem də artıq bəşəriləşib. İndi çox adam informasiya ilə məlumat anlayışını qarışdırır. İnformasiya məlumat deyil. Cəmiyyətin bol informasiyalı yox, bilikli adamlara ehtiyacı daha çoxdur.

*– Rasional düşünən bir insanın, dəqiq elmlər üzrə tanınmış alimin dinə münasibəti də maraqlıdır...*

– Mən dünyada elə bir alim tanımıram ki, Tanrısız olsun. Söhbət elmi dərəcəsi olanlardan getmir, Nyuton, Eynşteyn, Zadə... Onların heç biri Allahsız olmayıb. Ümumiyyətlə, istənilən insanın dünyagörüşünün üç başlanğıcı var: Allah, insanın daxilindəki Mən və universitetlər. Söhbət yüksək bilik, səviyyə verən universitetlərdən gedir. Mənim inamım və imanım dinimdən çox yüksəkdir. Yanlış başa düşülməsin, dini etiqada tolerant yanaşıram, amma məndə qətiyyən fatalizm yoxdur. Allah məni yaradıb, mənə əxlaq, normalar verib, deyib ondan kənara çıxma. Mənim qəti fikrim belədir ki, normadan kənara çıxan cəzalanır. Bizdə həmişə deyirdilər ki, Allahın barmağı olmur ki, adamın gözünü çıxartsın... Amma Allah insanı tarazlıqda yaradır və yaşadır, nəyisə sənə çox versə, bil ki, əvəzində nəyisə də alacaq, ona görə həmişə həddi gözləmək lazımdır.

*– Deyirlər, insanı doğulduğu torpaq həmişə özünə sarı çəkir. Bu illər, iş-güc Lütfi Zadəni Azərbaycana, Sizi Qarabağa bağlayan bağlardan tamam ayırmayıb ki?*

– Lütfi Zadənin qəlbində Azərbaycana sonsuz sevgi var. O, Bakıda doğulub, burda məktəbə gedib. İnsan yaşlandıqca tədricən onda torpaqlaşma gedir, ona görə də doğulduğu torpağı arzulayır. Bu, bir həqiqətdir, amma gərək Zadəni yaxından tanıyasan. "Başına dönüm, qurbanın olum" deməklə ona yaxınlaşmaq mümkün deyil, onunla danışmaq üçün ortaq, ümumi harmoniya olmalıdır. Mənim ən yaralı yerimə gəlincə, Qarabağın xilası çox ağır yoldur. Qarabağı ilk növbədə beyin laboratoriyasında, masa arxasında qaytarmaq lazımdır...

**Laura Cəbrayıllı**

## LÜTFİ ZADƏNİN EVİ ORTA STATİSTİK AZƏRBAYCANLININ EVİNDƏN DƏ AŞAĞI SƏVİYYƏDƏDİR

***"Mən necə xoşbəxtəm deyə bilərəm ki, atamın, anamın qəbri üstə gedə bilmirəm".***
***"Lütfi Zadənin mətbəxində iki stul var, biri özünün, biri də həyat yoldaşının. Mən gələndə isə Zadə gedib hardansa bir oturacaq tapıb gətirirdi, nə qədər çalışırdım ki, həmin oturacaqda mən oturum izin vermirdi, elə özü otururdu. Yəni onun evi bu vəziyyətdədir".***

Onun haqqında çox danışmaq istəmirəm. Elə adını demək kifayətdir. Onu görəndə, onunla həmsöhbət olanda hiss edirsən ki, yaşlı nəsil və gənc nəsil arasında heç bir anlaşmazlıq ola bilməz. O, Rafiq Əliyevdir. Yaxşı insan, yaxşı alim, yaxşı ata və yaxşı müəllim. Bəlkə də qeyri-səlis məntiqlə son dediyim yaxşı sözünü qəbul etməz, bütün bu sözlərə layiq olsa belə. Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, Azərbaycan Dövlət Neft Akademiyası (ADNA) Bakı Dövlət Universiteti; Corciya Dövlət Universitetinin müəllimi, Azərbaycan Dövlət Neft Akademiyası "Avtomatlaşdırılmış idarəetmə sistemləri" kafedrasının müdiri; MBA Proqram və BBA Proqram direktoru; "Zadə irsi və Süni intellekt" Assosiasiyasının prezidenti Rafiq Əliyevlə müsahibəni təqdim edirəm.

*– SSRİ Dövlət Mükafatı laureatı, Corciya Dövlət Universitetinin professoru (Atlanta, ABŞ) "Zadə irsi və Süni intellekt" Assosiasiyasının prezidenti və çoxlu sayda başqa titulların sahibi olan Rafiq Əliyevlə görüşmək düşündüyümüzdən çox asandır. Niyə bu qədər sadəsiniz, yoxsa elə bu cür olmaq lazımdır?*

– Əstağfürullah mən niyə fərqli olmalıyam ki? Bildiyiniz kimi Almaniyada, Amerikada, Bakı Dövlət Universitetində və bir sıra universitetlərdə mühazirələrim olur. Bir dəfə icazə verməm ki, mən içəri daxil olanda tələbələrim ayağa qalxsın. Birinci şərtim elə bu olur. İstəyirəm ki, onların içindəki o qul hissi dəfn olunsun. Bunu bir dəfəlik qəbul edin ki, siz və sizin kimi minlərlə jurnalistlə mənim aramda heç bir fərq yoxdur. Jurnalistlərə çox böyük hörmətim var. Mən sınmayan jurnalistləri dövrümüzün qəhrəmanları adlandırıram. Biz də normal yaşayırıq, siz də yaşayırsınız. Söhbət normal yaşayan insanlardan gedir, oliqarxları bura aid etmək olmaz, onları bu zümrəyə aid etmirəm.

*– Sizin bu cür düşünmənizdə çalışdığınız xarici ölkələrin təsiri var, yoxsa elə sırf Azərbaycan mədəniyyətinin təcəssümüdür?*

– Təbii ki, həmin ölkələrin təsiri var. Həsən bəy Zərdabi deyib ki, "para qazanmaq elmini qərbdən öyrənin, əxlaqı isə şərqdən". Mən də tez-tez bu fikrə istinad edirəm. Amma bəziləri mənim bu şərq əxlaqı fikrimi qəbul etmir. Hətta

bu barədə "Gündəlik Bakı" qəzetində də bir yazı çap olunmuşdu. Mən cavab vermək istəmədim, təbii ki, bu da hörmətli Kamran Məhərrəmlinin fikridir. Mən şərq əxlaqı deyəndə Qurani-Kərimdən, Əxlaqi-Nasirdən gələn əxlaqa qulluq edirəm. Mən böyük Nizamidən, Füzulidən gələn əxlaqı nəzərdə tuturdum. Təbii ki, belə düşünməyim Azərbaycanda yaranıb, amma qərb ölkələri də buna təsirsiz ötüşməyib. Mən 30-40 min tələbəsi olan Corciya Universitetində işləyirəm. Bu yaxınlarda həmin universitetin prezidenti də Bakıya gəlmişdi. Onlarda rektora prezident deyirlər, tutaq ki, universitetdə prezident gəlib keçir, tələbələr, müəllimlər hərə bir yerdə oturub, heç yerlərindən tərpənmirlər. Sadəcə rektor əli ilə bir salam verir. Ayağa dursunlar, belə şeydən söhbət gedə bilməz. Mən tələbələrə məqbul olan hər şeyə icazə verirəm. Onlar dərsdə yemək də yeyə bilər, "Cola" da içə bilər. Təki mənim azadlıq çevrəmə girməsinlər. Mən dünyada belə görmüşəm, bu onların haqqıdır. Sizə bir şeyi danışmaq istəyirəm, əminəm ki, bu çoxlarına təsir edəcək. Bir dəfə Almaniyada yaşayan azərbaycanlı həmkarım mənə dedi ki, mən adətən işıqforu gözləyirəm, amma gecə maşınlar az olduğundan işıqfora əməl etməyib, "qırmızı işıq"da keçirəm. Amma bir gecə dayananda gördüm ki, it də dayanıb orada, mən həmişəki kimi gecə olduğundan "qırmızı işıqda" keçmək istədim, gördüm ki, it "qırmızı işıq"da keçmədi. O hadisədən sonra heç vaxt "qırmızı işıq"da keçmirəm.

*– Sizcə, dünya şöhrətli Rafiq Əliyevi Azərbaycanda tanıyanlar, yoxsa tanımayanlar çoxdur?*

– Çox çətin sualdır. "Facebook" sosial şəbəkəsində səhifəmə baxsanız görərsiniz ki, hər gün orada çoxlu insanlar öz fikirlərini bölüşür. Tanımadığım insanlardan müxtəlif fikirlər eşidirəm. Düzü orada elə şeylər yazırlar ki, mən onları qəbul etmirəm, daha doğrusu, o təriflərə özümü haqq etmirəm. Tutaq ki, hansısa bir saytda yazılarım gedibsə, həmin yazıya oxucu rəylərini görəndə çox düşünürəm. Görürəm ki, hörmətlə yanaşırlar, inanın heç onları tanımıram. Məndən bir dəfə soruşdular ki, heç sizi tənqid ediblər və buna necə yanaşırsınız? Mən də cavab verdim ki, çox sakit, adi yanaşıram. Çünki mənim yaşayış tərzim qeyri-səlis məntiqdən, həyata tolerantlıq məntiqindən irəli gəlir. Bir dəfə özünü tanımasam da, imzasından tanıdığım Seymur Baycan məni tənqid etmişdi. "Yazmışdı ki, ola bilər yaxşı alimdir, amma vətəndaşlıq mövqeyi qabarıq deyil". Mən də cavab olaraq dedim ki, ola bilsin ki, məndən daha çox şey gözləyir və bu onun haqqıdır. Bundan savayı bu yaşa qədər qəzet tənqidi görməmişəm.

*– Bəs bu gün alimə, elm adamına verilən qiymət sizi qane edir?*

– Azərbaycanda alimə o qədər də çox qiymət verilmir.

*– Niyə?*

– Əvvəla Azərbaycanda elə yüksək elm yoxdur ki, ona qiymət verilsin. Niyə Azərbaycanda elm yoxdur sualına isə gəlincə, Azərbaycanın bugünkü durumunda elmə sosial sifariş yoxdur. Elm o zaman iqtisadiyyata, sosial həyata təsir edə bilər ki, milli gəlirdən 2 faizdən çox elmə ayrılsın. Bu artıq dünyada qəbul olunmuş bir aksiomdur. Bizdə isə bu 0.6 faizdir. Bu heç bir şeyə

təsir etməz. Elə ancaq AMEA-nı saxlamağa kömək edə bilər və bununla da, elm olmaz. Elm böyük ixtiralar, kəşflər, nəzəriyyələr üçün lazımdır. Əgər bu gün elmə ciddi qayğı olmasa, böyük sərmayələr qoyulmasa ölkənin postneft dövrü çox qaranlıq olacaq.

*– Əgər Azərbaycanda elm lazım deyilsə, Rafiq Əliyev niyə Azərbaycandadır?*

– Mən ABŞ-ın Corciya Dövlət Universitetinin təyin olunmuş yox, müsabiqə ilə seçilmiş professorlarındanam. Almaniyada, Kiprdə, İranda universitetlərdə işləmişəm, yəni istənilən vaxt papağımı götürüb ora gedib işimi davam edə bilərəm. Mən Qarabağda doğulmuşam və o vaxt torpağımı qoyub gedə bilməzdim. Dəfələrlə dəvətlər olub, amma getmədim. İndi isə heç getmək fikrim yoxdur. Çünki bu gün qaranlıq bir cəmiyyət mövcuddur. İnsan özünə ziyalı deməz, amma bugünkü qaranlıq cəmiyyətə işıq salmaq üçün ziyalılara ehtiyacı var. Ziyalılara çox böyük məsuliyyət düşür. Peyğəmbərin zamanından bu günə qədər bütün ziya gələn tərəfə həmişə daş atıblar. Bir cəmiyyətdə az atıblar, digərində çox, amma həmişə də daş atıblar. Nə qədər alimlər acından ölüb. Gəlin xatırlayaq Axundovun cənazəsi yerdə qaldı, S.Ə.Şirvanini qapının arasında sıxıb öldürdülər, Mirzə Ələkbər Sabirə sabun satdırdılar. Mirzə Cəlil öz əlyazmaları ilə isinirdi. O ziyalı ki, cəmiyyəti qaranlıqdan aydınlığa çıxartmaq istəyir, bunların hamısı ilə razılaşmalıdır. İstənilən vaxt onun başına bu cür hadisələr gələ bilər. Bunları bilərək də heç bir yerə getmək fikrim yoxdur.

*– Siz müsahiblərinizin birində qeyd etmisiniz ki, alimin kitabı, kəşfi, elmi nəzəriyyəsi olar, pulu olmaz. Sizcə, alim elə kasıb olmalıdır?*

– İnanın nə qədər alim tanıyıram hamısı elədir. Bu dünyanın hər yerində olduğu kimi, Azərbaycanda da belədir. Mən Zadənin evində tez-tez oluram. Biz Zadə ilə ailəvi dost da yox, bir ailə kimiyik. Həmişə onunla çörəyi mətbəxdə yeyərik. Mətbəxdə də iki stul var, biri özünün, biri də həyat yoldaşının. Mən gələndə isə Zadə gedib hardansa bir oturacaq tapıb gətirirdi, nə qədər çalışırdım ki, həmin oturacaqda mən oturum izn vermirdi, elə özü otururdu. Yəni onun evi bu vəziyyətdədir. Zadənin evi orta statistik azərbaycanlının evindən də aşağı səviyyədədir. Bu o demək deyil ki, Zadənin pulu yoxdur. Sadəcə o pulunu daha səmərəli şeylərə xərcləyir. Nə onun, nə də mənim təmtəraqlı həyata ehtiyacımız yoxdur. Mən heç cür anlamıram ki, adam 80-90 min manatlıq maşında gəzsin. Səmimi deyirəm mən onu anlamıram. Bəyəm bu maşının fərqi var? Ya 15 min olsun, ya 100 min olsun? Ümumiyyətlə, Allah insana birini verər, digərini verməz. Mərhum şairimiz Nüsrət Kəsəmənli də deyərdi:

*Uzaqdaydı mən istəyən ocaqlar,*
*Ürəyimdən gəlib keçdi sazaqlar.*
*Atalıydı, analıydı uşaqlar,*
*Bizim evdə bir vardı, biri yox.*

İstəyir Amerika, istəyir Almaniya olsun. Həmişə biri var olub, biri də yox. Zadəyə Allah o boyda ağıl verib, təzədən pul da versin?

*– Həyatda çox təcrübəli və bununla yanaşı sanki həyatın bütün nemətlərindən dadmış, nəfsi güclü olmayan insana bənzəyirsiniz. Həyata çox təriflər verilib. Bəs sizin üçün bu an yaşadığınız həyat və ya ölüm nə deməkdir? Xahiş edirik bunu qeyri-səlis məntiqə əsaslanıb cavablandırmayın.*

– Həyat çox kiçik bir andır. Mənim baxımımdan bu kiçik anı elə yaşamalısan ki, o an qurtaranda sənin ölməzliyin başlasın. Yoxsa ye, iç, gəz, hər şey olsun, amma sən olmayandan sonra bir kimsə də səni yada salmasın. Bu həyat deyil. Böyük hörmət bəslədiyim şairimiz Taleh Həmidin təbirincə desək: unudulmayanlar ölmür.

*– Bəs siz həyatın hansı anını yaşayırsınız?*

– Anın ölçüsü sonsuz kiçikdir. Təbii ki, mən də hesabat verəndə özümü sonsuz kiçik hissənin sonunda hiss edirəm. O üfüqü görürəm. Allah sizə uzun ömür versin. Siz onu görmürsünüz.

*– Biz sizin gördüyünüz çox şeyləri görmürük.*

– Əstağfürullah. Yox, mən o üfüqü görürəm. O həyat anı daimi deyil və gərək o zərrəcik qədər kiçik olan anı elə yaşayasan ki, millətinə, elinə kömək olasan, bu dünyada bir iz qoyasan.

*– Siz bu yaxınlarda sizə çox doğma olan bir insanı – həyat yoldaşınızı itirdiniz. İlləri bir yerdə paylaşdığınız insanı itirmək nə deməkdir?*

– (KÖVRƏLİR) Artıq 6 ay oldu ki, Aidə xanım aramızda yoxdur. Mən onun haqqında “Gözlərin buraxmır məni” adlı yazı yazmışdım. Mən bu yazını onsuz yaşadığım 40 gün ərəfəsində yazmışdım. Gəldim öz otağımda səhifə yarımlıq xatirələrimi yazdım. İnanın onu çap üçün yazmamışdım, sonra məndən onu götürüb qəzetlərə verdilər. Bir çox ölkə mətbuatında həmin yazı dərc olundu. Bu yazını hamı çox bəyəndi… Tək bir saytda, “musavat.com”da 4000 dəfə baxılmışdı. Bu tam fərqli hiss idi, qəti sentimental məhəbbətdən söhbət gedə bilməz.

*– Neçə ildir evli idiniz?*

– 47 il. Bir daha da deyirəm ki, o yazıda qəti sentimental məhəbbətdən söhbət getmir. Mən o yazıda hisslərimi verdim. Əstağfurullah, sadəcə bir essedir.

1983-cü ildə SSRİ Dövlət Mükafatı alanda, təxminən 2 minə yaxın təbrik məktubu almışdım. Biri çox yaxşı yadımdadır. O da müəllimimdən idi, yazmışdı ki, “Rafiq, səni təbrik edirəm. Sənə ailə rahatlığı arzu edirəm”. Mən həmişə istədiyim adamlara ailə rahatlığı arzulayıram. Arzu edirəm ki, həmişə xoşbəxt olasınız. Bu baxımdan müəyyən illər keçdikdən sonra həyat yoldaşı insanın yarısı olur, elə bil ki, sən öz yarını itirmisən, ancaq yarı hissənlə yaşayırsan. Təbii ki, bu abırlı adamlar üçündür, kobud səslənsə belə. Talantlı və ləyaqətli yazarımız Elxan Xanəlizadənin təbirincə desəm, dünənimi onunla yaşadım, bu günümü də onunla başa vurdum, sabah da bu yoluma davam edəcəyəm.

*– Neçə övladınız var? Davamçılarınız övladlarınız arasında var?*

– İki qızım, bir oğlum var. Oğlum professordur. Uzun müddət Amerikada işlədi, orada dərs dedi, sonra Almaniyada işlədi. Hazırda Kiprdə fəaliyyətini davam etdirir.

*– Jurnalistikada təhsil alarkən kitabı daima əlimizdə olan publisist, məşhur tənqidçi Famil Mehdi ilə siz qohumsunuz?*

– Bəli, elə böyük qızım Famil Mehdinin gəlinidir, ADNA-da dosent işləyir. O biri qızımın yoldaşı da professordur, hazırda xaricdə yaşayırlar. Burada qalan böyük qızımdır. Nəvələrim də hamısı xaricdədirlər.

*– Bilərəkdən professorları başınıza yığmısınız?*

– Təbii ki, təsiri olub. Mənim çox böyük kitabxanam var və bir otağım hamısı kitabdır. Elə sovet vaxtından qalma otaqdır, o vaxtdan bir mismar da vurmamışam. Mənim ehtiyacım yoxdur ki, 2 ildən, 5 ildən bir ev təmir olunsun. Övladlarım mənə əziz olan kitablarımın arasında böyüyüb. Hətta otağımda 2-3 rəf var ki, ancaq mənim yazdığım kitablarımdır. Onlar da görürdülər ki, ataları kitab yazır, onlarda da stimul yarandı və bu ixtisası seçdilər.

*– Rafiq müəllim, ilk baxışdan çox mülayim insana bənzəyirsiniz. Bəs ata kimi necə idiniz? Xüsusi ilə də indiki zaman valideyn-övlad problemi baş alıb gedir. Nəticədə də azyaşlı uşaqların intiharları artır. Əsas səbəb kimi ailədaxili psixoloji vəziyyətlə bağlayırlar. Siz nə düşünürsünüz? Niyə çox adam intihar edir?*

– Allah insanı tarazlıqda yaradır: bir meyarı yaxşılaşdırmaq istəyirsənsə gərək o birinin hesabına olsun. Eyni zamanda hər ikisini yaxşılaşdırmaq mümkün deyil. Mən Moskvada bir kitab çıxardım. Bu ideyanı teorem kimi orada verdim. Hətta dedim ki, bu ideyanın müəllifi mən deyiləm. Çünki bunun müəllifi öncə Allahdır, sonra da Qoqol. Qoqolun "Evlənmə" əsəri var. Orada bir xanıma elçilər gəlir. Müxtəlif səbəbləri sadalayır və heç kimi bəyənmir. Lap axırda buna deyirlər ki, bəs sən nə istəyirsən? O da cavabında "elə adam istəyirəm ki, nöqsanlardan xali olsun", – deyir. Yəni Allah elə bir adam dünyaya gətirməz ki, hər şeyi yerində olsun. Mənim üçün isə bunlardan ən önəmli meyar ailəm olub. Ailə mənim üçün vətən anlamındadır. Nə qədər vətənimi sevirəmsə, ailəmi də o qədər sevirəm. Gərək ailədə düzgünlük olsun. Ailədə ən böyük xoşbəxtlik odur. Bu xoşbəxtliyin özü də qeyri-səlis məntiqdə dərəcə ilə olur. İdeal xoşbəxtlik yoxdur. Mən necə xoşbəxtəm deyə bilərəm ki, atamın, anamın qəbri üstə gedə bilmirəm. Doğulduğum yerə – Qarabağa gedə bilmirəmsə hansı xoşbəxtlikdən danışım? Mənim mənəvi itkilərim coğrafi itkilərdən də çox olub. Amma Allaha qurban olum övladlarımdan da çox razıyam, namuslu, qeyrətli, intellektləri güclüdür. Təbii ki, burada rəhmətlik həyat yoldaşımın böyük rolu var, uşaqların tərbiyələri ilə daha çox anaları məşğul olur.

İntiharlara gəlincə isə, bu gün Azərbaycan cəmiyyətində sosial nevroz xəstəliyi var. Həm iqtisadi, həm əxlaq baxımından. Bu səbəbdən bir dözümsüzlük əmələ gəlib. Biri baltalayır, biri anasına 15 bıçaq vurur, o biri övladını öldürür.

*– Biz hamımız bu cəmiyyətdə yaşayırıq. Əgər cəmiyyəti biz bu günə qoymuşuqsa nə isə etməliyik. Necə dəyişdirə bilərik? Ya qaçmalıyıq, ya da dəyişdirməliyik?*

– Qətiyyən qaçmaq olmaz. Fikrimcə, bunun ən böyük yükü siz gənclərin üzərinə düşür. Mənim və dostlarımın hamısının cəmiyyətin bu günə düşməsində günahı var. Biz etmişik, bizim gözümüzün qabağında baş verib, biz mübarizə aparmağı bacarmamışıq. Bunu düzəltmək isə sizlərin çiyninə dü-

şür, xüsusilə də xaricdə təhsil almış tələbələrin üzərinə və ziyalıların boynuna düşür.

*– Siz Corciya və bir sıra xarici universitetlərdə dərs demisiniz. Eyni zamanda Azərbaycanda BDU və ADNA-da dərs deyirsiniz. Bəlkə, bir müqayisə edək. Bizim gənclərlə onlar arasında nə fərq var? Niyə biz onlar kimi ola bilmirik və ya məcburuq onlar kimi olmağa? Niyə hamımız Avropaya qaçırıq?*

– İnanın, bu haqda heç düşünməmişəm. O şeyləri müqayisə edərlər ki… Mən zərrəciklə kainatı necə müqayisə edim? Hər şey mühitdən asılıdır. Xaricə gedəndən sonra istənilən insan 6 ay, 1 ildən sonra mütləq dəyişəcək. Mən o tələbələri necə müqayisə edim ki, bizimkilərin böyük əksəriyyəti gedib pul verir, universitet qurtarır. Amma Azərbaycan fərdləri çox istedadlıdır. Mən hər il Almaniyaya tələbələr göndərirəm. Mənə Almaniyadan məktub göndərib dedilər ki, bir azərbaycanlı tələbə Almaniyada universitetdə 1 nömrəli tələbə hesab olunub və ona da ən gözəl tələbə kimi böyük mükafat veriblər. Təsəvvür edin, həmin universitetin 30-40 min tələbəsi var. Burada da elə tələbələr var, amma mühit onları udur.

*– Bu mövzuda optimist, yoxsa pessimistsiniz?*

– Mən optimist baxıram. Heç elmdə də 100 faiz məsələsi yoxdur. Hər şeyi 99 faizə qədər verirlər. 99 faizdən o yananı isə Allah bilir. Mən isə 99 faizə yaxın optimist olaraq deyirəm ki, bu vəziyyət siz gənclərin hesabına hökmən bitəcək.

*– Rafiq müəllim, qeyri-səlis məntiq bu aralar yaman dəbə düşüb. Hamı bundan danışır, bu hamının danışdığı qədər asan, yoxsa heç kəsin anlamayacağı qədər çətindir? Sizdən qeyri-səlis məntiqi loru dildə izah etməyinizi xahiş edirik.*

– 1996-cı ildə Zadə haqqında film çəkirdik. Mən Zadədən xahiş etdim ki, onlara qeyri-səlis məntiqi ən sadə şəkildə izah etsin və izləyicilərə aydın olsun. Zadə özü yaratdığı bir şeyi elə mürəkkəb dedi ki, heç mən özüm başa düşmədim (gülür). Ümumiyyətlə, bütün böyük kəşflər sadədən də sadədir. Zadə çox sadə bir iş gördü, amma ora gəlmək üçün Aristoteldən tutmuş 1965-ci ilə qədər böyük bir təkamül yolu keçdi. Orta məktəbdə riyaziyyatda fiqurlu mötərizə var, onun içində 0 və 1 var. Tutaq ki, bir adamın 39 yaşı var. Mötərizənin içinə ya sıfır qoyarlar, ya da bir. 39-u yaşlı saydığınız təqdirdə 1, qalan hallarda isə sıfır yazacaqsınız. Zadə isə dedi ki, orta mötərizədə, yəni intervalda (biz oxuyarkən orta mötərizə deyirdik) sıfırla bir arasında milyardlar dənə dərəcə var. Yəni 39 yaşlı həm cavan, həm də yaşlı ola bilər. Amma Aristotel deyirdi ki, ya cavan, ya da yaşlı olmalıdır. İndi Müsavatda olan YAP-çıların, ya da YAP-da olan Müsavatçıların düşmənidir. Bu da Aristotel məntiqidir. İnanın ki, YAP-da, Müsavatda, hər yerdə yaxşı adam var. Zadə bax o fiqurlu mötərizənin əvəzinə bu orta mötərizəni qoydu. Bizim orta və ali məktəbdə öyrəndiyimiz klassik riyaziyyatın əsasında Aristotel məntiqi durur. Ya var, ya yox. Qeyri-səlis məntiq isə riyaziyyatı dəyişdi. Riyaziyyat dildir, əgər o dəyişdisə bütün elmlər dəyişər. Bax mənim kitablarım arasında qeyri-səlis kimya var, iqtisadiyyat, fizika var. Elmlərin hamısını dəyişdi. Mən iki il bundan qabaq Kiprdə konfrans keçirirdim, dünyanın müxtəlif ölkələrindən alimlər gəlmişdi. Amerikadan bir fizik gəlmiş-

di, ondan soruşdum ki, siz fiziksiniz fizikanın harasında qeyri-səlis məntiqdən istifadə edirsiniz. O dedi ki, bu günə qədər fizika ya determinizmə (Nyuton), ya da Kvant fizikası yaranandan sonra ehtimal nəzəriyyəsinə söykəndi. Ehtimal da təcrübələrə əsaslanıb, ehtimal nəzəriyyəsi qumardan gəlib. Kvant mexanikası da ehtimal nəzəriyyəsinə söykənib. Qeyri-səlis məntiq ehtimallarla yox, gümanlarla işləyir. Eynşteyn ölməyinə bir neçə saat qalmış ağzından bir ifadə çıxartdı. Bunu "The Nyu-York Times"a istinad edib danışıram. O dalğa nəzəriyyəsinə görə "Nobel mükafatı almışdı və həmişə deyirdi ki, bu mükafatı doğru almamışam. Onun dediyi ifadəyə gəlincə isə, o dedi ki, "Allah kainatla zər oyunu oynamır". Zər özü ehtimaldır. Yəni o özü gümanlar sözünü işlətdi, bunun özü elə qeyri-səlis məntiqdir. Bu səbəbdən qeyri-səlis məntiq bütün elmləri dəyişdi. Bunun məğzi odur ki, dünyada Tanrıdan başqa hər bir şeyin dərəcəsi var. Mən bir yazımda da demişəm, qeyri-səlis məntiqlə düşünən siyasətçi İraqı bombalamazdı. O, Aristotel məntiqi ilə düşünüb. İkincisi isə: qeyri-səlis məntiq deyir ki, dünyada hər şeyin qavraması ədədlərlə deyil, toplu-toplu şəkildə gedir. Məsələn, bir müddəa deyim: "Bütün yaranmış insanlar öləcək. Sokrat insandır". O zaman məlum olur ki, Sokrat da öləcək. Rəqəmlərlə hansı hesabat apardıq? Yəni qeyri-səlis məntiq deyir ki, dünyanı rəqəmlərlə qavramıram və hesablayanda da sözlərlə hesablayıram.

*– Qeyri-səlis məntiq bəs Qəddafi ilə, ümumiyyətlə "ərəb küləkləri" ilə bağlı nə deyir?*

– Mən dünyanın yeni düzümünə qeyri-səlis baxımından inanıram. Gərək dünyada tolerantlıq olsun. Bütün çatışmazlıqların, müharibələrin, 100 minlik maşın sürməyin kökündə tolerantlığın olmaması durur. Çünki qəddafilər qeyri-səlis məntiqlə işləmirlər. Onlar nəinki bizi insan, heç qarışqa kimi də görmürlər. Onlar üçün Aristotel məntiqi keçərlidir: ya adam var, ya da yoxdur. Yad adam, intellektual adam onlar üçün yoxdur. Ona görə də, dünya belə yaşaya bilməz. Bunun haradan gəldiyi barədə sizə qısa məlumat verim. Dünyanın düzümü barədə iki cərəyan var. İdealistlər və nyuliberallar. Birincilər dünyada haqq-ədalət olmasını istəyirlər, ikincilər isə dövlət mənafeyini üstün tuturlar. Mən Amerikada yaşayan bir insan kimi bilirəm ki, Amerikanın daxilində insanlar tam azaddırlar. Əsl demokratiya deyilən ab-hava orada var, amma ayağını çölə basan kimi Amerikanın mənafeyini üstün tuturlar. Məncə, dünyaya hazırda elə insanlar gəlib ki, onlar idealistlərdir, yeni dünya düzümünü istəyirlər. Ərəb küləklərini də bununla əlaqələndirirəm. Kimsə deyir neft üçündür, nə bilim nə üçündür. Bir şeyi xüsusilə qeyd edim ki, hələ dünya axirətə bu qədər yaxın olmayıb. İndi Allah buna bir düzüm vermək istəyir. Bəzən mən belə danışanda bir-iki akademik var ki, Allahın bu işə nə dəxli var deyirlər.

*– Maraqlıdır, siz həmişə deyirsiniz ki, ədəbiyyata orta məktəbdən marağınız olub. Bəs niyə ədəbiyyatdan ayrıldınız? Hazırda ədəbiyyatda qeyri-səlis məntiq axtarışlarınız necə gedir?*

– (Gülür) 7-8-ci sinifdə oxuyarkən sentimental məhəbbəti təsvir edən qəzəllər yazırdım. Bir sıra şeirlərim çap da olundu. Bir dəfə rəhmətlik Famil Meh-

di bütün çap olunan şeirlərimi qəzetlərdə yığıb gətirmişdi. Sonra isə "Ana" adlı pyes yazdım. Məktəb həyatını təsvir edirdi. Mənim sovet cəmiyyətinə həqiqətən də nostaljim yoxdur, hətta bir yazımın adı belə idi: "Mən Stalin rejimində yaşamaq istəməzdim". Amma o vaxt əxlaq çox yüksək idi, elmə, sənətə çox meyil var idi. Mən instituta imtahan verəndə hamı elə bilirdi ki, sənədlərimi ya ədəbiyyata, ya da jurnalistikaya verəcəyəm. Təbii ki, riyaziyyata da böyük həvəsim var idi. Mən orta məktəbdə oxuyanda kvadrat tənlik düzəldirdim, onun müsbət kökünü alanda altında ana sözü çıxırdı. Mənim bir fizika müəllimim var idi, o mənə dedi ki, bu əsr kibernetika əsri olacaq. Bax mən fizika müəllimiyəm, istəmirəm ki, sən nə fizikaya, nə də riyaziyyata gedəsən. Birinci istədim ki, ədəbiyyata verəm sənədlərimi, bir az fikirləşdim. Baxmayaraq ki, orta məktəbi medalla qurtarmışdım, həmin il qərar çıxdı ki, hətta medalla bitirənlər belə imtahan verməlidirlər. Fikirləşəndən sonra elə bil virtual olaraq fizika müəllimimin dediklərini xatırladım və sənədlərimi Sənaye İnstitutunun "Avtomatika və Telemexanika" ixtisasına verdim. Ədəbiyyatdan isə heç vaxt uzaqlaşmamışam. Hər gün mütaliə etmişəm, elə bu gün də. Elə indi də hörmətli yazarımız Vidadi Babanlının "Bulanıq dünya" əsərini oxuyuram. Çox güclü və düşündürücü əsərdir. Mütaliədən ayrılmamışam, amma daha çox publisistik yazılar yazmışam.

*– Müasir Azərbaycan ədəbiyyatının vəziyyətini necə qiymətləndirirsiniz?*

– Bizim çox istedadlı gənc yazarlarımız var. Mənim üçün heç bir fərqi yoxdur ki, yazıçı hansı birliyin üzvüdür, əsas odur yaxşı əsər ortaya çıxsın. Mən görürəm ki, gənclərin arasında istedadlıları çoxdur. Ad çəkib kimisə unuda bilərəm. Təbii ki, onların çatışmayan cəhətləri dünya ədəbiyyatına çıxmamaqdır. Əslində dünyaya çıxmaq elmdə də çətindir, amma ədəbiyyatla müqayisədə bir az asandır. Ədəbiyyatda mütləq tərcümə yaxşı olmalıdır. Bizdə ən çatışmayan cəhət tərcümə məsələsidir. Hesab edirəm ki, Ramiz Rövşən dünya səviyyəli şairdir, onun yazı manerası, fikir dərinliyi tam qeyri-standartdır. Əstağfurullah, dostum olduğu üçün demirəm. Digər problem isə atalar və oğullar problemidir ki, o bu gün də çox qabarıqdır. Burda tolerantlığa sığmayan ancaq Aristotel məntiqi özünü göstərir.

*– Rafiq müəllim, müasir əsərlər sizin sevmədiyiniz sentimental məhəbbətə daha çox həsr olunub. Bu mövzuda yazılan kitablarla qarşılaşanda nə edirsiniz?*

– Oxumuram o cür əsərləri.

*– Hazırda oxuduğunuz və ya bir ay əvvəl oxuyub bitirdiyiniz kitabların adını çəkərdiniz. Əminəm ki, hamıya maraqlı olar ki, Rafiq Əliyev hansı kitabları oxuyur?*

– Son vaxtlar oxuduğum kitabların adını deyim. Rüstəm İbrahimbəyovun povestləri Sankt-Peterburqda çıxıb. Onu oxudum. Mən indi sizin dediyiniz o sentimental əsərlər deyil, faktlara əsaslanan kitabları üstün tuturam. Bəlkə də yaşımın o dövrü deyil. İstedadlı gənc yazar Elxan Xanəlizadənin, "Yol" romanını yenicə bitirdim. Gözəl əsərdir. Fəxri Uğurlunun "Hekayə"lərini oxudum. Bir də təzədən mən hər gün Hüseyn Cavid, Mirzə Cəlil, Üzeyir Hacıbəyova qayıdıram.

*– Bu gün riyaziyyatçılar ədəbiyyatı oxumağı sevmirlər. Onlar üçün ədəbiyyat təsəvvürdür, təxəyyül hesab olunur, ancaq dəqiqliyi üstün tuturlar.*

– Bu artıq nadanlıqdır. Düşünürəm ki, Dostoyevskini oxuyan insan pis adam ola bilməz. Yəni ədəbi mühitdə böyümüş insan pis ola bilməz. Nadanlıq, pislik hamısı cahillikdən gəlir.

*– Bəs Azərbaycanda kitabın qiymətini necə qiymətləndirirsiniz? Ucuz, yoxsa baha?*

– Azərbaycanda kitabın qiyməti çox ucuzdur. Hazırda Azərbaycanda 4-5 kitab mağazası var. Harada Azərbaycan dilində kitab var onları sıxışdırırlar. Çünki rus dilli kitablar daha baha satılır və bunun biznesini qururlar. Gərək bu biznesi də quranda milləti düşünəsən. Baxın görün Nigar Köçərlinin "Əli və Nino" kitab evi harada yerləşdirilib, zirzəmidə.

*– Siz qeyd etdiniz ki, ədəbiyyatçının hansı birliyi təmsil etməsi sizə maraqlı deyil, lakin bu gün Azərbaycanda ədəbiyyatçılar AYB və AYO-ya parçalanıb. Qeyri-səlis məntiqlə baxanda bəs ortada kimləri görürsünüz?*

– Tolerantlıq olan yerdə, bunun heç əhəmiyyəti yoxdur. Yəqin xatırlayırsınız, son Milli Kitab Mükafatında mən Pərvizin "Yad dildə" əsərinə 10 bal verdim. İnanın ki, mən ona qədər Pərvizi şəxsən tanımırdım. Bir ay keçəndən sonra bildim ki, Pərviz "Azadlıq" qəzetində köşə yazır. Sonra da öyrəndim ki, o nə AYB-də, nə də AYO-da var. Yəni heç kim mənə təsir edə bilməz. Hamıya əlimdən gələn hörməti etməyə hazıram, amma kimsə mənə təsir edib fikrimi dəyişsin, bu ola bilməz! Mənim qeyri-səlis məntiqim baxışımdan, 0-1 arasında heç bilmirəm kim haradadır.

*– Bu aralar hamı Nobel mükafatından danışır. Sizcə Azərbaycanda Nobelə layiq olan kimsə var, ya da niyə bizdə bu mükafatı qazanan olmur?*

– Mən az əvvəl dedim ki, Azərbaycanda elm o səviyyədə deyil axı, Nobel də olsun. Ədəbiyyata gəlincə isə gərək dünyaya çıxa biləsən. Çingiz Aytmatovun Nobel almağa şansı var idi, amma son məqamda onun siyasi fəaliyyəti ilə alınmadı. Rüstəm İbrahimbəyovun Oskar mükafatı elə Nobel ödülünə ekvivalent kimidir.

*– Bəs Azərbaycanda kimi layiq görürsünüz?*

– Fikirləşmək lazımdır.

*– Bəs dostunuz Ramiz Rövşəni?*

– Ramiz Rövşən dünya çapında olan bir şairdir. Yaxşı tərcümə olunsa, əlbəttə, Ramiz Rövşən.

*– Orta məktəblərə şamil edilən 65 yaş senzi ali məktəblərə də aid olunsa nə baş verə bilər?*

– Düşünürəm ki, 65 yaş senzinin universitetlərə aid olmaması doğru addımdır. Onsuz da son 20 ildə gənc və yaşlı nəsil arasında elmdə çox böyük uçurum yarandı. Gənclər elmə gəlmədilər. Əgər 65 yaş senzini ali məktəblərə də aid olunsa, dərs deməyə adam tapılmaz. Gərək başqa yerdən mütəxəssis gətirsinlər.

*– Qeyri-səlis məntiqin banisi Lütfi Zadə sizə bütün arxivini əmanət edib. Əmanətçi olmaq böyük məsuliyyətdir? Bu cür şərəfə nail olarkən özünüzü necə hiss edirdiniz? Bəs siz öz arxivinizin əmanətçisi kimi görürsünüz və bu şərəf kimə nəsib olacaq?*

– Birincinin cavabı odur ki, Zadəni tanımaq lazımdır. Burda qətiyyən Azərbaycançılıqdan söhbət gedə bilməz. Lütfi Zadənin təxminən 3 ay bundan qabaq yeni nəzəriyyəsi çıxdı, əsərin üzərində yazıb ki, professor Rafiq Əliyevə həsr olunur.

Biz onunla 30 ildir işləyirik və neçə kitablarmız çıxıb. Zadə nə qədər kitablarıma ön söz yazıb. Baxmayaraq ki, bəzi kitablarımda onu tənqid etmişəm, özü də ona ön söz yazıb. Əmanət məsələsinə gəlincə mən bəzi kitabalarımı oğlum Professor Rəşad Əliyevlə bərabər yazmışam. Düşünürəm ki, məndən sonra həm Zadənin arxivini, həm də öz arxivimi ona verəcəyəm. Ona da demişəm mənim əmanətlərimi itirsən də, Zadəninkiləri itirmə. İnanın, elə adamlar var idi ki, mənə zəng vurub deyir ki, Zadə evini də sizə bağışlayıb? Gör nə qədər nadan olmaq lazımdı ki, bu sualı verə biləsən. Onlar bilmirlər ki, Zadənin arxivi, kitabları evdən min dəfələrlə həm baha və həm də dəyərlidir.

**Günel Əbilova**

## YERİ GÖRÜNƏN İNSAN

Bu gün dünya şöhrətli alimimiz Xudu Məmmədovun 90 yaşı tamam olur. Görkəmli alim, professor Rafiq Əliyevin mərhum Xudu müəllim haqqında müsahibəsini oxuculara təqdim edirik.

*– Rafiq müəllim, Xudu Məmmədov Ağdamın Mərzili kəndində anadan olub, siz isə Novruzlu kəndində. Bu yerlər bir-birinə çoxmu yaxındır?*

– Mərzili kəndi ilə Novruzlu kəndini cəmi bir dərə ayırır. Hətta əvvəllər yuxarı siniflərdə oxumaq üçün Mərzilidən olan şagirdlər Novruzlu orta məktəbinə gəlirdilər. Adət-ənənələri bir-birinə çox yaxındır. Elə özünə əbədi ömür qazanmış, elmimizin və ictimai fikrimizin simvollarından biri olan Xudu Məmmədovun da atası Mərzili kəndindən, anası isə Novruzlu kəndindən idi. Xudu müəllimin anası tərəf bəy nəslindən idi. Novruzlu kəndində vahid bir üçmərtəbə ev var idi ki, o da Xudu müəllimin anasıgilin evi idi. Xudu müəllimin atası da Sovetlər dövründə dövlət işlərində çalışırdı. Novruzlu kəndi haqqında ən yadımda qalan xatirələrdən biri odur ki, 1988-ci ildə mənim bu dünyalı və o dünyalı dostum general Məhəmməd Əsədov XIX əsrin sonlarında Peterburqda dərc olunmuş bir kitab göstərdi. O kitabda göstərilmişdi ki, XIX əsrdə Novruzlu kəndində 96 tüstü var idi. Aydınlıq üçün qeyd edim ki, o vaxtlar evlər sayını, əhali sayını bacadan çıxan tüstü ilə ölçürdülər.

*– Bildiyimə görə, siz Xudu müəllimlə həm də qohumsunuz. Yəqin, birinci onu yaxın qohum kimi tanımısınız, sonra alim, ictimai-siyasi xadim kimi, elədirmi?*

– Təbii ki, Xudu müəllimi ilk olaraq bir qohum kimi tanıyırdım. O, tez-tez kənddə nənəmgilə gələrdi.

*– Ana nənə?*

– Hə, anamın anasını nəzərdə tuturam. Elə gənc ikən də o, fitri istedadı, fərqliliyi ilə fərqlənirdi. Alim kimi (burada Xudu müəllimin ifadəsi yadıma düşdü: adam da özünə alim deyərmi, alim Nyuton olar, Eynşteyn olar) "Azərbaycan gəncləri" qəzetində onun haqqında çıxan doğrudan sensasiyaya səbəb olmuş yazı ilə tanıdım. O, Moskvada akademik Belovun, İngiltərədə Con Bernalın mötəbər elmi məktəbini keçmişdi. O məktəblər Xudu müəllimə şərəf gətirsə də, Xudu müəllimin kristallokimya sahəsindəki mötəbər işləri də o məktəblərə şöhrət gətirmişdi. Vətənə bağlılığı, həmişə ictimai-siyasi proseslərin nüvəsində olmağı ona İngiltərədə qalıb işləmək təklifindən imtina etməsinə səbəb olmuşdu. Xudu müəllimi ictimai xadim kimi səciyyələndirən əsas xüsusiyyət o idi ki, onda ekstremizm, radikallıq elementləri qətiyyən yox idi, prosesləri dərindən təhlil etmək bacarığı var idi və bir də güclü xarizması.

*– Elə bil onun haqqında tələbələrinizə dərs deyirsiniz. Maraqlıdır, hələ haqqında heç nə eşitməyən, heç nə bilməyən tələbələrinizə Xudu müəllimi necə təqdim edərdiniz?*

– Milləti, ölkəni, xalqı bütün dünyada onun seçilmişləri tanıdar. Seçilmişlər deyəndə yüksək peşə namusunu, dərin əxlaqi keyfiyyətləri, xalqının mənafeyini öz mənafeyindən üstün tutan, istənilən səviyyədə neqativlərə müxalif olan, millətinin imzasını imzalar içinə qoya bilən şəxsləri nəzərdə tuturam. Belə şəxslər, hər bir ölkədə, o ölkə xalqının adətən iki faizindən çox olmur. Xudu Məmmədov Azərbaycanımızın bu iki faizlik siyahısının başında duranlardan biri idi.

*– Onun yaxın dostları kimlər idi, ən çox kimlərlə bir yerdə görərdiniz?*

– Mənim təbirimcə dost sənin aynandır. Əsl dost onda olur ki, davamlı əqidə birliyi, təmənnasız münasibətlər, dar ayaqda dayaq olmaq bacarığı olsun. Xudu müəllimin əsasən iki yaxın dostu var idi. Böyük fikir adamı, dəyərli mərhum şairimiz və mənim də əziz dostum Bəxtiyar Bahabzadə və bir də gözəl insan, təmiz əqidə sahibi professor Nurəddin Rzayev. Onlar tez-tez Azərbaycanın rayonlarına gedər, xüsusən orta məktəblərdə, Bakıda universitetlərdə birgə görüşlər keçirərdilər.

*– Bəs siz özünüz necə, Xudu müəllimlə tez-tezmi görüşürdünüz, yoxsa təsadüfi vaxtlarda? Ümumiyyətlə, münasibətləriniz hansı səviyyədə idi? Dost, yoxsa, sadəcə, qohum?*

– Xudu müəllimlə münasibətlərimiz qohumluqdan çox dostluq münasibətləri idi. Bu dostluğu həm də düşüncə vektorlarımızın istiqaməti, elmi fikirlərimiz dəstəkləyirdi. Xudu müəllim dünyasını dəyişməmişdən üç gün öncə qoltuğunda böyük bir qovluqla mən çalışdığım iş yerimə gəlmişdi. Bir xeyli dərdləşdikdən sonra qovluğu açdı, mənə bir rənglər çaları ilə dolu sxem göstərdi. Rafiq, bu "Şur"dur. İkinci bir şəkil göstərdi: bu "Çahargah"dır. Sonra isə bu da "Segah"dır. Onu da qeyd edim ki, Xudu müəllimin yaxşı rəssamlıq qabiliyyəti var idi.

*– Rəssam kimi haradasa işləmişdi?*

– Bəli, o, bir neçə müddət Ağdam Dövlət Dram Teatrında rəssam kimi çalışmışdı. Mənə göstərdiyi şəkil-sxemlərdə muğamlarımızın rənğlərlə təsviri verilmişdi. Hələ vaxtilə böyük alim Nyuton yeddi notla yeddi rəng arasında uyğunluğu göstərmişdi, bu dalğa tezliklərinin uyğunluğuna əsaslanır. Əvvəlcə qeyd etdiyim kimi, Xudu müəllim düşüncə tərzində radikallıq yox idi, o, qeyri-səlis məntiqlə, tolerantlıq məntiqi ilə düşünürdü. Mənə dedi ki, dünyada yeddi rəng yox, bəlkə də yeddi milyon rəng var. Axı hər rəngin neçə çaları var. Mən bu çevirmələri, yəni muğam səslərini yeddi rəngə çevirdim, sən isə qeyri-səlis məntiqin və müasir kompüter texnologiyalarının gücündən istifadə etməklə muğamlarımızla rənglər arasındakı (məsələn, xalıdakı, gəbədəki rənglər) uyğunluğu araşdır. Mənim elmi marağım olmasa da Xudu müəllimin son vəsiyyətini yerinə yetirə bildim. "Maye segah"dan başladım, muğamlarımızı qeyri-səlis məntiqlə rənglərə çevirdim, xalılarla, başqa ornamentlərlə müqayisə etdim. Bir daha Xudu müəllimin zəkasına, fəhminə, mənə verdiyi şəkil-sxemlərdəki dəqiqliyə heyran oldum. Bu tədqiqat işləri Azərbaycan Konservatoriyası, ABŞ-ın Miçiqan Universiteti və başqa Misiqi Akademiyaları tərəfindən

qiymətləndirildi. Amerikada nəşr olunan "İnternational Azerbaijan" junalında Beta Bleyr bu iş haqqında məqalə dərc etdi. Bu, Xudu müəllimə verilən qiymət idi. Sonralar Xudu müəllimin vəsiyyəti və aparılan tədqiqatlar əsasında mən "Segahı görürəm" adlı bir kitab çap elətdirdim, təxminən 20 çap vərəqi və o kitabı Xudu müəllimə ithaf etdim.

*– Rafiq müəllim, siz bizim üçün bir çox cəhətlərinizlə dəyərlisiniz, bilmək istərdim, Xudu Məmmədovun hansı xüsusiyyətlərini özünüzdə görmək istərdiniz?*

– Dəfələrlə məndən soruşublar ki, siz Xudu müəllimin qohumusunuzmu? Çünki həm davranışınızda, həm xarici görünüşünüzdə, səsinizdə bir oxşarlıq var. Mən həmişə bununla fəxr etmişəm. Xudu müəllim mənim həyatımda hər bir sahədə örnəkdir. Xüsusən, elmi və həyati prinsipiallığı, hadisələrin təhlilində səbəb nəticə axtarmağı, katarsis yaşamağı və təmizlənməyi, bir də elmlə sənətin vəhdətinə sadiq olmağı ondan əxz etməyə çalışmışam. Mənim də həyatda ən yaxın dostum, əqidə sirdaşım böyük şairimiz Ramiz Rövşəndir və bir də bir və ya iki sənət, fikir adamı.

*– Bəs Xudu müəllimin ölüm səbəbi nə oldu? Hər hansı uzun sürən xəstəliyi vardı, yoxsa qəfil oldu?*

– Xudu müəllim dünyasını dəyişənə kimi iki dəfə ürək iflici keçirtmişdi. Axı millətin bu boyda yükünə Xudunun yumruq boyda ürəyi necə dözəydi? Xudu müəllim həmişə mənə deyərdi: "millətimizin öncülləri siyahısında Üzeyir bəy başda durur". Elə o, Üzeyir bəyin evində Qarabağ problemləri və başqa ictimai-siyasi problemlər müzakirə olunarkən qəfildən ürək iflicindən dünyasını dəyişdi.

*– İndi cəmiyyətimizdə, ictimai-siyasi həyatımızda Xudu müəllimin yerini ən çox haralarda görürsünüz? Deyilənə görə, hadisələrə yaxşı ironiya eləyə bilirmiş.*

– İndi ictimai-siyasi həyatımıza baxanda tolerantlıq qıtlığı, barış nöqtələrinin yoxluğu, proseslərə adekvat münasibət çatışmazlığı nöqtələrində Xudu müəllimin yeri görünür.

*– Bu barədə heç məlumatım yoxdur, ona görə soruşuram. Xudu Məmmədovun övladları arasında onun yolunu davam elətdirən oldumu? Bəs övladları nə işlə məşğuldur?*

– Xudu müəllimin bir oğlu var. Toğrul. Çox ləyaqətli vətən oğludur. İnformatika sahəsində yaxşı mütəxəssisdir.

*– Yaxşı bayatılar da yazıb. Ssenarilər də yazıb. Necə məsləhət görürsünüz, biz Xudu Məmmədovu əsasən, hansı istiqamətdə tanıyaq? Şair, kimyaçı alim, ssenarist, yoxsa?..*

– Təbii ki, Xudu müəllimin fəaliyyətində elm dominantlıq təşkil edir. Xudu müəllim kristolloqrafiya sahəsində dünyada sayılıb-seçilən alimlərdən biridir. Eyni zamanda o, sənətin vurğunu idi və onun dərinliklərinə baş vura bilirdi. Vaxtilə onun çap etdirdiyi "Qoşa qanad" kitabı əl-əl gəzirdi və bestseller olmuşdu. Xudu müəllim yaşadığı mənalı ömür boyu heç kimə möhtac olmadı, heç kimə borclu qalmadı. Bir Azərbaycandan başqa. O, Azərbaycan üçün çox iş görmək istəyirdi.

*– Rafiq müəllim, mən çox adam tanıyıram ki, Xudu Məmmədov haqqında maraqlı xatirələr danışıblar. Yəqin, sizin də ürəyiniz bu cür xatirələrlə zəngindir.*

– Birini danışım. Bir dəfə Xudu müəllim mənə telefon açdı və dedi ki, gedək Neftçalaya, Sosialist Əməyi Qəhrəmanı Nuruş Əliyevin kolxozundakı məktəbə baxaq. Yolda maşında mənə danışdı ki, dünən bizim İnstitutda (Elmlər Akademiyasının Qeyri-Üzvi Kimya İnsitutu) Elmi Şura keçirilirdi. İnstitutun direktoru cari ildə alınan elmi nailiyyətlərdən danışdı (guya elmi nailiyyətlərdən) və dedi ki, hətta yardımçı təsərrüfatımız o qədər inkişaf edib ki, bu institutda hər adam başına 76 kq polimer düşür. Nitqini sona yetirəndən sonra soruşdu ki, kimin sualı var. Heç kim sual vermədi. Guya hər şey aydın idi. Mən əlimi qaldırdım. Soruşdum ki, hörmətli direktor, bildik ki, bu institutda hər adam başına 76 kq polimer düşür. Deyə bilərsinizmi ki, bəs hər adam başına nə qədər daş düşür?

Son xatirələrimdən birini də danışım. Bir yerdə Nurəddin Rzayevgilə yasa getməliydik. Mən onu yaşadığı evin qarşısından təxminən axşam saat 7 radələrində götürməli idim. Hava da qaralmışdı. Biz maşına oturanda bir qoca qarı bizə yaxınlaşdı, dedi ki, oğul, evimi itirmişəm tapa bilmirəm. Düz saat 7-dən axşam saat 10-a kimi Xudu müəllim Hökümət evinin qarşısından "Qaqarin" körpüsünə kimi bütün evləri, binaları mənimlə və o qarı ilə gəzdi. Nəhayət, onu öz ailəsinə təhvil verəndən sonra gecikmiş də olsaq, yolumuza davam etdik.

**Moderator.az**
14.12.2017

## "AĞDAMDA NƏYİNİZ QALDI?" SUALINA TANINMIŞ AĞDAMLILARIN KÖVRƏLDİCİ CAVABLARI

Bu gün Ağdamın işğalından 21 il ötür. 1993-cü ilin bu günündə Azərbaycan elm, mədəniyyət və ictimai siyasi həyatına çox böyük töhfələr verən bu rayonun xeyli hissəsini düşmən istila edib. Ağdamda doğulub-böyüyən tanınmış insanlar bu gün nə düşünür? Ağdamın tanınmış elm, ədəbiyyat və ictimai xadimlərindən "Ağdamda nəyiniz qaldı" sualı ətrafında sorğu keçirilib.

Rafiq Əliyev, dünyada tanınan alim, professor: "Mənim özümə aid olan bir fikrim var: Bir şeyin qiyməti, dəyəri səndən nə qədər uzaq olması ilə ölçülür". İndi Ağdam məndən o qədər uzaqdır ki... 350 kilometr deyirlər. Amma Ağdamla mənim aramda məsafə 350 milyon kilometrdən də çoxdur. Təbii ki, bu mənəvi uzaqlığın ölçü vahididir. Atamın, anamın, əzizlərimin qəbrini gedib ziyarət edə bilmirəm. Mən orada çox böyük itkini qoyub gəldim. Torpaq itkisi çox sarsıdıcıdır. Böyüdüyüm doğma komanın itkisi böyükdür. Mən orada komamı qoyub gəldim. Mənim üçün ən böyük itki bunlardır: böyüdüyüm doğma koma, xatirələrim, bir də doğmalarımın məzarı. Ancaq həmişə demişəm: "Ağdamı itirdik, təki ağdamlılığı itirməyək". Ramiz Rövşən Vahid Qazinin kitabına belə bir ön söz yazıb: "Sovet vaxtı Moskvada yaşamağa "vəzifə" deyərdilər. Bizdə isə Ağdamda yaşamaq bu cür "vəzifə" sayılırdı. Söhbət hər hansı kreslodan, yüksək vəzifədən getmir, burada söhbət Xudu Məmmədov, Famil Mehdi, Fred Asif "vəzifə"sindən gedir".

**modern.az**
23.07.2014

## İNSANLAR HƏQİQƏTİN YOX, MADDİYATIN YANINDADIRLAR

Bu gün 10 fevral tarixi tanınmış alim, bir sıra nəzəriyyələri ilə dünya elminə töhfələr verən professor Rafiq Əliyevin 71 yaşı tamam olur. Alim elmi və ictimai fonda fikirlərini sizinlə bölüşür.

*– Son iki nəzəriyəniz dünya elminə nə töhfə verəcək?*

– Əsas son işlərimiz qərar qəbuletmə nəzəriyyəsidir. Qərar qəbuletmə hər yerdə var. Adi fərddən tutmuş ölkələrin prezidentinə kimi hamısında var. Məsələn, səhər tezdən kimsə evindən çıxır və görür ki, hava buludludur. Özü ilə çətir götürmək istəyir. Bu zaman onun iki alternativi var: götürmək, ya götürməmək. Deyərsiniz ki, götürsün də. Amma götürsə, bir az ağırlıq olacaq, ya unudacaq hardasa, həm də o əlavə narahatlıqla yüklənəcək. Götürməsə də birdən yağış yağa bilər və o islanar.

Qərar qəbuletmə burda öz işini görməyə başlayır. Düzgün qərar qəbuletmə səndə olan informasiyadan asılıdır. Keçmişdə yaşlı adamlar göyə baxıb deyirdilər ki, sabah yağış yağacaq. Amma indi sinoptiklər heç vaxt dəqiq məlumat demirlər. Doğrusunu ancaq Allah bilir. Bir də bizim nəzəriyyənin əsas özəlliyi. Qərar qəbuletmə insanın xarakterindən asılıdır. Həmin qərarı situasiya özü yertişdirmişdi. Həmin vaxt determinizm var idi və dünya başqa riyazi formul tanımırdı.

*– Hər şey Aristotel məntiqi ilə idarə olunurdu...*

– Tamamilə düzdü. Məsələn, yağışın yağmasına 80 faiz ehtimal var. Ehtimal mütləq hansısa bir eksperimentə dayanmalıdır. Kahnenman yeganə alim oldu ki, bu sahədə Nobel mükafatı ala bildi. O, Aristotel məntiqini qəbul edirdi. Amma ona tam olaraq subyektiv yanaşırdı. Kahnenman iqtisadçı yox, psixoloq idi. O psixoloji baxımdan insanlara yanaşdı. Bizim Lütfi Zadə ilə işlədiyimiz nəzəriyyə isə fərqlidir. Biz deyirik ki, heç nə "perfect" deyil. Yaxşı olanı Allahdan başqa heç kim bilməz. Morqanşteyn və Neyman deyirdi ki, bunun ehtimalı 100-də 80-dir, vəsssalam. Əvvəllər hava haqqında məlumatı tam rəqəmlə deyirdilər. Amma indi inetravalla deyirlər. Bir az ağıllanıblar. Mənim son kitabımın satışı üçün reklam sözündə Zadənin bir cümləsi verilib. Bu "Kitab qərar qəbuletmə nəzəriyəsini yeni müstəviyə qaldırdı".

*– Bizdə insanlar 0-dan 1-ə, yəni yoxluqdan varlığa gedən yollarda niyə azırlar?*

– Çox qəribə sualdır. 0 və 1 Aristotel məntiqindədir. Dost və ya düşmən. Ya ağ var ya da qara. Sizin dediyiniz insanların təfəkkür tərzi isə o ağ-qara ilə ölçülür. Onlar heç vaxt intervalla hərəkət etmirlər. Sıfırdan birə keçirlər, birdən sıfıra. Dediyiniz insanlarda kəsilməzlik yoxdu, o insanlarda qütbləşmə var. Həqiqət qütblərdə yox, onların arasındadır. Amma insanlar bu həqiqətin yanında deyillər.

*– Yəni onlar 0 və 1 aralığında həqiqətdən kənar hərəkət edirlər?..*

– İnsanlar həqiqətin yox, maddiyyatın yanındadırlar. Özü də onlar üçün bu səddi keçmək çox asandır. Gah burda, gah da ordadılar...

*– Süni intellektdə hər bir rəngin, o cümlədən, qaranın çox çaları var. Bəs bizim cəmiyyətdə qaranın neçə çaları var? Və ya bizim bugünkü təfəkkür qaranın neçə çalarını görə bilir?*

– Yenidən bayaq dediyiniz süni intellekdəki 0 və 1-ə qayıdaq. Peşəsindən və mövqeyindən asılı olmayaraq, hər bir insan səhv düşünürsə, o sıfırın yanındadı, hətta 0,1-də də deyil. Konkret sıfırın yanındadı.

*– Rafiq müəllim, biz bu gün bozla qaranı seçə bilmiriksə, bu gələcəkdə hansı problemləri yarada bilər?*

– Sualınız xosuma gəldi. Çox ağır fəsadlara gətirib çıxarar. Bir dəfə Corc Buş haqda yazmısdım ki, qeyri-səlis məntiqlə düşünən adam İraqı bombalamaz. Qeyri-səlis məntiq tolerantlıq məntiqidir. 0-1 məntiqi deyil. Amma bunlarda isə konkret 0 və 1 məntiqidir. Başqalarına "0", özlərinə isə "1" kimi baxmaq məntiqi. İstərdim ki, həmin o qaradan ağa dərəcəli keçid olsun. Yəni, insanlara sayğı olsun.

*– Sizin "Segahı görürəm" adlı elmi monoqrafiyanızda hər bir səs tezliyinin müəyyən rəngə çalma formulu var. Cəmiyyətimizdə və insanlarda bu gün haqq səsi daha çox hansı rəngə çalır?*

– O vaxt səs var idisə də, bəmdə idi. Cəmiyyət bəmdə oxuyurdu. Hər rəngdən o biri rəngə 1000 keçid var. Bizim cəmiyyətin səsi ümumilikdə xora oxşayır, amma hələ rəngə çevrilməyib. Hələ ki, xor çoxrənglilik deyil. Siz dediyiniz səslər və rənglər çoxluğunda son səs xalqındır.

*– Belə deyək, bəs bu gün cəmiyyətin səsi hansı rəngdədi?*

– Çox rəngə çalır. "Qırmızı" demək istəmirəm. Allah eləməsin ki, qırmızı olsun. Amma bu rəng bəzən "yaşıla" çalır, bəzən isə narıncıya. Amma hansının üstün olduğunu bu gün demək çətindir. Allah eləsin ki, qırmızı olmasın...

*– Sizin həm də ədəbiyyata dərin marağınız var. Tələbələrinizə çox vaxt iki şeyi məsləhət görürsüz. Bir muğama qulaq asmağı, sonra isə Çingiz Aytmatovu oxumağı. Bizə maraqlıdır, niyə məhz Çingiz Aytmatov?*

– Mən "Əsrə bərabər gün"ü 4 dəfə oxumuşam. Özü də rusca. Yadınızdadırsa, orda idarə olunan insanlara aid bölüm var. Yəni, bu həm də bugünki cəmiyyətin inikasıdır. Yazıçının da böyüklüyü ondadır ki, o yaşadığı zamandan 40-50 il və ya daha çox əvvəli görür. Yaxud olsun "Manqurt əfsanəsi". Əgər o siyasətə getməsəydi, səfir olmasaydı, çox böyük ehtimalla Nobel alardı. O, heç bir Nobel alandan aşağı səviyyəli yazıçı deyil. Siyasətə getdi və Nobel ala bilmədi. Nobel mükafatı verilərkən, bu kriteriyalara ciddi əməl edirlər. Onun şəxsiyyəti ilə yazıçılığı arasında təzad olsa da, o, böyük yazıçı idi. O, kiçik bir "Gürcü həyatı" adlı əhvalatda milli birlik faktorunu çox gözəl qabarda bilir. Yeddi gürcü bir arada olanda içdilərsə, hökmən gürcü dilində mahnı oxuyacaqlar. Düzdü bunlar məcazi mənada çatdırılırdı. Amma milli birlik qabardılırdı.

*– Azərbaycanda isə ən çox sevdiyiniz şair Ramiz Rövşəndir. Ramiz Rövşəndə sizi özünə nə cəlb edir?*

– Əsas mövzu. Ramiz Rövşən ilk şeirindən son şeirinə kimi tam fərqli bir şey yazıb. O, tam orjinal, Allahın sevgisinə tuş gəlmiş bir adamdır. Heç kimə bənzəmir, şeirləri də tamam fərqlidir.

*– Rafiq müəllim bayaq 0 və 1 intervalı barəsində söhbət etdik. Ramiz Rövşən bu intervalın harasındadı?*

– Dostum olduğuna görə demirəm, amma Ramiz Rövşən 1-in tam yanındadır.

*– Bəs bizimlə etdiyiniz söhbəti bu intervalın harasında görürsünüz?*

– (gülür...) ... Tam səmimi deyirəm. Lap 1-in yanında...

**Elnur Nuri**
10.02.2013

# 20 İLDİR VALİDEYNLƏRİMİN MƏZARINI ZİYARƏT EDƏ BİLMİRƏM

Professor Rafiq Əliyevin "Qeyri-səlis məntiqə əsaslanan ümumiləşmiş qərar qəbuletmə nəzəriyyəsi" kitabı dərc olunub. Təqdim olunan nəzəriyyə ilə Rafiq Əliyev elmi yaradıcılığı boyu təklif etdiyi 5-ci nəzəriyyəyə imza atıb. Kitaba ön söz yazan dünya şöhrətli alim Lütfi Zadə R.Əliyevin yeni nəzəriyyəsini dünya elmində olduqca mühüm mərhələ adlandırıb. Nəşrdə R.Əliyev tərəfindən yaradılmış 5 nəzəriyyənin daha təkmil formaları öz əksini tapıb. Mürəkkəb sistemlərdə koordinasiya nəzəriyyəsi; qeyri-səlis biliklərə söykənən intellektual robotlar nəzəriyyəsi; ALI-1, ALI-2, ALI-3, ALI-4 qeyri-səlis məntiqləri (müəllifin soyadının ilk 3 hərfi) və hibrid Soft Computing sistemləri Rafiq Əliyevə dünya şöhrəti qazandırıb. Professorun nəzəriyyələrinin hamısı dünyanın müxtəlif dillərində dərc olunub və müxtəlif ölkələrdə öyrənilir, tədris və tətbiq olunur. Bu yeni kitab azərbaycanlı alimin nəzəriyyəsini dünyanın elmi mərkəzləri tərəfindən daha dərindən tətbiqinə səbəb olacaq. Professor R.Əliyevlə Azərbaycan elmini dünyada tanıdacaq kitabı barədə ölkənin aparıcı qəzetlərinin əməkdaşları ilə birlikdə söhbət etdik.

*– Rafiq müəllim, kitabınızın əsas qayəsi nədən ibarətdir?*

– Əvvəla onu bildirim ki, kitab beynəlxalq elmi nəşriyyat olan "Springer"-də çap olunub və saytda da kitabı ABŞ, Böyük Britaniya və Almaniyanın birgə çap etdiyi göstərilib. Kitab ingilis dilindədir. Nəzəriyyə belə adlanır: "Qeyri-səlis məntiqə söykənən ümumləşmiş qərar qəbuletmə nəzəriyyəsi". Ümumilləşmiş deyəndə, nobelçilər For Neumann, Morgenstern, Kahnemanın baxışları bu nəzəriyyənin xüsusi halı kimi isbat olunub. Yəni xüsusi hallarda bu nəzəriyyədən o nəzəriyyələr alınır və bu, daha ümumi, həm də real həyata yaxın baxışdır. Nəzəriyyənin əsas qayəsi odur ki, insan, ya da insan kollektivi, qrupu qərar qəbul edəndə, o, hansı informasiyaya söykənir, ikincisi, qərar qəbul edən insanın xüsusiyyətləri necədir, nə cür insan, yaxud nə cür kollektivdir? Adlarını xatırlatdığım alimlər həmişə qəbul ediblər ki, iqtisadi, yaxud siyasi, hərbi sistem olsun, bu proseslərdə olan bütün informasiyanı tam şəkildə bilirlər. Məsələn, sabah havanın temperaturu +18,5 dərəcə olacaq deyirdilər, bunun da ehtimalı 70,5 faizdir, ancaq bunu Allahdan başqa heç kim bilə bilməz. Xüsusən gələcəklə bağlı iqtisadi məsələlərlə bağlı dəqiq proqnoz vermək mümkün deyil. İqtisadi vəziyyət sabit, ya qeyri-sabit olacaq? Bunu dəqiq bilmək mümkün deyil. Bütün bu nəzəriyyələrin hamısında deyilir ki, məsələn, ABŞ iqtisadiyyatında 98,5 faiz ehtimalla artım olacaq. Bəs 98,5 faizi hardan götürürdülər? Rəqəmlə hesablamaq asan olduğundan bu cür təqribi götürürdülər, onlar bütün informasiyanı, hətta ehtimalı da bildiklərini deyirdilər. Bizim nəzəriyyədə isə klassik ehtimal deyil, Kolmaqorov ehtimalı, Laplas ehtimalı deyil. Bizdə qeyri-dəqiq ehtimal-

dır. Dünyada hər bir ehtimalın dərəcəsi var, o da təbii dildə sözlə ifadə oluna bilər, rəqəmlə bunu heç kim edə bilməz. Burada qiymətlər linqivistik yazıla bilər. Gələk sualınızın məğzinə, əsas qayələrindən biri odur ki, onlar hər bir informasiyanın perfekt olduğunu götürürdülər, bizim nəzəriyyədə isə bu informasiyalar imperfektdir. Mən bilmirəm nə dərəcədədir, ancaq təbii dildə sözlə deyə bilərəm ki, artan olacaq, yaxud çox yüksək artan olacaq, yəni təbii dildə informasiya verilsə də, qeyri-dəqiq verilir. Real həyat da qeyri-dəqiqdir, dəqiq bir həyat yoxdur. Klassik nəzəriyyələrdən fərqli olaraq bizim nəzəriyyədə birincisi götürülən informasiya perfekt yox, inperfektdir, rəqəmlərlə yazıla bilmir. Ümumiyyətlə, informasiyanın 4 ümumləşmə dərəcəsi var: birinci, rəqəmlə verilən informasiya, məsələn, sabah havanın temperaturu +7,5 dərəcə olacaq, sonra gördülər ki, bunu Allahdan başqa heç kim bilməz, 6-9 dərəcə arasında olacaq deyə bildirdilər. Bu, ikinci səviyyədir, heç olmasa interval. Əfsuslar ki, Azərbaycanda bu sahə inkişaf etməyib, söhbət interval riyaziyyatından gedir. Üçüncü səviyyə də var. Bax, deyəndə ki, havanın temperaturu 6-9 arasında olacaq, ortada ehtimal daha çoxdur, nəinki kənarlarda. Bu, informasiyanın verilməsində üçüncü fazadır – qeyri-səlis ədədlərlə. Dördüncü faza hər bir informasiyanın, istəyir rəqəm, istəyir interval, istəyir qeyri-səlis ədəd şəklində verilsin, onun dürüstlük dərəcəsi var. Ona görə hər bir ədədin yanında dürüstlük dərəcəsi qoyulur, yəni bu rəqəmə nə qədər inanmaq olar. Burada etibarlılıq dərəcəsi əsas götürülür. Bu rəqəmə nə qədər inanmaq olar? Sadə bir misal, bu suala özüm də cavab verə bilmirəm. Sizə belə bir təklif var: 98 faiz ehtimalla 90 manat verirlər, amma 91 faiz ehtimalla 100 manat. Hansı alternativi qəbul edərsiniz?

*– Yəqin ki, ehtimal çox olanı...*

– Yox, düşünün, ehtimalı çox olsa da, miqdarı azdır. Onu necə hesablayarsınız, niyə 100 manatı 91 faizlə götürmürsünüz? Biz bunu hələ hesablaya bilmirik. "Z-ədədlər" ki var, Zadə həmin nəzəriyyəni mənə ithaf edib, bir yerdə işləsək də, hesablaya bilmirik. Hesablayıram, amma insan daha düz deyir, necə ki, söylədiniz. Bununla belə necə hesabladığınızı sual etsəm, deyə bilməyəcəksiniz. Burada vurma, bölmə yoxdur. Sadəcə olaraq, öz ehtimalınızı dediniz.

*– Burada intuisiya, determenizm yoxdurmu?*

– Əslində, determenizm yoxdur, olsaydı, çox asan hesablamaq olardı.

*– Biz daha gerçək olan təklifi qəbul etdik...*

– O zaman məsələni belə qoyurlar: 97,5 faizlə 100 manat verirlər, hansını götürürsünüz?

*– Bu, bir az qəliz oldu...*

– Bəli. Bu, dördüncü abstraksiyada olan informasiyanın işlənmə nəzəriyyəsi yoxdur. Amma insan bunu edə bilir. Bu kitabda da ən əsas qayə odur ki, klassiklər hər şeyi 100 faiz bildiklərini deyirdi. Ancaq mən deyirəm ki, bilmirsən, biz hətta intervalı da güclə hesablayırıq. Nəzəriyyənin ikinci və ən vacib qayəsinə gələk: yalnız psixoloq Kahneman qeyd edib ki, adam qərar qəbul edəndə onun bir xüsusiyyətini nəzərə almaq lazımdır. Riyazi və model baxımdan bəsit olsa da, çox güclü fikir işlətdi, deyir ki, adam itirməyə daha çox həssasdır, nəinki

qazandığına. Məsələn, sənin 500 min manatının üstünə 500 manat da gələndə bunu adi qarşılayırsan, amma 500 manat itirəndə pis təsir edir. Beləliklə, Kahneman insanın risklik xüsusiyyətini 3 yerə böldü: riskli, risksiz və neytral. Bir şeyi itirmək təhlükəsiylə qarşılaşanda onun ehtimalını artır. Bu ideyaya görə Kahneman Nobel Mükafatı alıb. Biz isə dedik ki, qərar qəbul edən insan yalnız risklə səciyyələnmir, insanın psixoloji determinantları çoxdur, məsələn insan dürüstdür, yoxsa yox. Bundan başqa qərar qəbul edəndə emosiya, qarşılıqlıq çox vacib xüsusiyyətlərdir, biz bunları da nəzərə alırıq.

*– Bu ziyanlı, yoxsa xeyirlidir?*

– Bunu deyə bilmərəm. Kimisə Nazirlər Kabinetinin sədri seçiblər, ona "emosional ol" və ya "olma" demək olmaz axı.

*– Sadaladığınız psixoloji məqamların sosioloji aspektləri varmı, yəni uşaqlıqda, yaxud indi hansı sosioloji təbəqəyə aid olması, hansı dəyərlər sistemində formalaşması nəzərə alınırmı?*

– Bunu biz tədqiq etməmişik, bu, sosial-psixoloji ölçmədir. Bu sosioloqların və psixoloqların işidir. Biz Delfi metodunu götürdük, internetlə dünyanın qərar qəbuletmə sahələrinin mütəxəssisləri ilə bir neçə dəfə sorğu keçirtdik ki, insanın psixoloji determinantları nədir ki, qərar qəbul edəndə ora daxil edə bilək? Bunun əsasında 7 determinant təşkil etdik, yəni insanın, qərar qəbul edənin modeli də nəzərə alınmalıdır. Qərar qəbul edən həm dövlət, həm hərbi, həm də şəxsi problemlərində bunu edə bilər. Qərar qəbul ediləndə birinci informasiyaya baxırıq, o informasiya dəqiq deyil, ümumiyyətlə, həyatda olan informasiyaların hamısı qeyri-müəyyəndir. Məlumatların hamısı qeyri-dəqiqdir. Nyutonun dövründə hər şey deterministik idi. Məsələn, gərginliyi artırıram, cərəyan 100 faiz belə olacaq, halbuki, 50 təcrübə aparsan da, hamısında bir-birindən fərqli nəticə alacaqsan. Sadəcə, həmin dövrdə riyaziyyat da, dil də ayrıdı. Biz isə informasiyanın reallığını, ikincisi, qərar qəbul edən insanın modelini nəzərə aldıq və bir də qərar qəbuletmədə müxtəlif alternativlərə üstünlük verməyi təkmilləşdirdik, ona linqivistik baxdıq. Maksimum çalışdıq ki, insanın üstünlük vermə düşüncəsinə yaxınlaşaq, üçüncü xüsusiyyət bundan ibarətdir.

*– Primitiv də olsa, sual yaranır, bunu necə verirsiniz?*

– Kitabda "Qeyri-səlis optimallaşdırma" fəsli var, biz ayrı-ayrı xüsusiyyətləri müqayisə edirik, bunu hesablamaq yolu var. Kobud şəkildə deyəcəm: tutaq ki, oğluna qız alırsan, 7-8 atribut var, gözəlliyi, təhsili və sairə. Onları bir-bir müqayisə edirsən, sonra ümumi üsul veririk ki, bu alternativ o birindən üstündürsə, hansı ümumi dərəcəylə üstündür? Əgər ikisi də bərabərdirsə, ikisinə də baxacaqsan. Amma biri 0,5 dərəcə ilə, digəri 0,8-lədirsə, birincisini atacaqsan.

*– Sizə elə gəlmir ki, riyaziyyatı daha çox humanitarlaşdırırsınız?*

– Riyaziyyat ümumiyyətlə, 3 inkişaf dövrü keçib. Riyaziyyat dildir. Riyaziyyat fizika deyil, fizika reallığı simvollarla modelləşdirir, biz isə real aləmi simvollarla yox, sözlə yazırıq. Nyutonun və Leybnistin vaxtında determinist riyaziyyat idi. İkinci cahan savaşından sonra stoxastik riyaziyyat və Kvant fizikası meydana gəldi. Ehtimal nəzəriyyəsi yarandı və Kolmoqorov onun ak-

siomatikasını verib inkişaf etdirdi. İndiki dövrün riyaziyyatı təbii dildə hesablamaqdır. Məsələn, gözəl qadın deyirlər, yəni min qadın varsa, 10-nu seçəcəksiniz. Lap gözəl qadın deyəndə isə 3-5-ni seçəcəksiniz. Bəs bunun riyaziyyatı nədir, qeyr-səlisdir! Bax, həmin gözəli kvadrata yüksəldirəm. Yüksəltmək də o deməkdir ki, getdikcə gözəl qadınlar çoxluğu daralır, sonda 100-dən 2-3-ü qalır, amma biz bunu hesablayanda sözlərin üzərində əməliyyat aparırıq, rəqəmlərlə işləmirik. Əvvəllər gözəlliyi 27 parametrlə təyin edirdilər, gözlər arasındakı məsafə, burunun uzunluğu, dodaqların eni və s. Məgər, Məcnun Leylini görəndə 27 parametr axtarmışdı, o, mənanı görmüşdü.

*– Məcnun Leylidəki mənanı görmüşdü?*

– Bəli, elə söhbət də bundan gedir.

*– Bu nəzəriyyə elmə nə verəcək?*

– Zadə kitaba ön sözdə yazır ki, bu nəzəriyyə qərar qəbuletmə elmini Aristotel məntiqindən daha dürüst, qeyri-səlis məntiqə keçirtdi. Bu, elmin platformasını, kökünü dəyişdi.

*– Bəs tətbiqi barədə nə deyə bilərsiniz?*

– Kitabın sonuncu fəslində bu nəzəriyyənin tətbiqindən bəhs olunur. Artıq təbabətdə tətbiq olunur və hesab edirəm ki, daha çox tibbdə istifadə oluna bilər. Çünki təbabətdə rəqəmlə ölçülən heç nə yoxdur, bəli, qanın tərkibinin ölçülməsini misal çəkə bilərsiniz. Amma həmin nəticəni göndərsən Yaponiyaya bir həkimə, o, xəstəyə baxmadan, filan xəstəlik olduğunu söyləsə, mən inanmaram. Yəni rəqəmdən kənarda bir şey var, onun gözünün dərinliyinə, dərisinə baxmalıdır. Biri var rəqəmli informasiya, klassik fizikada olan, ancaq bu günkü əsas informasiya persepsiya, cihazla ölçülə bilməyən, qavranılan informasiyadır. Deməli, mən əsasən təbabətdə, xüsusən kardiologiyada tətbiqini görürəm. Bu artıq yerli tibb və Kipr universitetlərinin alimlərilə birgə işlənilib, həm də indeksli jurnallarda çap olunub. Bundan əlavə iqtisadiyyatda tətbiq olunub, konkret olaraq, böhranın proqnozlaşdırılması, istehsalatda və makro iqtisadiyyatda tətbiq olunub. Daha sonra investisiyanı hara qoymaq lazımdır məsələsi. Dünyadakı maliyyə böhranını da hesablamışdıq bu nəzəriyə ilə. Daha bir məsələ var. Pulunuzu hara qoymalısınız – banka, sandığa və ya qiymətli kağızlar bazarına. Dəqiq ehtimal yoxdursa, burada hesablama çox çətinləşir.

*– Demək olarmı ki, bu nəzəriyyə elmi paradiqmanın dəyişməsidir?*

– Mənim üçün bunu demək çətindir, amma Zadə kitaba yazdığı ön sözdə bunu deyib. Düşünürəm ki, siyasi qərarların qəbulunda bu nəzəriyyədən geniş istifadə oluna bilər. Burada qərar qəbul edən şəxsin dürüstlük dərəcəsi çox vacibdir.

*– ...Axı bunun özü də nisbidir...*

– Ancaq psixoloji ölçmələri götürmək lazımdır. Eyni zamanda, ictimai fikir, məgər, kimin təmiz, kimin çirkli olduğunu bilmirsiniz?! Psixoloji ölçmələr isə bizim işimiz deyil. Burada ekspertlər ümumi razılığa gələcək.

*– Bəs siyasi böhranın proqnozlaşdırılması necə olur?*

– Tunisdə hadisələr başlayanda Kiprdəydim, internetə daxil olub sosial inqilablarla bağlı axtarışa başladım, bilirdim ki, birdən-birə inqilab baş verə bilməz. Yüzlərlə məqalə çıxdı. Yazılırdı hansı parametrlər hansı sərhədə çatanda, məsələn, ordunun, korrupsiyanın durumu müəyyən intervallara çatanda sosial inqilab baş verir. Qərb institutları bununla bağlı çoxlu sayda araşdırmalar aparıb, oxudum ki, Qazaxıstanda vəziyyət necə olacaq. Amma onlar nəzəriyyə veriblər ki, hansı halda sosial inqilablar baş verə bilər. Bunlar da qeyri-dəqiq informasiya əsasındadır. Sosial inqilabların müxtəlif parametrlərdən asılılığı hesablanır.

*– Rafiq müəllim, gələcək tədqiqatlar barədə nə deyə bilərsiniz?*

– Bu nəzəriyyəni keçirtmək istəyirik informasiyanın 4-cü abstraksiyasına, yəni hər bir informasiya inam, etibarlılıq dərəcəsilə ölçülür. Bu halda riyaziyyat, hesab təmiz dəyişir. Bu, artıq qeyri-səlis riyaziyyatla işləmək deyil. İkinci, biz yeni bir abstraksiyaya keçdik, elə informasiya var ki, Z-ədədlə yazıla bilmir, amma vizual yazıla bilir. Məsələn, deyirdik ki, Obamanın yenidən seçilməsi ehtimalı nə qədərdir? Çətin olduğunu söyləyirdilər. Ancaq onlara 0-10 şkalasını verir və bunun üzərində vizual şəkil kimi göstərməyi tövsiyə edirik. Onlar öz istədiyi ehtimalı göstərə bilir. Biz belə qərara gəldik ki, insan vizual informasiyanı daha yaxşı verə bilər, nəinki rəqəmli. Artıq sözün yox, görüntülərin vurulub-bölünməsi üstündə əməliyyatlar gedir. Kitabda o barədə fəsil var (qeyri-səlis həndəsəyə aid), amma bu artıq 5-ci abstraksiyadır, sadəcə, daha geniş işləmək lazımdır.

*– Kitabınızın satışı necə həyata keçiriləcək?*

– Kitab həm elektron, həm də klassik kitab kimi satışa qoyulub. Nəşriyyat çox qəribə addım atıb, deməli internetdə kitabın ayrı-ayrı fəsillərini də satışa qoyublar. Mən özüm birinci dəfədir belə bir şeyə rast gəldim. Yəni 50-60 firma bu işlə məşğul olur və nəşriyyat bu hüquqları firmalara satıb, onlar da müxtəlif qiymətlərdə satırlar. Məsələn, 129€, 366$. Mən hər kitabdan 13 faiz alacam.

*– Belə möhtəşəm bir işə qonorar normaldırmı?*

– Elmdə pul yoxdur. Bu Sovet vaxtı da belə olub. SSRİ zamanı 55 min tirajla Moskvada 400 səhifəlik kitabım çıxırdı, cəmi 7 min rubl alırdım.

*– Ədəbiyyatda ithaf məsələsi var, elmdə bu necədir?*

– Mən bu kitabımı mərhum həyat yoldaşıma həsr etdim. Həyatın o qədər dolambacları var ki, istəməzdim sizlər onu yaşayasınız. Mən namizədlik dissertasiyası müdafiə edən gün oğlum vəfat edib, əsərimi həm də ona ithaf etmişəm. Bir də 20 ildir valideynlərimin məzarını ziyarət edə bilmirəm. Bu kitabı bir də onlara həsr etdim...

**Natiq Cavadlı**

## ƏN BÖYÜK BƏLAMIZ ALLAHSIZLIQDIR

Azərbaycan cəmiyyətindəki mövcud problemlər, Qərbin Azərbaycanın haqq işinə sərgilədiyi laqeyd münasibət və bu kimi onlarla məsələ ölkə insanını narahat edən, onu düşündürən başlıca problemlər sırasındadır. Professor Rafiq Əliyevlə müsahibəmizdə bütün bu məsələlərə aydınlıq gətirməyə çalışdıq.

*– Rafiq müəllim, bu gün yaşadığımız cəmiyyətdə, bütövlükdə dünyada böyük ədalətsizliklər və haqsızlıqlar müşahidə edilməkdədir. Sizcə bunca zülm, bunca haqsızlıq nədən qaynaqlanır?*

– Düşünürəm ki, tək bizim dünya yox, bütün aləmləri, paralel dünyaları yaradan Tanrı əslində hər şeyi nizam-tərəzidə yaradıb. İnsan faili-muxtardır. İnsan düşüncədə, digər məsələdə azaddır. Lakin Tanrı xaric hər şey müəyyən bir hədd və dərəcədə olduğu kimi ölkələrdə də, tayfalarda da, millətlərdə də, kənddə də, şəhərdə də, qohum-əqrabada da hər şey insandan asılıdır. Bir də görürsünüz ki, insan Allahın qoyduğu mizan-tərəzini pozur. Bu gün Azərbaycanın ən böyük bəlası Allahsızlıq və bundan irəli gələn halallığın yoxluğudur. Hallalıq olmayandan sonra təbii ki, həmin mizan tərəzinin gözü əyiləcək. "Qurani-Kərim"də aləmlərin Allahından söz açılır, orada aləmin Allahı ifadəsi yoxdur.

*– Halallıq var Rafiq müəllim. Az qala bütün kolbasalarımızda halal standartı tətbiq edilir.*

– Yox, bu halallıq bizim düşüncə tərzimizdəki halallıq deyil. Bizim bəhs etdiyimiz halallıq daha ali, daha zəruridir. Söhbət ümumbəşəri dəyərlərdən gedir. Halallıq olsaydı cəmiyyətdə bu qədər rüşvət yayılmazdı. Halallıq olan yerdə rüşvət, insanlara pis münasibət necə ola bilər? Bu halallıq daha çox sivil ölkələrdə mövcuddur. Dünya alimləri maraqlı bir tədqiqat aparıblar. Gənclər üçün ən cazibədar ölkəni müəyyənləşdirməyə çalışıblar. Birinci yerdə Avstraliya dayanır. Bu, sosial seçim məsələsidir. Bir sözlə, hər şey insanlardan asılıdır.

*– Dünya dövlətlərinin böyük əksəriyyətində olan bir şəxs kimi hansı ölkədə hansısa bir iş görəndə halallıq almaq kimi bir məfhum, belə bir mənəvi zərurət var?*

– O ölkələrdəki qanunun aliliyi var, orada halallıq avtomatik olaraq bərqərar olur.

*– Halallıq elə qanunun aliliyidir.*

– Bəli. Halallıq qanunun aliliyidir. Halallıq məhz qanunun aliliyindən doğur. Lakin insanlarda da bu məsələ ilə bağlı müəyyən yanaşma var. "Amerika təbəssümü" ifadəsi dünyada çox məşhurdur. Amerikada hamı bir-birinin üzünə gülümsəyir. Bu, saxta, riyakar gülüş deyil. O insanların içi azad olduğu üçün bu azadlıq onların təbəssümündə öz əksini tapır. Başqa sözlə desək, onların təbəssümü onların azadlığının inikasıdır. İndi ətrafınızdakı insanlara baxın. Əksər insanların üzündə nəinki təbəssüm yoxdur, onların çöhrəsində cəhənnəm əzabı var. Buradan da siz dediyiniz halallıq doğur. Ən yaxşı döşəyi, ən

yaxşı mürəbbəni, ən yaxşı fincanı qonağa saxlamaq bizim köhnə adətimizdir. Dediyim ölkələrdə belə deyil. Amma o ölkələrdə halallıq burdan çoxdur.

*– Rafiq müəllim, Allah bu qədər ədalətlidirsə niyə təbiətdəki qanunauyğunluqları bu qədər ədalətsiz yaratdı? Niyə güclülər gücsüzləri məhv edir?*

– Allah yalnız insanı faili-muxtar yaradıb. Canavarı, şiri, ceyranı yox. Bir də unutmaq olmaz ki, orada da sapmalar var. Bu gün dünya elminin ən qabaqcıl ideyaları bilirsiniz nədən ibarətdir? Bu ideyalar təbiətdə olanları yamsılamaqdan ibarətdir. Məqsəd Allahın yaratdığı təbiətdən az da olsa nə isə mənimsəməkdir. Riyaziyyat da daxil olmaqla dünya elmi indi optimal seçim üçün təbii seçimə üz tutub. Əgər təbiətdə zəiflər qalsaydı, o zaman bu təbiət tamam başqa təbiət olacaqdı. Zəiflər getməli, daha üst keyfiyyətlərə malik yeni nəsillər yaranmalıdır.

*– Azərbaycandakı həyat tərzi təbiətlə sırf səsləşir. Azərbaycanda da təbiətdə olduğu kimi güclülər gücsüzlərin bütün haqqını qəsb edir. Sizcə də belə deyilmi?*

– Bilirsiz, təbiətdə o qədər gözəl qanunlar var ki... Məncə, bu qanunları götürsək daha yaxşı olardı. Mən bildirdim ki, təbiətdə də sapmalar var və bu sapmaları nümunə kimi götürmək lazım deyil. Təbiət inqilabı sevmir. Təbiət təkamülü sevir. Təbiətdən bunu götürmək lazımdır.

*– Bu gün Alyaska sahilində ölərək sahilə çıxan balinaya mütərəqqi Qərbin göstərdiyi münasibət müsəlman dünyasındakı qırğınlara, kütləvi qətllərə olan münasibətdən daha böyük, daha sərtdir. Sizcə buna səbəb nədir?*

– Həzrəti Əlinin belə bir ifadəsi var, deyir ki, Allaha ümid et, amma dəvəni bağlamağı unutma. Mən Qərb insanını qınamıram. Qərb o millətə hörmət edəcək ki, o millət zülm götürməsin, o, öz hüququn bilsin, özü cazibədar bir millət olsun. Qərb həmin millətləri müdafiə edir. Amma o yerdə ki, o millətdə ki, haqsızlıq, ədalətsizlik baş alıb gedir, Qərb bunu necə müdafiə etsin?

*– Sizcə bu gün dünyada ən gənc və perspektivli alimlər hansı ölkədədir?*

– Elmin və təhsilin Məkkəsi ABŞ-dır. Bunu mənim alman, fransız dostlarım da, digər ölkələrdən olan həmkarlarım da söyləyirlər. Baxmayaraq ki, onların da elmi yüksəkdir. Lakin dünya elmi bu gün Amerikaya baxır. Dünyada akademiya sistemi yoxdur. Elm universitetlərdədir. Fransa Akademiyası məşhur akademiyadır. Lakin bu, Roma klubu kimi bir şeydir. Orada yığışıb fikir mübadiləsi aparırlar, lakin elmi-tədqiqat işi aparmırlar. Elmi-tədqiqat işləri universitetlərdə aparılır. Dünyanın top universitetlərindən 8-i Amerikadadır. Amerikada istər kosmos, istər tibb, istərsə də digər sahələrdə əldə edilən uğurların heç də hamısı amerikalıların deyil. Bu uğurlara həm də Hindistandan, İrandan, Çindən, Yaponiyadan, digər ölkələrdən gələn mütəxəssislər imza atır. Eynişteyn nümunəsi deyilənlərə misaldır. Amerikada elmə qapılar açıqdır. Amerikada elmdə yaş senzi yoxdur. Lakin Almaniyada professorun 65 yaşı oldusa hökmən getməlidir. Lakin onun üçün şərait yaradır. Onun kabinetini saxlayırlar. Təqaüd verirlər, hansı ki, bu təqaüd maaşın 80-90%-dir. Və ya özəl şirkətlərin birində məsləhətçi işləyir və bundan da çox pul alır.

*– Yaratdığınız kafedranın indiki taleyindən xəbəriniz varmı?*

– Bəli var. Orada mənim doktorantlarım var. Hansı ki, elmi iş aparırlar. Mən onlara demişəm ki, nə edirsinizsə edin, bircə buradakı təmizliyi pozmayın.

*– Sizdən ki, bu məsələdə halallıq alınmayıb, Rafiq müəllim. Belə olduğu halda orada uğur necə ola bilər?*

– Hə, bax bu suala cavab verə bilməyəcəm. Bu suala özünüz cavab verərsiniz.

*– Son günlər Azərbaycanda övlada görə atanın cəzalandırılması mexanizminə start verilib. Hansı ki, hətta sovet dönəmində belə oğul ataya, ata oğula görə məsuliyyət daşımırdı. Sizcə oğulun əməlinə görə atanın cəzalandırılması nə dərəcədə məntiqli və ədalətlidir?*

– Sovet vaxtında bu söz siyasi baxımdan deyilmişdi. Mənəvi baxımdan deyilməmişdi. İndi dediyiniz məsələdə isə valideyn mənəvi məsuliyyət daşıyır. Bu baxımdan övladın harınlığına görə atanın cəzalandırılmasını məqbul hesab edirəm. Əgər sən öz evində oğlunu tərbiyələndirə bilmirsənsə, böyük bir kollektivi necə tərbiyə edəsən? Mən belə bir cəzaya haqq qazandırıram.

*– O zaman niyə bu cəzalar yalnız ayrı-ayrı adamlara münasibətdə tətbiq edilir? Niyə bu cəza sistemi kütləvi şəkildə – hər kəsə münasibətdə tətbiq edilmir?*

– Kütləvi çətindir. Buna ilk növbədə vaxt lazımdır. Bir də axı biz bayaq halallıqdan danışdıq. Halal olmayanların hamısı (sayların bilmirəm) cəzalansa, vəziyyət necə olacaq? Amma qanun (hətta yazılmamış qanun) istisnasız hamıya aiddir.

*– Mərhum şairimiz Bəxtiyar Vahabzadə yazırdı ki, “Qatlayıb dizinin altına qoyar, Alim Bəxtiyarı şair Bəxtiyar”. Siz necə, alim Rafiq Əliyevlə ictimai fiqur Rafiq Əliyevi qarşı-qarşıya qoymusuzmu? Onlardan hansı daha güclü olar?*

– Öncə onu deyim ki, mən bütün yazılarımda özümdən asılı olmayaraq iki adama istinad edirəm. Biri Xudu Məmmədov, digəri isə Ramiz Rövşəndir. Xudu müəllim deyirdi ki, bəzi insanlar efirə çıxır və özünün alim olduğunu ekrandan car çəkir və yaxud mətbuatda yazır ki, o bir alim kimi filan məsələyə münasibət bildirməyi münasib sayır və s. Mən öncə alim Rafiq Əliyev sözünü qəbul etmirəm. Biz sadəcə elmlə məşğul olan insanlarıq. Mən elm yolunda çalışıram. İstəyirəm ki, elmdə bacardığım qədər nə isə edim. İctimai məsələlərə gəlincə, mən bu məsələlərdə heç bir məqsəd güdmürəm. Mən bütün eybəcərliklərə müxalifəm. Ən birinci öz içimə, içimdə mənfi nə isə varsa, ona müxalifəm. Ən birinci müxalif olduğum şəxs özüməm. Daha sonra isə digər insanlar, cəmiyyətdəki eybəcərliklər. Əgər mənfi nə isə görəcəmsə, bu lap bu gün mənlə üzbəüz əyləşən Seymur Əliyev, Zülfüqar Hüseynzadə olsun, fərq etməz, yenə də müxalif olacam.

**Zülfüqar Hüseynzadə,**
**Seymur Əliyev**
25.04.2014

# BƏŞƏRİYYƏTİ LÜTFİ ZADƏNİN ƏSASINI QOYDUĞU QEYRİ-SƏLİS MƏNTİQ İDARƏ EDƏCƏK

Bu gün bəşəri düşüncə sistemində inqilab etmiş Azərbaycan əsilli dahi alim, qeyri-səlis məntiq nəzəriyyəsinin banisi professor Lütfi Zadənin 95 yaşı tamam olur. ABŞ-ın Berkeley Universitetinin professoru olan Lütfi Zadə əsasını qoyduğu süni-intellekt nəzəriyyyəsi ilə bəşəriyyət tarixində növbəti elmi sivilizasiyanın yaradıcısına çevrildi. İstənilən elm sahəsi bu gün qeyri-səlis məntiqə söykənir. Bəşəriyyət get-gedə qeyri-səlis məntiq formuluna tabe olur.

Lütfi Zadənin elmi irsinin varisi, dünya çapında tanınan alim professor Rafiq Əliyev də bu gün 95 yaşı tamam olan Zadə haqqında danışıb:

*– Rafiq müəllim, bu gün böyük alim Lütfi Zadənin 95 yaşı tamam olur. Əvvəlcə istərdik ki, Zadə ilə bağlı son məlumatlarınızı onunla mütəmadi əlaqə saxlayan insan kimi bizə deyəsiniz.*

– Zadə ilə iki gün öncə danışmışam. Elmi məsələlərimizi müzakirə etmişik. Bu gün də mənə internetlə ismarış yolladı. Bunu ona görə deyirəm ki, oxucular da bilsin ki, Zadədə, onun elmi fəaliyyətində bu gün hər şey qaydasındadır. Zehni cəhətdən əvvəlki formasındadır. Bütün işlərlə maraqlanır, hər bir elmi yenilikləri izləyir. O gün də mənə yazıb ki, filan jurnal var, ora iki məqalə göndərmək lazımdır. Bir az fiziki baxımdan çətinliyi var. Qalan hər şey qaydasındadı. Biz iki gün öncə həm də onunla birlikdə işlədiyimiz ədədlər nəzəriyyəsi barəsində fikir mübadiləsi etdik, öz göstərişlərini verdi.

*– Düzdü, çox yerdə bu haqda yazıblar, amma onun elmi varisi Rafiq Əliyevdən bu cavabı eşitmək daha maraqlı olardı. Zadə dünyaya nə verdi?*

– Bir çox alimlər olub ki, onlar dünyanı dəyişən elmi nəzəriyyələrin əsasını qoyublar. Amma Zadənin fərqi budur ki, o, dünyanı dəyişən elmi nəzəriyyə ilə bərabər həm də dünyanı dəyişən dünyagörüşün də əsasını qoyub. Mən bunu beş il bundan əvvəl televiziya kanallarının birində demişəm, indi də təkrar edirəm: təxminən 30-40 ildən sonra bəşəriyyətdə yeni bir sivilizasiyanın əsası qoyulacaq və həmin sivilizasiyanın düşüncə tərzi qeyri-səlis məntiq, yəni tolerantlıq məntiqi olacaq. İnsanlar arasında dost-düşmən münasibətlərində, ağ-qara münasibətlərində yox, tolerantlıq münasibətində olacaqlar. İnsanlar Tanrıya yaxın olan bir məntiqlə düşünəcəklər. Bu təmiz başqa bir dünyagörüşdü və onun da kökü Zadənin bəşəriyyətə verdiyi qeyri-səlis məntiq düşüncəsidir.

*– Zadənin elmi nəzəriyyələri bəşəriyyətdə nəyin köklü dəyişiminə səbəb oldu?*

– Məşhur fizik Eynşteyn Priston xəstəxanasında dünyasını dəyişən zaman, ölüm ayağında dedi ki, mənə Nobel mükafatı qazandıran məqaləni verin. Məqaləyə baxandan sonra onu bir kənara atdı və dedi ki, bu mən deyən deyil! Ona görə ki, bu nəzəriyyə ehtimallara söykənib. O zaman bir ifadə də işlətdi ki, Allah kainatla zər oyunu oynamır. Ehtimalla dünyanı yazmaq mümkün de-

yil. Ağzından bir ifadə çıxardı – imkanlar nəzəriyyəsi. Diqqət edək, ehtimallar yox, imkanlar nəzəriyyəsi. İmkanlar nəzəriyyəsi də qeyri-səlis məntiq nəzəriyyəsidir. Onlar da bunu görürdülər. Təbii ki, ehtimal nəzəriyyəsinin öz yeri var. Bəzi yerlərdə ondan istifadə etmək olar. O nəzəriyyə eksperimentlərə söykənir. Uzaq kainatın ulduzlarında, planetlərində hansı eksperiment ola bilər ki? Orada ancaq imkanlara, qeyri-səlis məntiqə söykənərək ortaya nəsə qoymaq olar.

Eyni sözləri qeyri-səlis kimyaya da aid etmək olar. Bu gün ağıllı materiallar haqqında bir materiala baxırdım. Ağıllı materiallar şəraitdən asılı olaraq öz vəziyyətlərini sənin istədiyin şəkildə dəyişmək bacarığına malikdirlər. Bunun da əsasında qeyri-səlis məntiq durur. Qeyri-səlis kimya, qeyri-səlis metallurgiya, qeyri-səlis iqtisadiyyat... Bu terminlərin sayını artırmaq olar. Mənim də qeyri-səlis iqtisadiyyata aid məqaləm var. Bütün bunlar onu göstərir ki, Zadə elmin hər bir sahəsini dəyişdi. Bizim Zadə ilə birlikdə yazdığımız sonuncu kitabımız "Qeyri-səlis hesab" 2015-ci ilin axırında çıxdı. O kitabın timsalında da görə bilərik ki, Zadə həm də riyaziyyat adlı böyük sistemi dəyişdi.

*– Son kitabı da birgə yazmısınız. Zadə irsinin elmi varisi kimi o da, siz də sanki yaşa dolduqca daha da muğamlaşdınız...*

– ...(Gülür) Muğam insanı dəyişdirir. Hər hansı muğama, məsələn, "Zəminxarə"yə, "Mirzə Hüseyn" segahına qulaq asanda mən özümdə olmuram. Nəzakət Teymurova oxuyanda mən özümdə olmuram. O zaman sanki təmiz başqa bir aləmə gedirsən. Elm aləmi də belədir. Əgər sən özündə olsan nə böyük yazıçı, nə böyük sənətçi, nə də böyük alim ola bilməzsən! Gərək özünün yanında olmayasan. Zaman maşını olsa idi, həmin zaman maşını ilə gərək 40-50 il qabağa getmiş olasan. O zaman səni sayar və qəbul edərlər. Bax, Zadəni də dünya buna görə qəbul etdi...

*– Rafiq müəllim, bütün bu danışıqların yekunu olaraq sadə göründüyü qədər də mürəkkəb bir sual vermək istərdim – Lütfi Zadə kimdir?*

– Zadə dahidi. Amma "dahi" sözü o qədər urvatdan düşüb ki, az qala hamıya, ortabab şairə də dahi deyirlər. Amma dahi olmağın çox ağır meyarları var. Ən birincisi odur ki, istər metafizik şair olsun, istər yazıçı olsun, istərsə alim olsun, o öz zamanını qabaqlamalıdı. Məsələn, yazıçı Çingiz Aytmatovun timsalında deyək: dahi mütləq öz zəmanəsini azı 50 il, 100 il qabaqlamalıdır. Bu bir kriteriyadır. İkinci kriteriya isə hər hansı bir elm, nəzəriyyə, fikir kimin çiyinləri üzərində durubsa, dahi olan şəxs gərək onlardan qorxmasın. Klassiklərdən çəkinməsin. Məsələn, 1960-cı illərə qədər bütün dünya Aristotel məntiqi ilə düşünürdü. Amma Zadə Aristoteldən qorxmadı, çəkinmədi və onun mütləq məntiqini dəyişdi. Bu hər adama qismət olmur. Dahi üçün əsas dediyim meyarlar bunlardı ki, Zadə də onlara tam cavab verir.

**Elmin Nuri**

## BU GÜN QEYRİ-SƏLİS TEXNOLOGİYASIZ TƏBABƏTİ İNKİŞAF ETDİRMƏK OLMAZ

Budəfəki həmsöhbətimiz texnika elmləri doktoru, professor Rafiq Əliyevdir. Qeyd edək ki, dəyərli müəllim, parlaq şəxsiyyət olan Rafiq Əliyevlə doğum günü ərəfəsində görüşdük.

*– Görkəmli alim Azad Mirzəcanzadə deyirdi ki, hər bir ölkə üçün ən böyük kapital təbii resurslar deyil, intellektual potensialdır. O, deyirdi ki, bir zaman gələcək, neft tükənəcək, amma Ü.Hacıbəyovun və onun kimi insanların bizə qoyub getdiyi sərvət daim millətin inkişafına xidmət edəcək. Sizcə, təbii ehtiyatların qiymətinin düşdüyü bir zamanda necə etmək lazımdır ki, ölkə yenə inkişaf etsin?*

– Belə məqamlarda tək bir dövləti deyil, bütün bəşəriyyəti iqtisadi kataklizmlərdən həmişə elm xilas edib. Odur ki, Azərbaycanın neftdən sonrakı iqtisadi modeli barədə danışmaq gərəkdir. Qeyri-neft sektorunu inkişaf etdirmək lazımdır. Amma adi konsepsiya ilə iqtisadi inkişafı təmin etmək mümkün deyil. Ölkəmizdə bütün dünyada qəbul olunmuş 4 iqtisadi inkişaf modelindən biri tətbiq edilməlidir. Azərbaycan Prezidenti də AMEA-da təşkil olunan iclasda bildirdi ki, yeni iqtisadi modelə keçmək lazımdır. Dörd inkişaf modelindən biri bilik modelidir. Bu modeli tətbiq edən dövlətlərdə elm və təhsilin inkişaf səviyyəsi çox yüksəkdir. ABŞ, Almaniya, Fransa və s. kimi ölkələrdə bu model qəbul olunub və onlar bilik istehsal edir. Biliyin ölkəyə gətirdiyi gəlir isə təbii ehtiyatlardan gələn qazancdan qat-qat artıqdır. Məsələn, ABŞ büdcəsinin 80 faizdən çoxu ancaq bilik satmaqdan gəlir. ABŞ-da adambaşına düşən daxili məhsul 40-50 min dollardır. İran və Rusiya kimi ən çox neft istehsal edən ölkələrdə həmin məbləğ 5-6 min, ən yaxşı halda 10 min dollar təşkil edir. Harvard Universitetinin büdcəsi 5-6 ölkənin büdcəsindən böyükdür – 40 milyard dollara yaxındır. Orada bir tələbə 80-100 min dollara təhsil alır və dünyanın ən intellektual, İQ səviyyəsi yüksək olan gəncləri bu elm ocağına çətinliklə qəbul olurlar. Yaxud Şimali Kipr Türk Respublikasını qeyd edək: 350 min əhalisi olan kiçik ölkədə 7-8 ancaq ingilisdilli universitet var, ölkə büdcəsinin 40 faizini təhsildən gələn gəlir təşkil edir. Həmin elm ocaqlarında təhsil almaq üçün hər il saysız-hesabsız tələbələr müraciət edir. Çünki rüşvət yoxdur, dünyanın hər yerindən bilikli mütəxəssisləri cəlb ediblər, onlara yüksək əməkhaqqı verirlər. Bu gün qızıl, neft satan ölkələr elmə o qədər də diqqət yetirmir. Əsas neft ölkələri olan Şərq dünyasında cəmi iki nəfər Nobel mükafatçısı var. Halbuki ABŞ-da onların sayı 300-ə yaxın, ərazisi və əhalisi Azərbaycan qədər olan kiçik Avstriyada 10-15 nəfərdir.

*– Amma Şərq ölkələrində onlarla müqayisədə filosoflar daha çoxdur. Elə deyil?*

– Elədir.

*– Deyirlər ki, kişinin həyat yoldaşı yaxşı olsa, xoşbəxt olur, pis olsa, filosof. Bu məntiqdən çıxış etsək, bəlkə, Qərb insanı daha xoşbəxt yaşadığına görə, şərqlə müqayisədə filosofları daha azdır.*

– Əslində, Şərqlə Qərb insanını xoşbəxt edən amillər bir-birindən fərqlənir. Dünyanın bir nömrəli iqtisadi jurnalı “American Economic Review”da iki məqalə marağımı cəlb etdi. Məqalələrdə xoşbəxtliklə gəlir arasında funksiya qurublar. 97 ölkədə sorğu keçiriblər, lazımi faktları əldə ediblər. Məlum olub ki, Qərb ölkələrində gəlir artır, ancaq bu, ailənin, şəxsin xoşbəxtliyinə, cüzi də olsa, təsir etmir. Şərq ölkələrində isə gəlir lap az artan kimi insanlar özünü hədsiz xoşbəxt sayırlar. Bayaqkı suala qayıdaraq deyim ki, Allah o nefti bizə verib, kaş ona arxayın olub tənbəlləşməyəydik. Gərək neftin tükənəcəyini də düşünəsən. Təxminən 3-4 il öncə Rusiya Elmlər Akademiyasının vitse-prezidenti, məşhur fizik Velixovdan Akademiyada vəziyyətin necə olduğunu soruşdular. O da cavabında bildirdi ki, Rusiyaya Elmlər Akademiyası lazım deyil, çünki neft satmaq üçün akademiyaya ehtiyac yoxdur.

*– Sizcə, nefti nə ilə əvəz etmək olar? Ölkəmizdə hansı iqtisadi model tətbiq edilməlidir?*

– Hesab edirəm ki, biz bu gün nə bilik modelinə, nə də texnoloji modelə keçə bilmərik. Bəzən deyirlər ki, gəlin biz də bilik istehsal edək, bu modelə keçək. Amma bu iqtisadi model üçün elmə külli miqdarda vəsait ayırmaq lazımdır, Harvard, Berkeley kimi universitetlər olmalıdır. Ölkənin iqtisadi modelinin düzgün seçilməsi vacib şərtdir. Bunun üçün müvafiq elmi kollektivlər toplaşıb birgə fəaliyyət göstərməli, qərar qəbul etməlidir. Belə iqtisadi modellər inkişaf etmiş və əksər inkişaf etməkdə olan ölkələrdə tətbiq olunur. Türkiyədə də 2000-ci illərdə xaricdən alimlər dəvət edildi, türk alimləri ilə birgə güclü potensiala malik elmi qrup təşkil olundu, məsləhətləşmələr aparıldı və ölkə üçün iqtisadi tarazlıq modeli yaradıldı. Son illərdə biz bir neçə dəfə iqtisadçı alimlərlə görüşlər təşkil edib iqtisadi modellər barədə müzakirələr aparmışıq. Amma, təəssüf ki, bu işlər müəyyən səbəblərdən yarımçıq qaldı. Bu gün də hesab edirəm ki, Azərbaycanın postneft dövrü üçün iqtisadi model qurmaq vacibdir. Mən neftdən sonrakı dövr deyəndə neftin tam tükənməsini deyil, neftin qiymətinin ucuzlaşdığı bugünkü şəraiti nəzərdə tuturam.

*– Sizcə, hər hansı model seçildikdən sonra hesablamalar klassik, yoxsa qeyri-səlis məntiqə əsasən aparılmalıdır?*

– Qeyri-səlis məntiq nəzəriyyəsinə əsasən. Doğrudur, Türkiyə klassik məntiq nəzəriyyəsini seçib. Ancaq mən hesab edirəm ki, qeyri-səlis məntiq varsa, ona üstünlük verilməlidir.

*– Niyə Amerika bu nəzəriyyəni qəbul etmir?*

– Artıq qəbul edir. Hazırda NASA qeyri-səlis məntiq nəzəriyyəsini dördəlli tutur. Düzdür, əvvəl Yaponiya qəbul etdi. Hazırda müasir yapon sənayesi qeyri-səlis məntiq üzərində qurulub. Lütfi Zadə bu nəzəriyyəni siyasi, iqtisadi sistemlər, sosial həyat, insan davranışının formaları üçün irəli sürsə də, onun nəzəriyyəsi daha çox texnologiyada tətbiq olundu. Bu, qəribə bir paradoksdur. Müasir dövrdə tanınmış markalardan olan kompüter, paltaryuyan maşın, fotoaparatlar və s. qeyri-səlis məntiq nəzəriyyəsi əsasında hazırlanır və gəlirlər milyardlarla hesablanır. Almanların, amerikalıların təfəkkürü dəqiqdir. Amma şərq təfəkküründə tolerantlıq çoxdur. Qeyri-səlis məntiq də tolerant məntiqdir.

Ancaq dəqiqlik heç də həmişə yaxşı deyil. Məsələn, klassik riyazi məntiqlə bir dildən digərinə dəqiq tərcümə etmək mümkün deyil. Klassik riyaziyyatla ancaq bəsit tərcümə sistemi yaratmaq mümkün olub. Təəssüf ki, ABŞ, almanlar bunu bir az gec anladılar.

*– Qeyri-səlis məntiq tibb sahəsində tətbiq olunurmu?*

– Bəli, məhz təbabətdə çox istifadə edilir. Bu gün qeyri-səlis texnologiyasız, neyro texnologiyasız nə təbabəti, nə də iqtisadiyyatı inkişaf etdirmək olmaz. Məsələn, biz təxminən 15-20 il əvvəl indiki M.A.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzində Nurəddin Rzayev, Vaqif Seyidov kimi 10 nəfərə qədər tibb alimləri, professorlarla qeyri-səlis məntiq əsasında ürək xəstəliklərinin diaqnostikası və müalicəsi ilə bağlı kompüter ekspert sistemi hazırlamışdıq. Bu sistemdə 72 simptom var idi. Hətta İQ səviyyəsi yüksək olan insanlar belə, ancaq 7 simptomu, əlaməti təhlil edə bilirlər. Sübut olunub ki, daha artığını analiz etməyə beyin qadir deyil. Bizim qeyri-səlis məntiqə əsaslanan sistemə isə istənilən əlamətlər qeyd olunurdu, kompüter onları analiz edib nəticəni göstərirdi. Bu sistem dünyada çox tətbiq olunur. İndi yer üzündə tibbə ayrılan əsas maliyyə resursları dünyada cəmi 50-60 ədəd olan, çox bahalı super kompüterlərin köməyi və qeyri-səlis məntiqin tətbiqi ilə xərçəng xəstəliklərinin öyrənilməsinə sərf edilir.

*– Qeyri-səlis məntiq nəzəriyyəsi tibbin hansı sahələrini əhatə edə bilər?*

– Bütün sahələrini. Bu nəzəriyyənin diaqnostika və müalicə sahəsində həddən çox ekspert sistemi var. Qeyd edim ki, müayinə zamanı qanın strukturu, təzyiq, analizlərin nəticələri və s. dəqiq təyin edilməlidir. Ancaq xəstənin analiz kağızlarına baxaraq, ona diaqnoz qoymaq olmaz axı. Həkim mütləq xəstənin üzünə, lazım gəldikdə dilinə, gözünün içinə də baxır. Amma bu zaman dəqiq rəqəmlər səsləndirmək mümkün deyil. Necə demək olar ki, dildə neçə faiz problem, ya da gözdə neçə faiz saralma var? Bu, qeyri-dəqiq informasiyadır. Hətta indiyədək rentgenin özünü də heç kim dəqiq oxuya bilməyib. Tibbdə bütün səylər onun mümkün həddə qədər dəqiq oxunmasına yönəlib. Amma tam dəqiq nəticə əldə edilə bilməz. Ona görə də bu sahədə qeyri-səlis məntiq vacib rol oynayır. Lütfi Zadə bir neçə gün öncə internetə "səhiyyədə qeyri-səlis məntiq" mövzusunu müzakirəyə çıxardı. Bütün dünyadan bu diskussiyaya qoşulublar, müzakirələr hələ də davam edir. Həddən artıq maraq doğuran bu mövzuya reaksiya verənlər çox oldu.

*– Bəs, psixologiyada bu nəzəriyyənin tətbiqi mümkündürmü? Bu sahədə də dəqiqlik real görünmür.*

– Bəli, psixologiyada qeyri-səlis məntiq mövzusunda geniş müzakirələr aparılıb, kitablar da var. Mənim xarici müəlliflə yazdığım elmi məqalələrimdən biri də bu mövzudadır. Onu da qeyd edim ki, qeyri-səlis məntiqin cəmi iki müddəası var. Birincisi odur ki, dünyada olan hər bir informasiyanın, bildiyimiz hər şeyin dərəcəsi var. Bu fikirdə "ya-ya" dualizmi ilə məhdudlaşan Aristotel məntiqindəki "üçüncünün inkarı" yoxdur. Aristotel deyirdi ki, bir insan ya dostdur, ya düşmən. Yaxşı adam deyilsə, deməli, pis adamdır. Bu ola bilməz axı. Qeyri-səlis məntiqə görə, bu və ya digər mülahizənin doğruluq qiyməti iki məntiqi səviyyə – 1 (doğru) və 0 (yanlış) ilə deyil, bu səviyyələr arasında

sonsuz qiymətlər çoxluğu ilə təyin edilə bilər. Bu məntiq mütləq hesab olunan nə varsa, hamısını rədd edir (Tanrıdan başqa) – mütləq mənada ağ və mütləq mənada qara rəng yoxdur. Mütləq mənada qəm, sevinc, xoşbəxtlik, yalan və ya həqiqət yoxdur. Qeyri-səlis məntiq çoxsaylı interpretasiyaları, sual-cavabların müxtəlifliyini özündə ehtiva edir. Qısaca desək, qeyri-səlis məntiq tolerantlıq və humanizm məntiqidir. Bu məntiq bütün aləmlərdə təkcə Tanrını mütləq qəbul edir, qalan hər şeyin isə dərəcəsi var. Hisslərin, duyğuların, hətta övlada məhəbbətin də. Eyni şey dinlərə də aiddir. “Qurani-Kərim” böyük mənəviyyat sistemidir. Ancaq mən heç vaxt deyə bilmərəm ki, bu din yaxşıdır, o biri pisdir. İki il öncə “Qeyri-səlis məntiq və din” adlı məqalə yazdım. Ötən il isə Amerika müəllifinin “Qeyri-səlis məntiq və Qurani-Kərim” adlı kitabı çıxdı. Qeyd edim ki, dinlərdə doktrinal və etik müddəaların çoxu həqiqətdir. Ancaq cürət edib demək istəyirəm ki, bir çox doktrinal və etik kateqoriyalar qeyri-səlisdir, yəni həqiqətdir, ancaq sərhədsiz həqiqətdir – çoxlu təfsirləri, çalarları var. Eyni zamanda, deyirlər 7 rəng, 7 də not var. Məğər musiqiçılər 7 notda çalırlar? Axı, onların öz improvizasiyaları, eləcə də rənglərin nə qədər çalarları var. Qeyri-səlis məntiq nəzəriyyəsi öz yayılma sürətinə və coğrafiyasına görə elmdən daha çox, dinə bənzəyir. Əminəm ki, gələcək nəsillərin düşüncə tərzi qeyri-səlis məntiqə əsaslanacaq. Qeyri-səlis məntiqin ikinci müddəası isə budur ki, bu məntiqdə hər şey qranula şəklində qəbul olunur.

*– Rafiq müəllim, yeni elmi kəşflərin müsbət tərəfləri nə qədər çox olsa da, bəzən problemlər də doğurur. Bu nəzəriyyə əsasında yaradılan intellektual maşınların, robotların insanları əvəz etməsi bəşəriyyət üçün təhlükə yarada bilərmi?*

– Belə bir təhlükə var. Robotlar artıq istehsal olunur və yaxın zamanlarda onların hissləri, “mənəviyyatı” da olacaq. Bu məsələ alimləri düşündürür...

*– Buna baxmayaraq, belə robotların daha da kamilləşməsi üçün tədqiqatlar davam etdirilir...*

– ABŞ-da bu gün silahlı robot əsgərlər yaradılır. Amma onların hələ ağlı yoxdur. Yaxın 20 ildə ağıllı, özü qərar qəbul edən robotlar yaradılacaq. Bu sahənin tədqiqatçılarından biri kimi deyə bilərəm ki, nəzəriyyəyə görə, son qərarı robot yox, insan verəcək. Amma insanın əxlaqı da dəyişməlidir. Əfsuslar olsun ki, elmlə ümumbəşəri əxlaq arasında uzaq bir məsafə yaranıb. XX əsrin sonu XXI əsrin əvvəllərində elm çox böyük sürətlə irəli gedib, əxlaq isə tısbağa yerişi ilə yeriyir. Yeri gəlmişkən, qeyd edim ki, təxminən bir ilə sürücüsü olmayan avtomobillər də istehsal olunacaq. Həmin maşınlar sürücü olmasa da, istənilən yolda, istənilən vəziyyətdən çıxacaq. Amma qeyri-səlis məntiqin tətbiqi ilə işləyən, sürücüsüz qatarla hələ 1998-1999-cu illərdə Fransanın Lil şəhərindən Parisə getmişəm.

*– Qeyri-səlis məntiq incəsənət sahəsinə də tətbiq oluna bilərmi?*

– Əlbəttə. Hətta bu yaxınlarda Lütfi Zadə mənə məktub yazdı və dedi ki, axırıncı nəzəriyyəmizi kompüter rəssamlığına tətbiq et.

**N.Məcidova,**
**Ü.Fərzəliyeva**

## RAFİQ ƏLİYEVİN TƏKLİF ETDİYİ KİTABLAR

"Bu kitabları oxu" rubrikasını bu dəfə dünyada tanınan alim, süni intellekt və qeyri-səlis məntiq nəzəriyyələrinin nadir mütəxəssislərindən olan professor Rafiq Əliyev təklif etdiyi nəşrlərlə yanaşı, özünün oxuduğu kitabların da adını çəkib. Alim daha çox ayrı-ayrı əsərləri yox, müəllifləri qeyd etməyi lazım bilib: "Allaha yaxın olmaq istəyirsinizsə, Mövlanə Cəlaləddin Rumini oxuyun. İnsana yaxın olmaq istəyirsinizsə, Fyodor Dostoyevskini oxuyun".

R.Əliyev deyir ki, yazıçının, ümumiyyətlə, bədii ədəbiyyatın böyüklüyü ondadır ki, müəllif zəmanəni ən azı 50-100 il qabaqlaya bilir. "Bu səbəbdən də mənim ən çox sevdiyim yazıçılardan biri Çingiz Aytmatovdur. Müxtəlif dövrlərdə gedən prosesləri bir-birinə calamaq, ondan nəticə çıxarmaq onun əsərlərində çox gözəl həllini tapıb. Məsələn, radio insan və başqa obrazlar çox diqqətçəkicidir. O, Manqurt obrazını da "Manas"dan təsirlənərək yaradıb. Onun "Edam kötüyü" əsərində də belə yeniliklər var. Bu cəhdləri Markesdə də görmək olar.

Aytmatov "Edam köyütü"yündə özündən mif düzəldib: altı və yeddinci. Orada göstərir ki, əgər altı gürcü və yeddinci cinayətkar gürcü şərab içəcəklərsə, onlar mütləq bir yerdə gürcü dilində xor oxuyacaqlar. Bu, əslində çox ciddi mesajdır. İnsanların bir olma bacarığını, öz kökünə qayıda bilmək xüsusiyyətini qeyd edir.

Üzeyir bəyin Azərbaycan musiqinə həsr etdiyi və 1946-cı ildə çap olunan "Azərbaycan musiqi nəzəriyyəsi" kitabında yazılıb ki, Azərbaycan musiqisində çoxsəslilik yoxdur. Yəni kilsə musiqisi yoxdur, xor oxuya bilmirik, birgə oxuya bilmirik. Amma görün Aytmatov nə yazıb: "xor oxumaq lazımdır. Xor millətin birliyini göstərir".

Gecə-gündüz oxuduğum və hətta kiçik nəvələrimin də şeirlərini əzbərlədiyi şair Ramiz Rövşəndir. Onun böyüklüyü odur ki, Azərbaycan poeziyasına hələ sovet dönəmimdə ölüm və Allah mövzularını gətirə bildi. Onun təfəkkürü metafizik təfəkkürdür. O, metafizik şairdir. Göylərdə əlləşən, yerlə göy arasında olan şairdir. Onun bir şeiri var:

*Nə var Allahdan yuxarı?*
*Nə var qəbirdən aşağı?*
*Çəkdiyim ahdan yuxarı?*
*Bildiyim sirdən aşağı.*
*Demə ki, biz quş deyilik*
*Allaha tanış deyilik*
*Ruhum dur, yığış gedirik*
*Sən yuxarı, mən aşağı.*

Mən, Ramizi şair kimi son dərəcə çox sevirəm və onun "Nəfəs" kitabını hər gün mütaliə edirəm. Gənclərə də, oxuculara da məsləhət görərdim ki, "Nəfəs" kitabını oxusunlar. O insanın təfəkkürünü çox dəyişər".

**Elmin Nuri**
05.08.2015

## GÖRKƏMLİ ALİMİMİZİN NOBEL MÜKAFATI ÜÇÜN ÜZƏRİNDƏ ÇALIŞDIĞI İŞ BƏLLİ OLDU

Rafiq Əliyevin elmi mülahizələri, fikirləri, tezis-anlayışları, eləcə də nəzəri və praktiki nəticələrinin əhəmiyyətli hissəsi dünyanın məşhur elmi nəşrlərindən olan "SCI" və "SCI Expanded" jurnallarında dərc edilib. Və nəhayət, bir vacib məsələyə də toxunaq. Rafiq Əliyev haqda açıqlama verən Lütfi Zadə görkəmli professorun Nobel mükafatı ala biləcəyini deyib. Bu məsələ təbii ki, maraq doğurmaya bilməzdi. Müxtəlif mənbələrlə əlaqə saxlayıb R.Əliyevin konkret hansı işi üzrə Nobel mükafatı ala biləcəyini öyrənməyə çalışdıq. Araşdırmalarımız zamanı bəlli oldu ki, R.Əliyev "İnperfekt (qeyri-müəyyən) informasiya şəraitində yeni qərar qəbuletmə nəzəriyyəsi" işinə görə Nobel mükafatı ala bilər.

Bu məsələnin məğzi ondan ibarətdir ki, hər hansı bir həyatı məsələ ilə bağlı qərar qəbul edilən mühitdə informasiya tam, müəyyən olmadığı halda müvafiq, səmərəli, bütün cəhətlər nəzərə alınaraq qərar qəbul edilsin. Bu iş üzrə təklif Rafiq Əliyevə bir il öncə olub və iş üzrə proses davam edir. Qeyd edək ki, bu iş dünya iqtisadiyyatı üçün yeni ixtira hesab olunur. Həm istehsalçı, həm də istehlakçılarla bağlı xüsusi önəm kəsb edir. Bu işin üzərində R.Əliyev Amerikada yaşayan dünya şöhrətli azərbaycanlı alim Lütfi Zadə ilə birlikdə çalışır.

**Elşad Məmmədli,**
12.11.2011

## BU VAXTACAN HEÇ KİMDƏN HƏDİYYƏ ALMAMIŞAM

Bu gün dünya elminin qeyri-səlis məntiq nəzəriyyəsinin davamçısı, süni intellek sahəsində nadir mütəxəssislərdən olan professor Rafiq Əliyevin 75 yaşı tamam olur.

1942-ci ilin bu günündə Ağdamda anadan olan, hazırda dünyanın bir çox ölkələrinin məşhur universitetlərində mühazirələr oxuyan, dərslikləri uzun müddətdir tədris edilən Rafiq Əliyev ad günü ilə bağlı danışıb. Professor yaşının üstünə yaş gəlməsinə həm sevindiyini, həm də üzüldüyünü dilə gətirib: "Müəllimim professor Lütfi Zadə deyir ki, yaş artıqca bunun iki tərəfi olur. "Bilmirəm ki, sevinək, yoxsa bu yaşa çatmışıq deyə qəmlənək". Mən onun bu fikri ilə razıyam. Sevinc də var, amma bir az da horizontun axırı görünür. Yenə də Tanrının verdiyi ömrü yaşamışam. Buradan baxanda hansı cığırla və kolların içi ilə gəlməyim, nələri əldə etməyim hamısı görünür. Ona görə də ikili hiss yaşayıram.

Rafiq Əliyev bildirib ki, 75 illiyini ailəsi ilə birgə qeyd edəcək: "Mən ad günlərini qeyd eləmirəm. Əvvəldən bunu sevməmişəm. Xüsusən də 2011-ci ildən sonra heç qeyd eləmirəm. Amma dostlarım Ramiz Rövşən, Qulu Məhərrəmli, Rasim Balayev, Ramiz Həsənoğlu və başqaları gəlsə, bir yerdə oturacağıq. Amma çox məmnunam ki, xaricdə yaşayan oğlum, gəlinim və nəvəm gəlib. Onlarla bir yerdə olacağam".

Professor bundan sonra görüləcək işlərinin çox olduğunu bildirib: "Həyata keçirmək üçün o qədər planlarım var ki… Mart ayında Amerikada Dünya Elmi Nəşriyyatında 400 səhifəlik bir kitabımı çapa verməliyəm. Eyni zamanda professor Lütfi Zadə ilə bir yerdə yazdığımız iki hissədən ibarət qeyri-səlis məntiq (nəzəriyyə və tətbiqi) barədə 500 səhifəlik kitab var. Oktyabr ayında onu çapa verməliyik. Dünyanın məşhur universitetlərindən biri ilə elmi müqaviləmiz var. Gedib Amerikada nəticələri müzakirə etməliyik. Həmçinin Kiprin Yaxın Doğu Universiteti ilə böyük müqaviləmiz var. Ümumiyyətlə, iş çoxdur. Bilmirəm, Tanrı izin verəcək ya yox. Əgər izin versə, çalışacağıq".

Professor, ad günlərində hədiyyə almağı sevmədiyini vurğulayıb: "Bilmirəm bu yaxşı, yoxsa pis xasiyyətdir. Mən heç vaxt hər hansı bir hədiyyəni qəbul etmirəm. Hətta ən yaxın əzizlərimdən belə, heç bir hədiyyə qəbul etmirəm. Məsələn, bu gün işə getməmişəm ki, mənə hədiyyə verməsinlər. Pis çıxmasın, onu rüşvət kimi qiymətləndirirəm. Amma bilirəm ki, rüşvət deyil. Amma bu gün bir hədiyyə almışam. Bu gün həyat yoldaşımın məzarı üstünə getdim. Ona gül çələngi bağışladım. Onun ruhu o gül çələngini mənə qaytardı. Mənim üçün o, ən böyük hədiyyə oldu. Ondan böyük hədiyyə ola bilməz".

**Sevinc Yasinqızı**
10.02.2017

## AZƏRBAYCAN ALİMLƏRİNİN YENİ HESAB KİTABI

Rafiq Əliyev: "Kitabda əksini tapmış nəzəri ideyalar və praktiki araşdırmalar yeni texnologiyaların yaranmasına və inkişafına təkan verəcək".

Dünyanın məşhur "World Scientific" elmi nəşriyyatı (New Jersey, London, Singapure) professor Lütfi Zadənin və Rafiq Əliyevin birgə yazdıqları "The Arithmetic of Z-number, Theory and Application" (Z-ədədlər hesabı, nəzəriyyə və tətbiq) iri həcmli kitabını bu günlərdə dərc etmişdir. Kitabın əsas qayəsi klassik ədədlər hesabından və nəzəriyyəsindən köklü surətdə fərqlənir, elmdə yeni bir istiqamət açır. Bu elm sahəsində ilk kitabdır, tam orijinaldır və müəlliflərin öz ideya və elmi araşdırmalarını əhatə edir.

Dünya elmi ictimaiyyətinin bu yeni elmi ilkə marağını nəzərə alaraq kitab barədə professor Rafiq Əliyev fikirlərini açıqlayıb: "Elmin əsas məqsədi istər təbiətdə, istərsə də cəmiyyətdə baş verən proseslərin, hadisələrin daha adekvat, daha dürüst modelinin, inkasının yaradılmasıdır. Elmi nəzəriyyələr belə modellər (ola bilər riyazi simvollar, ola bilər verbal, yəni sözlərlə təsvir olunsun) üzərində qurulur. O nəzəriyyə daha dürüst, daha səmərəli sayılır ki, real həyat hadisələrinin qeyri-müəyyənliyini daha ətraflı və daha dərin nəzərə ala bilsin. Bu baxımdan informasiya daşıyıcısı olan ədədlər 2 qismə bölünür: klassik ədədlər və qeyri-müəyyən ədədlər. Elə buna görə də dünya elmində 2 cür hesab var: klassik hesab, qeyri-müəyyənliklər hesabı. Əfsuslar olsun ki, Azərbaycan Universitetlərində və bütövlükdə ölkə elmimizdə ancaq klassik hesab və analiz öyrənilir və istifadə olunur.

Biz bu kitabda informasiya daşıyıcısı kimi ədədlərin təsnifatını vermişik: klassik ədədlər (0-cı səviyyə, məsələn 1,9,17); interval ədədlər (1-ci səviyyə, məsələn hərarət 20-dən 25-ədək); təsadüfi ədəd (2-ci səviyyə: məsələn, kişilərin boyu 1m 75 sm ətrafında normal paylanır); qeyri-səlis ədəd (2-ci səviyyə: məsələn, onun mənəvi çəkisi "çox böyükdür"); nəhayət Z-ədədlər (3-cü səviyyə, məsələn dünya bazarında xam neftin qiyməti "kiçik olacaq, inam böyükdür"). Biz kitabda 1-ci və 2-ci səviyyə hesabları haqqında informasiya versək də əsas vurğu 3-cü tip ədədlər hesabına və bütövlükdə riyaziyyatına həsr olunmuşdur.

Bir az sadə dildə desək Z-ədəd 2 hissədən ibarət sözlə təsvir olunmuş bir ədəddir. Birinci hissə-qeyri səlis ədəd dəyişənin, parametrin öz qiymətini göstərir, 2-ci hissə bu qiymətin etibarlılıq dərəcəsini qeyri-səlis ədəd kimi təsvir edir. Kitabda L.Zadənin yazdığı fəsildən bir misal gətirmək istəyirəm. Hansı ədəd daha böyükdür: (təxminən 100, həqiqidir) ya (təxminən 90, çox həqiqidir). Məsələn, jurnalistdən soruşurlar ki, qonarar bu 2 ədədlə xarakterizə olunur. Hansını seçərsiz?

Təklif olunan nəzəriyyənin əsas tətbiq sahəsi sözlə hesablama texnologiyası olacaq. Kitab Z-ədədlər hesabı adlansa da, Z-riyaziyyatının əsas elementlərini

əhatə edir. Z-ədədlərin əsas xassələri, onlar üzərində hesab əməlləri, Z-ədədlərinin cəbri sistemi, o cümlədən tipik Z-funksiyalar, onların törəmələri, Z-tənliklər və s. kitabda öz əksini tapmışdır. Kitabın son 2 fəsli Z-hesabın əməliyyatların tədqiqi problemlərində və bir sıra biznes, iqtisadi qərar qəbuletmə problemlərinin həllində tətbiqini ehtiva edir. Düşünürəm ki, kitabda əksini tapmış nəzəri ideyalar və praktiki araşdırmalar yeni texnologiyaların yaranmasına və inkişafına təkan verəcəkdir".

**tezadlar.az**
20.05.2015

## BU GÜN LÜTFİ ZADƏ MƏNƏ ZƏNG ETDİ…

Bu gün texnika elmləri doktoru, "Zadə irsi və süni intellekt" Assosiasiyasının prezidenti, dünya şöhrətli alim Rafiq Əliyevin doğum günüdür.

*– Rafiq müəllim, ad gününüzü necə qeyd edəcəksiniz?*

– Doğrusu, mən 2011-ci ildən – həyat yoldaşımı itirəndən sonra ad günümü qeyd etmirəm. Mənim birinci təbrikim həyat yoldaşımın gözlərindən aldığım təbrik idi. Sonra isə qardaşlarım – Musa Yaqub, Ramiz Rövşən bu axşam məni harasa dəvət ediblər, vallah, heç özüm də bilmirəm nədir. Ancaq özüm neçə vaxtdır ki, heç bir tədbir keçirtmirəm.

*– Bu günə qədər aldığınız ən dəyərli hədiyyə nə olub?*

– Ən böyük hədiyyəm həyat yoldaşımın 1970-ci ildə mənə bağışladığı oğlum Rəşaddır. O, hazırda professordur, xaricdə işləyir, yaxşı elmi əsərləri var. Rəşad mənim bu həyatda aldığım ən böyük hədiyyədir.

*– Siz digər dünya şöhrətli alimimiz Lütfi Zadə ilə yaxın dostsunuz. O, doğum gününüzlə bağlı zəng etdimi?*

– Bəli, Lütfi Zadə zəng edərək öz təbriklərini çatdırdı. Almaniyada və digər xarici ölkələrdə yaşayan dostlarım da təbriklərə qoşuldu. Sizdən iki dəqiqə əvvəl görkəmli şair Rüstəm Behrudi zəng vurmuşdu. Bu gün heç telefonu yerə qoymaq mümkün olmayıb.

**Aytac Qədirova**
10.02.2016

## ZƏKA AĞLIN GÜZGÜSÜDÜR

Alim, pedaqoq və nəhayət, vətəndaş. Pafosla əlavə etmək də olar: Əsl insan!.. Bizim müsahibin pafoslu təyinlərə, bəlağətli epitetlərə ehtiyacı yoxdur. Bu onunla söhbətin ilk 5-10 dəqiqəsindən sonra bəlli olur. Ünsiyyət zamanı yalnız onun daxili və xarici kübarlığından həzz almırsan, eyni zamanda insan şüurunun enə biləcəyi biliklərin dərinliyini, heç olmasa, təsəvvür edirsən. Bu səbəbdən də professor Rafiq Əliyevlə müsahibə, əlbəttə ki, çoxları üçün maraq kəsb edir:

*– Siz uzun illərdir ki, müasir dövrdə ən aktual olan elmi nəzəriyyə ilə məşğul olursunuz. Bir qayda olaraq, onu qeyri-səlis məntiq adlandırırlar. Bu nəzəriyyədən elmin bir çox sahələrində istifadə olunur, bununla belə, o, birmənalı olmaması və hətta paradoksallığı ilə də az diskussiya doğurmayıb. Amma elm və paradoks bəzən müasir dövrümüzdə bir-birini tamamlayan təriflərdir…*

– Ümumdünya tarixində elmin inkişafı üç mərhələdən keçib. Birinci mərhələdə elmi paradiqma Laplasın determinizmini əhatə edirdi. Yəni, ümumilikdə deyilirdi ki, bütün təzahürlər obyekltiv qanunauyğunluğa əsasən, qarşılıqlı əlaqədədirlər və bir-birilərini şərtləndirirlər. Bu mərhələdə elm irəliyə böyük sıçrayış edib. Amma o zaman elmi nəzəriyyələr, o cümlədən, İsaak Nyutonun əsas qanunları qeyri-müəyyənliyin təbiətini nəzərə almırdılar və izah da etmirdilər. Elmin inkişafının ikinci mərhələsində diqqət məhz bu qeyri-müəyyənliyə yönəlmişdi. Ehtimallar nəzəriyyəsi geniş yayılmışdı və statistik və kvant fizikası, Heyzenberqin qeyri-müəyyənlik prinsipi – onu bəzən fundamental qeyri-bərabərlik də adlandırırlar – meydana çıxdı. Ümumiyyətlə, ehtimallar nəzəriyyəsi qumar oyunlarının prinsipində ortaya çıxıb. Amma bu nəzəriyyənin elmi aksiomlarını sovet riyaziyyatçısı Andrey Kolmoqorov işləyib…

Ehtimallar nəzəriyyəsinin iki tərifi var. Obyektiv ehtimal nəzəriyyəsi təcrübəyə, subyektiv nəzəriyyə isə hipotetik ehtimallara əsaslanır. Məsələn, bugünədək ABŞ prezidentləri yalnız kişi cinsindən olub, amma biz ehtimal edə bilərik ki, nə zamansa Hillari Klintonun özü də prezident olacaq. Qeyri-səlis məntiqin predmeti, ümumi şəkildə desək, qeyri-müəyyənliyin təyinatı problemidir. Qeyri-səlis məntiq bizi reallığa bir addım daha yaxınlaşdırdı. Beləliklə, ehtimallar nəzəriyyəsində "bütün ehtimallar ardıcıllığında onların yekununun vahid olmasına" münasibətdə sərt və kompromissiz prinsip mövcuddur.

*– Yəni ehtimallar ümumilikdə bir-birini tamamlamalıdırlar?*

– Tamamilə doğrudur. Amma qeyri-səlis məntiq bunu tələb etmir. Ən başlıcası, ehtimallar nəzəriyyəsi Aristotelin ümumilikdə riyaziyyat dili üçün uzun zaman zəruri olan binar (ikili – müəl.) məntiqindən doğur.

*– "Tertium non datur" (üçüncü verilməyib) məntiqi təfsiri yada düşür…*

– Elədir ki, var. Amma qeyri-səlis məntiqin "buna ehtiyacı yoxdur". Bu məntiqə əsasən, "dünya ağ və qara rənglərdən ibarət deyil". Sıfırla bir arasında sonsuz sayda çoxluqlar var. Bununla yanaşı, qeyri-səlis məntiq heç də bütün riyazi simvol və işarələri "saymır", daha doğrusu, "konkret sözlərlə" saymır. Öz növbəsində istənilən nəzəriyyənin qiyməti onun həyata nə qədər yaxın olması və "yazdığı" reallığın qeyri-müəyyənliyini nə dərəcədə hesablaya bilməsi ilə ölçülür. Qeyri-səlis məntiq məhz bu missiyanı daşıyır. Bizim həmyerlimiz, dünyaşöhrətli Lütfi Zadə doğru olaraq qeyd edib ki, bu, əslində, dünyanı bütün müxtəlifliyi ilə qəbul edən "məntiqdir". Burada sərhəd yoxdur.

*– O zaman gəlin sizin elmi fəaliyyətinizdəki nəzəri problemlərdən bilavasitə məişət məsələlərinə keçək. Hər bir fərddə elmlə məşğul olarkən, şəxsi keyfiyyətlərdən əlavə, onun alim kredosu da yaranır. Siz necə hesab edirsiniz, əsl alim hansı cəhətləri özündə tərbiyə etməlidir?*

– İlk növbədə, əsl alim tamahkar olmamalıdır. Sən elmə daha çox pul qazanmaq, maddi rufah və şöhrət əldə etmək üçün gəlmisənsə, burada heç nə edə bilməyəcəksən. Alim əvəzində heç nə gözləmədən özünü elmə verməyi bacarmalıdır. Elm cəsarət, sevgi və fədakarlıq tələb edir. Buna görə də o, yorulmadan çalışmalıdır. Bununla yanaşı, alim öz fəaliyyətini dünya reallığına uyğun qurmalı və hətta zamanını qabaqlamalıdır.

*– Əgər alimə şəxsiyyət kimi yanaşsaq, onda necə? Bir çox hallarda diskussiyalarda tənqidi elmi düşüncəyə malik "intellektual"la tənqidi vətəndaş mövqeyinə malik "intellegent" qarşı-qarşıya qoyulur. Prinsipcə, "intellektual" ziyalılığın nümayəndəsi olmaya da bilər?*

– Hesab edirəm ki, bunlar tamamilə fərqli anlayışlardır. Belə bir aforizm var: "İnsanlar arasında qarşılıqlı əlaqələr fərdlərin intellekt dərəcəsi və intellektuallıq səviyyəsi ilə müəyyən olunur". Fərd yüksək intellektə malik ola bilər, amma bu heç də o demək deyil ki, o, ziyalıdır. Bu onun cəmiyyətə münasibətində də təzahür edir, onunla heç kim ünsiyyət saxlamaq istəmir. İnsanlarla bütün münasibətlərdə ilk növbədə özünün müəyyən etdiyi normaları rəhbər tutur. Şəxsi təcrübəmdən deyirəm ki, mən, məsələn, heç zaman tələbələrimlə "sən"lə danışmıram və içəri daxil olanda onlara ayağa qalxmağa icazə vermirəm.

Yəni şəxsən mən bu cür ənənə və təntənəyə qarşıyam. Bununla yanaşı, xoşbəxtlikdən, Azərbaycanda Allahın "intellekt və intellektuallıq"dan xali etmədiyi adamlar var. Bu sırada çox istedadlı şair Ramiz Rövşənin adını çəkə bilərəm.

*– "Ziyalı hər şeydən əvvəl millətin vicdanıdır, o təkcə öz ölkəsində deyil, bütün dünyada baş verən ədalətsizliyə və cəhalətə qarşı açıq müxalifətdə olmalıdır " fikrini necə qəbul edirsiniz? Çox poetik səslənə bilər, amma əsl ziyalının vəzifəsi budurmu? Bundan başqa, Azərbaycan dilində də intelligent – işıq sözündən olan "ziyalı" deməkdir.*

– Bu halda mən "İntelligent – millətin vicdanı və onun səsidir" ifadəsindən dəqiq və konkret ifadə tapa bilmirəm. Bu, dəqiq riyazi formuldur. "Millətin vicdanı" olmaq üçün ziyalı özünü çox şeydən məhrum etməyi bacarmalıdır.

"Ziyalı forumu"nun ilk toplantısında mən tarixə və dünya ədəbiyyatına istinad edərək, definisiyanı əhatə edən doqquz göstəricini sadaladım. Onlardan birincisi bu idi: "İntellegent millətin və dövlətin maraqlarını özününkülərdən, heç olmasa, bir pillə üstün tutmalıdır". Bundan əlavə, ziyalı – sözsüz ki, bu, ideya uğrunda mübarizdir və yadda saxlamaq lazımdır ki, əgər mübaliğəli danışsaq, hələ Məhəmməd Peyğəmbərin zamanından işıq gələn tərəfə daş atıblar. Ən nəhayət, ziyalı öz üzərinə heç bir "ideoloji öhdəlik" götürməməlidir və onun mütləq hər bir məsələdə qəti vətəndaş mövqeyi olmalıdır.

*– Siz, Azərbaycan ziyalılarının nümayəndəsi kimi ölkəmizdə müasir dövrdə ictimai şüurun formalaşması prosesindən razısınızmı?*

– Əlbəttə ki, yox. Siz yəqin ki, bilirsiniz, sosial reallıqda "daxili senzor" və "xarici senzor" kimi terminlər formalaşıb. Başqa sözlə, xarici senzor bizim fərd olaraq cəmiyyətdə sosial normalara və milli ənənələrə uyğun olaraq davranışımıza nəzarət edir. Amma insan özünə nəyi isə rəva görməyəndə, nəyisə qəbul olunmaz sayanda daxili senzor çox vacibdir, o zaman "bunu" başqalarından gizlədir və sosium da ümumilikdə buna normal yanaşır. Təəssüf ki, bizim cəmiyyətdə fərdlərin bir çoxunun daxili senzoru susur. Cəmiyyətimizdəki bir çox naqislikləri aradan qaldırmaq üçün ictimai qınaq "daxili senzoru" olmayanlara qarşı yönəlməlidir. Məsələn, mən anlamıram ki, öz tələbəsindən rüşvət alan adamı necə müəllim və professor adlandırmaq olar.

*– Siz bayaq Eynşteyndən sitat gətirdiniz. Onun bir aforizmi də var: "Yalnız Kainatın və insan axmaqlığının hüdudu yoxdur. Amma birinci ilə bağlı, mənim hələ də şübhələrim var". Bu fikirlə razısınızmı?*

– Eynşteyn nə dediyini bilirdi.

**zeka.az**
01.05.2017

# Rafiq Əliyevin ictimai məsələlərə münasibəti

*Azərbaycanın əsl sərvəti ziyalılarıdır.*

**Qulamrza Səbri Təbrizi**

*Əsl ziyalılardan məhrum millət ölümə məhkumdur.*

**Rafiq Əliyev**

*Mənəvi meyarları ranqlaşdırmış olsaydım, birinci yerdə namus və ədaləti qoyardım.*

**Rafiq Əliyev**

*Hakimiyyətin gücü xalqın etimad gücü ilə ölçülür.*

**Rafiq Əliyev**

# ƏSL ZİYALILARDAN MƏHRUM MİLLƏT ÖLÜMƏ MƏHKUMDUR

Yəqin hər kəs etiraf edər ki, xalqın, vətənin dar günündə həqiqi ziyalı tərəfindən səslənən fikirlər sadəcə söz olaraq qalmır, bəzən bütöv bir xalqa, bütöv bir topluma nicat yolunu göstərməklə onu düşdüyü fəlakətdən xilas edir. Kütləvi çaşqınlıq və çarəsizlik içində olan xalq bəzən bir ziyalının zəka nuru sayəsində ayağa qalxaraq yenidən toparlanmağı, özünə dönməyi bacarır ki, bu da ziyalının millət üçün hər kəsdən daha böyük önəm kəsb etdiyini göstərir. Bu mənada heç şübhəsiz ki, gerçək ziyalını millətin mənəvi xilaskarı hesab etmək olar. Azərbaycan xalqının dünya şöhrətli alimi, professor Rafiq Əliyevlə ziyalı missiyası və bu missiyanın əhəmiyyətinə diqqət çəkməklə yanaşı, Azərbaycan cəmiyyətindəki mənfi tendensiyalarla mübarizə imkanlarını da araşdırmağa çalışdıq.

*– Rafiq müəllim, öncə son günlərin ən çox müzakirə olunan məsələlərindən biri ilə bağlı fikirlərinizi öyrənmək istərdik. Sizcə ziyalının vətəndaş mövqeyi olmalıdırmı? Yoxsa ziyalı sadəcə elmi yaradıcılığı ilə məşğul olmalı və ictimai-siyasi proseslərin tamaşaçısı qismində çıxış etməlidir?*

– Şübhəsiz ki, ziyalının vətəndaş mövqeyi olmalıdır. Ola bilsin ki, kimsə çox böyük bir sənətkar və ya çox böyük bir alim olsun. Amma onun məhsulu yalnız özü üçündür. Əgər söhbət ziyalıdan gedirsə, onu səciyyələndirən ən önəmli atribut onun nailiyyətlərindən öncə onun vətəndaşlığıdır. Bu mənada əlbəttə ki, ziyalının vətəndaş mövqeyi olmalıdır. Onun ictimai fikrə təsir qabiliyyəti olmalıdır. Bəzən bizdə hər oxumuşa ziyalı deyirlər. Bu yanlışdır. Kiminsə ensiklopedik biliyi varsa, həmin şəxs ziyalı kimi xarakterizə edilir. Azərbaycanda, xüsusilə kənd yerlərində bəzən hər hansı bir şəxs haqqında söhbət gedəndə bildirirlər ki, “o, alim adamdır, hər şeyi bilir”. Hər şeyi bilmək alimlik demək deyil. Hər şeyi bilmək, çox oxumaq, çox informasiyaya sahib olmaq, o qədər də ağıllı olmaq demək deyil. Önəmli olan budur ki, sən o ağlı nəyə sərf edirsən. Sənin ağlından xalqın yoluna bir işıq düşürmü? Əgər bunu bacaran, buna nail olan alimmi, sənət adamımı, fikir adamımı varsa, onu ziyalı adlandırmaq olar. Mən məhz belə adamlara ziyalı deyərəm. Bəzən deyirlər ki, Azərbaycanda o qədər ziyalılar var ki... Mən düşünmürəm ki, hər hansı bir millətin – istər alman, istər fransız, istər türk milləti olsun, onun ziyalıları həddən ziyadə çoxdur. Ziyalı üç, beş və ya on olar. Bu, millətin sayından asılı olaraq az və ya çox ola bilər. Elə bu da kifayət edər. Lakin millətin, xalqın düzgün inkişafı, onun mənəvi dəyərlərinin qorunması o halda mümkün ola bilər ki, həqiqətən də bu qədər ziyalı olsun. O fikir adamı ki, milli-ictimai mənafeyi heç deyilsə, bir damcı öz mənafeyindən üstün tutur, həmişə xalqın, həqiqətin yanındadır, o zaman həmin şəxsə ziyalı demək olar.

*– Son vaxtlar cəmiyyətin demək olar ki, bütün təbəqələrində ziyalılarla bağlı gözləntinin əhəmiyyətli dərəcədə artdığı hiss olunur. Sizcə ziyalılara yönəlik gözləntinin artması nə ilə bağlıdır? Ola bilərmi ki, bu gözləntinin artmasının əsas səbəblərindən biri də xalqda siyasilərə olan inam və etimadın itməsidir?*

– Ola bilsin ki, siz bunu Azərbaycan mühiti üçün deyirsiniz. Əslində bütün dünyada hər zaman ziyalı sözü, amma həqiqi ziyalının sözü siyasətçi sözündən üstün olub. Tarix boyu bütün sivil millətlərdə məmur sözü yox, ziyalı sözü ən önəmli söz sayılıb. Məmurun ömrü çox qısadır. Məmur ömrü ən yaxşı halda bioloji ömürdür. Bu ömür, 50 il, 60 il, 80 il ola bilər. Amma əsl ziyalı ölümündən sonra yaşayır. Buna görə ziyalı ömrü məmur ömründən uzundur. Sivil cəmiyyətlərdə insanların əksər hissəsi bunu anlayır. Onlar anlayırlar ki, əsl ziyalı hər zaman Allahın və həqiqətin yanındadır. Əsl ziyalı hər zaman öz vicdanının səsini dinləyir. Əsl ziyalı hər zaman xalqın yanında olan insandır. Bu baxımdan onun başqa meyarları olmur. Ziyalının vəzifə, maddiyyat meyarı yoxdur. Ziyalıya məxsus olan ən mühüm atributlardan biri də nəfsinə sahib ola bilməkdir. Sivil cəmiyyətlərdə insanlar başa düşür ki, bu şəxslərin başqa bir istəyi yoxdur. Görürsünüz ki, bəziləri söyləyir ki, siyasətçilər hakimiyyətə gəlmək istəyirlər. Onlar anlamırlar ki, hakimiyyətə gəlmək siyasətçinin işidir. Bu insanlar siyasətə buna görə gəlib, buna görə siyasi partiya yaradıb və buna görə mübarizə aparırlar. Əsl siyasətçi üçün vəzifə, hakimiyyət xalqa xidmət vasitəsidir. Bu baxımdan hakimiyyətə gəlmək siyasətçinin məqsədidir və onun umacağı var. Digər zümrələrin də nədənsə umacağı var. Amma ziyalının umacağı yoxdur. Çünki ziyalı nəfsinin öhdəsindən gəlir, maddiyyat onun üçün önəmli deyil, vəzifəyə can atmır və s. Mənim bir yazım vardı və orada göstərmişdim ki, Lütfi Zadənin evi orta statistik azərbaycanlının evindən də aşağıdır. Nahar vaxtı Lütfi Zadənin evinə gedəndə otaqda yalnız iki kətilin olduğunu görmüşəm. Hansı ki, biri özü üçün, digəri isə yoldaşı üçün nəzərdə tutulub. Ona görə də evə başqa bir adam gələndə üçüncü kətili ordan-burdan axtarıb tapmalı olurlar. Yediyinə gəlincə, burada da diqqət çəkən elə bir şey yoxdur.

Mən toya çox az gedirəm. Xüsusilə həyat yoldaşımın vəfatından sonra toya ildə bir dəfə gedərəm, ya yox. Toylarda baxıb görürəm ki, ilahi, insanlar yeməyə nə qədər nəfslə aludə olurlar. Belə olanda düşünürəm ki, bu insanlar niyə yeməyə bu qədər ehtirasla aludə olur? Axı yemək sizin olmasa da, bu can ki, sizindir. Bu qədər nəfsə aludə olmaq nəyə lazımdır? Ziyalının belə umacağı yoxdur. Berkeley Universitetində Soda Hall adlı böyük bir bina var. Binanın aşağısında tədris mərkəzini maliyyələşdirən şəxslərin adı yer alıb ki, onlardan da biri Lütfi Zadədir. O, evinə stul almaq istəmir, amma tədris mərkəzini maliyyələşdirir. Əsl ziyalı belə olur. Amma sizin sözünüzə bir az opponentlik etmək istəyirəm. Görəsən, həqiqətənmi, Azərbaycan cəmiyyətində ziyalılara maraq, ziyalı sözünə ehtiyac bu qədər böyükdür? Əgər belədirsə, mən buna çox sevinərəm. Əgər belədirsə, deməli mənim millətim hələ ölməyib, sadəcə bir qədər öləziyib. Əsl ziyalılardan məhrum millət ölümə məhkumdur. Bu, aksiomdur.

*– Rafiq müəllim, vaxtiylə Xəlil Rza Ulutürk xalqın mənəvi-mədəni həyatında, şüur və davranışındakı sarpmaları tənqid edərək bundan qurtuluş yolu kimi bütöv bir milləti son nəfərinə kimi yenidən formalaşdırmağı yeganə çıxış yolu kimi göstərərək yazmışdı:*

*İşlər böylə getsə... Böylə getməsin!*
*Getsə, bu gedişi boğacağam mən.*
*Bütün Azərbaycan övladlarını,*
*Öz kişi bətnimdən doğacağam mən.*

*Sizcə doğrudanmı xalqın yenidən doğulmağa ehtiyacı var?*

– Hesab edirəm ki, milləti yenidən kodlaşdırmaq vacibdir. Xalq həmin xalqdır. Xalq 80-ci illərin sonlarındakı xalqdır. Bu həmin xalqdır ki, sizin doğulduğunuz yerlərdə, Şuşada bir-iki ağacın qırılması ilə ayağa qalxan xalqdır. O vaxt dəyərlər başqa idi, lakin bu gün başqadır. İnsanlarda da, fərdlərdə də bu baxımdan ciddi dəyişiklik var. Həmin vaxt qlobal hislər Azərbaycan insanında daha böyük idi. Bu gün isə vəziyyət fərqlidir. Xalq həmin xalqdır, metod isə yenidən kodlaşdırmaqdır.

*– Bir müddət bundan öncə millət vəkili Fazil Mustafa belə bir fikir səsləndirdi ki, təhsil, səhiyyə sistemindəki korrupsiyanın qarşısını almaq üçün bu sahədə çalışan insanların əmək haqqını artırmaq lazımdır. Sizcə doğrudanmı əmək haqqı azlığı ilə korrupsiya arasında hər hansı bir əlaqə var? Ümumiyyətlə, əmək haqqı azlığı rüşvət almaq üçün əsas sayıla bilərmi?*

– Mənim Fazil bəyə çox böyük hörmətim var. Onun fikri ilə qismən razılaşıram. Mən bir dəfə "Azadlıq" radiosuna müsahibəmdə bildirdim ki, ölkədə iqtisadi inkişafin səviyyəsini müəyyənləşdirmək üçün nə kompüter, nə də kalkulyator lazımdır. Bunun üçün müəllimin və həkimin əmək haqqına baxmaq kifayətdir. Əgər o həkim, o müəllim ali məktəbi pulla qurtarmayıbsa, əgər o mühəndis tapşırıq əsasında diplom almayıbsa, əgər o jurnalist ancaq yalanlar, iftiralar, kimlərinsə sifarişini yerinə yetirməklə məşğul deyilsə, təbii ki, onların maaşı indiki kimi az olmamalıdır. Mən demirəm ki, maaş artımı qəti olaraq rüşvətin qarşısını alacaq. Amma bunların arasında böyük bir əlaqənin olduğu da danılmazdır. Təbii ki, əmək haqqı artarsa, o zaman rüşvət də azalar. Lakin əmək haqları ilə yanaşı mənəviyyatı qaldırmaq lazımdır. Millətin mənəviyyatını yüksəltmək lazımdır. Dəyərləri dəyişmək lazımdır. Sosial kodlaşdırma ilə bağlı məsələyə birinci siz başladınız. Əslində bu gün baş verənlər dəyərlərin dəyişməsi deməkdir. Bu gün rüşvət çox adi bir normadır. Heç kim rüşvət almaqdan utanmır. Ola bilsin ki, 1-5% kimsə öz mənliyini qoruyur, nəfsini cilovlayır. Maaşla yanaşı mənəviyyat düzəlməlidir. Bu milləti yenidən kodlaşdırmaq lazımdır. Üçüncüsü, qanun işləməli, qanunun aliliyi təmin olunmalıdır. Qanun istisnasız olaraq hamı üçün eyni olmalıdır. Onda rüşvət olmayacaq. Bir sözlə, əmək haqqı artırılmalı, mənəviyyat yenidən kodlaşdırılmalı və qanunun aliliyi təmin edilməlidir.

*– Yenidən kodlaşdırmanı kimlər həyata keçirməlidir? Bu, hakimiyyət tərəfindən gerçəkləşdirilməlidir, yoxsa bu da ziyalıların missiyasına daxildir?*

– Bu, ziyalıların missiyasına daxildir, lakin bunun üçün imkan da olmalıdır. Qapıları əsas açan TV-lərdir. Yaxşı ki, internet var, saytları oxuyurlar. Lakin geniş kütlə bu imkandan məhrumdur. Bir də, insan informasiyanın 70%-ə yaxınını gözü ilə alır. Bu baxımdan TV-lər ziyalıların üzünə bağlı olduğuna görə, ziyalıların ictimai fikrə geniş təsir etmək imkanı yoxdur. Əgər ölkədə ideoloji konsepsiya varsa, ideoloji konsepsiyanın mühüm bir hissəsi yenidən kodlaşdırma olmalıdır. Mən belə təsəvvür edirəm. İmkanlar nə qədər məhdud olsa da, yenə də mövcud resurslardan, KİV-in imkanlarından yararlanaraq bu işi aparmaq lazımdır. Ədəbiyyat da bu məsələdə çox kömək edə bilər. Heyif ki, bu dəyərlər barədə heç bir ədəbiyyat yoxdur. Bir dəfə oxuduğum müsahibələrin birində belə bir fikir yer almışdı ki, niyə son 10-15 ildə əsl sevgidən, əsl məhəbbətdən bir əsər yazılmayıb? Bu, çox doğru yanaşmadır. Belə bir əsər doğrudan da yazılmayıb. Lazımi dəyərlərin formalaşmasına ədəbiyyatın da böyük köməyi ola bilər və bu məsələdə ədəbiyyatın imkanlarından istifadə etmək lazımdır.

*– Rafiq müəllim, adətən müğənnilərdən tutmuş ədəbiyyatçılara qədər bir çox insan buna özünəməxsus şəkildə haqq qazandırır. Onlar iddia edir ki, biz cəmiyyətə cəmiyyətin istədiyini veririk və həqiqi sənət hadisəsinə çevriləcək əsərlərə tələbat olmadığı üçün onların yaranması reallaşmır. Bu qənaəti bölüşürsünüzmü?*

– Mən bunun tam əleyhinəyəm. Xüsusilə də televiziyalardan söhbət gedəndə onlar reytinq məsələsini qaldırırlar. Halbuki, informasiya vasitələri xalqı öz ardınca aparmalıdır. Xalqın səviyyəsinə düşməməlidir. Tutaq ki, bir auditoriyada bir professor dərs deyir və oradakı tələbələrin 80%-i yaxşıdır, 20%-i isə zəifdir. Professor həmin 20% səviyyəsinə düşmür və düşə də bilməz. Burada sadəcə həmin 20%-i qaldırmaq lazımdır. Bazar situasiyası, bazar iqtisadiyyatı əsaslandırmasından çıxış edib, xalqın şou görmək, çılpaq qadın görmək istədiyini bildirib buna haqq qazandırmaq olmaz. Bu, yenidən kodlaşdırmanın ziddinə olan bir prosesdir.

Mədəniyyət qalxmalıdır. Küçədə gedən insanlara baxın. Bildiyiniz kimi, mən ayda iki dəfə qəbir üstünə gedirəm. Çox təəccüb edirəm ki, cavan adamlar gəlib keçir, lakin nə salam vermir, nə də "Allah rəhmət eləsin" demirlər. Yenidən kodlaşdırma budur. Amma kənddə bunu eləməzdilər. 20-30 il qabaq bu baş verməzdi. Və ya küçədə gedirsən, qabağına çıxan insanlar sənə salam vermir. Lakin Amerikada hamının üzündə bir gülüş var. Almaniyada, digər Avropa ölkələrində insanlar hökmən bir-birilərinə salam verməli, "sabahın xeyir" deməlidirlər. Hansı ki, salam verdikləri adamları tanımırlar. Sadəcə, xalqın, millətin ənənəsi belədir. Yeni dəyərləri sizlər, xüsusilə də TV-lər formalaşdırmalıdır. Lakin əfsuslar olsun ki, Azərbaycanda televiziyalar bir-birilərinin kopiyasıdır.

*– Sərdar Cəlaloğlu öz açıqlamalarında israrlı şəkildə sovet ideallarından imtina edilməli və milli ideallar yaradılmasının əhəmiyyətini vurğulayır. Sərdar bəy iddia edir ki, milli idealların yaradılması xalqın həqiqi milliliyi, özünüdərki və ölkənin müstəqilliyi üçün zəruridir. Sizcə, doğrudanmı Azərbaycanın azadlığı, müstəqilliyi xalqın milli ideallar yaradıb bu ideallara sahib çıxmasından asılıdır?*

– Sərdar bəyin milli olduğunu mən çox gözəl bilirəm. Bildiyniz kimi mənim Sərdar bəyə böyük hörmətim var. Hesab edirəm ki, bu gün bizə iki şeyin sinerjisi lazımdır. Tək millilik və ya tək ümumbəşərilik yox, bu ikisinin simbiozu gərəkdir. Əgər söhbət yenidən kodlaşdırmadan gedirsə, əgər yeni dəyərlərə keçiriksə, birinci ümumibəşəri dəyərləri əxz etməliyik. İnsan haqları, insana hörmət, söz azadlığı və digər ümumbəşəri dəyərlər önə çəkilməlidir. Əsas məsələrdən biri kimi əmlak toxunulmazlığı və s. dəyərlərə sahib çıxmağımız vacibdir. Lakin qlobollaşma qapımızı nə qədər döysə də, milliliyi saxlamaq lazımdır. O millət hörmətə layiq millətdir ki, öz milliliyini saxlaya bilsin. Lakin bunu da unutmaq lazım deyil ki, biz dünya cəmiyyətinin bir hissəsi olmaq istəyiriksə, dünya qanunlarını, ümumbəşəri dəyərləri qəbul etməliyik. Mən hər zaman öz yazılarımda demişəm ki, mənim mentalım Qərb mentalı, əxlaqım isə Şərq əxlaqıdır. Milli xüsusiyyətləri qorumaq lazımdır. Amma iqtisadi modellərdə və s. məsələlərdə dünya dəyərlərinə önəm vermək lazımdır. Heç bir ölkənin xüsusi iqtisadi modeli yoxdur. Dünyada 4 iqtisadi model var. Bunlar bilik, texnoloji, xammala yönəlik və aqrar modellərdir. Beşinci və ya altıncı iqtisadi model yoxdur. Bunu da müəyyənlədirmək lazımdır ki, sən hansı modellə işləyəsən. Xammal modeli iləmi işləyəsən? Ya Koreya, Sinqapur kimi texnoloji modellə? Yoxsa Avropa ölkələri kimi gözəl universitetlərin olacaq və bilik istehsal edəsən? Bu məsələlərdə artıq millilik keçmir. Burada deyə bilməzsən ki, mənim milli modelim var. Və ya deyə bilmərsən ki, mənim insan haqları məsələsində milli dəyərim var. Bu, mümkün deyil. Çünki bu dəyərlər ümumbəşəridir. Bizim bəzi milli deyimlərimiz var. Məsələn, deyirlər ki, böyüyün yanında susmaq lazımdır. Necə yəni böyüyün yanında susmaq lazımdır? Bəlkə böyük yaşlaşıb ağlını itirib? Bəlkə böyük nəyisə düz demir? Atalar bu məsəli bu mənada deməyib. Bununla demək istəyiblər ki, böyüyün nəsihətinə qulaq asmaq lazımdır. Lakin qərar vemək sənin ixtiyarındadır. Çünki Allah səni faili-muxtar yaradıb. Qərar səninkidir. Bizim auditoriyalarda müəllim içəri girəndə bütün tələbələr şax ayağa qalxır. Niyə? Tələbənin bu xalqa ən böyük xidməti bu ola bilər ki, yaxşı elm öyrənsin. Yaltaqlıq öyrənməsin. Tələbə niyə ayağa durmalıdır ki? Dünyanın hansı ölkəsində müəllim gələndə tələbə ayağa durur? Bizə millilikIə ümumbəşəri dəyərlərin sinerjisi lazımdır. Ümumbəşəri dəyərlərlə milli dəyərlərin elə sinerjisi lazımdır ki, onlar birləşəndə müsbət effekt versin. Bu baxımdan mən vəziyyətdən çıxış yolu kimi bunların simbiozunu görürəm.

*– Bəzi ziyalılar hesab edir ki, son 20 ildə Azərbaycan xalqının həyatına, işğallar, soyqırımları və s. ilə əlaqədar olaraq qəhrəmanlıq deyil, daha çox inilti və sızıltı hakim olub. Hansı ki, bu da xalqın mənəvi gücünü əlindən alır, onun qəhrəmanlıq ruhunu daha da öldürür. Bu qənaəti bölüşürsünüzmü?*

– Qəhrəmanlığın olması üçün gərək insan içindən azad olsun. İçi azad olmayan insan əsla qəhrəman ola bilməz. Hər hansı bir millət o zaman azad olacaq ki, onun axırıncı fərdi, axırıncı vətəndaşı azad olsun. Qəhrəmanların yetişməsi üçün xalqın, onun hər bir fərdinin azad olması lazımdır. Onların içi azad olmalıdır.

*– Daxili azadlığı əldə etmək üçün nə lazımdır?*

– Bir qədər öncə qeyd etdiyim kimi, millətin azad olması üçün onun axırıncı fərdinin azad olması zəruridir. Bunun üçün yuxarıda sadaladığımız ümumbəşəri dəyərlər əxz olunmalıdır. İnsan azadlığı, söz azadlığı, insana hörmət və s. mövcud olmalıdır. İnsanın içi yalnız o zaman azad ola bilər. Daim basqı altında qalan bir şəxsin hansı azadlığı ola bilər ki? Onun içi necə azad ola bilər ? Bu basqıların qarşısında 3-5 ziyalı davam gətirə bilər. Yalnız 3-5 adam ola bilər ki, bu basqılara rəğmən öz daxili azadlığını qoruyub saxlaya bilsin. Lakin kütlə bu basqıların qarşısında azad ola bilmir. Qəhrəman isə kütlədən yetişir.

*– Bu günlərdə Qafqaz Müsəlmanları İdarəsinin sədri Allahşükür Paşazadə məscidlərin sayı ilə bağlı maraqlı statistika təqdim etdi. Qeyd etdi ki, sovet dönəmində Azərbaycanda cəmi 17 məscid olsa da, bu gün ölkədə 2 mindən çox məscid və kilsə mövcuddur. Sizcə məscidlərinin sayının artması insanların Allaha olan inam və imanını artırıbmı? Sizə elə gəlmirmi ki, kəmiyyət artsa da, keyfiyyət, yəni Allaha olan inam və iman baxımından geriləmə mövcuddur?*

– Hesab etmirəm ki, bu məsələdə geriləmə var. Yadımdadır, Qarabağda ən böyük məscid Ağdamda idi. Aşura günləri və ya adi günlər çox adamlar məscidə gedərdi. Ancaq belə kütləvilik yox idi. Şuşada da məscid var idi. Mən yay ayları Şuşaya gedəndə düzü insanların məscidə gedib namaz qıldığını görmürdüm. Təbii ki, indi inanclılıq sovet dönəminə nisbətən daha çoxdur. Amma bir məsələ var. Din və dövlətçilik ideologiyası arasında lazımi balansı gözləmək lazımdır. Bu, çox vacibdir. İnanclı olmaq yaxşı şeydir. Mən yazılarımda da qeyd etmişəm ki, Azərbaycanın ən böyük bəlası allahsızlıqdır. Yəni gərək hər hansı bir addım atanda Allahı başının üstündə görəsən, vicdanın səsini eşidəsən. Allahla, vicdanınla qərar ver ki, bunu eləmək olar, yoxsa yox. Amma kütləvi şəkildə xurafata getməyin tam əleyhinəyəm. İnanc çoxalıb, lakin burada da sapmalar var. Çalışmaq lazımdır bu sapmalar, müxtəlif sekta və cərəyanlar olmasın.

Din və dövlətçilik arasındakı balansın qorunub saxlanılması zəruridir.

**Seymur Əliyev**

# AZADLIQ OLMAYAN YERDƏ

Yeni dərc olunmağa başlayan "Toplum" jurnali professor Rafiq Əliyevdən olduqca maraqlı və geniş müsahibə götürüb. Müsahibəni təqdim edirik:

*– Vaxtilə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin şöbə müdiri, ali ranqlı kommunist olmusuz. Qəlbən kommunist olmusuz, ya yox, biz deyə bilmərik…*

– Həm də qəlbən…

*– İndi isə çağdaş dünyanın ən inkişaf eləmiş nöqtəsində, ciddi bir beyin mərkəzində çalışırsız. Bu transformasiyaya bir aydınlıq gətirməyinizi istərdik.*

– Əvvəla onu deyim ki, Azərbaycanda elmi nəzəriyyə kimi iqtisadiyyat sferası boşdu, bizdə nəzəri iqtisadiyyat çox zəif inkişaf edib. Həmişə dediyimi bir də təkrarlamaq istərdim: deskriptiv statistika ilə məşğul olmaq, neçə qız doğuldu, neçə oğlan dünyaya gəldi deyə hesablama aparmaq iqtisadiyyat demək deyil. İqtisadiyyat tamam başqa şeydi, iqtisadiyyat odu ki, dünya və onun iqtisadiyyatı hara gedir, inkişafın üzü hayanadı – bunu biləsən, düzgün proqnozlaşdırasan, mikro və makro iqtisadi prosesleri modelləşdirəsən, optimal və ya ona yaxın qərarlar hesablayasan, ölkənin sosial-iqtisadi inkişafını idarə eləyəsən. Qlobal iqtisadi böhran dünyanı nə hala saldı, göz qabağındadır. Düzdü, iddia eləyirik ki, böhran bizə toxunmadı, elə deyil. Baxsanız görərsiz ki, böhrandan sonra ölkədə nə qədər adam işsiz qaldı. Bunu o biri müsahibələrimdə də demişəm. Məni ən çox qorxudan ikinci böhrandı. Çox da uzaqda deyil, altı aya-bir ilə, uzağı iki ilə dünyanı bürüyəcək. Səbəb odur ki, iqtisadi nəzəriyyə dünya praktikasına adekvat deyil. Sizə təzadlı görünsə də, dünya Marksa qayıdır… Kommunistlərin dövründə əyintilər vardı, bunu heç kəs danmır. Hər şey zora söykənmişdir. Amma zorla bərabər ədalət də vardı. Mən gördüklərimi deyirəm, sizə bir-iki misal da gətirəcəm…

*– Sosial ədalət, eləmi?*

– Bəli, sosial ədalət vardı, əxlaq vardı… Düzdü, onu limitləşdirirdilər, yönəldirdilər, amma cəmiyyət bugünkü kimi əxlaqsız deyildi. Mən 1964-cü ilin əvvəlində Moskvaya SSRİ EA İdarəetmə İnstitutuna aspiranturaya getmişdim. Onda görkəmli yazıçı və rejissor, Oskar mükafatçısı Rüstəm İbrahimbəyov həmin aspiranturada ya ikinci, ya da üçüncü kursda oxuyurdu.

*– Rüstəm İbrahimbəyovla o vaxtdan tanışsız?*

– Hə, axı o da kibernetika üzrə təhsil alırdı. Laboratoriyada oturub işləyirdim, gördüm dəhlizdə səs-küy var. Rusiyadan qaçaq düşmüş məşhur milyarder Boris Berezovski onda həmin institutun Hesablama Mərkəzində mühəndis işləyirdi. Bizim oxuduğumuz İdarəetmə Problemləri İnstitutu dünyanın ən tanınmış elm mərkəzi idi. Lütfi Zadə ilə də ilk dəfə bu institutda tanış olmuşam. Bura dünyanın ən müxtəlif ölkələrindən həm öyrənmək, həm də öyrətmək üçün gəlirdilər. Gördüm dəhlizdə hamı gülüb-danışır, soruşdum nə olub, cavab verdilər ki, Xruşşovu SSRİ Elmlər Akademiyasına seçmədilər.

*– Altmışıncı illəri misal çəkdiz. Rafiq müəllim, yetmişinci illərdə o ədalət bir xeyli zədələdi, eləmi?*

– Xruşşovdan sonra bir az bərkitmə işləri aparmaq istədilər, alınmadı. Bilirsiz niyə? Brejnev, ətrafı, partiya nomenklaturası rüşvətə-zada o qədər qurşandılar ki… Elə bu da onları yıxdı.

*– İdeologiyalar da ömrünü başa vurmalıdı…*

– Təbii. İkincisi, Məmməd Süleymanovun yazılarını mən də oxuyuram, ancaq fikrimcə, iqtisadi amil də vacibdi. Rusiyanı çökdürən neftə bağlılıq oldu. İqtisadiyyatı yalnız bir amilə bağlamaq olmaz, bunu indi də deyirəm Azərbaycan üçün. Post-neft dövrünü də düşünmək lazımdır. Neftlə bağlı suala Zadə də eyni cavabı verdi. Nöyüt bu gün var, sabah yoxdur – bu bir. İkincisi, səni xaricdən çox asan idarə edə bilərlər. Marksizmə qayıdışla bağlı fikirlərimə gəldikdə, mən elmi-nəzəri baxımdan deyirəm. Marksın iqtisadi nəzəriyyəsi o qədər də qüsurlu nəzəriyyə deyil. Düz deyirsiz ki, SSRİ-nin vaxtında iqtisadi qanunlar işləmirdi. Anlamırdılar ki, belə qeyri-elmi yanaşma sistemin dağılmasına gətirəcək. Siyasi qanunauyğunluqlara daha çox diqqət yetirilirdi. Misal üçün, bir şeyi Azərbaycanda yaratmaq lazım idi, amma siyasi mülahizlərdən çıxış edərək gedib Uralda yaradırdılar. Uralda yaradılmalı şeyi Qazaxıstana aparırdılar. Siyasət iqtisadiyyatı üstələmişdi. Süqutun bir mühüm səbəbi də bu idi – siyasət üzərində iqtisadiyyat qurulmuşdu…

*– Rafiq müəllim, MK-nın şöbə müdiri, kommunist elitasında təmsil olunmuş adam kimi SSRİ-nin dağılmasına görə məsuliyyət duyursunuzmu? Bəlkə sevinirsiz, qəlbən məmnunsuz?*

– Mən sovet dövründə formalaşmış bir insanam. Aspirantura təhsilimi Moskvada almışam, Bakıda qalsaydım – demirəm ha, böyük uğurlara imza atmışam! – hər halda belə olmayacaqdı. Eyni zamanda, sovet dönəmi üçün qətiyyən nostalji hissi yaşamıram. O zamankı elmi işlərimi indiki ilə müqayisə eləsək, postsovet illərindəki uğurlarım qat-qat yüksəkdir. Özünü tərif çıxmasın, dünyada tanınmaqdı, çap olunmaqdı, yazdıqlarımın universitetlərdə dərslik kimi istifadə olunmasıdı – bunları sovet vaxtında eləyə bilməzdim. Fərdi baxımdan çox sevinirəm. Ümumi planda baş verənlər bir o qədər sevindirici deyil…

Ölkənin vektoru Qərb istiqamətində olsaydı, əlbəttə, qat-qat artıq sevinərdim. Bu yaxınlarda Xudu Məmmədovdan bir fikir oxudum, onu olduğu kimi deyirəm: "İstərdim məni kommunist kimi dar ağacından assınlar, bir şərtlə ki, sinəmdəki yazıya "sonuncu kommunist" kəlməsi də əlavə olunsun". Xudu müəllim 1988-ci ildə rəhmətə gedib, deməli, bu sözləri sovet vaxtında – sonun lap yaxında olduğunu hələ heç kəsin bilmədiyi bir dövrdə deyib.

*– Bildiyimizə görə, dost olmusuz…*

– Həm də qohumuq. Xudu müəllim ilə yaxınlığımız qohumluqdan irəli gəlmirdi. Gələk sualınıza.

*– Bu qəribəliyi aydınlaşdırmaq istərdik: iki dostdan biri sonuncu kommunist kimi dünyadan köçmək istəyirdi, o biri təxminən həmin dönəmdə MK-nın şöbə müdiri idi.*

– Xudu müəllim həmişə dissident olub, bunu hamı bilir. Elmdən başqa hər sahədə çox tolerant adam idi – qohumluqda, dostluqda, yoldaşlıqda. Çox tez-tez, həftədə üç-dörd dəfə görüşərdik. Sonuncu dəfə o, rəhmətə getməmişdən iki gün qabaq Mərkəzi Komitədə mənim otağımda görüşmüşük.

Xudu müəllimlə Mərkəzi Komitədəki söhbətimizi nəyə gətirirəm. Mən hərəkətlərimin 90 faizini onunla məsləhətləşərdim. Bundan başqa, tez-tez görüşürdük – ya Nurəddin müəllimlə, ya Bəxtiyar Vahabzadəylə bizə, "Drujba" kinoteatrının yanındakı evimizə gələrdilər. Biz də onlara gedərdik. Mən Xudu müəllimin o cür düşündüyünə inanıram, amma o sayaq ekstremist mövqe tutmağına qətiyyən inanmıram. O, çox dözümlü adam idi. Akademiyanın müxbir üzvü idi, amma həqiqi üzv seçməmişdilər. Belə bir fikir vardı ki, Elmlər Akademiyasına vitse-prezident vəzifəsinə gətirilsin, özü də razılaşmışdı. İnanın, adamın harda olmasının elə böyük fərqi yoxdu, əsas əqidədir. Bəlkə Xudu müəllim partiya işində olsaydı, daha çox fayda verərdi. Mən belə düşünürəm. Elə bilirsiz partiya sistemində olan hər kəs qul kimi işləyirdi? Bir əlavə də eləyim. Yanılmıramsa, 1977-ci ilin qışı idi. Bakıda o qədər qar yağdığı hələ yadıma gəlmir. Bir nəqliyyat işləmir: nə avtobus, nə tramvay, nə avtomobil… O vaxt Azərbaycanda cəmi bir televiziya vardı, orda Xudu müəllimlə mənim müştərək verilişimiz efirə çıxırdı – "Elm və həyat". Gördüm tezdən zəng vurub ki, gedirik? Təəccüblə deyirəm, necə? Mən yuxarıda "Drujba" kinoteatrının yanında, o isə Az.TV-yə nisbətən yaxın – dəniz kənarında yaşayırdı. Qayıtdı ki, qol-qola verib piyada qalxarıq. O zamankı Kirov parkına qalxdıq, heykəlin alt tərəfində bir qutabxana vardı. Dadlı qutab bişirərdilər, bütün Bakı ora gedərdi. Bu hadisəni professor İxtiyar Bəxtiyarov kitabına salıb, bilmirəm hardan eşidib.

Çıxdıq ekrana. Mövzumuz beləydi: "Sistem və onun quruluşu". Fərqi yoxdu, cəmiyyətdə, ya təbiətdə. Xudu müəllim simmetriyadan danışdı. Dedi: "Ailədə, dostluqda, cəmiyyətdə, harada olur-olsun, simmetriya pozulursa, sistem dağılır". Sonra studiyadakı lövhəyə böyük hərflərlə yazdı: XALQ, QALX. Sonra da dedi: "Görürsüz, hərflərin düzümü dəyişir və ayrı-ayrı mənalar verir". Mən də əlavə elədim ki, düz deyirsiz, Xudu müəllim, mərkəzləşmiş dövlət heç vaxt yaşaya bilməz, o, mütləq dağılmalıdır. Bir misal da gətirdim: qədim İnk dövləti olub, orda hər şey mərkəzləşdirilmişdi. Hamı müti şəkildə əmrə tabe idi. Odur ki, Fransisko Pisarro 180 nəfərlik dəstəsi ilə nəhəng imperiyaya son qoya bildi. Əmr verəni öldürdü, sonra əmri özü verməyə başladı. Dedim ki: "Xudu müəllim, tamaşaçılarımız da eşidir, milyonların iradəsini bir adamın fikrinə tabe eləmək olmaz".

*– Söhbət canlı gedirdi?!*

– Əlbəttə, onda verilişi studiyada lentə yazdırmaq söhbəti yox idi, hər şey efirə canlı verilirdi. Xudu müəllim arada bir qulağıma pıçıldadı ki, bizi burdan salamat buraxacaqlar, ya yox, bilmirəm…

*– Söhbəti elə bura gətirmək istəyirdik – alim və məmur məsələsinə. Bir var alim, şair – bunların ikisini də eyni kateqoriyaya aid eləmək istərdik, nə dərəcədə düzdü, başqa*

*məsələ. Bir də var məmur. Alimin məmur olması təhlükəlidimi? Alim xoşlayır ki, eksperimentlər aparsın, ola bilərmi o, cəmiyyətə də laboratoriya kimi yanaşsın?*

– İcazə verin suala sualla cavab verim: Sizcə, mədəniyyət sahələrinin birinə Ramiz Rövşən rəhbərlik etsəydi, yaxşı olardı, ya yox?

*– Çətin sualdı. Bəlkə də indiki sistemdə Ramiz Rövşən yaxşı məmur olmazdı.*

– Mən heç vaxt məmur olmamışam. Mərkəzi Komitədə məni belə də tanıyıblar. Bir dəfə Mərkəzi Komitə bürosunun yığıncağıydı. Dağlıq Qarabağ ermənilərinə müraciətin mətnini birinci katib oxuyurdu. Orda belə bir cümlə vardı: "Azərbaycan xalqı Qarabağ ermənilərinin təhlükəsizliyinə zəmanət verir". Dedim belə cümlə yazmaq olmaz. Birinci katib soruşdu, bəs necə yazmalıyıq? Büro üzvlərindən biri qolumdan çəkdi ki, əşi, qoy oturmuşuq da… Heç vaxt heç kəsdən çəkinməmişəm, düşünmüşəm ki, uzaqbaşı gedib elmlə məşğul olaram. Nə isə, müraciətlə bağlı dedim ki, təhlükəsizliyə xalq yox, xalqı təmsil edən dövlət zəmanət verə bilər.

*– Yuxarıdakı sualla bürokratiyanın xarakteri ilə alimin xasiyyəti arasındakı ziddiyyətə işarə vurduq. Bürokratiya qəddar bir şeydi, onun humanistləşməsi, ziyalının, alimin məmur postlarına yerləşdirilməsi dövlətin öz hökmranlığından yavaş-yavaş imtinasına gətirə bilərdi – məsələnin bu tərəfi də var.*

– Tamamilə düzdü! Mən Mərkəzi Komitəyə gedəndə bir analitik qrup yaratdım. Ora kimlər daxil idi: Eldar Namazov, Tofiq Zülfüqarov, Yaşar Əliyev, Ceyhun Mollazadə, İlham Məmmədzadə, İlham Ağayev… 10-12 nəfərlik cavan bir heyət. Problemlərə tamam fərqli yanaşan insanlar idi. Sonradan da, maşallah, hərəsi bir vəzifəyə getdi.

*– Rafiq müəllim, informasiyaya açıq cəmiyyəti idarə eləmək asandı, yoxsa qapalı? Deyirlər, qapalı cəmiyyəti idarə eləmək daha rahatdı…*

– Asandı, rahatdı, ancaq gec-tez o sistem dağılacaq. Bağlı sistemdə entropiya, yəni gərginlik çoxalıb, sonda mütləq qapalı sistemi dağıtmalıdı. Açıq sistem isə bir vəziyyətdən o birinə keçə, yəni idarə oluna bilir. Bu, qanundu: istər təbiətdə, istər cəmiyyətdə.

*– Amma qapalı sistemin idarə olunması daha asandı…*

– Yalnız bir müddət!

*– Demokratiya isə çətin idarəetmədi…*

– Mən elə düşünmürəm. Qorbaçov demokratiyasına, yazılarımda da göstərmişəm, mən düymə demokratiyası deyirdim. Yəni rəhbər gecə yatdı, səhər oyanıb düyməni basdı ki, bu gündən cəmiyyətdə demokratiyadır. SSRİ-də akademik Abalkin soyadlı məşhur bir iqtisadçı vardı, onunla bir dəfə söhbətim oldu, səhv eləmirəmsə, 1988-ci il idi. Dedim, xırda müəssisələr, firmalar yaradırsız ha, qərarlarınızı hesablayırsızmı?.. Yeri gəlmişkən, iqtisadiyyatın canı hesablamadadır, əks halda, görülən işlər məhvə məhkumdur. Abalkin dedi, ay Rafiq, nə danışırsız? Axşam yatırıq, səhər Mərkəzi Komitədən göstəriş verirlər ki, 50 dənə filan müəssisə açılmalıdır, 30 dənə filan firma…

*– Müstəqilliyə keçid dövrünü hər sovet respublikası bir cür yaşadır. Bizdə bu proses necə baş verdi? Harasa keçdikmi? Keçmiş kommunistlərin az bir hissəsi əvvəlki mövqeyində qaldı, bəziləri sadəcə "formalarını" dəyişib hakimiyyətin yuxarı pillələrinə dırmandılar.*

– Azərbaycanı götürsək, hesab eləmirəm ki, hakimiyyətdəkilər keçmiş kommunistlərdi. Mən tanıdığım kommunistlərin əksəriyyəti elə də yaxşı vəziyyətdə yaşamır. Yaşayışlarını görürəm – evlərini kirayə verirlər, xırda işlərdə çalışırlar.

*– Siz Əbdürrəhman Vəzirovu Mərkəzi Komitədə işləməzdən əvvəl tanıyırdızmı?*

– Yox, heç bir münasibətimiz olmamışdı. Mərkəzi Komitəyə mən Kamran Bağırovun vaxtında rektorluqdan gəlmişdim. Elm şöbəsinin müdiri idim. 1988-ci ildə ali məktəbə qəbul vaxtıydı, Mərkəzi Komitədə bu məsələ müzakirə olunurdu. Bir rektor durdu dedi, institutun həyətində daldalanacaq düzəltmişik, çayxana açmışıq. Bir nazir dedi, həkim briqadası ayırmışıq… Söz mənə çatdı. O vaxt belə bir termin dəbdəydi: "korrupsiyalaşmış bürokratiya". Dedim, nə qədər ki, hər rektorun arxasında burda oturan bir məmur dayanır, heç bir düzəlişdən söhbət gedə bilməz. Onda əsas məqsədlərdən biri qəbulda düzlük-dürüstlük yaratmaq idi. Ali məktəblərə göndərdiyimiz rektorların qüsursuz işləməsinə çalışırdıq.

*– Ramiz Rövşən müsahibələrinin birində demişdi ki, azadlıqla xoşbəxtlik sinonimdi. Ancaq indi ətrafa baxanda azad olmayıb xoşbəxt olan xeyli adamla rastlaşırıq. Buna necə baxırsız?*

– Fikrimcə, məsələni bu cür qoymaq korrekt deyil… Azadlıqla xoşbəxtlik. Birinin olmamağı o birini istisna edir. Ramiz Rövşən də elə bunu deyir. Allahdan başqa hər şeyin bir dərəcəsi var. Qeyri-səlis məntiqin Aristotel məntiqindən fərqi də budur – dünyada, kainatda hər şeyin dərəcəsinin olması. Xoşbəxtliyin də o cümlədən. Yalnız Allahı dərəcəylə ölçmək mümkün deyil. O, mütləqdir. İtaliya iqtisadçısı Pareto deyib ki, bir meyarın yaxşılaşdırılması yalnız o birinin pisləşməsi hesabına başa gələ bilər. Ola bilməz ki, eyni vaxtda hər şey yaxşılaşsın. Allah birini verəndə o birini alır. Birisi quldu, amma milyardları var, onu xoşbəxt bilməyin. Onlar özləri də özlərini xoşbəxt saymırlar.

*– Bəs insanların, xüsusən, ziyalıların kamera qarşısında xoşbəxtcəsinə uğurdan, inkişafdan danışmasına nə deyərsiz? Gendən baxan düşünər ki, bunlardan xoşbəxti yoxdu…*

– Bu, efir obrazıdır. Əksəriyyət qıraqda tamam tərsinə danışır.

*– Kant da deyirdi ki, insanın dünyaya xoşbəxt olmaq üçün gəldiyini düşünmək doğru deyil. Yəni əxlaqla xoşbəxtlik qarşı-qarşıya qoyulurdu. Biz də o fikirdəyik ki, əxlaq olmayan yerdə xoşbəxtlik ola bilməz.*

– Həm də azadlıq olmayan yerdə…

*– Azadlıq olmayan yerdə əxlaq da ola bilməz, xoşbəxtlik də. Maraqlıdır ki, siz bütün müsahibələrinizdə, yazı və çıxışlarınızda əxlaqa çox önəm verirsiz. Ümumiyyətlə, belə bir fikir də var ki, elmlə əxlaqın yoldaşlığı vacib deyil, elm əxlaqa qarşı çıxa və ya ondan istifadə eləyə də bilər. Belə bir dilemma barədə nə deyərsiz?*

– Var belə dilemma. Elə bu yaxınlarda yazıçı Anarla bunu müzakirə edirdik. Yazılarımda da yazmışam: elm çox sürətlə getdi, əxlaq isə tısbağa sürətilə irəlilədi. Mən ictimai əxlaqdan danışıram, məişət əxlaqından yox. İstər Xirosimaya atılan bomba olsun, istər Əfqanıstana qoşun yeritmək: hamısı ictimai əxlaqın problemləridir, mənəm-mənəmliyin nəticəsidir. Mənəm-mənəmlik də ən

böyük əxlaqi qüsurdu. Amerikadakı çıxışlarımda dəfələrlə demişəm: birqütblü sistem dayanıqlı ola bilməz. Mənim sənətim sistemlər nəzəriyyəsidi. 90-cı illərdə Amerika daha çox hegemonluq edirdi, indi Avropa bir az dirçəlib, Çin dirçəlib. Birqütblü sistemin fəsadları çox gözlətmədi. "11 sentyabr" baş verdi, indi də "Wikileaks" ortaya çıxdı. "Wikileaks" tamam başqa dünya yaradacaq – mənim fikrim belədir. "Wikileaks"i XXI əsrin ən böyük hadisəsi sayıram.

*– Ədəbiyyatda əxlaqın rolu aydındı, bəs elmdə? Tutalım, siz dünya miqyaslı bir kəşf elədiniz, bunda əxlaqın hansı rolundan danışmaq olar?*

– Elmi kəşflərin nəticələrindən necə istifadə edilir? – sual budur. Xeyrə, yoxsa Şərə, mənəm-mənəmliyə? Açar kimin əlindədisə, məsələni də o həll eləyir.

*– Yəni alim kəşfin acı nəticələrinə görə məsuliyyət daşımır, Eynşteyn Xirosimaya görə cavab verəsi deyil…*

– Elədi. Hərçənd Eynşteyn sonradan kəşfinə görə peşmançılıq çəkirdi. Yeri gəlmişkən, mən düşünürəm ki, dünyada fundamental elmin inkişafına Eynşteynin Amerika prezidentinə yazdığı məktub qədər güclü təkan olmayıb. Əfsuslar olsun ki, bundan sonra atom bombası yarandı. Eynşteyn Amerika prezidentinə yazırdı ki, fundamental elmlərə və elmi layihələrə bu qədər pul ayırmaq lazımdır. Pullar ayrıldı, elmi kəşf oldu, amma elm silaha çevrildi. Bu, nədən asılıdır? Liderlərin əxlaqından, bütövlükdə siyasi əxlaqdan. Təəssüf ki, siyasi əxlaq elmi əxlaqdan dala qaldı.

*– XXI əsrin məşhur filosofu Berqsonun elmi-texniki tərəqqi ilə bağlı bir sözü var: deyir, elə bil bizim bədənimiz böyüdü, inkişaf elədi, artdı, bunun müqabilində qəlbimiz böyüмədi. Necə deyim, elə bil, vücudumuz qudurub ruhumuzu yedi…*

– Tamamilə doğru deyirsiz. Mənim bir yazıçı dostum deyir ki, bu "Wikileaks"dən sonra evdə də rahat yatmaq olmur, düşünürsən səni güdə bilərlər, çəkə bilərlər. Bu da onu göstərir ki, ictimai əxlaq, xüsusən, siyasi əxlaq çox geri qalıb.

*– Belə demək olarmı ki, elmi əxlaq yaradır, amma elmdən istifadə heç də həmişə əxlaqa xidmət eləmir.*

– Razıyam.

*– "Wikileaks"lə bağlı indi bütün dünyada fərqli fikirlər, versiyalar irəli sürülür. Kimi deyir, Amerikanın öz işidi, bəziləri deyir, yox, elə ən böyük ziyan amerikalıların özünə dəydi, bəziləri burda da yəhudi barmağı axtarır. Siz nə düşünürsüz?*

– Təxminən 3 il bundan qabaq İctimai Televiziyanın bir verilişində dedim ki, bu əsrin 20-30-cu illərində yeni bir sivilizasiya yaranacaq. Bu, fala baxmaq deyil, oxuduğum kitabların, öz fəhmimin hesabına gəldiyim qənaətdir. Yeni sivilizasiyanın kökünü bu internetdə görürəm. Amerikada bir layihə irəli sürmüşdük. Orada elmi işlərin maliyyələşdirilməsi mexanizmi belədi: universitet elmi layihəni təqdim edir, Milli Elm Fondu da pul ayırır. Bizə yazılan cavabda bildirilirdi ki, Amerikada cəmi 2 proqram bilavasitə prezidentin nəzarəti altındadı: biri internetin ikinci nəslidi, biri də distant təhsil. Hazırda Amerikada, Yaponiyada 30-35 faiz tələbə distant təhsillə diplom alır. İnternet dünyanı o qədər kiçildib ki, bu durum dünyaya təzə mahiyyət verir. Bəzilərinin "Wikileaks"dən xoşu gəlmir, mən onu 21-ci əsrin ən böyük hadisəsi sayıram. Bilmirəm hardan

oxumuşdum, deyir, Allah bəzən ayrı-ayrı insanlardan yox, zülmə dözən toplumdan intiqam alır. Dünyanın düzümü çox yerdə pozulub. Allah indiyə qədər dözüb, indi də bu yolla yeni düzümə ehtiyacı hiss elətdirir.

*– Siz "Wikileaks"dən sonra dünyanın hansı istiqamətdə dəyişəcəyini təxmin edirsiz?*

– Məncə, "Wikileaks" hadisəsinin birinci növbədə demokratiyaya köməyi dəyəcək, dünyanın əsas problemi də budu. Mən adi dini ayinləri yerinə yetirə bilmirəm, amma həyatım boyu rüşvət almamışam, baş kəsməmişəm, kömək istəyənə əlimdən gələni eləyirəm, xaricə onlarla tələbə göndərirəm. Ən böyük müsəlmanlıq da elə budur. Düşünürəm ki, demokratiya inkişaf edəcək, əxlaq dəyişəcək, insanlar dürüstləşəcək. Hamı desin Rafiq müəllim yaxşı adamdı, pis adamdı, filan-peşməkandı – ictimai fikir baxımından bu da vacibdi. Ancaq mənim üçün hər kəsdən əvvəl içimdəki vicdanımdır. Bəziləri, lap öz yaxınlarım mənə bilirsiz nə deyirlər? Deyirlər, sən ona görə rüşvət almırsan ki, almağa qorxursan. Məni ən çox yandıran da bu sözdür… Anlamırlar ki, mən içimdəkindən qorxuram. Yoxsa çoxları bulaşıb onsuz da.

*– "Wikileaks" hadisəsini, sizcə, kim yaradıb?*

– Əlbəttə, vicdanlı insanlar.

*– Sizcə, insanları mənəviyyatdan başqa nə birləşdirə bilər?*

– Mən bilən, birincisi torpaq olar, ikincisi bayraq. Vətən və dövlətçilik.

– Bu gün Azərbaycanda ziyalı institutuna əşhədü-ehtiyac var. Müxalifət, siyasi qüvvələr yox dərəcəsinə qədər zəifləyib. Bu mənada ziyalıların üzərinə böyük yük düşür. Söhbət ondan getmir ki, xalqı üsyana qaldırmaq lazımdır, yox, heç olmasa, ona çalışmaq gərəkdir ki, xalq öz mənəvi dayaqlarını itirməsin.

– Ziyalı institutunun yaranmasına doğrudan çox böyük ehtiyac var. Bilirsiniz, ziyalı ciddi qüvvədir, hər adama bu adı vermək olmur. Mənə elə gəlir, indi cəmiyyətin yuxarı qütbüylə aşağı qütbü arasında əlaqə çox zəifləyib, bunu bərpa eləmək vacibdir. Sovet dövründə bu əlaqəyə diqqət yetirirdilər: yazıçılar, bəstəkarlar və ya rəssamlar birliyi təsadüfən yaradılmamışdı. Məqsəd müxtəlif təbəqələr arasında bufer yaratmaq idi. Əsl ziyalıların heç biri kimdənsə çəkinən deyil, ikincisi, dövlətə, hakimiyyətə qarşı müxalif mövqedə dayanmırlar. Mən özüm heç bir siyasi partiyanın üzvü deyiləm, siyasi iddiam yoxdur, sadəcə, cəmiyyətdəki aşınmaya qarşıyam. Sovet vaxtında Kommunist Partiyasının üzvü olanda da öz mövqeyimi bildirirdim, burda nə pis şey var? Mən ondan böyük nadanlıq bilmirəm ki, biri o birinə desin: "Sən də mənim kimi fikirləş!"

*– Ziyalı birliyinin cəmiyyəti idarə edən qüvvələrə təsir göstərəcəyinə inanırsızmı?*

– İnanıram, inamımda da fakta söykənirəm. Dörd-beş il qabaq İctimai Televiziyada çıxış edəndə dedim: elmin, təhsilin səviyyəsini ölçmək üçün istinadlı jurnallardakı məqalələrə baxmaq lazımdı. O vaxtacan Azərbaycanda istinadlı jurnal termini işlədilməmişdi. Sonra gördüm, Ali Attestasiya Komissiyası bu kriteriyanı öz əsasnaməsinə salıb. Bir çox ölkədə belə bir qayda var: alimin elmi məqaləsi istinadlı jurnalda, yəni bütün dünyada yayılan və qəbul edilən, in-

deksi olan elmi dərgidə çap olunmayıbsa, onu işə götürmürlər. Almaniyada da belədi, Türkiyədə də. İTV-dəki çıxışımdan sonra gördüm ki, mən deyən tezislərin bir çoxu rəsmi mətbuatdakı yazılarda hallandırılır. Bu mənə kifayət etdi. Mən məqsədimə çatmışdım. Bu cür təsirdən xoşlandım.

*– İdarəçiliyin müxtəlif növləri var – demokratik, avtoritar və sair. Tutalım, bir konfransa gedirsən, orda bütün yerlərin, oturacaqların üzərinə adlar yazılır və hər kəs bilir ki, kim harda oturacaq. Bir də var, adsız-göstərişsiz tədbirlər. İştirakçılar gəlirlər və hər kəs bilir ki, kim harda oturacaq… Yəni elə cəmiyyətlər, mühitlər var ki, orda liderə ehtiyac olmur.*

– Mən liderin bütləşdirilməsindən danışmıram. Hər bir xırda-böyük institutun son qərarını topluma deyəsi bir adamı olmalıdır. Son qərarı qəbul edən və deyən bir adam sistemdə mütləq olmalıdır. Bu olmasa, sistem yaşamaz. Mən də konfranslara gedirəm, o tədbirə düzən verən, çıxışları paylayan, yekun sözü deyən adama mütləq ehtiyac var.

*– Bəlkə vertikal yox, horizontal bir idarəetmə?..*

– Ona tam horizontal demək mümkün deyil. Mən vertikalın tərəfdarıyam, həm də ona görə ki, pis çıxmasın, öz elmi-tədqiqat sahəmdən çıxış edirəm. Yəni sistemdə elementlər tək öz aralarındakı münasibətlə idarə oluna bilməz. Hökmən bir iyerarxiya olmalıdı, intəhası, sən iyerarxiyada hansı səviyyəyə hansı hüququ, hansı ixtiyarı verirsən, struktur bununla müəyyənləşir. Strukturun olması isə vacibdir.

*– Siz bunları deyəndə təbiətə əsaslanırsız, eləmi?*

– Həmişə bu fikirdə olmuşam ki, cəmiyyət təbiətin inikasıdır.

*– Belə bir fikir də var ki, insan beynində vahid idarəetmə mərkəzi yoxdur. Ayrı-ayrı funksiyaların yerinə yetirilməsi, qərarların qəbulu müxtəlif mərkəzlərin qarşılıqlı əlaqəsi, yardımlaşması sayəsində baş tutur. İdeal demokratik cəmiyyəti də bəzən bu sistemlə müqayisə edirlər…*

– Düşünmürəm belə olsun. Kibernetikanın atası Norbert Vinerin kitabında belə bir misal var. Ataksiya xəstəliyi zamanı beyin mərkəzilə əlaqənin pozulması baş verəndə hərəkətlər tam icra olunmur. Misal üçün, bir stəkan çayı dodaqlarına yaxınlaşdırmaq istəyən insan hərəkəti başa çatdıra bilmir, çünki cavabdeh orqan məsafəni ölçməkdə aciz qalır. İnsanın bütün bədəni məhz beyin mərkəzlərindən idarə olunur. İstər cəmiyyətdə, istər təbiətdə, harda koordinasiya pozulursa, orda xəstəlik var. Bütün strukturları hara hansı səlahiyyətin verilməsi müəyyənləşdirir. Bir var diktatura mövqeyi – bütün səlahiyyətlərin bir mərkəzdə toplanması. Bu, əlbəttə, düzgün deyil. Demokratik sistemlərdə isə funksiyaların məqsədyönlü paylanması baş verir.

*– Həm marksizmdə, həm liberal dünyagörüşdə dövlətsizləşmə, mərkəzsizləşdirmə idealı var, buna inanırsızmı?*

– İnanıram, amma dövlətin, mərkəzin funksiyası sıfır həddə çatmayacaq.

*– Son dünya böhranının meydana çıxmasında, sizcə, mənəviyyatsızlaşmanın rolu varmı? Amerika prezidenti Obama çıxışlarının birində böhranın səbəblərini həm də "bəzilərinin hədsiz tamahkarlığıyla" izahlamışdı…*

– Tamamilə doğrudur. Alman qəzetlərindən birinə müsahibəmdə də demişəm: dünya qazandığından çox xərcləyir. Hər il Amerikaya dərs deməyə gedirəm. İki il bundan öncəyə kimi orda olduğum müddətdə hər gün, mübaliğəsiz, 50 kredit təklifi alırdım. Banklarda o qədər acgözlük vardı ki! Daha çox varlanmaq istədilər, banklar çökdü və zəncirvari reaksiya yarandı. Yəni sözü ona gətirirəm ki, proseslərə mənəvi kriteriya olmadan yanaşma belə bir ümumdünya böhranına aparıb çıxardı. 2009-cu ildə Davos İqtisadi Forumunda Bill Qeyts əla bir çıxış elədi. Dedi ki, biz kapitalizmin qurbanlarıyıq. Bizim ölkənin vətəndaşları Havay adalarında istirahət eləyir, Afrikada isə uşaqlar acından ölür. Belə kapitalizm yaşaya bilməz.

Yəqin bilirsiz, indi Amerikada bir hərəkat başlayıb. 38 milyarder öz aralarında varidatlarının ən azı yarısını xeyriyyə məqsədilə paylamaq haqda müqavilə bağlayıb. Siz bu fikirləri mənim tövsiyəm kimi də qəbul edə bilərsiz. Allah sizi izafi dövlətli eləməsin. Onun hökmən bəlası var.

*– İzafiliyi necə bilmək olur? Görəsən, adam bunu hiss eləyir?*

– Hə, adam hiss eləyir. Adam ha!

*– Siz dünya üçün nəyi əsas təhlükə hesab edirsiz: qloballaşmanı, qlobal istiləşməni, ya insanların özləri ilə bağlı problemləri?*

– Dünyanın məşhur iqtisadçılarının yazdığı bir kitab var, orda dünya ölkələri 2 meyara görə klassifikasiya olunub. Birincisi, iqtisadi göstəricidir, adambaşına düşən ümumi daxili məhsul. İkincisi, millətin, insanın, populyasiyanın dürüstlüyüdür. İkisində də biz və digər Şərq ölkələri yaxşı yerdə deyilik. Məsələn, Çində baxmayaraq ki, həyat səviyyəsi yüksək deyil, dürüstlük çoxdur. Şimali Amerikada həm dürüstlük, həm də iqtisadi səviyyə yuxarıdır. Mən düşünürəm ki, dünyada atom bombasından da qorxulu dürüstlüyün yetərli qədər olmamasıdır. Nə bir çox insanlar dürüstdür, nə də bir çox siyasi liderlər. Problemlərin kökü bundadır – mən belə düşünürəm.

**Müsahibəni aldılar:**
**Vahid Qazi,**
**Fəxri Uğurlu,**
**Qurban Yaquboğlu**
2011

## SINDIRILAN İNSANLARLA QARABAĞI AZAD ETMƏK MÜMKÜN DEYİL

***"Qələm və qılınc, mənəviyyat və güc – Qarabağın azadlıq düstürü bundan ibarətdir"***

Həyatda elə insanlar var ki, onların fikir və düşüncələri yalnız yaxın çevrələrindəki insanlar üçün deyil, bütöv bir xalq, nəhəng bir toplum üçün mayak rolunu oynayır. Milyonlarla insan üçün fəaliyyət və yaşam prinsipini müəyyənləşdirən bu fikirlər peşəkar bir cərrah nəzəri ilə xalqın həyatındakı problemləri təsbit edir, bu problemlərin aradan qaldırılması yollarını göstərərək onun sağlam gələcəyi üçün stimul yaradır. Professor Rafiq Əliyevin məhz bu cür nadir insanlardan biri olduğunu nəzərə alaraq, cəmiyyətin demokratik kəsimini narahat edən bir sıra problemləri hörmətli elm xadimi ilə müzakirə etməyin hədsiz faydalı ola biləcəyinə qərar verdik. Ümid edirik ki, hörmətli professorun insanları mənəvi paklığa səsləyən dəyərli fikirləri bizə öz həyatımızı müsbət mənada dəyişməkdə kömək edəcək, habelə öz yaşam fəlsəfəmizə özünütənqid və özünütəkmilləşdirmə nöqteyi-nəzərindən baxmaqda kömək edəcəkdir.

*– Rafiq müəllim, öncə fəlakətli həddə çatan əxlaqi-mənəvi kataklizmin durumu ilə bağlı fikirlərinizi bilmək istərdik. Sizcə, nə baş verdi ki, cəmiyyət öz əxlaqi simasını bu qədər sürət və həvəslə dəyişdi?*

– Bu, məni hər zaman düşündürən bir məsələdir. Hesab edirəm ki, bu gün Azərbaycanda Qarabağ qədər əhəmiyyətli olan problemin biri məhz cəmiyyətdəki əxlaqi-mənəvi aşınmadır. Əxlaq deyəndə mən həm məişət əxlaqını, həm siyasi, həm ictimai əxlaqı, bir sözlə, əxlaqın bütün atributlarını nəzərdə tuturam. Azərbaycanda məişət əxlaqı aşağı səviyyədədir. Yəqin ki, sosioloqlar bu problemin kökünə daha yaxşı gedə, bu məsələni daha ətraflı və dəqiq şəkildə araşdıra bilərlər. Ola bilsin ki, bu iqtisadi inkişafla da bağlı olan bir amildir. İqtisadiyyatın vəziyyəti ilə bağlıdır. İnsanların maddi durumu ilə də müəyyən qədər əlaqədardır. Digər tərəfdən isə sosial kodlaşdırma məsələsi var, hansı ki, bu məsələni ilk dəfə siz qaldırmışdınız. Bütün bunların ümumi təsiri nəticəsində əxlaqi dəyərlər dəyişdi. Bunların dəyişməsi nəticəsində isə yeni kod əmələ gəldi. Şou-biznes yarandı. Ekranda çılpaq dolaşmaq tendensiyası əmələ gəldi. Aktrisaların əcaib oturuşları əmələ gəldi. Televiziyalar isə hər bir evə bütün bu yenilikləri daşıdı. Həmçinin, belə düşünmək olmaz ki, ictimaiyyətin hamısı elitadır, onların hamısı düzgün təhlil aparıb düşünə bilir. Yenidən kodlaşdırılan əxlaq bu və digər ailələrə sirayət edir. Baxın, görün məlum əxlaqi aşınma ilə bağlı KİV-də nə qədər məlumatlar dərc olunur. Məsələn, yazılır ki, filan kənddə, filan rayonda əxlaqsızlıq yuvası aşkar edildi və ya bu kimi xəbərlər. Halbuki, kənddə konservatizm bir qədər çoxdur. Orada saf əxlaqi dəyərlər şəhərə nisbətən daha çox qalmalı idi. Lakin təəssüf ki, belə deyil. Artıq məişət əxlaqı

baxımından vəziyyət kritik həddə çatıb. Siyasi əxlaqımız da arzuedilən vəziyyətdə deyil. İstər hakimiyyət-müxalifət arasında, istərsə də eyni cəbhəyə malik partiyalar arasında münasibətlər çox pis haldadır. Bu münasibətlərin yenidən dəyərləndirilməsinə, yeni münasibətlər sisteminin formalaşdırılmasına çox böyük ehtiyac var.

*– İctimai əxlaqla bağlı hansı problemlər mövcuddur və sizcə, bu problemlərin inkişafına nə səbəb olur?*

– Əfsuslar olsun ki, Azərbaycanda ictimai əxlaq da aşağı səviyyədədir. Sosial qınaq yoxdur. Bu səbəbdən də ictimai əxlaq aşağı vəziyyətdədir. Fərdlərin öz daxilindəki qınaq sistemi, daxili sensor mexanizmində də problemlər var. Bu senzor o qədər kütləşib, onun səviyyəsi o qədər aşağı düşüb ki, istənilən qıcıq oradan keçə bilir. Rüşvət almaq, rüşvət vermək başqasına sataşmaq, söymək, təhqir etmək artıq adi qıcıqlar hesab edilir. Bunlar bu gün adi normaya çevrilib. Buna görə də cəmiyyətdə də ümumi əxlaq aşağı səviyyədədir. Əxlaqın o biri atributlarına baxsaq, görərik ki, xeyli deqradasiya gedib. Xeyli tənəzzül baş verib. Baş verənlərin kökünü, səbəbini isə bir şeydə görürəm. Bu kök yenidən sosial kodlaşdırma ilə bağlıdır. Dəyərlər dəyişdi. Buna görə də bu gün qarşımızda başqa ictimaiyyət, başqa milli dəyərlər görürük.

*– Baş verənləri dəyərlər sisteminin dəyişilməsi və yeni kodlaşdırma ilə əlaqələndirirsiniz. Maraqlıdır, bəs nə üçün hər kəsin gözü qarşısında reallaşan bu dəyişikliklərə zamanında ölkə ziyalıları, cəmiyyətin üzdə olan nümayəndələri etiraz etmədi? Yoxsa belə bir etiraz oldu, sadəcə bu etiraz yeni dəyərlər sisteminin formalaşmasına mane olacaq gücdə deyildi?*

– Təəssüflər olsun ki, bu kodlaşdırmanın bir tərəfi də ziyalılarımızla bağlı oldu, onlara sirayət etdi. 30 il, 40 il qabağa getsək görərik ki, bizim Ziya Bünyadov, Xudu Məmmədov, Bəxtiyar Vahabzadə, İsmayıl Şıxlı, Tofiq Bağırov kimi əyilməz, sınmaz, millət üçün canından keçən insanlarımız var idi. Bu insanlar yetərincə çox idi. İndi isə millət uğrunda canından keçən insanların sayı bir əlin beş barmağı qədərdir. Onlar qalmadı. Qalmadı ona görə ki, bəlkə də insanların çoxunu maddi durumla bağlı sındıra bildilər. Rəhmətlik Famil Mehdi bu məsələ ilə bağlı öz fikirlərini sadəcə şeir xatirinə yazmırdı. O, bu problemin bütün ağrılı və təhlükəli tərəflərini dərk edirdi və ona görə yazırdı ki, "Dilən professor, utanma dilən". O, öz gördüyünü yazmışdı. F.Mehdinin başqa bir şeiri də var. Şeirin adı "Qul bazarı"dır. O, bu şeiri mənim xahişimlə yazıb. Mən işə gedəndə yolum hər gün bir qayda olaraq qul bazarının yanından keçirdi. Orda baş verənləri müşahidə edəndə ürəyim parça-parça olurdu. Quşlar üzüm və ya taxıl yığımı başa çatandan sonra əraziyə necə hücum edirlərsə, qul bazarına bir avtomobil yaxınlaşanda oradakı insanlar da maşınlara elə cumurdu. Bu mənzərəni görəndə mənim başımdan tüstü qalxırdı. Mən F.Mehdidən xahiş etdim ki, bunu poeziya dilində qısa da olsa təsvir etsin. Bu insanlar çörəklə imtahana çəkilirdi. Onların içində elmlər namizədi, alimlər var idi. Digər peşə və sənət sahibləri də var idi. İnsanları maddi durumlarının acınacaqlı olmasından istifadə edərək, bəzi şirnikləndirici vasitələrlə və s. onları sındıra bildilər.

Bu səbəbdən də sizin gözlədiyiniz ziyalı müqaviməti baş vermədi. Aydınların toplam işığı bu qaranlığı dağıdacaq işıq seli qədər olmadı. Buna görə də belə bir vəziyyət formalaşdı. Təəssüflər olsun ki, bu gün yalnız bir əlin beş barmağı qədər ziyalılarımız var. Əyilməyən, sınmayan sözünü deyə bilən ziyalılarımızın sayı yalnız bu qədərdir.

*– Maddi baxımdan sındırılan insanların yüksək mənəvi dəyərlər uğrunda mübarizə aparması, ləyaqətli, ədalətli, demokratik cəmiyyət qurması və özündə mənəvi güc taparaq işğaldakı Qarabağı azad etməsi mümkündürmü? Sındırılan insanlar belə bir müvəffəqiyyəti təmin edə bilərmi?*

– Bütün cəmiyyətlərdə elitanın faizi aşağı olur. Bu, adətən 1-2%-lə məhdudlaşır. Təbii ki, bizdə bu göstərici çox aşağıdır. Mənim fikrimcə, həyatda ən çətin və ən şərəfli şey nəfsinə qalib gəlməkdir. Həyatda ondan daha ağır bir iş təsəvvür eləmirəm. Əgər sənin mənəviyyatına olan sevgin maddiyatına olan sevgindən üstün deyilsə, sən bu millətin qayğıkeşi ola bilmərsən. Bu millət üçün yaxşı mənada nə isə etməyin mümkünsüzdür. Qarabağın azadlığı da, əxlaqı keyfiyyətlərimizin bərpası da, demokratik cəmiyyətin formalaşması da, korrupsiyadan, rüşvətdən xilas olmağımız da nəfsimizlə mübarizədən keçir. Biz bu mübarizədə qalib gəlməli, yüksək əxlaqi dəyərlərə malik cəmiyyət yaratmalıyıq. Ölkədə yüksək təhsil qurulmalı, ölkə səhiyyəsi mövcud durumdan xilas edilməlidir. O zaman mənəviyyatı maddiyatdan üstün tutan ziyalılar əmələ gələcək, onlar da öz növbəsində ictimaiyyətin, cəmiyyətin fikrinə təsir edə biləcəklər. Burada bir məsələ də yadıma düşür. Professor Zadə internetə mənim vaxtilə dediyim bir sözü yerləşdirib. Bu fikir belədir: Allah insanı tarazlıqda yaradır, kimə nəyi nə qədər verməyi özünəməxsus şəkildə tənzimləyir. Tanrı bir adama həm yüksək mənəviyyat, həm də yüksək maddiyyat vermir. Bu, mümkün olan bir məsələ deyil. Çox şeyi yalnız elə azsaylı insanlardan gözləmək lazımdır ki, onların mənəviyyatı çox, maddiyyatı isə azdır.

*– Rafiq müəllim, yəqin siz də etiraf edərsiniz ki, Qarabağ probleminin həlli uzandıqca insanların işğaldakı torpaqların azadlığına olan inamı azalmaqdadır. Siz necə, Qarabağın azad ediləcəyinə inanırsınızmı?*

– Mən Qarabağın azad ediləcəyinə bütövlükdə inanıram. Lakin bu məsələdə hər hansı bir vaxt müəyyənləşdirə bilmərəm. Bunun üçün nə qədər vaxt lazım olacaq – bunu söyləmək çətindir. Qarabağın işğaldan azad edilməsinin yolu azad və demokratik bir cəmiyyətin qurulmasından keçir. Bu həmçinin ölkənin cazibadarlığı ilə bağlıdır. Ölkə öz qızılı, nefti ilə deyil, ictimai durumu, insanları ilə cazibədar olmalıdır. Onda ölkənin bütün vətəndaşları da dinindən, etiqadından, mənəviyyatından asılı olmayaraq bu ölkəyə çox bağlanacaqlar. Qarabağ problemi artıq dünya güclərinin siyasi fəzasında olduğu üçün, o ölkələr üçün də biz yetərincə cazibədar olmalıyıq. Bizə ikinci dərəcəli bir ölkə kimi baxmamalıdırlar. Bunların hamısı isə demokratikləşmədən keçir. Üstəgəl, ölkənin gücü! Bu amili də unutmaq olmaz. Mən güc deyəndə yalnız hərbi gücü nəzərdə tutmuram. Aydındır ki, hərbi güc Qarabağ məsələsində birinci yerdə dayanır. Mən eyni zamanda bu sırada mənəvi, siyasi gücü qoyuram. Həmçinin,

insanların birlik gücünü, toplum gücünü əlavə edirəm. Hesab edirəm ki, Qarabağın azad edilməsinin yolu bundan keçir. Bir qədər də qısa və poetik dildə desək, qələm və qılınc, mənəviyyat və güc, sağlam mənəviyyat və böyük güc. Mən Qarabağın azadlıq düsturunu belə görürəm.

*– Məşhurlardan biri iddia edir ki, rəfdəki hansısa kitabı belə oxumaq üçün kiməsə vermək düzgün deyil. Çünki başqasına oxunmaq üçün verilən kitab öz ruhundan, ilkin təmizliyindən mütləq nə isə itirir. Bu baxımdan necə hesab edirsiniz, hətta Qarabağı geri qaytara bilsək belə, bu bizim üçün əzəli, pak, işğaldan öncəki Qarabağın yerini verəcəkmi? Yoxsa bu qayıdış ləkələnmiş müqəddəsliyin xilasından başqa bir şey olmayacaq?*

– Mən buna bir qədər fərqli baxıram. Ola bilər ki, gənc nəsil üçün Qarabağın azad edilməsi, yenidən o torpaqlara qayıtmaq o qədər də önəmli deyil. Mən “ola bilsin” ifadəsini işlədirəm, çünki inanmıram ki, kimsə bunu arzulamasın. Bunu sadəcə ehtimal kimi səsləndirirəm. Çünki gənc nəsil o havanı udmayıb. O torpağın üstə ayaqyalın gəzməyib. O sudan doyunca içməyib. Ola bilər ki, onlar 20-30 yaşlarında buna o qədər də önəm verməsinlər. Amma mənim həyat müşahidəmə görə, insan yaşa dolduqca, horizontun sonu görünənə yaxın insan torpaqlaşmaq istəyir. İnanın, kim olur-olsun, hər bir insanda torpaqlaşmaq hissi yaşa dolduqca güclənir. O torpağa qayıtmaq istəyir. İnsan hansı mənəviyyat və maddiyyat sahibi olursa olsun, onda torpağa qayırtmaq hissi digər hisslərdən güclüdür. Bu hiss Allahın insana verdiyi bir hissdir. Ola bilsin ki, siz onu indi hiss etməyəsiniz. Lakin gələcəkdə, bəlli bir yaşa çatandan sonra hökmən bu hiss içinizdə baş qaldıracaq. Mənim Almaniyadan dostlarım var. Onlardan biri Amid adlı məşhur bir cərrahdır. O, Cənubi Azərbaycandandır. Onunla görüşəndə necə olduğunu soruşuram. O, heç vaxt bu sualımın cavabında yaxşı və ya pis olduğunu söyləmir. Yalnız bir cümlə ilə belə deyir: “qürbətdə ömrü verdim bada”. Halbuki, o, maddi baxımdan tam təmin olunan bir insandır. Onun Almaniyada 12-15 otaqlı villası var. Türlkiyədə villaları, 50 hektar torpağı var. Amma bununla belə ondan necə olduğunu soruşanda belə cavab verir. O torpaqlaşmaq hissidir. Buna görə də Qarabağa qayıtsaq, onu əvvəlkindən də çox sevəcəyik. Çünki itirilmiş şeyi sonra daha çox qoruyursan.

*– Problemlərin həlli üçün demokratik cəmiyyətin yaradılmasının vacibliyini vurğulayırsınız. Hansı ki, belə bir cəmiyyətin formalaşması üçün əsas məsuliyyəti siyasi sistem daşıyır. Bəs daha demokratik və əxlaqlı bir cəmiyyətin yaradılması üçün fərd olaraq bizim üzərimizə hansı məsuliyyət düşür?*

– Bu, olduqca gözəl, həm də yetərincə gözəl sualdır. İctimaiyyətin gücü də, dəyəri də onun fərdlərinin dəyərlərinin cəmindən irəli gəlir. Bu cəm xətti-cəm deyil. Bu cəm sinergetik cəmdir. Əgər bu dəyərlər həqiqətən təmizdirsə, alidirsə, ümumi dəyər cəm dəyərdən qat-qat yuxarı olur. Yəni millət millət kimi formalaşır. Kütlə kimi deyil, millət kimi qərarlaşır. Kütlə cəmdir. Millət isə sinergetik cəmdir. Başqa sözlə desək, qeyri-xətti cəmdir. Hər bir millətin azad olması üçün onun hər bir fərdinin azad olması lazımdır. Bu aksiomdur. Hər bir fərd azad deyilsə, demək millət azad deyil. O xalq, o ölkə azad deyil. Bizdə bu gün çatışmayan ən böyük dəyər insanların daxili azadlıqdan məhrum olmasıdır.

Daxili azadlığın təmini isə ilk növbədə fərdin özündən asılıdır. Fərd azad olmalıdır. Həyatda mənən azad olmaqdan daha böyük nemət yoxdur. İnsanın maddi cəhətdən hər cür təminatı ola bilər. Şöhrət baxımından da, peşə baxımından da, professionallıq baxımından da təminatı ola bilər. Lakin bunların hamısının başında duran insanın daxili azadlığıdır. Bu yaxınlarda bir professorla söhbət edirdim. O, hər cümləni işlətdikcə sağa-sola baxırdı. Onun bu halını görüb o qədər pərişan oldum ki... Görün bu şəxs nə qədər qeyri-azad bir insandır ki, o, instinktiv olaraq, özündən asılı olmayaraq sağa-sola baxır. Qorxur ki, birdən onun söylədiyi hər hansı bir sözü eşidən olar. Özü də maraqlısı budur ki, elə bir qeyri-adi söz demirdi və adi, sıradan bir söhbət edirdi. Lakin bu cür adi söhbəti etməkdən belə qorxur, kiminsə onu eşidəcəyindən çəkinirdi. İnsanların çoxunun içində bu gün belə bir xof var. Biz o xofla, o qorxu ilə Qarabağı azad eləyə bilmərik. Gərək Azərbaycan insanı azad olsun. Yalnız o zaman Qarabağı azad edə bilərik. Yalnız o zaman ölkəmiz cazibədar ola bilər.

*– Rafiq müəllim, bu gün korrupsiya Azərbaycan insanının yaşamının bir hissəsinə çevrilsə də, insanların əksəriyyəti heç də mövcud durumdan şikayətçi görünmür. Əksinə, bir çoxları iddia edir ki, rüşvət onların həyatını asanlaşdırıb və qanunun, ictimai əxlaqın qoyduğu bütün sədləri aradan qaldırıb. Doğrudanmı artıq elə bir həddə çatmışıq ki, korrupsiyasız yaşaya bilmirik və bu, bizim ictimai həyatımızın bir hissəsinə çevrilib?*

– Şübhəsiz, korrupsiya çox böyük ictimai təhlükə kəsb edir. Cəmiyyəti korrupsiya qədər içəridən yeyən, onu daxilən çökdürən heç nə yoxdur və ola da bilməz. Mən nə zamansa bu problemin də həll ediləcəyinə inanıram. Amma bu məsələdə də dəqiq, konkret vaxt qoymaq çətindir. Korrupsiya elə bir bəladır ki, o cəmiyyəti çürüməyə, aşınmaya məruz qoyur. Buna görə də cəmiyyəti çürüməkdən qorumaq üçün korrupsiyaya qarşı sərt şəkildə mübarizə aparmaq lazımdır. Mənim insanlarla, xüsusilə də tələbələrlə bu barədə söhbətlərim olub. Mən onlardan rüşvət vermələrinin səbəbini soruşuram. Şübhəsiz, mən Azərbaycandakı tələbələri nəzərdə tuturam. Çünki kənarda onsuz da rüşvət yoxdur. Mən onlarla söhbətdə də görürəm ki, rüşvəti o insan verir ki, onun daxili azadlığı yoxdur. Onlar mübarizə aparmaq istəmirlər. Onlar bunu asan yol kimi qiymətləndirir. Açıq şəkildə deyirlər ki, əgər rüşvət verməsələr onları get-gələ salacaqlar. Deyirəm ki, niyə müqavimət göstərmirsiniz? Siz müqavimət göstərsəniz, gedib-gəlsəniz rüşvət də azalacaq. Onlar deyir ki, buna kimi biz qocalacayıq, əziləcəyik, xəstə düşəcəyik. Deyirəm ki, siz həm azad, həm sağlam, həm də rüşvətsiz yaşamaq istəyrisinizsə, onda gərək əziyyət çəkəsiniz. Acınacaqlı olan budur ki, insanlar da rüşvətə, korrupsiyaya bir qədər adaptasiya olub. Onlar bir qədər buna uyğunlaşıblar. Bu isə çox böyük bir bəladır. Bundan mümkün qədər qısa bir müddətdə qurtulmaq lazımdır. Bundan qurtarmaq yolu isə yenə də fərddən keçir. Fərd daxilən azad olsa, o cəmiyyətdə rüşvət olmaz.

*– Hazırda cəmiyyətdə sanki yüksək insani dəyərlərdən imtina yarışı gedir və artıq saflıq səfehlik, nəzakətlilik gerilik, vicdan və ədalətlilik isə gərəksiz yüklər kimi qavranılmaqdadır. Sizcə, insanların ləyaqətli, vicdanlı və ədalətli olmaq istəməməsinin səbəbi*

*nədir? Bunlarsız yaşamağın daha asan olduğu və daha böyük maddi faydalar vəd etdiyi gerçəyi, yoxsa bizim dərk edə bilmədiyimiz tamam başqa bir səbəb?*

– O cəmiyyətdə ki, yüksəlmək üçün alçalmaq lazımdır, o insanlar bunu tezis kimi qəbul edirlər. Amma min şükürlər olsun ki, bu tezisi qəbul eləməyənlər də var.

*– Bəzi fikir adamları hesab edir ki, vicdan, ləyaqət və s. kimi elə keyfiyyətlər var ki, onlar insanda ya var, ya yoxdur və əgər insanla birlikdə doğulmayıbsa, sonradan əxz etmək mümkün deyil. Bu qənaəti bölüşürsünüzmü?*

– Siz bu məsələyə bir qədər Aristotel məntiqi ilə yanaşırsınız. Mən bir qədər bunun əleyhinəyəm. Hər halda vicdan hamıda var. Vicdanın səsi hər kəsdə mövcuddur. Amma birində bu səs kifayət qədər aydın duyulur. Digərində isə çox zəifdir. O qədər zəifdir ki, bəzən öz qulağına belə çatmır. Təbii ki, burada genetik faktorun çox böyük rolu var. Mən cavan vaxtı rektor və ya digər vəzifələrdə çalışanda, mənim masamın üstündə bir lövhə vardı. Hansı ki, bu gün də vaxtilə həmin lövhəni görən insanlarla görüşəndə bunu mənə xatırladırlar. Sumqayıtda işləyəndə də bu lövhə mənim masamın üstündə idi. Lövhədə yazılmışdı: "babanı öyrən". Sol tərəfdə isə yazılmışdı: "fikirləş!" Çox şey babadan və ya ulu babadan gəlir. Bunu əsla danmaq olmaz. Genetik faktorları inkar etmək, onların rolunu azaltmaq olmaz. Bununla belə, bəzi məziyyətləri sonradan əxz etmək, qazanmaq da mövcuddur. Hansı məktəbə düşürsən – bax bunun böyük əhəmiyyəti olur. Bu vaxta qədər bir insan deyə bilməz ki, Rafiq müəllim nə vaxtsa səsini qaldırıb. Hansı vəzifədə, hansı şəxslə münasibətdə oluramsa olam, əsla səsimi qaldırmaram. Mənə elə gəlir ki, bu rəftar mənim müəllimlərimdən gəlir. Şübhəsiz, bu məsələdə ilk növbədə valideynlərimin payı var. Lakin eyni zamanda burada müəllimlərin də rolu danılmazdır. Həyatda iki insan var ki, onu özümə peşə müəllimi sayıram. Bunlardan biri mərhum akademik Petrov idi. O, SSRİ Elmlər Akademiyasının kosmos və idarəetmə üzrə vitse prezidenti idi. Eyni zamanda o, sovetlər birliyində İnterkosmosun prezidenti idi. Bir kosmik gəmi onun imzası və razılığı olmadan uça bilməzdi. Onun Sosialist Əməyi Qəhrəmanı və hər cür titulu var idi. Onunla mənim birgə fəaliyyətimiz təxminən 30 il davam etdi. Bu 30 ildə onun evində də olmuşam, Bakıda bizim evə də qonaq gəlib, dünyanın müxtəlif yerlərində müxtəlif konfranslarında olmuşuq. Bu 30 ildə tək bircə dəfə də mən onun səsini qaldırmasına şahid olmadım. O belə bir adam idi. Onun içi, daxili dünyası xeyirxahlıqla dolu idi. Mənim ikinci müəllimim professor Zadə olub. Mən onun da kimsə ilə nəzakətsiz danışmasına, səsini qaldırmasına şahid olmamışam. Mən Zadənin prinsipial münasibətini çox görmüşəm. Bəzən olur ki, konfransda kimsə danışanda gözlərini yumur. Başqaları bəlkə də elə bilir ki, o yatıb. Amma o, yatmır, deyilənləri düşünür və birdən gözlərini açıb çıxış edən şəxsə "sən düz demirsən" söyləyir. Amma o, bu etirazı da elə şəkildə, elə ton və çalarla ortaya qoyur ki, qarşı tərəf bundan qətiyyən inciklik duymur. Çünki bu etirazda çox yüksək nəzakət və qarşıdakı şəxsə hörmət ifadə olunur. Bu baxımdan bu məsələdə həm genetik amil, həm də sonradan qazanma mühüm rol oynayır. Dünyaya yeni gələn uşaq

ağ kağıza bənzəyir. Doğrudur, o ağ kağızın üzərində müəyyən cizgilər var. Bu, genetik cizgi və kodlardır. Amma o ağ kağızın üzərində boş yerlər də var ki, bu da qazanma nəticəsində dolur. Şübhəsiz, baxır nəyi qazanırsan. Bu, bir baxımdan hansısa cəmiyyətə düşməkdən də çox asılıdır. Hansı toplumda yaşamağın bu amildə çox böyük rolu var. Bunların nəticəsində insanların çoxu maddiyyata, az bir qisim isə mənəviyyata meyillənir.

*– Həyatda elə bir qərar olubmu ki, bu qərarı vicdanınızın ziddinə olaraq qəbul edəsiniz və daha sonra kimsəyə etiraf etməsəniz belə öz daxilinizdə bu qərarın peşmançılığını duyasınız?*

– Yox. Mən heç vaxt vicdanımla alverə getməmişəm. Və heç vaxt da getməyəcəyəm. Mən lap uşaq vaxtımdan öz vicdanıma sadiq qalmışam. Ümumiyyətlə, vicdanla alver eləmək olmaz. Vicdan sənin peşə namusun, ailə namusun, ictimai namusundur. Heç bir halda vicdanla konfiliktə getmək olmaz.

**Seymur Əliyev**

## DÜNYA ƏDALƏTƏ HAMİLƏDİR

İlk sayımızda siyasi rubrikamız üçün elə bir şəxsiyyətlə müsahibə hazırlamaq istəyirdik ki, həm bu gün, həm də gələcəkdə qəzetimizin birinci sayı qədər əlamətdar bir müsahibə olaraq yaddaqalan olsun. Sözün düzü, elə ilk ağlımıza gələn də Rafiq müəllim oldu. Son zamanlar bu şəxsiyyət elm dünyasının parlaq siması olması ilə bərabər, həm də Azərbaycan ictimayyətində diqqət mərkəzindədir. Onun hadisə və proseslərə orijinal baxışı, inanıram ki, bizim oxucularımızın böyük marağına səbəb olacaq. Dəyərli dostumuz, yaradıcılığında Qarabağ sevgisi və nisgili ağırlıq təşkil etdiyinə görə Qarabağın şairi adlandırılan Rəfail Tağızadənin sayəsində dünya şöhrətli alimimizlə, ziyalımızla müsahibə götürmək arzumuz reallığa çevrildi.

*– Rafiq müəllim, müsahibələrinizin birində demisiniz ki, XXI əsrin adamı daha çox ədalətə ehtiyac duyur. Nədən belə düşünürsünüz, günümüzdə ədalətsizliyin daha da çoxaldığından, yoxsa digər istiqamətlərdəki problemlərin azaldığından?*

– Düşünürəm, birinci səbəb, dünyada ədalətin azalmasıdır. Dünyada elm, texnologiya çox inkişaf edir, amma əxlaq, mənəviyyat çox aşağı sürətlə gedir. O, elmin texnologiyanın və ümumi inkişafın dalınca gedə bilmədi. Bunun da əsas səbəbi əxlaq və mənəviyyatın aşınması oldu. Keçən əsrin əvvəllərində dünyanı idarə eləmək üçün iki cərəyan yaranmışdı. Biri idealistlər, digəri isə neoliberallar idi. İdealistlərin fikri bu idi ki, təkcə ayrı-ayrı ölkələrdə yox, bütövlükdə bəşəriyyətdə, ümumdünya düzəni, ümumi ədalət olmalıdır. Amma neoliberallar deyirdi ki, ölkədə ədalət və nizam olsun. Ondan kənarda isə ölkənin mənafeyi vacibdir. Bu gün düşündüyümə görə dünya hakimiyyətində idealistlərdir. Mən demirəm ki, ABŞ-nın hakimiyyətində, Almaniyanın hakimiyyətində yox, dünyanın hakimiyyətində bu gün ideallardı, idealistlərdir. Onlar istəyirlər ki, dünyada ümumi bir düzən olsun. Bu baxımdan, mən həmişə yazılarımda da qeyd edirəm ki, dünya ədalətə hamilədir. Bunun səbəbkarı da birinci növbədə Tanrıdır. Bizim dünya kimi dünyalar çoxdur, paralel dünyalar çoxdur. Elə Qurani-Kərimdə də buyurulur ki, aləmlərin Tanrısı. Yəni, bizim dünya kimi çoxlu dünya var. Amma bizim dünyada hüzursuzluq həddən artıq çoxdur. Bu baxımdan fikirləşirəm ki, bu Tanrının diktəsi idi. Və həyata keçirənlər də idealistlərdir.

*– Bu gün Yaxın Şərqdə baş verənləri insanların ədalət axtarışı kimi başa düşmək lazımdır?*

– Tamamilə düzdür. Bu gün gedən prosesləri insanların ədalət axtarışı kimi qavramaq lazımdır. Düşünürəm ki, dünyanın elə bir avtoritar və diktator ölkəsi olmayacaq ki, bu küləklər ora çatmasın. O yerdə ki diktatorluq var, o yerdə ki haqq və ədalət pozulur, bu külək onların hamısına çatacaq.

*– Ziyalılar Forumunu Azərbaycanda ədalət axtaran insanların birliyi kimi qəbul etmək olar?*

– Düz formuladır. Biz Azərbaycan çərçivəsində ağrıyan yerləri görmək və o ağrıları yaşamaq istəyirik, eyni zamanda o ağrıları göstərmək istəyirik. Haqqın, ədalətin pozulmasını göstərmək istəyirik. Ziyalılar Forumunun bir məqsədi var: ictimai fikrə təsir edə bilmək. Çünki, ictimai fikirdə çox böyük indeferenlik var. Ölkədə taleyüklü qərarlar qəbul olunur, biz istəyirik ki, ictimai fikir bu qərarların qəbul olunmasına təsir edə bilsin. İngilislərin bir yaxşı sözü var "soft pover" – "yumşaq güc". Mən Ziyalılar Forumunun məqsədini, amalını bu "yumşaq güc" kimi görürəm. Ziyalılar Forumunun elə bir imkanı yoxdur ki, nəyəsə təsir eləsin. Bu qurumun əsas gücü, bayaq da qeyd etdiyim kimi sözdür, yəni o ağrıyan yerləri görmək, yaşamaq və eyni zamanda o ağrıları göstərmək. Qərbdə belə bir anlayış var, "yumşaq güc" vasitəsilə ictimai fikrə təsir eləmək.

*– Deməli, belə başa düşmək olar ki, Ziyalılar Forumunun əsas məqsədi Azərbaycanda qansız-qadasız dəyişikliklər üçün "yumşaq güc"ün formalaşmasına nail olmaqdır.*

– Bəli. "Yumşaq güc"ün nümayəndələri kimi mən ilk növbədə ziyalıları, yazarları və jurnalistləri görürəm. Bunu bir neçə dəfə də demişəm və indi də fürsətdən istifadə edib sizin qəzet üçün deyirəm: mən bu gün ən böyük qəhrəman jurnalistləri sayıram. Birinci sınanlar alimlərdir. Elm adamları çox sındı. Hamısı yox, amma çoxu sındı. Qəzetlərdə oxudunuz, məsələn, növbətçi 37-lər kimi özünüz də gördünüz, onun-bunun dalınca nələr yazmadılar. Bizim yanımızda çox dərin hörmət bəslədiyimiz, yazarımız Rafail Tağızadə əyləşib. Təəssüflər olsun ki, yazarlarımızı da bir az sındırdılar. Amma yazarlarımız, elmi işçilərə nisbətən az sındı. Sınmayanlar isə jurnalistlər oldu. Mən onları sonunu düşünməyən qəhrəman adlandırıram. Onların hesabına millət bu gün diri qalıb. Şəxsən mən belə hesab edirəm.

*– Siz Azərbaycanın neftdən asılı bir ölkə olmasından qurtulması üçün iqtisadiyyatın hansı istiqamətlərini prioritet hesab edirsiniz ki, dediyiniz iqtisadi model Azərbaycanda gerçəkləşsin?*

– Bu bir tədqiqat məsələsidir. Mən buna indi cavab verə bilmərəm. Araşdırma mərkəzlərinin bu istiqamətdə çox böyük araşdırmaları olmalıdır. Azərbaycan hansı istiqamətdə getməlidir, bunun üçün ilk növbədə dünya bazarını öyrənmək lazımdır. Təhsili, elmi düzəltmək lazımdır ki, nələri inkişaf etdirib, nəyi isə ixrac edə bilək. Amma ümumi şəkildə deyə bilərəm ki, sənayeləşmə əsas məsələdir.

*– Rafiq müəllim, müsahibələrinizin birində demisiniz ki, xalqın gərək gücü olsun ki, bu problemləri həll edə bilsin. Hər şeyi hakimiyyətin, başqa dövlətlərin üstünə atmaq düzgün deyil. Xalqın güclü olmasından ötrü nə edilməlidir?*

– Bayaqkı sualınız yarımçıq qalmışdı. Bu sualınız onu əhatə edir. Azərbaycanın gələcəyini, inkişafını dediklərimdən öncə Qarabağın, torpaqlarımızın azadlığında görürəm. Bir millət necə müstəqil ola bilər ki, onun torpağının 20%-i işğal altındadır. Yəni bu, müstəqillik anlayışı ilə bir yerdə uyuşa bilməz. Həm burada, həm ədalətə keçiddə, həm də yeni iqtisadi modelə keçiddə ən əsas, ən önəmli rol, xalqın roludur. Xüsusən, Qarabağ məsələsində. Əvvəla, burada beyin mərkəzləri şəbəkəsi olmalıdır. Bunu öz yazılarımda da

qeyd etmişəm ki, dünyanın elə bir konflikti yoxdur ki, məsələn, Misirdə olanlar və yaxud da Liviyada onlar əvvəlcədən modelləşdirilməsin. Mən dediyim çox sadədir. Bunu bilmək üçün internetə girmək və sosial inqilablar yazaraq sorğu vermək lazımdır. O saat görəcəksiniz ki, Liviya çıxır, hələ 3-5 il bundan qabaq. Maraqlansanız görərsiniz ki, Qazaxıstanda nələr olacaq. Bunlar hamısı mütəxəssislər tərəfindən modelləşdirilməlidir. Yoxsa, qəfildən kimsə nəyisə elədi yox, bu belə deyil. Bizdə də əsas Qarabağ problemidir, bu, çox ağır bir problemdir. Bu məsələnin arxasında xalq durmalıdır. Bilirsiz, hakimiyyətin gücü nədədir? Mən istəyərdim bu cümlə də getsin qəzetinizdə. Hakimiyyətin gücü xalqın ona olan inam dərəcəsindədir. Əgər xalq o hakimiyyətə inanmırsa, xalq o hakimiyyətin arxasında deyilsə, xalq o taleyüklü problemin arxasında deyilsə, onun sözü, səsi yoxdursa, o problem həll olunmayacaq. İstər ədalət problemi olsun, istər Qarabağ problemi olsun, istər iqtisadi problem olsun. İl yarım bundan qabaq Almaniyadaydım. Qəzetlərin hamısı yazırdı ki, bir avtovağzal var; köhnəldiyinə görə onu sökəcəklər. Yerində 4 milyon evroya yenisi tikiləcək. Alman xalqı qalxdı ayağa qoymadı bu avtovağzal sökülsün. Və arqumentləri də bu oldu ki, indiki iqtisadi böhran vaxtı bizim 4 milyonumuz niyə getsin. Həmin avtovağzal sökülmədi. Bu mənim gözümün qabağında oldu. Yəni, bu Qarabağla, başqa məsələlərlə müqayisədə xırda məsələdir. Amma sonda xalqın iradəsi hər seyi həll etdi.

*– Başqa bir müsahibənizdə deyirsiniz ki, ədalət uğrunda, demokratik cəmiyyət uğrunda çalışmaq lazımdır. Bununla bağlı nə kimi düşüncəniz var? Model olaraq cəmiyyətə nəyi təklif edərdiniz?*

– Düşünürəm ki, ən birinci cəmiyyətin müqavimət gücünü qaldırmaq lazımdır. Demokratiyanın olmasına yol açmaq lazımdır. Qıraqdan bura demokratiya gəlməyəcək. Vətəndaşlarımız nəfslərinin qurbanı olmamalıdırlar.

*– Azərbaycan gəncliyindən nə dərəcədə razı və ya narazısınız? Gəncliyimizi necə görmək istəyərdiniz?*

– Mən bugünki gəncliyi oyanmış gənclik kimi görürəm. Bir il bundan öncəki gəncliyi yox, məhz bugünkü. Mənim anlamımda dünya da bir il bundan qabaqkı dünya deyil. Və Azərbaycan da bir il bundan qabaqkı Azərbaycan deyil. Gənclik də bir il bundan qabaqkı gənclik deyil. Bu gün mən, xüsusən də, xaricdə təhsil almış və xaricdə təhsil alan tələblər ki var, 8-9 min nəfər və üstəgəl burda olan pozitiv gənclər, olanlara daha çox inamla baxıram. İnanıram ki, yaxın gələcəkdə Azərbaycanda sözünü deyən gənclik olacaq. O ki qaldı sualınızın ikinci hissəsinə, mən onları necə görmək istəyirəm? Allah rəhmət eləsin Həsən bəy Zərdabiyə, onun dəfn mərasimində Əhməd Ağaoğlunun bir çıxışı olub, deyib ki, get, Allah sənə rəhmət eləsin, ancaq babalarımıza de ki, niyə bizə belə bir vətən qoyub getdilər? İndi biz gəncliyə nə qoyub gedirik? Allahdanmı, özümüzdənmi, dünyada gedən proseslərdənmi biz nəslin payına ikinci dəfə müstəqillik düşdü. Amma biz nə qoyub gedirik gəncliyə – 20%-i işğal altında olan vətən, parçalanmış vətən. Gənclərlə görüşəndə mənə sual verirlər ki, bizimmi boynumuza atmaq istəyirsiniz bu problemləri? Yox, əstəğfürullah. Biz

onların çiyninə atmaq istəmirik. Biz olan portreti çəkirik və deyirik ki, Allah nə qədər ömür verib biz sizinlə bir yerdəyik. Bilirsiniz, gənclik daha çevikdilər, yaşlı nəslin isə təcrübəsi var, müdrikliyi var. Bunlar birləşəndə, bir yerdə sinergetik bir effekt verir. Adi cəm vermir, daha yüksək bir effekt verir.

*– Ağılla gücün vəhdəti baş verir.*

– Bəli, özü də qeyri-xətti vəhdət. Bu, təkcə onun cəmi deyil. Bu ikisi birləşəndə daha yüksək bir effekt verir. Gəncliyi, mən necə görmək istəyirəm bir ildən sonra? Artıq burda Qarabağ məsələsindəki qədər pessimist deyiləm. Mən bu inkişafı görürəm. Hələlik Qarabağda görmürəm, burada isə o artan inkişafı görürəm. Ən birinci gənclərimizi içində olan qorxu hissini dəfn olunmuş görmək istəyirəm.

*– Bu gün Avropada iqtisadi böhranlar, maliyyə krizisi, Yaxın Şərqdə baş verən bu inqilablar daha çox nəyin əlaməti kimi özünü büruzə verir? Dünya yeni bir dönəmə hazırlanır, yoxsa bəzi senaristlərin və siyasilərin ifadəsi ilə desək III Dünya müharibəsi yaxınlaşır? Yəni tarixi inkişafda quldarlığı feodalizmin əvəz etməsi yeni bir dünya yaratdı, kapitalizmin feodalizmi əvəz etməsi də yeni bir dünya yaratdı. Bu gün avtoritar rejimlərin çöküşü qlobal bir dünya demokratiyasının yaranmasına doğru gedir, yoxsa qlobal güclərin maraqlarının toqquşması, yeni qlobal münaqişələrin başlanmasına aparır?*

– Sualınızın içində cavab da var idi. Tamamilə düzgün qeyd edirsiniz, mən də belə düşünürəm ki, dünya demokratik bir düzən axtarır. Bu çarpışmalar da onun üstündədir. Dünyanın güc mərkəzlərinin nəyinsə üstündə apardığı mübarizə deyil.

*– Toqquşan maraqlar deyil də*?

– Hər halda mən belə düşünmürəm. Və burda da mən sizə deyim ki, bütün bu hadisələrin, istər dünyada olan iqtisadi böhranların və yaxud da ərəb ölkələrində olanların tək bir səbəbi var. Mənim düşüncəmə görə, bu tamahdır. Məsələni bir az da inkişaf elətdirsək ki, iqtisadi böhranın kökü nədir? Məncə, yerinə düşərdi. Bu məsələ mənim elmi işimə bir az yaxındır. Düşüncəmə görə, bu böhranın iki əsas köklü səbəbi var. Biz bunu internetdə də müzakirə etmişik, bizim bir BIS qrupumuz var, Berkeley Universitetinin, Lütfi Zadənin ətrafında formalaşıb. Bu qrupun 20 min üzvü var. İki il bundan qabaq biz hazırki iqtisadi böhranın səbəblərini çox geniş müzakirə etdik. Təbii ki, elmi baxımdan, sözlə yox. Mən düşünürəm ki, dünyada iqdisadi böhranların baş verməsində ən başlıca səbəb tamah oldu. Mən, ABŞ-da dərs deyəndə hər gün ən azı 50 məktub alırdım ki, kredit istəyirsən? Düzdür, bizdə krediti tanışlıqla, dostluqla, pulla verirlər. Amma orda belə deyil. Mən o məktubları heç açmırdım. Bilirdim ki, məktublar bankdan gəlib, cırıb atırdım. Oxumağa vaxtda yox idi. Tamah o qədər güclü idi ki, məni tanımadan kredit təklif edirdilər. Nə olsun ki, mənim ABŞ-da yaşamaq və işləmək iznim var. Yəni, bunun elmi əsasları olmalı idi. Kimə borc vermək olar, kimə isə borc vermək olmaz. Qazanmaq üçün kimə gəldi kredit, ipoteka verirdilər. Alınan kreditin bir gün geri qaytarılması var axı, bu mümkün olmadıqda isə banklar çökdü. Banklar çöküşü ilə maliyyə sektoru

çökdü. Maliyyə sektorunun çöküşü ilə iqtisadiyyat çökdü. İqtisadi böhranın ən başlıca səbəbi, məncə, budur. Təqribən 60-70% səbəbi tamahdır. İslam bankları çökmədi. Bu gün dünyada çox banklar islam bankçılığına keçib. Çünki İslamda sələm yoxdur. Onlar başqa yolla gedirlər. İslam banklarında prosedur belədir: gəlirin varsa, bank ona şərikdir. İtkin varsa bank ona da şərikdir. Burda kredit məsələsi yoxdur. Ona görə də iqdisadi böhran islam banklarına təsir etmədi. İkinci səbəb isə dünyanın qloballaşmasıdır. Ölkələr arasında iqtisadi əlaqələr genişlənəndi, amma kordinasiya məsələləri əvvəlki vəziyyətdə qaldı. Biznes o qədər inkişaf elədi ki, elm onun dalınca gedə bilmədi. Əlaqələndirmə olmadı. Ona görə də bu iqtisadi çökmə əmələ gəldi. Ərəb ölkələrində də baş verənlər də tamah üstündədir. Onların məvacibi az deyildi. Məsələn, Liviyada adambaşına düşən ümumi daxili məhsul dünyada ən yuxarı göstəricilərdən idi, 20-30 min ABŞ dollar. Arzu olunan bir şey idi. Yaxud da orta məvacib hardasa 6 min dollar idi. Amma bu ölkədə problem başqa bir şey idi. Niyə kiminsə milyardları olmalıdır, kim isə min-iki min dollarla yaşamalıdır? İki min dollar az pul deyil. Amma deyirlər yox, dövlətin gəlirləri xalqın arasında ədalətlə paylanmalıdır. Hətta Liviyada təzə doğulan uşaqlarada pul verirdilər, evlənənlərə isə ev verirdilər. İnqilab baş verən bəzi ərəb ölkələrin də vətəndaşlarını kommunal xərclərdən də azad etmişdilər. Ancaq cəmiyyətdə ədalət yox idi və insanlarda buna etiraz etdilər. Ona görə də düşünürəm ki, iqtisadi krizisin kökündə nəfs və bir də elmi saymamazlıq dayanır.

*– Rafiq müəllim, elə bir məsələ qaldımı biz onlara toxunmadıq, amma siz cəmiyyətimizin bu barədə bilgili olmasını istərdiniz?!*

– Bir məsələ qaldı, təhsil məsələsi. Ola bilər pafoslu alınsın, çünki mən təhsil adamıyam, bir az elm adamıyam. Ona görə bu məsələyə ayrıca toxunmağı zəruri bildim. Əslində Qarabağ probleminin də həllində, iqtisadi böhranların da kökündə təhsil dayanır. Azərbaycanın gələcək profili də təhsilin səviyyəsindən çox asılıdır. Əfsuslar olsun ki, bu sahədə son dərəcədə böhranlı bir vəziyyət var. Mən istəyirəm ki, ictimaiyyət bütün bunları bilsin. Dünən internetdə bir informasiya oxudum, gecə yata bilmədim. Demək dünyanın 20 min universitetinin içində Azərbaycan universitetləri 19 min neçənci yerdədir. Mən qəti bunu təsəvvür eləməzdim. Özü də bu tədqiqatı müxtəlif meyarlarla nüfuzlu beynəlxalq institutlar hazırlayıb.

Bir cəmiyyətdə ki, professor öz tələbəsindən rüşvət alır, orada təhsilin, elmin inkişafından danışmaq mümkün deyil.

*– Rafiq müəllim, maraqlı müsahibəyə görə çox sağ olun.*

– Siz sağ olun, mən sizə təşəkkür edirəm.

**Taleh Əliyev**
**"Haqq və Ədalət carçısı" qəzeti**

## HƏR 10-UN İÇİNDƏ BİR YAXŞISI VARSA, KİFAYƏTDİR

Müqayisəsiz, titulsuz... Alim, professor, qeyri-səlis məntiqin davamçısı və s. kimi yox, tələbələrin dostu, azad müəllim və əsl vətəndaş kimi... Sadəcə Rafiq Əliyev... Hər cümləsiylə bilik verən bu insan müsahibə zamanı hazırladığım suallar qarşısında bir ensiklopediya kimi vərəqlənirdi. Böyük sevinc və maraqla "oxuduğum" o vərəqləri oxuculara təqdim edirəm.

*– Rafiq müəllim, qeyri-səlis məntiq haqqında çox danışmısız, bəs süni intellekt anlayışını necə izah edərdiz?*

– Süni intellekt, təbii insan intellektinin yamsılanmasıdır. Hər hansı bir kompüter proqramından ya cihazdan ibarət sistemdir. Ümumiyyətlə, təbii intellekt nədir? Onun çox mürəkkəbləri, yəni təşkilediciləri var. Məsələn, ətraf mühiti qavramaq, məntiqi nəticə çıxarmaq, hesablamaq qabiliyyəti və s. Süni intellekt bu cür qabiliyyətlərin qeyri-xətti cəmidir, yəni onlar bir yerdə olanda daha yüksək intellekt verə bilər. İntellektual maşınlar yaratmaq çox vacib məsələdir ki, bəzi yerlərdə insanları əvəz etsin. Məsələn, okeanın dibində, dərin su altında çox təzyiq var, orda insan işləyə bilmir. Mən düşünürəm ki, 2070-ci, 2080-ci illərdə insanın intellektini bütöv özündə inikas edə bilən süni intellekt yaratmaq mümkün olacaq. Hesab edirəm ki, süni intellekt sistemləri humanist məqsədlə yaradılmalıdır. Yəni o yerlərdə ki, insanlara işləmək ağırdır: istehsalat sahəsi, müxtəlif ekstremal yerlər və s. Süni intellektə malik olan qurğular belə yerlərdə insanı əvəz etməlidir. Biz, yəni bütün bəşəriyyət informasiya inqilabını qurtardıq. İndisə intellektual maşınlar inqilabının ərəfəsindəyik. Artıq o maşınlar tək ekstermal sahələrdə yox, intellektual sahələrin özündə də istifadə oluna biləcək. Məsələn, yaxşı bir tədqiqatçı, yaxud süni intellektə malik müəllim yaratmaq mümkün olacaq...

Görürsüz, yaponlar necə gözəl robotlar düzəldir, bu o qədər də vacib deyil. Qabığı vermək, surəti vermək asandır, əsas onun içərisidir, ağlın verilməsidir. Süni intellekt nəyə görə lazımdır? Bir tərəfi məlumdur, çətin şəraitdə insanı əvəz etsin, o biri tərəfdən bu gün bəşəriyyətin cəmi intellekti, bəşəriyyət qarşısında olan çox mürəkkəb məsələləri həll edə bilmir. Məsələn, qlobal istiləşmə. Görürsüz, dünya nə gündədir, ora sürüşür, bura sürüşür: yer ayağımızın altından qaçır, dünyanı su basır və s. İntellektimiz güclənməlidir.

*– Təxminən 20 ildən sonra Azərbaycan elmini necə görürsüz? Görmək istədiyiniz hədəfə uyğun gəlir?*

– Nə çətin sual... Yox qəti uyğun gəlmir. Hazırda bizdə elmi mühit yoxdur, mən bir dəfə də bunu demişdim. Dünyanı kataklizmdən, ağırlıqdan çıxaran həmişə onun elmi olub. Mənim Nizamiyə də, Füzuliyə də, indiki dostlarım Ramizə də, Anara da, Rüstəmə də böyük hörmətim var. Amma insanları çətin vəziyyətdən elm çıxarır.

*– Ədəbiyyat elm sayılmır?*

– Yox ədəbiyyat elm deyil, sənət formasıdır. Məsələn, Türkiyədə 8-ci sinifdən sonra kolleclər 2 yerə bölünür: "elm və incəsənət" (science and art). Ayrı şey demək lazım deyil: "qüvvət elmdədir başqa cür heç kəs heç kəsə üstünlük eləyə bilməz". Əgər mənim elmim olsaydı, nə Ermənistan mənə üstün gələ bilərdi, nə Rusiya, nə də başqaları... Demirəm nəsə qorxulu bir silahım olsaydı, indiki şəraitdə o da pis deyil, heç olmasa elmi potensialım olsaydı, deyərdim ki, Azərbaycan bu elmi potensialın yiyəsidir, 5 ildən sonra sözünü deyə bilər. İndiki elmi mühitlə o hədəfi ki, mən görmək istəyərdim, onu görmürəm. Bəla tək maliyyə bəlası deyil. Azərbaycanda insanların elmə olan sevgisi ölüb. Gənclik elmə gəlmir. Və mən onları qınamıram. Məsələn, Sovet dövrünə mənim nostalgiyam yoxdur, ancaq həmişə bu və ya digər dövrə dialektik baxıram, yəni mənfiləri və müsbətləri müqayisə edərək. Mən o dövrdə professor olanda, istənilən nazirdən çox maaş alırdım. Bu gəncliyə böyük örnək idi. Yəni hər hansı gənc düşünürdü ki, mən də professor olsam bu qədər maaş alacam, gözəl yaşayacam. İndi isə görür ki, alverlə və yaxud başqa işlə məşğul olanda daha yaxşı yaşayırlar, daha çox "nailiyyət" əldə edirlər. Biznes deyəndə biz ancaq alıb-verməyi düşünürük, buna biznes deməzdim. Mən biznesdən dərs deyirəm, buna quruculuq kimi baxıram. Məsələn, qərbdə bizneslə məşğul olanlar, nə isə qurur, məhsul istehsal edir. Bizim biznes anlayışımız düzgün deyil, bizdə ancaq alver var. Ona görə də gənclikdə elmə sevgi ölüb. Elmdə pul yoxdur.

*– Rafiq müəllim, dünya ölkələri öz siyasətində qeyri-səlis məntiqdən istifadə edirmi?*

– Təbii ki. Lütfi Zadə 1965-ci ildə ilk məqaləsini yazdı. Bu məqalə bir elmi inqilab oldu, qeyri-səlis inqilab. Çox qəribədir, o, bu məqalədə yazmışdı ki, mən bunu siyasi elmlər üçün kəşf etmişəm. Yəni o yerdə ki, klassik, riyazi hesablamalar gedə bilmir. Məsələn, ABŞ bir proqram yaratdı ki, düşmən raketlərini göydə tuta bilsin. Klassik hesablamalar bunun öhdəsindən gələ bilmədi. Amma qeyri-səlis hesablamalar bunu bacardı. Mənim ən çox sevdiyim elm konfliktologiyadır. Bu, oyunlar nəzəriyyəsinə söykənir. Yəni ki, gərək mən tərəf müqabilimin 3-4 gedişini qabaqcadan hesablayım. O özünü necə aparacaq və mən hansı tədbiri görməliyəm. Bu, təbii olmalıdır. Mən qabaqcadan bilməliyəm ki, məsələn, Ermənistan parlamenti özünü necə aparacaq, Obama hansı sözü deyəcək, Türkiyə buna necə reaksiya verəcək və s. Bunları hesablamalıyam – konfliktologiya budur. Bu sözlə, fikirlə hesabdır və qeyri-səlis məntiqi də Zadə bunun üçün yaratdı. Qeyri-səlisin əsas məqsədi, insanın məntiqi nəticə çıxara bilmək qabiliyyətini daha dürüst yaza bilmək, daha dürüst ifadə etməkdir. Aristotel məntiqi buna yaramadı. İnsan ədədlərlə düşünmür, sözlə, təbii dillə düşünür. Təbii intellektin əsas daşıyıcısı təbii dildir – dillə, təfəkkür.

*– Bu məntiqdən istifadə edən konkret ölkə adı çəkə bilərsiz?*

– Əvvəla NATO həm fiziki layihələrində, həm də konfliktlərin həll olunmasında bu məntiqdən istifadə edir. Məsələn, ABŞ "süni intellektli əsgərlər" istehsal edir, bu əsgərlər sağa-sola baxır, 4-5 istiqamətdə ata bilir və bilir ki, hədəf hansı məsafədədir, necə atmaq lazımdır. Yəni intellekti var. Bundan başqa konfliktlərin həll olunmasında böyük institutlar qeyri-səlis məntiqlə ça-

lışır. Qarabağ konflikti üzrə ümumiyyətlə, siyasət üzrə institutlar işləməlidir, fərdlər yox. Mən əvvəldən bilməliyəm ki, Amerika hökuməti nə qərarlar qəbul edə bilər. Tutaq ki, burda Ermənistan və Türkiyə nədən danışacaq. Bunu bir variantla demək çox ağırdır. Mənim on variantım olmalıdır və on varianta da müqabil başqa qərarlarım olmalıdır. Qeyri-səlis məntiqin siyasətə tətbiqi də budur: müxtəlif variantlar arasında düzgün qərar qəbul etmək.

*– Deməli, qeyri-səlis məntiqdə mütləq dost ya da mütləq düşmən yoxdur.*

– Tamamilə düz deyirsiz.

*– Bu məntiqə əsaslananda erməni bizim neçə faiz düşmənimizdir?*

– Mən belə düşünürəm ki, ümumiyyətlə, xalq tarixdə heç vaxt günahkar deyil. Günahkar həmişə o xalqın başında duran, onu uçuruma yönəldən rəhbərlər olub. Və Ermənistanı da bu yola salan öz fərdi məqsədləri olub. İnanın, onlar bunu milli məqsəd üçün etmədilər və heç bir milli məqsədə də çatmadılar. Fərdi məqsədləri həll etmək üçün onlar bu yola düşdülər, təbii ki, bu konfliktlərin yaranmasında başqa güclərin də rolu var idi. Hüquqda da belə bir anlayış var: "bu, kimə sərfəlidir?". Hər bir cinayəti araşdıranda birinci buna baxırlar. Təbii ki, qüvvələr var idi ki, bu onlara sərfəli idi. SSRİ-ni dağıtmaq istəyən qüvvələr bir tərəfdə, hegemonluğu saxlamaq istəyən qüvvələr digər tərəfdə. O vaxt da bəzi ziyalılar və öz mənafeyini güdən Ermənistan başçıları buna getdilər. O ki qaldı Ermənistan nə qədər günahkardır. Qeyri-səlis məntiqdə termlər var: sözlərlə yazılmış dərəcələr. Məsələn, bayaq dediniz, mütləq dost, mütləq düşmən. Onun arasında dost var, yaxın dost var, lap yaxın dost var, zəif dost var və s. Termlər bunlardır. Mən, Ermənistan rəhbərliyinin Azərbaycana düşmənlik dərəcəsini "çox böyük" termlə qiymətləndirirəm.

*– Rafiq müəllim, Zadə məntiqiylə Eynşteyn nəzəriyyəsi arasında oxşarlıq var?*

– Əfsuslar ki, yox. Amma çox gözəl sual verdiniz. Eynşteyn fizikanı dəyişdi – müasir fizikanı yaratdı, bu kvant fizikasının katalizatoru oldu. Onun dörd böyük məqaləsi var. Bir məqaləsinə görə Eynşteyn Nobel mükafatı aldı. "The New-York Times" qəzetində Brain adlı bir fizikin "Qeyri müəyyənliyin yüzilliyi" adlı bir yazısı çıxmışdı. Yazıda belə bir şey var. Dünyasını dəyişən gün Eynşteyn deyir ki, mən Nobel mükafatını düz almamışam. Böyüklüyə baxın.. Deyir ki, mənim o əlyazmalarımı bir də gətirin. Eynşteyn, Nobel mükafatı aldığı əlyazmasına baxır, atır yerə, deyir, yox, bu, o deyil. Əlyazmaların arasından bir ifadə çıxır – "ehtimal yox, mümkünlük". Bu qeyri-səlis məntiq idi. O bunu edə bilmədi, amma axır dəqiqələrində bildi ki, real dünyanı mümkünlüklərlə yazmaq lazım imiş. Bir dənə də ifadə işlətdi: "Allah kainatla zər oyunu oynamır" (God does not play dice with universe) Hardan gəldi bu.. Onun bütün nəzəriyyəsi Aristotel məntiqinə əsaslanırdı. Başa düşdü ki, bu ikili məntiqlə yazıla bilməz, ayrı məntiq lazımdır. Yəni əlaqəsi olmasa da o, qeyri-səlis məntiqi görmüşdü...

*– Sizin yazılarınızda belə bir şey oxumuşdum. Lütfi Zadə tanıdıqlarının portretini çəkir.*

– Bəli, bəli, düzdür...

*– Bəs sizin necə, portretinizi çəkib?*

– Yox, mənimkini çəkməyib... Amma onun evinə girəndə bir portret var, ikimizin başqa adam tərəfindən çəkilən portreti. O, portretləri cavanlığında çəkirdi, özü də pul almırdı, bu onun xobbisi idi. Məsələn, Kerrinski haqqında bir kitab çıxıb, üz qabığında da öz şəkli və ora yazılıb: "işləyəni professor Lütfi Zadə". Daha sonra kimin var idi...

*– Rostropoviçi demişdiniz...*

– Bəli, Rastropoviç var. Daha sonra Niksonu görmüşdüm..

*– Ruzvelt...*

– Bəli var...

*– Lütfi Zadə elminin, qeyri-səlis məntiqin davamçısı Azərbaycanda sizsiz.. Bəs sizin davamçınız var?*

– Mənim 160 aspirantım, 30 elmlər doktorum müdafiə edib. Daha sonra Azərbaycanda, Amerikada, Yaponiyada, Türkiyədə, Kiprdə işləyən tələbələrim var. Məsələn, mənim Amerikada bir tələbəm var, orada yaşayır. Biz ildə bir dəfə görüşürük, amma yenə də internet vasitəsilə elmi işlərimizi aparırıq. Əgər son 10-15 ili nəzərdə tutursunuzsa elə biri hələ ki yoxdur.

**Gülnar Əliyeva**

## İNSTİTUTLARA, İQTİSADÇI ALİMLƏRƏ MÜRACİƏT EDİRƏM

Bu müsahibəni əslində milli maraqlarını hər şeydən üstün tutan alimin, ziyalının həyəcan təbili də adlandırmaq olar. Postneft dövründəki dünyanın, Azərbaycanın düşə biləcəyi vəziyyətdən narahat olan professor Rafiq Əliyev çıxış yolunu da göstərir. Çıxış yolu üçün təklif etdiyi qeyri-səlis iqtisadi modeli tanıtmazdan qabaq həyəcan təbilini indi yox, çoxdan vurduğunu deyir. 2008-ci ildən başlayaraq bu istiqamətdə mətbuatda səsləndirdiyi elmi proqnozları göstərir:

– Hələ 2008-ci ildə demişəm ki, Azərbaycanın neftdən sonrakı dövrünü düşünmək lazımdır. O zaman məndən müsahibə almışdılar. Ordan bir neçə çıxarışı sizə oxuyuram: "2012-ci ildən sonra bizdə neftin artımı aşağı düşəcək. Dünyada neft, su və çörək uğrunda böyük müharibələr gözlənilir. Amma bəşəriyyəti çətin vəziyyətlərdən həmişə elm xilas edib. Mən inanıram ki, insan zəkası alternativ yollar tapacaq". Orada dünyadakı iqtisadi inkişaf modelləri və onların Azərbaycana uyğunluğu barəsində də danışmışam: "Dünyada 4 iqtisadi inkişaf modeli var: bilik istehsal edən ölkələr, texnoloji iqtisadi modellə işləyən ölkələr, xammal istehsal edən ölkələr, aqrar yönümlü ölkələr.

Ölkənin iqtisadi modelinin düzgün seçilməsi vacib şərtdir. Bəzən belə çıxışlar edirlər ki, gəlin biz də bilik istehsal edən ölkələr modelinə keçək. Çox yaxşı, amma necə? Bu iqtisadi model üçün elmə külli miqdarda vəsait ayırmaq lazımdır". 2011-ci ildə də demişəm ki, dünyada atom bombasından da qorxulu dürüstlüyün olmamasıdır. İqtisadiyyatı yalnız bir amilə bağlamaq olmaz. Bunu indi də deyirəm: Azərbaycan üçün postneft dövrünü də düşünmək lazımdır. Neft bu gün var, sabah yoxdur, bu birincisi. İkincisi, səni xaricdən çox asan idarə edə bilərlər. Lütfi Zadənin bir yaxşı cavabı var. Bir dəfə jurnalist ona sual verəndə dedi ki, mən Azərbaycana nə arzu edə bilərəm ki? Cənubi Koreyaya baxın, Sinqapura, Malaziyaya baxın. Nə qızılı, nə nefti var. Amma kollektiv beyni var. Beyinə görə də o cür inkişaf edirlər.

*– Rafiq müəllim, 2008, 2011, 2012-ci illərdə səsləndirdiyiniz elmi proqnozlaşdırmalarla tanış olduq. Maraqlıdır, bu gün üçün nə düşünürsünüz?*

– Bu gün dünya yeni iqtisadi kataklizmlər astanasındadır. İqtisadi kataklizmlər həmişə siyasi kataklizmlərə, çətinliklərə gətirir. Bu indi dünya bazarında neftin qiymətinin aşağı düşməsi ilə əlaqədardır. Son vaxtlar neftin qiymətinin aşağı düşməsi müşahidə olunur və 83 dollara kimi enib. Bunun birinci səbəbini mən siyasi səbəb hesab edirəm. Əfsuslar olsun ki, bu gün dünya çox kiçikdir, ovuc içi boydadır. Bu səbəbdən də hər şey – siyasi, iqtisadi, sosial proseslər biri-biriylə əlaqədardır. Mən təsadüfən demirəm ki, dürüstlüyün olmaması atom bombasından daha təhlükəlidir. Nəfsi çox olan Amerika bankları o

qədər çox kredit payladı ki, insanlar onu qaytara bilmədi. Nəticədə bir böyük bank çökdü. Sonra isə zəncirvari şəkildə o biri böyük banklar da çökdü. Bayaq dediyimiz "dünya ovuc içi boydadır" fikri də burada özünü göstərdi. Dünyada iqtisadi əlaqələr həddən çox genişləndi, lakin bu əlaqələrin koordinasiyası bu genişlənməni izləyə bilmədi. Bu, beynəlxalq böhrana ən birinci səbəb oldu. İndi kim düşünür ki, neftin qiymətinin aşağı düşməsi ancaq bir neçə ölkəyə mənfi təsir edib o birilərinə etməyəcək, o çox böyük yanlışlığa yol verir. Dünya ölkələri bu gün hörümçək toru kimi bir-birinə bağlıdır. Təki Azərbaycana təsir etməsin. Amma mən düşünmürəm ki, dünyada elə bir ölkə olsun ki, bu gedişat ona təsirsiz ötüşsün.

*– Bəs bunun çıxış yolları nədən ibarətdir?*

– Belə məqamlarda həmişə nəinki bir dövləti, o cümlədən bəşəriyyəti iqtisadi kataklizmlərdən elm xilas edib. Odur ki, gec olsa da, Azərbaycanın neftdən sonrakı iqtisadi modeli barədə danışmaq lazımdır. Düzdür, deyilir ki, qeyri-neft sektorunu inkişaf etdirmək lazımdır. Amma bir var söz, bir də var elmi hesabat. Sözlə, adi konsepsiya ilə iqtisadi inkişafı təmin etmək mümkün deyil. Mütləq elmi hesabatlara söykənmək lazımdır. O hesabat nədir? – Bütün dünyada geniş tətbiq olunan iqtisadi modellərdən birinin burada tətbiq olunmasıdır. Bu və ya digər ölkə elmi və iqtisadi səviyyəsindən asılı olaraq özünə iqtisadi model seçir.

Fikirləşmək lazımdır ki, postneft dövründə biz hansı modelə keçəcəyik. Bunun üçün uyğun elmi kollektivlər bir yerə toplaşıb birgə fəaliyyət göstərməlidir. Bu gün belə iqtisadi modelləri inkişaf etmiş, inkişaf etməkdə olan ölkələr, hətta Qırğızıstan da yaradıb. Türklər 2000-ci illərdə xaricdən alimlər dəvət edib, öz alimləri ilə birgə güclü potensiala malik elmi qrup yaratdılar, məsləhətləşmələr aparıldı və Türkiyə üçün iqtisadi tarazlıq modeli yaradıldı. Mən indi belə modelin adı, özü, mahiyyəti barəsində danışacağam. Amma əvvəlcə onu deyim ki, bu gün dünyanın əksər ölkələrində, Amerikanın hər bir ştatında belə modellər tətbiq olunur. Elə bir inkişaf etmiş ölkə yoxdur ki, elmi dildə iqtisadi tarazlıq modeli adlanan belə modeli tətbiq etməsin.

*– Siz bir alim kimi bu model haqqında nə deyə bilərsiniz?*

– 2008-ci ildən başlayaraq iqtisadi elmi araşdırmalarla məşğul oldum. Çünki söhbət açdığımız modellər iqtisadiyyat sahəsinə aid olsa, onlar məhz iqtisadiyyat, informatika, kibernetika, kompüter elmlərinin sintezində yaranmalı idi. Bu gün bu problem o qədər vacibləşib ki, o modelləri yaratmağın hazır kompüter paketləri var. Bu və ya başqa bir ölkə götürür, öz iqtisadi imkanlarına adaptasiya edip, uyğunlaşdırır. 2008-ci ildən bəri bir neçə iqtisadiyyat alimi və iqtisadi qruplarla görüşdüm. Birinci dəfə professor Nazim İmanovla və Banklar Assosiasiyasının o vaxtkı rəhbəri Eldar müəllimlə, o cümlədən onların iqtisadi ekspertləri ilə görüşdüm, iki dəfə seminar keçirdik. Belə iqtisadi modellər ətrafında müzakirələr apardıq. "Həmin iqtisadi model nəyə lazımdır? Necə qurulmalıdır?" sualları ətrafında diskussiyalarımız oldu. İndi o modelin strukturu haqqında danışacağam. Amma onu da deyim ki, bu iş müxtəlif səbəblərdən yarımçıq qaldı. Bəlkə də maliyyə çatışmadı, bəlkə də kadr çatışmadı, bilmirəm,

amma yarımçıq qaldı. Bir neçə il sonra isə başqa iqtisadiyyatçılar qrupu ilə görüşdüm. Qubad İbadoğlu, Azər Mehtiyev, çoxlu müstəqil ekspertlər cəlb olunmuşdu. Onlarla bir neçə seminar keçirdik. Yenə də "bu modeli necə yaratmaq olar?" sualı ətrafında müzakirələr apardıq. Hamısı çox müsbət qarşıladı. Amma yenə də çox təəssüflər olsun ki, yarımçıq qaldı. Bu gün sizin sayt vasitəsilə iqtisadi qruplara, iqtisad yönümlü institutlara, iqtisadçı alimlərə müraciət edirəm: nə qədər ki, gec deyil, diskriptiv statistikaya söykənən araşdırmalardan kənar olub, modelləşdirmə, proqnozlaşdırma, qərar qəbuletmə nəzəriyyələrinə və praktikasına söykənən iqtisadi model üzərində çalışmaq lazımdır. Azərbaycanın postneft dövrü üçün iqtisadi model qurmaq lazımdır. Bunun üçün elmi tədqiqat institutları işləməlidir. Burda, təbii ki, dövlət dəstəyi lazımdır. Çünki ölkənin neftdən sonrakı dövrü üçün bu model yaradılır. Neftdən sonrakı dövr deyəndə, mən demirəm ki, neft tam sıfır olan vaxtdan danışırıq. Mən bugünkü şəraiti nəzərdə tuturam. Neftin qiyməti ucuzlaşır, hasilat azalır. Elə bu günün özü postneft dövrüdür. Həmin iqtisadi model gərək bu günə hazır olaydı. Özü də tək kağız üstündə yox, həm də həyata keçməli idi.

*– Nəhayət, iqtisadi model haqda... O nədir, strukturu necədir?*

– Hökümətin alternativ iqtisadi siyasətlərinin qiymətləndirilməsinin tətbiqi ümumi tarazlıq modelinə əsaslanmalıdır. Belə model iqtisadi vahidlər, agentlər arasında qarşılıqlı əlaqəni müəyyən etməyə imkan verir, eyni zamanda fond, istehlak, yığım və başqa endogen parametrlərin alternativ siyasətlərə təsirini öyrənməyə şərait yaradır.

Bu model iki hissədən ibarətdir. Birinci hissə "Sosial hesablar matrisi" adlanır. Burada nə nəzərdə tutulur? – Burada iqtisadiyyatın içindəki bütün transaksiyaların transfer olunması, bir-birinə keçirilməsi selləri təsvir olunur. İndi fikrimi sadələşdirəcəyəm. Əvvəla bilmək lazımdır ki, hansı biznes, istehsal, kənd təsərrüfatı və başqa sahələrdə nə nəzərdə tutulacaqsa, onlar üçün milli hesablar bir matris şəklinə salınır. Milli hesabların strukturu "giriş-çıxış" və "gəlir-xərc bərabərliyi" konsepsiyaların kombinasiyasına əsaslanır. Tutaq ki, maşınqayırma sahəsinin inkişaf etdiriləcək məqamlarını cədvələ (matrisə) daxil edirik. Bu sahənin inkişafı üçün başqa sahədən nə gəlməlidir? Yaxud, kənd təsərrüfatını 10 faiz inkişaf etdirmək istəyirik. O sahənin 10 faiz inkişafı üçün başqa sahələrdən nə gəlməlidir? Bisnesdən, təhsildən bu sahənin inkişafına nə gəlməlidir? Bunların hamısı hesablanmalıdır. Amma bu modelin özü deyil. Bu hələ onun strukturudur. Yəni birinci hissəsidir. Bu sahəyə nə verilməlidir, o biri sahədən nə alınmalıdır, bu sahənin inkişafı üçün o biri sahənin qarşılıqlı əlaqəsi nə qədər olmalıdır kimi prinsiplərin hamısı hesablanmalıdır. Bunlar hamısı vahid sellər şəklində cərəyan etməlidir. Bütün bu sellər pul ekvivalentindədir. Bu hələ modelin ancaq bir hissəsi, rəqəmlərdən ibarət verilənlər bazasıdır. Modelin əsas hissəsi odur ki, verilənlər bazası əsasında kalibirləşmə, yəni iqtisadi tarazlığı təmin edən parametrlər hesablanmalıdır. Elmi hesablamaya söykənmədikdə sistemin tarazlığı dağılar. Verilənlər bazasına uyğun elə optimallaşdırma aparılmalıdır ki, sistem normal işləyə bilsin, bu iqtidasiyyat tarazlı ola bilsin. Bura-

da da müxtəlif iqtisadi qanunlar işləyir. Məsələn, yuxarı səviyyədə bir iqtisadi qanun, aşağı səviyyədə başqa bir iqtisadi qanun işləməlidir. Bu model ölkəmiz üçün çox gərəkli ola bilər. Çünki bura həm kadr məsələsi, həm təhsil, həm elm, həm iqtisadi məsələlər biri-birilə əlaqələndirilir. Bütün sahələrin fəaliyyət tarazlığını hesablamaq lazımdır. Bunun üçün də paketlər var. İnformatika ilə məşğul olan mütəxəssislər bu işləri iqtisadçılarla bərabər görsələr daha effektiv olar.

*– Bəs bu istiqamətdə şəxsən özünüzün hazırladığınız paketlər var?*

– Xeyr, mən özüm bu sahədə paket hazırlamamışam. Bu sahə mənim elmi araşdırma sahəm deyil. Bu işlər mənim elmi marağıma daxil deyil, bu işlər mənim milli marağıma daxildir. Mən ancaq qərar qəbuletmə nəzəriyyəsi ilə məşğulam. O da bir blok kimi burada tətbiq oluna bilər. Amma yenə deyirəm, bu mənim elmi yox, milli marağım daxilindədir. Biz burda nə edə bilərik? Bu günə qədər olan modellərin hamısı müfəssəl informasiyanın əsasındadır. Yəni, güya, bütün müddəalar verilənlər yüzdə-yüz əsaslandırılıb. Bir şeyin yüzdə-yüz baş verəcəyini Tanrıdan başqa heç kim deyə bilməz. Burada 90, 91, 95 kimi faizlər də olacaq. Mən də onun tərəfdarıyam ki, hazır paketlərdən birini götürüb işlədək. Amma Azərbaycan elminin töhfəsini istəyiriksə, onda bu modeli qeyri-səlis modellə əvəz etmək olar.

*– Mümkünsə, bu qeyri-səlis modelin təfərrüatından danışaq.*

– Məsələn, deyək ki, Azərbaycanda 2015-2018-ci illərdə kənd təsərrüfatından büdcəyə 15, yaxud 15,6 faiz (on beş tam onda altı) daxilolunma olacaq. Əvvəla gələcəyi heç kəs həmin on beş nöqtə altıynan, yəni dəqiqliyinəcən deyə bilməz. Burada qeyri-səlislik olmalıdır. Çünki hadisələrin gedişində çox şey dəyişə bilər. Kənd təsərrüfatıdır, ona havanın dəyişimi belə təsir edəcək. Tək bu deyil ki? İqtisadi-siyasi maraqlar dəyişilə bilər. Bütün bunların hamısının nəticəsində 2015-2018-ci illərdə kənd təsərrüfatından büdcəyə gələcək gəlirdə qeyri-müəyyənlik olacaq. Qeyri-müəyyənlik hər zaman var. Mən indi bir kitab yazıram, Amerikada çap olunacaq. "Yeni hesab" adlanır. Amma bu hesab o hesabdan deyil. Qeyri-müəyyənliklər hesabıdır. Mən deyirəm ki, daha ağıllı adam heç vaxt 15 nöqtə 8 deməz. Deyər 15 və 16 intervalındakı bir rəqəm. Amma bir az da dəqiq adam onu qeyri-səlis deyər: 15-lə 16 intervalında, ən çox ehtimal olunan 15,5 olar. Hər şeyin tam doğru, dəqiq olacağını Tanrıdan başqa kimsə bilmir. Bunu nə Rafiq Əliyev bilir, nə də Elmin. Yaxşı variant informasiyanı qeyri-səlis təqdim edib yanında da inam ölçüsünü göstərməkdir. Burada baxılan kəmiyyətin qiyməti də var, yanında qeyri-müəyyən etibarlılıq dərəcəsi də. Onları vurub bölmək, kvadrata yüksəltmək, bir sözlə hesablamaq çətindir. Lap sadə dildə deyək: tutaq ki, siz saytınızda bir adama deyirsiz ki, sizə bir yazı üçün 100 manat qonarar verirəm. Amma sizin o qonararı almaq ehtimalınız 90 faizə yaxın ehtimaldır. İkinci seçim də var. Deyir, sənə 80 manat qonarar yazıram, amma alma ehtimalınız 97 faizdir. Siz hansını seçərdiniz?

*– Mən ikinci variantı seçərdim.*

– İkincini götürsən, pis olmaz. Amma adama görə bu seçim dəyişir. Seçim həmin adamın dövlətli olub olmamağından, nə qədər riskli olmağından asılıdır. Elə jurnalist var ki, 100 min pulu var, o saat deyəcək ki, yox mən ancaq birincini, yəni yüzü istəyirəm.

*– İndi bu metodu öz mövzumuzla əlaqələndirək…*

– Klassik üsullarda, paketlərdə, modellərdə rəqəmlər hamısı yüzdə-yüz inamla qoyulub. Məsələn, yazılır ki, mən kənd təsərüfatından 17.1 faiz gəlir alacağam. Mən deyirəm ki, bu mümkün deyil. Bu real həyatda özünü doğrultmayacaq. Bu rəqəmlərdə qeyri-müəyyənlik var, axı gələcəyi yüzdə-yüz dəqiqliklə demək olmaz. Belə iqtisadi model qeyri-səlis nəzəriyyə əsasında özünü doğrultsa, tək Azərbaycan yox, dünya üçün xeyir verə bilər. Yəni elə bir model ola bilər ki, onun içərisindəki verilənlər və ondan alınan nəticələr reallığı daha yaxşı əks etdirər.

*– Bir dəfə demişdiniz ki, Allah Lütfi Zadəyə bir az da ömür versin, onun iqtisadiyyat sahəsində gördüyü işlər var ki, o nominassiyada onlara görə Nobel ala bilər. Hazırda bunun ehtimalı nə qədərdir?*

– Zadənin iqtisadiyyatın inkişafı naminə gördüyü işlərin çoxu elə bizim bərabər yazdığımız kitablardır. Bu il fizika üzrə Nobel mükafatına 3 alim layiq görüldü. Ən azı, 15-20 məqalə yazıldı ki, niyə Zadəyə və onun əməkdaşlarına iqtisadiyyat sahəsindəki işlərə verilmir. Çünki o fiziklərin işi bəzi işıq proseslərinin avtomatlaşdırılması idisə, Zadə ilə mənim işim insan düşüncəsinin avtomatlaşdırılmasıdır. Bilirəm ki, siz jurnalistika ilə bərabər, elmi sahə ilə məşğulsuz. Ən yüksək elm Tanrının yaratdığına nisbətən yaxınlaşmaqdır. Qeyri-səlis məntiq Tanrı məntiqindən çox aşağı səviyyədədir. Zadənin mənə sonuncu məktubu odur ki, Rafiq, onlar bu işə adət etməlidirlər. Nobeli alan fiziklərin 1990-cı ildəki işlərinə Nobel mükafatı verildi. Lütfi Zadə də onu yazırdı ki, Nobeli verənlər buna adət etməlidirlər. İndi də vəziyyət belədir. Sağlıq olsun!

*– Azərbaycanın postneft dövrü vəziyyətini alim gözü ilə təsvir edək…*

– Yaman çətin sualdır. Bilirsiz niyə? Elə indi dediyimiz model onu aydınlaşdıracaq. Bunları, sözlə yox, elmi hesabatla demək lazımdır. Hesablanmış mənzərəni demək daha düzgün olar.

**Elmin Nuri**
31.10.2014

# MƏN SİYASƏT ADAMI DEYİLƏM

## *Sovet hökumətindən sonra millətin kodu dəyişdirildi*

Texnika elmləri doktoru, professor Rafiq Əliyev Azadlıq Radiosuna müsahibə verib.

*– Rafiq müəllim, istərdim ki, sizinlə milli özünə inamsızlıq mövzusunda söhbət edək. Son vaxtlar tez-tez "əşi, azərbaycanlıdır da...", "biz düzələn deyilik" kimi bir az təəssüf, bir az peşmanlıq, bir az da ironik ifadələr eşidilir. Qərbdə elə azərbaycanlılar var ki, heç özlərini azərbaycanlı kimi təqdim etmək də istəmirlər. Nə düşünürsüz bu haqda?*

– Razı deyiləm bu fikirlə. Bağışlayın ki, belə sərt səsləndim. Çünki sual məni bərk tutdu. Millət də fərd kimidir. Çox istedadlı xalqların çox istedadlı insanlar kimi qəribəlikləri olur. Bizim millətin qəribəliyi odur ki, bizdə milli təfəkkür formalaşmayıb. Bu millətin Üzeyir bəyi var, Tusisi var, Ramiz Rövşəni var. Bu millətdən necə utanmaq olar?

Sadəcə olaraq bizdə milli təfəkkür – ümuminin xatirinə fərdiyyətçiliyi qurban vermək hələ ki, yetişməyib. Bunun da bir sıra səbəbləri var. Bir səbəb odur ki, bir çox dövlətlərdə milli dövlətlər qurulanda bizdə xanlıqlar hakimiyyəti idi.

Mən və dostlarım heç vaxt belə bir utanc keçirməmişik. Mən nəinki ölkəmin, doğulduğum kəndin belə adını internetə qoymuşam. Bir insan ki, doğulduğu koma ilə fəxr eləmir, deməli, onda milli mənlik yoxdur.

İkinci səbəb isə millətin kodlaşdırması ilə bağlıdır. Mən bizim TV-lərdən çox narazıyam. Reytinq xatirinə bunu etmək doğru deyil. Bugünkü şoularla milli təfəkkürü dəyişdirmək mümkün deyil. Meyarları dəyişəndə milli təfəkkür yaranacaq. Milli təfəkkürün formalaşması üçün "mən"dən "biz"ə keçmək lazımdır. Bir epsilon qədər olsa belə.

Milli təfəkkürə sahib, elit ziyalı, bu iki faiz olur. Qalanlar o ideyaları daşımaq və yerinə yetirmək üçündür. Qalan faizlər olmalıdır. Bu iki faizi əzmək lazım deyil, bu iki faizi olmayan xalqın gələcəyi yoxdur. Bu iki faizin qədrini bilmək lazımdır.

*– Varmı Azərbaycanda bu iki faiz?*

– Bəlkə də 1 faiz var.

*– Kimdir bu faizə aid olanlar?*

– Məsələn, Musa Yaqub, Ramiz Rövşən. Musa Yaqub dağlardan süzülən sular kimi təmiz adamdır. Dostumdur deyə demirəm, Ramiz Rövşən bu günün şairi deyil. Onun məntiqi Aristotel məntiqi deyil.

*– Ümuminin xeyri üçün nəyi güzəştə gedib Ramiz Rövşən?*

– Ziyalı odur ki, imtina etməyi bacarsın. Ramiz Rövşən çox imtina edib. Jurnalistlərə müsahibə də vermir. Əlbəttə, yalnız müsahibə məsələsi deyil. Necə olur ki, Ramiz Rövşən xalq şairi olmur? Bu heç onun ağlına da gəlməz. Çünki o onsuz da xalqın şairidir.

*– Ramiz Rövşənin xalq üçün verdiyi qurbana nümunə verə bilərsinizmi?*

– Məsələn, ona deyiblər ki, ssenari yaz. Amma yazmayıb. Ramiz Rövşənə Allahdan başqa heç kim deyə bilməz ki, bunu yazma, onu yaz. İnsan tək dediklərinə görə yox, həm də demədiklərinə görə ziyalı ola bilir. Bəzən susmağın özü də qəhrəmanlıqdır. Ziyalı odur ki, zamanı qabaqlaya bilsin. Elə sözlər var ki, onu indi demək lazım deyil – bu məsafədə susmaq daha çox fayda gətirə bilər.

*– Niyə susmaq? Millətin xatirəsi üçün susmaq ki, mövcudluğunu qoruyub saxlayasan və özünü gələcəyə saxlayasan?*

– Elə insanlar var ki, millətin xatirəsi üçün onlar qorunmalıdır. Elə məqam olur ki, sən eşidilmirsən, sözü eşidiləndə demək lazımdır.

*– Belə arqumentlər də var ki, ziyalının sözü eşidilmədisə gərək gedib sözünü ucadan, meydanda desin.*

– Mən mitinq adamı deyiləm. Mitinqi siyasi partiyalar təşkil edir. Düzdür, xaricdən olan basqılara qarşı millətin hamısı bir yerdə olmalıdır. Bütün hallarda, söz daha güclüdür.

*– Rafiq müəllim, mövzumuzu dəyişək və elm mövzusuna keçək. Azərbaycan elmində hansı islahatlar keçirilməlidir ki, irəli getsin. Siz ABŞ-da da çalışırsız. Hansı təcrübələrin Azərbaycana gəlməsi realdır?*

– Əgər hər hansı dünya ölkəsində elmə ayırmalar UDM-un 2 faizindən azdırsa, o elm o ölkənin iqtisadiyyatına təsir etmir. Bunu bütün dünya qəbul edib. Bizdə bu ayırmalar 0,6 faizdir. İkincisi, kəskin surətdə təhsili dəyişmək lazımdır. Bir dəfə sabiq təhsil naziri mənə dedi ki, təhsildə islahat aparmaq istəyirik. Dedim ki, Sovet cəmiyyətinə mənim nostalgiyam yoxdur və bu cəmiyyətdə yaşamaq istəməzdim, amma onun da müsbət cəhətləri var idi. Mənə o cəmiyyətdəki mənəviyyatlı müəllimləri qaytarın. Bununçün də müəllimlərin maaşı başqa cür olmalıdır, bununçün etik standartları qaldırmaq və yüksəltmək lazımdır. Elmə insanlar orta məktəbdən, universitetlərdən getməlidir. Yoxsa, gərək xaricdən adamlar gətirək. Ən əsası odur ki, elmin öz siyasəti var. Elm siyasiləşməməlidir. Məsələn, tanışbazlıq, layiqli olmayan adamların akademik seçilməsi. Özbaşına seçilmir ki, bu adamlar?!

Amerikada kiməsə desən ki, mənim xətrimə bu tələbəyə artıq qiyməti yaz, səni ömründə başa düşməzlər. Lütfi Zadəni tanıyırsız yəqin ki. Məsələn, biz onunla nəinki birgə elmi işlər aparırıq, hətta ata-bala münasibətimiz var. Ona desəm ki, bu məqaləni çap etmək üçün kömək ol, başa düzməz ki, mən nə deyirəm ona.

*– Bəlkə onda söhbətimizin əvvəlinə qayıdaq. Niyə onda bunlar Azərbaycanda baş verir?*

– Burda çox səbəblər var. Mən Rusiyada elmlər namizədi dərəcəsi alanda 25 yaşım var idi. Professorum dedi ki, elmi işini kitab kimi çap elə. Kitabda müəllif kimi onun adını birinci, öz adımı ikinci qeyd etmişdim. Çıxartdı öz adını. Amma indikilər öz adı olmasa, bir məqaləni belə çapa buraxmaz.

*– Belə başa düşürəm ki, Sovet dövrünə nəzərən vəziyyət pisləşib. Niyə pisləşdi bəs, sizcə?*

– Yenidən sosial kodlaşdırma baş verdi. Dəyərləri dəyişin, görəcəksiz nəticəni.

*– Bütövlükdə dəyər dəyişimini yalnız TV-lərləmi bağlayırsız?*

– TV çox güclü alətdir. Facebook da yaxşıdır, qəzetlər də. Amma insan çox şeyi görməklə qəbul edir, TV hamının evinə daxil olur. TV-lərdən bunu niyə etdiklərini soruşanda deyirlər ki, bunu reytinq üçün edirik.

*– Cəmiyyətdə bir müzakirə mövzusu da budur ki, telekanallar hakimiyyət tərəfindən idarə olunur...*

– Axı bir TV kanal dövlətindir, qalanları özəldir. İdarə olunmaları barədə dərinlikləri bilmirəm. Söhbət edəndə deyirlər ki, bizə reytinq lazımdır. Amma bilmirəm səbəbi doğrudanmı reytinqdir, yoxsa başqa səbəbdir.

**Moderator.az**

# ƏFSUS Kİ, AZƏRBAYCANDA LÜTFİ ZADƏ OLMAĞA MÜHİT YOXDUR

AMEA-nın müxbir üzvü, texnika elmləri doktoru, professor Rafiq Əliyevin 75 yaşı tamam olur. Müsahibə verən alim gümrah qalmasının sirrini də açır. Dediyinə görə, gərək qocalığı boynuna almayasan:

– Sən yaşla razılaşanda, qocalıq da gəlir. Bir də əsas bioloji yaş deyil. Mən hər həftə Lotfi Zadeh (Lütfi Zadə) ilə danışıram. 96 yaşı var. Mən həyatımda bu qədər çevik, işlək beyinə malik nə bir cavan görmüşəm, nə də yaşlı. O da öz qocalığıyla barışmayıb. İdeya generatorudur, elə ideyalar verir ki, təəccüblənməyə bilmirsən.

*– Rafiq müəllim, yaş irəlilədikcə elmlə məşğul ola bilirsiniz?*

– Elm, elə-belə, müdafiə, dissertasiya yazmaq üçün olan elm yox, əsl elm, dünya səviyyəsinə çıxan elm azartlı oyuna bənzəyir. Ora düşdünsə, çıxa bilmirsən. Bu gün mənim üstümə götürdüyüm işlərin miqdarı görə biləcəyimdən təxminən 10 dəfə çoxdur. Bu ilin martında dünyanın məşhur nəşriyyatlarından birinə 400 səhifəlik kitab təhvil verməliyəm. Adı belədir: “Qeyri-müəyyənliklər hesabı və qərar qəbuletmə nəzəriyyəsi”. Nəhayət, həyatımda vacib məsələlərindən biri Lütfi Zadə kimi böyük alim dörd ay qabaq xahiş etdi ki, gəl bir kitab yazaq, bizdən sonra tarix üçün qalsın. Belə bir kitab yazırıq: “Qeyri-səlis məntiq nəzəriyyəsi və onun tətbiqləri”. İki hissəlidir. Oktyabrda çap edilməlidir. Bir də ingilis dilində kurslar aparıram. Qərar qəbuletmə kursu, statistik təhlil kursu, bir də proseslərin idarə olunması kursu.

*– Qeyri-müəyyənlik haqda kitab yazırsınız. Azərbaycan da indi qeyri-müəyyənliklər içindədir, böhrana düşüb. Sizcə, hökumət bu durumda nə dərəcədə düzgün qərar qəbul edə, prosesləri düzgün yönəldə bilir? Bu an yüksək vəzifəli dövlət məmurlarına kurs keçsəniz, hansı yolu göstərərdiniz?*

– Mən 2008-ci ildə Azərbaycanın postneft dövrü, 2011-ci ildə yenidən hansı iqtisadi modeli seçmək haqqında məqalə yazdım. O məqalədə deyirdim ki, 2012-ci ildən sonra neft hasilatı aşağı düşəcək, kataklizmlər baş verəcək. Bax onda bugünkü günü nəzərdə tuturdum. Proqnozlaşdırmaq, qərarlar qəbul etmək üçün bu nəzəriyyələrin böyük mənası var. Son üç ildə mənim 3-4 kitabım çıxıb. O kitabın biri də “Qeyri-müəyyənlik şəraitində qərar qəbuletmə” adlanır.

*– Sizcə, bugünkü böhrandan çıxmaq üçün hökumət neyləməlidir? Hökumət yol xəritəsi hazırlayıb, islahatlar haqda danışır, bunlar yetərli deyil?*

– Azərbaycan, ilk növbədə, iqtisadi modelini müəyyənləşdirməlidir. Amma bu model riyazi hesablamalar əsasında yaradılmalıdır. Yəni bilinməlidir ki, nələri inkişaf etdirmək olar. Hər şeyi inkişaf etdirmək mümkün deyil.

*– Sizcə, hansı model Azərbaycana daha uyğundur?*

– Zadə kimi mən də bu fikirdəyəm ki, Asiya nəhənglərinə baxmaq lazımdır – Cənubi Koreyaya, Sinqapura. İntellektə söykənən iqtisadiyyat yaradılmalıdır. Bilik iqtisadiyyatı yox, bilik iqtisadiyyatı ABŞ-ın, Kanadanın, Almaniyanındır. Onu nəzərdə tutmuram.

*– Bu günlərdə sosial şəbəkələrdə siyasi şərhçi Azər Rəşidoğlunun bir cümləsi müzakirə doğurdu: "Lütfi Zadə Azərbaycanda yaşasaydı…". Böyük əksəriyyət bu fikirdədir ki, Lütfi Zadə Azərbaycan kimi ölkədə məhv olacaqdı, ən azı, indiki adlı-sanlı alim olmayacaqdı. Razısınız?*

– Müsəlman dünyasında cəmi üç alim Nobel mükafatı alıb. Onun biri pakistanlı Əbdüs Salamdır, nüvə fizikası sahəsində alıb. Uzun zaman İngiltərədə işləyib. İngilislərlə işləməsəydi, o da Nobel almayacaqdı. Yaxud yaxınlarda kimya sahəsində türk qardaşımız Aziz Sancar Nobel aldı. O da Amerikada yaşayır. Yəni buna mühit lazımdır. Düzdür, Zadə Nobel almayıb, o, riyaziyyat sahəsindədir. Bu sahəyə Nobel nominasiyası yoxdur. "O, Azərbaycanda yaşasaydı, məhv olacaqdı", – deməzdim, amma tanınmayacaqdı. Dünya səviyyəsinə çıxmaq üçün gərək dünya elminin içində olasan. Dünya elminin də "Məkkə"si bu gün ABŞ-dır. Təkrar edirəm, Zadə olmaq üçün mühit olmalıdır. Əfsus ki, bu gün Azərbaycanda Zadə olmağa mühit yoxdur.

*– Belə bir mühitin olması üçün nə tələb olunur?*

– Elmin inkişafına sosial sifariş lazımdır. Elm bilavasitə iqtisadiyyatın canında deyilsə, orda inkişaf olmayacaq. Bütün bəşəriyyəti böhranlardan elm çıxarıb. Sənətə, ədəbiyyata böyük hörmətim var. Ramiz Rövşən dostum, qardaşımdır, Ramiz Həsənoğlu, Musa Yaqub dostumdur. Ancaq sənət başqadır, elm başqa. Kataklizmlərdə, krizislərdə bütün ölkələri, bəşəriyyəti həmişə elm çıxarıb.

*– Son prezident seçkilərindən sonra sizin də təmsil olunduğunuz "Ziyalılar Forumu" dağıldı. Bu gün o ziyalıların səsi gəlmir. Hardasınız?*

– Roma klubu var. Dünyanın tanınmış alimləri orda ildə bir neçə dəfə yığışıb bəşəriyyəti fəlakətə aparan məsələləri, məsələn, nüvə qışı haqda danışırlar və ya sosial minimum, sosial maksimum haqda müzakirə aparırlar. Deyirlər, ola bilməz ki, bir ölkədə minimum yaşayışla maksimum yaşayış arasında on dəfələrlə, yüz dəfələrlə fərq olsun. Olmamalıdır! Belə cəmiyyət yaşaya bilməz. "Ziyalılar Forumu" da bunun kimi bir şeydir. Orda milli birlikdən, iqtisadi proseslərdən söhbət gedərdi, ya da müzakirə edilərdi ki, rüşvət cəmiyyəti içindən yeyən qurddur… Əfsuslar olsun, burda siyasiləşmə getdi.

*– Siz də bunun əleyhinəydiniz?*

– Mən düşünürəm ki, ziyalı siyasətin fövqündə durmalıdır. Bəzi səbəblərdən ziyalı sözünə ehtiyac qalmadı. Ona görə də "Ziyalılar Forumu" davam edə bilmədi.

*– Amma bu gün sizləri – Ramiz Rövşəni, Rafiq Əliyevi, Musa Yaqubu ittiham edirlər. Susmaqda, geri çəkilməkdə, həmin açıq müzakirələri davam etdirməməkdə.*

– Ola bilər. Buna da normal yanaşıram. Uman yerdən küsərlər.

*– Yəni onlara haqq verirsiniz?*

– Ziyalının missiyası ancaq ağrını göstərməkdir. O ağrını aradan qaldıra bilməz ki. Məsələn, biz bir dəfə milli birlik haqda müzakirə aparmışdıq. Demişdik ki, cəmiyyətə tolerantlıq lazımdır. Aristotel məntiqiylə yaşayan cəmiyyət inkişaf də bilməz.

*– Rafiq müəllim, 75 yaşda daha çox nəyə təəssüflənirsiniz?*

– Ən çox itkilərimə təəssüflənirəm. Torpağımın, komamın itkisinə təəssüflənirəm. Mən Ağdamda, Qarabağda doğulmuşam. Mənəvi ərazinin itkisinə təəssüflənirəm. Bir də Tanrının verdiyi bəzi itkilərə. Həyat yoldaşımın itkisinə, başqa itkilərə. Amma yenidən doğulsaydım… İstəməzdim yenidən doğulum. Amma yenidən doğulsaydım, bütün itkilərə rəğmən yenə həmin cığırla gedərdim.

*– Niyə yenidən doğulmaq istəməzdiniz?*

– Mənim üzüm-gözüm gömgöydür. Fiziki yox, mənəvi göyərmədən danışıram. O qədər müqavimətlər görmüşəm, ədalətsizliklər görmüşəm. Bura çatana qədər o qədər mübarizə aparmışam. Bir də o yolu keçmək istəməzdim.

**Azadlıq Radiosu**

## İNSANLARDAN VƏ FƏLƏKDƏN O QƏDƏR ZƏRBƏLƏR ALMIŞAM Kİ

İki gündən sonra dünya elminin qeyri-səlis məntiq nəzəriyyəsi sahəsində nadir mütəxəssislərdən olan professor Rafiq Əliyevin 74 yaşı tamam olur. 1942-ci ilin 10 fevralında Ağdamda anadan olan, hazırda dünyanın bir çox ölkələrinin məşhur universitetlərində mühazirələr oxuyan Rafiq Əliyev həm də Lütfi Zadə irsinin varisidir. Süni intellekt, qərar qəbuletmə nəzəriyyəsi, dayanıqlılıq nəzəriyyəsi, yeni hesab sistemi və s. məsələlərə aid ali səviyyəli elmi işlər görmüş alim yeni yaş təəssüratlarını paylaşıb:

*– İnsan hansı yaşından sonra daha bir yaş yaşlandığına sevinir, hansı yaşından sonra isə daha bir yaş yaşlandığından qüssələnir? Bu qüssələnmək sizdə hansı yaşdan sonra olub?*

– Hər bir yaşın öz gözəlliyi var. Yaşların ruhunu rənglərə görə ayırsaq gənclik al-əlvandı, cavanlıq bənövşəyidir, cavanlıqdan o tərəfə nisbətən yaşlandıqda yaşıl rəng gəlir. Ondan o tərəfə keçəndə isə sarı rəngdi. Bir müdriklik yaşı çatır ki, insan o yaşda mütləq bir şeyi anlayır. O da nədir? Real dünyada bir mütləq olan şey var – ölüm. Cismani ölümü nəzərdə tuturam. Müəyyən yaşdan sonra, necə ki, üfüqdə horizontun axırı görünür, bir o qədər də insanda bu ölümün fərqinə varma prosesi başlayır. Onda da adam ömürdən keçən illəri saymağa başlayır. Görən bir ilmi keçdi, iki ilmi keçdi və s. Amma bu saymalar müəyyən mövqeyə, həddə çatana qədərdi. O cığırı ki, aşdın, ondan sonra yaşın bir fərqi olmur...

*– Məşhur bir mahnıda sözlər var: "Ötən günlərimi qaytaraydılar, gələn günlərimdən qurban verəydim", – deyilir. Burada səmimiyyət yoxdur. Əgər desəydi ki, "Ötən günlərimi qaytaraydılar, gələn günlərimin hamısını qurban vərərdim", burada səmimiyyət olardı. Çünki o, gələn günlərinin hamısını ötən günlər üçün qurban verməyə hazırdır. Bəs Rafiq müəllim də, ötən günlərə qayıtmaq üçün gələn günlərinin hamısını qurban verərdimi?*

– Qətiyyən! Elə beləcə də qeyd edərsiniz: mənim bütün üzüm-gözüm göm-bəgöydü. Hamısı da fələyin və insanların vurduğu zərbələrə görədir. Mən həyatda o qədər zərbələr almışam ki! Ona görə də keçmişə qayıdıb yenidən o zərbələrlə rastlanmaq istəməzdim. O, şeir xatirinə yazılmış bir sözdü. Orada emosiya var. Mən isə ağıldan, məntiqdən çıxış edərək bunu deyirəm.

*– Rafiq müəllimdə fələyin vurduğu zərbələrin izi daha çox qalıb, yoxsa insanların zərbələrinin izləri?*

– Fələyin zərbəsi!

*– Amma düşüncəmizdə "fələk" deyəndə Allah nəzərdə tutulur. Allahın zərbəsi o qədərmi acımasız olub?*

– Mən "fələy"i Allahla sinonim tutmuram. Allahın ədaləti var. O, bir şeyi verəndə o birini vermir. İstəməzdim ki, keçmişimdə fələyin vurduğu zərbələr olsun. Amma indiki Rafiq Əliyev də olmaq istəməzdim.

*– Milyonlar Rafiq Əliyev olmaq istəyir. Siz niyə indiki Rafiq Əliyev olmaq istəməzdiniz?*

– Çünki indiki Rafiq Əliyev olmağın qarşılığında fələyin amansız zərbələri ilə qarşılaşmışam. Heç istəməzdim ki, o zərbələrlə qarşılaşım. İnsanların bütün zərbələrinə dözərdim. Çünki onlarla mübarizə apara bilirdim. Amma fələyin zərbəsi çox ağırdı.

*– Bəlkə onun özü də bir xoşbəxtlikdi? Bəxtiyar Vahabzadə deyirdi ki, dərd çəkməyən adamdan adamlıq gözləməyin...*

– ... Şübhəsiz. Adamı insan edən onun dərdidir. Dərd insanı katarsisdən keçirir. Yəni, fələyin və insanların keçdiyi əziyyətlərdən keçib durulmursa insan heç zaman şəxsiyyət ola bilməz. Bunu həmişə demişəm. Amma balans deyilən anlayış da var. Məndə hansılar – dərdlər və sevinclər, üstünlük təşkil edib, onu deyə bilmərəm. Amma istəməzdim ki, fələkdən aldığım bəzi zərbələr olsun və mən onların olmamasından ötrü qazandıqlarımın əldə etdiklərimin əksəriyyətini verməyə hazır idim.

*– Siz də Bəxtiyar Vahabzadə kimi dərd üçün "ölürsünüzmü"?*

– Dərd üçün ölmürəm. Amma dərdlə yaşayıram. Jurnalist dostlardan biri müsahibələrin birində cümlə kimi bunu qabartmışdı: "içimdə özüm boyda dərd gəzdirirəm". Həyatda heç kim dərdi istəməz. Amma o da Tanrının verdiyidir. Tanrı hər bir insanı balansda yaradır. Birini verir, birini vermir. Şəxsiyyət olmaq da belədir. Birinə istedad verildikdə onun qarşılığında nə isə alınır. Ona görə də mən Tanrının aldıqlarına, fələyin və insanların zərbələrinə çox real baxıram.

*– Allahın Sizdən aldıqları çoxdu, yoxsa verdikləri?*

– Bu çox çətin sualdı. Amma bir söz deyəcəm, bunu yüzdə-yüz qəbul edəsiniz: Mən heç hiss etmirəm ki, Allah mənə nəsə çox şey verib. Nə etmişik ki? Oturmuşuq, kitab yazmışıq, nəsə etməyə çalışmışıq, kiməsə əl tutmuşuq. Məncə bu hamının borcudur. Amma aldıqlarına gəldikdə isə bu çox çətin sualdı...

*– O gün xanəndələrin biri ilə söhbətdə dedi ki, mən öz içimdəki fəlsəfəni oxuyuram. Mənə də elə gəlir ki, Siz də öz içinizdəki fəlsəfəni yaşayırsınız. O Sizin həyat tərzinizdi. Həmin fəlsəfə, mahiyyət nədən ibarətdi?*

– Mənim üçün fəlsəfə Allahın verdiyi qanunlar sistemidi. Mən o sistemlərlə yaşayıram. Daha doğrusu, o qanunlarla yaşamaq istəyirəm. Ayrı bir fəlsəfəm yoxdu. Həmişə istəmişəm ki, imanım, dinim ən yüksək səviyyədə olsun. İman faktoru mənə görə çox önəmlidir. Deyə bilmərəm ki, mənim üçün bundan başqa hansısa fəlsəfə var. Amma düşüncə tərzim fərqlidir: qeyri-səlis məntiq düşüncə sistemidir. Mənim üçün ağ-qara yoxdur. Bütün söhbətlərimizdə də demişik. Mənim üçün bir rəng çalarından o birinə keçidlər var. Sıfır və bir aralığında düşünmək var. Fəlsəfəmdə hansısa dəyişiklik, ancaq burada ola bilər. Başqa mənada isə yalnız Tanrının qaydalar sistemi ilə yaşamağa çalışıram.

*– Manat urvatdan düşdü, onu qaldırmaq üçün konsepsiya hazırlanır. Bizdə "ziyalı"sözü də urvatdan düşüb. Onu urvata mindirmək üçün nə etmək lazımdı? Devalvasiyaya uğrayan "ziyalı" sözünün dəyərini qaldırmaq üçün hansısa konsepsiya keçərlidirmi?*

– Düşünürəm ki, bu məsələdə heç bir konsepsiya hazırlamaq olmaz. O, ziyalı idisə, aşınmaya, urvatdan düşməyə uğramamalı idi. O, ziyalı deyilmiş ki, uğrayıb. Deyirsiz ki, hansı konsepsiya iləsə qaldırmaq olarmı? Bu, mümkün deyil. Bu yalnız ölüyə süni nəfəs verməyə oxşayar. Mahiyyətində ziyalılıq olmayan adam necə doğulubsa, elə də ölür. Bunun üçün hər hansı konsepsiya yaramaz. Məşhur alim Kapitsanın bir yazısını oxuyurdum. Rusiya barədə müraciət edirdi. Ölməmişdən bir az qabaq müraciət edib demişdi ki, siz bu ölkəni "debillər ölkəsi"nə aparırsınız. Ona müxtəlif təzyiqlər oldu. Amma əqidəsi dəyişmədi. Ziyalı olaraq da qaldı. Biz də yenidən tədbir görək ki, kimlərsə ziyalılığa qayıtsın, bu qeyri-mümkün şey olar...

*– Azərbaycanda ziyalılığın etalonuna abidə qoyulsa, postamentin üzərinə kimin heykəlini ucaltmaq olar?*

– Mən konkret ad çəkməzdim. Amma ziyalılığın meyarlarını özündə əks etdirən bir yazım var ki, orada bu kimi məsələlərə toxunmuşam. İstəsəniz müsahibəyə həmin yazını əlavə edə bilərsiniz. Amma onu qeyd edim ki, ilk növbədə Üzeyir bəyin heykəli qoyulmalıdır. Sonra Mirzə Cəlilin, Sabirin, Xudu Məmmədovun, Ramiz Rövşənin və nöqtələr...

*– O nöqtələrin içində olan ziyalılar bizim üçün nə dərəcədə önəmlidirlər?*

– (Gülür). Təbii ki, o nöqtələrin də içində ziyalılar var və onlar da müəyyən dərəcədə önəmlidirlər.

**Zülfüqar Hüseynzadə,**
**Elmin Nuri**

## DÜNYANIN MƏNƏVİ ENTROPİYASI ÇOXALIB

"Persona" rubrikasının qonağı olan professor Rafiq Əliyev bizimlə söhbətdə elm və əxlaqdan, həyatından, hədəflərindən, arzularından söz açdı...

*– Elm xadimi olmaq nə dərəcədə asan, yaxud çətindir?*

– Elm ancaq özünü fəda edənlər üçündür. Əgər kimsə pul üçün elmə gedirsə, elmdə heç vaxt pul olmayıb. Nə Lütfi Zadənin, nə Eynşteynin, nə Nyutonun pulu olub. Əvvəla, onların pulu ona görə olmayıb ki, istəkləri olmayıb. Bu alimlər nəfslərini idarə etməyi bacaran insanlar olublar, idealları tamam başqa şeylərdir. Elmin asanlığına, çətinliyinə gəlincə, elmin içərisinə girəndən sonra bu bir azart olur, heç bir çətinlik hiss etmirsən. Təbii ki, özünü çox şeylərdən təcrid etməlisən. Əslində sənin nə villalara, nə bahalı maşınlara, nə ziyafətlərə istəyin olur. Bu insan həyatda yaşayır, ancaq öz istədiyi kimi yaşayır. Onun ən böyük amalı bir yaxşı elmi nəticədir. Bu elmi nəticəyə nail olanda, elə bilir ki, bütün dünyanın naz-nemətləri onundur. Bu baxımdan, elm xadimi bir çox şeylərdən təcrid olunmağı bacarmalı, nəfsinin sahibi olmalıdır. Bayaq da dedim ki, elm azartlı oyundur, fədailərin çiynindədir. Mən dünya elmindən danışıram. Sən dünya elminə girirsənsə, dünya səni qəbul edirsə, ən böyük arzun da, faydalılığın da oradan gəlir. Klassik iqtisadiyyatın kökündə çox qeyri-real, elmi əsası olmayan bir müddəa durur. Sadə dillə desək, insanlar, iqtisadi agentlər ancaq özünü, öz gəlirlərini düşünəndir. Bütün klassik iqtisadi nəzəriyyə, iqtisadi modellər, hesablamalar buna yönəlib. Tutaq ki, insan istehlakçıdırsa, düşünür ki, Havay adalarında istirahət etsin, bahalı maşınları, bir neçə villası olsun. Yaxud istehsalçıdırsa, zavodu varsa, insan deyir ki, fəhlə acından ölsün, qəti maraqlı deyil, yalnız onun cibi dolsun. Ona görə də dünya bu gün bu vəziyyətdədir. Böhran yaşanır, dünyanın bir tərəfi dolanır, bir tərəfi dərman belə tapmır. Uşaqlar acından ölür. Bu gün ümumi iqtisadiyyatın kökündə duran o qədər də dürüst olmayan nəzəriyyə artıq laxlayıb. Amma elmlə məşğul olan insanların heç birinin belə nəzəriyyəsi olmur, onları özlərinin cibləri düşündürməyib. Məsələn, Lütfi Zadəyə bir dəfə sual verildi ki, pulunuz çoxdurmu? Deyir ki, yox. Mübaliğəsiz deyərdim ki, son 30 ildə Yaponiyanın iqtisadiyyatı Lütfi Zadənin nəzəriyyəsi üzərində qurulub, idarə olunub. Amma buna görə Lütfi Zadə 1 dollar da qazanmayıb. Niyə? Ona görə ki, gərək vaxtında patentlər alaydı, patentlərdən ona faiz gələydi, indi bu gün Lütfi Zadə ən böyük milyarderlərdən biri olardı. Nyuton, Eynşteyn, Lütfi Zadə başqa iqtisadiyyatla işləyiblər. Son 5 ildə dünya da gördü ki, klassik iqtisadi nəzəriyyə işləmir, davranış iqtisadiyyatına keçmək lazımdır. Yəni özünü düşünən insan dünyanı xoşbəxtliyə aparmır. İnsanın sosial xüsusiyyətləri, məsələn, dürüstlüyü, emosionallığı, dini xüsusiyyətləri iqtisadi amillərlə bərabər əsas amillərdən biri olmalıdır. Masamın üzərindəki "Müasir davranış iqtisadiyyatı" kitabını görürsünüz. Bu kitabda dünya ölkələri 2 meyara görə bölünür, bununla bağlı iqtisadi eksperiment aparıblar.

*– Eksperiment hansı meyarlar əsasında aparılıb?*

– Söhbət ölkələrdə adambaşına düşən ümumdaxili məhsul (ÜDM) və əhalinin dürüstlük dərəcəsindən gedir. Çox əfsus ki, Yaxın Şərq ölkələri, o cümlədən biz hər iki meyara görə aşağı səviyyədəyik. Sabah siz və mən o eksperimenti aparan müəllifləri məhkəməyə verə bilərik. Amma bu, eksperimentin nəticəsidir. Dürüstlük dərəcəsi italyanlarla bizim aramızda da eynidir. Baxmayaraq ki, İtaliyada adambaşına düşən ÜDM çoxdur, həyat səviyyəsi yüksəkdir, amma italyan mafiyası amili var. Seçilmiş əsl alimlərin amalı insanlara, bəşəriyyətə xeyir verməkdir. Əgər kimsə bunu əziyyət sayırsa, bəli, əziyyətdir. Amma alim bunu əziyyət saymır. Mən elmdə nə isə bir uğur qazananda, dünyada sayılan bir jurnalda məqaləm çıxanda, hansısa konfransda çıxış edəndə istəklərim təmin olunur. Tutaq ki, keçən il həm ABŞ-ın Berkeley Universitetində, həm də Sinsinati universitetində plenar məruzələrimiz oldu. Birinci məruzələr Lütfi Zadənin, ikinci məruzələr mənimki oldu. Bu mənim üçün hər şeydən önəmlidir. O baxımdan mən burada əziyyət görmürəm.

*– Ömrünüzün 68 ili arxada qalıb. Azərbaycanda əsl elm xadimi olmaq asan, yoxsa çətindir?*

– Əbülhəsən Abbasov adlı bir tanınmış professor-filosofumuz var. Onun "İdarəetmənin sinergetik fəlsəfəsi" adlı bir kitabı var, o kitabı oxudum, məni çox tutdu, ona rəy yazdım. Əbülhəsən müəllim o kitabda Yaxın Şərq dünyasındakı elmin vəziyyətini çox düzgün qiymətləndirir, səbəbləri təhlil edir. Onun göstərdiyi kimi elm üçün mühit lazımdır. Görürsünüzmü, Yaxın Şərq ölkələrində Nobel mükafatçıları yoxdur. Yeganə pakistanlı alim Abdüs Salam bu mükafatı alıb. O da 10 il İngiltərədə ingilislərlə birgə işləyib və ingilislərlə bir yerdə alıb. Düşünmürəm ki, Abdüs Salam Pakistanda qalsaydı, Nobel mükafatçısı olardı. Azərbaycanda indi lazımı elmi mühit yoxdur. Əvvəla, ona görə ki, hələ də bu günə kimi bizdə elmin nəticələrinə sosial sifariş yoxdur. Allah Bəxtiyar Vahabzadəyə rəhmət etsin, onun haqqında bir yazım çap olunub. Orada belə bir məqam var...

*Təbiət həmişə təzədir, təzə,*
*Biz üz çevirməyək bu təzəlikdən.*
*Elm əxlaq ilə durub üz-üzə*
*İndi biz hansına haqq verək, görən?*

Bəxtiyar müəllim həm də lokal mənada əxlaqlı olmağa çağırırdı. Elmdə haqq xüsusən tapdanmamalıdır. Dünyaya çıxmaq üçün dünya mühiti lazımdır. Biz nəticələrimizin çoxunu almanlarla, amerikalılarla birgə əldə etmişik. Məsələn, Berkeley Universiteti dünyanın ikinci, üçüncü top universitetidir. Tək bu universitetdə 37 Nobel mükafatçısı var. Zadə də bu universitetdə çalışır. Biz onlarla işləyirik. Onlarla iş görmək üçün gərək onlara uyğun intellekt və iş qabiliyyətin olsun. 30 il əvvəl Nobel mükafatçıları adətən fərdi olurdular. Son 30 ildə Nobel mükafatı fərdlərdən çox alimlər kollektivinə verilir. Elm bu gün kollektiv fəaliyyət sahəsidir. Yəni gərək dünyaya çıxasan, dünya mühiti olsun.

İqtisadçı alimlərimizin çoxu diskriptiv statistika ilə məşğuldurlar. İqtisadiyyat çox çətin, mürəkkəb prinsiplər üzərində qurulur. İqtisadiyyat insani amilləri, riyazi modelləri nəzərə alan çox çətin elmdir. Bu günlərdə telekanallarımızın birində iqtisadçı alimlərimizdən soruşdular ki, dünyada tanınmış jurnallarda neçə məqaləniz çıxıb? Dedilər ki, Azərbaycanda çap edirik, o jurnallar nəyə lazım, dünya ilə nə işimiz! Bu təfəkkür tərzi məni çox utandırır. Ən vacib saydığım şey odur ki, xarici əlaqələrimdən istifadə edib dünya universitetlərinə azərbaycanlı tələbələr göndərim. Müxtəlif universitetlərdə professorlarla görüşürəm. Hərəsinə 5-10 tələbəni qəbul etməyi təklif edirəm. Tək Almaniyanın Zigen Universitetində 34 azərbaycanlı tələbə təhsil alır. Mən Almaniyaya gedəndə onları bir yerə yığıram, problemləri ilə maraqlanıram.

*– Bu düşüncənin, bu əməllərin sahibi olan Rafiq Əliyev necə bir mühitdə, necə bir ailədə böyüyüb?*

– Mənim atam məmur olub. Uzun müddət Ağdamda barama idarəsinin müdiri, müharibə dövründə taxıl tədarükü idarəsinin müdiri olub. Təqaüdə gedənə qədər müdir olub. Mənim özüm Novruzlu kəndində dünyaya göz açmışam, 5 il kənddə yaşamışam. Xudu müəllimin anası bizim kənddəndir, Mərzili kəndi ilə bizim kəndimiz arasında bir dərə var. Kənddə evimiz vardı, amma mənim 5 yaşım olanda kənddən köçdük. Anam, mən, əmimin həyat yoldaşı yayda kəndə gedirdik, mən barama qurdu saxlayırdım. Mən o texnologiyanı çox gözəl bilirəm. Gedib şax yığırdıq. Bilirdim ki, barama qurdu nə vaxt nə qədər yarpaq yeməlidir, sonra şaxa çıxmalı, barama sarımalıdır. Aparıb onu təhvil verirdik, gəlib özümə kitab alırdım. Atam da bunu bilirdi. Bir dəfə 3-cü sinifdə oxuyanda tut ağacına şax vurmağa çıxmışdım. Barama uçün tut ağacı başqadır, o bar gətirmir. Yalnız yarpaqlayır. Mən şax vururdum, anamla əmimin həyat yoldaşı aşağıda dəstələyirdilər. Dəhrəni vuranda ucu dizimə dəydi. Məni qan apardı. Mənim əmimin xanımı da siqaret çəkən idi. O zaman qadınların çoxu dərddən siqaret çəkirdi. Cunasını yandırdı, külü yaraya basdı ki, qan kəssin. Kül həm də yaxşı dezinfeksiyadır. 68 yaşım var. Hələ də o göy yer dizimdədir. O da mənə işarədir ki, sən bu yolla gəlmisən. İndi mən haramı necə götürüm?

*– İtirdiyimiz qədər tapır, tapdığımız qədər itiririk...*

– Mən düşünürəm ki, mən maddi, dövlətli olduğum qədər də mənəvi itki verməliyəm. O baxımdan o şeylərə getmirəm. Mən var-dövlətli insanları xoşbəxt görməmişəm. Ola bilməz ki, sən hər şeyi əldə edəsən. Ola bilməz ki, 10 villan, 10 maşının olsun, həm də xoşbəxt olasan. Bunun əvəzində nə isə itirməlisən. Bir dəfə mənə sual verdilər ki, axı niyə insanın hər şeyi olmamalıdır? Dedim ki, insan canlı məxluqdur, onun izafi hissə ehtiyacı var. Əgər insanın bütün ehtiyacları, tutaq ki, maddiyyatı, şəhvət hissi, hər bir şeyi təmin olunub. İnsan belədir ki, onun əlavə bir hissə ehtiyacı qalır. Allah bizi o hisslərdən qorusun.

Düşünürəm ki, mənim məmləkətimin mədəniyyəti, adət-ənənələri bu gün "pula yönəlmiş" ictimai duruma deyil "insana yönəlmiş" duruma layiqdir.

*– Orta məktəb illəriniz necə keçdi, ali məktəbə sənəd verərkən valideynlərinizin tövsiyəsini, yoxsa öz arzunuzu əsas götürdünüz?*

– Mən orta məktəbdə oxuyanda riyaziyyat, ədəbiyyat və başqa dərnəklər vardı. Dərsdən sonra təmənnasız uşaqlarla məşğul olurdular. Bizim ədəbiyyat dərnəyimiz vardı, mənim o vaxt şeirlərim çıxırdı. Sonralar rəhmətlik Famil Mehdi 2001-2002-ci illərdə o şeirləri yığmışdı. Ancaq görürdüm ki, şeir yazmağa talantım çatmır. Rəhmətlik Şahmar Əkbərzadə da bizim dərnəkdə idi. Şahmar düz yol seçdi. Bizim dərnəkdə Zakir Məmmədov şeir barədə talantlı idi, o da fəlsəfə üzrə getdi, şairlik etmədi. Amma valideynlərim həkim olmağımı istəyirdi. Mənim bir fizika müəllimim vardı, Kamal Qaradağlı, müharibə iştirakçısı idi. O, çox proqressiv bir insan idi. Gördü ki, pis oxumuram. Mən məktəbi medalla qurtarmışam. Dedi ki, avtomatlaşdırma, telemexanika, informatika, televiziya və kommunikasiya ilə əlaqəli yeni bir ixtisas çıxıb, gəl bu sahəyə get. O, mənə təkan verdi. Mənim öz fikrim isə astronom olmaq idi. Görünür ki, romantika ilə yaşadığımız dövrlər idi. Amma müəllimim təkan verdi və bu ixtisası seçdim. Onu da qeyd etmək lazımdır ki, Moskvada oxuduğum aspirantura illəri mənim üçün çox faydalı oldu. Klassik alimlərlə bir yerdə işləyirdik.

*– Rafiq Əliyev Azərbaycan mühitindən dünya mühitinə necə çıxıb? Bir çox insanlar var ki, o mühitə çıxa bilmir.*

– Mənim nəyim varsa, ilk növbədə valideynlərimə və o mühitə borcluyam. İkincisi, mənim həyatda bəxtim gətirib, yaxşı müəllimlərim olub. Otağımda iki şəkil var. Onlardan biri akademik Petrov olub. Çox böyük bir alim idi, böyüklüyü qədər də insan adam idi. Adətən, bu ikisinə bir yerdə çox az hallarda rast gəlinir. O, "İnterkosmos"un sədri idi. Bir kosmik gəmi sonda o "hə" deməyincə uça bilməzdi. O otağında olmayanda bilirdik ki, sabah, biri gün Baykonurdan hansısa gəmi uçacaq. SSRİ Elmlər Akademiyasının vitse-prezidenti idi. 20-30 il onunla təmasda oldum. İçərisində böyük xeyirxahlıq vardı.

*– Lütfü Zadə ilə tanışlığınız hansı şəraitdə, necə olub?*

– Mən həmin vaxt Moskvada aspirant idim. Lütfi Zadə də Amerikada seçilən böyük alim idi. Lütfi Zadə Bakıda anadan olub, ailəsi İrana gedib, 1945-ci ildən ABŞ-da yaşayıblar. ABŞ-da universitet qurtarıb, doktorluq müdafiə edib. Lütfi Zadənin Moskvada məruzəsi vardı. Seminarı Zıbkin adlı bir alim aparırdı. Seminardan sonra Zıbkin məni çağırdı, dedi ki, Rafiq, sənin yerlindir, tanış ol. İngiliscə danışdıq. Dedi ki, mən Bakıda anadan olmuşam, ancaq sonra İrana getmişik. Ayaqüstü söhbət etmişik. Bir müddət keçdi, Lütfi Zadənin qeyri-səlis məntiq nəzəriyyəsi meydana çıxanda Moskvada müəllimlərimlə qərara aldıq ki, bu nəzəriyyə ilə məşğul olaq. Ondan sonra mən Lütfi Zadə ilə məktublaşdım, görüşdük. SSRİ-də bu sahədə fəaliyyətə başlayan birinci biz olduq. Mənə orta məktəbdə ingilis dilini yaxşı öyrənməyim də kömək etdi. Ona görə də müəllimlərimə minnətdaram, onlar bizə dili yaxşı öyrədirdilər. Lütfi Zadə mənə böyük dəstək oldu, bu günə qədər də həmin dəstək davam edir. 1989-cu il idi, ABŞ-da Vaşinqton Universitetində çox böyük bir konfrans gedirdi. Zalda 1000-1500 nəfər vardı. Yekun iclası idi, konfrans bağlanırdı. Dünyanın seçilmiş 4 alimi də Rəyasət Heyətində otur-

muşdu. Rəyasət Heyətindəki 3 alim danışırdı, sonuncu Lütfi Zadə danışacaqdı. Mən 14-cü cərgədə oturmuşdum. Gördüm ki, Rəyasət Heyətindən durub gəldi, dedi ki, üçüncü alimdən sonra sən çıxış edəcəksən. Bu, bir az qeyri-adi idi. Çünki orada məndən də yaxşı elm adamları vardı. Dedim ki, xahiş edirəm, yox, mən Rəyasət Heyətində deyiləm, burada tanınmış alimlər var. Lütfi Zadə qayıdıb getdi. 20 dəqiqədən sonra yenə gəldi. Dedi ki, mən xahiş edirəm, SSRİ-nin adından sən danış ki, nə işlər görülüb, nə işlər görüləcək. Mən onun xahişini qıra bilmədim. Düşünürəm ki, Lütfi Zadənin bir məqsədi vardı. O, məni elmi ictimaiyyətə təqdim edirdi. Düzdür, ondan qabaq alimlərin çoxu ilə görüşür, məktublaşırdıq, Almaniyada və başqa ölkələrdə tanınmış jurnallarda məqalələrim çıxırdı. Amma bir də var ki, beş nəfərin biri kimi çıxış edəsən. 1994-cü ildə Almaniyanın Axen şəhərində 1000 nəfərin iştirak etdiyi konfransa amerikalı dostumla 10 dəqiqə yubandıq. Həmişə də Lütfi Zadə bu iclaslarda 1 saatlıq plenar məruzə edirdi. Bütün tanınmış alimlər ora yığışardı. Çünki Lütfi Zadə həmişə təzə söz deyir, bir şeyi iki dəfə deməz. Qapını açıb, güncdə bir yerdə oturduq. Lütfi Zadə danışdı, qurtardı. Dedi ki, mənə çıxış üçün ayrılımış vaxtdan 10 dəqiqə qalıb, mən professor Rafiq Əliyevdən xahiş edəcəm ki, o, bu 10 dəqiqəni yekunlaşdırsın. Bu ona görə deyildi ki, mənə, mənim fikirlərimə ehtiyacları vardı. Mən düşünürəm ki, o, məni təqdim etmək, dünyaya çıxarmaq istəyirdi. Belə epizodlar çoxdur. Bir dəfə də Yaponiyadan mənə bir məktub gəlmişdi. İnformatika sahəsində beynəlxalq jurnal var. Məndən xahiş edirdilər ki, bu jurnala redaktor olum. Düzü, mən də əvvəlcə razılıq vermədim. Çünki məqalələri toplamaq, redaktə etmək çox vaxt aparır. Dedim ki, bir müddət sonra cavab verəcəm. Bir müddət sonra ikinci məktub gəldi. Həmin məktubu professor Lütfi Zadədən idi. Mənə aydın oldu ki, jurnala redaktor olmağımla bağlı fikri o verib. Bəzən soruşurlar ki, Lütfi Zadə Azərbaycan üçün nə edib? Lütfi Zadə bilir ki, kimi, nəyi, harada və necə yüksəltmək lazımdır. Dünyaya çıxmaqda adlarını çəkdiyim bu iki insanın mənə dəstəyi böyük olub. İndi dünyanın istənilən yerində, ABŞ, Almaniya, Avstraliya, fərqi yoxdur, dostlarımız var. İstənilən vaxt zəng açır, məktub yazırıq. Dünyadakı 7-8 nüfuzlu elmi jurnalda mən ya redaktor, ya da Redaksiya Heyətinin üzvüyəm. Məqalələr gəlir, müzakirələr gedir. Bunlarla paralel, dünyaya çıxmaq üçün hər il keçirilən iki ənənəvi böyük konfransımız var. Bu konfranslar hər il dünyanın bir ölkəsində olur. Konfransın sədri mən, fəxri sədri Lütfi Zadədir. İlk konfransı Təbrizdə keçirmişik. Bütün konfranslarda Lütfi Zadə iştirak edir, dünyanın bizim sahədə olan əsas alimləri də o konfranslara gəlir. Biz konfransları İspaniyada, İtaliyada, Almaniyada, Finlandiyada və başqa ölkələrdə keçiririk. 2010-cu ildə növbəti konfransı Norveçdə keçirəcəyik. Bu konfranslarda elmin gələcək istiqamətləri müzakirə olunur. Dünyaya çıxış bu cür olur.

*– Rafiq Əliyevin dinə münasibəti necədir?*

– Mən Allahsız alim tanımıram. Söhbət əsl alimdən gedir. Dinə şəxsi münasibətimə gəlincə, mənim imanım dinimdən yuxarıdır, mən dini ritualları icra etmirəm. Salavat çevirmirəm, namaz qılmıram və s. Ona görə yox ki, onları bəyənmirəm, ya da rədd edirəm. Mən Tanrının mütləqliyinə yüzdə-yüz ina-

nıram. Allah var, şəriki yoxdur. Amma dini sapmalar məni qəti təmin etmir. Din pərdəsi altında gizlənmək məni təmin etmir. Lütfi Zadənin ən çox işlətdiyi sözlərdən biri də "İnşallah"dır. Həmişə Allahı başının üstündə görür. Mən nə qədər din pərdəsi altına girənlərin rüşvət aldığını görmüşəm. Deməli, dini atributlar hökm deyil. Ən böyük atribut Allahı başının üstündə görmək və daxili senzorun səsi ilə işləməkdir. Bəxtiyar Vahabzadə də həmişə ikinci səsi ilə interaktiv münasibətdə olub. Əsas vicdan səsinə qulaq asmaqdır.

*– Övladlarınız necə böyüyür, ailədə tarazlığı necə tənzimləyirsiniz?*

– İki qızım, bir oğlum var. Onlar da mənim yolumu tutublar. Böyük qızım dosentdir. Həmişə bu fikrimi təkrar edir ki, bir evə haram pul girərsə, o evdə yas, başqa bir pis şey olar. Oğlum isə iki dəfə məndən çox məvacib alır. Mənim də məvacibim az deyil. Oğlum elmlər doktoru, professordur, ABŞ-da, Almaniyada işlədi, hazırda Şimali Kiprdə işləyir. Şimali Kiprdə professor çox yaxşı qazanır. O qazancının 60 faizini 2 uşağının təhsilinə yönəldib. Digər qızımın da yoldaşı professordur, xaricdə işləyir.

*– Yaxın dostlarınız kimlərdir?*

– Bir dəfə Ağdama, qohum-əqrəbanın yanına getmişdim. Rayona gedəndə cəmiyyətin müxtəlif təbəqələri ilə, o cümlədən şagirdlərlə, əsgərlərlə görüşürəm. Bir ruhani ağsaqqalımız Seyid Mirəli vardı, indi rəhmətə gedib. O, bir dəfə mənə dedi ki, əyri xurcun yükü başa vurmaz. Dostluqda hökmən tarazlıq olmalıdır. İstənilən münasibətdə gərək simmetriya olsun. Ailədə də belədir. Əgər ailədə diktatura qurursansa, uzun getməyəcək. Gərək ailədə dostluq olsun. Simmetrikliyin olması, xurcunun hər iki gözünün düz gəlməsi üçün insanın öz təbiətinə uyğun adamlarla dostluq etməlidir. Məsələn, mən azad düşüncəli, sınmayan insanlarla dostluq edirəm. Həyatda ən dəhşətli şey sınmaqdır, gərək insan heç bir şeyin qabağında sınmasın. Mən bu cür insanlarla dostluq edirəm. Deyirlər ki, dost bir olar, ya iki. Ancaq indi qloballaşan dünyadır. Mənim dünyanın hər yerində yaxşı dostlarım var. Məsələn, mən həyat yoldaşımla ABŞ-a gedirəm. 1-2 ay qalıram. Nə qədər edirəm, dostlarım məni mehmanxanada qalmağa qoymurlar. Bəzən ABŞ, Almaniya, Avstraliya, yaxud başqa xarici ölkələrin ali məktəblərində oxuyan tələbələrimizin çətinliyi olur. Qiymət məsələsindən söhbət getmir. Ola bilər ki, bir il qrant veriblər, bu il qrant ayıra bilmirlər. Bu məsələlər üçün mən dostlarıma zəng vururam. Heç xahiş də etmirəm. Deyirəm ki, bir azərbaycanlı kimi mənim mənəvi borcumdur, o tələbəyə kömək edin. Bu dostlarım içərisində professorlar Lütfi Zadə, B.Fazlollahi (ABŞ), B.Türksen, V.Pedriç (Kanada), U.Eberhard (Almaniya) və başqalarını fərqləndirmək istərdim. Azərbaycanlı dostlarıma gəlincə, onların arasında Ramiz Rövşən, Rüstəm İbrahimbəyov, Anar və başqaları var. Onlara böyük sayğı bəsləyirəm. Ola bilər ki, kimlərisə unutdum, inciməsinlər. Allah min rəhmət etsin, Xudu Məmmədov, Bəxtiyar Vahabzadə, Famil Mehdi çox yaxın dostlarım olub.

*– Bir alimin arzusunu da bilmək maraqlı olardı.*

– Mən arzu sözünü çox sevmirəm, hədəf sözünü daha çox sevirəm. Gənc dostlarıma, dünyanın müxtəlif ali məktəblərində oxuyan tələbələrə də məsləhət gö-

rürəm ki, arzu yox, hədəf ilə yaşayın. Təbii ki, ən böyük arzum, arzudan da böyük hədəfim Qarabağı azad görməkdir. İkincisi, millətimin ən bir fərdini azad görmək istəyirəm. Hər bir millətin 1 nəfəri belə azad deyilsə, o millət azad deyil. Millətin hər bir fərdinin içərisində xof olmamalı, qafası açıq olmalıdır. Ən böyük istəklərimdən biri də odur ki, millətimin xammala yox, biliyə söykənən iqtisadi modeli olsun. 5-10 ildən sonra xammal tükənəcək, bu insanlar ağılları ilə yaşaya bilməlidirlər. Xəritədə dünyanın neft çıxan hansı yerinə bayraq sancsanız, hamısından qan iyinin gəldiyini görəcəksiniz. Yalnız Norveç istisnadır. Çünki Norveçdə mentalitet başqadır, orada xalq sözünü deyə bilir. Şərq dünyası deyil. Cənubi Koreya, Sinqapur və Yaponiyada iqtisadi model elmə, biliyə söykənən model deyil, texnoloji modeldir. İkinci Dünya Müharibəsindən sonra Yaponiya hədəf götürdü. Dedi ki, mən elmə çox pul ayırmayacam, müəyyən dominant sahələr seçəcəm və yeni texnologiyalar alacam. Yaponlar ABŞ-dan, Almaniyadan, Fransadan, yəni bilik istehsal edən ölkələrdən texnologiyalar alırlar və çox vicdanla məhsul buraxırlar. Ancaq bilik istehsal edən birinci ölkələrə gəlincə, tutaq ki, ABŞ-da "Boinq", yaxud "Dell" kompüterləri buraxılır. 80-85 faiz məhsul elmi, texnoloji xarakterlidir. Tutaq ki, ABŞ-da yaxşı bir cərrahi əməliyyat 100 min dollardır. Niyə yüzlərlə, minlərlə həkimləri və digər ixtisas sahiblərini göndərmirik ki, 2-3 il o ölkələrdə qalsınlar, o texnologiyaları öyrənsinlər? O insanlar tam mütəxəssis kimi yetişsələr, Azərbaycana qayıdanda hər cərrahi əməliyyatı 10-20 min dollara edəcəklər. Vergidən də büdcəmizə böyük məbləğdə pullar daxil olacaq. Biliyə, texnologiyaya söykənməliyik.

*– Dünya hara gedir, Rafiq müəllim?*

– Azərbaycan da dünyanın bir hissəsidir, dünya qloballaşır. Bizim dünyamız qalaktikalar içərisində balaca bir gəmidir. Bu gəmidə böyük bir hüzursuzluq var. İnsanlar bir-birini eşitmək, qulaq asmaq istəmirlər. Dünyanın mənəvi entropiyası çoxalıb. Entropiya artanda, o dağılma ilə nəticələnir. Bircə alternativ var. Bu alternativ də odur ki, insanlar bir-birini eşitməyi bacarmalıdırlar. İnsanlar deyəndə tək fərdlər yox, ölkələri də nəzərdə tuturam. Dünya heç vaxt Apokalipsisə bu qədər yaxın olmayıb. Bütün insanların, xüsusən, alimlərin borcu odur ki, dünyanı bu təhlükədən qurtara bilsin. Bir ölkənin miqyasında çətin ki, dünyanın xilası üçün bir şey etmək mümkün olsun. Mənim ən böyük istəyim odur ki, əxlaqla elm arasında bir uyarlıq yaransın. Elm, xüsusən, XX əsrin ikinci yarısından sonra çox böyük sürətlə inkişaf edib. Elmin bu sürəti əfsuslar olsun ki, insandan daha çox müharibələrə və təbiəti məhv etməyə xidmət edib. İndi robot əsgərlər buraxırlar. Amma enerjimiz tükənib, bütün müharibələr enerji uğrundadır. Enerji mənbəyi tapmışıq, onu hara istifadə edirik? Atom, hidrogen bombası hazırlamağa. Ümumbəşəri əxlaqımız yüksək olsaydı, elmlə əxlaq arasında bir harmoniya olardı. Əxlaqımız çox zəif sürəti ilə inkişaf edib. Bu gün dünyanın ən dəhşətli problemi əxlaqla elm arasındakı uçurumdur. Bu uçurumu aradan qaldırmaq da seçilmiş insanların üzərinə düşür...

**Ramiz Mikayıloğlu**

## PROFESSOR RAFİQ ƏLİYEV: "ŞƏXSİYYƏT OLMAĞIN ƏSAS ŞƏRTİ NƏFSİNƏ AĞA OLMAQDIR"

**Qısa təqdimat:**

Gözəl bir şeir oxuyanda özümü çox rahat hiss edirəm, çünki bir daha inanıram ki, xalqımın bu qədər səmimi, xoş duyğuları və o duyğuları ifadə etməyə belə zəngin dili var. Bir dəliqanlımız dünya çempionu olub, bayrağımızı göylərə çəkəndə də çox sevinirəm, elə bilirəm ki, bizim biləyimizi kimsə bükə bilməz. Amma millətimin həqiqi bir alimini görəndə daha çox məmnun oluram, çünki şair duyğularımızı, pəhləvan biləyimizi təmsil edirsə, alim ağlımızın, dünyagörüşümüzün göstəricisidir. Müsahibimiz təmtəraqlı təqdimata ehtiyacı olmayan, təkcə elmi ilə deyil, əxlaqı, insana, dünyaya münasibəti ilə, yəni sözün hər mənasında alim olan, sevimlimiz Rafiq Əliyevdir. Biz bu layihənin formatına uyğun olaraq müsahibimizin tərcümeyi-halı, gördüyü işlər, yazdığı kitablar haqqında çox danışmayacağıq, sadəcə, söhbət əsnasında onun qəlbini, duyğularını, dünyaya baxışını görməyə və göstərməyə çalışacağıq. Bütün təvazö əhli kimi, Rafiq müəllim də tərif eşitməyi xoşlamır, amma mən də öz səmimi qənaətimi açıqlamaq istəyirəm ki, mənə görə, Rafiq müəllim kimi alim bu gün bizə Allah-Taalanın bir lütfidür. O, əxlaqı ilə, elmi ilə, duyğuları, dünyaya baxışı ilə bütöv şəxsiyyətdir. Vəziyyət necə dəyişir-dəyişsin, şərtlər nə qədər ağır olur olsun, həqiqi insan öz əxlaqından vaz keçməz, güzəştə getməz. Elə buna görə də onların əlləri hər zaman dünyanın yaxasında, dünyanın baltası isə onların boynunun kökündə olar. Mən belə adamları təlatümlü dənizin azğın dalğaları arasında müvazinətini və istiqamətini qorumağa çalışan gəmi kimi görürəm. Belə görürəm və bu mənzərədən gözlərim dolur. Ancaq təsəlli də var, təsəlli ondadır ki, tarixin hansı səhifəsi olur olsun, yaxşı olmağın da öz bədəli var və yaxşılar çəkdikləri əzab-əziyyətlə o bədəli ödəyirlər, nə qədər bədəl ödəsələr də könüllərində hüzur olar, rahatlıq olar. Sevimli Peyğəmbərimiz buyurur ki, dünyada "Allah" deyə çırpınan bir ürək olduqca qiyamət qopmayacaq. Düşünürəm ki, Allah-Taala bu gün bu məmləkətə üç-beş kişinin üzü hörmətinə xeyir-bərəkət ehsan edirsə, o üç-beş kişinin biri elə sizsiniz, var olasınız, hər zaman yanımızda olasınız, Rafiq müəllim! Allah sizi bu xalqa çox görməsin!

**Əli Çərkəzoğlu**

*– Rafiq müəllim, sizin tədqiqatlarınızla tanış olduqdan sonra belə qənaətə gəldim ki, siz elmi əxlaq ilə qovuşdurmağa çalışırsınız. Belə başa düşürəm ki, Rafiq Əliyev bu vaxta qədər mövcud olan qənaətləri, düsturları yeniləməklə məşğuldur. "Ya hə, ya yox" prinsipini ortadan qaldırıb, "hə"dən "yox"adək olan çalarları araşdırmaqla məşğuldur.*

– Gözəl tutmusunuz. "Hə" ilə "yox" arasında milyonlarla çalarlar var. Əxlaq mövzusu çətin mövzudur. Buna, yəni elmdə əxlaqa iki prizmadan baxmaq lazımdır. Birincisi, bəşəriyyəti hər zaman ziqzaqlardan elm çıxarıb. Mənim sənətə də böyük hörmətim var. Sizin jurnalist sənətinə də, poeziyamıza da, başqa incəsənət növlərinə də hörmətim var. Amma hər zaman bəşəriyyəti çətinliklərdən elm xilas edib. Elmdə əxlaq ona görə lazımdır ki, elmdə bir açar olmalıdır. Eynşteyn deyib ki, mən bilsəydim ki, mənim nəzəriyyəmin nəticəsində atom bombaları meydana çıxacaq və o bombalar Xerosimaya atılacaq, mən bu nəzəriyyəni ortaya qoymazdım. Elmin əxlaqı olmayanda bəşəriyyətin başına fəlakətlər açır. Və yaxud da bu gün Amerikada 240-250 min dollara robot əsgərlər düzəldirlər. Bunlar həm də çox çevik, sağa-sola dönmək imkanına malik, cürbəcür silahlar daşıya və onlardan atəş aça bilən maşınlardır. Əgər o robotlara bir qədər artıq "ağıl" verilsə, özlərini yeniləmək kimi proqramlar da yüklənərsə, idarə olunmaz bir hala gələ və insanın özünə qarşı çevrilə bilər. Yəni insan öz əlinin məhsulunun qurbanına çevrilər. Ona görə də elmdə bir açar – əxlaq açarı olmalıdır.

Bu gün dünya əhalisinin üçdə biri virtual həyat yaşayır. Əlcək geyir, gözlük taxır, məsələn, Madonnanı istənilən pozada görə bilir, istədiyi hissiyyatı ala bilir. Yəni bu gün elm, texnologiya çox sürətlə inkişaf edir, amma real həyatdan uzaqlaşmaq olmaz. Biz robotlardan danışdıq, yəni süni intellektdən. Süni intellekt sistemlərində özü-özünə öyrənmə prosesi gedir. Nəticədə bu cihazlar o qədər ağıllı ola bilər ki, insanlardan, hətta alimlərdən də ağıllı ola bilər. Ona görə də biz bu fikrin üstündə israrla dururuq ki, əxlaq hər zaman elmin yanında, hətta deyərdim ki, başının üstündə olmalıdır. Məsələyə başqa bir müstəvidən yanaşsaq, deyərdim ki, elm adamının, xüsusən də alimin əxlaqı yoxdursa, imanı yoxdursa, onun ortaya çıxardıqlarının da heç bir nəticəsi olmayacaq. Gərək, elm adamı şəxsiyyət olsun. Şəxsiyyət olmağın əsas şərti isə nəfsinə ağa olmaqdır. Əgər insan bunu bacarırsa, demək ki, əxlaqlı adamdır. Onun yaratdığı da əxlaqlı olacaq və bəşəriyyətə, öz ölkəsinə xidmət edəcək.

*– Aristotel deyir ki, yaxşı ilə pisin, var ilə yoxun arasında qırmızı xətt olmalıdır. Siz isə yaxşıda pisi, pisdə də yaxşını görməyə çalışırsınız. Demək istədiyim odur ki, sizin ortaya qoyduğunuz nəzəriyyə bir növ tolerantlıq nəzəriyyəsidir, yanılmıram ki? Və bir də mənə elə gəlir ki, bəlkə Aristotelin nəzəriyyəsi ilə sizin nəzəriyyənizi öz qanadları altına alan yeni bir nəzəriyyə ortaya qoyulmalıdır. Biz də sərt keçidin tərəfdarı deyilik, tolerantlığı da qəbul edirik, amma ona da inanırıq ki, dünyada bütün qütblərin arasında tədrici keçid olsa da, haradasa, bir qırmızı xətt də var. Bunun istər əxlaqda, düşüncədə, istərsə də dünyada xeyli örnəklərini görmək mümkündür.*

– Xoşbəxtilkdən qeyri-xoşbəxtliyə keçiddə səlis bir xətt yoxdur. Demək olmaz ki, buradan bu tərəfə insan xoşbəxtdir, buradan bu tərəfə yox. Ümumiyyətlə, qeyri-səlis məntiq təkcə riyaziyyat deyil, elm deyil, həm də bir yanaşmadır, dünyagörüşüdür. Mənim bir yazım var: "Qeyri-səlis məntiq və din", xahiş eləmişdilər, yazmışdım. Bəzən deyirlər ki, Qurani-Kərim qadağalar üzərində qurulub. Mən bu fikirlə qəti razı deyiləm. Burada məsələ odur ki, kim təfsir edib, necə təfsir edib. Məsələn, internetdə araşdırsaq, görərik ki, İncilin beş mindən çox

təfsiri var. O ki qaldı qırmızı xətt məsələsinə, mən bir də ora qayıtmaq istəyirəm. Mən bu fikirlə razı deyiləm. Mənim təfəkkürüm Aristotel təfəkkürü deyil.

*– Rafiq müəllim, qeyri-səlis məntiqin hansı müddəaları var?*

– Qeyri-səlis məntiqin iki müddəası var, üçüncüsü yoxdur. Birinci müddəa odur ki, dünyada hər bir şeyin, hər bir münasibətin, hər bir hadisənin dərəcəsi var, bircə Allahdan başqa. Mütləq olan ancaq Allahdır. Ailədə övlada olan məhəbbətin, qardaşa olan məhəbbətin də dərəcəsi var.

İkinci müddəa odur ki, qeyri-səlis məntiq hadisəni rəqəmlərlə qəbul etmir. Ümumiyyətlə, dünyada informasiya iki cürdür. Biri ölçü informasiyasıdır ki, onu ölçmək olur. Məsələn, temperaturu, təzyiqi ölçmək olur. Amma xoşbəxtliyi necə ölçəcəyik? Bunu ölçmək üçün heç bir cihaz yoxdur. Yaxud da iqtisadiyyatın dərəcəsini götürək, bunu necə ölçəcəksən? Deyirlər ki, qalxan iqtisadiyyatdır, enən iqtisadiyyatdır, sabit iqtisadiyyatdır, amma demirlər ki, əlli tam onda beşdir, altmış tam onda üçdür… Buna persepsiya informasiyası, qavrama informasiyası deyirlər. O yerdə ki ölçmə informasiyası işləmir, orada qeyri-səlis məntiq nəzəriyyəsi işləyir. Qeyri-səlis məntiq söz ilə işləyir, rəqəmlərlə işləmir. Həm də bu persepsiya informasiyanı hissə-hissə deyil, toplu halında qəbul etməyi əsas tutur. Məsələn, qabaqkı nəzəriyyələrdə belə bir şey vardı ki, gözəlliyi müəyyən etmək üçün insanın sifətini 27 parametrlə ölçürdü: gözlər arasındakı məsafə, burunun uzunluğu, dodaqların qalınlığı, sifətin eni… Mən həmişə bu nəzəriyyəyə qarşı olmuşam və demişəm ki, Leylini sevəndə Məcnunun əlində heç bir xətkeşi-zadı yoxuydu. O qavrayır ki, bu, mənim üçün gözəldir, ya gözəl deyil.

Mənim kitablarımın birində gəncliyin də düsturu var, ahıllığın da. Təxminən 20 il əvvəl yazdığım kitabdır. Məsələn, burada 10 insan var, onların arasından gəncləri seçmək lazımdır. Bu zaman neçə yaşına qədər olanları seçəcəyik? Deyək ki, 35 yaşa qədər olanları. O zaman 36 yaşı olanları cavan hesab etmək olmaz? 35 yaşı tamam olanda insan birdən-birə dəyişə bilməz axı. Yəni burada söhbət dərəcədən gedir. İnsan 33 yaşında daha çox cavandır. 37-38 yaşında isə ondan az cavandır. Amma Aristotel deyir ki, 35 yaşdan bir ay keçən insan artıq gənc deyil, qocadır. Başqa misal: deyirlər ki, yeddi rəng var, yeddi not var. Dünyada saysız-hesabsız rənglər, səslər var. Təbiətdə yaşılın nə qədər çaları, Qədir Rüstəmovun səsinin nə qədər fərqli notları, rəngləri var, bunları necə görməmək olar?

*– Rafiq müəllim, belə bir fikir var ki, möcüzələr elmin üfüqünü göstərir. Məsələn, Quranda bildirilir ki, cinlər bir göz qırpımında Bilqeyisin taxtını Yəməndən Fələstinə gətirdilər. Yəni materiyanın an içində transferi gerçəkləşir. Sizin fikrinizi bilmək maraqlıdır, elm bu haqda nə deyir?*

– Amerikada "Discoveri" adlı veriliş var. Türkiyədə də bunu türk dilində yayımlayırlar. Əfsuslar olsun ki, bizdə belə proqram yoxdur. Həmin proqramda Quranın elmlə əlaqəli surələrindən verilir və dünyanın bugünkü vəziyyəti ilə müqayisə edirlər. Maddənin sürətli transferi artıq elmi cəhətdən sübut olunub. Gələcəkdə daha sürətli, işıq sürətinə yaxın uçuşlar olacaq. Quranda hər bir şey göstərilib. Məsələn, DNK… İndi UZİ-də baxıb deyirlər ki, doğulacaq

uşaq qız olacaq, yoxsa oğlan. Ancaq Quranda bu, tam açıq şəkildə göstərilib. Bütün dünya iyirmi birinci əsri beyin əsri, linqvistik əsr adlandırır. Biz ən yaxşı halda beynimizin 12%-dən istifadə edə bilirik. Bu da Eynşteyn kimi, Lütfi Zadə kimi insanlarda olur. Digər insanlarda 7-8% həddində olur. Bu günə kimi beyini öyrənə bilmirik. O, Allahın yaratdığıdır. Biz Allahın yaratdıqlarını, qoyduğu qanunları elmə gətirə bilsəydik, elm sıçrayışla inkişaf edərdi.

*– Rafiq müəllim, etiraf edim ki, sizinlə görüşə çox ciddi hazırlaşmışdım; internetdə tapdığım bütün söhbətlərinizə qulaq asmış, əlimə keçən yazılarınızı oxumuşdum; bax budur, xeyli sual da hazırlamışdım, amma heç biri işə yaramadı. Çünki söhbətiniz o qədər cazibəli bir məcrada gedir ki, mən istiqamət dəyişə bilmirəm və növbəti sualımı da elə sizin söhbətinizdən çıxarmalı oluram. Oxumuşam ki, zaman nisbidir və əgər biz işıq sürəti ilə əlli il müddətində Yerin ətrafında dolansaq, yaşlanmadan geri dönərik, yəni yaşıdlarımızdan əlli il cavan qalmış olarıq. Quranda Əshabi-Kəhf söhbəti də var ki, orda insanlar 300 ildən çox yatırlar, oyananda elə bilirlər ki, cəmi bircə gün yatıblar. Yaxud da bir insanın 70, 80 ildə yaşadıqlarını bizimlə paralel bir dünyada bir böcəkmi, kəpənəkmi, ya hansısa bir canlı bizim bircə günümüz ərzində yaşayır, doğulur, böyüyür, sevir, nəsil artırır, qocalır, ölür. Onların bütün həyatı bizim bircə günümüzə sığır. Elm bu haqda nə söyləyir?*

– Bilirsiniz də, indi Amerikada, Avropada külli miqdarda vəsaitlər qoyub araşdırmalar aparırlar ki, dünya necə yaranıb. Bunlar sübut etmək istəyirlər ki, dünya bir partlayışdan yaranıb. Açığı, mən bunun əleyhinəyəm.

*– Mənim bildiyim Rafiq müəllim səmimi müsəlmandır və tez-tez Avropada, Amerikada olur, oralarda yaxın dostları ilə görüşür, möhtəşəm məclislərdə çıxışlar edir. Orada müsəlman Rafiq Əliyevi necə qarşılayır, necə qəbul edirlər?*

– Müsəlman Rafiq Əliyevə oralarda münasibət məsələsinə gəldikdə qeyd edim ki, Amerikada, Avropada belə bir anlayış yoxdur. Məsələn, bizim bir dostumuz var, onunla bir yerdə çalışırıq – Məhəmməd Cəmşidi, farsdır. Çox məşhur alimdir, Zadənin də, bizim də dostumuzdur. Tək o deyil, minlərlə müsəlman alim orada elmi-tədqiqat işləri ilə məşğuldur. Amerika elminin böyük bir hissəsi müsəlman alimlərin çiynindədir. Digər bir müsəlman alim Əli Cavan. Lazeri o, kəşf edib. O buna görə Nobel almalıydı. Hansı səbəbdənsə ala bilmədi. Onu da deyim ki, Nobel mükafatı ilə bağlı başqa sahələri bilmirəm, amma elmdə kimsə kimsəyə təsir edə bilməz ki, ona verilsin, ya başqasına verilsin.

*– Bəs Rafiq müəllim necə, inşallah, Nobel mükafatı ala biləcəkmi?*

– Deyə bilmərəm.

*– Sizin tədqiq etdiyiniz qeyri-səlis məntiq nəzəriyyəsindən yanaşsaq, bu mükafatı ala bilməyiniz nə qədər real görünür?*

– Nobel mükafatının əsasnaməsində belə bir qayda var: aparılan müzakirələr 50 il ərzində gizli saxlanılır. Bu mükafatı alanların istisnasız olaraq hamısı bu xəbəri ya avtobusda, ya bir yerdə oturub çörək yeyərkən eşidiblər, yəni heç kim bunu əvvəlcədən bilmir.

*– Rafiq müəllim, bizim üçün maraqlıdır ki, siz klassik İslam alimlərindən, mütəfəkkirlərindən kimləri mütaliə edirsiniz?*

– Ən çox oxuduğum və rəğbət bəslədiyim Mövlanadır. Dünyaya sevgi ilə, mərhəmət hissi ilə yanaşır, insanı sevməyə çağırır Mövlana.

*– Rafiq müəllim, çox-çox üzr istəyirəm, söhbətinizə qulaq asdıqca ağlıma yeni fikirlər gəlir və sanki mən sizinlə müsahibə deyil, hansısa mövzunu müzakirə edirəm. Quranda bir ayə var: Allah-Taala orada buyurur ki, Allahdan ancaq alimlər layiq olduğu kimi qorxarlar. Buradakı "qorxmaq" ifadəsi də əslində tam mənası ilə bizim düşündüyümüz qorxmaq deyil. Bu sözün Quranda qarşılığı "təqva"dır, o da "qüvvət" sözü ilə eyni kökdən gəlir, yəni gücdür; Allahı düşünərək, üstümüzə axın edən günahlara qarşı sağlam durmaq, əyilməzlikdir. Həmin o ayədən aldığım bir qənaəti söyləmək istəyirəm ki, əslində alimliyin təməl şərti elə o təqvadır, hər şey ordan başlayır, o kimdə yoxdursa, alim olduğunu iddia eləməsin. Sizcə, bu gün neçə alimimiz var?*

– Mənim bir yazım var idi. O yazı ətrafında, təxminən, üç il müzakirələr getdi. Adı belə idi: "Mən Allahsız alim tanımıram". Məsələn, Lütfi Zadənin ən çox işlətdiyi ifadə "İnşallah"dır. Söhbət edəndə nə deyirəmsə, deyir, Rafiq, inşallah. O yazıya görə məni tənqid edənlər də oldu. Əslində mən ateistə də hörmətlə yanaşıram, o da onun seçimidir. Mən kimsəni məcbur edə bilmərəm ki, sən Allahı sevməlisən. Məni tənqid edənlər yazırdılar ki, Rafiq necə alimdir ki, Allaha inanır? Mən o yazıdan sonra bir şeyi başa düşdüm ki, bizimkilər elmlə dini bir-birinə qarşı qoyurlar, yəni əgər bir adam Allaha inanırsa, ondan alim olmaz. Bu qədər də cəhalət olarmı? Elmin vəzifəsi Allahın yaratdıqlarını öyrənməkdən, Onun qoyduğu qanunları açmaqdan başqa nədir ki? Adamı yaralayan bir şey var ki, bu cür düşünənlər, yazanlar dəyərlərə toxunurlar; bax bunu həzm etmək olmur. Yoxsa, kim Rafiq müəllimi necə tənqid edir, mən belə şeylərə çox fikir vermirəm. Bir dəfə məni fəlsəfə institutuna dəvət etmişdilər ki, mühazirə oxuyum. Mən də qəbul etdim və çıxışımda dedim ki, insanın dünyagörüşünü üç amil müəyyən edir: Onun Allah anlayışı, içindəki "mən"i və universitet, yəni onun aldığı təhsil. Məndən sonra çıxış edən tanınmış bir alim dedi ki, Rafiq müəllimi yaxşı tanıyırıq, ona hörmətimiz var, amma Allahın fizika ilə nə əlaqəsi var? Mən də hər şeyi sakit qarşıladım və konfrans qurtarandan sonra ondan xahiş etdim ki, mənim "Mən Allahsız alim tanımıram" yazımı oxusun. İstədim ki, oxusun və özü məntiqi nəticə çıxarsın ki, mən onu alim hesab eləmirəm.

*– Rafiq müəllim, kimlərlə dostluq edirsiniz, kimlərlə oturub-durursunuz?*

– Mənim ən yaxın dostlarım, hətta qardaşım səviyyəsində deyərdim, Ramiz Rövşəndir, Musa Yaqubdur. Baxmayaraq ki özü bu dünyada yoxdur, Məhəmməd Əsədovdur. Allah ona rəhmət eləsin! Qeyri-səlis məntiqə görə dərəcələrə bölsək, çoxdur dostlarım. Dünyada yaşamağın əsaslarından biri də odur ki, təmasda olasan. Allah o gündən saxlasın ki, sən dostlardan, insanlardan qopasan, təmasda olmayasan. Amma burda da mənim qırmızı xəttim çox səlis deyil, deyəm ki, bu insan mənə dostdur, bu insan mənə düşməndir. Düzdür, sevmədiyim insanlar var. Hətta nifrət etdiyim insanlar da var. Amma nifrətin də dərəcəsi var. Birinə lap çoxdur, birinə azdır.

*– Mənim bir dostum deyir ki, ədalət hər kəsi layiq olduğu yerə qoymaq, layiq olduğu qədər sevməkdir.*

– Bax, görürsünüzmü, burda da qeyri-səlis məntiq var. Yəni siz o "layiq olduğu" dediyiniz anlayışı rəqəmlərlə göstərə bilərsinizmi, burdan-bura qədər budur, burdan-bura qədər o? Əlbəttə, yox. Əslində bütün bu həyat qeyri-səlisdir.

*– Rafiq müəllim, axırıncı dəfə nə vaxt ağlamısınız? Ümumiyyətlə, kişi ağlayarmı?*

– Hə, kişi ağlayar. Yadıma bir söhbət düşdü. Süleyman Rüstəm rəhmətə gedəndə mən bir nəfərdən xahiş etdim ki, Arazdan su gətirsin, onun qəbrinin üstünə tökək. Oğlu Azada dedim ki, atanın şeiri yadındadır:

*"Mən kommunist olsam da ağlamışam,*
*Ölən Azadıma yas saxlamışam".*

Dedi, əlbəttə, xatırlayıram. Yəni kişi ağlayar. Ancaq kişi əyilməz. Bir yazımda yazmışam ki, Azərbaycan kişisi iki dəfə əyilə bilər. Bir dəfə nəvəsinin beşiyi başında, onu öpəndə. Bir dəfə də İsa bulağından əyilib su içəndə. O ki qaldı ağlamağa… Ağlamaq əyilmək demək deyil, ağlamaq hissiyyatdır. İnsanda ağıl, zəka qat-qat üstün olmalıdır; insan ağılla qərar verir, amma gərək adamın hissiyyatı da olsun. İndi mütəxəssislər düzəltdikləri robotlara da hissiyyat "verirlər".

*– Sizə elə gəlmir ki, insanlar sanki duyğusuz olublar?*

– Yenə bir yazıma qayıdacam. Həmin yazımın adı "Sosial yenidən kodlaşdırma"dır. Həmin yazımda millətin yenidən kodlaşdırılmasından bəhs etmişəm. Necə ki, ağacı calayıb, başqa ağac alırsan, millətləri də elə dəyişdirirsən, yəni milləti yenidən kodlaşdırırsan. Əgər dəyərləri dəyişdirirsənsə, yaxud rüşvət baş alıb gedirsə, dəyərsiz insanları dəyərli adam kimi səhərdən-axşama qədər TV-lərə çıxarırsansa, təbii ki, belə də olmalıydı. Dəyərləri dəyişəndən iyirmi il sonra qarşında tamam başqa millət görəcəksən. Bəzən artistlər əcaib geyimlərdə TV-lərə çıxanda yanımda heç kim olmasa belə mən üzümü çevirirəm, baxa bilmirəm. Öz içimdəki senzuramdan utanıram. Bilməyənlər, başı çıxmayanlar deyirlər ki, yaxşı olmasaydı, oraya çıxmazdı, gedim mən də onun kimi geyinim, onun kimi eləyim. Elə şeylər göstərilir, təbliğ edilir ki, adamın deməyə dili gəlmir. Yəni milləti yenidən kodlaşdırma budur. Milləti tanıdan dəyərləridir. Onu dəyişsən, yeni millət alacaqsan. Yenə çox-çox üzr istəyirəm, bir yazımdan danışacam. Yazmışdım ki, "bu millətin fəlakəti Fəlakətə baxmaqdır". Sən demə, bu TV-nin ən reytinqli verilişidir. Dəyəri dəyişmək belə olur.

*– Rafiq müəllim, siz ədəbiyyatı çox sevirsiniz, deyirsiniz ki, ən yaxın dostlarınız da elə şairlərdir. Hansı şairləri, hansı şeirləri oxuyursunuz, kimin şeirləri ilə təskin olursunuz?*

*Nə var Allahdan yuxarı?*
*Nə var qəbirdən aşağı?*
*Çəkdiyim ahdan yuxarı?*
*Bildiyim sirdən aşağı?*

*Ruhum, dur yığış, gedirik*
*Sən yuxarı, mən aşağı...*

Mən Ramizi çox sevirəm və özünə də deyirəm ki, çox qürrələnmə, vallah, hamısı Allahın verdikləridir.

*Gələn nədir, gedən nədir?*
*Bələk nədir, kəfən nədir?..*

Hansını deyəsən… Ramiz çox gözəl, çox böyük şairdir. Mənim bu dünyada iki nəfərlə mübahisəm var. Doğrudur, dünyanın özü ilə də konfliktim var, amma bu ayrı şeydir. O dediyim insanlardan biri Lütfi Zadədir, biri də Ramiz Rövşən. Mən Lütfi Zadə ilə ona görə mübahisə edirəm ki, gördüyümüz işlərin 99 faizi onun, 1 faizi isə mənimdir. Bu yaxınlarda ABŞ Zadə ilə mənim ortaq bir kitabımız çıxdı və mən ona təşəkkür yazdım, altına da P.S. əlavə etdim: "99 faiz Zadə, 1 faiz Əliyev". O da mənə göndərdiyi mesajda yazır ki, "99 faiz Əliyev, 1 faiz Zadə". Hələ ki ortaq məxrəcə gələ bilməmişik. Ancaq Ramiz Rövşənlə olan mübahisəmizi, deyəsən, həll edə biləcəyəm. Ramizin bütün yazdıqlarını bəyənirəm. "Nəfəs" kitabı masamın üstündədir, hər gün açıb oxuyuram. Amma onun "Qara paltarlı qadın" şeiri daha çox xoşuma gəlir. Bu, hər kəsin qapısını döyən bir şeirdir. Ramiz isə deyir ki, bu şeir mənim heç "onluğuma" da daxil deyil. Uzun müddət, 5-10 il bu söhbət getdi. Bir gün telefon zəng çaldı, açdım ki, Ramizdir. Deyir ki, deyəsən, sənə tabe olacam. Dedim, nə olub? Deyir ki, bəs Türkiyədə qadınlar parlamentdə mənim "Qara paltarlı qadın" şeirimi oxuyublar. İranda da bu şeiri bir nömrəli şeir elan ediblər. Amma onun öz şeirləri içində ən çox xoşuna gələn "İlan balası"dır, "Ayrılıq"dır.

Musa Yaqubun şeirlərini çox sevirəm. Bir dəfə bədii qiraətçi Ağalar Bayramov zəng vurmuşdu, dedim, Musa Yaqubun yeni şeirlərini oxumusan? Dedi, hansını? Dedim, "Ruhla söhbət"i. Bir həftə sonra Ağalar müəllim bir də zəng elədi ki, "yutub"u açıb baxın. Baxdım ki, o şeirləri oxuyub yazdırıb, özü də çox gözəl alınıb.

*– Rafiq müəllim, ölüm sizin üçün nədir?*

– Dünyada qaçılmaz bir şey var, o da ölümdür. Ona da üzüağ getmək lazımdır. Əvvəla, ölüm borcdur, qaytarılmalıdır, heç kim ondan qaça bilməz. Ondan qorxmaq lazım deyil. Ondan kim qorxa bilər? – Bu dünyada çoxlu pis əməlləri olanlar. Çünki o dünyanın əzabından qorxurlar. Ancaq mən qorxmuram. Ölüm haqdır, amma Allahdan bircə onu diləyirəm ki, əzablı ölüm verməsin.

*– Rafiq müəllim, sizinlə söhbət bizim üçün çox xoşdur, amma söhbətin əvvəlində bizə bir saat vaxt ayırdınız, biz də o vaxtı doldurub keçmişik. Çox sağ olun ki, gəldiniz! Çox sağ olun ki, varsınız!*

– Təşəkkür edirəm.

**Əli Çərkəzoğlu**

## AZƏRBAYCANDA İCTİMAİ MÜHİT ÇİRKLİDİR

Dünya şöhrətli alim, Ziyalılar Forumunun üzvü Rafiq Əliyevlə bu dəfə ölkədəki siyasi vəziyyətdən danışmadıq. Hörmətli ziyalımız hələ gözləməyi məsləhət görür, hadisələrin axarına buraxıb nələrin baş verəcəyini müşahidə edir. Rafiq Əliyev dünyanı, insanlığı təhdid edən problemlərdən danışır, onların alt qatında duran məsələləri açır.

*– Rafiq müəllim, bu günlərdə daha çox nədən narahatsınız?*

– (uzun pauza). Məni çox şey narahat edir. Əvvəla, cəmiyyətin durumundan narahatam, xüsusən də, əxlaq və mənəviyyatın aşınmasından. İnsanların nəfsinin qulu olması, gələcəyə baxa bilməməsi, bu günlə yaşamasından narahatam. Bir az da peşə baxımından məni elmlə təhsilin vəziyyəti narahat edir. Elmin vəziyyətindən ona görə narahatam ki, dünyaya çıxa biləcək nailiyyətlərimiz yoxdur, ola bilər, tək-tək nəsə var, amma söhbət böyük elmdən gedir. Biz həmişə dünyada 40-50 milyon azərbaycanlının olduğunu fəxrlə deyirik, doğrudan da, bu fəxrdir. Amma dünyada 14 milyon yarım yəhudi yaşayır, onun kiçik bir hissəsi İsraildədir, qalanları müxtəlif ölkələrdə məskunlaşıb. Təkcə, kiçik bir dövlətdən 30-a yaxın nobelçi var. Söhbəti heç Azərbaycandan aparmıram, götürək, türk və müsəlman dünyasını, ədəbiyyatda Orxan Pamuk, sülh sahəsində Şirin İbadi, elmdə isə bir pakistanlı Əbdül Səlam, vəssalam. Bilirsiniz, elmin inkişafı üçün mühit lazımdır, bəli, mən əminliklə deyirəm ki, xalqımız çox talantlıdır, amma fərd kimi, kollektiv şəkildə yox. Allah rəhmət etsin, Üzeyir bəy hələ 1947-ci ildə yazırdı ki, Azərbaycan musiqisində çoxsəslilik yoxdur. Bax, bizdə çoxsəslilik olmadığından, elə xor da inkişaf etməyib.

*– Bunun sirri nədədir, xalqın genefondundan, illərlə əsarətdə yaşamağımızdan, dövlətimizin olmadığından, yoxsa xarakterindən irəli gəlir?*

– Mən daha çox dövlətçilik ənənəmizin olmaması fikrinə üstünlük verirəm. Birlik o zaman olur ki, dövlət və onun tarixi olur, ayrı-ayrı götürəndə, böyük fərdlərimiz çoxdur, amma mühit olmadığından elmimiz inkişaf etmir. Elmi mühitin olması üçün də təhsil lazımdır, çünki bir-biriylə bağlıdırlar. Dünyanın hansı ölkəsi olur-olsun, universitetin yaxşı, ya da pisliyi onun tələbələrinin, müəllimlərinin sayıyla yox, elmiylə ölçülür. Meyar elmdir, sual edirlər ki, filan universitetdə elm varmı? Bizdə sovetlərdən qalma müxtəlif elmi sahə institutları var, amma bütün dünyada elm universitetlərdə inkişaf edir, səbəb də elmlə təhsilin bağlılığıdır. Bir sözlə, təhsil olmayan məmləkətdə elm ola bilməz. Həm də sosial sifarişdən də çox asılıdır.

*– Yüksək təhsili qurmaq üçün nə etmək gərəkdir?*

– ÜDM-dən elmə ən azı 2 faizdən çox ayırma lazımdır, bu, bir qanundur. Əgər ayırma 2 faizdən azdırsa, həmin elm iqtisadiyyata təsir etmir. Amerika kimi dövlətinin istehsalı yoxdur, yalnız BOİNG və hərbi texnika buraxırlar. Hətta artıq robort əsgərlər buraxmağa hazırlaşırlar, bunlar küçə və uzaq dö-

yüşlər üçün hazırlanır, amma intellektual olacaq. İntellektuallıq o deməkdir ki, o muxtardır və qərarı sərbəst qəbul edəcək. Hələ 3 il əvvəl yazmışdım ki, əgər onlar intellektual və muxtardırsa, bir vaxt onların üsyanı da baş verə bilər, bu isə çox təhlükəlidir.

*– Ancaq bu barədə filmlər çəkiblər...*

– Mən artıq reallıqdan danışıram. Ona görə onların olması çox təhlükəlidir, çünki qərarı özləri kütləvi qəbul edəcək. Nəzərə alın ki, robotların demokratik düşüncəsi olmadığından çox qorxuludur. Bilirsiniz, qüdrətli olmaq istəyən dövlətlər bəzən "qırmızı xətti" gözləmir. Yaxud virtual həyatın özündə də qorxulu elementlər var.

*– Son zamanlar televiziyalar sosial şəbəkələrin insanların həyatına çox müdaxilə etdiyini, ailələr dağıtdığını deyirlər, bu fikirləri əsaslı sayırsınızmı?*

– Bəli. Bilirsiniz, elm çox qüdrətli şeydir. Bəli, milləti ayaqda saxlayan onun ədəbiyyatı, mənəvi dünyasıdır, amma ölkələri bütün çətin vəziyyətlərdən, kataklizmlərdən elm çıxardıb, nəinki ədəbiyyat. Böyük dühalar həmişə deyib ki, elmdə açar olmalıdır, yəni müəyyən həddə qədər. Əminəm ki, Eynşteyn Yaponiyaya atom bombası atacaqlarını bilsəydi, heç onu yaratmazdı da. Sonra peşmançılığını da bildirdi.

*– Demək istəyirsiniz ki, virtual həyat yadlaşma yaradır?*

– Əlbəttə.

*– Anlayıram, məsələn, sovet dövründə evimizdə telefon olmadığından hər həftə qohumlarımızı ziyarət edirdik, yaxud əksinə, sonra telefon çəkdirdik, daha sonra mobil, indi isə skyp, daha getməyə ehtiyac yoxdur...*

– Tamamilə düzdür.

*– Bəlkə əksini düşünək, virtual həyat insanları başqalarıyla doğmalaşdırır, yeni tanışlar, dostlar tapmaq baxımından?..*

– Mənə elə gəlir ki, doğma sözü burada keçmir, nə qədər kənardan adam tapsan da o sənə doğma olmayacaq.

*– Məgər, cismani qohumluqda doğmalıq səmimimi olur? Hər gün telekanallardan ailə münaqişələri haqqında xəbərlər oxuyuruq, düzdür, sosial-iqtisadi səbəblər də var, amma virtual həyata belə maraq insanların mənəvi-ruhani doğmalığa ehtiyac duyduğunu göstərmirmi?*

– Yox, mən yalnız cismanilikdən danışmıram. Amma hər halda millətçilik yox, doğmalıq milli zəmində olsa, daha yaxşı olardı. Mənim dünyada çox dostlarım var və orada da daha çox ərkim keçir. Sabah Kanadaya zəng edib Natiq bəyə kömək istəsəm, heç bir problem olmayacaq, həll edəcəklər. Ancaq Azərbaycanda bu bir az çətindir, çünki ictimai mühit çirklidir.

*– Bəlkə sosial şəbəkələr ictimai mühitin təmizlənməsi üçün gərəklidir?*

– Əlbəttə, lazımdır və buna şübhə yoxdur. Oxucularınız düzgün anlasınlar, mən virtual həyatın bir az əleyhinəyəm. Yenə də deyirəm, problem açardadır.

*– Bəlkə fikrinizi konkretləşdirəsiniz?*

– Məsələn, Eynşteyn öz nəzəriyyəsini yaradanda açar o həddə qədər gedəydi ki, atom bombası yaranmayaydı. Virtual həyatda sənət əsəri olan Mono

Lizanı istənilən hissiyyatın tələb etdiyi vəziyyətə salırlar. Mən o mənada əleyhinəyəm ki, hər halda bu, ailə institutunun dağılmasına təsir edir.

*– Axı kimin xoşu gəlmirsə, kompüteri söndürsün, ona nə mane olur ki?..*

– Ancaq o qədər aludəçilik olur ki, söndürmür, bax açar bu mənada yoxdur.

*– Demək istəyirsiniz ki, insan öz yaratdığının əsirinə çevrilib?*

– Tamamilə doğrudur. Amma qətiyyən sosial şəbəkələrin, internetin əleyhinə deyiləm, bu, dünyanın təmizlənməsi üçün ən vacib amildir. Qloballaşmanın da tərəfdarıyam, o baxımdan ki, milli, kökə söykənən əxlaqı saxlaya bilirsənsə, qloballaşmaya normal yanaşıram. Bəziləri qloballaşmanı hegemonluq kimi qiymətləndirir, razılaşmıram. İnternet elə bir fəzadır ki, insanları yaxınlaşdırır, biri var, topla uçurdasan, sovetlərdə olduğu kimi, indi "dəmir hasar" yoxdur, internet imkan vermir.

*– Müqayisə zamanı yəhudiləri misal çəkdiniz, bu mənada bilmək istəyirəm, bu xalqın sirri nədədir ki, bu qədər elm adamı yetişdirir, maliyyə resurslarına, informasiya vasitələrinə nəzarət edirlər?..*

– Bu, genetik yaddaşla əlaqədardır. Lap körpəlikdən onların tərbiyə üsulu, o cümlədən, elmə, işə münasibətləri başqadır. Mən "Qurani-Kərim"i ən böyük mənəviyyat sistemi hesab edirəm, İslamda da "beşikdən məzara qədər oxu" deyir, amma biz buna əməl etmirik, yəhudilərsə əməl edirlər. Kanadada türk mənşəli Türksen adlı dostum var, yaşı 70-i ötər, ondan bu barədə soruşdum, yəni sənin sualını, cavab verdi ki, müsəlman dünyasının əksəriyyətində diktatura olduğundan insanlar azad düşünə bilməyib, fikrimiz üst-üstə düşdü. Mən bir səbəbi də bunda görürəm.

*– Niyə Şərqdəki diktaturaların ömrü uzun çəkdi, amma Avropa o mərhələni arxada qoya bildi?*

– Onlarda din dövlətdən və elmdən tez ayrıldı. Müşahidəmə görə Qərb insanları dinə bizdən 10 dəfə çox bağlıdırlar, bunu öz dostlarımda və həmkarlarımda görürəm. Gənclər də, yaşlılar da kilsəyə gedir, onların arasında elm adamları da var. Tanıdıqlarım içərisində bir allahsız alim görməmişəm. Yəni din insanı təmizləyən bir şeydir, söhbət xurafatdan getmir.

*– Ancaq Şərq diktatorları din vasitəsilə öz hakimiyyətlərini bəsləyib inkişaf etdirirdilər...*

– Doğrudur, səbəbini dedim, Qərbdən fərqli olaraq Şərqdə din dövlətdən ayrılmadı. Bayaqkı söhbətimizə qayıdıram, internet, sosial şəbəkələr, bunlar Şərqə demokratik ab-havanın gəlməsinə kömək edəcək.

*– Bu günlərdə DEVAM sədri İlqar İbrahimoğlu konstitusiyamızda islam dininin yazılmasının vacibliyini bildirmişdi, bunu necə qiymətləndirirsiniz?*

– Yox, mən həmin fikri müdafiə etmirəm. İlqar İbrahimoğluna böyük hörmətim var, amma Ana Yasada islam ölkəsinin yazılmasını müdafiə etmirəm. Mən Allaha çox inanam adamam, din daxili senzoru yaradaraq içini təmizləyən bir şeydir, amma onu dövlətçilik və elmlə bir yerdə qoymaq düzgün deyil.

*– Qərbdən sitatlar gətirdiniz, amma etiraf olunmalı deyilmi ki, din tarix boyu siyasətin xidmətçisi olub?*

– Düzdür, 100, 200 il tarix üçün böyük zaman deyil və Şərqdəki proseslər Qərb ölkələrində də gedib, ötən əsrin 30-cu illərinin Almaniyasını misal çəkə bilərik. Amma bu gün ayrı dövrdür.

*– Bəlkə tarixin üfüqlərinə uzaqdan baxaq, yəni elə bir mərhələ yaxınlaşır ki, din özünün qürub dövrünü yaşayır?*

– Yox, qəti elə düşünmürəm. Ateistlərə də, dindarlara da hörmət edirəm, mən ortadayam, yəni dindar deyiləm. Amma din olmasa dünya çox xaotikləşər və əxlaqsızlaşar.

*– Ancaq din vasitəsilə hərəmxanalar yarandı, hətta papa VI Aleksandr öz qızını sevgilisinə çevirdi...*

– Bilirəm ki, bunlar olub. Görün, dindən, Allahdan qorxu olmasaydı nələr olardı.

*– Bəlkə qorxu yox, sevgidən danışaq. Çünki Allahdan qorxu bəşəri də, dini də indiki vəziyyətə salmadımı?*

– Məndə Allaha sevgi var. Bu məsələdə qorxu bir az düzgün işlədilmir, əgər biz dini kitablara əməl etsəydik, dünya təmizlənərdi.

*– Sizcə, din özü qorxudan yaranmadımı, yəni insanları o dünyada cəzalandırmaq, cənnət-cəhənnəmlə şirnikləndirmək, qorxutmaq hissi baxımından, əgər belədirsə, hansı sevgidən danışa bilərik?*

– Təbii ki, dində bir az imperativlik çoxdur. Elə qanun da belə olmalıdır. Hərdən deyirik ki, qanunun yanından keçməliyik...

*– Sabiq prezident Elçibəy belə deyirdi...*

– Mən Elçibəyi çox yüksək qiymətləndirirəm. Türkiyədə Elçibəy haqqında kitab nəşr olunub, girişində mənim yazımı qoyublar. Təbii ki, hamıda bir yanlışlıq ola bilər. Qayıdaq suala, mən diktatura sözünü bir yerdə sevirəm, o da qanunun diktaturasında.

*– Əksinə, qanuna hörmət edilməli deyilmi?*

– Yox, qanunun diktaturası olmalıdır, heç kim qanunun yanından keçməməlidir.

*– O zaman, korrupsiya diktaturasının hökm sürdüyü Azərbaycan "qırmızı xətt"in astanasındadırmı?*

– Çox istəyərdim ki, əxlaqımız, mənəviyyatımız, ümumiyyətlə, dünyamız "qırmızı xətt"i adlamasın. O zaman dinimiz də, dövlətçiliyimiz də, cəmiyyətimiz də öz yerində olacaq. Ümumiyyətlə, heç kim "qırmızı xətti" keçməməlidir.

**Natiq Cavadlı**

## RAFİQ ƏLİYEV 20 NOYABR TERRORUNDAN DANIŞDI: HƏMİN QƏZA AZƏRBAYCANIN İNKİŞAF VEKTORUNU DƏYİŞDİ…

Ta qədimdən hər bir millətin bel sütunu onun seçilmişləri olub. Ona görə də bir milləti məhv etmək üçün ilk növbdə onun seçilmişlərini, dəyərlərini məhv etməyə cəhd ediblər. 20 noyabr mənim üçün çox ağır xatirə oldu. Azərbaycanın bu qədər dəyərli insanlarını bir vertolyota niyə yığıblar. Bunu hər dəfə xatırlayanda özümə yer tapa bilmirəm. Bu qəzadan sonra hesab edirəm ki, Azərbaycanın inkişaf vektoru dəyişdi. O insanlar sağ qalsaydılar, bəlkə də Azərbaycanın inkişaf vektoru başqa cür olardı. O ki, qaldı orda həlak olanlara, təbii ki, mənə ən yaxın olanı uşaqlıq dostum Məhəmməd Əsədov idi. Məhəmməd mənim bu dünyalı – o dünyalı dostum olub və çalışmışam ki, heç vaxt onu keçmiş zamanda təsəvvür etməyəm, onun yoxluğu ilə barışa bilmədiyimdən onunla heç zaman keçmiş zamanda olduğu kimi danışmamağa çalışıram. Biz Məhəmmədlə həmişə bir yerdə olmuşuq. Hətta həmin faciə yaşanan gün o qayıtmalıydı, biz onların evində şam yeməyinə oturmalıydıq. Bu günə kimi də bizim övladlarımız dostluq edir, ailələrimiz də müntəzəm əlaqə saxlayır bir-biriylə. Hətta deyərdim ki, Məhəmməd olan dövrdəkindən də bir az artıq ünsiyyət qurulub ailələrimiz arasında. Məhəmməd haqqında bu gün mənim üçün fikir bildirmək çox çətindir. Dostum olduğu üçün demirəm, onun iki fərqli xarakterik xüsusiyyəti vardı. Həm onun intellekti yüksək idi, həm də Məhəmməddə çox böyük cəsarət vardı. Yəqin onun keçdiyi həyat yollarından az-çox məlumatlısınız. Xüsusən də Qarabağ münaqişəsi onun dincliyini əlindən almışdı. Məhəmmədin yoxluğu həm millət, həm də mənim kimi dostları üçün əvəzolunmaz itkidir. O ki, qaldı Tofiq İsmayılova, o da mənim çox yaxın dostum olub. Bizim çox isti peşə dostluğumuz da olub. Çox görkəmli bir şəxsiyyət idi, çox böyük intellekti olan ziyalı idi, geniş çevrəyə malik, Azərbaycanı çox böyük diapazonda tanıtdıra bilən böyük bir alim idi. Əfsuslar ki, biz bu cür, yeri hər zaman görünən insanları itirdik.

**Moderator.az**

## İNDİ SUSMAĞIMIN SƏBƏBLƏRİNDƏN BİRİ DƏ ODUR Kİ...

Son zamanlar daha çox elmi fəaliyyət istiqamətində durmadan çalışan və mətbuatdan bir qədər kənarlaşan, Azərbaycanı dünyada tanıdan görkəmli alim, professor, əsəri Nobel mükafatına namizəd olan Azərbaycan ziyalısı Rafiq Əliyev gördüyü işlər barədə danışıb, mətbuata vaxt ayıra bilməməsinin səbəblərini açıqlayıb və ən nəhayət ölkədə ictimai-siyasi sahədə baş verənlərə münasibətini açıqlayıb.

*– Rafiq müəllim, öncəliklə bu qədər işlərinizin arasında vaxt ayırıb müsahibəyə razılaşdığınız üçün təşəkkür edirik. İlk öncə bilmək istərdik necəsiniz, səhhətiniz necədir?*

– Allahın izni ilə hələ heç bir şikayətim yoxdur. Allaha qurban olum. Nə ömür verib onu da yaşıyırıq. "Qurani-Kərim"dən iqtibas eləyərək demək istəyirəm ki, belə bir deyim var: "Xəsislikdən, tənbəllikdən, huşsuz qəlbdən (yəni çörəyi dizin üstə olmaqdan-unutmaqdan) və halsız qocalıqdan sənə tapınıram Allah". Allaha qurban olum ki, bunların dördü də hələlik məndə yoxdur. Minnətdaram.

*– Son zamanlar Rafiq müəllimi mətbuat səhifələrində çox nadir hallarda görürük. Bilirik ki, bunlar sizin çox ciddi çalışmalarınızla bağlıdır. İstərdik ki, oxucularımız da bilsin, Rafiq müəllimin elmi işləri nə yerdədir və indi hansı istiqamətlərdə çalışırsınız?*

– Sizə bir şeyi deyim. Bəzən məni mətbuat da, dostlar da günahlandırırlar ki, Rafiq Əliyev niyə susur?! Amma demək istəyirəm ki, heç kimə son vaxtlar müsahibə vermirəm. Bu mənim ikinci müsahibəmdir, istəyirəm biləsiniz. İndi susmağımın səbəblərindən biri də odur ki, əlimdə 4 dənə kitabım eyni zamanda çap olunur. Biri Moskvada "Nedra" nəşriyyatında çap olunur. O Sibir alimləri ilə bir yerdə işimizdir. Niyə onlarla mən kitab yazdım? Bilirsiniz, mən çoxdandır rus dilində kitab yazmıram. Kitabları əksər vaxt ingilis dilində yazıram. Amma bu alimlər Sibirdə neft-qaz sahələrində mənim işlərimi, Zadənin işlərini tətbiq ediblər və yaxşı nəticələr alıblar. Ona görə də razılıq verdim və bir kitab yazdıq. İndi bu günlərdə təxminən bir həftə bundan qabaq onu nəşriyyata göndərdik. Yəgin, aprel-may aylarında çap olunar.

Eyni zamanda Amerikada Dünya Elmi Nəşriyyatında (World Scientific Publishing) bizim yeni nəzəriyyəyə həsr olunmuş 450 səhifəlik kitabımız çıxır. Mən sizin saytınıza çox minnətdaram ki, dünən o kitaba Lütfi Zadənin yazdığı ön sözünü saytda verib.

Bundan başqa Daşkənddən olan həmkarım akademik Yusifbekovla bir dərslik yazmışam. O, Sovetlər Birliyində, eyni zamanda Qərbdə çox məşhur tanınan alimlərdəndir. Hal-hazırda da mənim qonağımdır. Onunla birlikdə 600 səhifəlik bir dərslik yazmışıq. Həm rus dilində, həm də özbək dilində nəşr

olunacaq. İndi onu aparmağa gəlib. O dərsliyin üstündə işləyirik. Bir də ki, təxminən 2 ay bundan qabaq sizin də saytınızda getmişdi ki, Amerikadan mənə bir sahədə ikinci tip qeyri-müəyyənlik ilə bağlı kitab yazmaq təklif olunmuşdu. İkinci dərəcəli qeyri-müəyyənlik, yəni qeyri-müəyyənliyin özünün qeyri -müəyyənliyi barədə bir kitab sifariş vermişdilər. Qabaqcadan mən vaxtımın az olmağına görə imtina eləmişdim. Ancaq sonra bir daha israr elədilər və mən razılaşmalı oldum. İndi vaxtım aprelin 1-də qurtarır və kitabı həmin vaxtda göndərməliyəm. Bax, təxminən hal-hazırda bu işlərlə məşğulam.

– Söhbətimiz əsnasında Azərbaycanın görkəmli alimi, dünya şöhrətli Lütfi Zadədən danışdınız. Zadə ilə əlaqələriniz nə yerdədir? Onun hansı istiqamətlərdə çalışdığı barədə məlumatlısınızmı?

– Əlbəttə. Əvvəla, mən onu deyim ki, təxminən hər gün, uzaqbaşı arada bir gün olmasa da hər həftə bizim birbaşa əlaqəmiz var. Yəni, internet vasitəsilə əlaqə yaradırıq. İldə də bir neçə dəfə görüşümüz olur. Bu yaxınlarda biz dekabr ayında Amerikanın San-Antonio şəhərində bir neçə gün bir yerdə olduq. Yəni, biz son 10 ildə bir yerdə birgə iş aparırıq.

Bilirsiniz Lütfi Zadə necə alimdir?! Alimlər, dünya alimləri, əsl alimlər, ümumiyyətlə, iki kateqoriyaya bölünür. Diplom almış və ya akademik rütbəsi almışları demirəm. Əsl alimlər 2 kateqoriyaya bölünür: romantik və fundamentin üstündə bina qura bilən realist alimlər. Məsələn, Nyuton, Enşteyn, Zadə kimi alimlər romantik alimlərdir. Zadə heç olmasa bu günə kimi 10 yeni konsepsiyanın, 10 yeni nəzəriyyənin müəllifidir. Yəni o, bir dənə məqalə yazar, onun ətrafında dünya 10 il işləməyə başlayar. İkinci kateqoriya alimlər, o fundamentin üstündə bina quran alimlər, həmin o ideyaların üstündə geniş inkişaf eləməyə başlayarlar. İkisi də yaxşıdır, ikisi də gözəldir. Amma, romatik alimlər dünya elm tarixində daha çox qalırlar.

Zadənin son işi, əsas son ideyası "elə elm sahəsi yaratmaq lazımdır ki, elə hesab (hesab, yəni arifmetika nəzərdə tuturam) yaratmaq lazımdır ki, bu adi ədədlər ilə işləməsin. Sözlər ilə işləsin, təbii dildə olan informasiya ilə işləsin". Onun yeni "Z-ədədlər" nəzəriyyəsi var. "Z-ədədlər" nəzəriyyəsi ilə bağlı bir məqalə yazdı və onu çox mötəbər sayılan "İnformasıya Elmləri" jurnalı çap elədi. Təvazökarlıqdan qırağa çıxmaq olsa da, məqaləni çap eləyəndə məqalənin başında yazdı ki, bu məqalə professor Rafiq Əliyevə həsr olunur. Yəni, bu bizim birgə ideyamız idi. Axırıncı nəzəriyyəsi budur və bu barədə də "bu cür ədədlərin hesabı ikini ikiyə vurmaq, onu beşə bölmək, iyirmini otuza vurmaq", yəni bunu hesabda bilirik. Amma bu biri ədədlərdə qeyri-müəyyənlik var, dürüstlüyü nəzərə almaq var. Onların hesabı yoxdur. Maraqlıdır ki, bu axırıncı kitabımı mən göndərəndə həmin nəşriyyat, hansı ki, mənim məqalələrimi görüblər, xahiş etdilər ki, bu cür ədədlərin yeni hesabı haqqında bir kitab nəşr edim. Mən də razılıq verdim. Düzdür, vaxtı bu ilin dekabrına çəkdim. Yəni o təmiz yeni bir hesabdır. Zadənin ideyası üstündə yaradılmış bir hesabdır. Mən də Zadədən xahiş etdim ki, birinci fəsli O yazsın, qalan fəsilləri özüm yazaram. Təxminən Zadənin son nəzəriyyəsi budur.

*– Rafiq Əliyev bir Azərbaycan ziyalısı kimi ölkənin ictimai-siyasi durumunu necə dəyərləndirir?*

– Hələ yadımdadır təxminən 2 il yarım bundan qabaq Ziyalılar Forumunun birinci iclası keçirilirdi. İclası mən aparırdım. İclasın da məğzi "Milli barış – Milli birlik" mövzusu idi. Bu gün Azərbaycan cəmiyyətində əlahiddə yenə çatışmayan həmin problemdir. "Milli barış – Milli birlik". Bilirsiniz, Azərbaycana özünüz də görürsünüz sağdan da, soldan da, yuxarıdan da aşağıdan da çox böyük basqılar var. Bu basqılara qarşı ancaq Milli birlik dura bilər. Və mən istəyərdim ki, bizim cəmiyyətimiz bunu anlasın. Bunu anlamadıqca çox böyük kataklizmlər yaşayacayıq. Mən belə düşünürəm.

*– Ölkədə bütün yaşananları nəzərə alaraq bir Azərbaycan ziyalısı kimi xalqa, xüsusilə, gənclərə tövsiyəniz nədən ibarət olardı?*

– Gənclərə demək istəyirəm ki, dünya biz istəsək də, istəməsək də dəyişir. Dünya nə Rafiq Əliyevin, nə də ki, Kazım bəyin istəyindən asılı olmayaraq dəyişir. Allah mənim dostum, bizim görkəmli mütəfəkkirimiz Bəxtiyar Vahabzadəyə rəhmət eləsin. Onun belə bir şeiri var "Axı dünya fırlanır". Dünya dəyişir, gənclər bunu anlamalıdır. Gənclərə tövsiyə deməzdim, ən böyük fikrim odur ki, gənclər bu dünyanın dəyişməsini anlasınlar və addımları o dünyanın dəyişməsinə uyğun atsınlar. Təhsilində, dünyagörüşündə, əməllərində uyğun gəlsinlər.

Ən əsası isə vətən sevgisi, ailə sevgisi. Ailə sevgisini elə-belə demədim. Mən üç namus tanıyıram. Ailə namusu, peşə namusu, bir də Vətən-torpaq namusu. Mən gənclərimizə bu cür namuslu olmağı arzu edirəm.

*– Müsahibəyə görə təşəkkür edirik.*

– Siz sağ olun!

**Kazım Əlibəyli**
11.03.2014

## ЕСЛИ ПРОФЕССОР БЕРЕТ ВЗЯТКУ У СТУДЕНТА, МОЖЕТ ЛИ БЫТЬ БОЛЬШИЙ ПОЗОР?

***Рафик Алиев: "Зачем кричать во все горло, если к твоему мнению не прислушиваются…"***

Порой не веришь в существование таких людей. Он интеллектуален, прост и невероятно интересен для широкой аудитории. За все мероприятие, он ни разу не улыбнулся, ведь речь шла о проблемах азербайджанской интеллигенции.

Профессор, член-корреспондент НАНА, выдающийся азербайджанский ученый Рафик Алиев – один из редких в стране интеллектуалов. С ним я встретился во время очередного форума азербайджанской интеллигенции и попросил ответить на мои вопросы. Он вежливо попросил меня досидеть до конца мероприятия, так как на мои вопросы он уже и намеревался ответить на форуме…

**О несломленных…**

"Любое общество нуждается в интеллектуалах. Но, азербайджанские интеллектуалы порой беспокоятся, так как некоторые слои населения не прислушиваются к их словам. Впору бить во все колокола, если в обществе не прислушиваются к словам интеллектуалов. Да, я могу целыми днями напролет давать интервью и во весь голос кричать о том, что, к примеру, почему искусственно завышена цена на мясо. Но какой смысл? Зачем кричать во все горло, если к твоему мнению не прислушиваются?

Сегодня интеллектуальная прослойка в Азербайджане исхудилась, можно сказать, сошла на нет. Можно сказать, что несломленных, непоколебимых, не гонящихся за медалями интеллектуалов в Азербайджане, можно пересчитать по пальцам обеих рук. Поэтому, меня очень беспокоит то, что многие интеллектуалы в Азербайджане сломлены. Осталось очень мало несломленных, и их голоса не слышны", – подчеркнул он.

**О случае в БГУ…**

"Меня однажды пригласили на встречу со студентами факультета журналистики Бакинского Государственного Университета. Кстати, это, пожалуй, единственный факультет в стране, где не берут взятки со студентов. Так вот на этой встрече, одна студентка задала мне такой вопрос: «Вам не кажется, что азербайджанские женшины, которые занимаются проституцией в Дубае, лучше, чем профессор, который берет взятки со студентов. Ведь это женщина сама выбирает этот путь, и она вправе решать если ее внутренный цензор позволяет, как распоряжаться со своим телом, это ее

личное дело и выбор. Но профессор если ее внутренный цензор позволяет берущий взятки тем самым убивает подрастающее поколение, которое стремится к усовершенствованию", – рассказал Рафик Алиев.

"Выходит, что студентка была права", – добавил он.

"Настала пора создания института интеллигенции. Интеллигенция – серьезная сила. Например, как можно самого себя называть ученым? Думаю, что сегодня сильно ослабели связи между верхней и нижней прослойками общества, которым в советское время уделялось большое внимание. Неслучайно же были созданы творческие союзы. Те представители интеллигенции, которые откликнулись на нашу инициативу, никого не боятся, и в то же время не стоят в оппозиции к правительству. Я лично не состою ни в какой партии и не имею политических намерений, но я против коррозии в обществе. В свое время, будучи членом КПСС, я тоже открыто выражал свою позицию. Сейчас очень тяжелое положение в образовании и науке. Если профессор берет взятку у студента, может ли быть больший позор?", – отметил он. Как говорится, комментарии излишни.

"Я считаю Wikileaks – открытием нашего времени…"

"Многим не нравятся публикации Wikileaks, а я считаю, что это самое значительное событие XXI века. Знаете, это как некая странность. Словно Всевышний терпел и вдруг решил заговорить. А если прислушаться к Wikileaks, можно и исправить недостатки", – заключил профессор.

**Вугар Гасанов**

## SƏRBƏST KÜRSÜ – 70 İLDƏ ƏN YADDA QALAN TƏDBİR

SƏRBƏST KÜRSÜ canlı forumunun qonağı tanınmış professor Rafiq Əliyevdir.

Xatırladaq ki, fevral ayının 10-u Rafiq Əliyevin 70 yaşı tamam olub. İnformatika və idarəetmə nəzəriyyəsi sahəsində nüfuzlu elmi məktəbin yaradıcısı olan Rafiq Əliyev dünyanın bir çox məşhur universitetinin (Corciya Dövlət Universiteti – ABŞ, Təbriz Universiteti – İran, Zigen Universiteti – Almaniya, Yaxın Doğu Universiteti – Şimali Kipr və s.) professorudur. O, 70-ə yaxın kitabın müəllifidir.

Salam hörmətli oxucular, bugünkü forumun moderatoru mən Emil Quliyevəm. Qonağımız, 70 yaşını qeyd edən professor Rafiq Əliyevdir.

*Emil Quliyev:* Axşamınız xeyir, Rafiq müəllim! Sizin Sərbəst Kürsü canlı forumunda salamlayır və Sizi sabahki, 70 illik yubileyiniz münasibəti ilə redaksiyamız adından təbrik edirik!

*Rafiq Əliyev:* Sizə təşəkkür edirəm. Sizə uzun ömür arzulayıram. Diqqətiniz və zəhmətiniz qarşısında sizə böyük sayğılarımı bildirirəm.

*Emil Quliyev:* Çox sağ olun.

İlk təbrik "Cənublu" adlı istifadəçidən daxil olub.

70 yaslı ustadımızı təbrik edirəm. Sizə uzun ömur arzulayıram. İsıqlı ziyalılar xalqımıza çox lazımdir.

*Cavab:* Bir millət kimi Azərbaycanın həm güneyi, həm quzeyi var. Çox şey tarixi şansdan asılıdır. Sizə dərin təşəkkür edirəm.

*Sual : (Carnegie Turkiyə):* 1. Rafiq müəllim, mən bu gün dünyanı belə xarakterizə edərdim: bir tərəfdə "demokratiya" naminə dünyanı işğal etməyi hədəfləyən imperialist qərb, digər tərəfdə despotizm, avtoritarizm, ayrıseçkilik, qanunsuzluq, kobud insan haqları pozuntuları müşayiəti ilə hakimiyyəti zəbt etmiş diktatorlar. Azərbaycan vətəndaşları, gəncləri bu dilemmada vətənimiz Azərbaycanın maraqlarına xələl gətirmədən öz mövqeyini optimal necə müəyyənləşdirməlidir?

2. Elmin sirlərini sizdən birbaşa öyrənmək imkanı olmayan, fəqət sizin xəzinənizdən "yararlanmaq" istəyən gənclər üçün nə məsləhət görürsünüz?

3. Böyüklüyünüz (həm elm, həm mərifət, həm müasirlik baxımından) qarşısında baş əyirəm və Sizinlə fəxr edən minlərlə Azərbaycan gənci adından deyirəm: AD GÜNÜNÜZ MÜBARƏK! VAR OLUN!

*İmza: Vətən*

*Cavab:* Şəxsən sizə və məni təbrik edən minlərlə Azərbaycan gənclərinə dərin təşəkkürümü bildirirəm.

*Birinci suala cavab:* Bu gün dünya ədalətə hamilədir. Özü də yarımçıq doğulacaq ədalətə yox, bütöv ədalətə hamilədir. Mənim düşündüyümə görə, bu

yöndə dünyada gedən proseslər maddiyyət üçün deyil, mənəviyyat, ədalət, azadlıq üçündür. Biz əvvəllərdə də demişik, indi də deyirik ki, Azərbaycan da dəyişən dünyaya adekvat olaraq dəyişməlidir. Bunun üçün bütün sahələrdə Azərbaycanda islahatlar getməlidir. Bu islahatlar ilk növbədə ölkəmizin bütövlüyünü, ərazi bütövlüyünü təmin etmək istiqamətində demokratikləşmə, millətin hər bir fərdinin azad olması istiqamətində getməlidir. (Hər bir xalqın azad olması üçün onun hər bir fərdi azad olmalıdır) İkinci suala cavab: Şükürlər olsun ki, bu gün ümumi informasiya fəzası var, internet var, üzbəüz (face to face) görüşməyə elə də böyük ehtiyac yoxdu. Mən kitablarımın bəzilərini internetdə yerləşdirmişəm. Elmi müzakirələr aparmaq üçün mənim Facebook səhifəmə üzv olsanız burda elmi müzakirələr təşkil edə, forumlar keçirə bilərik.

*Sual:* (Azər): Doğrudanmı əsl ziyalı olmaq üçün Qarabağ haqqında məqalə yazmaq lazımdır? Və ya əsl ziyalı kimdir?

*Cavab:* Ziyalılıq çox atributlu bir anlayışdır. Ziyalı ilk növbədə milli mənafe, xalq mənafeyini şəxsi və korporativ maraqdan üstün tutmalı, muzdlu ideoloji öhdəlikdən azad olmalı, həmişə həqiqətin yanında olmalı, ictimai fikrə təsir etmə bacarığına sahib olmalı, Mövlanə təbiri ilə desək, qızardılmış ətdə gözü olmamalı (nəfsinin qulu olmamalı), kreativlik, zəmanəsini qabaqlamaq bacarığına və başqa meyarlara cavab verə bilməlidir.

*Sual:* (Fikrət Məmmədov): Axsamınız xeyirli olsun Rafiq muəllim. Sizi kecmis tələbəniz olaraq butun tələbə yoldaslarımın adından ad gününüz münasibəti ilə təbrik edirəm. Sizə sualım budur ki, ümumiyyətlə, bizim indiki gənclərin elm dalınca yox, sadəcə dolanısıq və karyera ücün işləmək istəyinə necə baxırsınız? Bu normal haldırmı, yoxsa bunun mənfi cəhətləri çox pis olacaqmı? Xahiş edirəm bu haqda öz fikirlərinizi deyərdiniz.

*Cavab:* Hörmətli Fikrət bəy, sizə və bütün tələbə dostlarınıza minnətdarlığımı bildirirəm. Əfsuslar olsun ki, son 20 ildə Azərbaycanda elmə sosial sifariş olmadığı üçün bu sahədə böyük reqres yarandı. Bu gün və dünən də bizim ölkəmiz xammal (neft və qaz) yönümlü iqtisadi modellə işlədiyi üçün elmə ehtiyac yoxdur. Lakin, post-neft dövrü üçün ölkənin hansı iqtisadi modellə işləməsini müyyənləşdirmək üçün və belə modeli həyata keçirmək üçün güclü elmə ehtiyac olacaqdır. Post-neft dövrü o qədər də uzaqda deyil. Əfsuslar olsun ki, elmi potensialımız o dövr üçün hazır deyil. Məsələnin başqa bir tərəfi odur ki, elmsiz təhsil yoxdur. Elmli təhsil kadrlarımızın qıtlığı elə indidən özünü göstərir.

*Sual:* (Zamik İslamov, Azərbaycan Dovlət Neft Akademiyasının MBA proqramı uzrə məzunu): Axsamınız xeyir olsun. İlk öncə, Radionuza dunyaca tanınmıs və Azərbaycan üçün çox dəyərli olan bir ziyalımızı, professor Rafiq Əliyevi canlı verilişə dəvət etdiyinizə görə təşəkkür edirəm. Mən hörmətli professorumuzu 70 yasının tamam olması münasibəti ilə təbrik edir və ona birinci növbədə cansağlığı arzu edirəm. Rafiq müəllimin qalan ömrünü arzularının həyata keçməsini, sevinci ilə yaşamasını arzu edirəm. Bilirik ki, ziyalımızın Azərbay-

can üçün də böyük arzuları vardır. Ziyalımızdan soruşmaq istərdim ki, "İnşaallah, 75 yaşınızı qeyd edərkən Azərbaycanı, Azərbaycan gəncliyini necə görmək istərdiniz ?"

Çox sağ olun!

*Cavab:* Hörmətli Zamiq bəy, xoş sözləriniz üçün sizə təşəkkür edirəm. MBA məzunu olmağınız münasibətilə sizi təbrik edirəm. Ömür vəfa etsə, böyük əminliyim var ki, beş ildən sonra Azərbaycanı demokratik, cəmiyyətini işıqlı, hər bir fərdini azad görəcəyik. Bu hədəfə çatmaq yolunda siz gənclərin böyük zəhməti olacaq. Bizlər məsuliyyəti siz gənclərin çiyninə qoymaq fikrindən uzağıq. İnşallah, bu hədəfə bir yerdə çatacağıq.

*Emil Quliyev (moderator):* Növbəti sual, daha doğrusu suallar Elməddin adlı istifadəçidən daxil olub. İstifadəçinin sizə 4 sualı var:

Salam Rafiq müəllim,

Sizi Belçikadan, Liege Universitetindən salamlayıram, Sizə Allahdan uzun ömür və möhkəm cansağlığı arzulayaram. Alimlər bizim cəmiyyətimizin görən gözüdür və qaranlıq zülmətləri isıqlandıran ziyadir. Bu mənada, siz sözün əsl mənasında öz öhdənizə düsən məsuliyyətli vəzifəni şərəflə davam edirsiniz. Biz sizinlə fəxr edirik və sizləri özümüzə nümunə götürürük. Daim burda professorlar və tələbələr ilə danısanda fəxrlə Lütfi Zadənin və Rafiq Əliyevin həmyerlisi olduğunu bildirirəm.

*Sual 1:* Deyirlər, "fuzzy logic"-in yaradıcısı Lütfi Zadədir və ondan sonra bu işdə ən böyük uğuru qazanan sizsiniz. Əcaba, ardıcıllıq davam edirmi? Yəni yenə də yetişən azərbaycanlı varmı bu məsələdə?

*Sual 2:* Mənəviyyatı, milli təəssübkesliyi olmayan "alimlər", "qeyri-səlis məntiqlə" 0-1 şkalasının harasında mövqe tutur?

*Sual 3:* Məni çoxdandır bir sual düşündürür: deyirlər, hər xalq layiq oldugu kimi yönəldilir!!! Biz belə yönəltməyə layiqiqmi?

*Sual 4:* Əgər sizə Azərbaycanı hal-hazırda xilas edəcək və inkişafa aparan optimal bir düstur yazın desələr bu qısaca necə olardı? Öncədən təşəkkür və minnətdarlığımı bildirirəm!!!

*Cavab:* Hörmətli Elməddin bəy, xoş sözləriniz və təbrikləriniz üçün sizə minnətdarlığımı bildirirəm. Mənə çox xoş oldu ki, siz "Fuzzy Logic" təfəkkürünə sahibsiz.

1. Əfsuslar olsun ki, bu gün Azərbaycanda bu ənənə davam etdirilmədi. Az da olsa ABŞ-da, Kiprdə və bəzi başqa ölkələrdə bu sahədə çalışan yaxşı azərbaycanlı alimlər var.

2. Siz dediyiniz "alimlər" 0-1 şkalasında sıfıra söykəniblər.

3. Azərbaycan xalqı dəyərli xalqdır. Xüsusən, onun böyük fərdləri, böyük şəxsiyyətləri olub, var və olacaqdır. Bu xalq daha yüksək səviyyəli yönətilməyə layiqdir.

4. Belə bir düstur təbii dildə olmalıdır, çünki qeyri səlis-məntiq əsasən sözlərlə, cümlələrlə, persepsiya informasiyası ilə işləyir. Bu düstur belə olmalıdır: "Demokratiya x Demokratiya + Texnoloji İqtisadiyyat + Azadlıq x Azadlıq". Bu

düsturda vurma və toplama qeyri-səlisdir. Düsturun realizə olunması "Computing with words" vasitəsilə həyata keçirilməlidir.

*Emil Quliyev (moderator):* Rafiq müəllim, forumun sonuna təxminən yarım saat vaxtımız qalır.

Növbəti sual Azər Sanxay adlı oxucudan daxil olub:

Salam Rafiq bəy, sizə sualım: indiki gəncliyi necə görürsünüz? Sizin dövrünüzdə daha çox ziyalı yetişdirmək olardı, yoxsa indiki vaxtdamı? Hal-hazırda özünüzün varisi kimi hansı ziyalı gənci görürsünüz?

*Cavab:* Hörmətli Azər bəy, sizi salamlayıram. Azərbaycanda (həm Azərbaycan müstəvisində, həm də onun xaricində) ləyaqətli Azərbaycan gəncliyi var. Arzum budur ki, bu gənclər daha çox kreativ olsunlar, içərilərində olan qorxu hissini daha çox dəf etsinlər, ümidsizlikdən azad olsunlar. Düşünrəm ki, bizim dövrümüzdə ziyalılar daha çox idi, daha əzəmətli idi (baxmayaraq ki, sovet dövründə çox yasaqlar var idi) məsələn, Xudu Məmmədov, Bəxtiyar Vahabzadə, İsmayıl Şıxlı, Ziya Bünyadov, Famil Mehdi və başqaları. Varisimiz kimi Azərbaycan və onun xaricində olan bütün vətənpərvər, qorxmaz, yüksək intellektli gəncləri görürəm.

*Sual:* (Pərvanə Bayramova): İndiki gənclərdə daha çox nəyi görmək istərdiniz? Təşəkkürlər.

*Cavab:* Pərvanə xanımı salamlayıram. İndiki gənclərdə daha çox görmək istədiklərim bunlardır: Allah və vətən sevgisi, yüksək intellekt, azad fikir, bir də cəsarət. Unutmayaq ki,

*Bayrakları bayrak yapan üstündeki kandır,*
*Toprak, eger uğrunda ölen varsa, Vatandır.*

*Emil Quliyev (moderator):* Vaxtımızın bitməsinə az qaldığından Facebook və email vasitəsilə daxil olan təbrikləri və qısa sualları ümumiləşdirib sizə təqdim edirik:

*Fərid Haqverdiyev:* Ad gününüz mübarək

*Aynur Atabəyli:* Səmimi qəlbdən təbrik edirik!

*Ceydam Sarikaya:* Təbriklər.

*Zahid Quliyev (Almaniyadan):* Hörmətli ziyalı, dünya şöhrətli alim, Qarabağsız Qarabağlı Rafiq Əliyevi təbrik edirəm. Özümə söz vermişəm İsa bulağında Rafiq bəy üçün Qarabağ şikəstəsi oxuyacam. Rafiq bəyin 80 yaşında da bu arzuma yetsəm yenə sərf eləyir. Allah hamını arzusuna yetirsin. Rafiq bəyə sualımı belə verərdim: Onun ehtimallarına görə Qarabağı necə ildən sonra azad edə bilərik və yaxud azad etmək şansımız varmı? Təşəkkür edirəm.

*Bakılı:* Ad gününüzü təbrik edirəm.

*Seymur:* Salam Rafiq müəllim, sizi təbrik edirəm! Sizə uzun ömür, elmi işlərinizdə uğurlar arzulayıram.

*Ceyhun:* Bizim ADNA-nın fəxri Rafiq müəllim, Sizi adgünü münasibəti ilə təbrik edirəm. Allah sizə uzun ömür versin və sizi biz gənclərin başından əskik etməsin.

*Yaşar Məmmədov:* Təbrik edirəm.

*Rafiq Əliyev:* Xoş sözlərinizə və təbriklərinizə görə təşəkkür edirəm. Sualınız çox ağır və çətin sualdır. Qarabağı azad etmək şansı təbii ki, var. Burda zəka və qılıncın birliyi lazımdır. O ki qaldı nə vaxt, burda çətinlik çəkirəm.

*Emil Quliyev (moderator):* Rafiq müəllim, təxminən 1 saatdan sonra 70-ci doğum gününüzə qədəm qoyacaqsınız. Bu münasibətlə, bir daha Sizi Amerikanın səsinin əməkdaşları, oxucuları və şəxsim adından təbrik edirəm. Dəyərli vaxtınızı ayırıb, oxucularımızın sualların cavablandırdığınız və təbrikləri qəbul etdiyiniz üçün təşəkkür edirik.

*Rafiq Əliyev:* Hörmətli Emil bəy, sizin bu tədbiriniz 70 ildə ən yadımda qalan və qiymət verdiyim bir tədbirdir. Təbrikləriniz üçün şəxsən Sizə, redaksiyanıza və bütün iştirakçılara dərin minnətdarlığımı bildirirəm. Tanrı sizi qorusun.

*Emil Quliyev (moderator):* Mən də iştirakçılarımıza Sərbəst Kürsü forumuna göstərdikləri yüksək marağa görə minnətdarlığımı bildirir və vaxt məhdudiyyəti səbəbi ilə sualları cavabsız qalan oxucularımızdan üzr istəyirəm.

Sərbəst Kürsünün növbəti canlı forumunda görüşənədək…

# ƏN BÖYÜK İSTƏYİM, ARZUM HƏR QARIŞI MƏNİM ÜÇÜN MÜQƏDDƏS VƏ ƏZİZ OLAN QARABAĞIMI AZAD, ÖLKƏMİ BÜTÖV GÖRMƏKDİR

Rafiq Əliyevlə söhbətin ilk sualı son illər professor Lütfi Zadə və Corciya Dövlət Universitetinin alimləri ilə birlikdə məşğul olduğu qeyri-səlis iqtisadi nəzəriyyənin yaradılması barədə oldu.

– XIX əsrdən bəri iqtisad elminin inkişafını izləyəndə görürük ki, onun əsasında dəqiq və riyazi əsaslandırılmış aksiomatik nəzəriyyə durmasına baxmayaraq, iqtisadi reallıqlarla iqtisadi nəzəriyyə əsasında verilmiş hesablamaların, proqnozların arasında bir uçurum var. Bunun əsas səbəbi iqtisadi reallıqların modelləşdirilməsinin (hər bir nəzəriyyə reallığın modelini özündə təcəssüm etdirir) klassik dəqiq riyaziyyata əsaslanmasıdır. Biz, müasir görkəmli iqtisadçı alimlərə, Nobel mükafatı laureatları G. Akerlof, D. Kahnenman və başqalarına istinadən göstərmişik ki, klassik və neoklassik iqtisadi nəzəriyyələrin əsasında duran standart elmi fərziyyələr – bütün insanlar rasionaldırlar və ancaq öz məqsədlərini güdəndirlər – qənaətbəxş deyildir. Real həyata yaxın olan, yuxarıda göstərilən uçurumu aradan qaldıra bilən yeni iqtisadi nəzəriyyə, mərkəzində insan duran sistem kimi baxılmalı olan iqtisadiyyatda iştirak edən agentlərin (institutların, təşkilatların, qərar qəbul edən insanların) motivasiyalarını, intuisiyalarını, sosial normalarını, emosiyalarını, başqa sözlə, davranış normalarını nəzərə almalıdır. İqtisadi və sosial-iqtisadi aləm elə mürəkkəbdir ki, onu klassik riyaziyyatın və bivalent Aristotel məntiqinin dilində təsvir etmək mümkün deyil. İqtisadi reallıqları düzgün, adekvat nəzərə ala bilməyimiz üçün bizim daha səmərəli modelləşmə dilinə ehtiyacımız var. Biz belə qənaətə gəlirik ki, iqtisadi, sosial və siyasi sistemlərin modelləşdirilməsi dili qeyri-səlis məntiqə əsaslanan dil olmalıdır (bu dil təbii dilə çox yaxındır). Yuxarıda qeyd etdiyimiz kimi, iqtisadi sistem insan yönümlü (human centric) və informasiyanın mövcudluğu baxımından yüksək qeyri-müəyyənliklə səciyyələnən realistik çox-agentli sistem kimi baxılır və iqtisadi agentlərin davranışının modelləşdirilməsi qeyri-səlis məntiqi dilə əsaslanır. Bizim tədqiqatlarımızda əsas vurğu iqtisadi sistemlərdə qərar qəbul edənlərin yeni faydalılıq funksiyasının qurulma prinsiplərinə qoyulur. Faydalılıq funksiyası bu tədqiqatlarda klassik yanaşmadan fərqli olaraq, tək istehsalçının gəlirinin artırılması və ya istehlakçının verilmiş büdcə daxilində şəxsi faydalılığının maksimallaşdırılmasını nəzərdə tutmur. Təklif olunan yeni faydalılıq funksiyası qərar qəbul edənin faydalılıq funksiyasında eyni zamanda başqasının mənafeyini, iqtisadi agentlərin dürüstlük (vicdanlılıq), mədəniyyət, emosiya və başqa davranış faktorlarını nəzərə almağa imkan verir. Təklif olunmuş nəzəri müddəalar qeyri-səlis riyazi yanaşma, daha doğrusu, L.Zadə, R.Əliyev (ALİ-1, ALİ-2) və Mamdani məntiqlərinin köməyi ilə real praktiki məsələlərə tətbiq olunub.

*– Almaniya qəzetləri ötən ilin dekabr ayında Sizin müsahibənizi çap etmişdi. Bu müsahibədə hansı məsələlərə toxunulmuşdu?*

– Almaniyanın Zigen Universitetinin rəhbərliyinin və professorlarının xahişi ilə mən bu Universitetin seminarlarında «Qeyri-səlis iqtisadiyyata giriş» mövzusunda məruzə ilə çıxış etdim. Hələ seminardan bir ay öncə universitetlərdə və eyni zamanda İnternetdə bu barədə elan verilmişdi. Seminarda professorlar, müəllimlər, məmurlar, tədqiqatçılar və tələbələr iştirak edirdi. Seminardan sonra jurnalistlər müsahibə verməyimi xahiş etdilər və bir gün sonra bu müsahibə çap olundu. Əsas suallar qeyri-səlis iqtisadiyyatın lazımlığı, əsas prinsipləri, fərqli cəhətləri barədə idi. Verilən sualların bir hissəsi isə ümumdünya maliyyə böhranı ilə əlaqədar idi.

*– Yeri gəlmişkən, ümumdünya böhranı haqqında fikirləriniz bizim oxucular üçün də maraqlı olardı.*

– Ötən ilin ortalarından başlayaraq, dünya alimləri və praktikləri İnternetdə Berkeley Universitetinin təşəbbüsü ilə müzakirələr keçirir. Biz bu böhranı siyasi və iqtisadi böhran kimi səciyyələndiririk. O müzakirələrdə təmsil olunan fikirlərdən biri kimi mənim fikrimi və təkliflərimi və eyni zamanda onlara olan cavabları təkrar etmək istərdim. Mən yazmışdım ki, üzləşdiyimiz böhranın əsas səbəbi dünya iqtisadiyyatında olan iqtisadi, maliyyə agentlərinin qarşılıqlı əlaqəsinin yüksəldiyi bir şəraitdə onlar arasında koordinasiyanın zəif səviyyədə olmasıdır. Onu da qeyd etmişdim ki, bu böhranın əsas səbəbi olan bu dediklərim bəzi siyasi motivlərlə müşayiət olunur. İkinci dominant səbəb, mənim fikrimcə, mövcud iqtisadi nəzəriyyənin qeyri-müəyyən, çox əlaqəli və mürəkkəb iqtisadi dünyamıza adekvat olmamasıdır. Düşünürəm ki, aşağıdakı ideyalar üzləşdiyimiz böhranla mübarizə aparmağımız üçün faydalı ola bilər. Əvvəla, üzləşdiyimiz böhranın inkişafına uyğun müxtəlif dərəcəli koordinasiyası (demokratiyası) olan ssenarilər qurulmalı, bu ssenarilər eqoistik yox, altruistik iqtisadi yanaşmalara əsaslanmalıdır və bu ssenarilərdə tək ABŞ, Avropa yox, Çin, Hindistan, Rusiya, Meksika, İran və başqa ölkələr iqtisadi agentlər kimi nəzərdə tutulmalıdır. İkincisi, dünyanın seçilmiş alimlərinin, iqtisadiyyat və maliyyə mərkəzlərinin iştirakı ilə dünya maliyyə institutlarının koordinasiyası üçün multi-agentli iqtisadi model qurulmalıdır. Bu model üzləşdiyimiz qeyri-səlis, qeyri-müəyyən və xaotik iqtisadi situasiyaya adekvat olmalıdır. Nəhayət, böhranın dayandırılması üçün maliyyə institutlarının davranışını, özü də dinamik, xaotik və qeyri-müəyyən davranışının dayanıqlıq problemini həll etmək lazımdır. Bu məsələdə professor L.Zadə (ABŞ), professor W. Pedrycz (Kanada) və bizim tərəfimizdən təklif olunmuş «Mürəkkəb qeyri-müəyyən dinamik sistemlərin ümumiləşmiş dayanıqlıq nəzəriyyəsi» istifadə oluna bilər.

Bir çox alimlər bu təkliflərə öz fikirlərini bildirmişdilər. Maraqlı olar, birini sitat gətirim: Amerikalı alim A.Silverman yazır:

"Rafiq, Mən razıyam. Siz siyasətdən yaxa qurtara bilməzsiniz. Mən həmçinin onunla da razıyam ki, Siz deyirsiniz: Mən düşünürəm ki, bizim rast gəldiyimiz böhranın aradan qaldırılması planında bəzi irəli sürülmüş ideyalar səmərəli ola bilər, yəni, müxtəlif dərəcəli demokratiyada (koordinasiyada) bu böhranın inkişafının müxtəlif ssenarisinə baxmaq, buraya altruistik iqtisadi yanaşmanın (eqoizm hissi olmayan yanaşma) və həmçinin nəinki ABŞ və Avropanı, həm də Çin, Hindistan, Rusiya, Meksika, İran və s. də ölkələri daxil etmək

olar. Beynəlxalq maliyyə institutlarının multi-agent modelini (buraya müxtəlif ölkələrdən alimləri daxil etmək olar) yaratmaq lazımdır, hansı ki, real, qeyri-səlis, xaotik, ideallardan uzaq olan bizim üzləşdiyimiz situasiyaya adekvat ola bilsin. Ola bilər ki, alimlər bir o qədər yox, forumlar elmi metod və prinsipləri ciddi surətdə tətbiq edirlər. Həmçinin, mən "altruizmə" əmin deyiləm. Özü-özünü həvəsləndirmək və bu parametrlər çərçivəsində işləmək lazımdır...»

Mənim Almaniya qəzetində çıxan müsahibəm aşağıdakı sözlərlə bitir: "Bu böhranda əsas itirilən pul deyil, inamdır".

*– Professor Lütfi Zadə Bakıya gələndə Siz Bakıda yox idiniz...*

– Zadə Azərbaycanı çox sevir. Burada doğulub, uşaqlıq illəri Bakıda keçib. Təbii ki, Azərbaycan və azərbaycanlılara böyük sayğısı var. Biz ildə bir neçə dəfə onunla görüşür, elmi işlərimizi müzakirə edirik, alınmış nəticələrimizi və gələcək işlərimizi müzakirə edirik. Onun Bakı səfəri ilə mənim başqa ölkəyə səfərimin vaxtları üst-üstə düşdü. Biz onunla bunları əvvəlcədən müzakirə etmişdik. Bilirsiniz bu səfərlərə qiymət vermək üçün qərb və xüsusən Amerika alimlərinin iş, yaradıcılıq üslubunu bilmək lazımdır. Onları, əsasən üç şey maraqlandırır: birinci, elm və real həyat üçün vacib olan yeni ideyaların generasiyası. İkinci, bu ideyaları işləyib həyata keçirmək üçün maddi təminat. Üçüncü, yeni elmi ideyaları anlayan, yüksək intellektə və iş qabiliyyətinə malik olan əməkdaşlardan ibarət qarşılıqlı uyarlı kollektivin yaradılması və demokratik idarə olunması. L.Zadə də sırf qərb alimidir. O, Bakıdan Berkeleyə qayıdan gün mənə Almaniyaya telefon açdı, Bakıda oxuduğu orta məktəbdəki görüşündən çox məmnun olduğunu, bu görüşün ona böyük təsir etdiyini söylədi.

*– Qeyri-səlis iqtisadiyyat, yeni dayanıqlıq nəzəriyyəsi və onun iqtisadi, sosial-iqtisadi sistemlərə tətbiqi, Berkeley və Corciya Dövlət Universitetləri, almaniyalı həmkarlarınızla apardığımız elmi araşdırmalar və əldə etdiyimiz nəticələr Nobel mükafatına aparan bir cığır ola bilərmi?*

– Bunu zaman göstərər, bir də bu sahədə olan dünya alimlərinin fikri.

*– Ən böyük arzunuz...*

– Təbii ki, həyatda ən böyük istəyim, arzum hər qarışı mənim üçün müqəddəs və əziz olan Qarabağımı azad, ölkəmi bütöv görməkdir. Mənim üçün ötən ildə ən yadda qalan bir ismarıc elə bu arzum ilə əlaqədardır. Şəxsiyyətinə və yaradıcılığına böyük hörmət bəslədiyim bir tanınmış jurnalist mənim Azadlıq radiosunun «Tanınmışlar» rubrikasındakı çıxışımı dinlədikdən sonra mənə telefonla ismarış yazmışdı:

"Radioda Sizi dinlədim. Dinləməyə adamımız çoxdu, amma yaxşı ki, öyrənməyə bir adamımız var – Rafiq Əliyev! Mən ALIMin öldüyünə inanmıram, amma nə vaxtsa bu dünyada olmayacaqsınızsa, o yanğı ki, Sizdə var, Allahdan o lütfi diləyirəm, övladlarınızın çiynində Novruzlu qəbiristanlığına gedə biləsiniz.

Hələliksə, var olun, MÜƏLLIM..."

Redaksiyadan: Bu gün Azərbaycanın dəyərli ziyalısı, professor Rafiq Əliyevin 67 yaşı tamam olur. Bu münasibətlə Lent.az-ın kollektivi olaraq professoru təbrik edir, cansağlığı, uzun və Qarabağlı ömür arzulayırıq.

**Ramiz Mikayıloğlu**

## HEÇ YERƏ GETMƏYƏCƏYƏM

Fevralın 10-u Azərbaycanın çox dəyərli ziyalılarından biri, AMEA-nın müxbir üzvü, texnika elmləri doktoru, professor Rafiq Əliyevin 75 yaşı tamam olur. Artıq bu əlamətdar gün münasibətilə bir neçə gün əvvəlcədən media orqanlarında, sosial şəbəkələrdə təbriklər yer almağa başlayıb. Diqqətçəkən odur ki, Rafiq Əliyev dünya miqyasında qazandığı böyük uğurlara, kifayət qədər nəhəng elmi dairələrlə yaxın münasibətlərinə rəğmən özünün təvazökarlığı, sadəliyi ilə şəxsinə yönəlik sevgi və rəğbət hissini daha da artırmağa nail olub. Rafiq müəllimin müsahibəsini təqdim edirik:

*– Rafiq müəllim, sizi ürəkdən təbrik edirəm. İcazə verin barənizdə yazılanlarla tanış olandan sonra bir müşahidəmi bölüşüm: siz xoşbəxt insansınız ki, toplumun sizə böyük sevgisi və sayğısı var.*

– Çox təşəkkür edirəm. Milyonlar olsa, yenə də insanların səmimi sevgisini əvəz edə bilməz. Sizlərin sevgisi hər şeydən üstündür. Mən sizə təşəkkür edirəm.

*– Dünyanın yaxşı-yamanını görmüş dəyərli alimimiz üçün 75 yaş nə deməkdir? Bu zirvədən baxanda ətrafda nələri müşahidə edirsiniz, nələr düşünürsünüz?*

– Təşəkkür edirəm sualınıza görə. Onu yaxşı dediniz ki, bu, doğrudan da bir zirvədir. Bu, Allahın yaratdığı zirvədir. Amma onun ucalığı hər fərd üçün ancaq Tanrı tərəfindən verilir. O zirvə hansı hündürlükdə olur-olsun – yəni bioloji baxımdan, yaş hündürlüyündən deyirəm – baxanda ətraf çox aydın görünür, nə etmisən, nə etməmisən… Bir adam hesab edirsə ki, onun hər şeyi var – bağışlayın leksikonuma görə – onu nadan adam hesab edirəm. Pulmu, şöhrətmi, başqa nəsə… Elə deyil. Allah birini verəndə birini verməz. İndi mənə elə gəlir ki, mən itkilərimlə, Tanrının izni, sizin kimi dostların dəstəyi ilə nə isə qazanmışamsa, bu, balansdandır. Elə itkim də çox olub. Bilmirəm qazandığım o qədərdir, ya yox. Amma həmişə Tanrıya inandığım üçün deyirəm ki, təxminən bərabərdir. Çox şeylər eləmək olardı. İndi yuxarıdan, hündürlükdən baxanda belə düşünürəm. Amma təzədən ora, həmin yaş zirvəsinə qalxmaq istəsəm, elə vallah həmin cığırla gedərdim. Axı elə şeylər var ki, məndən asılı deyil. Tanrının verdiyi itkilər var: torpaq itkisi, ailədə olan itkilər. O şeylərə mən təsir edə bilmirəm. Amma yenə də özüm üçün seçdiyim o cığırla gedərdim.

*– Yəqin ki, yubiley yaşında gözlədiyiniz, eşitmək istədiyiniz təbriklər var. Adətən doğum günü, yubiley təbriklərini ilk olaraq kim və ya kimlərdən alırsınız?*

– Mən işə gələndə gül mağazasına döndüm. Çünki mən hər ayda iki-üç dəfə həyat yoldaşımın qəbri üstünə gedirəm. Bu günə kimi o məzarın üstündəki qızılgülləri solmağa qoymamışam… Mağazaya döndüm, bir səbət sifariş verdim. Sabah səhər (bu gün-E.P.) mən işə gəlməyəcəyəm, başqa bir yerə də getməyəcəyəm, ancaq özüm-özümlə qalacağam. Gedəcəyəm qəbir üstünə, ən birinci təbriki onun ruhundan alacağam. Mənim onun ruhuna bağışladığım gül onun mənə təbrik gülü olacaq…

*– Allah həyat yoldaşınıza rəhmət eləsin, Rafiq müəllim! Səmimi deyirəm ki, siz yaşınızın bu çağında illər öncə dünyasını dəyişmiş ömür-gün yoldaşınıza yüksək dəyər verməklə də nümunəvi şəxsiyyətsiniz.*

– Minnətdaram, çox sağ olun. Mən Ramiz Rövşəni çox sevirəm, bilirəm ki, siz də sevirsiniz. Onun şeirləri içərisində məni tutanı var: "Qara paltarlı qadın". Özü də bu şeirə mahnı da bəstələyiblər. Həmişə deyir ki, bu şeirin üç müəllifi var: Ramiz Rövşən, Rafiq Əliyev, bir də Rövşən Nicat. Ramiz Rövşən həmişə mənə deyərdi ki, bu şeir onun onluğuna daxil deyil. Bu, metafizik bir şeirdir. Məsələn:

*Bütün məni ağlayanlar kiridi,*
*Sən də kiri, qəbrim damır, ağlama!*

"Qəbrim damır" metafizik fikirdir, metafizik düşüncə tərzidir. O çox güclü şeirdir. Rövşən Nicat bəstələyib. Ancaq mahnının ideya müəllifi, ya layihə müəllifimi deyim, mənəm, mənim tərəfimdən ideyası irəli sürülüb. O mənada Ramiz deyir ki, üç müəllifi var. Ancaq onun başqa bir şeiri də var:

*Göz yaşında çimən dünya,*
*Üzün-gözün təmizdirmi?*
*Qalanların yaddaşında*
*Gedənlərin əzizdirmi?*

Əgər biz gedənləri yaşatmasaq, yaddaşımızda olmasa, onlar yaşamayacaqlar. Onlar yaşamayacaqsa, biz də gələcəkdə yaşamayacağıq, mən belə düşünürəm.

**Elşad Paşasoy**

## "İNANIRAM Kİ, HÖKMƏN O TORPAQLARA YİYƏ DURACAĞIQ..."

*– Dediniz ki, tək qalacaqsınız. Amma inanmıram ki, sadiq dostlarınız sizi tək qoysunlar…*

– Sizə deyim ki, 2011-ci ildən sonra doğum günümü keçirmirəm. Amma bir də görürsən zorla gəlib evdən çıxarırlar. Deyəsən, siz deyən düz çıxacaq. Ramizgil adətən məni tək qoymurlar. Başda Ramiz Rövşən olmaqla, dostlar gəlirlər, evdən götürürlər.

*– Rafiq müəllim, yuxarıda ailəyə verdiyiniz dəyərdən danışdınız. Yəqin müşahidə edirsiniz, cəmiyyətimizdə ailə münaqişələri, boşanmalar, intiharlar, dəhşətli faciələr xeyli artıb. Ailə institutunda baş verənlərin səbəbi haqda nə deyə bilərsiniz? Ailə faciələrini necə dayandırmaq olar?*

– Düzdür, bu, sosioloqların işidir. Amma mən bir müşahidəçi kimi deyə bilərəm ki, bunun ən birinci səbəbi sosial-iqtisadi durumdur. Hər bir ailədə tarazlıq olmur. Məsələn, görürsünüz ki, həmin iqtisadi faktorlar ailənin dağılmasına, yaxud başqa hadisələrə səbəb olur. İkinci, əsas səbəb ədalətin olmamasıdır. Bir "Roma klubu" var, onu çox sevirəm. Vaxtilə onu biz də Azərbaycanda təsis etmişdik, özü də Azad Mirzəcanzadəni rəhbər seçmişdik. Daha doğrusu, Azərbaycanda bu ideyanın müəllifi mən idim, qərarla onu təsis etdik. "Roma klubu"na dünyanın alimləri yığışar və dünyanı maraqlandıran bütün məsələləri – elə siz dediklərinizi də müzakirə edərlər. Onların baxdığı məsələlərdən biri cəmiyyətdə sosial minimum, sosial maksimum problemidir. Yəni ki, ən yüksək maaş alanla ən aşağı maaş alan arasında çox böyük məsafə olmamalıdır. Bu isə çox böyük sosial narazılıqlara gətirib çıxarır. Məsələn, niyə kiminsə 17-20 villası olmalıdır, başqası çadırda, ya komada yaşamalıdır? Yəni cəmiyyətin ən böyük göstəricisi o sosial minimumla sosial maksimum arasında olan tarazlıqdır, münasibətdir, orada məsafə çox böyük olmamalıdır. Mən bilən başlıca səbəb budur. Amma çox təəssüflər olsun ki, intihar çoxalıb və psixoloqlar, sosioloqlar onun səbəblərini araşdırmalıdırlar. Tək səbəbləri araşdırılmamalıdır, həm də təsir etmək bacarığı olmalıdır.

*– Professor, sizinlə bağlı böyük bir ümidimiz var ki, Azərbaycana Nobel mükafatını qazandıran ilk alimimiz olacaqsınız. Bu sahədə vəziyyət necədir, hansı yeniliklər var?*

– İnformasiyaları Lütfi Zadədən alıram. 10 gündən, 15 gündən bir yazır. Elə bu yaxınlarda Finlandiyaya məktub yazmışdı, orada iqtisadiyyat sahəsində Nobel mükafatçıları var. Sonra da mənə yazmışdı. Bu elə də asan məsələ deyil. 57 ölkədən ekspertlər var, onlar nominasiya məsələsini müəyyən edirlər. Nominasiyadan sonra isə komissiyada dünyanın seçilmiş 40-50 nəfər ekspertləri var, onlar səs verirlər. Amma Zadənin mənə bir tövsiyəsi də var: onlar adət eləməlidirlər. Mən SSRİ Dövlət Mükafatını alanda 3-cü cəhddə aldım. Birinci və ikinci dəfə keçmədim. Onda da mənim rəhbərim akademik Petrov idi, "İn-

terkosmos"un sədri, SSRİ Elmlər Akademiyasının vitse-prezidenti. O, deyirdi ki, Rafiq, bu işə adət eləməlidirlər, öyrənməlidirlər. İndi sağlıq olsun, Tanrının işidir.

*– İnşallah. Lütfi Zadə yəqin ki, doğum gününüzdə sizə telefon açacaq…*

– Hə, həmişə zəng edir. Həm də ki, hər həftə biz danışırıq.

*– Rafiq müəllim, bilirəm ki, Qarabağ sizin üçün çox həssas mövzudur. İndiki situasiyada işğal altındakı ərazilərimizin taleyi ilə bağlı nikbinsiniz, yoxsa bədbinliyiniz daha çoxdur?*

– (Pauzadan sonra ah çəkir) Olarmı burada üç nöqtə qoyaq?

– İxtiyar sahibisiniz. Amma bizim ixtiyarımız yoxdur sizin nöqtələrinizə toxunaq.

– (Gülür) Amma susmaq özü də bəzən cavabdır. Ola bilər ki, bizim ömrümüz çatmasın. Amma sizin ömrünüz çatacaq, inşallah. İnanıram ki, hökmən o torpaqlara yiyə duracağıq! Hökmən! Nikbin notlarla bitirmək istəyirəm. Çünki mən intellektual gəncləri çox yaxşı, vətənpərvər görürəm. Onlar sabahdır. Mən o sabahı yaxşı görürəm. Nə vaxtsa ora qayıdılacaq. Amma bir dənə ricam var, Allah sizə ömür versin, o vaxt neçə yaşınız olacaq, deyə bilmərəm. Mən bu dünyada olacam-olmayacam, deyə bilmərəm. Amma o yerlərdən qayıdanda bir dənə yazı yazarsınız, mənim bu sözlərimi də əlavə edərsiniz.

*– Rafiq müəllim, Allahdan arzum budur ki, biz azad olunmuş Qarabağdan yazı yazaq, siz də oxuyandan sonra zəng edib təəssüratlarınızı bölüşəsiniz!*

– Amin! Mən sizi bağrıma basıram, hamıya salam-dua deyin. Zənginizə görə təşəkkür edirəm.

**Elşad Paşasoy**

## RAFİQ ƏLİYEV, RÜSTƏM İBRAHİMBƏYOV VƏ ƏLİBALTALILAR

Bəri başdan deyirəm ki, yazıda məqsəd Rafiq Əliyevlə Rüstəm İbrahimbəyovu müdafiə etmək deyil. Nədən ki, Azərbaycanda müdafiəyə əsla ehtiyacı olmayan beş-on BÖYÜK ŞƏXSIYYƏTİN sırasındadır Rafiq müəllimlə Rüstəm müəllim.

Ünlü soydaşlarımızın başına açdığımız müsibətlər haqqında son yüz ilin tarixindən yüzlərlə misal gətirmək olar. Bəlkə genlərimizdə modifikasiya baş verir, xromosomumuz mutasiyaya məruz qaldığından özümüz-özümüzə qənim kəsilmişik? Bəlkə də bunun səbəbini "azərbaycanlı" olmağımızda axtarmaq gərəkdir? Bu bəlkələr, bu ehtimallar kal armud kimi boğazımızda qalıb. Rafiq Əliyevi və Rüstəm İbrahimbəyovu özümdən bilgili, dünyagörüşlü sayıram. Elə o səbəbdən də sizdən xəbər alıram. Biz azərbaycanlılar nədən biri-birimizin ayağını çəkir, nədən irəli çıxmış soydaşımıza arxadan zərbə endirməkdən doymuruq? Səndən soruşuram, vicdanını itirməmiş Azərbaycan ziyalısı, nə səbəbdən sapı özümüzdən olan baltalar millətin genefonduna ağır zərbələr vurur?

İnanın, Rafiq müəllim çapında alim, Rüstəm müəllim səviyyəsində incəsənət adamı, yazıçı, prodüser, ssenarist ermənilərdə olsaydı, əllərinin içində saxlardılar, adlarına küçə verərdilər, heykəllərini qoyardılar. Məgər xəbəriniz yoxdur ki, erməni köpəkoğlu öz alimləri, yazıçıları, sənətkarları ilə necə öyünürlər? Mikoyanın, Ambarsumyanın, Əlixanyanın, digər "…yan"ların adı çəkiləndə ermənilər qürur duyur. Hər məclisdə alimlərinə, sənətkarlarına tərif demək üçün sıraya düzülürlər. Biz isə…

Ötən il böyük alim Rafiq Əliyev hədəfə alındı. Sonucda özünün bünövrəsini qoyduğu kafedranın rəhbərliyindən azad etdilər. Paradoksa diqqət edin, əcnəbi elm adamlarının Azərbaycana Nobel mükafatı gətirəcək alim saydıqları Rafiq Əliyevi sapı özümüzdən olan baltalar aşağılamaq üçün növbəyə düzüldü.

Cümlə başı ilə düşünmək iqtidarında olanlardan soruşuram, bu gün Milli Elmlər Akademiyasında bir alim göstərə bilərsinizmi ki, Rafiq Əliyev qədər dünyada tanınsın?

ABŞ Corciya Dövlət Universitetinin, Almaniya Siegen Universitetinin, Şimali Kipr Yaxın Doğu Universitetinin professoru Rafiq Əliyevi Azərbaycanda – öz ölkəsində rejim az qala arzuolunmaz şəxsə çevirib. Dünyanın fəxrlə adını çəkdiyi bir alimə yönəlik münasibətə nə ad verək? Sual rejimi idarə edənlərə ünvanlanıb. O kəslərə ki, bu il də Rüstəm İbrahimbəyovla haqq-hesab çəkməyə girişib. O Rüstəm İbrahimbəyovla ki, yaradıcılığı ilə, ərsəyə gətirdiyi ədəbiyyat inciləri ilə Azərbaycanın başını uca edib. "Oskar" mükafatı almış ilk azərbaycanlı, 4 dəfə Rusiya Dövlət mükafatına layiq görülmüş ilk azərbaycanlı, 47-ci Kann Beynəlxalq Film Festivalında Jürinin Böyük Prizinə layiq görülmüş ilk azərbaycanlı, 15 dram əsəri dünyanın 100-dən çox teatrının səhnəsinə çıxan ilk azərbaycanlı…

Düz 50 ildir ki, Rüstəm İbrahimbəyov Azərbaycanın adını dünyada tirajlayır. Belə bir istedad sahibi ilə fəxr etmək, qürur duymaq əvəzinə əlibaltalılar görün, hansı çirkin üsullara əl atır. O əlibaltalıların hədəfində bu gün Azərbaycanın iki böyük şəxsiyyəti Rafiq Əliyev və Rüstəm İbrahimbəyov dayanır. Həm Rafiq Əliyevin, həm də Rüstəm İbrahimbəyovun rejimin qəzəbinə tuş gəlməsinin tək bir səbəbi var. Onların VICDANI Azərbaycanın və azərbaycanlıların mövcud durumunda şəxsi firavanlığı naminə mədhiyyə deməyə imkan vermir. Versəydi, o iki şəxsiyyət hər zaman iqtidar süfrəsinin yuxarı başına keçiriləcəkdi.

Rafiq müəllimlə Rüstəm müəllim Milli Elmlər Akademiyasında, Azərbaycan Yazıçılar Birliyində və digər ziyalı qurumlardakı saysız-hesabsız "akademik", "xalq yazıçısı", "xalq şairi", "xalq rəssamı", "xalq artisti" tituluna sahib ziyalılar kimi Azərbaycanda tüğyan edən korrupsiyanı, rüşvətxorluğu, yaltaqlığı, məddahlığı, riyakarlığı, saxtakarlığı görməsəydi, indi çoxdan yaxalarında dövlətin ən ali ordenlərini gəzdirirdi. Fəqət, həm Rafiq Əliyev, həm də Rüstəm İbrahimbəyov bu ölkədə təzahür olunan bütün anormallıqları gördülər və başqaları kimi susmadılar. ZİYALI, VƏTƏNDAŞ mövqeyi sərgilədilər. Onlar xalqın və haqqın yanında dayandıqlarını bəyan etdilər. Və məhz buna görə də əlibaltalıların hədəfindədirlər. Nədən özümüz-özümüzə düşmən kəsilmişik? Nədən millətimizin, dövlətimizin başını uca edənlərin qəniminə çevrilmişik? Nədən milli özünüdərkimizin səviyyəsi aşağıdır? Və nə vaxta qədər belə davam edəcək? Bu sualların cavabını sizdən gözləyirəm. Sizdən Rafiq müəllim. Və sizdən Rüstəm müəllim.

**azadliq.info**

## KEÇİD BALININ 250-DƏN 150-YƏ SALINMASI AZƏRBAYCAN TƏHSİLİNDƏ FACİƏVİ BİR İNDİKATORDUR

2012-2013-cü tədris ili üçün ali və orta ixtisas məktəblərinə qəbul prosesi başa çatdı. Builki qəbul imtahanlarının yekun nəticələri bütövlükdə təhsil sistemindəki xarakterik xüsusiyyətləri, təhsilin müxtəlif istiqamətlərindəki qüsurlara dair bəzi mühüm məqamları da çılpaqlığı ilə üzə çıxarıb. Ən mühüm məqamlardan biri odur ki, builki abituriyentlərin əhəmiyyətli hissəsi 0-100 bal arası nəticə göstərib. Hətta iş o yerə çatdı ki, Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) yenə də III ixtisas qrupunda müsabiqədə iştirak üçün minimal keçid balını 300-dən 250-yə, I və II qrupda isə 250-dən 150-yə endirdi. Bu, Azərbaycanda test üsulunun tətbiq edildiyi 20 ildə ən aşağı nəticədir. Görünür, elə buna görədir ki, keçid ballarının aşağı salınması ictimaiyyətdə, ölkənin təhsil sahəsinə nəzarət edən qurumların özlərində, ictimai təşkilatlarda ciddi mübahisələrə yol açıb. Məsələ o yerdədir ki, hətta siyasətçilər də keçid ballarının aşağı salınmasını təhsilin hazırkı vəziyyəti üçün ciddi siqnal kimi dəyərləndirirlər.

Dünya şöhrətli alim, qeyri-səlis məntiq nəzəriyyəsinin görkəmli nümayəndəsi, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, Lütfi Zadə məktəbinin davamçısı, professor Rafiq Əliyev Azərbaycanda təhsil siyasəti, təhsilə investisiya və nəhayət, ali məktəblərə qəbul üçün keçid ballarının aşağı salınması ilə bağlı fikirlərini bölüşdü.

– Neft gəlirləri ölkəyə daxil olanda mən gözləyirdim ki, bu gəlirlərdən təhsilə və elmə daha çox sərmayə qoyulacaq. Çünki sərmayə baxımından xalq üçün ən böyük gəlir verən elm və təhsildir. İndi Azərbaycanda hamı ali məktəblərə qəbul üçün keçid ballarının aşağı salınmasından danışır. Keçid balının 250-dən 150-yə salınması Azərbaycan təhsilində faciəvi bir indikatordur. Bu indikator Azərbaycanda təhsilin hansı səviyyədə olduğunu göstərdi. Bu fakt həm də neft gəlirlərinin təhsilə, elmə yönəldilməli olduğunu bir daha sübut etmiş olur. Mən bir neçə dəfə müsahibələrimdə demişəm ki, Qərbə ən böyük körpü təhsil körpüsüdür. Yəni Qərbə inteqrasiya olunmaq üçün Boloniya sisteminə qoşulduq və sənədə qol çəkdik. Amma Boloniya prosesinin hansı müddəalarını həyata keçirdik? Ali və orta məktəblərdə rüşvətin kökü kəsildimi, müəllim vicdanı öz yerinə qayıtdımı? Mən o fikirdəyəm ki, təhsildə ən böyük islahat sovet dövründəki müəllimin vicdanını qaytarmaq olardı. Mən neft gəlirlərinin səmərəsini bunda görürdüm. Amma elm də inkişaf etmədi və ölkənin maliyyə imkanlarının bu qədər genişlənməsinə baxmayaraq, elmdə və təhsildə elə böyük nəticələrimiz olmadı. Dünyanın inkişaf etmiş, yaxud da inkişaf etməkdə olan ölkələri ilə müqayisə edəndə görürük ki, büdcədən elmə ayrılan vəsait azdır. Ümumiyyətlə, dünyada qəbul edilmiş bir qanun var: əgər

elmə ayrılmalar ümumdaxili məhsuldan 2 faiz aşağı olarsa, o elm ölkənin iqtisadiyyatına təsir etmir. Bu baxımdan, istərdim ki, neft gəlirləri təhsil, elm, mədəniyyət sahələrinə ayrılsın. Axı postneft dövrünü fikirləşmək lazımdır ki, neft gəlirləri kəsiləndə Azərbaycanda nə baş verəcək? İndi görürsünüzmü, bütün dünyada neft amili tədricən tənəzzülə uğrayır. Təbii ki, körpülər tikmək, yol çəkmək çox vacibdir. Ancaq ən böyük körpü, dediyim kimi, Qərbə uzanan elm körpüsüdür. Səhiyyəyə, elmə ayrılan vəsait tikintiyə ayrılan vəsaitlərdən dəfələrlə aşağıdır.

*– Son illər abituriyentlər ali məktəbə qəbul imtahanlarında yüksək nəticə göstərə bilmədiyindən keçid balları ənənəvi olaraq aşağı salınır. Bu il həmin ənənə özünü daha çılpaq şəkildə göstərdi. Sizcə, keçid ballarının aşağı salınması çıxış yoludurmu, yoxsa başqa şeylər etmək lazımdır?*

– Mən bayaq bunu indikator adlandırdım. Əslində keçid ballarının bu şəkildə aşağı salınması təhsildəki vəziyyətə dair bir həyəcan təbilidir. Yəni daha bundan o tərəfi yoxdur. Təhsildə köklü islahatlar aparmaq lazımdır, xüsusən də orta məktəblərdə. Ən birinci isə ölkədə rüşvətin kökünü kəsmək kimi vacib bir məqsəd qoyulmalıdır qarşıya. Orta və ya ali məktəbdə 1 faiz rüşvət qalsa, heç bir tərəqqidən, heç bir islahatın müsbət təsirindən danışmaq mümkün deyil. Keçid balını aşağı salmaqla gənclərə təhsil vermək, təhsili inkişaf etdirmək olmaz, axı. Axı, bu cür qəbul imtahanı barmaqla sayıla biləcək qədər bir-iki ölkədə keçirilir. Dünyada "qəbul imtahanı" anlayışı yoxdur. Almaniyada tələbə gedib imtahan verir, testdən keçir? Qətiyyən. Ona görə deyirəm ki, şüur dəyişməlidir. Bunun üçün isə bircə şey lazımdır: dürüstlük. Bu sözü bir dəfə də demişəm ki, dürüstlüyün olmaması atom bombasından da qorxuludur. Əgər orta məktəbə, ali məktəbə dürüstlük gəlməsə, insanlar öz nəfsinin qulu olmaqdan azad ola bilməsələr yenə də həmin məktəb, həmin universitet olacaq. Ona görə də təhsili inkişaf etdirmək üçün bu məsələlərdən başlamaq lazımdır, keçid balını aşağı salmaqdan yox.

*– Amma Nazirlər Kabineti hər il dövlət planını təsdiqləyir ki, ali məktəbə bu qədər tələbə qəbul olmalıdır. Bazar iqtisadiyyatına əsaslanan cəmiyyətdə planlı qəbul nə dərəcədə düzgündür?*

– Əvvəla, həmin qəbul planının özünə baxmaq lazımdır. Mən sonuncu plana baxanda gördüm ki, orada nə qədər subyektivlik var. Hər kəs öz tərəfinə çəkməyi bacarır. Yəni harada təhsil azdan-çoxdan vardısa, hamısını öz tərəfinə çəkdi. Amma o ixtisaslara qəbul aparılmalıdır ki, onlar bu cəmiyyətə lazımdır. Deyirlər, filan universitet iqtisadiyyat fakültəsinə bu qədər tələbə götürməlidir, bu birisi bu qədər. Götürməklə deyil axı, onun marketinqi getməlidir, əmək bazarı öyrənilməli və tələbə qəbulu planı da bunun əsasında qurulmalıdır. Özünə 300-500 tələbə qəbulu planı yazan universitetlər tədqiqat aparmalıdır ki, onların əmək bazarına buraxdığı məzunların neçə faizi işə düzəlib. Təəssüf ki, nə universitetlər, nə də başqa qurumlar belə tədqiqatlar aparmır. Bu yaxınlarda təxminən 30 illik əmək stajı olan bir həkimlə söhbət edirdim. O, dedi ki, 150 manat məvacib alır. Ona görə də bu gün bir balaca xəstəlik olanda İrana, Tür-

kiyəyə, Almaniyaya və başqa yerlərə qaçırıq. Bunun üçün gərək 10-15 il əvvəl heç olmasa, tibb sahəsində xaricdə yetişə biləcək mütəxəssislər göndərəydik. Bunu edə bilsəydik, onlar 10-15 ilə tam yetişib Azərbaycana qayıda bilərdilər. Yəni ictimai həyatımızda xüsusi yeri olan bir peşə sahibi ən yaxşı halda 150 manat alırsa, onda hansı davranışdan danışmaq olar? Həkim 100-150 manat civarında maaş alırsa, müəllimin məvacibi nə qədərdir? Və ümumiyyətlə, insanların məvacibləri, onların həyat tərzinə diqqət yetirdikdə sizin sualın cavabını oradan tapa bilərik.

*– Neft gəlirləri ölkəyə daxil olandan sonra hökumət gənclərin xaricdə təhsili ilə bağlı xüsusi proqram da hazırladı. İndi o proqram çərçivəsində 5 mindən artıq gənc xaricdə təhsil almağa göndərilib. Bu yetərli deyil?*

– Bunu artıq siz jurnalist tədqiqatı aparıb müəyyən edə bilərsiniz ki, o plan hansı ixtisaslar üzrə yerinə yetirilib? Mən isə dedim ki, bu gün kiminsə orta ağır xəstəsi olanda götürüb qaçırırlar Türkiyəyə, İrana. Niyə qaçmalıdır bu xəstə sahibi xaricə?

*– İndi neft gəlirlərinin pik nöqtəsi artıq Azərbaycandadır. Bundan sonra neft gəlirləri azalmağa başlayacaq. Siz postneft dövründə Azərbaycanda nə gözləyirsiniz?*

– Biz xeyli gecikmişik, amma yenə də gec deyil, hətta lap belə deyək, sizin bu yazınız mətbuatda dərc olunandan sonra yenə də islahatlara başlansa, yenə də nəsə etmək olar. Fikirləşmək lazımdır ki, postneft dövrünün iqtisadi modeli nə olmalıdır. Bu gün Azərbaycanın iqtisadi modeli xammal yönümlü modeldir. Müsahibələrimin çoxunda demişəm, bir də deyirəm: “Dünyanın 4 iqtisadi modeli var, dünya ölkələrinin beşinci iqtisadi modeli yoxdur. Biliyə söykənən iqtisadi model, texnoloji iqtisadi model, xammalyönümlü model və aqrar modeldir. Adi bir misal deyim, fərqi özünüz görəcəksiniz: dünyanın istənilən nöqtəsində soruşsanız ki, ABŞ nə istehsal edir? Cavab verəcəklər ki, bilik. Bəs, Monqolustan nə istehsal edir: qoyun. Yəni dünyada iqtisadi modellər bu cür fərqləndirilir. Bəs bizdə neft dayanandan sonra nə istehsal ediləcək? Mən iqtisadçıların bostanına daş atmıram, ancaq bizdə heç bir iqtisadçı əlinə qələm alıb yazmayıb ki, neftdən sonra Azərbaycan iqtisadiyyatı hansı modellə inkişaf edəcək, dövlətin iqtisadi inkişafı hansı modelə söykənəcək? Sənayeni, aqrarı, kənd təsərrüfatını, yoxsa nəyi inkişaf etdirəcəyik?

*– İndiki mərhələdə neft gəlirlərinin ölkənin inkişafına müsbət təsirini artırmaq üçün nə etmək lazımdır?*

– Əlimizdə olan vəsaitləri elmin və təhsilin inkişafına yönəltmək lazımdır. Mən bunu elm və təhsil sahəsində çalışdığıma görə demirəm. Mən kənd təsərrüfatı sahəsində işləsəydim yenə də deyərdim ki, neft gəlirlərini elmin və təhsilin inkişafına yönəltmək lazımdır. Ümumiyyətlə, bəşəriyyətin tarixi boyu həmişə bütün ölkələri ziqzaqlardan, böhranlı vəziyyətlərdən, ağır durumlardan həmişə elm çıxarıb. Elm isə yalnız təhsilə söykənə bilər, təhsil olmayan yerdə elm də ola bilməz. Bu baxımdan, fikirləşirəm ki, büdcədən elmə və təhsilə, səhiyyəyə ayırmalar indikindən ən azı 10 dəfə artıq olmalıdır.

*– Dövlət Proqramı əsasında xaricdə təhsil alanların cəmi 1 faizi dəqiq elmlər üzrə təhsil alır. Halbuki bütün elmlərin açarı dəqiq elmlərdədir. Bu məsələyə münasibətiniz necədir?*

– Təbii ki, dəqiq elmlər də lazımdır. Ancaq dəqiq elmlər üzrə gənc kadrları Azərbaycanın özündə də hazırlamaq olar. Bizim çox güclü riyaziyyatçılar və fiziklər məktəbimiz olub. Amma reqress göz qabağındadır. Təxminən bir ay əvvəl internetdə belə bir informasiya oxudum ki, hər 1000 nəfər tədqiqatçıya dünyada qəbul olunan elmi nəticələrin sayı nə qədərdir. Orada bütün ölkələri, o cümlədən keçmiş sovet məkanında olan ölkələri vermişdilər. Həmin hesabatda ən sonuncu yerdə Qırğızıstanla Azərbaycan idi. Birinci yerdə Rusiyadır. Bunlar faktdır. O ki qaldı sizin sualınıza, mən xaricə göndərilən gənclərin çoxunu təbabət elmi üzrə istiqamətləndirərdim. Özü də kütləvi şəkildə. Həmçinin iqtisadiyyat və siyasi elmlər sahəsində də gəncləri xaricə təhsil dalınca göndərərdim. Düşünürəm ki, Azərbaycan gənclərinin xaricdə təhsil alması məhz bu 3 sahə üzrə daha vacibdir. Avropada təhsil alan tələbələr tam demokratik mühitdə, təmiz başqa bir qafa ilə Azərbaycana dönür.

**Elxan Salahov**

## ALTI MİN ŞƏHİDİN RUHUNDAN QORXMAQ LAZIMDIR

Yeni Azərbaycan Partiyasının 104 saylı Gədəbəy– Tovuz seçki dairəsindən deputatlığa namizədi, deputat və professor Rafiq Məmmədhəsənovun Ağdam camaatı əleyhinə nalayiq fikirlər söylədiyi barədə mətbuatda məlumat dərc edilib. Xatırladaq ki, bu yaxınlarda seçicilərlə görüşlərinin birində o, Gədəbəy– Tovuz camaatını qəhrəman camaat, ağdamlıları isə dolayısıyla qorxaq adlandırıb.

Sitat: "Mən çıxışlarımda həmişə deyirəm, Gədəbəy, Tovuz camaatı qəhrəman camaatdır. Çünki onlar sərhəd bölgəsində yaşayır, bir qarış torpaqdan da geri çəkilməyib. Amma mən açığı deyim, Ağdam da bizimdir. Respublikada ağdamlıların adı gələndə hamı deyirdi: "onlar vuran-tutan, asıb-kəsən camaatdır". Amma nə oldu? Torpaqlar boşaldı, çıxıb getdilər. Amma nə Gədəbəy, nə Tovuz, nə də Qazax camaatı bir qarış torpağını vermədi işğalçılara. Mən bu camaatın elçisi olmağı özümə şərəf bilirəm".

Görkəmli ziyalı, professor Rafiq Əliyevin məsələ ilə bağlı etiraz müraciəti edib. Müraciətdə deyilir: "Düzü, mən Rafiq Məmmədhəsənov adlı nə alim, nə də deputat tanıyıram. Mətbuatda belə bir adamın Azərbaycana, böyük türk dünyasına, bütün dünyaya böyük şəxsiyyətlər, sənət və elm adamları bəxş etmiş Ağdam kimi bir diyarı, ağdamlılığı aşağılamağı normal düşüncəyə sığmır. Görünür Rafiq Məmmədhəsənovun Ağdamda 6 mindən çox igid əsgərimizin uyuduğu qəbiristanlıqdan, Qarabağ müharibəsi vaxtı bu torpağın onlarla Milli Qəhrəman verməsindən əsla xəbəri yoxdur. Məni çox təəccübləndirir ki, siyasətlə məşğul olmaq iddiasında olan bir adamın müharibə şəraitində yaşayan, çətin ictimai durumda olan ölkəmizdə bölücülük yaratmaq təşəbbüsü nəyə və kimə xidmət edir? Bu məqsədyönlüdür, yoxsa ucuz "nüfuz" qazanmaq üçün emosiyadan doğan partlayış? Siyasətə iddialı bir adam anlamalıdır ki, dünya güclərinin mənafe fəzasında olan Qarabağ müharibəsini yerli əhali deyil, dövlət aparır. Xatırladıram ki, Ağdamın işğalı 1993-cü il 23 iyulda baş verib".

Müraciət bu cümlələrlə bitir: "Düşünmürəm ki, Firidun Köçərli, Tofiq Köçərli, Qoşqar Əhmədov və başqa böyük mütəfəkkirlər yetirmiş Gədəbəy torpağının oğul və qızları bu gün cəmiyyətimizdə Azərbaycansayağı makiavelizm toxumu səpmək istəyən bir nəfəri özlərinə millət vəkili seçsinlər".

**deyerler.org**

## ÇƏTİNLİKLƏRİ DƏF EDƏCƏYİKSƏ, ÜFÜQƏ ÜMİDLƏ BAXIRAM

***Rafiq Əliyev: «Mən hələ 2008-ci ildə "Azərbaycanda post-neft dövrünü düşünmək lazımdır" adlı bir məqalə yazmışdım…»***

*– Rafiq müəllim, doğum gününüzü təbrik edirik. Sizə cansağlığı və yeni elmi nailiyyətlər arzulayırıq. Xoş təsadüfdür ki, bu günlərdə sizin müəlliminiz, dünya şöhrətli alim Lütfi Zadənin və dostunuz, görkəmli dramaturq Rüstəm İbrahimbəyovun da doğum günləri qeyd olundu.*

– Çox təşəkkür edirəm, diqqətinizə görə çox minnətdaram. Mən onların hər ikisini təbrik etdim.

*– Hər zaman gərgin iş qrafikiniz olub, tez-tez xaricdə olursunuz, kitablar üzərində işləyirsiniz, dərs, mühazirələr deyirsiniz. İndi gəldiyiniz yaşda özünüzü necə hiss edirsiniz, yorulmamısınız ki?*

– Vallah, düzünü deyim, Allaha min şükür olsun, elə bir yorğunluq hiss etmirəm. Bilirsiniz, iş, xüsusilə, zehni iş adamı saxlayır. Tərif üçün demirəm, amma son üç ildə dünyanın müxtəlif ölkələrində − Amerikada, Almaniyada, Rusiyada 5 kitabım çıxıb. Yəni hələlik bir yorğunluq hiss etmirəm. İndi də Amerika nəşriyyatları ilə iki müqaviləm var.

*– Elmi fəaliyyətinizdə hansı yeniliklər var?*

– Əsas nailiyyətlərdən biri onu hesab edirəm ki, Lütfi Zadə ilə birlikdə bir kitab yazmışıq. Kitab yazmaq üçün də nəzəriyyə yaratmaq lazımdır. Yəni bir var dərslik-zad yazasan, bir az ordan-burdan götürəsən, amma dünya çapında monoqrafiya yazanda gərək dünyada olmayan şeydən yazasan. Biz də yeni bir hesab nəzəriyyəsi, yeni ədədlər hesabı yaratdıq. Yəni indiyədək adi ədədlər tanıyırdıq, məsələn, 5, 3, 8 və s. Məsələn, deyirlər ki, bayırda hərarət 8 dərəcədir. Bir az ağıllı adam deyir ki, temperatur 7-9 dərəcə intervalındadır. Daha ağıllı adam isə onu qeyri-səlis deyər: təxminən 8 dərəcə ətrafındadır. Yəni 7 də ola bilər, 9 da. Yəni Ağıllılıq səviyyəsi dedikdə informasiyanı ümumiləşdirmə səviyyəsinə görə götürülür. Amma təəssüf ki, ikinci və üçüncü səviyyə Azərbaycanda tədris olunmur. Dünyanın əksər universitetlərində qeyri-səlis hesab, interval hesabı keçirlər. Bizdə isə adi hesab tədris olunur: 5x5=25.

Lütfi Zadə də, mən də 30 il ömrümüzü sərf etmişik, görürük ki, qeyri-səlis məntiqdə də çatışmazlıqlar var. Çatışmayan odur ki, indiyədək dediyim o üç səviyyədə informasiyanın dürüstlük məsələsi nəzərə alınmayıb. Yəni siz deyirsiniz ki, sabah temperatur 15-20 dərəcə arasında olacaq. Mən də soruşuram ki, bu məlumata inam dərəcəniz nə qədərdir. Yüz faiz olan yalnız Tanrıdır. Siz də deyirsiniz ki, informasiyaya inamım tutaq ki, 30 faiz ətrafındadır. Yəni ədədlərin dürüstlüyü indiyədək nəzərə alınmamışdı və bunun hesabı yox idi. Biz də həmin qeyri-müəyyən ədədə inam dərəcəsinin hesabı nəzəriyyəsini yaratdıq və

ABŞ-da bu barədə kitab çap etdik. Hesab edirəm ki, uğurumuzdan biri budur, yəqin dünya qiymət verər. Bundan başqa, çox önəmli hesab etdiyim bir məsələ də var. Lütfi Zadə də çox yüksək qiymətləndirib və üç kitabıma ön söz yazıb. Bu isə qeyri-müəyyənlik şəraitində qərar qəbuletmə nəzəriyyəsidir. Yəni insan adətən bu şəraitdə olur: tam informasiya yoxdursa, necə qərar qəbul edilməlidir. Bunun nəzəriyyəsinə uyğun məqalələr, ABŞ-ın «Springer» nəşriyyatında kitablar çap etdirdik.

*– Hazırda Azərbaycan Milli Elmlər Akademiyasında struktur dəyişikliyi aparılır. Azərbaycan elminin inkişafı üçün sizin təklifləriniz, konsepsiyanız varmı?*

– İndi bir elmi işçi, elm adamı kimi onu deyə bilərəm ki, əgər biz dünyaya inteqrasiya ediriksə, elm və təhsildə dünyanın inkişaf etmiş ölkələrinin yolunu getmək istəyiriksə, elm ayrı-ayrı qurumlarda yox, universitetlərdə olmalıdır. Elmlər Akademiyası da olmalıdır, amma Fransa və başqa ölkələrdəki akademiyalar kimi. Yəni orda ən seçilmiş insanlar olmalıdır, daha təyin olunmuşlar yox. Bir də ki, elmə gərək sosial sifariş olsun. Elmin özünün bir qanunu, siyasəti var. Elm siyasət sevməz, amma özünün bir siyasəti var.

*– Bəs ictimai-siyasi prosesləri izləyirsinizmi, müşahidələrinz nə deyir?*

– Mən 2008-ci ildə «Azərbaycanda post-neft dövrünü düşünmək lazımdır» adlı bir məqalə yazmışdım. Sonra bir çox KİV-lərdə, deyəsən sizin qəzetdə də çap olundu. Məqalədə göstərmişdim ki, yeni iqtisadi model yaradılmasa, bizim iqtisadçılarımız bu sahədə işləməsə, bizi belə bir vəziyyət gözləyir. İndi həmin gün gəlib çatıb. 2011 və 2012-ci ildə də həmin mövzuya qayıdıb bir də yazdım. İndi «post-neft» sözünü hamı işlədir, amma ilk dəfə 2008-ci ildə mənim yazımda gedib. Nəhayət, 2015-ci ilin fevral ayında ilk devalvasiya olanda jurnalistlər əvvəlki yazılardan da müəyyən hissələri yazıya əlavə etmişdilər və mənə müraciət etdilər ki, «post-neft dövrü» deyəndə nəyi nəzərdə tuturdunuz? Dedim, elə bu günü deyirdim. Çünki göstərmişdim ki, neftin hasilatı azalacaq. «Bizim 300 il neftimiz var» sözləri sadəcə şüar idi.

*– İndiki böhrandan çıxmaq üçün hökumət müəyyən addımlar atır, bir çox iqtisadçılar, ekspertlər müəyyən təkliflər verirlər. Siz post-neft dövründə vəziyyətdən çıxmaq üçün nə təklif edirsiniz?*

– Ötən ilin fevral ayında «İqtisadçılara və iqtisad universitetlərinə müraciət» adlı yazını yazdım və bir daha qayıtdım o məsələyə ki, iqtisadi model elmi baxımdan yaradılmalıdır. Yazıda modeli də, strukturu da vermişdim. Yəni dünya ölkələrinin 90-95 faizinin elmi cəhətdən əsaslandırılmış iqtisadi modeli var. Gəlin, kənd təsərrüfatına, digər sahələrə diqqət yetirək. «Sosial hesabatlar matrisası» deyilən şey var: hansı sahələr inkişaf etməlidir, sahələr arasında hansı əlaqələr olmalıdır, tutaq ki, maşınqayırmadan kənd təsərrüfatına nə gəlməlidir, kənd təsərrüfatından hansı məhsullar ixrac olunmalıdır, bunun hamısının hesabatı var. Bundan sonra tarazlıq modeli yaratmaq lazımdır ki, iqtisadiyyat taraz olsun. Bunları vaxtilə mətbuata da demişəm, elmi məqalələrimdə də yazmışam. Mən sadəcə iqtisadi model tərəfdarıyam.

*– Belə vəziyyətlərdə inkişaf etmiş ölkələrin təcrübəsi nədən ibarətdir?*

– Mənim elmi istiqamətlərimdən biri də elmi proqnozlaşdırma məsələləridir. 2008-2009-cu illərdə dünyada iqtisadi böhran olan zaman biz onun elmi cəhətdən kompüter siqulyasiyası, elmi proqnozlaşdırılması ilə məşğul olduq. Həmin vaxt bir alman qəzeti məndən müsahibə almışdı. Mən onda deyəndə ki, bu, hələ başlanğıcdır, bir müddətdən sonra ikinci dalğa bundan da dəhşətli olacaq. Yəni bu dünyada gedən bir prosesdir, yaradan amillər də çoxdur. Burada Rusiya amili də, başqa nüanslar da var. Bir şeydən əminəm ki, xalq da fərd kimidir, gərək çətinlikdən keçsin. O çətinlikləri dəf edəcəyiksə, üfüqə ümidlə baxıram.

**Rəşad Vaqifoğlu**
10.02.2016

## ELƏ BELƏ DƏ YAZIN: NORMAL YAŞAMAQ İSTƏYİRƏM

"XXI əsrin adamı" layihəsində qeyri-səlis məntiq nəzəriyyəsinin mütəxəssisi, məşhur alim Rafiq Əliyevlə müsahibəni təqdim edir.

*– Bu günün dünyası zamanla dost ola bilirmi?*

– Mənim özəl fikirlərimdir ki, XXI əsrin 30-40, uzaq başı 50-ci illəri yeni sivilizasiyanın başlanğıcı olacaq. Tolerantlıq məntiqi ilə düşünən insanların sivilizasiyası. Görürsünüzmü, texnologiya nə qədər inkişaf edir? Bu inkişaf elmin hesabına olub. Ancaq cəmiyyət o texnologiyanın inkişafından o qədər də xəbərdar deyil. Çünki şüur durduğu yerdə qalıb. Elm bəşəri sivilizasiyadan sivilizasiyaya çıxarıb. Bu gün dünya çox ədalətsiz məkandır: hər tərəfdə müharibə, hər tərəfdə iddialar... Amma bayaqkı fikrimdə qalıram. Tufandan sonra sakit bir sivilizasiya yaranacaq. Hər halda mən belə düşünürəm...

*– Bəs Azərbaycan necə? Bu gün zamanın tələblərinin kandarındadır, yoxsa?..*

– Mənim təfəkkür tərzim qeyri-səlis məntiqdir, tolerantlıq məntiqidir. Demokratiyanın kökündə bu məntiq dayanır. Həmin o sivilizasiyaya gedən yol ədalətdən, dözümlülükdən keçir. Azərbaycan gərək o yolun kandarında qalmasın. Qalsa sivilizasiyaya çata bilməyəcək.

– Bütün zamanlar üçün Azərbaycanın ruhuna biçilən bir meyar var – muğam. Muğamı dinlədikcə biz sizin məntiqinizdəki 0-la 1 arasında sanki yol gedirik. Toplum olaraq o yolu gedərkən hansı rəngdə ilişib qaldıq?

– Ümumiyyətlə, həmin sivilizasiyaya gedən yol da 0-dan 1-ə doğru gedir. İndiki cəmiyyət o yolda o aralıqda deyil. Düşüncə tərzi hələ ki, budur. Yəni aralıq yoxdur. Aralıqda olmaq üçün insanların qəlbində yumşaqlıq olmalıdır. İnsanların qəlbində bir başqa aləmə meyillilik olmalıdır. İnsanın içərisində başqa bir düzüm olmalıdır. Bu düzüm də riyaziyyat, fizikadan yox musiqidən, poeziyadan gəlir. İnsanın daxilində o düzüm, harmoniya varsa bu zaman o ikili məntiqdən uzaqlaşır. Bizim də mayamız muğamla yoğurulub.

Ramiz Rövşənin şeirlərindən birində deyilir:

*Gələn nədir, gedən nədir,*
*Bələk nədir, kəfən nədir?*
*Bu dünya öz kefindədir,*
*Yağış yuyur, gün qurudur...*

Muğam həm bələkdir, həm də kəfəndir. Ana laylası nədi, o elə muğamın özüdür də. Mənə çalınan laylalar indi də yadımdadır:

*Əzizinəm yenişə,*
*Karvan gedər yenişə.*
*Yastığında gül bitsin,*
*Mitəkkəndə bənövşə.*

Harmoniya olan yerdə ancaq 0 və 1 ola bilməz. Hər zaman onların arasındakı aralıq ola bilər. Tam 1-i niyə demirəm? Çünki o elə Allahın özüdür. Məsələn, Mövlanə elə birin yanındadır. Çünki o, Allaha çox yaxındır.

*– Madam ki, ruhumuza biçilən belə bir harmonik meyar var, ondan niyə biz "Segah"ın hüznündən "Bayatı-Şiraz"ın saflığından tutub Allaha çıxa bilmirik?*

– Bu gün insanların çoxu üçün pul elə Tanrının özüdür. Amma gələcək sivilizasiyaya gedən insanlar var. Onların daxilindəki musiqi, harmoniya Mövlanə Cəlaləddin Rumi harmoniyasıdır. Allaha yaxınlaşmadır. ...Məndə Allaha sevgi çox böyükdür. Mənim Allaha sevgim elə Allahın mənə olduğu məsafəsi qədər sonsuzdur. Hər zaman çalışmışam ki, dünyaya fəlsəfi baxım, nəfsimi gözləyə bilim. Allah da bunu mənə hədiyyə etdi. Adam var hər il bir maşın dəyişir, evin təmir elətdirir, amma mənim evim elə 1988-ci ildən bura köçəndən necə idisə, indi də elə qalıb. Lütfi Zadənin də maşını 1987-ci ilin istehsalıdır.

*– Yəni ki 1-ə yaxın olan dünya...*

– Tamamilə düzdür.

*– Bayaqdan danışıqlardan hiss edirəm ki, biz öz mahiyyətimizdən uzaqlaşmışıq. Muğamsız, harmoniyasız, Qarabağsız Azərbaycan toplumu mahiyyətindən yıxılıb. Bugünkü Azərbaycan cəmiyyətini öz mahiyyətinə qaldırmaq üçün ziyalılarımız niyə nərdivan rolunu oynaya bilmir?*

– Çox təzadlı olsa da deyim ki, sovet vaxtı "ziyalı" sözünü daha rahat deyə bilirdik. Amma bu gün ziyalılar çox ağır bir vəziyyətdədirlər. Mövlanənin sözü yadıma düşdü. "Korlar bazarında ayna satma, karlar bazarında qəzəl atma." Ziyalının sözü eşidilmir.

*– Tez-tez böyüdüyünüz evdən danışırsınız. O komanın və indiki 3D sehrinin müqayisəsində birinci sizin üçün niyə görə daha sehrlidir?*

– Mən belə düşünürəm ki, komada keçən hissə insanın formalaşması üçün əsas meyardır. O koma istidirsə, sən başqa insan olacaqsan. O komada ana laylası eşidirsənsə, sən başqa insan olacaqsan. Hər şey o komadan başlayır. Bununla bərabər öz məktəbimi qeyd etmək istəyirəm. Dünyanın bir çox universitetlərində mühazirələr oxumuşam. Amma bunu tam mübaliğəsiz deyirəm. Mənim oxuduğum 1 saylı Ağdam məktəbi mənim üçün dünyanın bütün universitetlərindən üstündür. Çünki o məktəbin mənə verdiyini nə SSRİ Elmlər akademiyası, nə də Amerika universitetləri verdi. O 1 saylı məktəb parta arxasında əlimi qaldırmağım mənə həyatda daha çox şey bəxş etdi. Bizim müəllimin yubileyinə həsr olunmuş bir tədbirdə dedim ki, təhsildə bu qədər ki, yeni islahatlar, proseslər gedir, bunların hamısını aradan götürün, mənə o köhnə müəllimlərimi verin.

*– Bu gün öz işığını axtaran bir cəmiyyət nəyə görə düşdüyü qaranlığa işığın müvəqqəti yox olan forması kimi yox, elə zülmətin özü kimi baxır?*

– Qaranlıq olanda informasiyanın nə sağda, nə solda olduğu bilinmir. Qaranlıqda yaşayan cəmiyyətdə istənilən şey keçərlidir. Fikrimi deyə bildim?

*– Bayaq 1-in yanında olan Mövlanə dediniz... Bu cəmiyyət nə zaman anlayacaq ki, Rafiq Əliyev də, o da 1-in yanındadır?*

– Rafiq Əliyev özü belə hesab eləmir. Elə-belə də yazın. Normal yaşamaq istəyirəm. Mən heç vaxt özümü orada saymayacağam.

**Elmin Nuri**

# MƏN HƏMİŞƏ MÜXALİFƏM, AMMA MÜXALİFƏTÇİ DEYİLƏM

*– Rafiq müəllim, bir məqalənizdə yazırsınız ki, sizin təfəkkürünüz Qərbdir, əxlaqınız isə Şərq. Nə deməkdir bu? Qərb təfəkkürü, Şərq əxlaqı necə olur?*

– Mən Azərbaycanda da, Amerikada da eyni dərs deyirəm. Dərsin birində Yaponiya təcrübəsindən misal gətirirəm. Məsələn, Yaponiyada hər hansı adi fəhlənin ixtiyarı var, yəni ona səlahiyyət verilib ki, əgər fors-major situasiya yaranarsa, o, bütün istehsal sahəsinin fəaliyyətini dayandıra bilər. Bizdə isə belədir ki, gərək sex rəisinə zəng vurulsun, sex rəisi direktora, direktor nazirə zəng vursun və s. Səbəb nədir? Bizdə bir "əşi" sözü var. "Əşi, keçər də". "Əşi, birtəhər yola ver də". Qərbdə isə "əşi" sözü yoxdur. Orda səlahiyyət də verilib, cavabdehlik də. Yaxud bizdə elm adamlarının böyük əksəriyyəti Azərbaycan üçün olan elmlə məşğuldurlar. Axı elmin vətəni yoxdur. Mən humanitar elmləri nəzərdə tutmuram. Qərbdə sənin elmi işin bütün dünyada olanlardan, heç olmasa, bircə damcı yaxşı deyilsə, o müəllif həmin elmi işi çapa verməz. Amma Şərq dünyasında belə deyil. Bu baxımdan deyirəm ki, mənim təfəkkürüm Qərb təfəkkürüdür. Çünki uzun müddətdir, Qərbdə çalışıram.

*– Bəs əxlaqınız niyə Şərq əxlaqıdır?*

– Genetik yaddaşdan gələn, hətta bəzən lazımsız olan şeylər var ki, oturub mənim qanımda. Məsələn, məndə ifrat dərəcədə qısqanclıq var. Söhbət kiməsə paxıllıqdan getmir. Məişət qısqanclığından söhbət gedir. Belə şeylər qan yaddaşından irəli gəlir. Bu xarakteri atmaq, tərgitmək mümkün deyil.

*– Təfəkkür də, əxlaq da beyin işi deyil? Bəs necə ola bilir, Qərb təfəkkürünə malik bir insan ailədə, məişətdə qısqanc olur?*

– Kəramət bəy, təfəkkür və əxlaq ayrı-ayrı kateqoriyalardır. Təfəkkür beyindən gələn bir şeydir. Əxlaq isə beyindən gəlmir, qandan gəlir.

*– Deməli, genetikaya inanırsınız?*

– Yüz faiz! Düzdür, sonradan qazanma, mühitdən götürmə də var. Amma çox xarakterlər, xüsusiyyətlər genetik gəlir. Söhbət təkcə xarici oxşarlıqdan getmir, biz davranış oxşarlığından da danışırıq. Məsələn, mən atamdan nəyi götürmüşəm? Həyatım boyu nə bir manat rüşvət vermişəm, nə də bir manat rüşvət almışam. Və həmişə yazılarımda demişəm ki, rüşvət mənim millətimi içdən yeyən qurddur.

Bir ifadə var, invariantlılıq. Yəni heç kimdən asılı olmamaq, kobud mənada, heç kimə yaltaqlanmamaq, heç kimə yarınmamaq. Çox qəribədir ki, mənim övladlarım da, nəvələrim də həmin invariantlılığı saxlayırlar. Heç birində sapma olmayıb. Müstəqil, heç kimdən asılı olmamaq, yarınmamaq, sınmamaq çox vacib şeydir. Palıd ki sınmır. Amma onun yanındakı alaq otları o tərəf-bu tərəfə əsir, əyilir, sınır. Amma palıda külək dəyə bilmir.

Kəramət bəy, bu xüsusiyyət sizdə də var. Elə bilirsiniz, yazarların hamısı sizdən razıdır? Yox. Nə üçün? Çünki bəzən çox kəskin yazılarınız olur. Siz də asılı olmayan insansınız. Amma harasa gedib yarınan insanlar ki var, onların heç bir xeyri yoxdur. Yarınan adamdan həmişə müvəqqəti olaraq istifadə edirlər. Amma invariant adamlara, əyilməyən, sınmayan adamlara hamı hörmət edir, bəlkə üzünə demirlər, amma ürəklərində mütləq hörmət edirlər.

*– Maraqlıdır, dünyanı gəzmiş insansınız, böyük bir alimsiniz. Amma elə çıxışlarınız olur, bəzən elə söhbətlər edirsiniz ki, dəhşətli dərəcədə sadəlövh insan təsiri bağışlayırsınız.*

– Bütün bunlar ona görədir ki, mən söz deməkdən çəkinmirəm. Düzdü, bəzən susduğum olub.

Mən kobud söz deyə bilmirəm, nə də bərkdən qışqıra bilirəm. Adətən, fikirlərimi sakitcə və birbaşa deyirəm. Mən elm adamıyam və demişəm ki, Azərbaycanda post-neft dövrü gəlir. Bundan artıq nə deyim?

*– Namaz qılırsınız?*

– Yox. Mənim imanım dinimdən yuxarıdadır. Ruhani alimlərdən soruşdum ki, bəlkə səhv fikirləşirəm, iman üstün olmalıdır, yoxsa din? Onlar da dedilər ki, düz yoldayam, iman üstün olmalıdır. Mən atributları yerinə yetirmirəm: namaz qılmaq, oruc tutmaq. Salavat çevirirəm. Amma rüşvət almıram, Allah uzaq eləsin, baş kəsmirəm, pislik eləmirəm. İmanın atributları bunlardır.

*– Maraqlıdır, ehtimal nəzəriyyəsinə əsasən, ehtimal varmı ki, siz Nobel mükafatı alasınız?*

– Ehtimal var, amma onu gərək düz hesablayasan. Klassik ehtimal nəzəriyyəsi reallığı çox vaxt düz ehtiva etmir. Xüsusən, o yerdə ki insan qərar qəbul edir. Məsələn, obyektiv ehtimal nəzəriyyəsinə görə, qaradərili Obamanın ABŞ prezidenti olma ehtimalı sıfır (heç vaxt ABŞ-da qaradərili prezident olmamışdı) bölünsün 43 (Obamadan əvvəlki prezidentlərin sayı) = 0. Amma həyat başqa cür göstərdi. Belə yerdə subyektiv, qeyri-səlis ehtimal işləyir. Əgər mən də müsəlmanamsa, əgər mən də Şərq dünyasındayamsa və Şərq dünyasından elm sahəsində müsəlman olan cəmi üç nəfər Nobel alıbsa, eyni zamanda elm sahəsi üzrə bütün nobelçilərin sayı tutaq ki, üç yüzdürsə, deməli, üç bölünsün üç yüz, yəni yüzdə bir ehtimal. Bu ehtimal bu cür hesablanmamalıdır. Amma o kişi – Allah hər şeyi hamıdan yaxşı hesablayır.

*– Nobel mükafatı sizin üçün ölçüdürmü?*

– Çox böyük ölçüdür. Ədəbiyyat və sülh üzrə mükafatları deyə bilmərəm, bunlarda müəyyən sapmalar olur, amma elmdə Nobel mükafatına təsir eləmək mümkün deyil. Və mənim üçün elm sahəsində Nobel mükafatından böyük ölçü yoxdur. Nobelə layiq olmaq üçün isə mühit olmalıdır, ayaqlar çəkilməməlidir, "əşi" təfəkkürü olmamalıdır.

*– Adətən, elmin dərinliklərinə getdikcə dini düşüncədən, dini təfəkkürdən uzaqlaşırsan. Sizdə isə əksinədir. Niyə belədir?*

– Bayaq dediyim kimi, dinə, Allaha bağlılıq mənim qan yaddaşımdan gələn bir şeydir. Məsələn, Qarabağ regionunda ən böyük məscid Ağdamda idi. Ətraf yerlər-

dən inanclı insanlar Aşura günlərində Ağdam məscidinə gələrdilər. Mən də məscidə tez-tez gedirdim. Yəni qan yaddaşı deyəndə bunları nəzərdə tuturam.

İkincisi, mənim fikrim belədir ki, hansı elm olur-olsun, hansı nəzəriyyə olur-olsun, hansı Allahın yaratdığını daha dürüst təmsil eləyə bilirsə, kim Allahın yaratdığını daha yaxşı imitasiya eləyə bilirsə, yamsılaya bilirsə, o, ən gözəl elmdir.

Mən 50 ildir, elmlə məşğul oluram. Bu ömrün iyirmi ilini sərf eləmişdim ki, hər hansı bir məsələnin optimal həllini riyazi olaraq necə tapmaq olar. Yadınızda olar, orta məktəbdə funksiyanın ekstremal qiymətlərini tapmaq üçün törəmə alırdıq, sıfıra bərabər eləyirdik və s. Bir müddət bu yolla getdik. Sonra başa düşdük ki, səhv yolla getmişik. Ən düzgün yol Allahın yaratdığı təbii seçmədir. Məsələn, meşələrdə zəiflər sıradan çıxır. Yəni təbiətdə baş verən hadisələri, məsələn, təkamül seçməni riyazi simvollarla yaza bilirsənsə, bu, elmin ən böyük nailiyyətidir.

*– "Din və qeyri-səlis məntiq" məqalənizdə qeyd etmisiniz ki, İlqar İbrahimoğluna minnətdaram, çünki bəzi şeyləri onunla məsləhətləşdim.*

– Bəli, məqaləni yazdıqdan sonra İlqar İbrahimoğlu ilə məsləhətləşdim, soruşdum, burda səhv yoxdur ki?

*– Elm dindən məsləhət alır?*

– Mən elə bir adamam, düşünürəm ki, hətta çobanla da məsləhətləşmək lazımdır. Çobanın dünyada, həyatda o qədər bildikləri şeylər var. Məsələn, buluda baxar, bizə deyər ki, hava necə olacaq. Kimdənsə nəsə soruşmaqda pis nə var ki?! Məndə elə bir kompleks yoxdur. Axı ilahiyyat elmi də var. Bu yaxınlarda ABŞ-da "Qeyri-səlis məntiq və Quran" adlı bir tutarlı monoqrafiya çap olunub.

*– Rafiq müəllim, sizcə, sizin kimi bir alimi dini dünya görüşünüzə görə niyə sərt tənqid edirlər?*

– Bir söz desəm, inciməzsiniz?

*– Yox, təbii ki...*

– Siz də o cür insansınız! Təkcə siz yox, yazarlarımızın bir qismi belədir. Çox hörmət elədiyim Zamin Hacı mənim haqqımda yazmışdı ki, Rafiq Əliyev indi də mələklərin trayektoriyasını hesablasın. Sarkazmla yazmışdı. Adı yadımdan çıxıb, bir nəfər də məni yarımsərt tənqid eləmişdi. Halbuki mən onları qınamıram ki, onlar niyə ateistdirlər. İkili Aristotel məntiqindən tolerantlıq məntiqinə – qeyri-səlis məntiqə keçmək lazımdır. Bu, yeni sivilizasiya məntiqidir.

*– Bəzi alimlər iddia edir ki, təkamül nəzəriyyəsi sübut olunub. Siz necə düşünürsünüz?*

– Əksinə. Bu gün dünyada ən çox tənqid olunan Darvinin nəzəriyyəsidir. Əksər fikirlər darvinizmin əleyhinədir. Əlbəttə, mən də əleyhinəyəm. O nəzəriyyə yaxşı nəzəriyyə sayılır ki, real həyata daha yaxındır. İnsanın meymundan əmələ gəlməsini dünya qəbul eləmir. Elə yer var ki, ora sonsuzluqdur və sonsuzluq olan yerdə Allah var. Ona görə də insan nədən əmələ gəldi, necə əmələ gəldi, mən buralara yuvarlanmaq istəməzdim.

*– Məşhur bir fikir var. Deyir, axmaq-axmaq suallar verib böyük bir alimə sübut eləmək olar ki, sən heç nə bilmirsən. Suallarım bir az cığal ola bilər, amma maraqlıdır, heç düşünmüsünüz ki, hamını Allah yaradıbsa, bəs insanlara niyə bir yox, bir neçə kitab göndərib?*

– Təbii ki, dinlər içərisində ən təkamülü, moderni, müasiri İslamdır. Zaman-zaman da peyğəmbərlər çıxıb və köhnəni təkmilləşdirmək istəyiblər. Təkmilləşdirmək isə o demək deyil ki, tamam yeni bir şey yaradırsan. Quranda da, İncildə də bir çox şeylər var ki, oxşardır. Bəli, islam dini digər dinlərin yeniləşdirilmiş, təkmilləşdirilmiş formasıdır. Və təbii ki, digər dinlərlə müqayisədə Quranda insana qarşı daha çox tolerantlıq var.

*– Rafiq müəllim, Ziyalılar Forumu yarandı, siz də bu qurumda oldunuz. Kənardan elə fikir yarandı ki, guya siz siyasi proseslərə qarışmısınız. Belə demək mümkünsə, durduğunuz yerdə sizdən müxalifətçi düzəltdilər. Ancaq sonra heç səsiniz çıxmadı, hər hansı siyasi fikir bildirmədiniz və s. Nədənsə çəkindinizmi?*

– Mən heç vaxt siyasətə qarışmamışam. Ziyalılar Forumunda çox ləyaqətli adamlar var idi. Dünyada da belə şeylər çoxdur. Dünyanın ən məşhur alimləri, yaxud yazarları Roma Klubunda yığışır, dünya hara gedir, bunu müzakirə edirlər.

*– Maraqlıdır, bəs siz yığılıb nəyi müzakirə edirsiniz?*

– Mövzularımız əsasən, bunlardan ibarət olurdu: milli birlik, iqtisadi model tipləri və s. Belə şeylər müzakirə olunur. Bir dəfə mövzu qoyuldu və yekun qərara gəldik ki, rüşvət milləti də, dövləti də içəridən yeyən qurddur. Düz birinci gündən ta axırıncı günə kimi biz demişik ki, ziyalı siyasətə qarışmalı deyil. Çox istərdim ki, bu fikrim müsahibəmizdə mütləq olsun: mən həmişə müxalifəm, amma müxalifətçi deyiləm.

*– Bəs nəyə müxalifsiniz?*

– Ən birinci özümə müxalifəm. Sonra Kəramətə müxalifəm, sonra Ramiz Rövşənə və s. Müxalifəm, müxalifətçi deyiləm. Müxalifətçi odur ki, partiya yaradır, yaxud hansısa partiyaya üzv olur, hakimiyyətə gəlmək istəyir. Bu, onun haqqıdır.

*– Siz heç bir partiyanın üzvü deyilsiniz?*

– Qətiyyən! Mənim bir partiyam var, o da Rafiq Əliyev partiyasıdır.

*– Üzvlər isə Ramiz Rövşən, Musa Yaqub, Cavanşir Quliyev, Qulu Məhərrəmli...*

– Yox, yox... (gülür) Bu adamların hərəsi bir partiyadır. Sadəcə, cəmiyyətin problemləri haqqında öz fikirlərimizi həmişə demişik, deyəcəyik də.

**Kəramət Böyükçöl**

## DƏYİŞMƏSƏK, DƏYİŞƏN DÜNYA BİZİ QƏBUL ETMƏYƏCƏK

***Ədalətsiz cəmiyyət çürüməyə məhkumdur. 37-ci illərin ab-havasına köklənən anti-təbliğat.***

Mənimlə və «Ziyalılar forumu» ilə əlaqədar son zamanlarda baş vermiş olaylara münasibətimi bildirmək istərdim. Əvvəla onu qeyd edim ki, bu son bir ay müddətində gedən proseslərin başlıca səbəbi ziyalılar forumunda iştirak edən azad düşüncəli ziyalıların və bütövlükdə ictimaiyyət nümayəndələrinin fikirlərinə, təkliflərinə hakimiyyətin bəzi yüksək dairələrində tolerantlığın olmaması, hətta sərt təpki ilə qarşılanması, bayağı, ötən əsrin 37-ci illərinin abı-havasına köklənən anti-təbliğat kompaniyasının aparılmasıdır. Ötən bir ay müddətində susmağıma gəlincə, bu görünür mənim peşə yönümümlə əlaqədardır. Elmi araşdırmalarım həmişə idarəetmə və qərar qəbuletmə nəzəriyyələri ilə əlaqəli olduğundan, mən ilk növbədə bir obyekt kimi cəmiyyətdə gedən prosesləri, onların dinamikasını müşahidə edib qavramaq istədim. Şükürlər ki, gəldiyim nəticə çox pozitiv oldu, bir çoxlarının düşündüyü kimi cəmiyyətimiz ölməyib, bir balaca öləziyibsə də (elmi dildə ətalətliliyi varsa) amma o ayaqdadır. Çoxsaylı ədəbiyyat, sənət, elm, media insanları, bütövlükdə cəmiyyət (xüsusən sosial şəbəkələr vasitəsi ilə) bunu isbat etdilər. Göstərdilər ki, cəmiyyətdə mənəvi dəyərlər, ziyalı ruhu ölməyib. Bir də onu qeyd etmək istərdim ki, həmişə olduğu kimi, bu yazımda da mənim leksikonum tərbiyəmə və intellektimə uyğun olaraq, bəzi «akademiklərin» və professorların planlaşdırılmış yazılarındakı leksikona adekvat deyil.

**«Ziyalilar forumu» heç kimin «qrup»u olmayan könüllü toplantıdır.**

Yuxarıda göstərdiyim olayların əsas səbəbi «Ziyalılar forumu»nun fəaliyyəti ilə bağlı olduğundan bu məsələnin üzərində bir qədər ətraflı dayanmaq istərdim. 3-cü ildir fəaliyyət göstərən bu forum azad fikirli adamların, həmişə həqiqətin, xalqın, dövlətçiliyin yanında olan ziyalıların, bəzi məmurların fikrindən tam fərqli olaraq heç kimin «qrup»u olmayan könüllü toplantısıdır. Onun əsas missiyası ölkədə ictimai rəyin formalaşması, ölkənin sabit və dinamik inkişafı üçün zəruri olan mütərəqqi islahatların hazırlanıb həyata keçirilməsində Azərbaycanın vətəndaş cəmiyyətinin rolunu artırmaqdır. Bu forumun və onun təmsilçilərinin heç bir siyasi iddiası yoxdur. Məqsəd, qeyd etdiyim kimi əxlaqlı, mənəviyyatlı, xalqa arxalanan saf vətəndaş cəmiyyətinin bərqərar olmasına yardım etməkdir. Bunun bariz sübutu üçün elə «Ziyalılar forumu»nun müzakirə etdiyi problemlərə ekskurs etmək kifayətdir: 1) ziyalı və cəmiyyət (dünən, bu gün və sabah); 2) əxlaq və cəmiyyət; 3) milli birlik: yollar və şərtlər və s. Düşünürəm ki, bu gün ölkəmizdə ictimai fikrə daha diqqətli münasibət olmalı, o cümlədən «Ziyalılar forumu»nda təmsil olunan azad düşüncəli ziyalıların təkliflərinə daha həssas yanaşılmalıdır. Cəmiyyətimiz belə feodal çağırışları bu gün artıq qəbul etmir.

Ölkədə milli birliyə səsləyən ziyalılara təzyiq və anti-təbliğat cəmiyyəti parçalamağa yönəlmiş uğursuz bir akt oldu. Bu məsələ, bir tərəfdən elmi adı olan bəzi insanları rəzil duruma saldısa, digər – daha acınacaqlı tərəfdən isə problemin naşıcasına regional müstəviyə keçirilməsinə cəhdlər göstərilməsi ilə yadda qaldı. Əlbəttə ki, bütün bunlar uğursuz cəhdlər idi. Mənə Qarabağ, Naxçıvan, Gəncə, Sumqayıt və başqa bölgələrdən gələn yüzlərlə zənglər, ismarışlar, 120 000-dən çox üzvü olan «Azərbaycan» Facebook səhifəsində və başqa sosial şəbəkələrdə açılan müzakirələr çox aydın göstərdi ki, sağlamlaşmaqda olan cəmiyyətimiz belə feodal çağırışları bu gün artıq qəbul etmir.

Cəmiyyətimizin bu gün belə sayıq qalmasında müstəqil medianın, açıq fikirli ziyalılarımızın, bütövlükdə həqiqətin yanında olan Azərbaycan insanının xidmətləri çox böyükdür. «Ziyalılar forumu»na və mənə olan təzyiqləri ümumilikdə cəmiyyətə yönəlmiş təzyiqlər kimi qəbul edən, cəmiyyəti diri saxlayan və cəmiyyətin müqavimət gücünü yaradan ölkənin bütün ictimai-siyasi zümrələrinin təmsilçilərinə, xüsusən, media nümayəndələrinə, siyasi partiyalara, qeyri-hökumət təşkilatlarına, ictimai qurumlara, sayılıb-seçilən yazarlarımızı, şairlərimizi, sənət adamlarımızı, alimlərimizi özündə birləşdirən böyük ziyalı ordusuna, imanlı din xadimlərinə, gələcəyimiz olan ləyaqətli və çoxsaylı gənclər ordusuna dərin minnətdarlığımı bildirirəm. Bu insanlar qorxmayan, sınmayan insanlardır. Böyük Mustafa Kamal Atatürk demişdir «Aydınları korkak olan milletler ezilmeğe mahkumdur».

**Cəmiyyətin islahatlara sosial sifarişi var.**

Sonda cəmiyyətin bütün zümrələrinə öz düşüncələrimi çatdırmaq istərdim. Bu gün dünya qlobal miqyasda kataklizmlər məngənəsindədir, maliyyə-iqtisadi böhran, regional müharibələr, tək Şərqdə yox, Qərbdə də baş verən etiraz çıxışlarının başlanması şəraitində cəmiyyətimiz üçün dominant tələb milli birlik, bu hədəfə aparan milli barış yoludur. Düşünürəm ki, buna alternativ yoxdur. Bu hədəfə çatmaq üçün ölkənin bütün ictimai-siyasi zümrələri, iqtidarlı-müxalifətli hamı tolerant olmalıdır. Hamı bir-birini eşitmək, ictimai fikrə daha diqqətli olmaq bacarığına yiyələnməlidir, daha çox açıqlıq və şəffaflıq olmalıdır. Ziyalıların səsi eşidilməlidir, onları aşağılamaq yox, qorumaq lazımdır. Cəmiyyətin islahatlara sosial sifarişi var. Bütövlükdə dünyanın, o cümlədən Qərbin də dəyişməyə ehtiyacı var. Biz dəyişməsək, dəyişən dünya bizi qəbul etməyəcək.

Cəmiyyətimizin bütün tərəflərində ədalət bir nömrəli atributa çevrilməlidir. Əvvəlki yazılarımda dediyim kimi onsuz da dünya ədalətə hamilədir. Ədalətsiz cəmiyyət çürüməyə məhkumdur. Gəlin hamımız ədalətli, əxlaqlı cəmiyyət və Qarabağın xilası ideyası ətrafında birləşək.

**Rafiq Əliyev,**
**professor**
**Azadlıq Radiosu**
07.12.2011



***Sağdan sola: professor L.Zadə və professor R.Əliyev***

# Rafiq Əliyev haqqında

*Rafiq Əliyev həqiqətən dünya miqyaslı görkəmli bir şəxsiyyətdir.*

**Lütfi Zadə**

*Elm hər yerdə elmdi. Elm beynəlmiləldi. Elmin vətəni yoxdur, amma alimin vətəni var. Alim bilməlidir ki, hansı millətə, hansı ölkəyə qulluq edir. Çox təəssüflər olsun ki, bizim bir sıra dəqiq elmlər üzrə çalışan alimlərimiz hansı ölkənin, hansı vətənin, hansı millətin oğlu olduğunu unudur. Rafiq Əliyevi mənə sevdirən ən böyük cəhəti ondan ibarətdir ki, böyük alimliyi ilə bərabər, hansı millətə mənsub olduğunu çox gözəl bilir.*

**Bəxtiyar Vahabzadə**

*Rafiq Əliyev əsl mənada dünya səviyyəli yox, dünyada ən yüksək səviyyəli alimlərdən biridir.*

**Rüstəm İbrahimbəyov**

## HÖRMƏT ETDİYİM, HEYRƏT BƏSLƏDİYİM GÖRKƏMLİ ŞƏXSİYYƏT

Mən, Rafiq Əliyevlə çoxdan tanışam. Onunla müxtəlif konfranslarda, Berkeleydə və başqa yerlərdə görüşmüşəm. Bu səbəbdən də deyə bilərəm ki, mən Rafiq Əliyevi çox yaxşı tanıyıram. Onunla dostluğumu özüm üçün şərəf bilirəm. O, elə bir insandır ki, onu nə qədər yaxından tanıyırsansa, ona bir o qədər də hörmət və heyranlıq hissi bəsləyirsən. Mən heyranlıq sözünü mübaliğəsiz işlədirəm. Rafiq Əliyev elmdəki nailiyyətinə görə bir çox mükafatlara layiq görülmüş və bunlardan ən mühümü sovet dövründə aldığı Dövlət mükafatıdır ki, bu da o dövrdə az adama verilirdi. Mənə dərin təəssürat bağışlayan, onun çox dərindən düşünməsi, yaradıcı işə qeyri-adi bacarıqla yanaşması və özünü həm şifahi, həm də yazılı şəkildə gözəl ifadə etməsidir. Onu başqalarından fərqləndirən cəhət, onun gözəl elmi ideyalar verməsi və onları həyata keçirmək bacarığıdır. O, məsələni hərtərəfli öyrənir və nəinki məqalələr, hətta kitablar yazır, özü də qalın kitablar yazır. O, hər şeyi çox çevik mənimsəyir. Buna çox gözəl misal kimi "Soff Computıng"i söyləyə bilərəm. Mən bu konsepsiyanı 10 il əvvəl irəli sürmüşəm. Bu məsələnin vacibliyini dərhal duyaraq, o, bu haqda ilk kitab yazdı. Kitab rus dilində nəşr olundu. Mən ona bu kitabı inglis dilində yazmağı təklif etdim. Və kitab dünya elm nəşriyyatında çap olundu. Mən inanıram ki, bu kitab Soff Computıngin inkişafında mühüm əhəmiyyət kəsb edəcək.

Rafiq Əliyevə Azərbaycanda və onun hüdudlarından kənarda da hörmət bəsləndiyinə çox şadam. O, çox təsiredici qüvvəyə malikdir. O, qeyri-adi insandır. Mən onun qədər zəkalı, yaradıcılıq qabiliyyəti olan başqa bir insan tanımıram. Rafiq Əliyev həqiqətən dünya miqyaslı görkəmli bir şəxsiyyətdir. Bir daha təkrar etmək istəyirəm ki, mən onun pərəstişkarlarından biriyəm və ona dərin hörmət bəsləyirəm. Mən qəti ümidvaram ki, onun nüfuzu vaxt keçdikcə, dünyada daha da artacaq. "Soff Computıng" onun şöhrətini daha da yüksəldəcək.

Bir neçə dəqiqə ərzində bunları deyə bilərəm.

Mən çox şad oldum ki, hörmət etdiyim, heyrət bəslədiyim bu görkəmli şəxsiyyət haqqında fikirlərimi lentə yazdırmağa imkanım oldu.

**Professor L.Zadə**
**"Alim" filmindən**

## DÜNYA ALİMLƏRİNİN RAFİQ ƏLİYEV HAQQINDA FİKİRLƏRİ

Rafiq Əliyev öz sahəsində aparıcı alimlərdən biridir və bununla beynəlxalq nüfuz qazanmışdır.

Bizim birgə elmi diskusiyalarımızda və müzakirələrimizdə mən onun elmi nailiyyətlərini, xüsusən də hesablama intellekti və Soft Computing sahəsində dərin biliyini, problemləri duymaq qabiliyyətini daim görürəm, hiss edirəm. Onun hərtərəfliliyi qeyri-adidir. Doktor R.Əliyevin elmi fəaliyyəti onu dünya səviyyəli alimlər ilə bir sıraya qoyur. Onun elmi əsərləri tam mənası ilə görkəmli əsərlərdir.

O, fundamental nəzəriyyələr yaratmaq və onları tətbiq etmək baxımından nadir qabiliyyətə malikdir.

**Professor L.Zadə (ABŞ)**

Rafiq Əliyev Amerikadan 7 min mil uzaqlıqda yerləşən Azərbaycanda yaşasa da o, Amerikadan çox əzəmətli görünür.

**Professor Ronald Yager (ABŞ)**

Rafiq Əliyev idarəetmə nəzəriyyəsi, qeyri-səlis məntiq sahəsində məşhur alimdir, onun fundamental kitabları əldən-ələ gəzir. R.Əliyevin elmi əsərlərinin təkcə sayı deyil, həmçinin bütün dünyanın tədqiqat laboratoriyalarında əldə edilmiş fundamental elmi nəticələri böyük təəssürat yaradır. O, eyni zamanda beynəlxalq arenada yüksək nüfuza malik konfransların proqram komitələrində iştirakı ilə də dünya elmi ictimaiyyətinə yaxşı tanışdır.

**Professor V.Pedriç (Kanada)**

Doktor R.Əliyev ABŞ-da öz həmkarları ilə birlikdə qeyri-səlis paylanmış intellektual sistemlər üzrə faydalı işlər görüb. Onun tədqiqatları robototexnika, optimallaşdırma, diaqnostika və s. sahələrdə geniş tətbiq olunub. Elmi nəticələri İran, Almaniya, ABŞ və başqa ölkələrdə mütəxəssislər tərəfindən geniş istifadə olunur. Biz hesab edirik ki, doktor R.Əliyev ən yüksək qiymətə layiqdir. Onun çoxsaylı əsərləri onun elmə verdiyi töhfələrin əyani sübutüdür.

**Professor R.Elrod və**
**professor B.Fazlollahi (ABŞ)**

Əfsuslar olsun ki, mən Azərbaycan elminin bugünkü səviyyəsi ilə tanış deyiləm. Çünki nə azərbaycan, nə də rus dilini bilirəm. Lakin deyə bilərəm ki, əgər Azərbaycanda texniki elmlərin elmi səviyyəsi professor R.Əliyevin işlərinin elmi səviyyəsinə uyğundursa, onda Azərbaycan özünü istənilən inkişaf etmiş sənaye ölkəsi ilə müqayisə edə bilər. Mən R.Əliyevin işləri ilə 90-cı ildə beynəlxalq çoxcildliyin baş redaktoru olarkən tanış olmuşam. 98-ci cildin müəl-

lifi R.Əliyev idi. Mən fəxr edirəm ki, bu kitabın nəşrində iştirak etmişəm və bu kitab sistem texnikası üzrə qərbdə ingilis dilində yazılmış Azərbaycan aliminin ilk kitabı idi. Bu kitabın çox yüksək elmi səviyyəsi ilk dəfə olaraq Azərbaycan elminin bütün Qərb dünyası üçün vizit kartı oldu. O vaxta qədər Şərqdən Yaponiya, Hindistan və Çin alimləri qərbdə tanınırdı. Bu nəşrdən sonra professor R.Əliyev Amerikanın, Avropanın müxtəlif nüfuzlu universitetləri tərəfindən bərabər səviyyəli professor kimi müxtəlif dünya ölkələrinə dəvət olundu.

**Professor S.Klaçko (Almaniya)**

Biz professor R.Əliyevlə müxtəlif konfranslarda görüşmüşük. O, informatika, sistem təhlili elmlərində müasir yanaşmaların formalaşmasında çox fəal bir alimdir. O, beynəlxalq elmi ictimaiyyətlə öz elmi laboratoriyasının əlaqələrinin genişləndirilməsinə xeyli əmək sərf edir.

Rafiq Əliyevin elmi nəticələri, elmi kadrlar hazırlamağı və beynəlxalq konfranslar təşkil etməyi heyrətamizdir.

**Professor D.Dyuba (Fransa)**

Doktor R.Əliyevin tədqiqatları qeyri-səlis məntiqdən tutmuş süni intellektin müxtəlif aspektlərinə kimi geniş problemlər spektrini əhatə edir. O, müxtəlif Beynəlxalq konfransların sədri kimi və müxtəlif beynəlxalq jurnalların redaksiya heyətinin üzvü kimi Beynəlxalq elmi ictimaiyyətə yaxşı tanışdır. İdarəetmə sahəsində çoxölçülü adaptiv sistemlərin qurulma üsullarını təklif etmişdir.

Doktor Rafiq Əliyev idarəetmədə yeni nəzəriyyələrin yaradıcısıdır.

**Professor D.Antoni (İtaliya)**

Doktor R.Ə.Əliyev mənə məlum olan və ABŞ, SSRİ, İran, Almaniya və s. ölkələrdə çap olunmuş 35 kitabın müəllifidir. O, xeyli sayda elmi işçilər hazırlamışdır. Onun elmi nəticələri praktikada geniş tətbiq olunur.

Doktor Raifq Əliyev yeni nəzəriyyələr müəllifidir və intellektual robotlar sahəsində yeni elmi istqamət yaratmışdır.

**Professor İ.Kuravaki (Yaponiya)**

Professor R.Əliyev bütün fəaliyyəti dövründə kompüter intellekti sahəsində öz tədqiqatlarını cəmləşdirən fəal və məşhur alimdir.

Bütün çoxillik tədqiqatı dövründə bu sahənin əsas problemlərinin həllində görkəmli nəticələr almışdır. Mən onu elmə sadiq, xüsusən də qeyri-səlis sistemlər və Soft Computing sahəsində fədakar alim kimi tanıyıram. Bu sahədə o, geniş ümumdünya elmi cəmiyyətinə yaxşı məlumdur və böyük sayda orijinal nəticələr almışdır.

Rafiq Əliyev öz görkəmli elmi fəaliyyəti nəticəsində öz elmi sahəsinin liderlərindən biri statusuna yüksəlmişdir.

**Professor İ. Mamdani (İngiltərə)**

Mən böyük məmnuniyyətlə dostum Rafiq Əliyev haqqında aşağıdakı sözləri demək istərdim: R.Əliyev gözəl alim, maarifçi və tədqiqatçıdır. O, gənc nəslin inkişafı üçün, yüksək ixtisaslı kadr hazırlamaq üçün əlindən gələni edir. Çoxlu sayda aspirantlar və doktorantlar yetişdirmişdir. O, elə bir insandır ki, onun beyni daim axtarışlar və yeni perspektivlər əldə etməklə məşğuldur.

Professor R.Əliyev geniş mənada dövrümüzün ən görkəmli şəxsiyyətlərindən biridir. O, elmə, xüsusən qeyri-səlis məntiq, ekspert sistemlər və qeyri-xətti idarəetmə elm sahələrinə fundamental töhfələr vermişdir.

Onun elmi nəticələri sayəsində Azərbaycan idarəetmə və Soft Computing sahəsində beynəlxalq elmi-texniki cəmiyyətin fəal üzvü olmuşdur.

Mən R.Əliyevi zəmanəmizin ən görkəmli bir alimi kimi tanıyıram. R.Əliyev bir çox elm və texnologiyalar sahəsində öz ölkəsini beynəlxalq hörmət və diqqət xəritəsinə çıxarmışdır.

**NASA-nın idarəetmə üzrə mərkəzinin direktoru,**
**professor M.Cəmşidi (ABŞ)**

Mən, professor Rafiq Əliyevlə və onun elmi fəaliyyəti ilə ABŞ-da Corciya Dövlət Universitetində tanış olmuşam, onun seminarlarında iştirak etmişəm. Onun qeyri-səlis məntiq haqqındakı elmi məruzələri dərin, hərtərəfli və mənalı idi. Onunla uzun müddətli təmasda olmağım onun informatikanın nəzəri və praktiki problemlərini çox dərindən bildiyini və görkəmli elmi nəticələr aldığını göstərdi. Biz indi də onun elmə verdiyi töhfələrin təəssüratı altındayıq. Onu deyim ki, R. Əliyev nəinki görkəmli alimdir, həm də centlmen və intelegentdir.

**Professor B.Qarça (ABŞ)**

Professor Rafiq Əliyev Soft Computing elm sahəsinin yaranmasına böyük töhfələr vermişdir. Bunların içərisində intellektual robotlar üzrə elmi istiqamətin, yeni qeyri-səlis məntiqlərin, paylanmış intellektual sistemlərin yaradılmasını və b. göstərmək istərdim. R.Əliyevin elmi nəticələri robototexnika, optimallaşdırma, idarəetmə sahəsində geniş tətbiq olunmuşdur.

**İFSA (Beynəlxalq Qeyri-Səlis Sistemlər Cəmiyyəti)**
**Prezidenti, professor İ.Türkşen (Kanada, Türkiyə)**

Uzun illərdir ki, biz prof. Rafiq Əliyevlə birlikdə müxtəlif elmi layihələr üzərində işləyirik. Onun tərəfindən alınan elmi nəticələr ümumdünya səviyyəsində olmuşdur və bu barədə dünyanın aparıcı alimləri öz müsbət rəylərini vermişlər. Biz Almaniyada birgə bir neçə fundamental kitablar çap etdirmişik, dünyanın müxtəlif ölkələrində müasir texnologiyalar üzrə 5 beynəlxalq elmi konfrans keçirmişik.

Prof. R.Əliyev bütün dünyada böyük elmi avtoritet kimi tanınır.

**Zigen Universitetinin informasiya institutunun direktoru,**
**professor K.V.Bonfiq (Almaniya)**

Rafiq Əliyevin elmi marağı müasir idarəetmə nəzəriyyəsi, qeyri-səlis məntiq, neyron şəbəkələri, genetik alqoritmlər kimi sahələri əhatə edir. O, paylanmış intellektual sistemlər konsepsiyasını təklif etmiş və belə sistemlərin işləmə üsullarını vermişdir.

Qeyri-səlis məntiq üzrə elmi nəticələri geniş tətbiq edilmışdır.

Professor R.Əliyev yeni elmi istiqamətin – qeyri-səlis-neyron şəbəkəsi əsasında intellektual robotların yaradıcısıdır. O, paylanmış intellektual sistemlər üzrə yeni konsepsiyanın və istiqamətin müəllifidir. Onun elmi nəticələri geniş tətbiq tapmışdır.

**Beynəlxalq İnformasiya Akademiyasının direktoru,**
**doktor, professor Q.Rizzotto (İtaliya)**

Rafiq Əliyev informatika və idarəetmə sahəsində böyük alimdir. O, Rusiya, ABŞ, Almaniya, İngiltərə, Fransa, Yaponiya və dünyanın başqa ölkələrində öz elmi nəticələri ilə yaxşı tanınır. İdarəetmə və informasiya sistemləri sahəsindəki elmi nəticələrinə görə o, SSRİ Dövlət mükafatına layiq görülmüşdür.

R.Əliyev hibrid intellektual sistemlər nəzəriyyəsinin yaradılması və inkişafının əsasını qoyanlardan biridir.

R.Əliyev informatika və idarəetmə nəzəriyyəsi sahəsində elmlər namizədləri və doktorlarının hazırlanmasına çoxlu əmək və enerji sərf etmişdir.

**Rusiya EA İnformasiya İnstitutunun direktoru,**
**akademik N.A.Kuznetsov**

Prof. Rafiq Əliyev inteqral sistemlərdə koordinasiya nəzəriyyəsinin, qeyri-səlis intellektual sistemlərin nəzəri əsaslarının və qurulma üsullarının yaradıcısıdır. R.Əliyev tərəfindən informatika və idarəetmə sahəsində nüfuzlu elmi məktəb yaradılmışdır. Rusiyada, ABŞ-da, Almaniyada, İranda, Azərbaycanda və başqa ölkələrdə çap etdirdiyi 43 kitab ona ümumdünya şöhrəti gətirmişdir.

**Rusiya EA-nın Akademiki N.N.Şeremetevskiy**

Professor Rafiq Əliyev idarəetmə sistemləri, süni intellekt, qeyri-səlis çoxluqlar, neyron şəbəkələri və genetik alqoritmlər sahəsində gördüyü işlərlə dünyada ad qazanmış bir alimdir. O, bu elm sahələrinin dünya miqyasında yayılmasında əhəmiyyətli rol oynamışdır.

Raifq Əliyevin rəhbərliyi ilə 1994-cü ildə Təbrizdə, 1996, 1998, 2000-ci illərdə Almaniyada, 2001-ci ildə Antaliyada və Daşkənddə beynəlxalq konfranslar keçirilmişdir. Bu konfranslarla o, elmin dünya miqyasında yayılmasında əhəmiyyətli xidmətlər göstərmişdir.

Nəhayət, qeyd etmək istərdim ki, R.Əliyev dünya elmində ləyaqətli yer tutur.

**Professor O. Kaynaq (Türkiyə)**

Böyük məmnuniyyətlə və əminliklə qeyd edirəm ki, professor Rafiq Əliyev müasir elmdə ən görkəmli alimlərdən və beynəlxalq fiqurlardan biridir. R.Əliyev Təbriz Universiteti ilə yaxından əməkdaşlıq etmiş, yeni fənlər tədris etmiş, İİR-də 2 kitab çap etdirmiş, Beynəlxalq konfrans keçirmişdir. Təbriz Universitetində elmin və tədrisin təşkilində onun böyük xidmətləri əvəzedilməzdir.

**Təbriz Universitetinin rektoru, doktor,**
**professor M.A.Hüsseyinpur Faizi, (İran)**

Professor Rafiq Əliyev informatika və idarəetmə nəzəriyyəsi sahəsində məşhur alimdir. O, süni intellekt, Soft Computing və intellektual robotlar sahəsindəki elmi nəticələrinə görə ümumdünya alimləri tərəfindən tanınmışdır.

Onun təklif etdiyi ALI-1, ALI-2, ALI-3 qeyri-səlis məntiqləri öz nəzəri və eksperimental təsdiqini tapmış və praktikada geniş tətbiq olunur. R.Əliyev intellektual sistemlər nəzəriyyəsini xeyli inkişaf etdirmişdir.

R.Əliyev informatika və idarəetmə sahəsində nüfuzlu elmi məktəbin yaradıcısıdır.

**Ukrayna EA Kibernetika institutunun direktoru,**
**akademik İ.V.Serqeyenko (Ukrayna)**

Özbəkistanın elmi ictimaiyyəti prof. R.Əliyevi qeyri-səlis məntiq, idarəetmə nəzəriyyəsi, intellektual sistemlərin yaradılması sahəsində dünya alimlərinin müsbət rəyini almış, prinsipial yeni nəticlər vermiş görkəmli alim kimi tanıyır.

R.Əliyevin müxtəlif dillərdə nəşr olunmuş monoqrafiyaları dünyanın çoxsaylı ölkələrində yaxşı tanınır və istifadə olunur. Onun Özbəkistan alimləri ilə də sıx elmi əlaqələri və elmi kadrların hazırlanmasında əvəzsiz xidmətləri var.

**Özbəkistan EA Akademikləri:**
**V.A.Kabulov, N.R.Yusubbekov**

Professor Rafiq Əliyev informatika, hesablama texnikası və süni intellekt sahəsində geniş tanınmış, dünyada öz adı və yeri olan alimdir. Dünya elmində belə hesab edirlər ki, R.Əliyevin yaratdığı metodlar elmi idrakı əhəmiyyətli dərəcədə zənginləşdirmişdir.

Uzun illərdir ki, R.Əliyev Gürcüstan Akademiyasının alimləri ilə əməkdaşlıq edir və bu elm sahələrinin inkişafına yaxından kömək edir.

R.Əliyevi bir alim kimi səciyyələndirən xüsusiyyətlərdən biri də onun novatorluğu, daim yeni elmi-təşkilati problemlərin qoyulması və həll edilməsidir.

**İdarəetmə sistemləri institutunun direktoru,**
**Akademik M.E.Salukvadze (Gürcüstan)**

R.Əliyevin süni intellekt, qeyri səlis məntiq və Soft Computing sahələrində əldə etdiyi elmi nailiyyətlər dünya miqyasında tanınmışdır və bu elmi nəticələr sənayenin bir sıra sahələrində geniş tətbiq olunmuşdur.

**Kiyev Avtomatika İnstitutu, Elmi-Tədqiqat və istehsal korporasiyasının**
**direktoru, professor N.A.Ryumşin (Ukrayna)**

Sizin mühazirəyə qulaq asmaqdan məmnun oldum. Bizim ABŞ-dakı beynəlmilləl qrup, – Çilidən 3 professor, Macarıstandan olan professor B.Bede, Avstriyadan professor M.Obergugenberger, Braziliyadan R.Bassanezi və İtaliyadan olan L.Stefanni sizin məqalələrinizi çox böyük maraqla oxuyurlar.

**Professor V.Lodvick (ABŞ)**

R.Əliyevin invariant idarəetmə sistemləri sahəsində uzun illər apardığı tədqiqatların sanballı nəticələri elmi ictimaiyyətin rəğbətini qazanmışdır. Onun aldığı nəticələr xeyli idarəetmə vasitələrinin hazırlanmasına və sənayeyə tətbiq olunmasına imkan verdi. Azərbaycan bu işlərə görə sənaye invariant sistemlərinin tətbiqi və işlənilməsi sahəsində sayılan mərkəz oldu. O, neftayırma, neftkimya, əlvan metallurgiya və sənayenin digər sahələrində tətbiq olunmuş bir sıra böyük avtomatlaşdırılmış sistemlərin baş konstruktorudur.

R.Əliyev informatika və idarəetmə nəzəriyyəsi sahəsində beynəlxalq səviyyədə tanınmış alim, süni intellekt sistemləri, qeyri-səlis və Soft Computing nəzəriyyəsi, inteqral idarəetmə sistemləri, intellektual robotlar, invariant və qeyri-səlis dinamik sistemlər nəzəriyyələri sahəsində əldə etdiyi prinsipcə yeni nəticələrlə dünya elmini zənginləşdirmişdir...

**Azərbaycanın görkəmli elm xadimlərindən – akademiklər İbrahim İbrahimov, Məcid Rəsulov, Həsən Abdullayev, Tofiq Əliyev, Azad Əfəndizadə, Çingiz Cuvarlı, İsmayıl İbrahimov, Maqsud Əliyev, Mirabbas Qasımov**

## LÜTFİ ZADƏ RAFİQ ƏLİYEV ÜÇÜN DÜNYA ALİMLƏRİNƏ MÜRACİƏT ETDİ

Qeyri-səlis məntiq nəzəriyyəsinin banisi, dünyanın görkəmli alimlərindən olan əslən azərbaycanlı Lütfi Zadə yaxın dostu və varisi olan professor Rafiq Əliyevin son elmi nəzəriyyəsi üçün dünya alimlərinə müraciət edib. Lütfi Zadə müraciətində dünya alimlərini Rafiq Əliyevin dünyaya səs sala biləcək sonuncu qərar qəbuletmə nəzəriyyəsini müzakirə etməyə çağırır. Onun məktubunu dünya alimləri maraqla qarşılayıblar.

"Real həyatımızda qeyri-müəyyənlik şəraitində qərar qəbuletmə kimi vacib olan az məsələlər var. Gündəlik həyatımızda qəbul etdiyimiz qərarların çoxu bu kateqoriyadandır. Zont götürümmü? Pata telefon açmaq lazımdırmı? Fordda olan qiymətli kağızları satmaq lazımdırmı? Və sairə... Daha vacib qərarlar insan fəaliyyətinin planlaşdırılmasında, siyasətdə, konfliktlərin çözülməsində qəbul edilir. Elektron poçtumda məktublara göz gəzdirərkən 2003-cü ildə elmlər doktoru Laski ilə yazışmamıza rast gəldim. Mövzu belə idi: qeyri-müəyyənlik şəraitində qərar qəbuletmədə ehtimal nəzəriyyəsindən istifadə etmək kifayətdirmi? Laski Bayes ehtimal yanaşmasının tərəfdarı olduğundan cavabı "hə" olmuşdu. Mən öz növbəmdə "yox" cavabını əsaslandırmışdım. İndiki dövrümüzdə qeyri-müəyyənlik şəraitində qərar qəbuletmənin müxtəlif əsaslı problemlərinin başa düşülməsində xeyli irəliləmişik. Elmin və biliklərimizin bugünkü səviyyəsindən çıxış edərək qərar qəbuletmə problemlərinə yenidən baxmağa ehtiyac var.

Öncə qeyd edim ki, məsələnin "qeyri-müəyyənlik şəraitində qərar qəbuletmə üçün ehtimal nəzəriyyəsindən istifadə etmək kifayətdirmi" kimi qoymaq özü qüsurludur. Səbəb ondadır ki, istənilən qərarın verilməsi əldə olunan informasiyadan asılıdır. Belə informasiyanın tipləri çoxdur. Ehtimal nəzəriyyəsi müəyyən bir tip informasiya üçün yararlı ola bilər, ancaq başqa növ informasiya şəraitində yararlı deyil.

Fərz edək ki, mən qərar verməliyəm ki, hər hansı götürülmüş qərar qəbuletmə nəzəriyyəsini mövcud informasiya şəraitində tətbiq edim. Bu nəzəriyyə bu informasiya mühitində işləyə bilərmi? Məsələn, tutaq ki, mövcud informasiya təbii dildə təsvir olunmuşdur. Əldə olan bu nəzəriyyə bu informasiya mühiti üçün keçərlidirmi? Bu cavabını gözləyən çox vacib məsələdir. 3 tip informasiyanı fərqləndirməliyik: mümkünlük (hadisənin baş verməsi mümkündür), ehtimal (hadisə müəyyən ehtimalla baş verə bilər), bimodal informasiya. Bimodal informasiya mümkünlük və ehtimal informasiyanın kombinasiyasıdır (daha real və universal informasiya mühiti). İnformasiyanı təsnif etmək üçün informasiya anlayışını məhdudiyyət anlayışı ilə eyniləşdirmək lazımdır. Qərar qəbuletmə parametrlərinə qoyulan məhdudiyyət həmin parametrlərin aldığı qiymətlərə qoyulan məhdudiyyətdir. Məhdudiyyət səlis və qeyri-səlis ola bilər.

3 cür məhdudiyyəti fərqləndirmək lazımdır. Mümkünlük tipli məhdudiyyət parametrin mümkün qiymətlərinin qeyri-səlis çoxluğunu təyin edir. Ehtimal tipli məhdudiyyət parametrin mümkün qiymətlərinin ehtimal paylanmasını təyin edir. Bimodal məhdudiyyət hər iki tip məhdudiyyətlərin sinerisini ehtiva edir. Bimodal informasiya bimodal məhdudiyyətlərin toplusudur. Məsələn, qərar qəbul edərkən hər hansı bir parametrin (tutaq ki, uduş) qiyməti 10-a bərabər və ya 10-dan böyükdür. Bu klassik mümkünlük informasiya tipidir. Bu parametrin qiyməti böyükdür, yəni uduş böyükdür. Bu qeyri-səlis mümkünlük tip informasiyadır. Bu parametrin normal paylanmasında orta qiyməti 10, səpələnmə 4-dür. Bu klassik ehtimal tip informasiyadır. Parametrin qiymətləri normal qanunla paylanır, orta qiymət böyük, səpələnmə kiçikdir. Bu qeyri-səlis ehtimal tip informasiyadır. Parametrin qiymətinin 5 ilə 10 arasında olmaq ehtimalı 0,6 və 0,8 intervalındadır. Bu klassik bimodal tip informasiyadır.

Nəhayət, əgər informasiya belə verilibsə ki, parametrlərin qiymətinin (məsələn, uduşun və ya itkinin) kiçik olması ehtimalı böyükdür, onda bu qeyri-səlis bimodal informasiyadır.

Bu gün elmi ədəbiyyatda müxtəlif qərar qəbuletmə nəzəriyyələri mövcuddur. Sual yaranır: bu nəzəriyyələrdən hansı, hansı informasiya mühitində işləyə bilər? Bu suala cavab vermək üçün nəzəriyyənin tətbiq olunma sahəsi anlayışını qəbul etməliyik. Nəzəriyyənin tətbiq oluna bilmə sahəsi elə ən ümumi informasiya tipidir ki, bu şəraitdə bu nəzəriyyə işləyə bilər. Kahnenman və Tverskinin Perspektivlər qərar qəbuletmə nəzəriyyəsinin (1979) əsasında ehtimal nəzəriyyəsi durur, yəni klassik bimodal informasiya durur. Deməli Perspektivlər nəzəriyyəsinin tətbiq oluna bilmək sahəsi klassik bimodal informasiya sahəsidir. Ümumiləşdirərək deyə bilərik ki, ehtimal nəzəriyyəsinə əsaslanan bütün qəbuletmə nəzəriyyələrinin istifadə oluna bilmək sahəsi klassik bimodal informasiya mühitidir. Elə buradan ehtimal nəzəriyyəsinə söykənən bütün qərar qəbuletmə nəzəriyyələrinin niyə məhdud tətbiq olunması aydın olur. Ehtimal nəzəriyyəsinə əsaslanan qərar qəbuletmə nəzəriyyələri qeyri-səlis bimodal informasiya şəraitində işləyə bilməzlər. Bu məhdudiyyət o faktla əlaqədardır ki, təbii dildə verilən informasiya qeyri-səlis bimodal informasiyadır. Aşağıdakı məsələyə baxaq. İki seçim var: 1) yüksək uduş, kiçik ehtimalla; 2) böyük uduş, kiçikdən biraz böyük ehtimalla.

Hansı seçimi edək? Ehtimal nəzəriyyəsinə əsaslanan qərar qəbuletmə nəzəriyyələri bu suala cavab verə bilərmi? Yox. Professor Bellman və mənim tərəfimdən təklif olunmuş "Qeyri-səlis mühitdə qərar qəbuletmə" (Management Science, 1970) nəzəriyyəsinin də tətbiq sahəsi qeyri-səlis mümkünlük informasiya mühiti idi, qeyri-səlis bimodal yox. Qərar qəbuletmə nəzəriyyəsi varmı ki, tətbiq olunma mühiti qeyri-səlis bimodal informasiyadır. Bu gün cavab var: bəli. Bu nəzəriyyə professor Rafiq Əliyevin öncül fundamental (pionering – Lütvi Zadə) nəzəriyyəsidir. "Mükəmməl olmayan informasiya şəraitində qərar qəbuletmə nəzəriyyəsi" (World Scientific, 2014). Rafiq Əliyevin nəzəriyyəsi Kahnenmanın və Tverskinin 2002-ci ildə iqtisadiyyat sahəsində Nobel mükafatına

layiq görülmüş perspektivlər nəzəriyyəsindən xeyli irəli getdi. Bu yazıda verilmiş konseptual struktur müxtəlif qərar qəbuletmə nəzəriyyəsinin imkanları və məhdudiyyətlərini müəyyən etməyin əsaslarını verir. Yekunda demək istərdim ki, ehtimal nəzəriyyəsi qeyri-səlis bimodal informasiya şəraitində tətbiq oluna bilən qərar qəbuletmə nəzəriyyəsinin əsası ola bilməz. Müzakirə üçün cavabları xoş məramla gözləyirəm".

**Hörmətlə: Lütfi Zadə,**
**professor**
22.07.2014

## SU KİMİ SAKİT VƏ GÜCLÜ...

Elə insanlar var ki, onlarla nəinki ünsiyyətdə olanda, hətta onların haqqında düşünəndə də ürəyin açılır, ən sıxıntılı anlarında da özündə bir güc, ümid və təskinlik tapırsan. Belə insanlar müxtəlif peşə sahibləri ola bilər: alim, şair, rəssam... Rəhmətlik Əbülfəz bəyi yada salıb deyirəm: hətta siyasətçi də.

Dağın ucalığı onun zirvəsiylə ölçüldüyü kimi, millətin böyüklüyü də təkcə əhalisinin sayı, ərazisinin genişliyilə deyil, həm də bu cür insanların varlığıyla ölçülür. Mənim əziz dostum, dünya şöhrətli alimimiz Rafiq Əliyev məhz bu cür, öz millətinin böyüklük ölçüsü olan şəxsiyyətlərdəndi. Bu cür insanlar hər millətin bəxtinə düşmür və hər millət də bəxtinə düşən bu cür insanları vaxtında qiymətləndirməyi bacarmır. Hətta bu cür insanları sancmaqdan zövq alanlar da tapılır, "uman yerdən küsərlər" deyib bu nankorluğa, naşükürlüyə haqq qazandırmaq istəyənlər də. Amma bunlar hamısı xırda və adi şeylərdi. Adi olmayan isə, çox vaxt alimini nadan, şairini təlxək sifətində görməyə adət eləmiş bizim bu gözəl məmləkətimizdə də Rafiq Əliyev kimi şəxsiyyətlərin varlığıdı.

Biz onunla tez-tez bir yerdə oluruq, müxtəlif məclislərdə, tamaşalarda, konsertlərdə, xeyirdə, şərdə... Və mən hər yerdə insanların ona necə böyük sevgi və hörmətlə yanaşdığını görürəm. Sevgi və Hörmət. Bu iki söz çoxları üçün bəlkə də sinonim kimi səslənir. Amma bu belə deyil. Ən hörmət elədiyimiz adam ən sevdiyimiz adam olmaya da bilər, ya da əksinə...

Uşaq vaxtı, məktəbdə ən sevdiyimiz müəllimlər hansılarıydı? Dərs soruşanda bizi o qədər də çətinə salmayan, babat cavab verənə yaxşı qiymət yazan rəhmli, ürəyiyumşaq müəllimlərimiz. Bəs ən hörmət elədiklərimiz hansılarıydı? Dərs soruşanda az qala canımızı alan, yaxşı qiymət canından kəlbətinlə çıxan zəhmli, sərt müəllimlərimiz. Doğrudu, ikincilərə olan hörmətin mayasında bir az qorxu da vardı. Amma sinifdən sinifə keçdikcə ağlımız çox şey kəsməyə başladı; bizə qarşı çox sərt olan o zəhmli müəllimlərin müdiriyyət qarşısında necə əzilib-büzüldüyünü də gördük, həmin o ürəyiyumşaq müəllimlərin heç nədən qorxmadan müdiriyyətin üzünə ən acı tənqidləri necə dediyini də eşitdik. Və başa düşdük ki, "ürəyiyumşaqlıq" heç də "qorxaqlıq", "sərtlik" heç də "mərdlik" demək deyil.

İnsan daha çox nədən qorxur; sudan, yoxsa oddan? Əlbəttə ki, oddan. Amma hansı daha güclüdü? Əlbəttə ki, su.

Mənim əziz dostum Rafiq Əliyev ən böyük yanğınları söndürməyə qadir olan su kimi sakit və güclüdü. O, həm də su kimi saf və təmizdi. "Su aydınlıqdı" deyiblər.

Nazim Hikmətin məşhur misraları yadıma düşür:

*Su kənarında durmuşuq çinarla mən.*
*Suyun şövqü vurur bizə, çinarla mənə.*

Böyük alimimiz Rafiq Əliyevin su kimi saf və təmiz ömrünün şövqü, işığı, havası, aydınlığı təkcə onun dostlarının yox, onu ürəkdən sevən, hörmət bəsləyən minlərlə insanın ömrünü, ağlını, düşüncəsini işıqlandırır, hətta öz ömründən, taleyindən, vətəndən, millətdən küskün olanların da ürəyində ümid oyadır.

Çünki bizim bu başıbəlalı məmləkətimizdə Rafiq Əliyev kimi şəxsiyyətlər varsa, özü qürbətdə olan gözəl şairimiz Məmməd İsmayıl demişkən, "hələ yaşamağa dəyər bir az da..."

**Ramiz Rövşən,**
**şair**
11.02.2017

## HƏYATDA, ELMDƏ VƏ MƏNƏVİYYATDA ŞƏXSİYYƏT OBRAZI

Hər bir millətin səviyyəsini müəyyən edən amillərdən biri onun elmi potensialıdır. Texnologiyalar zəmanəsində, innovasiyalar əsrində bu daha çox qabarıq görsənən bir amilə çevrilib. Elmimiz zəmanə ilə ayaqlaşa bilməsə də, xoşbəxtlikdən bu meyarlar baxımından dünya elmi ilə bağlantımızı saxlayan bir alimimiz var. Professor, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Rafiq Əliyev zəmanə ilə ayaqlaşmaq baxımından bu məmləkətin üz ağlığı, güvənc yeri, elm brendidir. Zərdabi hələ ilk qəzetçilik fəaliyyətinə başlayanda haray salırdı ki, elm təlim etməsək, uşaqlarımızı oxutmasaq zamanın gərdişindən geri qalacaq, zəngin bir məmləkətə sahiblik haqqını itirib getdikcə inkişaf edən qonşularımıza kirəkeşlik edəcəyik. O yazırdı ki, elmsiz "bu zəmanədə dolanmaq mümkün deyil. Ələlxüsus bizim yerlərdə ki, qonşularımız elm təhsil edib günü-gündən irəli gedir, bizim əlimizdə olan mülki-malımıza sahib olurlar və bir az vəqtdən sonra biz onlara rəncbərlik edib, onların malını daşımaqdan ötrü kirəkeşlik edəcəyik". Böyük bir mütəfəkkir olaraq Zərdabi hər kəsdən daha öncə anlamışdı ki, milli inkişafa gedən yol elmdən, məktəbdən keçməlidir. Rafiq Əliyevin keçdiyi həyat yolu, yalnız həyatın deyil, elmin, ictimai düşüncənin zirvəsinə doğru yorulmaz yolçuluğu Zərdabinin dediyi yuxarıdakı sətirlərin canlı bir nümunəsi, maraqlı bir örnəyidir.

Rafiq müəllimin həyat yoluna baxanda orta məktəbi qızıl medalla, ali məktəbi fərqlənmə diplomu ilə bitirməsinin şahidi olursan. 25 yaşında texnika üzrə elmlər namizədi, 32 yaşında isə elmlər doktoru olan Rafiq müəllim 34 yaşından professordur. Ötən illər ərzində o, 130-dan çox elmlər namizədi, 30 nəfərə yaxın elmlər doktoru hazırlayıb. Doğrusu böyük nailiyyətdir, bir ömürdə bu qədər möhtəşəm elmi potensial yaratmaq, onlara istiqamət vermək, istedadlı insanların əlindən tutmaq, intellektli gənclərə yol göstərmək hər alimə nəsib olan müəllim xoşbəxtliyi deyil. Bunu ancaq elmin və müəllimliyin vəhdətində dayanan, millətin taleyində inkişafın istinad nöqtəsini düzgün müəyyən edən, içində azadlıq ruhu olan bir ziyalı, bir alim edə bilərdi. Necə ki, Rafiq müəllim edib. Əslində, böyük elm tək böyük potensialın, yüksək intellektin, tükənməz zəhmətin məhsulu deyil. İçində azadlıq ruhu olmayan alim böyük elmi kəşflərə imza ata bilməz. Əsərləri Azərbaycan, Rusiya, Türkiyə ilə yanaşı, New Jersey, London, Singapure, Hong Kong, Berlin, Köln və dünyanın bir sıra digər böyük elm mərkəzlərində nəşr olundu. Bir neçə il əvvəl Almaniyanın məşhur "Şprinqer" nəşriyyatı onun "Qeyri-səlis məntiqə əsaslanan ümumiləşdirilmiş qərar qəbuletmə nəzəriyyəsinin əsasları" adlı kitabını çap etdi. Təxminən iki il əvvəl Birləşmiş Ştatlarda Rafiq müəllimin nəşr olunmuş kitabı insan beyninin qeyri-səlis neyron şəbəkələri haqqında dünya elmi üçün yeni istiqamətin əsasını qoydu. Əsərlərinin yayılma coğrafiyasından görünür ki, apardığı tədqiqat işləri

dünyanın həmişə diqqət mərkəzində olub. Keçmiş SSRİ-nin Dövlət Mükafatından tutmuş ABŞ-ın ən yüksək elmi mükafatı sayılan "Dünya elmində ömürlük nailiyyətə görə" mükafatlarını qazandı Rafiq Əliyev. Amma nə bu mükafatları qazananda öz təmkinini pozdu, nə də vaxtı ilə seçildiyi akademik yeri qeyri-qanuni olaraq əlindən alınanda, hətta ictimai mövqeyinə görə 2011-ci ildə uzun müddət rəhbərlik etdiyi kafedranın müdiri vəzifəsindən uzaqlaşdırılanda belə qüruruna xal düşmədi. Yaxşı xatırlayıram 2011-ci ildə hakimiyyətin göstərişi ilə Ziyalılar Forumuna qarşı geniş kampaniya başlamışdı. Təkcə Bakı Dövlət Universitetindən 245 nəfər elm "fədaisi", təhsil "əzabkeşi" Ziyalılar Forumuna qarşı müraciətə imza atmışdı. Forumun altı həmtəsisçisi olsa da, həmin kampaniyanın ünvanlı hədəfi məhz Rafiq Əliyev idi. Digər universitetlər də bu kampaniyada fəal iştirak edirdilər. Hətta, Akademiyanın bir qrup həqiqi və müxbir üzvləri hesabdarlığa qurşanıb guya Rafiq Əliyevin elmi işlərinə dünyada elə də çox istinadlar olmadığını "sübuta" yetirmək istəyirdilər. Fəqət unudurdular ki, Rafiq Əliyev bir alim kimi özü, artıq tarixin həmin məqamında dünya elminin Azərbaycanda istinad nöqtəsinə, Azərbaycan elminin dünyada etiraf məqamına çevrilmişdi.

Dünyanın qəribə işləri var. "Samizdat" nəşrlərlə akademik seçilən bir məmləkətdə Rafiq Əlyev kimi dünya nəşrləri ilə tanınan və təmsil etdiyi ölkəni beynəlxalq elm indeksinə daxil edən bir alim Azərbaycanda Akademiya adına fəaliyyət göstərən bir qurumun həqiqi üzvü deyil. Hələ bu azmış kimi, həmin "Samizdat"ların zaman-zaman ölkənin elm kimliyini müəyyən edən bir şəxsə yuxarıda qeyd olunduğu kimi necə daş atdıqlarının da şahidi olmuşuq. Bu məqamdə yeni böyük Zərdabini zikr etmədən keçinmək olmur. O, yazırdı: "Ey millət təəssübü çəkən qardaşlar, aləmi-məhşərdə "Vaümmətа!" – deyən peyğəmbər olacaq. Amma indi biz elə biəhəmiyyət olmuşuq ki, xaricilər "Vamillətа" – deyib öz işlərini möhkəm edən vaxtda biz "Vanəfsə" deyib milləti işlərimizə rövnəq vermirik, hətta zəhmət çəkib elm təhsil edənlərimizi incidib qovmaq ilə millətimizi kor edirik… Ey elm, təhsil edən cavanlarımız! Doğrudur, bizim vətən qardaşlarımız ilə üns tutmaq çətindir, siz danışdığınızı onlar başa düşməyib, əfalınızı şəriətə namüvafiq hesab edib, sizə kafir deyib incidəcəklər. Doğrudur, qeyri-millətlər sizin kamalınızı görüb sizə artıq rütbə verəcəklər, amma insaf deyil ki, beş gün ömrün ləzzətindən ötrü milləti, qardaşlarınızı atıb, onları kor və sərgərdan qoyasınız."

Rafiq müəllim dəqiq elmlərin təmsilçisidir. Əslində dünyanın, elmi daha da dəqiqləşdirən bir nəslinin parlaq nümayəndəsidir. Ona görə onun elmi düşüncələrinin hüdudlarını, qeyri-səlis məntiq sahəsindəki elmi yeniliklərin müəyyənləşdirmək və qiymətləndirmək mənim üçün çətindir. Doğrusu, mənim riyazi məntiqin nə səlis, nə də qeyri-səlis sillogizmi ilə aşınalığım yoxdur. Amma onu deyə bilər ki, Rafiq Əliyev özünün səlis düşüncələrin qeyri-səlis məntiqin bir qədər mücərrəd qəlibinə sığışdıran və qeyri-səlis məntiqin elmi imkanlarını səlis şəkildə ictimai münasibətlərə, insanlıq münasibətlərinə tətbiq edə bilən çox az alimlərdəndir.

Rafiq Əliyev deyəndə istər-istəməz həm də Ziyalı Forumu yada düşür. Şübhəsiz ki, Forum böyük ziyalımız Rüstəm İbrahimbəyovun ətrafında yaranmışdı və həmin ortamda Rafiq müəllimin də öz yeri, öz missiyası var idi. Forum təsisçilərinin sayı çox olmasa da, onların mənəvi çəkisi və ictimai rəyə təsir imkanları böyük idi. Təsisçilərin hər biri öz sahəsində böyük uğurlara imza atmış ziyalılar idi. Rafiq Əliyev isə bunun aydın bir örnəyi idi. Yazıçı, sənətkar, alim nüfuzu ziyalı mövqeyi ilə cilalananda böyük mənəvi gücə çevrilir. Ziyalı Forumu bunun yaxın tariximizin yaddaşına həkk olunan maraqlı bir nümunəsi idi və proseslərin həmin məqamında Forum içində yaşadığımız tarixin yaradıcısı rolunda çıxış edirdi. Doğrudan da Rüstəm bəyin evində Azərbaycan ziyalılarının yaddaqalan bir mühiti formalaşmışdı və həmin mühiti yaradanlardan biri də məhz, Rafiq Əliyev idi. Forum müzakirələrində o, Azərbaycan elmi, təhsili, iqtisadiyyatı, sosial həyatı və mənəvi mühiti ilə bağlı bir sıra təməl istiqamətlərin maraqlı mənzərəsini, milli tale baxımından bizi gözləyən təhlükələrin ağrılı meyillərini təqdim etmişdi. Mən deyərdim ki, hələ neft gəlirlərinin ən pik vaxtında Rafiq müəllim son iki ildə ölkəni bürüyən sosial-iqtisadi böhranın anonsunu vermiş, onun konturlarını göstərmişdi. Lakin təəssüflər olsun ki, həmin vaxt bunu ciddiyə alan olmadı.

Rafiq müəllim uzun müddət rəhbər vəzifələrdə çalışıb. Keçmiş Mərkəzi Komitədə şöbə müdiri, institut rektoru olub. Amma getdikcə natəmizləşən dünyada öz təmizliyini qoruyub saxlaya bilib. Çünki onun üçün "təmiz adam" anlayışı maddiyatla deyil, mənəviyyatla bağlı olub. Yüksək intellekt sahibi olmaqla yanaşı Rafiq müəllim həm də incə bir ruh adamıdır, gözəl musiqi duyumu var, poeziyanı yaxşı bilir. Poetik təqlidi Ramiz Rövşənə olsa da, bütövlükdə Azərbaycan poeziyasını ruhuna hopdura bilib. Məhz bu keyfiyyəti onu dəqiq elmlərlə məşğul olan həmkarlarının çoxundan fərqləndirir. Bir də alim üçün hər şeydən daha çox vacib olan mənəvi keyfiyyət ŞƏXSİYYƏT məsələsidir. Əslində, şəxsiyyəti olmayan alim elmi də simasızlaşdırır. Natamam şəxsiyyətlə tam bir düşüncə sisteminə çevrilən elmi yeniliklərə, mükəmməl nəzəriyyələrə imza atmaq sadəcə olaraq mümkün deyil. Bu baxımdan Rafiq Əliyev sözün tam mənasında şəxsiyyətdir: həyatda şəxsiyyətdir, elmdə şəxsiyyətdir, mənəviyyatda şəxsiyyətdir. Onun ömrünün ən böyük anlamı da elə bundan ibarətdir.

**Cəmil Həsənli,**<br>
**professor**<br>
**Şanxay**<br>
09.02.2017

## MİLLİ-MƏNƏVİ SƏRVƏTİMİZ – RAFİQ ƏLİYEV

İnsan yaşlaşdıqca zahiri görünüşü gündən-günə nurlanırsa, bu, insanın daxili aləminin zənginliyindən xəbər verir.

Ətrafı işıqlandırır…

Ovqatını təzələyir, sənə yeni ruh verir.

**Millət, xalq insanı ilə, seçilmişləri ilə tanınır**

İnsan özünü dərk edəndən, vətən məhfumunu anlamağa başlayandan könlündən, düşüncəsindən həmişə xüsusi bir istək keçir: "Özününküləri – öz millətinin nümayəndələrini ön sırada görmək". Normal istəkdi. Tanıdıqlarını, görmək istədiklərini yüksək kürsülərdə görəndə, qazanılan titullar sırasında adını, mötəbər məclislərdə səsini eşidəndə ürəyin dağa dönür. Qürurlanırsan. Daxili bir rahatlıq tapırsan.

Mövcud elmi nəzəriyyələrə eyham kimi baxmayan, elm avtoritetləri qarşısında baş əyməyən, dünya elmi ictimaiyyəti tərəfindən qəbul və geniş istifadə olunan elmi nəzəriyyələri, o cümlədən "Sistemlərin dayanıqlıq nəzəriyyəsi", "Ümumi qərar qəbuletmə nəzəriyyəsi" və "Yeni qeyri-müəyyən ədədlər hesabı" ilə millətə baş ucalığı gətirən, hamının uğurlarına sevinən, hamımızı ruhlandıran professor Rafiq Əliyev kimi.

R.Əliyevin respublikamızda və xarici ölkələrdə informatika və idarəetmə sahəsində elmi-tədqiqat işlərinin təşkilində müstəsna rolu var. O, informatika və idarəetmə nəzəriyyəsi sahəsində nüfuzlu elmi məktəb yaradıb, Azərbaycanda, Rusiyada, Almaniyada, Türkiyədə, Kiprdə, İranda və başqa ölkələrdə 150-dən çox elmlər namizədi, 30 elmlər doktoru hazırlayıb. Onun yetişdirdiyi alimlər bu gün dünyanın müxtəlif ölkələrində uğurla çalışırlar.

Rafiq Əliyevin üstünlüklərindən və uğurlarından biri də dünyanın qəbul etdiyi RAFIQ ƏLIYEV MƏKTƏBİdir. Dünyanın aparıcı elm ocaqlarından, nüfuzlu (indeksli) jurnallarından səsi gələn yetirmələri hazırda onun yaratdığı məktəbin ənənələrini təkcə Azərbaycanın elm mərkəzlərində deyil, digər ölkələrdə də davam etdirirlər.

R.Əliyevin rəhbərliyi və iştirakı ilə 1994-cü ildən başlayaraq hər iki ildən bir dünyanın bir sıra ölkələrində "Qeyri-səlis sistemlərin tətbiqi", 2000-ci ildən başlayaraq hər iki ildən bir həm Daşkənddə "Qeyri-səlis sistemlərin tətbiqi və Soft Computing", həm də müxtəlif şərq ölkələrində "Sistem təhlilində, qərar qəbuletmə və idarəetmədə sözlə hesablama və Soft Computing" üzrə beynəlxalq elmi konfranslar keçirilir.

O, Almaniya, İtaliya, İspaniya, Fransa, Türkiyə, Kipr və başqa ölkələrdə keçirilən beynəlxalq elmi konfransların yaradıcısı və sədridir. Onun rəhbərliyi altında keçirilmiş belə konfransların sayı 30-dan çoxdur. O, bu konfransların birincisini hamımızın nağıllar, röyalar şəhəri olan doğma Təbrizdə keçirib. Bu da təsadüfü deyil. Rafiq müəllim o illəri belə xatırlayır: "Təbriz mənim yuxu-

larımın şəhəri idi. Tanrı elə qismət elədi ki, 3 il Təbriz Universitetində çalışmalı oldum (1992-1994, ildə 3 dəfə 1 ay). Bu illər ərzində yeni ixtisaslar açdıq, elmlər doktorları hazırladıq, müasir elm sahələri üzrə ingilis dilində 3 kitab dərc elətdirdik. Ancaq düşünürdüm ki, Təbrizin adını yüksəklərə qaldırmaq, yaşatmaq üçün bu azdır. Dostum, Təbriz Universitetinin rektoru, professor Hüseyn Pur Feyzi ilə dünyada Təbrizin adını yüksəltmək üçün ilk beynəlxalq elmi konfransı Təbriz Universitetində keçirməyi qərarlaşdırdıq. Bütün elmi, təşkilati işləri həyata keçirdik. Konfransa dünyanın müxtəlif ölkələrindən – Amerika, Almaniya, Rusiya, Türkiyə, Azərbaycan və s. ölkələrdən – 500-ə yaxın alim və mütəxəssislər gəlmişdilər. Konfransa bir neçə gün qalmış belə bir fikir irəli sürüldü ki, bu konfrans Tehranda keçirilsin. Mən qətiyyətlə bildirdim ki, bu elmi konfransın keçirilmə yeri Təbriz olmalıdır. Dünya Təbrizi qoy bir elmi mərkəz kimi də tanısın. Bu təkid nəticə verdi. Axı mən düşünürdüm ki, böyük Nizami demişkən;

*Qüvvət elmdədir, başqa cür heç kəs*
*Heç kəsə üstünlük eyləyə bilməz.*

Konfrans çox uğurla keçdi. Bu Təbrizimizin uğuru idi".

Rafiq Əliyev haqqında açıqlama verən Lütfi Zadə görkəmli professorun "İnperfekt (qeyri-müəyyən) informasiya şəraitində yeni qərar qəbuletmə nəzəriyyəsi" işinə görə Nobel mükafatı ala biləcəyini deyib. (Yəni hər hansı bir həyatı məsələ ilə bağlı qərar qəbul edilən mühitdə qeyri-müəyyən şəraitdə informasiya tam, müəyyən olmadığı halda müvafiq, səmərəli, bütün cəhətlər nəzərə alınaraq qərar qəbul edilsin).

Bütün bunları eşitdikcə qürur hissi keçirirsən.

Rafiq müəllimin dünyanın aparıcı universitetlərində tədris olunan xeyli sayda kitabları var. 74 kitabı müəllifi olan Rafiq Əliyev kitabı qonorara, mükafata, təltifə görə yox, ancaq yeni ideyası olanda yazır.

Bəşəriyyəti tərəqqiyə, inkişafa aparacaq, yeni nailiyyətlərin özülü qoyulacaq bu kitabların müəlifinin səninlə bir zamanda yaşamasının, sənin həmvətənin olmasının özü bir xoşbəxtlikdir. Nə mutlu bizlərə ki, Rafiq müəllimlə eyni zamanı və eyni məkanı bölüşürük.

Biz çox zaman özümüzünkülərin – yanımızdakıların qədrini, dəyərini bilmirik. Onlar haqqında əcnəbilərin fikrini eşidəndən sonra qayıdıb ona yenidən baxmalı oluruq. Amma içimizdə hələ də tərəddüd qalır. İnana bilmirik ki, dahi deyilən adamlar bizimlə bir arada yaşaya bilərlər. Onlardan biri bizim tanıdıqlarımızdan biri ola bilər. Biz zamanında özümüzünküləri qiymətləndirmirik. Bizi daima artıq gec olan yoxluq silkələyir. Tərpədir...

Rafiq müəllimin bütün məsələlərə yanaşması qlobaldır, fundamentaldır. Onun yanaşmasında məsələnin özündən çox onu yaradan səbəbləri – qaynaqları öyrənmək, onu törədənlərin nədənlərini açmaqdır. Hadisəni, situasiyanı, onu doğuran səbəbləri araşdıraraq nəticə çıxarmaqdır. Bu ən xırdadan tutmuş,

ən böyük məsələlərə, hadisələrə zaman və məkan baxımını nəzərə almaqla elmi baxış etmək, əsaslanmış qərarlar qəbul etmək bacarığıdır. Bu fikirlərdə, yanaşmalarda dəqiq elm sahəsi ilə məşğul olan adamın baxışının, gəldiyi qənaətin olduğu açıq-aydın hiss olunur. Məhz, fərqlilik də elə bundadır.

Rafiq müəllimin uğurlarının fövqündə insanın azadlığı, azad düşüncə sahibi olması dayanır. Daxili azadlığını həmişə qoruyan Rafiq müəllim hərəkətləri, davranışları ilə nümunədi. Bir də nəfsə qarşı olmağı. "İnsanı şəxsiyyət edən onun nəfsidir. Bütün məsələlərin kökündə nəfs dayanır. Nə qədər savadlı, yaradıcı insan olaraq, elmi dərəcən və ya hər hansı yüksək vəzifə sahibi olsan belə, onda şəxsiyyət olursan ki, nəfsinə hakim kəsilə bilirsən. Bu halda həm də şəxsiyyət kimi yaddaşlarda qalırsan. Bütün səhv addımlarına rəğmən, insan özünü necə təqdim etməsinə, onun hansı formada təqdim edilməsinə baxmayaraq, istənilən halda məhz nəfsinə hakim olanlar yaddaşlarda qalır, xatırlanır...".

**Həyat çətinliklərlə zənginləşir**

Zəhmət insanı ən uca zirvəyə qaldırır. İnsanı çətinliklər bərkidir. Püxtələşdirir.

Bir də gendən gələn şeylər var. Sən onun daşıyıcısısan. Daşıyırsan və ötürürsən.

Təmizlik, daxili saflıq, xarakter...

Rafiq müəllim təmiz yaşamaqdan, öz zəhmətinin sayəsində qazanaraq dolanmaqdan söz düşəndə daima iki şeyi misal gətirir: "Atam Ağdamda idarə müdiri işləsə də, ailəmizi ancaq maaş ilə dolandırırdı. Bu pul ailənin yeməyinə və geyiminə çatırdı. Uşaqların kitab-dəftərinə pul qalmırdı. Uşaq vaxtı barama qurdu saxlayırdıq ki, il ərzində lazım olan kitab-dəftəri ala bilək. Bir dəfə tut ağacına çıxıb budağı qıranda dəhrə əlimdən çıxıb ayağıma dəydi. O iri göy yara yeri qıçımda indi də qalır. Hər dəfə onu görəndə o günləri xatırlayıram. Qıçımdakı o göyərti mənim "Həyat mayakımdır".

"Moskvada aspiranturada oxuduğum illəri tez-tez xatırlayıram. Təzə evlənmişdik. Aldığım təqaüd ayın axırına çatmırdı. Aidə xanım utana-utana mağazadan bir alma, iki kartof alırdı. Amma mənə heç nə demirdi. Sonra müdafiə etdim. Maaşım artdı. Ev aldım. Mükafat aldım. Kitablarım çıxmağa başladı... İmkanlarım xeyli genişləndi. Amma o günləri heç vaxt unutmadım.

Bir dəfə elmi rəhbərim bizi evinə qonaq çağırdı. Qış vaxtı idi. Aidə xanım nazik ayaqqabı geymişdi. Professor Petrov ayaqqabını görüb təəccübləndi ki, qarda belə ayaqqabımı geyərlər? Dinmədik. Deyə bilməzdik ki, elə olanı budu. Yəni biz bu əzablardan keçib gəlmişik".

Rafiq müəllim çox dözümlüdür. Ən ağır hadisələrə, situasiyalara müdrikcəsinə yanaşma var bu müdrik insanda. Yaxınlarını, doğmalarını belə əsəbləşdirən, özündən çıxaran insanlara, hadisələrə ötəri bir təbəssümlə yanaşır. Alim olmayıb özünü alim kimi (hətta dünya səviyyəli alim kimi) təqdim edənlərə də, danışıqlarında özü olmayanlara da, yalançı vətənpərvərlərə də. "O da elədi.

Mən onu olduğu kimi qəbul edirəm", – söyləyir. Emosiyasız. Sakitcə... Böyük olaraq. "Siz ona niyə elə reaksiya verirsiz. Hamı eyni cür olsa, dünya yeknəsək olar", – deyərək.

Onun təbəssümü qarşısında boşalırsan, yumşalırsan. Qeyri-ixtiyari sən də olanları elə o təbəssümlə də qarşılamalı olursan. Hər halda o anda...

İlk baxışdan, danışıqdan, təmasdan sadə, sakit görünən, səsində, baxışında daima qəribə bir mülayimlik hiss olunan bu insanda işinə, yoluna, əqidəsinə qarşı inanılmaz bir prinsipiallıq var. Dönməzlik var. Və bir də xoşlamadığı, fikir və düşüncələri üst-üstə düşməyən insanların yaxşı işini görəndə, xoş xəbərini eşidəndə onları o məqam üçün qiymətləndirməsi və hadisəyə sevinməsi. Bəlkə də budur insanların ona olan sevgisinin səbəbi.

"Dünyanın tanınmış alimisiz, tez-tez elmi konfranslarda sədr, ya iştirakçı kimi iştirak etmək üçün ABŞ-a, Avropa ölkələrinə getməli olursunuz. Niyə gedib ABŞ-da, ya Avropa ölkələrinin birində yaşamırsız?", – deyə soruşanlara, "mən indi işğalda olan Qarabağda doğulmuşam. Onu bu vəziyyətdə qoyub hara gedim?", – cavabını verən Rafiq müəllim söhbətlərində, hətta elmi müsahibələrindəki pauzalarda da xəyalən o yerlərə gedir. O yerləri gəzib gəlir. Ağdamdakı evlərinin eyvanındakı mizin siyirtməsindəki yazılarında qalan uşaqlıq xatirələrini yada salır. Olanlardan-keçənlərdən danışır. O illərlə söhbət edirmiş kimi...

Musiqini çox sevir. Bəlkə də bu onun doğulub boya-başa çatdığı yerlə, məkanla – Qarabağla, Ağdamla bağlıdır. Klassik musiqini, muğamları, bəstəkar mahnılarını sevə-sevə dinləyir. Orta məktəbdə tar sinfinə getməsi ona musiqi ilə bağlı fikrini bildirmək imkanı verir. "Zəminxarə"yə qulaq asmaqdan doymur.

İnsan kənara çıxdıqca Vətənini, yurdunu və millətini daha çox sevməyə başlayır.

Yəqin məsafə sevgilə düz mütənasibdir.

Dünyanın harasında olursa olsun, onun adının yanında Azərbaycanın, Ağdamın, doğulduğu Novruzlu kəndinin adının yazılması, səslənməsi və onunla bağlı, əsasən də xarici dilli yazılarda bu adların olması ona xüsusi xoş bir əhval-ruhiyyə gətirir. Zövq verir. "Mən yurdumu, vətənimi, Azərbaycanımı dünyada tanıtmağa çalışıram", – söyləyir. Fikirləri, düşüncələri, ideyaları ilə dünyanı gəzən, dünyanın elm nəhənglərini öz düşüncəsi, ideyaları ilə təəccübləndirən bu adamın məmləkətinə, millətinə xüsusi bir sevgisi var.

Hər şeydə nəfsini saxlaya bilən Rafiq müəllim dostlara olan sevgi nəfsini saxlaya bilmir. Düşüncəsi, əqidəsi üst-üstə düşən insanları görəndə, "Bu gün mən daha çox qazandım", – deyir. "Sizləri tanıdım. Dost qazandım", – söyləyir. İnsanın yeni nailiyyətinə, uğuruna çox sevinir. Demokratik düşüncəli, daxilən azad insan görəndə, "hələ bu millət ölməyib, öləziyib", – deyərək, daxilən bir rahatlıq tapır.

Milləti, xalqı, dövləti tanıdan, ucaldan hər kəsin uğurunu öz uğuru sayır. Uğura sevinir.

Nə yaxşı ki, sevə-sevə ömrünü həsr etdiyi elm sahəsi var. Ona, ölkəsinə, hamımıza uğur və sevinc gətirən elmi nailiyyətləri var. Gözəl övladları, nəvələri. Bir də dəyər verdiyi yaxşı dostları var.

Rafiq müəllim ayrılıqdan ayrıla bilmir. Ayrılmaq istəmir. Qarabağ itkisindən sonra onun da içində bir həsrət, ayrılıq var. Yurd həsrəti. Yurd ayrılığı. Bu ayrılıqların üstünə bir əbədi ayrılıq da gəldi. Onu xatirələrin qoynuna alıb aparan, hər an yada salan, yadlaşmayan, onu tək buraxmayan həyat yoldaşı Aidə xanımın ayrılığı...

Rafiq müəllim son vaxtlar bağ evinə ancaq dostları ilə gedir. Hər dəfə hamı oranı tərk edəndə bağı bir neçə dəfə təkcə addımlamağa başlayır. Hərdən əlini çənəsinə dayayaraq nələrəsə cavab verirmiş kimi dayanıb gözünü bir nöqtəyə zilləyir. Üzünün ifadəsi dəyişir. Baxışlar dəyişir...

Sanki “Ayrılıq nə yaman çətin, ağır olurmuş”, – söyləyir özü-özünə. Heç kim onu o ovqatdan ayırmaq istəmir. Hamı bilir ki, o, indi tək deyil. (Əslində son vaxtlar həmişə belə olur.) Yanındakı xəyalıyla üstünü qum örtmüş köhnə addım izlərinin üzəri ilə qoşa addımlarla həyəti gəzməyə başlayır. Hərdən budağı yuxarı qaldırır ki, yanındakına toxunmasın. Əlini qolundan keçən əlin üstünə qoyub yanındakına nəsə pıçıldayır, nəyisə xatırladır. Ağacın yarpağını sığallayır, çiçəyini qoxlamaq üçün ona tərəf əyir. Uzaqlardakı, xatirələrdəki sevincli günləri sanki təzədən yaşayır. Həyətin sonundakı hasara çatıb dayanır. Bir vaxtlar yaşıl, güllü-çiçəkli bağın nə tez solduğunu, saraldığını sanki indi görür. İndi hiss edir. Geriyə dönüb ətrafa – saralan, quruyan güllərə, çiçəklərə baxır... O, olan hər yerlərdə ONU arayır. Sonda başını qaldırıb yoxluğu evin eyvanında axtarır. Səhərlər, axşamüstü o eyvandan bəslədiyi güllərə, çiçəklərə, ağaclara və ona baxan, ONA.......

Üzünə qonmuş müvəqqəti təbəssüm sönür. Gözündəki sevinc yox olur. Dayanıb uzaqlara baxır.

Həyət qapısı bağlanmamış bir də geri dönüb olanları yerinə qoyur. Xatirələri bir həftəlik könülsüz baş-başa buraxıb, sevinci yox olmuş, şənliyi sönmüş bağ evindən çıxır…

Ən çox danışan sükutdur, deyirlər. Rafiq müəllimin sükutu adama hər şeyi deyir. Eşitmək istədiyini də, demək istədiyini də. Onunçün pauza fikirlə qərar arasındakı son aralıqdır. Qərarlaşma zamanıdır.

Söhbət, danışıq əsnasında yaranan pauzadan sonra bilirsən ki, fikrin tam əhatəli yekunu veriləcək.

“Rafiq Əliyev dünyanın ən görkəmli alimlərindən biridir. Hər bir ölkə istəyər ki, onun Rafiq Əliyev kimi alimi olsun”, – söyləyir, Böyük Lütfi Zadə.

Rafiq müəllim həqiqətən xalq üçün, millət üçün lazım olan çox əziz bir varlıqdır. Töhfədir. Bu reallıqdır.

Aristotel məntiqini qəbul etməyən, 0-la 1 arasında nə qədər rəqəmlərin, ağla qara arasında çoxlu sayda rənglərin, rəng birləşmələrin, kəskin fərqlər arasındakı keçidlərin olduğunu sübut edən, bunlarla bağlı yeni nəzəriyyələr yaradan adamın son vaxtlar ancaq qara geyinməsi də başa düşüləndi...

Özü nefti sevməsə də, nədənsə Rafiq müəllimə kənardan baxanda o, mənə nefti xatırladır. Amma Azərbaycan neftini yox, Norveç neftini. (Onu neft buruqlarına bənzədirəm. Uzaqdan səmanın qoynunda görünən neft buruqlarına). Xalqın, insanların gələcəyinə yönələn, xeyir verən, hamının ola bilən və ondan hamıya pay düşəsi milli sərvətə.

Rafiq müəllim işıqlı adamdı. Nurlu adamdı. Adam onunla söhbətdən doymur. Yeni enerji, güc, yaşamaq həvəsi alır. Hər dəfə ondan ayrılanda mənən doyduğunu hiss edirsən. Çox pozitivdi. Səmimiyyətiylə, qayğısıyla. Doğmalığıyla. Onda xüsusi bir cazibə var. Təmizlikdən, saflıqdan, səmimiyyətdən doğan cazibə. Heç bir umacağı olmayan bu adam insana sevgi, ümid və xoş ovqat bəxş edir.

Rafiq müəllim söhbət əsnasında Əhməd Ağaoğlundan "Qarabağlılar yaman and içən olurlar" iqtibasını gətirir. "Sənin əziz canın üçün", – deyib, sözünü davam etdirir. Bu, Rafiq müəllimin kimə nəyi isə inandırmaq fikrindən irəli gəlmir. Onsuz da hamı onun səmimiyyətinə, dürüstlüyünə qeyri-şərtsiz inanır. Hamı bilir ki, bu and, and içdiyi adamın ona əziz, doğma olduğunu bildirmək üçündür. Rafiq müəllim bunu o qədər səmimi və gözəl edir ki, hamının içindən Rafiq müəllimin onun canına and içməsi keçir.

Mən bilirəm Rafiq müəllim ingilis dillilər üçün yazdığı kitabları ingiliscə, alman dillilər üçün almanca, rus dillilər üçün yazdığı kitabları rusca yazır. Görəsən Rafiq müəllim ingilis, alman, rus dillərində danışanda da ona Qarabağın danışıq şirinliyini qatırmı?

Eynəyin arxasından gözlər eyni bir nöqtəyə dikiləndə düşünürsən ki, beyində hansısa bir hesablama, əməliyyat gedir. Çox dəqiq bir analiz aparılır. Bu proses bir müddət davam edir. Hansısa bir qənaətə gələnə kimi.

"Vaxt Rafiq müəllim üçün daha əhəmiyyətlidir, vacibdir", – deyib, növbəti görüşü, ünsiyyəti gözləməli olursan. Narahat etməkdən çəkinirsən. Hansısa ideyanın gecikməsindən ehtiyatlanırsan.

Onunla zamanın necə keçdiyini duymursan. Çünki yorulmursan. Öyrənirsən. Saflaşırsan... Üzünə xoş təbəssüm qonur. İçinə rahatlıq gəlir. Ovqatın təzələnir. Təmizlənirsən. Durulursan.

Ziyarətə getmiş kimi...

**Rəfail Tağızadə,**
**şair**

## RAFİQ ƏLİYEV NÜMUNƏSİ

Adətən bir insan haqqında söz demək, danışmaq istəyəndə əvvəlcə onun həyat yolunu öyrənirsən, araşdırırsan, sonra fikrini söyləyirsən. Amma Rafiq müəllim haqqında nəyisə öyrənməyə, araşdırmağa ehtiyac yoxdur. Onu qəlbən duyursan. Deyəcəyin sözlərin də hamısı ürəkdən gəlir. Duyduğunu, hiss etdiyini danışırsan.

Rafiq müəllimin davranışı, münasibəti adamda xoş ovqat yaradır. O, xalqının dərdinə yandığı kimi, onun vətəndaşlarının da dərdinə şərik olur. Sevincinə sevinir. Elə dostlarının da. Rafiq müəllim prinsipial olduğu qədər də çox diqqətlidir. Hamıya doğması, əzizi kimi yanaşır.

Rafiq müəllim yaxşı dostdur. Gözəl insandır. Sadə və səmimidir. Əsl ziyalıdır.

Bunlar Rafiq müəllimin insani keyfiyyətləridir. Rafiq müəllimin insani keyfiyyətləri ilə bərabər yüksək alimliyi, elmiliyi var.

Rafiq Əliyev dünyanın tanınmış elm adamıdır. Yeni elmi nəzəriyyələrin əsasını qoyan dünya miqyaslı bir alimdir. Azərbaycanı xaricdə layiqincə təmsil edən vətəndaşdır. Xalqına, elinə, millətinə, birinci növbədə isə dərs dediyi tələbələrə böyük məhəbbəti olan xeyirxah bir insandır. Mən Rafiq Əliyevi insan kimi hər zaman belə tanımışam. O, mənim üçün müəllimdir. Tələbələrinə əvvəlcə insana, vətənə məhəbbəti və sonra elmi öyrədən müəllimdir. O, tələbələri həm vətəndaş, həm də gələcəyin mütəxəssisi, alimi kimi yetişdirir. Rafiq müəllimin keçmiş tələbələri, aspirantları indi tanınmış alimlərdir. Dünyanın ünlü univerisitetlərində dərs deyirlər.

Beynəlxalq konfranslara, elmi simpoziumlara rəhbərlik edən, dünyanın bir çox nüfuzlu univerisitetlərində dərs deyən bu insan, hətta ən adi söhbətlərdə, danışıqlarda belə bir dəfə də olsun "mən" kəlməsi işlətmir. Bu Rafiq müəllimin böyüklüyüdür.

**Musa Yaqub,**<br>
**şair**

## SİYAHININ BAŞINDAKI ADAM

Jurnalist fəaliyyətinə təzə başlamışdım. Azərbaycan ziyalılığının simvollarından biri olan alimimizlə müsahibə götürmək həvəsində idim. İşlədiyi institutа zəng elədim, telefonu köməkçi, ya da hansısa elmi işçi qaldırdı, istəyimə cavabı çox sərt oldu: “Siz bilirsiz kimdən müsahibə almaq istəyirsiz? Hörmətli akademik nəinki Azərbaycanda, dünyada tanınmış say-seçmə alimlərdən biridir. Siz hesab edirsiniz ki, bir zənglə ondan müsahibə ala bilərsiz? Orta səviyyəli bir müğənni özünə ulduz deyir, sizinçün əlçatmaz olur, amma bu boyda alimdən zəng edib müsahibə vaxtı almaq istəyirsiz?”

Bu sərt cavab qədər sərt olan reaksiyam dəqiq yadımdadı. “Əvvəla, müsahibə almaq istəyini ifadə eləmək üçün ən mədəni və etik vasitə bunu telefonla çatdırmaqdı. Bir də alimlərə o vaxt böyük deyirlər ki, onlar orta yox, çox, həm də çox yuxarı səviyyəli olurlar. Razıyam, mən böyük alimdən müsahibə almaq istəyirəm, amma böyük alimlər həm də əl çatılan, yanında dayanılması ilə fəxr edilməyin mümkün olduğu insanlar olurlar, onların ünsiyyət baryeri olmur” deyib, cavabı gözləmədən telefonu asdım və təbii ki, müsahibədən əlimi üzdüm. Bu təəssüfüm cəmi 15 dəqiqə çəkdi, telefona zəng gəldi, məni çağırdılar. Telefonun o başındakı adam “Sabah hörmətli akademik Sizi gözləyir” dedi. Getdim, mən o dağa yaxınlaşdım, onunla söhbət elədim, amma müsahibə üçün danışmayacağını dedi, incitmişdilər onu. Mənə bu günə qədər yaddaşımdan silinməyən xatirələri qaldı...

* * *

İllər keçdi, bir az daha böyüdüm. İllər mənə ziyalı dediyim, müəllim adlandırdığım, örnək bildiyim insanlarla bağlı çoxlu, lap çoxlu təəssüflər yaşatdı. Kumirlərim məni təəccübləndirməyə, təəssüfləndirməyə başladılar. Yavaş-yavaş ideallar yox oldu, uzaqdan dağ görünənlər yaxınlaşdıqca xırdalandı, parçalandı, vaxtilə gözümdə böyük olanların iç üzü açıldıqca ayağımın altındakı qum dənəcəyi belə olmadıqları aydınlaşdı. Və yavaş-yavaş adiləşən insanlar mənə jurnalist olaraq, adamlardan yazmağı tərgitdilər...

* * *

...İllər mənim üçün var olan bütöv bir müəllim, ziyalı ordusunu gözümdə əritdi. Bəlkə ona görə ki, mən bu mətbəxin içindəyəm, kitablarında, ekranlarda, qəzet səhifələrində, internet saytlarında dahiyanə pozlar, əxlaq və mənəviyyat, nə bilim yüksək saflıq dərsi keçənlərin pərdəarxasını görə bilirəm, xahişlərindən, minnətlərindən, bir addım öndə olmaq üçün qurduqları oyunlardan xəbərim var... Bilmirəm, bəlkə də...

Neçə illik yaşantılar “mənim sevimli aydınlarımın” sayını çox azaldıb, lap çox. Bu gün o sevimlilərdən birinin, akademik Rafiq Əliyevin ad günüdür.

* * *

Mən Rafiq müəllimi muğama bənzədirəm. Elə ona olan münasibəti də! Bilirsiz nəyə görə? Bu ölkədə bir az tanınan, ya da özünü hər şeydən məlumatlı göstərmək istəyən kimdən musiqi zövqünü soruşsan, deyəcək ki, günün 24 saatını muğama qulaq asar, amma doymaz! Amma bir həqiqət var və bunu yalnız muğama qulaq asanlar bilirlər ki, bu əsrarəngiz musiqi növünə gündə ən çox bir, lap bir az da uzağa getsək, iki saat qulaq asmaq mümkündür, üçüncü saat mümkün deyil, çünki o ağırlığa və zənginliyə, çox sadəcə, insanın beyni tab gətirə bilmir...

Rafiq müəllim də elədi. Özünü ziyalı, elmi bilən kimi göstərmək istəyən kimi dindirsən, Onun adını çəkəcək, bəlkə əsərlərinin də adını söyləyəcək. Amma Rafiq müəllim elə bir sahə ilə məşğuldur ki, onun elmi yaradıcılığını peşəkarlardan (özü də dünyadakı peşəkarları nəzərdə tuturam) başqa kimsəyə anlaya, başa düşə bilməz. Başa düşən olsaydı, ikinci Rafiq Əliyev də yetişərdi... Ya da Lütfi Zadə dünyanı əldən salıb, Azərbaycanda Rafiq Əliyevi özünə varis elan etməzdi...

Mən Rafiq müəllimin əsərlərinin adını sadalamaq, onun dünya və o cümlədən Azərbaycan elminə verdiyi töhfələrdən yazmaq, neçə universitetin professoru olduğunu xatırlatmaq istəmirəm. Mən Rafiq Əliyevi ona görə sayğıyla xatırlayıram ki, o, Azərbaycan ziyalısının çox yüksək obrazıdı. Sadə, səmimi, böyük... Uzaqdan yanımızdan hər gün ötüb keçən minlərdən, milyonlardan fərqi olmayan, yaxınlaşdıqca böyüyən, ucalaşan, əlçatmazlaşan! Söhbətindən, sözündən, fikirlərindən doyulmayan. Və ən başlıcası, cəmiyyətə adı, nüfuzu, biliyi ilə heç vaxt minnət qoymayan ziyalı. Onun hər şeyə mövqeyi var, amma adamlara və cinahlara münasibətdə heç nəylə bağlı tərəfkeşliyi yoxdur. O, ziyalı olaraq bütün tərəflərdən yuxarıda olduğunu, bütün siyasi görüşlərin üstündə durduğunun fərqindədir. Və buna görə də təkcə alim deyil, həm də Şəxsiyyətdir!

...O mənim, həm də əminəm ki, bir çoxlarının aydınlar siyahısının başındadı. İllər və Özü bunu bizə çox görməsin...

**Vüsalə Mahirqızı,**
**jurnalist**
10.02.2010

# НАУЧНЫЕ РЕЗУЛЬТАТЫ, ПОЛУЧЕННЫЕ ПРОФЕССОРОМ РАФИКОМ АЛИЕВЫМ, РЕКОМЕНДОВАНЫ К ПРИСУЖДЕНИЮ НОБЕЛЕВСКОЙ ПРЕМИИ

Я знаю Рафика Алиева много лет. Следил за его успехами начиная с того момента, как он получил за свою первую монографию премию Ленинского комсомола, и после, когда под его научным руководством коллектив авторов из Азербайджана и России получил Госпремию СССР по опубликованным работам в области интеллектуальных информационных управляющих систем. В начальный период своей научной деятельности он был известен как крупный специалист – кибернетик, а впоследствии им были опубликованы работы в области теории управления.

В последние десятилетия его научная деятельность была сосредоточена в основном на теории принятия решений, теории устойчивости систем с неопределенностью, нечеткой логика и нейрокомпьютинга. Славу ему принесли также и предложенные им нечеткие логики ALİ-1, ALİ-2, ALİ-3, которые превосходят дригие существующие нечеткие логики. Последнее было доказано теоретически, а также широко применялось в России для космических объектов.

Я хотел бы особо отметить полученные профессором Рафиком Алиевым в последнее время научные результаты в области теории принятия решений, которые весьма важны для современной экономической науки. Дело в том, что в области теории принятия решений в разное время были предложены строгие аксиоматическое теории.

Это, например, теория ожидаемой полезности Нобелевских лауреатов Фон Неймана и Моргенштерна, Проспект теория Нобелевских лауреатов Канемана и Тверски, теория пессимизма-оптимизма Нобелевского лауреата Гурвица и др. Несмотря на то, что эти теории широко применяются для сложных социальных, политических, экономических, финансовых и технических систем и других систем с человеческим фактором, эти теории не всегда адекватны реальным ситуациям.

Во-первых, по той причине, что в основе этих теорий лежит гипотезы, которые не вполне соответствуют особенностям человеческого мышления при оценке альтернатив. Во-вторых, по той причине, что все эти теории не учитывают информационное несовершенство среды, в которой принимается решение – несовершенство информации о полезности альтернатив, состояниях среды и вероятностях их появления.

Но реальная жизнь требует учета этих факторов. Предложенная профессором Рафиком Алиевым и его коллегами совместно с профессором Л.А.Заде теория принятия решений в этом смысле выгодно отличается от существующих теорий. Основной отличительной особенностью новой

предложенной теории является то, что, во-первых, концепция предпочтений среди альтернатив в стратегии выбора основана на лингвистических оценках, которые обычно используют люди; во-вторых, в среде, в которой принимается решение, существующая информация несовершенна, то есть неполна, неопределенна, иногда недостоверна, частично истинна; в – третьих, эта информация формируется не в виде чисел, а на естественном языке – с помощью слов и предложений; в-четвертых, в новой теории особенности лица, принимающего решения, заложены в основу логико-математической модели. Что касается преимущества этой новой теории, то, во-первых, существующие теории не всегда работают в вышеуказанных условиях; во-вторых, эта теория более близка к реальной жизни, более адекватна.

По мнению профессора Л.А.Заде и других ученых, предложенная им и его коллегами совместно с профессором Л.А.Заде теория принятия решений в условиях неопределенности превосходит многие существующие работы в этой области, некоторые из которых были даже удостоены Нобелевской премии. Профессор Л.Заде заслуженно рекомендовал данную теорию на получение Нобелевской премии.

Рафик Алиев является ученым с мировым именем, он достойный гражданин Азербайджана и на высоком уровне представляет нашу страну во всем мире во многих направлениях.

**Академик Митат Абасов**

## ALİMLİK VƏ ZİYALILIQ MİSSİYASI

Elmi, zəkanı və əxlaqı özündə birləşdirən parlaq şəxsiyyətlər istənilən cəmiyyətin mənəvi sütunlarıdır. Bu sütunlar nə qədər möhkəm olarsa, cəmiyyətin mənəvi gücü də bir o qədər çox, aşınmaya müqaviməti də bir o qədər davamlı olar. Xüsusən zamanın çətin sınaqları dövründə insanlar belə adamlardan güc alır, cəmiyyət belə adamların çiynində irəli gedir. Nə yaxşı bizim mənəvi burulğanlar içində yaşayan cəmiyyətimiz də belə parlaq şəxsiyyətlər var. Varlığı ilə təsəlli tapdığımız həmin azsaylı şəxsiyyətlərdən biri də "Azərbaycan ziyalılığının simvolu" (R.Rövşən) olan böyük alim, professor Rafiq Əliyevdir. Adını qürurla çəkib uğurları ilə öyündüyümüz şəxsiyyət…

* * *

2011-ci ilin noyabrı çox da uzaq tarix deyil... Həmin dövrdə ölkənin gündəmini ən çox məşğul edən mövzulardan biri də görkəmli alim Rafiq Əliyevin Neft Akademiyasında kafedra müdiri vəzifəsindən azad edilməsi və bununla bağlı ictimaiyyətdə yaranmış narahatlıq idi. Böyük ölçülərlə yanaşanda kafedra müdirliyi o qədər də əhəmiyyətli vəzifə deyil, ora kimin qoyulub-çıxarılması da çox vaxt vecə gəlmir. Amma indi söhbət adi haldan getmirdi. Söhbət dünya səviyyəli bir elm adamına – AMEA-nın müxbir üzvü, professor R.Əliyevə olan ədalətsiz münasibətdən getdiyi üçün cəmiyyət ayaq üstə idi. Professorun vaxtilə özünün yaratdığı "Avtomatlaşdırılmış idarəetmə sistemləri" kafedrasının rəhbərliyindən çıxarılmasına kəskin reaksiyanın bir səbəbi də var idi: şöhrətli alimə yuxarıdan verilən tapşırıqla haqsızlıq edilmişdi və indi bu siyasi qərara hüquqi don geyindirmək cəhdi adamlarda ikrah hissi doğururdu.

Hadisə 2011-ci ilin payızında baş verirdi. Bu, həmin payız idi ki, Azərbaycan cəmiyyətində ziyalıların səsi ucadan gəlməyə başlamışdı. Susqunluq zolağından çıxmış tanınmış aydınlar təxminən Roma klubuna bənzər "Ziyalılar forumu"nda toplaşaraq cəmiyyətin dərdlərini dilə gətirirdilər. Millətin gələcəyi, təhsil və səhiyyə problemi, gənclər arasında işsizlik, milli dəyərlərə münasibət, ziyalıların cəmiyyətdəki rolu və s. məsələlər vaxtaşırı gündəmə çıxarılırdı. Bu problemlər barədə cəmiyyətdə böyük çəkisi olan Rüstəm İbrahimbəyov, Rafiq Əliyev, Ramiz Rövşən kimi nüfuzlu ziyalılar danışırdılar. Onlar ölkədə gedən ictimai-siyasi proseslərə də münasibət bildirir, cəmiyyəti dialoqa dəvət edir, hakimiyyəti milli birlik naminə həbsdəki fəal gəncləri, tutulmuş dindarları azadlığa buraxmağa çağırırdı. Bu proseslərdə kifayət qədər fəal olan professor R.Əliyev məhz Azadlıq radiosuna müsahibəsində Harvard məzunu Bəxtiyar Hacıyevin həbsdə olmasını tənqid etdiyi üçün qəzəbə tuş gəlmişdi.

Hər pis işin yaxşı tərəfi olduğu kimi R.Əliyevə təzyiqlərin də yaxşı tərəfi də bu oldu ki, bütün cəmiyyət ölkəsində hansı miqyasda bir alimin yaşamasından xəbər tutdu. O vaxta qədər yalnız elmi ictimaiyyətin tanıdığı Rafiq müəllimi,

indi bütün ölkə tanıdı. Çoxları elmin gücünü, sehrini, əbədiliyini duydu, onun heç bir məkan və vəzifə çərçivəsinə sığmadığını başa düşdü. Bir də yuxarılı-aşağılı hamı anladı ki, vaxtilə böyük rus aliminin ünvanına deyilmiş "Lomonosovun universitetə ehtiyacı yoxdur, unuversitetin özünün Lomonosova ehtiyacı vardır" kəlamı heç bir mübaliğəsiz bizim Rafiq müəllimə də aiddir...

Rafiq Əliyev bu məqama dünyanı görə-görə gəlib çatmışdı, təkcə zamanın yox, həm də yetişdiyi mühitin sərt sınaqlarından çıxmışdı. Yüksək elmi forumlardan keçmiş, ən yüksək adlara layiq görülmüş, böyük vəzifələrdə çalışmış, çətinliklərlə üz-üzə qalmışdı. Qazandıqları və itirdikləri də az olmamışdı, amma bütün situasiyalarda özünün həyat, əxlaq və mənəviyyat prinsiplərinə sadiq qalmışdır.

* * *

Elm təkcə ideyalar dramı və biliklər toplusu deyil, həm də fərqli şüur, qavrayış və fərqli düşüncə tərzidir. Bu fikri məndə ilk dəfə böyük alim Xudu Məmmədov oyatmış, Rafiq Əliyev isə onu cilalamışdı. Daha sonra hər iki alim öz əsərləri ilə sübut etdilər ki, fərdin də, millətin də, ölkənin də tərəqqisi məhz elmdən keçir.

Onda Xudu müəllim Azərbaycan televiziyasında mənim də çalışdığım "Elmi-kütləvi və tədris proqramları" redaksiyasında veriliş aparırdı. Çox cazibədar təhkiyə tərzi var idi. Veriliş çəkilməzdən əvvəl və sonra onun maraqlı söhbətlərinə qulaq asmaq imkanımız olurdu. Ensiklopedik zəka sahibi kimi söhbətlərini kristallardan başlayıb poeziyada, yaxud Qobustanın qayaüstü rəsmlərinin təhlilində bitirərdi. Rafiq Əliyevi də Xudu müəllim bizlərə təqdim etmişdi, "cavanlığına baxmayın, böyük alimdir və böyük gələcəyi var" demişdir. Dediyi kimi də oldu.

Rafiq müəllim o vaxt da kibernetika problemləri ilə məşğul olurdu, aydın təfəkkürü, dərin elmi düşüncəsi, intellekti, məntiqi və elmi postulatları çox anlaşıqlı dildə ifadə etmək bacarığı ilə diqqəti dərhal cəlb edirdi. Məhz bu keyfiyyətləri sayəsində Rafiq Əliyev inamla elmin zirvələrinə qalxa bilmişdir. Hazırda o, dünyada süni intellekt və qeyri-səlis nəzəriyyə sahəsində ən tanınmış alimlərdən biridir. Bu sahədə onun adı müəllimi və ustadı Lütfi Zadə ilə qoşa çəkilir. Aparıcı elm mərkəzlərində yaxşı tanınan Rafiq müəllim ABŞ, Almaniya, Türkiyə, Rusiya, İran, Kiprin bir çox universitetlərinin fəxri professorudur. İnformatika və idarəetmə nəzəriyyəsi sahəsində nüfuzlu elmi məktəb yaradıb. İndiyədək ölkəmizdə və xaricdə 150-yə yaxın elmlər namizədi və 30-dan çox elmlər doktoru yetişdirib.

Bu gün professor Rafiq Əliyev beynəlxalq miqyasda nüfuzlu elmi jurnallara rəhbərlik edir, sanballı elmi forumlar, konfranslar təşkil edir, genişmiqyaslı layihələr gerçəkləşdirir, xarici universitetlərdə dərs deyir. Professorun əsərləri dünyanın ən nüfuzlu nəşriyyatlarında çap olunur. Amerika kimi texnoloji ölkədə kompüter biliklərinin əsaslarını azərbaycanlı professor R.Əliyevin dərsliklərindən öyrənirlər. Nüfuzlu alimlər onun "Yeni hesab nəzəriyyəsi", "Ümumi qə-

rar qəbuletmə nəzəriyyəsi" əsərlərini, həmçinin Lütfi Zadə ilə birgə yazdıqları son kitablarını yüksək qiymətləndirirlər. Təsadüfi deyildir ki, uzun illər bir yerdə çalışdıqları elm korifeyi Lütfi Zadə Amerikadan öz azərbaycanlı həmkarına məktublarının birində belə yazırdı: "Əziz Rafiq, ... sənə bir alim kimi, tədqiqat rəhbəri kimi, intellektual lider kimi, bəsirətli, dürüst və xeyirxah bir insan kimi olan heyranlığımı bildirməyə söz tapa bilmirəm. Mən deyəndə ki, sənin işlərin iqtisadiyyat sahəsində Nobel Mükafatına layiqdir, bu fikrimdə tam ciddiyəm". İndi bu fikirdə olan xarici alimlərin sayı getdikcə artır.

Biz ötən il Xəzər universitetində Rafiq müəllimin yubileyi ərəfəsində ABŞ-da çapdan çıxmış qiymətli bir kitabının təqdimat mərasimini keçirirdik. "qeyri-müəyyən informasiya şəraitində qərar qəbuletmə problemi" (2017) adlanan kitabın müəllifi barədə Qərb alimlərinin videorəylərini dinlədikcə mən böyük qürür hissi keçirirdim. Yusif Məmmədəliyev, Zahid Xəlilov, Azad Mirzəcanzadə, Xudu Məmmədov kimi alimlərdən sonra Azərbaycanda bu miqyasda elmi zəka sahibinin meydana çıxmasını xalqımız üçün böyük xoşbəxtlik kimi duyurdum.

Bu gün vəziyyət elə gətirib ki, Azərbaycanın dünyaya çıxarılıb təbliğ olunası alimləri azalıb, yaxşı olanlar da öndə deyil, kölgədə qalıb. Təəssüf ki, elmi müəssisələrin çoxu fərasətli və inzibatçı akademiklərin əlinə keçdiyindən həqiqi alimlərin meydanı daralıb. Belə alimlər ya taleyi ilə barışıb bu inzibatçılara xidmət edir, ya da ən yaxşı halda xaricə mühacirət edib başqa ölkələrin elmi potensialını zənginləşdirirlər. Xoşbəxtlikdən dünyanın məşğul olduğu ən aktual elmi problemlərin araşdırılmasını üzərinə götürmüş dünya miqyaslı alim Rafiq Əliyev yanımızda, göz qabağındadır, bu Vətən torpağında elm naminə külüng çalır. Ölkəmizin elm elitasında öz şərəfli yerini tutmuş Rafiq müəllimin ən böyük xidməti Azərbaycanın dünya elminə inteqrasiyasında fəal iştirak etməsidir.

* * *

Bu gün professor Rafiq Əliyev haqqında danışmaq, təkcə özünün parlaq elmi nailiyyətləri ilə Azərbaycan elmi təfəkkürünü təmsil edən dəyərli bir alimi xatırlamaq deyil, həm də ictimai düşüncəsi və bütöv şəxsiyyəti ilə xalqına başucalığı gətirən əsl ziyalı barədə söhbət açmaq deməkdir.

Rafiq müəllim cəmiyyətdə əsl ziyalı kimi tanınır. O, özünün əxlaqı, davranışı, hadisələrə fərqli münasibəti, cəmiyyəti təhlükələrdən qorumaq üçün etdiyi çıxışları ilə bu adı doğruldur. Bir ziyalı olaraq özünün görüb müşahidə etdiklərini cəmiyyətə çatdırır, mənfi halların çoxalmasından öz narahatlığını bildirir. Hesab edir ki, millətin əxlaqını zədələyən, gələcəyinə təhlükə yaradan neqativ halları aradan qaldırmaq üçün ziyalı olaraq çarpışmalıdır. Ancaq bu çarpışma dava tərzinə qalxmalı deyil, daha çox öz tərzi və ahəngi ilə təsirli olmalıdır. Ziyalı olan kəs hansısa siyasi maraqlara deyil, xalqın, millətin, cəmiyyətin inkişafına öz töhfəsini verməlidir.

Tale elə gətirib ki, son illərdə biz Rafiq müəllimlə eyni mənəvi mühitdə "nəfəs alırıq", eyni dərdləri yaşayır, eyni ağrıları bölüşürük. Çox problemləri

müzakirə edirik və mən hər dəfə onun bu problemlərə yanaşmasındakı elmi dəqiqliyi və səlis proqnoz vermək qabiliyyətinə heyran oluram. Ölkənin, millətin taleyi ilə bağlı məsələlərdə mən Rafiq müəllimin hansı yanğı ilə yaşadığının, hansı dərdləri ürəyinə saldığının, bizi üzən iqtisadi və mənəvi böhranlardan qurtarmaq üçün hansı reseptləri verdiyiynin şahidiyəm. Rafiq müəllim bunları təkcə bizim toplaşdığımız məhdud çevrədə demir, həm də yazır, müsahibələrində deyir, ictimaiyyəti məlumatlandırır. Deyilənlərə reaksiya verilməməsi başqa məsələdir, amma o, böyük VƏTƏNDAŞ kimi Vətənin böyük dərdlərini dilə gətirməkdən çəkinmir.

Ziyalı missiyasına da Rafiq müəllimin fərqli baxışı var. Deyir ki, adətən bizdə ziyalı məsələsinə çox vaxt məntiqli yox, bir az assosiativ, emosional yanaşırlar. Ziyalı yalnız oxumuş, savadlı, ali təhsilli, professor, akademik, yaxud böyük yazar olmaq deyil. Bu, çoxatributlu anlayışdır, çoxlu meyarları vardır. Bəs hansı meyarlara cavab verən şəxsi ziyalı adlandırmaq mümkündür? Düşünürəm ki, bunun əsas prinsipi intellektual azadlıqdır. “Ziyalı vicdanının səsində, öz fikrində azad, müstəqil olmalıdır. Əsas prinsip budur. Ziyalının vicdanının səsi onun azadlığının sükançısı olmalıdır və bu sükan ona xüsusən ekstremal şəraitlərdə, məsələn, bizim bu çətin şəraitimizdə həmişə mayak kimi yol göstərməlidir. Bu, peşə deyil. Peşə olsa, ziyalını universitetlərdə hazırlayardılar. Ziyalılıq missiyadır” – bunlar Rafiq müəllimin ziyalı və onun missiyası haqqında mübahisə doğurmayan fikirləridir.

* * *

Rafiq müəllim, təkcə böyük alim, böyük ziyalı deyil, həm də, sözün həqiqi mənasında, böyük Azərbaycanlıdır. Həyat, ictimai inkişaf, iqtisadiyyat, elm, əxlaq, din, tərbiyə, musiqi, sənət və poeziya haqqında çox maraqlı fikirlərin sahibidir. O, həm də parlaq zəkanı, dərin elmi, ictimai düşüncəni, yüksək mədəniyyəti və parlaq əxlaqı özündə birləşdirən böyük şəxsiyyət, cazibədar insan, bənzərsiz dost, millətin və məmləkətin ağrı-acılarını içində gəzdirən bir ziyalıdır.

Professor Rafiq Əliyev özünün elmi nailiyyətləri, ictimai düşüncəsi və bütöv şəxsiyyəti ilə Azərbaycan xalqına həmişə başucalığı gətirib. Elə buna görə də xalq onu sevir, bu qədər dərin hörmət və ehtiram göstərir. Taleyinə alimlik və ziyalılıq missiyası yazılmış bir insan üçün bu sevgidən qiymətli heç nə yoxdur.

**Qulu Məhərrəmli,**
**professor**

# LƏYAQƏTDƏN NUR İÇƏN KAMİLLİK… VƏ YAXUD MÜDRİK İNSAN, DÜNYA ŞÖHRƏTLİ ALİM RAFİQ ƏLİYEV BARƏDƏ SƏMİMİ DUYĞULAR

Azərbaycanın ölkənin hər bir vətəndaşında qürur doğuran şəxsiyyətləri bütün əsrlərdə olub və o cümlədən XXI yüzillikdə də var. Belə dühalar şair də, mütəfəkkir də, dramaturq da, bəstəkar da, müğənni də, aktyor da, alim də, ictimai xadim də… ola bilər. Məsələ onun sənət və peşəsində deyil, xalq üçün gördüyü işlərin faydasında, dəyərindədir.

Mənim fikrimcə, bu gün varlığı və əməlləri, elmi fəaliyyəti və zəkasının məhsulları ilə qürur duyulası alimlərimizdən biri də Rafiq Əliyevdir. O Rafiq Əliyev ki, dünya şöhrətli Lütfi Zadənin kəşfinə yeni-yeni elmi-nəzəri naxışlar əlavə edib. Özü dünya şöhrətli alim kimi qəbul olunub. Nağıllarda deyildiyi kimi, günçıxandan günbatana qədər əksər məmləkətlərin şöhrətli elm-təhsil ocaqlarında mühazirələr oxuyur. Ehtiramı hər yerdə uca tutulur.

Rafiq Əliyevin elmi nailiyyətlərini xırdalamaq mənim üçün yeni qitə kəşf etmək qədər çətin, əslində mümkünsüz bir işdir. Ona görə də heç bu dəryaya baş vurmaq fikrində deyiləm.

Amma və di gəl ki, Rafiq Əliyev barədə, onun şəxsiyyəti haqqında söz demək istəyi çoxdan məni daxilən düşündürür və rahatsız edirdi.

Çox fikirləşdim ki, bu rahatsızlığa rahatcasına necə son qoyum?..

Axırda bu qərara gəldim ki, dünyanın qüdrətli insanlarının müdrik fikirlərindən, dərin mənalı aforizmlərindən misal gətirərək, Rafiq Əliyev dühasına məhz həmin sözlərin işığında baxım. İnanmaq istəyirəm ki, oxucular bu istəyimin səmimiyyətinə inanacaqlar. Çünki mən sitatlar gətirməklə az-çox biliyimi göstərmək niyyətində deyiləm. Məqsədim qürur duyduğum bir soydaşımla, vətəndaşımla, halal çörək kəsdiyim insanla, daim səmimi ünsiyyətdə olduğum şəxsiyyətlə dünya mütəfəkkirləri arasında mənəvi-psixoloji körpü olduğunu bəyan etməkdir.

Bu qədər: nə az, nə çox!

İndi keçirəm müqayisəli xatırlamalara.

* * *

Dağıstanın cəsur oğlu Şeyx Şamil (1799-1871) deyirdi ki, kim aqibət haqqında fikirləşirsə, ondan igid çıxmaz. Mən burada “igid” sözünü “ziyalı” kəlməsi ilə əvəz edirəm. Qənaətim bu olur ki, Rafiq Əliyev xalqın mənəvi ucalığının yolunda apardığı mübarizədə heç vaxt öz aqibətini düşünmür. Onun üçün müqəddəsi millət, millətin şərəf və ləyaqəti, xalqı təmsil etməyə haqqı olanların əyilməz mətanətidir.

Fransız yazıçı və alimi Bernar Le Bovye de Fontenel (1657-1757) hələ üç yüz il əvvəl yazırdı: «Tərəqqini qədim dövrə ifrat pərəstiş qədər heç nə ləngidə

bilməz». Rafiq Əliyev nəinki elmdə, həmçinin ədəbiyyat və incəsənətlə bağlı tarixə üz tutanda da səlis məntiqlə qeyri-səlis məntiqin harmoniyasında cazibəli müdrik kimi görünür. Onun müdrikliyinin əsas dayaqları keçmişə ehtiramla gələcəyə inam arasında yaratdığı ülvi mənəviyyat körpüsündədir.

Fransız filosofu, riyaziyyatçısı, fiziki, fizioloqu, fəlsəfədə radikal şübhə metodunun müəllifi, analitik həndəsənin yaradıcısı Rene Dekartın (1596-650) təbirincə "həqiqət şübhədən doğur". Qeyri-səlis məntiqə gəlib çıxmaq üçün bütün reallıqlara şübhə ilə yanaşmağı bacarmaq lazımdır. Bu gücə, bu qüdrətə sahib olduğuna görə də Rafiq Əliyev qeyri-səlis məntiqlə dünya elminə yeniliklər gətirə bilib.

Çağdaş rus şairi Aleksandr Kuşner (1936) elmi-publisist məqalələrinin birində göstərir: "Dövrü seçmirlər. Onda yaşayıb ölürlər". Rafiq Əliyev yaşadığımız dövrə özünün vətəndaş münasibətini ləyaqət və şərəf mücəssəməsi kimi yaşamaqla bildirir. Bu həyat kredosu müdrikliyin hər kəsə nəsib olmayan əbədiyyət zirvəsidir.

Niderland rassionalist filosofu, naturalist Benedikt Spinoza (1632-1677) söyləyirdi ki, nə barədəsə düşünəndə "heç vaxt gülməkdən, kədərlənməkdən, yaxud ləzzət almaqdan deyil, başa düşməyə çalışmaqdan başlamışam". Rafiq Əliyevin alim qüdrətini dərk etmək üçün onun elminin möhtəşəmliyini başa düşməyə çalışmaqdan başlamaq lazımdır. Unutmayaq ki, anlamaq, dərk etmək prosesi həqiqət axtarışı ilə ahəngdar vəhdətdədir. Həqiqətin ucalığına yalnız idrakla çatmaq mümkündür. Rafiq Əliyev həmin ucalıqdadır.

Alman filosofu Artur Şopenhauerin (1788-1860) əsərlərində belə bir müdrik deyim var: "Şöhrətpərəstlik adamı boşboğaz, məğrurluq isə sakit və səbirli edir". Məğrurluq Rafiq Əliyevin polad əqidəsidir və bu keyfiyyət ona illər uzunu formalaşan daxili bütövlüyündən gəlir. Onun məğrurluğu şöhrətpərəstlikdən deyil, dünya şöhrətli şəxsiyyətinin qürurundan doğulub. Rafiq Əliyevin zəka nuru ilə məğrurluq işığı həmişə bir-biri ilə ülfətdə qol-boyundur.

Rus ədəbiyyatının klassiki Fyodor Dostoyevski (1821-1881) ölməz əsərlərindən birində daxilən puç, ləyaqətsiz məmuru təsvir edəndə yazıb: "Əynindəki mundiri çıxaran kimi onun bütün əzəməti sanki əriyib yox oldu". Bir sıra mundirli "alimlərin" libasları gec-tez əyinlərindən çıxacaq və onların əsl simaları hamımıza apaydın görünəcək. Rafiq Əliyevin məğrurluq, şərəf, ləyaqət libası isə onun əbədi alimlik geyimidir. Onu başqalarının əli ilə əyindən çıxarmaq heç cür mümkün deyil.

Rafiq Əliyevi bənzərsiz, əlçatmaz edən, ləyaqətinə möhtəşəmlik verən xarakter keyfiyyətləri çoxdur. O, ədalətsizliyə, qəddarlığa, riyakarlığa, ikiüzlülüyə, namərdliyə, sırtıqlığa, yaltaqlığa, şərəfsizliyə birmənalı şəkildə nifrət edir. Bu nifrət qaranlığının o biri üzündə xeyirxah, səmimi, mehriban, mərdanə, cilasun, diqqətcil, ünsiyyətcil, insanları sevməyi bacaran, elmdə həyat, həyatda elmi müdriklik axtarmağa qadir olan Rafiq Əliyev şəxsiyyəti durur. Sanki dahi Lev Tolstoyun (1828-1910) bu müdrik sözləri Rafiq Əliyevin həyat amalıdır: "Könülləri əzən və alçaldan yox, onu şad edən və ucaldan əməllərlə yaşayın".

Dünya şöhrətli polyak tibb alimi Vladislav Beqanski (1857-1917) vaxtaşırı özünün müdrik fikirlərini qələmə alırdı. Bu sözlər onundur: "Kim ki, öz peşəsinə ancaq çörək mənbəyi kimi baxır, o, çörək tapacaq. Lakin o, ömrünün mənəvi boşluğunu həmin çörəklə doldura bilməyəcək. Mənəvi ömrü heç bir boşluq, qətrə qədər məsamə qalmadan doldurmaq yüksək məharətdir. Sanki çox mənalı bir incəsənətdir". Rafiq Əliyevin ömür yolunun şərəfi, alimlik fəaliyyətinin qüdsiyyəti, şəxsiyyət kamilliyinin şöhrət ucalığı mənəvi dünyasının ecazkar bütövlüyündədir. Bu ecazkar bütövlüyün hörgü kərpicləri qətiyyət, mətanət, alicənablıq və xeyirxahlıqdır.

Müasirimiz olan dahi Azərbaycan alimi, akademik Azad Mirzəcanzadə (1928-2006) yazırdı ki, "ideala qovuşmaq üçün mübarizə aparmaq lazımdır. Onu hazır qəbul etmək prinsipsizlik və məqsədsizlikdir". Rafiq Əliyevin alimlik və insanlıq mübarizliyi onun sağlam və pak düşüncəsinin məramı, yaşamaq qayəsinin əsası, əməl-fəaliyyətinin məqsədyönlüyüdür.

Uzun illər İngiltərədə yaşamış Yeni Zelandiya iqtisadçı alimi, ixtiraçı Olben Uilyam Fillips (1914-1975) yazır: "Çətinliklərin mövcudluğu həmin çətinlikləri dəf etmək üçün insanlarda bacarıq yaradır". Rafiq Əliyevin həyatda, elmdə, cəmiyyətdə çox çətinlikləri olub. Lakin bu çətinlikləri mətanətlə, ağılla, elmin qaranlıqda "gizlənən" ziyası ilə dəf etmək mətinliyi, iradəsi, bacarığı onu həmişə qələbəyə aparıb.

Dahi alman şairi və mütəfəkkiri İohann Volfanq Höte (1749 – 1832) söyləyib: "Yaşamaq və azadlıq hər gün onların uğrunda mübarizə aparanlara layiqdir". Deməli, yaşamaq və azadlıq Rafiq Əliyevin halal payıdır. O, kamil şəxsiyyət kimi bu haqqa layiqdir. Osmanlı türk ədəbiyyatının klassiki Tofiq Fikrətin (1867-1915) aşağıdakı misraları sanki ləyaqət mücəssəməsi, daxili dünyasının zənginliyi hüdudsuz olan Rafiq Əliyevin boyuna biçilib:

*Kimsədən mən feyz ummaram, qol-qanad borc almaram,*
*Mən öz havamda, öz göylərimdə uçmağa qadirəm.*
*Yaltaq olub boynuma köləlik zənciri salmaram,*
*Fikri hürr, ilhamı hürr, vicdanı hürr bir şairəm.*

Əbədiyyət hüququ qazanmış "Don Kixot"un müəllifi, dahi ispan yazıçısı Miqel de Servantesin (1547-1616) belə bir müdrik kəlamı var: "Mərifət qədər müftə olan şey yoxdur. Gəlin qarşılıqlı surətdə xeyirxah, nəzakətli, alicənab olaq". Rafiq Əliyevin daxili mədəniyyətindən xəbər verən alicənablığı, yüzlərlə adama kömək olan xeyirxahlığı, insanlara nəzakətli münasibəti geniş anlamda mərifət mücəssəməsidir. Bu keyfiyyətlər onun atar damarındakı qan qədər təmizdir, enerjilidir, həyatvericidir.

Fransız şair və nasiri, peşəkar təyyarəçi Antuan de Sent-Ekzüperinin (1900-1944) fikrini xatırlayıram: "Ən ülvi cah-cəlal insanlar arasında səmimi ünsiyyətdir". Dostları, məsləkdaşları, aqillər yaxşı bilirlər ki, Rafiq Əliyevin çöhrəsindən həmişə nur yağır. Bu, onun insanlara daxilən, ruhən bəslədiyi səmimi

ünsiyyətin, nəzakətli davranışın, ədəbli danışığının intonasiya ahənginin parlaq nişanəsidir. Səmimi ünsiyyət bu müdrik, kamil insanın ən böyük maddi və mənəvi sərvətidir.

Alman mütəfəkkiri Fridrix Engelsin (1820-1895) maraqlı bir qənaəti var: "Gördüyün işi bilməklə qərar qəbul etmək iradə azadlığıdır". Rafiq Əliyev gördüyü işin mahiyyətini, dəyərini, onu elmi dildə kütləyə çatdırmağın təhər-töhrünü çox gözəl bilir. O, yaradıcı insandır və onun iradə azadlığı, fikir sərbəstliyi qələbələrinin rəhnidir. Rafiq Əliyev cəmiyyət, mövcud ictimai mühit və özözünü tərbiyə prosesində heç vaxt mənəvi tarazlığını itirməyən unikal şəxsiyyətdir.

Görkəmli rus-sovet fiziki, akdemik Leonid Mandelştamın (1879-1944) belə bir deyimi var: "Sözdə yumşaqlıq, hərəkətdə qətiyyət". Rafiq Əliyevin danışığında musiqi cazibəsi, həlim nəvaziş yumşaqlığı, poetik cazibə, qəribə zəriflik, bakirə ülviyyət var. Amma və di gəl ki, Rafiq Əliyev bir şəxsiyyət kimi vətən sevgisində, bir alim kimi fəaliyyətində, hər hansı elmi nailiyyətə qiymət verilməsində həmişə və son dərəcə qətiyyətlidir, inamlıdır, prinsipialdır, haqsızlıqla barışmazdır. Bu qətiyyətin, bu inamın, bu prinsipiallığın, bu barışmazlığın kökü daxili ləyaqətə, müqəddəs tutulan insani ehtirama bağlıdır.

İmpressionizmin görkəmli nümayəndəsi, dahi fırça ustası, Hollandiya rəssamlıq məktəbinin klassiki Vinsent Van Qoq (1853-1890) deyirdi: "İnsanları sevməkdən nəcib heç nə yoxdur". Rafiq Əliyevin insanlıq sevgisində möhtəşəm ehtiram, əzəmətli cazibədarlıq, ülvi qüdsiyyət, ilahi mərhəmət, emosional zəriflik var. İnsanlara məhəbbət onun ruhi tələbatıdır.

Musiqidə romantizmin banilərindən biri sayılan Avstriya bəstəkarı Frans Şubertin (1797-1828) bu kəlamı indiki məqamda çox yerinə düşür: "Bethoven yaradıcılığını dərindən dərk edib onu sevənə qədər Dunay çayı çox sular axıdacaq". Mən isə deyirəm ki, Rafiq Əliyevin alimliyinin nəhəngliyini, şəxsiyyətinin kamilliyini, müdrikliyinin əzəmətini, insanlığının həmişə məsum qalan ülviyyətini anlayıb dərk etmək, dərk edib düşünmək, düşünüb onu qavramaq üçün Xəzər dənizində çox dalğalar olacaq…

**İ.Əzizoğlu (İlham Rəhimli),**
**professor**

Rafiq Əliyev mənim üçün ilk növbədə böyük alimdir. Hər yerdə ölkəsini şərəflə təmsil edən alim, xalqın fəxr etdiyi bilim adamıdır.

İkincisi, R.Əliyev bu gün çırağla axtarılan az sayda qalan əsl ziyalılardandır, xalqın problemlərinə acıyan, dərdinə şərik olmağı bacaran insandır.

Nəhayət, Rafiq müəllim çox vəfalı dostdur, sevdiyi və hörmət etdiyi insanları heç vaxt unutmaz.

**Cavanşir Quliyev,**
**bəstəkar, əməkdar incəsənət xadimi**

Biz, Rafiq müəllimə bir insan, şəxsiyyət kimi qibtə edirik. Onun şəxsiyyəti, insanlara münasibəti ancaq bu hissləri yaradır. Sevinirik ki, onun müasiriyik, onunla birlikdəyik. Dünya şöhrətli azərbaycanlı alimi öz yanımızda görəndə xoşbəxt oluruq.

Rafiq müəllimdə məni ən çox cəlb edən cəhət onun azərbaycanlı olması və öz millətinə son dərəcədə vurğunluğudur. Bunu ancaq Rafiq müəllimlə yaxın dostluq edən insanlar bilər. Bu musiqini, poeziyanı, mədəniyyətimizi dərindən bilməkdə və sevməkdə də özünü göstərir. Onda bir neçə adamda olan çox üstün xüsusiyyətlər birləşib. Rafiq müəllimdə insanları özünə cəlb edən çox müsbət aura var. Onun susmağı da insanlar üçün maraqlıdır. Bilirsən ki, o adam düşünür, boş yerə susmur. Rafiq müəllimi görəndə adam müsbət enerji ilə dolur, mənən dincəlir. O şəkli almaq üçün insan görün nələrdən keçməlidir.

**Ramiz Həsənoğlu,**
**Xalq artisti, rejissor**

Rafiq Əliyev XX əsrdə Azərbaycanın dünya elminə bəxş etdiyi ən böyük, ən unikal bir alimdir. Onun baxışı Azərbaycanın dünya elminə olan baxışıdır. Bu Azərbaycan elminin və Azərbaycan xalqının böyük nailiyyətidir.

**İsmayıl İbrahimov,**
**akademik**

Allah bu millətdən və bu ölkədən heç nəyi əsirgəməyib. Amma son 200 ildə dünyada bizi demək olar ki, sadəcə neft ölkəsi kimi tanıyıblar. Etiraf etməliyik ki, bu ölkənin ən böyük sərvətinin yüksək intellektə sahib olan insan kapitalı olduğunu dünyaya tanıtdırmaqda hər zaman çətinlik çəkmişik. Amma Rafiq Əliyev kimi alimlərimiz Azərbaycanın adının dünyanın ən yüksək tribunalarından səslənməsində əvəzsiz xidmətlər göstərib. Nəzərə almalıyıq ki, dünyanın erməni yalanlarıyla aldadıldığı, həqiqətlərin təhrif edildiyi indiki dönəmdə Azərbaycanın adının, millətimizin haqq səsinin, hansı məhrumiyyətlərə, işğallara məruz qaldığımızın, sərhədlərimizin o tayında dilə gətirilməsi həyati əhəmiyyət kəsb edir. Bu baxımdan onun Vətən qarşısındakı xidmətləri təkcə elmi nailiyyətləri ilə məhdudlaşmır. Rafiq Əliyev təkcə alim kimi deyil, eyni zamanda Azərbaycanın fəxri diplomatı kimi dəyərlidir.

**Vahid Əhmədov,**
**millət vəkili**

## ONUN ALLAH QARŞISINDA MƏQAMI BAŞQADIR

Uşaqlıq illərində, kəndimizdəki camaatdan tez-tez eşitdiyim bir söz vardı: – filan kənddən heç nə gözləmə, o kəndin ağsaqqalı yoxdu! Yaşım artdıqca, həyat təcrübəsi qazandıqca, sosiologiya, sosial psixologiya elminin dərinliklərinə vardıqca bu fikrin dəyərini daha dərindən anlamağa başladım. Sosial psixologiya sahəsində onlarla ciddi alimlərin də əsaslandırdığı kimi, elə öz müşahidələrimin də nəticəsi olaraq deyə bilərəm ki, hər bir sosial sistemdə hər zaman insanların böyük əksəriyyətinin davranışına həmin sistemdəki lider insanların davranışı mühüm təsir edir. Hər hansı bir sosial sistemdə nümunəvi insanlar olduqda onların davranışları, fəaliyyətləri həmin sosial sistemdə bir nizamın, ahəngin yaranmasına xidmət edir. Elə bizim kənd camaatının o vədə dedikləri də bu idi. Yəni o kənddə ki, ağsaqqal (ağıllı, insanların lider kimi gördüyü) insanlar yoxdur, oradan elə bir nizam, ağlabatan fəaliyyət də gözləmə! Vəzifələrindən, sərvətlərindən asılı olmayaraq, belə insanların varlığı sanki gözə görünməz bir enerji mənbəyidir. Bu psixoloji, mənəvi enerji mənbəyi daima insanların qəlbini qızındırır, onlarda öz xalqına məhəbbəti, sabaha ümidi artırır. Belə insanlar, L.Qumelyovun təbirincə desək passionar enerjiyə malikdir və öz ətraflarına pozitiv enerji paylayırlar. İslam alimləri deyirlər ki, elə insanların cəzbetmə qüvvəsi böyük olur. O cəmiyyət daha arzu olunan cəmiyyətdir ki, orada belə insanlar çox olur. İndiki dövrdə xalqımızın belə gözəl övladlarından biri də müasir dünya elmində mühüm nüfuza malik, ciddi söz sahibi olan, şöhrətli alimimiz professor Rafiq Əliyevdir.

Ziyalı insan öz ətrafına müdriklik, haqq, ədalət nuru, ziyası yayan insanlardır. Bu mənada, xalqımızın əksəriyyətinin tanıdığı, qürur duyduğu Rafiq müəllim bizim böyük ziyalılarımızdan biridir. Mən onu otuz ildən artıqdır ki, yaxından tanıyıram. Demək olar ki, daima elmi sahədə təmasda olmuşuq. Tanışlığımızdan əvvəl də onun haqqında qiyabi olaraq ciddi bir alim, gənc rektor, ədalətli, rüşvətə qarşı mübarizə aparan insan kimi xeyli müsbət fikirlər eşitmişdim.

Rafiq müəllimlə yaxından tanışlığımızda ilk söhbətimiz yadımdadır. O həmin zaman Mərkəzi Komitədə şöbə müdiri idi. Ölkədə idarə etmənin elmi təminat sistemlərini yaratmaq üçün geniş fəaliyyətə başlamışdı. O zaman ölkədə kompüterlə təmasda olan insanlar, məmurlar çox az idi. İdarəetmədə kompüterin imkanlarından istifadə etmək üçün böyük bir kompüterləşmə proqramını həyata keçirirdi. Ona görə də Rafiq müəllim, bu sahədə biliyi, təcrübəsi olan bütün mütəxəssisləri soraqlaşıb bir-bir tapır və onları dəvət edib söhbət edir, ağlı kəsənləri bu işə cəlb edirdi. Belə mütəxəssislərin biri də mən idim. İlk, geniş söhbətimizdən qarşımda olduqca ağıllı, məntiqli, mənəviyyatlı bir insanın, ciddi alimin olduğunu duydum. Mən ona siyasətdən uzaq olduğumu, yalnız elmlə məşğul olmaq istədiyimi dedim. Söhbətimizdən anladım ki, vəzifəsindən asılı olmayaraq heç onu da siyasi məsələlər elə də maraqlandırmır. Hər bir ziyalı kimi, Qarabağ probleminin həlli üçün əlindən gələni etmək istəsə də əsas fikri idarəetmə sistemlərinin elmi əsaslarla qurulması məsələlərinin yanında

idi. Mənə də sosial sahələrdə kompüterin imkanlarından geniş istifadə etməklə idarəetmə sistemlərinin yaradılması işini həvalə etdi. Bu sistemlərin yaradılması mədəniyyət sahəsində, təhsildə, elmdə, səhiyyədə, sosial müdafiədə və digər sosial sahələrdə elmi əsaslarla islahatların aparılmasına, səmərəli idarə etməyə kömək edəcəkdi.

Rafiq müəllimin mənə ən yaddaqalan yaxşılıqlarından biri də məni dünya şöhrətli alimimiz mərhum Azad Mirzəcənizadə ilə yaxından tanış etməsi olub. Mərkəzi Komitədəki fəaliyyətindən sonra Azad müəllimlə birgə işlədiyi elmi layihələrə məni də cəlb etmişdi. İndi Rafiq müəllim beynəlxalq aləmdə geniş tanınan böyük bir alimdir. Ölkəmizin fəxridir. Beş dili sərbəst bilir və öz məqalə və kitablarını bu dillərdə yazır. O, elmin ən müasir sahəsi – informasiya texnologiyaları üzrə mütəxəssisdir. İndiki dövr kompüter dövrüdür. Kompüterin yaranması ilə yer üzünün inkişafı böyük bir təcil aldı, xeyli sürətləndi.

Dahi Lütfi Zadənin 1965-ci ildə qeyri-səlis məntiqlə bağlı nəşr olunan məqaləsi, ortaya qoyduğu ideyalar kömpüterin imkanlarını xeyli genişləndirdi. XIV əsrdən başlayaraq indiki vaxta qədər elmin inkişafının əsas prinsiplərini diqtə edən qərb düşüncəsi bu müddət ərzində ancaq rasional düşüncəyə üstünlük vermiş, bütün problemlərin həllinə ancaq rasional mövqedən yanaşmışdır. Lütfi Zadənin genlərindən, ruhundan boy verən şərq müdrikliyi rasionalizm qəliblərinə sığa bilmədi. Elmi araşdırmaları daha da məzmunlu etmək üçün rasional olmayan amilləri də araşdırmaya cəlb etməyin zəruri olduğunu duyan Lütfi Zadə müasir elmi düşüncədə inqilab elədi. Bu zərurəti həyata keçirmək üçün ortaya yeni məntiq, yeni riyazi sistem qoydu. Elmin inkişafında möhtəşəm, yeni bir istiqamət yarandı. Bu istiqamət tarixi inkişafın tələblərindən yaranıb. Bu da təbiidir ki, Lütfi Zadə ideyalarını daha əvvəl şərqlilər – yaponlar və digər şərq ölkələri qiymətləndirdi. O da təbiidir ki, o ideyaları həm də daha erkən qiymətləndirən elm adamlarından biri də məhz azərbaycanlı Rafiq Əliyev oldu. Rafiq müəllim kompüter texnikasında, onun tətbiq sahələrində, tətbiqi riyaziyyatda, sistem nəzəriyyəsində inqilabi yeniliklər edən bu möhtəşəm elm sahəsinin ən aparıcı liderlərindən biri və yəqin ki, baş dirijorudur. Onun rəhbərliyi altında dünyanın bir çox ölkələrində qeyri-səlis məntiqlə bağlı xeyli sayda beynəlxalq tədbirlər keçirilir. Bu sahədə ciddi nüfuz, söz sahibi olaraq müxtəlif davamlı nəşrlərə rəhbərlik edir. Azərbaycanda və dünyanın ən aparıcı ölkələrində çıxan 350-yə qədər ciddi elmi məqalənin müəllifidir. İndiyə qədər 72 kitabı nəşr olunub ki, onlardan da 35-i Amerikada, Avropada və digər ölkələrində işıq üzü görüb. Söhbət təkcə kitabların çap olunmasından getmir. Bu kitablar, onun məqalələri bir çox ölkələrdə necə deyərlər fəaliyyətdədir, hərəkətə keçmişlər. Kosmik, hərbi sənayedən tutmuş adi məişət texnikalarına qədər tətbiq olunan elmi ideyalar Çin, Rusiya, Amerika, Almaniya və s. kimi ölkələrə milyonlar, milyardlarla gəlir gətirir. Artıq onun kitabları başqa dillərə tərcümə olunub yayılır. İnternetdə axtarış versək qərar qəbuletmə sahəsində bütün dünya üzrə beş mühüm kitabdan birincisi Rafiq müəllimin kitabıdır.

Rafiq müəllim öz davranışı, əxlaqı, təmkini, çalışqanlığı, savadı ilə bizim nümunəvi, böyük ziyalılarımızdan biridir. Onunla təmasda olan hər bir düzgün insan bu böyüklüyü, ondan gələn gözəl enerjini dərhal hiss edir. Ona görə də bütün tələbələri, aspirantları, dostları onu səmimi, təmənnasız olaraq çox istəyir, hörmətini saxlayır. O, xeyli gəncin kumiridir. Həmin gənclərin elm yolunda daha əzmlə çalışmalarında Rafiq müəllim kimi nümunəvi bir insana olan sevgi də mühüm rol oynayır.

Tarix göstərir ki, əsl ziyalılar hər zaman bütün yer üzünün gələcəyinin qayğısına qalmaqla bərabər, həm də öz xalqlarını, vətənlərini çox sevirlər. Belə insanlar xalqın hər bir övladını öz övladları hesab edir, onlara hər çür qayğı göstərirlər. Çünki, onlar gözəl bilirlər ki, xalqın hər bir istedadlı, qabiliyyətli gəncinə kömək etmək elə öz xalqına kömək etməkdir. Onların kömək etdiyi gənc bir kamil mütəxəssis kimi yetişdikcə, bu xalqın qüdrətinin, əzmin artmasına kömək edəcəkdir. Bu sahədə də Rafiq müəllimin fəaliyyətdi olduqca genişdir. O, uzun illər ali məktəbdə, dərs otaqlarında yuksək səvviyyəli – dünyanın ən aparıcı universitetləri səviyyəsində mühazirələr oxumaqla yanaşı yüzlərcə istedadlı tələbəni başqa ölkələrə oxumağa göndərməyə də kömək etmişdir. Həyata keçirdiyi xüsusi layihələr hesabına, təmənnasız olaraq dünyanın ən qabaqcıl ölkələrinə oxumağa göndərilmiş 300-ə qədər həmin gənclər indi ölkəmizdə, yer üzünün müxtəlif yerlərində elmdə, istehsalatda aparıcı mütəxəssislər olaraq vətənimizə baş ucalığı gətirir, ölkəmizin nüfuzunu qaldırırlar.

Rafiq müəllim heç zaman siyasətlə məşğul olmayıb və siyasətdən uzaq adamdır. Onun Allah qarşısında məqamı başqadır. O, bizim böyük alimizdir və bir alim kimi Azərbaycana verdiyi və verəcəyi fayda daha çoxdur. Özü də dəfələrlə müsahibələrində dediyi kimi, onun həyat devizi hər zaman kiminsə yanında olmaq yox, lider olmaqdır. O, elm aləmində ölkəmizdə öz sahəsində lider bir alimdir. Siyasətlə məşğul olanda isə kiminsə yanında olmalıdır. Onun əleyhdarları hərdən onun bir vaxtlar Ə.Vəzirovun vaxtında Mərkəzi Komitədə şöbə müdiri işlədiyini yada salırlar. Həmin adamlar bu məsələyə neqativ tərəfdən yanaşıb onun adının üstə kölgə salmağa üstünlük verirlər. Amma o vaxtlar onun fəaliyyəti ilə yaxından tanış olanlar bilir ki, yaxşı ki, o zaman Mərkəzi Komitə də həm də Rafiq müəllim işləyib. Onun orada olması, neçə insanın taleyini qan-qadadan xilas edib, güçü çata bilən bir çox məsələlərdə xalqın mənafeyinin qorunmasına xidmət edib. Əgər həmin vədə Rafiq müəllim hansısa xoşagəlməz bir addım atsaydı, o zaman bütün müxalifət mətbuatı bunu yazardı. Müxalifət liderləri ilə Rafiq müəllim arasında bir gərginlik olardı, onlar sonradan Rafiq müəllimə sayğı duymazdı, onunla dostluğa can atmazdı.

Rafiq müəllim eyni zamanda nümunəvi bir ailə başçısıdır. Rəhmətlik həyat yoldaşı Aidə xanımla saf bir məhəbbət əsasında ailə qurmuşdu. Ömrü boyu bu saf hisslərə nə dərəcədə sədaqətli olduğu onun əxlaqında, davranışında da öz əksini tapmışdır. Ailədəki uşaqlar ülvi məhəbbətdən doğulanda bu onların bir ahəng içində gözəl bir şəxsiyyət kimi formalaşmasına ciddi təsir edir. Rafiq müəllimin də bir oğlu və iki qızı öz valideynlərinə layiq olaraq boya başa çatmışlar. Hər üçü

atalarını yolunu davam etdirirlər. Oğlu Rəşad Əliyev də indi dünyada tanınmış alimlərdən biridir. Kiprdə, Orta Doğu Ağdəniz Universitetində professordur.

Rafiq müəllimin mənəvi övladları daha çoxdur. Onlar Rafiq müəllimin təmmənnasız olaraq müasir dünyanın tələblərinə uyğun şəkildə bilik verdiyi tələbələri, aspirantlarıdır. İndiyə qədər onun elmi rəhbərliyi altında 160-a qədər insan dissertasiya müdafiə edib elmi dərəcə almışdır. Onlardan 35 nəfəri elmlər doktorudur. Nəinki Azərbaycanda, bəlkə də yer üzündə az-az alim olar ki, bu qədər alim yetirmiş olsun. Həm də Rafiq müəllim, üzdən iraq, qondarma alimlər hazırlamayıb, əsl alim hazırlayıb. Beynəlxalq səviyyəli bir alim olan Rafiq müəllim dünyanın hər tərəfində aspirantları var. Təkcə elə Amerikadakı aspirantalrının sayı 10-a yaxındır. Onun yetirmələrinin çoxu indi ölkəmizdə də müxtəlif sahələrdə çalışırlar. Təkcə Sumqayıtda Rafiq müəllimin rəhbərliyi altında 10 nəfər dissertasiya müdafiə edib elmlər doktoru adı almış alimimiz var. Onun hazırladığı kadrlar təkcə elm sahəsində deyil, eyni zamanda təhsil sistemində, istehsalatda uğurla çalışırlar. Onların hər birinin qəlbində eyni zamanda Rafiq müəllimin nuru, fəaliyyətlərində Rafiq müəllimin dəst-xətti, əzmi var. Onlara misal olaraq bir neçəsinin adını çəkmək istərdim. Aspirantlarından biri Niyaz Abdikiyev indi Moskvada məşhur Plexanov adına İnstitun prorektorudur. Başqa bir aspirantı indi Kanadada ən aparıcı üniversitetlərdən birində kafedra müdiridir. Başqa bir aspirantı İ.Aşurbəyli indi Rusiyada hərbi sənayenin ən ciddi mütəxəssislərindən, təşkilatçılarından biridir.

Rafiq müəllim xarici ölkələrdə bir neçə universitetin – Amerikada Corciya Universitetinin, Almaniyada Ziqen Universitetinin, Kiprdə Yaxın Doğu Universitetinin, İranda Təbriz Universitetinin professorudur. Ötən ilin iyun ayında Türkiyədə, 40 minə yaxın tələbəsi, 12 xəstəxanası olan nəhəng Medipol Universitetində "Zadə–Əliyev qeyri-səlis məntiq Mərkəzi"nin açılışı olub. Bu Mərkəzdə qeyri-səlis məntiqin kommunikasiya texnologiyalarında, təbabətdə, biologiyada, təhsildə, iqtisadiyyatda, qərar qəbuletmə sahəsində və s. başqa sahələrdə tətbiqi ilə araşdırmalar aparılmağa başlanıb. Kiprdə də Yeni "Zadə–Əliyev Elmi araşdırma Mərkəzi" yaradılmışdır. Qeyri-səlis məntiqin müasir həyatın, get-gedə mürəkkəbləşməkdə olan cəmiyyətin öyrənilməsi, burada baş verən müxtəlif proseslərin idarə olunmasında olduqca mühüm, araşdırma imkanları yaratdığından, yəqin ki, belə mərkəzlər yaxın onilliklərdə dünyanın bir çox ölkələrində də yaradılacaqdır.

Mənim üçün Rafiq müəllimlə söhbət etmək xüsusi zövq verir. Olduqca sadə, diqqətli bu insanla söhbət edəndə adam sanki elm aləminin göylərində olur. Həyatda çox nadir hallarda elə həmsöhbətə rast gəlmək olar ki, o sən dediyin sözlərə bu qədər əhəmiyyət verir, diqqət göstərir və dərindən düşünərək bu qədər səmimi cavab verir.

Bu yaxınlarda mən ona bir neçə sual verdim. Təbii ki, verdiyim sualların hər biri barədə mənim öz fikirlərim, verə biləcəyim cavablar da vardı. Amma bu suallara cavabı həm də müasir dünya elminin ön xəttində olan, müasir elm aləmində nələr baş verdiyini daha dərindən bilən dövrümüzün tanınmış alimindən eşitmək özüm üçün də çox maraqlı idi. Söhbətimizin bir hissəsini təqdim edirəm:

*– Dünyanın hər tərəfində uğurla fəaliyyət göstərən tələbələriniz, aspirantlarınız, yetirmələrinizlə əlaqələriniz varmı?*

– Təbii ki, var. Onlarla vaxtaşırı yazışırıq, bəziləri ilə birgə araşdırmalar aparırıq. Hal-əhval tuturuq.

*– İndi yer üzündə elmdə nə baş verir, hansı proseslər gedir?*

– Son əlli, yetmiş ildə elmdə olan inqilablar nəticəsində əldə edilənlər bundan əvvəlki dövrlərdə elmin potensialı qədərdir. İndi isə başqa bir inqilabın astanasındayıq. İntellektual sistemlər, maşınlar, hər şeyin intellektuallaşdırılmasına yönəlib. İndi böyük sürətlə smart – ağıllı texnikalar yaradılır. İndi elmin imkanları elədir ki, cərrah amerikada oturub, uzaq ölkələrdə əməliyyat aparır. Həyat daha çox virtuallaşır. Bəzi statistikalara görə indi yer üzünün əhalisinin otuz beş faiz virtual həyatla yaşayır. Amerikada, mənim fəaliyyət göstərdiyim Corciya universiteti "Koka-kola" şirkətindən əlli metr aralıdır. Bu şirkətin xüsusi salonlarında əlinə əlcək geyib, gözünə eynək qoymaqla qeyri-adi virtual aləmə daxil olmaq olar. Orada xəyalından keçən istənilən normal, ekzotik situasiyada olmaq olar. Amma əslində elmin belə, sərbəst inkişafı da ortaya problemlər çıxarır. Burada müəyyən bir ölçüyə, meyarlara ehtiyac vardır. İnsanlığa, tərəqqiyə xidmət olan belə meyarlar, prinsiplər olmasa elmin indiki inkişaf tempi bəşəriyyəti sonuna gətirə bilər. Bir baxın, indi artıq müharibələrdə iştirak edə biləcək robot əsgərlər istehsal etməyə başlayıblar. Bir anlığa fikrinizə gətirin ki, bu əsgərlər döyüş zamanı özləri də qərar qəbul edirlər. Yaxud bu tipli robotlar haradasa üsyan edirlər. Təsəvvürünüzə gətirsinizmi o zaman yer üzündə nələr baş verər? Ona görə də, indi elmin belə sürətli inkişafı ilə yanaşı, yeni tənzimləyici ideyalara da ehtiyac var.

*– Yəqin elə buna görə də indi Qərb alimləri də hiss etməyə başlayıblar ki, bu məsələlərdə Şərq fəlsəfəsinin müddəalarından istifadə etməyə ehtiyac var?*

– Təbii, bu ehtiyac get-gedə daha aydın duyulmaqdadır.

*– Eyni zamanda dini kitabların fəlsəfi potensialından istifadə etmək də faydalı olardı.*

– Bəli, mən bəzən bu barədə danışanda ölkəmizdəki bəzi insanların da reaksiyası təəccüblü olur. Dini kitablara dərindən diqqət yetirsək, bu kitablardakı kəlamların arxasında olan mənaları dərk etməyə çalışsaq o zaman görərik ki, dini kitablardakı, ciddi elm adamlarının təsəvvürlərindəki allahla, mollaların, cahil adamların bizə təqdim etdiyi, ateistlərin nəzərdə tutduğu Allah fərqli şeylərdir. Düşünürəm ki, sonsuz kainata nizam verən qüvvənin hikmətləri haqda məntiqi olaraq düşünmək də dünyəvi elmlərin inkişafında mühüm rol oynaya bilər.

*– Məlum olduğu kimi, elmi metodlardan istifadə, eyni zamanda sizin elmi əsərləriniz bir sıra ölkələrin böyük maddi gəlirlər əldə etməsinə kömək edir. Bəs biz öz ölkəmizdə bu potensialdan necə istifadə edə bilərik?*

– Bütün ölkələrin təcrübəsi göstərir ki, ümumi daxili məhsuldan elmə ayırmalar iki faizdən azdırsa, o elm o iqtisadiyyata lazımi şəkildə təsir edə bilmir. Bizdə indi bu ayırma hələ 0,4 faizdir. Bütün bəşəriyyəti həmişə düşdüyü dolanbaclardan elm çıxarıb. Bütün yer üzünü də indiki problemli vəziyyətdən yalnız elm çıxara bilər. Eləcə də bizim ölkəmizə də elm xeyli kömək edə bilər. Elmdən düzgün istifadə ilə biz xammaldan əldə etdiyimiz gəlirlərdən dəfələrlə çox gəlir əldə edə bilərik. Elmdən düzgün istifadə etdikdə əksər hallarda heç zəngin

xammala ehtiyac da olmur. Belə ölkələrdə ölkənin əsas gəlir mənbəyi əhalinin intellektidir və elmdən düzgün istifadə etmək yollarıdır. Çin də bu yola üstünlük verir. Cənubi Koreya, Sinqapur, Malaziya kimi ölkələr də bu yolla getdilər. İndi Sinqapurda bir adamın orta əmək haqqı illik 50-60 min dollardır. Azərbaycanın da bu sahədə uğur qazanmağa çox böyük potensialı var.

*– Sizcə, Azərbaycanda elmimizi arzu olunan səviyyədə inkişaf etdirmək, ondan hər tərəfli bəhrələnmək üçün hansı işlər görülməlidir?*

– Bunun üçün ilk növbədə elmi siyasiləşdirməkdən qurtarmaq lazımdır. Bu sahədə hər bir addım ədalət naminə atılmalıdır. Elm sahəsinin öz xüsusiyyətləri var. Başqa sahələrdəki inzibatçılıq metodlarını elmi sistemə gətirmək düz olmaz. Həqiqi, ciddi alimin, ciddi elmi araşdırmalara diqqət artırılmalı, onlar lazımi səviyyədə stimullaşmalıdır. Hər bir alimi öz yerində görmək lazımdır. Hər bir alim öz qabiliyyətinə, təyinatına uyğun mövqedə olmalıdır. Rəhmətlik şair Qabil gözəl deyib: "müsibət oluruq biz, səhv düşəndə yerimiz!" İdarəetmənin bütün sahələrində elmi təminata xüsusi fikir verilməlidir. Belə olduqda həqiqi elmi araşdırmalara sifarişlər də çoxalacaq. Elmə elə adamlar gəlməlidir ki, onlar elmi araşdırmadan, elmi işçi olmaqdan zövq alsınlar, onların ən çox üstünlük verdiyi dəyər ciddi elmi işçi olmaq olsun. Pulagir, fikri pul yanında qalanların əksəriyyəti ciddi elmi işçi ola bilməz. Çünki elmdə əsas motivasiya pul deyil. Elmi nəticədən alınan zövqdür. Elmlə ciddi məşğul olan adam təkcə özü üçün yaşamır, fəaliyyət göstərmir. Xalqı üçün, bəşəriyyət üçün çalışır. Ona görə də bu sahədə önəmli nəticələri olanı xalqı tarix uzun illər boyu yad edir. Amma ən böyük sərvət sahibi bəzən ölməmişdən belə unudulur, mülkü üstündə dava düşür.

*– İndi əlinizdə hansı işləriniz var?*

– Görə biləcəyim işlərim, üstümə götürdüyüm işlərdən dəfələrlə azdır... Elm elə bir sahədir ki, burada dərin aludəçilik var. Girdinsə, çıxa bilməyəcəksən. Martın axırına kimi dünyanın ən mötəbər nəşriyyatlarından olan "World Scientific"nəşriyyatına 400 səhifəlik bir yeni kitab təhvil verməliyəm. Kitab qeyri-müəyyənliklər hesabı və qərar qəbuletmə məsələsinə həsr olunub. Amma ilk dəfədir ki, kitabı hazırlamaqda bir az gecikirəm. Bunun da öz səbəbi oldu. Mən heç zaman kitablarımı nəşriyyata təhvil verməyə zaman etibarı ilə gecikməmişəm. Gecikmənin səbəbi budur ki, Lütfi Zadə mənə bu arada "Qeyri-səlis məntiq nəzəriyyəsi və onun tətbiqi"nə həsr olunmuş 500 səhifəlik bir kitab birlikdə yazmağı təklif etdi. Bizdən sonra o kitab qalsın, – dedi. Ona görə də mənim mart ayının axırında təhvil verəcəyim kitabla bağlı vaxt qıtlığım var. İndi məndən eyni zamanda bir neçə çox nüfuzlu jurnal, məsələn, "Ekonometrika" jurnalı məqalə gözləyir. Berkeley, Kipr Universitetləri ilə kontraktlarım var. Eyni zamanda onlar üzərində də işləyirəm. Bakıda yeni bir laborotoriya – "İntellektual sistemlər laboratoriyası" yaradırıq. Üstə gəl dərslər.

*– Maşallah, bu yaşda bu qədər işin öhdəsindən gəlirsiniz. Allah kömək olsun!*

– Sağ olun.

**Əhməd Qəşəmoğlu,**
**sosioloq alim, şair**

## MÜƏLLİM

Müəllim sevdasının üfüqü bəlli, sərvətini son hissəsinədək xərcləyəcək qədər comərd, ömrü bitsə də işığı öləziməyən bir şam, dünya adlı səltənətin memarının seçdiyi ad, səmimiyyətinin kölgəsindən uzaqlaşmayan qoca varlıq... Müəllim, bəşərin mənəviyyat sorumlusu... Allahın, kainatın tarazlığı üçün bir gözündə dünya olan tərəzinin digər gözünə qoyduğu möhtəşəm yaradılmış... Bütün vəzifələr bu adın yanında kiçik qalır. Çünki, Uca Allahın insan oğluna dediyi ilk söz “oxu!” əmrinə qeyri-şərtsiz riayət edən və ömrünü bu yolda yandıran çıraq, kamal qapısının şifrəsidir, müəllim...

Uşaqlıqdan xatirəmdə bu adın haqqını verən və ya verə bilən şəxslər qalıb. Bu o zaman idi ki, hər yoldan ötənə müəllim deməzdilər. Bu adı az-çox haqq edənlər daşıyardı. Amma bir də adsız– filansız müəllim ola bilənlər vardı. Müəllim deyiləndə, söhbətin kimdən getdiyi aydın olurdu. Get-gedə bu şərtlər yoxa çıxsa da, Xudu Məmmədovla tanımış olduğum müəllim adının özünü belə şərəfləndirə bilmiş şəxsiyyətlər də olmamış deyil.

...Günlərin birində adını çoxdan eşitdiyim, lakin şəxsi tanışlığım olmayan Rafiq Əliyevə zəng elədim, özümü təqdim edib, “əllərinizi öpmək üçün görüşmək istəyirəm” – dedim. Tutulduğunu hiss etdim, yəqin ki ilk dəfə idi belə bir söz eşidirdi.

“Mən neyləmişəm ki?”, – deyə fərqində olaraq yaşadığı müəllim ömrünün ən parlaq sualını verdi. Onun nələr etdiyini anlayacaq qədər zəkam olmasa da, az-çox dərk edə bildiklərimi düşündüm.

“Nəyi deyim?” fikirləşdim: dünyanın ən müasir elm sahəsinin yaradıcılarından biri olduğunumu..., yazdığı yetmişdən artıq dərsliyimi..., yetişdirdiyi saysız mütəxəssislərimi..., örnək şəxsiyyətinimi..., sadaladıqlarımın fövqündə dayanan müəllim fenomeninimi... və elə bütün bunların yanında “Mən neynəmişəm ki?”, – deyə bilməyinimi...

Rafiq Əliyev dövrü qabaqlayan, zamana ad verə bilən, cahanı idrakının tərəzisində çəkib, altından imzasını ata biləcək qədər məsuliyyətli alimdir, alimliyi müəllimliyinin kölgəsi qədər doğma alim... Hər kəs kimi onun da müəllimləri olub, amma Rafiq Əliyev özünə belə dərs verə bilən alimlərdəndir. Çünki alimliyi müəllimliyinin yanındadır, alimliyi müəllimliyinə xidmət edir, müəllimliyi alimliyinə yox. Axı o adı alim olanlardan deyil, özü alimdir... Sərvətdir... gəlirini-gedişini bilmədiyimiz təbii sərvətlər kimi onu da bilmirik, tanımırıq. Belə faydalı sərvətdən istifadə yollarını aramırıq. Nail olduğu elmi sıçrayışları həyatımıza tətbiq edib, dövlətimizin gücünü, millətimizin rifahını yüksəldə biləcəyimiz bu sərvəti kəşf etməkdə gecikdiyimizin fərqində belə deyilik.

Əsas diqqətini say və çəkinin standart olmayan forma və anlayışlarının təhlilinə yönəldib. Çünki o çəki anlayışını dərk etməkdə çətinlik çəkmir. O,

ölçülü ölçüsüzlüklərin adamı, inandığı tərəzi Haqqın tərəzisidir və özünü, əməllərini o tərəziyə hazırlamaqda zorlanmır...

Rafiq Əliyev o şəxsiyyətlərdəndir ki, heç bir mükafata endirmək olmur onu. Zamanında SSRİ Dövlət Mükafatı, son illər "Elmdə Ömürlük Nailiyyət mükafatı" (ABŞ) almış olsa da, bütün bu ödüllər onun parlaq şəxsiyyəti yanında sönük qalır. Axı ən böyük mükafatı sevgidir, yaradanın və yaradılmışların sevgisi... Tanıyanların hamı səni sevirsə, deməli Allah da sevir məntiqiylə baxsaq, Allah sevmədiyi kimsəni elm rütbəsilə ödülləndirməz.

Haqsızlığa göz yummaz, yuma bilməz. O, heç kimə müxalifət deyil, amma müxalifdir. Sözü içini deşənlərdən deyil, kəlməsi maneələri dələnlərdəndir. Müəllim mövqeyindədir, mövqeyinin müəllimidir. Bütün misallarının həllində bərabərin ardında insan var, bəşər var, elə buna görə də Rafiq Əliyev bəşəri şəxsiyyətdir. Bu günlərdə bir qrup gənc görüşünə gəlir, xeyli söhbətləşirlər müəllimlə, sonda Rafiq müəllim "İndi deyin görüm, siz qazandınız, mən?" soruşur. Gənclər "biz!" deyə, cavab verirlər. Müəllim təbəssüm edir, "yox mən qazandım, siz bir mənimlə tanış oldunuz, mən isə hamınızla" – deyir və onlarla sağollaşanda hər birinin geyinməsi üçün üst geyimlərini belə özü tutur. Ən adi bir məqamda belə örnək ola bilir, müəllim ola bilir...

Müəllim məktəb ola bilənlərdi, yol aça bilənlərdir, yola çevrilənlərdir. Rafiq Əliyev məktəbdir. Qalır bizim bu məktəbin şagirdi ola bilməyimiz. Bu da bizim niyyət və hədəflərimizdən asılıdır.

**Vasif Qurbanzadə,**
**araşdırmaçı**

## AZƏRBAYCANIN ALİM İNSANI

Oxucular yəqin dünyaşöhrətli alim Rafiq Əliyevlə "GÜN səhər" qəzetində dərc olunmuş silsilə müsahibəni unutmayıblar. Müsahibə bitəndən sonra Rafiq müəllim qəribə bir xahişdə bulundu. Üzünü mənə və həmkarım Nemət Hüseynliyə tutub: "Uşaqlar, sizdən bir xahişim var" dedi. Təəccüblə ona baxdıq. O, sözünə davam elədi: "Məndən tərif yazmayın..."

Bilmədim, bu Böyük Alimdə tərifdən qaçmaq ehtiyacını xahiş həddinə çatdıran nə olmuşdu... Bəlkə o, cəmiyyətdə sağdan-sola, yuxarıdan-aşağı vurub çıxmış tərif sıyığına adını bulaşdırmaq istəmir və buna görə ilk dəfə görüşdüyü jurnalistlərə – hər ehtimala qarşı – mühüm şərtini söyləyirdi. Bəlkə düşünürdü ki, iki saat çəkmiş söhbət mətləbə dəxli olmayan "qeyri-ciddi tərif"in altında itə-bata düşər. Bəlkə Alim sonda fürsətdən istifadə edərək öz dərsini deyirdi... Deyirdi ki, uşaqlar, vicdanlı jurnalist nəinki şit-şılıq, heç haqlı hesab elədiyi tərifi də yazmaya bilər; təki həqiqətin özünü çatdırmaqla kifayətlənsin.

Müsahibəni yazıb "GÜN səhər"ə təqdim elədik. İndi icazə verin, heç bir tərifə ehtiyac duymayan Alimlə, Alim İnsanla təxminən iki saat sürmüş görüşdən qısa təəssüratımı bölüşüm.

Mən jurnalistəm. Bir balaca yazıçılığım, bir o qədər də şairliyim var. Təxminən 10 il öncə Azərbaycan Yazıçılar Birliyinə üzv keçmişəm. Orta məktəbdə riyaziyyat sevdiyim və yüksək qiymət aldığım fənn olmayıb – riyaziyyat məndən uzaq sahədi. Ancaq dünyanın ən mürəkkəb riyazi məsələləri ilə məşğul olan, qeyri-səlis riyazi məntiqin görkəmli davamçısı sayılan Alimi mənə, mənim daxili aləmimə (orada Bir Olan Allaha inamın mövcudluğunu da xüsusi vurğulamalıyam) bu qədər yaxın və doğma eləyən nə idi?

Yəqin bizim hamımızın (əslində bütün insanlığın) axtarışlarımız bir mühüm nöqtəyə, bir vacib ünvana, bir əlahəzrət instansiyaya istiqamətlənib. Həmin ünvan həqiqətin olduğu yer, yəni Yer və ya Göydü; ümidlərin və gözləntilərin, canatımların və istəklərin Könül Qapısıdı. Orada şeirin misrasıyla düsturun sətri, mənanın içiylə sözün sətri birləşir. Quran ayəsilə Alimin kəlamı tamamlanır.

Hər nəsə, Neft Akademiyasındakı otaqda iki sadə jurnalistlə Böyük Alim arasında bir ilahi harmoniya yaranmışdı. Bu, həmin Alimin böyüklüyü hesabına əmələ gəlmişdi...

"Tezliklə bu gənc böyük nəticələr əldə edəcək!". Bu fikri onun haqqında neçə-neçə illər öncə indi şəkilini kabinetindən asdığı müəllimlərindən biri, akademik, Sosialist Əməyi Qəhrəmanı, Lenin və Dövlət Mükafatları laureatı V.Petrov demişdi. Müəllimin proqnozu düz çıxdı. Dünya universitetlərində dərs deyən, Lütfi Zadənin böyük qiymət verdiyi Rafiq Əliyevi bu ölkədə rəsmi səviyyədə tanıyan, dəyərləndirən, sözünü eşidən varmı? Halbuki Rafiq Əliyev kimi Alimlərin və İnsanların düşüncəsi üzərində nəinki institut, universitet,

hətta ölkə qurmaq, dövlət idarə eləmək olar. Bu Alim İnsanla keçmişi eşidib anlamaq, gələcəyi hesablayıb yaratmaq mümkündür. Maşınları danışdırmağa hazırlaşan bir elmin müəllimi və tələbəsi, öyrənəni və öyrədəni olan Alimə biganə münasibət yaraşmaz...

...Rafiq müəllimlə bizim müsahibənin ən maraqlı hissəsi onun intellektual maşınların meydana gələcəyilə bağlı söylədikləriydi. Alim bizə izah edirdi ki, vaxt olacaq riyazi düsturlarla yox, təbii dillə anlamağı bacaran maşınlar yaranacaq. Beləliklə, təbii dilin qələbəsi hesabına riyazi dil ömrünü başa vuracaq. Rafiq müəllimin bu fikirləri söylədikcə onun təhkiyəsi, ifadəsi bizi əhatə eləyən efiri, fəzanı doldurur, damcı-damcı şüurumuza çatıb böyük bir ilahi eşq yaşadırdı.

Onda mən dilsiz, daha doğrusu, nitqsiz anlaşma haqda sual vermək istədim. Misal üçün, sufilər danışmadan, nitqdən-sözdən istifadə etmədən bir-birini ELƏCƏ BU SÜKUTUN içərisində, efiri doldurmuş fikirdən anlayırdılar.

Bu mövzuya gəlib çıxmadıq. Buna nə vaxt, nə imkan çatdı.

...İndi mən həmin fikirlə, eşqlə dolu fəza haqda düşünürəm. Mənə elə gəlir, bütün Azərbaycan Rafiq müəllimi – Alim İnsanı sükutdan dinləyir. Və başa düşür.

**Qurban Yaquboğlu,**
**yazıçı, publisist**
27.02.2008

## PROFESSOR RAFİQ ƏLİYEVİN PORTRET CİZGİLƏRİNİN GÖRÜNƏN VƏ GÖRÜNMƏYƏN TƏRƏFLƏRİ

Yaşı milyon illərlə ölçülən təbiətdə və cəmiyyətdə sürətli dəyişmələr, yeniləşmələr gedir. İnsanlar bu sürətli dəyişmələrin, yeniləşmələrin səbəblərini hərəsi müxtəlif amillərlə əlaqələndirirlər. Amma gəlin biz bunların səbəblərini müxtəlif yerlərdə yox, birbaşa elmdə, elmi-texniki tərəqqinin fasiləsiz inkişafında, texnologiyaların sürətli yeniləşmələrində axtaraq.

Bəli, müasir dünya elmi bu gün çox sürətlə inkişaf edir və onun inkişafının bəhrələrini həm sənaye, həm iqtisadi sahələrdə, həm də sosial-mədəni həyatda bütün qabarıqlığı ilə görürük. Və çox sevinirik ki, bu qlobal xeyirxah işdə bütün dünya alimləri kimi azərbaycanlı alim, texnika elmləri doktoru, professor Rafiq Əliyevin də böyük xidmətləri vardır. Elə bunun nəticəsidir ki, dünya şöhrətli Amerika alimi, professor Ronald Yager uzaqgörənliklə yazır: "Professor Rafiq Əliyev Amerikadan 7000 mil uzaqlıqda olan Azərbaycanda yaşasa da, buradan da çox əzəmətli görünür".

Bu yerdə professor Rafiq Əliyevi yaxından tanımayanlarda belə bir sual yarana bilər: dünya şöhrətli Amerika alimi, professor Ronald Yagerin böyük hörmət və məhəbbətlə qiymətləndirdiyi bu azərbaycanlı alim kimdir? Əlbəttə bu sualı birbaşa da cavablandırmaq olardı. Amma gəlin tələsməyək. Sualı dolğun cavablandırmaq, Rafiq Əliyevin portretinə tamlıq gətirmək üçün onun uzaq keçmişinə səyahət edib və hər şeyi əvvəldən başlayaq.

Professor Rafiq Əliyev bizim həmvətənimiz və həməsrimizdir. O, 1942-ci ildə Qədim Qarabağın Ağdam bölgəsindəki Novruzlu kəndində dünyaya göz açmışdır. Digər Azərbaycan ailələri kimi Rafiq Əliyevin dünyaya göz açdığı ailə də çoxuşaqlı ailə idi. Bu ailədə üç qardaş, üç bacı böyüyürdü. Ailəni dolandırmaq üçün ataları Əziz kişi və anaları Sayad xanım böyük əziyyətlər çəkirdilər. Uşaqların demək olar ki, hamısı oxumağa meyilli idilər. Xüsusilə Rafiq ədəbiyyata, elmə sonsuz həvəsi və marağı ilə daha çox fərqlənirdi. O, ara-sıra şeirlər, mənzum pyeslər yazırdı. Hətta mənzum pyeslərindən biri məktəb səhnəsində tamaşaya qoyulmuşdu. 1958-ci ildə o, Ağdam şəhər orta məktəbini medalla bitirib Bakıya üz tutanda hamı elə bildi ki, o, mütləq universitetin filologiya və yaxud jurnalistika fakültəsinə daxil olacaq. Amma tamam əksinə oldu, o, dəqiq elmlər sahəsini seçdi. Və Azərbaycan Sənaye İnstitutuna daxil oldu.

Professor Rafiq Əliyev tez-tez o anları xatırlayıb deyir: "Mən instituta daxil olub qayıdandan sonra uzun müddət müəllimlərim elə bilirdilər ki, ədəbiyyat fakültəsinə daxil olmuşam. Sonralar mən deyəndə ki, informatika, kibernetika sahəsinə getmişəm, hamı təəccübləndi. Xüsusilə ədəbiyyat müəllimim xeyli heyifsiləndi. Sual olunur: mən niyə belə etdim və haradan bildim ki, bu elm sahələri daha perspektivlidir? Ruhu şad olsun, orta məktəbdə Kamal Qaradağlı soyadlı bir fizika müəllimimiz vardı. O, hərtərəfli, inkişaf etmiş bir adam idi.

Məni o vaxtlar elmin bu perspektivli və müasir sahəsinə o istiqamətləndirdi. İsrarla bildirdi ki, XX əsrin axırı, XXI əsr kibernetika, informatika və yeni texnologiyalar əsri olacaq".

Yeri gəlmişkən gəlin Rafiq Əliyevin yetişib formalaşdığı XX əsrin 50-60-cı illərinə də qısa ekskurs edək. Və bəri başdan onu da deyək ki, XX əsrin 50-60-cı illəri olduqca təzadlı və ziddiyyətli illər idi. Çünki Böyük Vətən müharibəsi zamanı gərginliklə işləyən neft sənayesi xeyli dağıntılara məruz qalmışdı. Belə bir vəziyyət isə həm texnologiyaların əsaslı surətdə yeniləşməsini, həm də istehsalın səmərəliliyinin yüksəldilməsini təmin edən avtomatik sistemlər yaradılmasını tələb edirdi. Bir tərəfdən də o dövrdə bəşəriyyət elmi-texniki inqilab ərəfəsində idi. Atom ram edilmişdi. İlk kvant generatorları – lazerlər qurulmağa başlamışdı. İnsan kosmosu fəth etməyə girişmişdi. Qarşıda yeni planetlərin fəthi dururdu. Əlbəttə, bütün bunlar yüksək ixtisaslı kadrlar tələb edirdi.

Professor Rafiq Əliyev elmə gəlməyinin səbəblərini bir neçə amillə izah edir. Deyir ki, elmə gəlməyimdə əsas dominant tərəf, mənəvi tərəf olub. İlk gündən dərk etmişəm ki, alimin heç vaxt pulu və maddi tərəfdən dəstəyi olmur. Diqqətlə elm tarixinə nəzər salsaq, onda görərik ki, alimlərin heç biri dəbdəbəli həyat sürməyiblər. Amma əvəzində həmişə müstəqil olublar və onlar həmişə öz zamanələrində zəmanəyə, o zəmanənin eybəcərliklərinə, çətinliklərinə və haqsızlıqlarına qarşı müxalifətdə bulunublar. Açığını deyim, elmə gəlməyimin bir səbəbi də mənim müstəqilliyi çox sevməyimdə olubdu. Nə qazanmışamsa, o mənə həmişə müstəqillik veribdir. Elmdə də bu xarakterdən asılı olaraq nüfuz qarşısında mənim qorxub, çəkinməyim olmayıb. Düzdür, klassikləri çox sevmişəm, həmişə öyrənmişəm, ancaq onların nəticələrinə doğma kimi baxmamışam…

Ali məktəbin son kursunda oxuyan Rafiq Əliyev artıq püxtələşmiş, daha çox məntiqi mühakimə yürütmək qabiliyyəti əxz etmiş, həm də avtomatik idarəetmənin müasir problemləri sahəsində formalaşmış dərin bilikli bir mütəxəssis idi.

Bunu hiss edən Rafiq Əliyev 1964-cü ildə keçmiş SSRİ Elmlər Akademiyasının İdarəetmə Problemləri İnstitutunun aspiranturasına daxil oldu. O, burada akademik Boris Nikolayeviç Petrovun şöbəsində, professor Georgi Mixayloviç Ulanovun laboratoriyasında onlarla birlikdə öz tədqiqatlarını davam etdirdi. İlk dəfə o, professor Şipanovun irəli sürdüyü, sonralar akademik Nikolay Luzin, Boris Nikolayeviç Petrov və Georgi Mixayloviç Ulanov tərəfindən davam etdirilən elmi ideyalar üzərində səylə çalışmağa başladı. Nəhayət, 1967-ci ildə o, "İnvariant idarəetmə sistemlərinin nəzəriyyəsi və qurulması" mövzusunda namizədlik dissertasiyası müdafiə edib bu nəzəriyyənin yaranmasına öz töhfəsini verdi.

1967-ci ildə Bakıya qayıdan Rafiq Əliyev əvvəlcə Neftkimya-avtomat Elmi-Tədqiqat Layihə İnstitutunda laboratoriya müdiri, sonralar isə şöbə müdiri vəzifəsində işləməyə başladı. 1975-ci ildə isə idarəetmə proseslərinin avtomatlaşdırılması mövzusunda dissertasiya müdafiə edib texnika elmləri doktoru elmi dərəcəsi aldı. 1976-cı ildə isə Azərbaycan Dövlət Neft və Kimya İnstitutunda "Məlumat – ölçü və hesablama texnikası" kafedrasının professoru oldu.

Rafiq Əliyevi həm tələbəlik, həm aspiranturada oxuduğu, həm də Azərbaycan Dövlət Neft və Kimya İnstitutunda işlədiyi dövrlərdən tanıyan akademik İsmayıl İbrahimov deyir: "Hərtərəfli biliyə malik olan Rafiq Əliyev mənim tərcümeyi-halımın əsas hissəsini təşkil edir. Alimin elmi uğurlarının hamısı mənim gözümün qarşısında olub. Bu gün o Şərqlə Qərb arasında bir körpüdür. Rafiq Əliyev XX əsrdə Azərbaycanın dünya elminə bəxş etdiyi ən böyük, ən unikal bir alimdir…"

Deyirlər, məşhur bir şahmatçıdan soruşurlar: şahmat oynamağınızın real həyatda sizə nə kimi köməyi olur? O, cavabında deyir ki, həyatda növbəti addımımı necə atmağı müəyyənləşdirməyimdə. Görkəmli bir alimə də bunabənzər bir sualla müraciət edirlər. O isə cavabında deyir ki, elmlə məşğul olmağım mənə özümü və kainatda gedən gözəgörünməz prosesləri, qanunauyğunluqları dərk etməkdə yardımçı olur.

Professor Rafiq Əliyev də elm aləminə gəldiyi gündən həmin alim həmkarı kimi bu klassik düsturu öz iş prinsipinə, metoduna çevirdi. Həm kainatda, həm insan cəmiyyətində, həm elmdə, həm də real həyatda gedən bu gözəgörünməz prosesləri, qanunauyğunluqları araşdırıb öyrənməyə başladı.

O, Bakıda fəaliyyətə başladığı ilk günlərdə neft emalı müəssisələri ilə – ilk növbədə Yeni Bakı Neftemalı zavodu ilə yaradıcılıq əlaqələri yaratdı. Beləliklə, bu zavod idarəetmə sahəsində elmi-tədqiqatların sınaq və tətbiq mərkəzinə çevrildi. Və yaxşı da nəticələr verdi. Bundan sonra Rafiq Əliyevi avtomatlaşdırılmış idarəetmə sistemlərinin bütün idarəetmə səviyyələrini əhatə edən frontal tədqiqatlar daha çox özünə cəlb etdi. O, bu nəhəng layihənin konsepsiyasını təklif edib nəzəriyyəsini hazırladı. Rəhbəri və konstruktoru oldu. Rəhbərlik etdiyi kollektiv və istehsalatçılar bir neçə il gərgin işlədikdən sonra böyük uğurlar əldə etdi. Ən önəmli uğurlardan biri o oldu ki, professor Rafiq Əliyevin rəhbərliyi altında, Azərbaycan və Rusiya alimlərinin bir qrupunun iştirakı ilə həyata keçirilən "İstehsalın səmərəliliyinin yüksəldilməsi üçün informasiya və idarəetmə sistemlərinin işlənməsi və tətbiqi" işi 1983-cü ildə keçmiş SSRİ-nin ən nüfuzlu Dövlət mükafatına layiq görüldü.

Professor Rafiq Əliyevi yaxından tanıyan və onun elmi araşdırmalarına yaxından bələd olan moskvalı alim, professor Aleksey Averkin Rafiq Əliyevin elmi yaradıcılığını çox yüksək qiymətləndirir. O yazır: "Mənim professor Rafiq Əliyevlə tanışlığım keçmiş SSRİ Elmlər Akademiyasının Hesablama Mərkəzinə gəldiyim dövrdən başlayır. Burada Dmitri Pospelov mənə qeyri-səlis riyaziyyatın incəliklərini araşdırmağı və bu sahədə o zamankı sovet və xarici ölkə alimlərinin işləri ilə tanış olmağı məsləhət gördü. Onlardan əlbəttə ki, Lütfi Zadəni, sovet alimlərindən isə professor Rafiq Əliyevin elmi işləri ilə tanış olmağı məsləhət gördü. Bu müddətdə mən Rafiq Əliyevin "Qeyri-səlis riyaziyyat" üzrə elmi məktəbi ilə yaxından tanış oldum. Və başa düşdüm ki, qeyri-səlis riyaziyyat üzrə elmi istiqamətlərimiz kəsişəcəklər. O zamanlar süni intellekt sistemlərində geniş istifadə olunan qeyri-səlis riyaziyyat üzrə başqa məktəblər də mövcud idi ki, bunlardan Moskva, Riqa və başqalarını göstərmək olar. Bu

elmi məktəblər içərisində Rafiq Əliyevin rəhbərlik etdiyi Bakı məktəbinin xüsusi yeri vardı. Çağdaş günlərimizdə tez-tez professor Rafiq Əliyevin rəhbərliyi ilə dünyanın müxtəlif ölkələrində keçirilən elmi konfranslar, bu elmi məktəbin qeyri-səlis riyaziyyat sahəsində olan ümumdünya elmi məktəblərində qəbul olunmuş xüsusi yerini göstərir".

Rafiq Əliyev Bakıda və dünyanın başqa ölkələrində qeyri-səlis məntiq əsasında qurduqları məktəblərlə əlaqədar nəql edir: "biz hələ XX əsrin 70-ci illərində qeyri-səlis məntiq əsasında qurulan sistemlərin nəzəriyyəsini verərkən, tətbiq edərkən, neyro sistemləri, yeni texnologiyaya əsaslanan sistemləri yaradarkən və bunun müqabilində 80-ci illərin əvvəllərində SSRİ Dövlət mükafatı, yəni o vaxtın ən böyük mükafatını alarkən, hələ dünyanın bir çox, hətta tanınmış ölkələrinin elmi mərkəzlərində bu elmi istiqamət inkişaf etməmişdi".

Biz Almaniyanın Zigen Universitetində, Amerikanın Corciya Dövlət Universitetində, İranın Təbriz Universitetində və dünyanın bir çox başqa yerlərində bu sahədə belə elmi mərkəzlər yaratdıq. Və tədricən onları inkişaf etdirib nüfuzlarını qaldırdıq. İndi bu elm mərkəzləri diqqəti çəkən böyük məktəblərə çevrilmişlər.

Bütün zamanlarda eyni maraqla, ahənglə səslənən və öz cavabını gözləyən belə bir sual var: görəsən həqiqi alimi yalançı alimdən hansı xarakterik xüsusiyyətlər fərqləndirir? Cavab bir mənalıdır: əlbəttə ki, elmi ideyalarının, konsepsiyalarının yeniliyi, çoxçalarlığı, orijinallığı və başəriliyi!

Yeri gəlmişkən qeyd edək ki, professor Rafiq Əliyevin elmi fəaliyyətində əsl alimə xas olan bu xarakterik xüsusiyyətlərin, keyfiyyətlərin hamısı bir-biri ilə qaynayıb qovuşmuşdur. Bu keyfiyyətləri onun ayrı-ayrı vaxtlarda üzərində işlədiyi "İdarəetmə sistemlərinin invariantlıq şərtlərinin formalaşdırılması", "Paylanmış sistemlər üçün koordinasiya nəzəriyyəsi", alimin soyadının ilk üç hərfi ilə elmə daxil olan "ALİ-1, ALİ-2 və ALİ-3 qeyri-səlis məntiqləri", eləcə də "Qeyri-səlis intellektual robotların nəzəriyyəsi", "Qeyri-səlis ekspert sistemləri", "Paylanmış intellektual sistemlərin yaradılması konsepsiyası və nəzəriyyəsi", "Ümumiləşmiş dayanıqlıq nəzəriyyəsi", "Dəqiq olmayan informasiya mühitində qərar qəbuletmə nəzəriyyəsi", "Qeyri-səlis və məntiqi neyron şəbəkələri" adlı araşdırmalarının fundamental elmi nəticələrindən də aydınca görmək olar.

Önəmli cəhətlərdən biri də odur ki, professor Rafiq Əliyevin tədqiqatlarının nəticələri ayrı-ayrı ölkələrdə öz tətbiqini tapmaqla yanaşı həm də dünyanın bir sıra qabaqcıl ölkələrində nəşr olunmuş 60-dan çox kitabında öz əksini tapmışdır. Xatırladaq ki, bu Azərbaycanın timsalında rekord göstəricidir və indiyə qədər heç bir alimimizin bu qədər yeni nəzəriyyələri olmayıb, nə də xarici ölkələrdə əcnəbi dillərdə bu sayda elmi kitabları nəşr edilməyib.

Kitabdan söz düşdüyü üçün önəmli bir faktı xatırlamaq yerinə düşərdi. Professor Rafiq Əliyevin ayrı-ayrı vaxtlarda dünyanın müxtəlif ölkələrində çap olunmuş həmin kitabları indi Avropa və Amerikanın, eləcə də Asiya və Avstralyanın onlarca universitetlərində dərs vəsaitinə çevrilib. Görkəmli alimin bu kitablarında hazırda Almaniyanın Zigen və Darmştadt, Amerikanın Boston və

Berkeley şəhərlərindəki Kaliforniya, Çexiyanın, Rumıniyanın, Avstraliyanın və başqa ölkələrin universitetlərində əsas dərs vəsaiti kimi istifadə olunur. Kitablarla əlaqədar maraqlı faktlardan biri də odur ki, onun texnika elmləri doktoru, professor Rəşad Əliyevlə birlikdə yazdıqları və dünyanın məşhur "World Scientfic" nəşriyyatında çap olunmuş "Soft Computinq and its Appeications" fundamental kitabı bir neçə il dünya elmi-texniki kitabları içərisində bestseller olmuş birinci və ikinci yerdə durmuşdur.

Rafiq Əliyev elmdə ciddi, həyatda çox sadə və səmimi insandır. Ünsiyyətdə olanda daxili hisslərini gizlətməyə çalışmır. Hər şeyi düşündüyü, olduğu kimi etiraf edir. Məhz elə bunun nəticəsidir ki, tanınmaqdan, şöhrətdən, liderlikdən söhbət düşəndə tamam başqalarından fərqli danışır: Böyük elm aləminə daxil olandan sonra məndə dünyada olan həmkarlarım və ictimaiyyət tərəfindən tanınmağıma, qəbul olunmağıma daxili ehtiyac hiss etdim. Əlbəttə, bu elə-belə başa gəlmir, fəal həyat mövqeyi, titanik zəhmət tələb edir. Mən özümdə bunları hiss etdiyim üçün bu yolu seçdim. Tez-tez dünyanın müxtəlif ölkələrində keçirilən Beynəlxalq elmi konfranslara, konqreslərə, simpoziumlara qatıldım. Dünya elminin qəribə xüsusiyyəti var, ora düşdün çıxa bilmirsən. Bir də ayılıb görürsən ki, nə qədər işlər görmüsən. Dünyada olan həmkarlarının çoxu bu və ya başqa məsələlərdə sənin ortaya qoyduğun elmi işlərə istinad edib ondan qaynaqlanırlar. Bu alim üçün çox böyük uğurdur.

Bu dünyada əbədi heç nə yoxdur. Elmi kəşflər, ideyalar, konsepsiyalar da əbədi deyildir. Bir də görürsən ki, müəyyən zaman çərçivəsində lazım olan bir elmi kəşf, ideya sonradan tamam gərəksizləşir. Yəqin ki, bəşəriyyət bir vaxtlar klassik riyaziyyatın, fizika və kibernetikanın köməyi ilə insanların Aya uçduğunu, kompüter yaratdığını, astronomik cədvəllər, atom və hidrogen silahları düzəltdiyini yaxşı xatırlayır. Və çox gözəl bilirlər ki, onların hamısı o dövrdə meydana gələn elmin, texnologiyanın bəhrələridir. Amma çağdaş günlərimizdə bu və ya başqa problemlərin həlli yeni elmi ideya, yeni fəlsəfi yanaşma tələb edir. Klassik riyaziyyat deterministik riyaziyyatdır. O, qeyri-müəyyənliyi nəzərə ala bilmir. Bu baxımdan professor Lütfi Zadənin klassik riyaziyyata alternativ olan qeyri-səlis riyaziyyatı və onun əsasında yaradılan hesablama intellekti yanaşması daha önəmlidir. Bütün bunları Rafiq Əliyev yaxşı görüb hiss edirdi və bu yöndə ciddi axtarışlar aparırdı. Bu axtarışlar zamanı onu ən çox gerçək aləmin qeyri-müəyyənliklərini aşkar etmək, onları elm, texnika və sosial həyatımızın real problemlərinin həllində nəzərə almaq məsələləri düşündürürdü. Çox maraqlıdır ki, öz araşdırmalarına bu cür yanaşma sonralar onun əbədi vərdişinə, bütöv elmi kredosunun məğzinə çevrildi. Və o, bu istiqamətdə həm ölkəmizdə, həm də onun hüdudlarından kənarda bir sıra diqqəti çəkən fundamental işlər həyata keçirdi. Almaniyalı alim, professor Karl Bonfiq deyir: "Biz uzun illərdir ki, bir-birimizi tanıyırıq. Artıq bu tanışlıq dostluğa çevrilib. Uzun illər dost olmaqla bərabər mən professor Rafiq Əliyevlə birlikdə həm də müxtəlif elmi layihələr üzərində işləmişik. Onun tərəfindən alınan elmi nəticələr ümumdünya səviyyəsində olmuşdur və bu barədə dünyanın aparıcı alimləri

öz müsbət rəylərini vermişlər. Bütün bunlarla yanaşı biz Almaniyada birgə bir neçə fundamental kitab da çap etdirmişik. Dünyanın müxtəlif ölkələrində ayrı-ayrı texnologiyalar üzrə xeyli Beynəlxalq elmi konfrans keçirmişik. Professor Rafiq Əliyev bütün dünyada böyük elmi aftoritet kimi tanınır və ona bir alim kimi böyük hörmət göstərilir. Düşünürəm ki, bu qanunauyğundur və o, buna layiqdir".

Dünya miqyasına çıxıb tanınmaq və həmkarları tərəfindən qəbul olunmaq hər bir alimin əzəli, əbədi arzusudur. Lakin bu hər alimə nəsib olmur. Çünki bunun üçün çoxçalarlı tələblər və şərtlər var. İlk öncə Beynəlxalq elmi jurnallara, konfranslara, simpoziumlara çıxmalı, çıxışlar etməlisən. Özü də bu çıxışlarında dünya elminin inkişafına təkan verən yeni elmi ideyalar olmalıdır. Ötən əsrin 80-cı illərinin sonlarından başlayaraq həm Rafiq Əliyevin özünün, həm də elmi uğurlarının xoş sorağı Amerikadan, Fransadan, İngiltərədən, İspaniyadan, İtaliyadan, Almaniyadan, Türkiyədən, Rusiyadan, İrandan və dünyanın başqa ölkələrindən gəlməyə başladı. Onun həmkarları onu həm yeni orijinal elmi ideyalar qaynağı olan alim, həm də Beynəlxalq elmi konfranslar, simpoziumlar təşkilatçısı, həmsədri, sədri və başqa ampulalarda görüb sevdilər.

İndi professor Rafiq Əliyev nəinki dünya alimləri ilə birgə elmi işlər aparır, o, həm də informatika sahəsində dünyanın üç-dörd alimindən biri kimi bu elm sahəsinin perspektivlərini müzakirə etmək, plenar məruzələr etmək üçün Beynəlxalq forumlara dəvət edilir. Bununla paralel dünyanın ən nüfuzlu istinad indeksli elmi jurnallarında vaxtaşırı çap olunur. Eyni zamanda müxtəlif Beynəlxalq konfranslarda, simpoziumlarda müasir elmin aktual problemlərinə həsr olunmuş dəyirmi masaların aparıcısı kimi müzakirələr təşkil edir. Dünya alimlərinin diqqətini elmdə olan bu və ya başqa problemlərin həllinə yönəldir. Həm də bu elm sahələrinin indiki vəziyyəti və gələcək istiqamətlərinin müəyyən olunması məsələlərində ümumiləşdirmə aparıb son söz deyir.

Elmi kəşfi, ixtirası, ideyası olan alimlərin ən böyük arzuları həmin elmi kəşflərin, ixtiraların, ideyaların bu və ya digər sahələrdə öz praktik tətbiqini tapmasıdır. Yeri gəlmişkən qeyd edək ki, professor Rafiq Əliyevin elmi nəzəriyyələri, ideyaları həmişə gərəkli olub özləri özlərinin praktik tətbiqlərinə yol açmışlar. Bu baxımdan alimin insan mühakiməsi meyarlarına daha dürüst cavab verən ALİ-1, ALİ-2, ALİ-3 qeyri-səlis məntiqləri, eləcə də mürəkkəb sistemlər üçün nəzərdə tutulmuş koordinasiya nəzəriyyəsi, sistemlərin ümumiləşmiş dayanıqlıq nəzəriyyəsi, yeni qərar qəbuletmə nəzəriyyəsi və bir də postmodern informasiya texnologiyasının ən əsas istiqamətlərindən biri olan qeyri-səlis və məntiqi neyron şəbəkələrinin təkamül üsullara əsaslanan nəzəriyyəsi xüsusi maraq doğurur.

Bir sözlə, professor Rafiq Əliyevin öncə haqlarında söhbət açdığımız bu üç məntiqi, eləcə də mürəkkəb sistemlər üçün nəzərdə tutulmuş koordinasiya, qərar qəbuletmə və dayanıqlıq nəzəriyyələri, qeyri-səlis və məntiqi neyron şəbəkələri nəzəriyyəsi dünya elmində önəmli rol oynamış və görkəmli alimin adı ilə dünyanın elm tarixinə daxil edilmişdir.

Görünür təsadüfi deyil ki, şəxsiyyətinə və elmi yaradıcılığına xüsusi həssaslıqla, sevgi ilə yanaşan dünya şöhrətli alim, prosessor L.Zadə dünyanın minlərlə sayılıb-seçilən alimləri içərisində professor Rafiq Əliyevi öz elmi varisi seçmişdir. Adətdir, sevgiyə həmişə sevgi ilə cavab verərlər. Dünyaya Şərq müdrikliyi və Qərb praqmatizmi prizmasından baxan professor Rafiq Əliyevin də onu sevənlərə, elmi yaradıcılığını qiymətləndirənlərə özünəməxsus özəl sevgisi vardır. O, öz sevgisini belə izhar edir: "Mənim azdan-çoxdan nə isə bir uğurum olubsa, ilk növbədə öz müəllimlərimə borcluyam. Mənim müəllimlərimdən biri bəlkə də birincisi professor Lütfi Zadədir. Bəzən məndən soruşurlar ki, Lütfi Zadə sizin üçün kimdir? Cavab verib deyirəm ki, Lütfi Zadə mənim üçün ilk növbədə XX və XXI əsrin ən böyük elm dühasıdır. Lütfi Zadə gözümüz qarşısında fizikanı, kimyanı, təbiət elmlərinin əksəriyyətini dəyişdi və bu dəyişmələrlə onların sərhədlərini genişləndirdi".

Şəxsiyyətinə və elmi yaradıcılığına böyük ehtiram və sevgi bəslədiyim professor Lütfi Zadə mənim üçün əlçatmaz bir düha, böyük dost, həmkar və əvəzsiz dəstəkdir. Bir ömürdə dünya elminə 6-7 elmi nəzəriyyə təklif edən və bütün dünyanı heyran qoyan bu romantik alim mənim dünyanın müxtəlif ölkələrində çıxan 7 kitabıma ön söz yazıb və 3 kitabı biz onunla bir yerdə çap etdirmişik. Yeridir deyim: onun məsləhətləri həmişə, lap kiçik məsləhətləri təxminən 5 ilə, 10 ilə kifayət edəcək məsləhətlərdir.

Məqam düşmüşkən onu da deyək ki, professor Rafiq Əliyev dünya miqyaslı alim olmaqla yanaşı həm də əvəzsiz pedaqoqdur. O, 1964-cü ildən başlayaraq ali məktəblərdə dərs deyib, rektor olub, kafedra müdiri işləyib. Hazırda o Neft Akademiyasının "Avtomatlaşdırılmış idarəetmə sistemləri" kafedrasının müdiri, Milli Elmlər Akademiyasının müxbir üzvü, ABŞ-ın Corciya Dövlət Universitetinin, Almaniyanın Zigen, Şimali Kiprin Yaxın Doğu, İranın Təbriz universitetlərinin professorudur. Bu məqamda Albert Eynşteyn və Lütfi Zadə ilə əlaqədar bir deyimi xatırlamaq yerinə düşərdi. Bir vaxtlar Amerikada Albert Eynştyen və Lütfi Zadə haqqında belə deyərdilər: "Onlar Amerika Birləşmiş Ştatlarında yaşaya-yaşaya dünyanın ayrı-ayrı ölkələrinə işə gedirdilər". İndi bu ənənəni öz fəaliyyətində görkəmli Azərbaycan alimi professor Rafiq Əliyev yaşadır. Təsəvvür edin, Bakıda yaşayan dünya şöhrətli bu alim tez-tez Amerikaya, Almaniyaya, Fransaya, İngiltərəyə, İrana, Türkiyəyə, Rusiyaya və dünyanın ayrı-ayrı ölkələrinə işə gedir. O, gah bu ölkələrin universitetlərində ingilis dilində mühazirələr oxuyur, gah da dərindən bildiyi bir sıra perspektiv istiqamətli tədris prosesini təşkil edir. Bilavasitə onun köməyi ilə Təbriz universitetində avtomatik idarəetmə üzrə yeni ixtisas açılmış, neyron şəbəkələr və qeyri-səlis məntiq kursları təşkil edilmişdir. ABŞ-ın Corciya Dövlət Universitetinin tədris planlarına isə yeni "Qərar qəbuletmə sistemlərində müasir texnologiyalar" kursu daxil edilmişdir. Bundan əlavə Almaniyanın Zigen universitetində "Qeyri-səlis məntiq", Şimali Kiprin Yaxın Doğu universitetində "Soft Computinq" kursları fəaliyyətə başlamışdır.

Görkəmli alimin respublikamızın ali təhsil müəssisələrinə verdiyi töhfələr də az olmamışdır. Bilavasitə onun təşəbbüsü və köməkliyi ilə Azərbaycanın ali tədris müəssisələrində kompüter informasiya sistemləri, biznesin idarə olunması, menecment, biznes informatikası, mexatronika, biznes mühəndisliyi adlı 6 yeni ixtisas açılmışdır. Yüksək ixtisaslı elmi kadrların hazırlanmasında da onun xidmətləri böyükdür. Artıq informatika və idarəetmə sahəsində öz elmi məktəbini yaratmış bu görkəmli alim Azərbaycanda, Rusiyada, Almaniyada, Türkiyədə, Şimali Kiprdə, İranda və başqa ölkələrdə 130-dan çox elmlər namizədi və 20-dən artıq elmlər doktoru hazırlayıb. İndi onun alim tələbələri ABŞ-da, Almaniyada, Türkiyədə, Rusiyada, İranda və dünyanın başqa ölkələrində uğurla çalışırlar.

Ailədə də onun layiqli davamçıları var. Oğlu Rəşad texnika elmləri doktoru, professordur. Hazırda o, Şimali Kiprin "Eastern Mediterranean" universitetinin professorudur. Qızı Kəmalə isə texnika elmləri namizədi, dosentdir. Neft Akademiyasında işləyir. Qızı Zülfiyyə elmi işçidir.

Professor Rafiq Əliyev elmin təbliği sahəsində də önəmli işlər görür. O, respublikamızda nəşr olunan "Bilgi" dərgisinin baş redaktoru, "İntellektual idarəetmə və qərar qəbuletmə sistemləri" jurnalının redaktorudur, Yaponiyada nəşr olunan "Journal of Advanced Computational Intelligence and Intelligent Informatics" beynəlxalq jurnalın redaktoru, Hollandiyada nəşr olunan "Journal of Web-based Communities", İranın "Iranian Journal of Fuzzy Systems", İtaliyada çap olunan "International Journal of Advances in Fuzzy Mathematics", ABŞ-da çap olunan beynalxalq "Intelligent Automation and Soft Computing" jurnalların redaksiya heyətinin üzvüdür.

Professor Rafiq Əliyevin həyat ömürlüyünə, həyatının inkişaf dinamikasına baxanda hər kəsin ürəyindən belə bir hiss keçir: dünyada bu insandan xoşbəxt insan yoxdur! Doğrudan da belədirmi, görəsən? Çox şeylərə olduğu kimi, bu məsələyə də alimin özünəməxsus özəl və qeyri-səlis münasibəti var. O deyir: Xoşbəxtliyə, əgər Aristotel məntiqindən yanaşsaq ya var, ya yoxdur. Lütfi Zadənin qeyri-səlis məntiq prizmasından baxdıqda isə bunun dərəcəsi var. Demək, xoşbəxtlik mənim anlamımda ancaq müəyyən dərəcə ilə ölçülə bilər. Mən mütləq xoşbəxtlik təsəvvür eləmirəm.

Professor Rafiq Əliyevin dediyi kimi: Allah insanı Pareto optimal yaradır, kimə, nəyi, nə qədər (artıq bu deyim zərb-məsələ çevrilib. M.S.). Doğrudan da belədir. Həqiqətən Allah bu və ya başqa adama hər şeyi eyni dərəcədə vermir. Amma məsələ bundadır ki, Tanrı alimə xas olan ən yaxşı keyfiyyətləri onun sevgisinə tuş gəlmiş bu insandan qətiyyən əsirgəməyib. O, bir alim kimi istedadlı və zəhmətsevərdir. Özü də o elmin ən müasir, ən mürəkkəb, ən çətin sahələrini tədqiq edib öyrənməyi, elmin perspektivlərini əvvəlcədən görüb zamanı qabaqlayan, yeni elmi ideyalar irəli sürməyi bacaran alimdir.

Tarixən elmin yolu həmişə çətinliklərdən keçib. Bu yolu tutub elmin Olimp zirvəsinə qalxmaq istəyənlər böyük çətinliklərlə, məhrumiyyətlərlə üzləşib. Öz zamanlarında Pifaqor da, Əl-Xarəzm də, Qaliley də, Nyuton da,

Jan Furye də, Lütfi Zadə də belə olublar. Sözsüz ki, belə çətinliklər dünya şöhrətli alim Rafiq Əliyevdən də yan keçməyib. Amma bu onu zərrə qədər də olsa qorxudub yolundan çəkindirməyib. Və uzun illərdən sonra o, öz istəyinə nail olub. Lakin bir həqiqəti etiraf edək ki, professor Rafiq Əliyev bu zirvəyə qalxanda heç kim onun qolundan tutub ora qaldırmayıb. Həmin məqamda ona yalnız elmə hədsiz vurğunluğu, sevgisi və marağı, bir də istedad və zəhmətsevərliyi yardımçı olub.

Elə buna görədir ki, indi o, dünyanın elm zirvəsində özünə layiqli yer tutub, nəhəng alim kimi Yer kürəsinin bütün parametrlərindən aydın görünür. Əlbəttə, bu həyatın dialektik qanunauyğunluğudur: çox şeydən təcrid olub daim özlərini elmdə axtaranlar son nəhayətdə elə onun zirvə məqamında olurlar…

**Möhbəddin Səməd,**
**publisist**
10.02.2012

## KƏPƏNƏK ADAM

*Çox dəyərli dostum, dünya şöhrətli alim Rafiq Əliyevə*

*Ah səni kəpənək adam,*
*Qanadının zəri hanı?!*
*De, olanı qoyub nədən*
*Axtarırsan olmayanı.*

Külək kəpənəyin qanadlarındakı zərli tozu yumağa necə də can atır. Kəpənəyin ürəyi qanadlarında çırpınır. Sonbahar yağışı kəpənəyin titrək qanadlarını elə isladıb ki, elə ağırlaşdırıb ki, elə bil kəpənək cəhənnəm yükü daşıyır.

Adam küləkdən fürsət tapıb solmağa başlayan çiçəyə qonmuş kəpənəyə baxır. Ona elə gəlir ki, kəpənək bu çiçəyin qəlbidi. Və kəpənəyin ölümü ilə yağışdan, küləkdən ləçəkləri dağılmış çiçəyin ömrü də bu kəpənəyin ölümü ilə bitəcək.

Adam nəsə deməyə, aldatmağa çalışdı. Ancaq səsi çıxmadı. Birdən ona elə gəldi ki, Mekonq çayının balıqları kimi dilsiz və laldı. Hönkürüb ağlamaq istədi. Özü də öz səsini eşitmədi.

Ağlamağı bacarmayan adam gülməyi cəhd elədi. Ancaq birdən-birə xatırladı ki, kəpənəklər gülməyi bacarmır. Gülmək hissi ancaq və ancaq adamlara məxsusdur.

“Kəpənəyəmi döndüm”, – deyə düşündü adam! Qayıdıb – “olsun!” – dedi. Birdən-birə bütün ömrü boyu kəpənək olmağa can atan, əslində, əvvəldən kəpənək olduğunu, ancaq özünü adam kimi aparmağa çalışdığını xatırladı. Və sonra anladı ki, bayaqdan kədərlə baxdığı kəpənək elə özüdü. Sonra qəh-qəh çəkib ürəkdən güldü və sakitcə pıçıldadı: – Ah səni kəpənək adam! Ayları, illəri yox, anları, saniyələri yaşayan kəpənək adam.

Cəhənnəm yükünün ağırlıgından, qanadlarını çəkib apara bilməyən kəpənək adam kəpənəyə çevrildiyini anladı.

Qəhər onu boğdu...

“Bu nə işdi düşdüm, Tanrım”, – deyə düşünməyə başladı. Axı kəpənəklər gülməyi bacarmadıqları kimi, ağlamağı da bacarmırlar.

Təəccüblə, şaşqınlıq içində özünə sual elədi: “Kiməm mən? Kəpənək kimi yaşayan adammı, yoxsa adam kimi düşünən kəpənəkmi?!”

Kəpənək adamın ağlında Sayqonun dar, qaranlıq bir küçəsi canlanır. Bir kəpənəyin qanadlarında boz bir tabut gedir. Alabəzək kəpənəklər tabutun arxasınca uçuşur. Adam tabutun içində uzanıb, bu həyacanı seyr eləyir. Birdən-birə öldüyünü, dəfn olunmağa aparıldığını anlayır. Çığırıb-bağırmaq, ölmədiyini söyləmək istəyir. Kəpənəklər onu eşitmir. Birdən-birə tabutun altına

girmiş kəpənək ondan nə istədiyini soruşur. Adam, güclə eşidiləcək bir səslə: – "Adamlar mənə öləndə doğulduğum həyətin bağçasında dəfn olacağıma söz vermişdi, siz məni hara aparırsınız axı", – deyə acılar içində soruşur.

Qanadları tabutun ağırlığı altında əzilən kəpənək, "sən adam deyilsən, sən kəpənəksən, kəpənək",– deyə astadan pıçıldayır. "Biz səni son dəfə uçub qonduğun çiçəyin üstündə dəfn eləyəcəyik. Ömrü anlardan ibarət olan kəpənəyin məzarı son dəfə gördüyü çiçəkdən başqa nə ola bilər ki?!"

Adam elə bu vaxt yuxudan oyandı. Onu soyuq tər basmışdı, su içində idi. Çiyinlərində dəhşətli bir ağrı var idi. Kimsə qanadlarını qırmışdı elə bil! Qırılmış qanadlarının yeri ağrıyırdı. Yuxuda özünə verdiyi sualı bir də təkrarladı:

– "Kiməm mən? Kəpənək kimi yaşayan adammı, yoxsa adam kimi düşünən kəpənəkmi?!"

Ağır-ağır yatağından qalxıb, pəncərədən şəhərin çirkli havasını ciyərlərinə şəkdi. Sayqon duman içində idi.

Durub kağız və qələm axtardı. Tütün bükəcəyi boz kağız parçası çarpayının altına düşmüşdü; əyilib onu götürdü və bir nəfəsə yazdı:

– "Mən kəpənək adam idim, heyif ki, qanadlarım məni daşımadı".

Sonra kətilin üstünə çıxdı, nə vaxtsa qaxac ət hazırlamaq üçün tavadan asdığı ipi boynuna keçirdi. Və uşaq vaxtı sevərək oxuduğu məşhur italyan yazıçısı E.L.Voyniçin "Ovod" əsərində Ovodun, sevgilisi Cemmaya yazdığı misraları pıçıldadı:

*Mən xoşbəxt bir kəpənəyəm,*
*Yaşasam da, ölsəm də.*

Sonra, sonra ayağının altındakı kətili ayağı ilə var gücü ilə itələdi.

**Rüstəm Behrudi,**
**şair**

## RAFİQ ƏLİYEV LÜTFİ ZADƏNİN ONA VƏSİYYƏT ETDİYİ MADDİ MİRASI ZADƏ ELMİ ASSOSİASİYASINA BAĞIŞLADI

Bu ilin sentyabrında 96 yaşında dünyasını dəyişən dahi alim Lütfi Zadənin vəfatı bütün bəşəriyyət üçün böyük itki oldu. Lakin Zadədən sonra onun elmi irsi və nəzəriyyələri yenə də bu bəşəriyyətə xidmət etməkdədir.

Zadə elmi irsinin varisi isə dünya çapında tanınan başqa bir həmyerlimiz professor Rafiq Əliyevdir. Rafiq Əliyev bu günlərdə Lütfi Zadənin irsinin tədqiq və təbliği, öyrənilməsi istiqamətində həddindən artıq böyük addım atıb.

Rafiq Əliyev Lütfi Zadənin ona vəsiyyət etdiyi maddi mirasın hamısını birbaşa rəhbəri olduğu "Zadə irsi və süni intellekt" Assosiasiyasına bağışlayıb.

Bir neçə gün bundan əvvəl Lütfi Zadənin oğlu Norman Zadə Rafiq Əliyevə məktub yazaraq, atasının professora vəsiyyət etdiyi maddi miras haqqında məlumat verib. Həmçinin, həmin mirası onun bank hesabına köçürməsi üçün müvafiq bilgiləri istəyib:

***Hörmətli, Professor Əliyev***

*Valideynlərim sizə maddi miras qoyublar. Xahiş edirəm ki, hesab nömrənizi göndərin ki, mən atamın vəsiyyətini yerinə yetirə bilim".*

***Hörmətlə,***
***Norman Zadə.***

Rafiq Əliyevin Norman Zadəyə yolladığı məktub isə həqiqətən, böyük fədakarlıq və böyüklük düsturu kimi qiymətləndirilə bilər. Belə ki, professor Əliyev bu məbləği (artıq fonda aid olduğu üçün və oranın maliyyə məsələlərinə tabe olduğundan vəsiyyət edilən maddi miras açıqlanmır) birbaşa Lütfi Zadənin irsini təbliğ və tədqiq edən beynəlxalq elmi mərkəzə, "Zadə irsi və süni intellekt" Assosiasiyasına bağışlayıb. Bağışlanan maddi vəsaitlə Zadənin irsinin tədqiq və təbliği ilə yanaşı, gənc tələbələrə və elmi araşdırmaçılara müvafiq yardımlar ediləcək.

Rafiq Əliyevin məktubunun mətnini təqdim edirik:
***Hörmətli, Norman Zadə.***
*Məktubunuza görə təşəkkür edirəm.*
*Bu maddi vəsiyyət heç vaxt mənim özəl məqsədlərimə sərf olunmayacaq".*
***Hörmətlə,***
***Rafiq Əliyev***

Professor Zadə həmişə mənim müəllimim, yolgöstərənim olub. Bizim sizin ailənizlə – Lütfi və Fey Zadələrlə 40 ilə yaxındır ki, ailəvi dostluğumuz var. Bu ailəvi dostluqla bərabər, professor Lütfi Zadə ilə "Qeyri-səlis məntiq", "Sözlə hesablamalar", "Müasir qərar qəbuletmə nəzəriyyələri" üzrə bizim elmi layihələrimiz olub. Birlikdə müxtəlif elmi işlər aparmışıq. Professor Lütfi Zadə mənim "World Scientific", "Springer" və başqa elmi nəşriyyatlarda çıxan 7 kitabıma ön söz yazıb.

Sonuncu "Z-ədədlər hesabı, nəzəriyyəsi və tətbiqi" kitabını birlikdə yazmışıq. Əsas fəsli də Lütfi Zadə yazıb. 7 ay bundan öncə Lütfi Zadə mənə bir məktub göndərdi ki, "Qeyri-səlis məntiq" nəzəriyyəsi və tətbiqi" adlı iki hissədən ibarət bir kitab yazaq. Mən "World Scientific" nəşriyyatı ilə bu məsələni razılaşdırdım. Bizim bu gün həmin nəşriyyatla müqaviləmiz var. Müqaviləni 4-5 ay bundan əvvəl Lütfi Zadəyə yolladım. Düşünürəm ki, həmin müqavilə hazırda onun arxivindədir. Müqaviləyə görə, kitab bu ilin dekabr ayında nəşriyyata təqdim olunmalıdır.

***Hörmətli, Norman Zadə!***

*Lütfi Zadənin dünyasını dəyişməsi tək bizim üçün yox, bütün bəşəriyyət üçün böyük itkidir. 40 il ərzində hər həftə mən Lütfi Zadə ilə telefon əlaqəsi saxlayırdım. İldə bir, ya iki dəfə, Berkeley yaxud, Amerika və Avropanın müxtəlif şəhərlərində görüşürdük. Lütfi Zadə ilə sonuncu söhbətim avqustun axırında oldu.*

***Hörmətli, Norman Zadə!***

*Lütfi Zadənin vəsiyyəti ilə əlaqədar onu demək istərdim ki, bu, məni son dərəcədə həyəcanlandırdı və son dərəcə emosional təsir etdi. İnformasiya üçün sizə demək istəyirəm ki, 20 il bundan əvvəl mən "Zadə irsi və süni intellekt" Assosiasiyasını yaratdım. Mən hazırda bu assosiasiyanın prezidentiyəm. Məqsədim Lütfi Zadənin bu maddi vəsiyyətini həmin assosiasiyaya bağışlamaqdır. Bu fond Zadə irsinin tədqiqi, təbliği, öyrənilməsi, yayılması üçün istifadə olunacaq.*

*Heç bir vaxt bu maddi vəsiyyət mənim özəl məqsədlərimə sərf olunmayacaq.*

*Biz tələbələr üçün Zadə təqaüdləri təyin edəcəyik. Qeyri-səlis məntiq və bununla əlaqəli sahələrdə gənc tədqiqatçıların elmi işlərinə dəstək üçün sərf edəcəyik.*

*Məktubunuza görə təşəkkür edirəm".*

Bu, hələ son deyil. Rafiq Əliyev daha bir gözəl addım atmaqla dünya alimlərinə (həmçinin, bizimkilərə də) böyük nümunə olub. O, Zadə ilə birgə çalışdığı son kitabın qonorarını ustadının vəsiyyətinə uyğun olaraq oğlu Norman Zadənin hesabına bağışlayacaq:

***Hörmətli Norman Zadə!***

*2016-cı il 11 noyabr tarixində professor Lütfi Zadə mənə məktub göndərdi ki, əgər bir eksterimal vəziyyət yaransa (yəni, dünyadan köçsə) onda bizim birgə yazdığımız "Qeyri-səlis məntiq" nəzəriyəsi və tətbiqi kitabından aldığım qonorarı oğlum Norman Zadəyə göndərərsiz.*

*Buna görə də sizdən xahiş edirəm ki, siz bank hesabınızın detallarını mənə yollayasınız. (Qeyd edək ki, Norman Zadə atasının vəsiyyətinin həyata keçməsi üçün bank hesab nömrələrini Rafiq Əliyevə göndərib.)*

*Hörmətli, Norman Zadə!*

*Lütfi Zadə və Fey Zadənin əziz xatirəsi hər zaman mənim ürəyimdə sonadək qalacaqdır".*

***Hörmətlə,***
***Rafiq Əliyev***

**Moderator.az**

## RAFİQ ƏLİYEVİN YENİ "NƏZƏRİYYƏSİ"

Rafiq Əliyevin qeyri-səlis məntiq və başqa istiqamətlərdə bir çox elmi nəzəriyyələri var ki, onları bütün dünya qəbul edir. Biz də mütəmadi olaraq bu barədə yazmağa çalışmışıq.

Amma alimin bu sonuncu addımı də həqiqətən, böyük nəzəriyyə kimi qəbul edilməlidir: İnsanlıq, sadiqlik və böyüklük nəzəriyyəsi kimi!

Eləcə də, elmi nəzəriyyə kimi!

Çünki Rafiq Əliyev burada elmi irsi ilə yanaşı, maddi irsini də ona vəsiyyət edən ustadına sadiq qalmaqla yanaşı, elmin gələcəyi üçün də müstəsna addım atıb. Prezidenti olduğu "Zadə irsi və süni intellekt" Assosiasiyasının fonduna köçürülən maddi vəsait gələcəkdə bir çox alimlərin yetişməsinə və yeni nəzəriyyələrin yaranmasına səbəb olacaq!

Bu, həm də çağırış nəzəriyyəsidir!

Bu gün maddi imkanı olan alim və qeyri-alimlər də anoloji addım atsalar, Zadə və Rafiq Əliyev kimi maddi yardımlarını əsirgəməsələr, elmimiz və gələcəyimiz bir o qədər də gözəl inkişaf edər.

Rafiq Əliyevin "çağırış nəzəriyyəsi" Böyük Zadə irsinin yaşaması üçün, həm də yeni elm fədailərinin yetişməsi üçün bir müraciətdir.

Norman Zadə və Rafiq Əliyev arasındakı mirasla bağlı məktubların orijinalını təqdim edirik: (məktubların orijinalı ingiliscədir, öncə Norman Zadənin vəsiyyət haqqında bildiriş məktubu, daha sonra isə R.Əliyevin ona cavab məktubudur)

***Dear Professor Aliev,***

My parents left you monetary amount in their will.

Could you please provide me with wiring instructions so I can send that to you?

I will need your name, address, bank routing number, and account number.

***Sincerely,***
***Norm Zadeh, Ph.D.***
***310-476-0700***

***Dear Norman Zadeh,***

Thank you very much for your message. I'm Prof. Rafik Aliev. Prof. Lotfi Zadeh was and is my mentor. We were acquaint during last 40 years with Prof. Zadeh and Fay Zadeh. We did with Prof. Zadeh several projects on fuzzy logic, computing with words and modern decision theory. Prof. Zadeh wrote Foreword to my seven books published in World Scientific, Springer and other publishers. Our last book "The Arithmetic of Z-numbers. Theory and Applications" was written in cooperation with Lotfi Zadeh and main chapter was written by him. About 7 months ago he sent me message to write book "Fuzzy Logic

Theory and Applications, Part I (L. Zadeh, R. Aliev) and Part II (Eds. L. Zadeh, R. Aliev)". I agreed with World Scientific Publisher publishing of this book and we have contract on the publishing. Contract was sent to Prof. Zadeh probably 4-5 months ago and I hope that now it is in his archive. In accordance with the deadline of the contract, the book will be submitted to World Scientific in Dec 2017.

Dear Norman Zadeh, loss of Lotfi Zadeh is loss not only for us but for all mankind. During 40 years I contacted every week with Lotfi Zadeh by phone and face to face in Berkeley and different cities. My last conversation with Prof. Zadeh was at the end of August.

Dear Norman Zadeh, concerning will of Prof. Zadeh, it was exciting event and I am very touched. For your information, I have to say that 20 years ago I organized international association "Artificial Intelligence and Zadeh's Legacy" and I'm president of this association. My intent is that when I get this monetary amount I will transfer it to account of this Association. This fund will be used for investigation and sharing of Zadeh's Legacy (this fund never will be used for my private needs). We will organize Zadeh stipendium for students in Fuzzy logic and related areas, help young researchers for their promotion.

Dear Norman Zadeh, good memory on Lotfi Zadeh and Fay Zadeh will be always in my heart till my end in this world".

***With my warmest wishes,***
***Rafik Aliev***

**Moderator.az**

## LÜTFİ ZADƏNİN RAFİQ ƏLİYEVƏ VƏSİYYƏT ETDİYİ MADDİ MİRASINA RAFİQ ƏLİYEVİN “HEÇ VAXT ŞƏXSİ MƏQSƏDLƏRİM ÜÇÜN SƏRF OLUNMAYACAQ” FİKRİNƏ MÜNASİBƏTLƏR

Dünya çapında tanınan alim professor Rafiq Əliyevin ustadı Lütfi Zadənin ona vəsiyyət etdiyi maddi mirası elmi mərkəzə bağışlaması böyük rezonans yaratdı. Rafiq Əliyev vəsiyyət edilən pul məbləğini “heç vaxt şəxsi məqsədlərim üçün sərf olunmayacaq” deyərək, prezidenti olduğu “Zadə irsi və süni intellekt” Assosiasiyasına bağışlayıb. Rafiq Əliyevin bu addımı fədakarlıq kimi qarşılanıb. Amma əslində, professor bu addımı ilə həm də bir növ, çağırış etmişdi.

“Rafiq müəllimin bu addımı onu yaxından tanıyan biz dostlar üçün heç də təəccüblü olmadı. Bu saat Azərbaycanın dünya çapında tanınmış ən böyük alimlərindən biri – Lütfi Zadənin ən yaxın sirdaşı, tələbəsi olub. Bu, addım Rafiq müəllimin nəfsi üzərindəki qalibiyyətidir. Allah-taala onu belə yaradıb. Bizim yanımızda bu addım heç qəribə görünmədi. Çünki əziz dostumuz Rafiq müəllimi, onun gözəl daxili dünyasını əla tanıyırıq. Bəziləri deyir ki, əşi, heç elə şey olar?! Gördünüzmü, oldu! Dostumuz ona miras qoyulan müəyyən qədər puldan keçdi. Çünki onun üçün xalqın, gənclərin taleyi o qədər vacibdir ki, mütləq bunu edəcəkdi. Özü də əsaslarla, sənədlə-sübutla etdi. Belə olmasaydı, bəzi ağzıgöyçəklər buna da şübhəli yanaşacaqdılar. Başqa şeylər deyəcəkdilər. Amma hər şey sənədli-sübutlu oldu. Deyirlər ki, pulundan keçən canından da keçər. İnanırsan ki, bu gün böyük puldan keçən Rafiq Əliyev sabah Vətən, torpaq, el üçün öz canından da keçər. Belə insan qənimətdi. Təəssüflər olsun ki, öz qədirbilməyimiz qalsın bir yana, qədirbilənlərin qədrini bilsək, vallah günümüzə gün çatmaz. Özümüz Vətənin qədrini bilmiriksə, heç olmasa, onun qədrini bilən Rafiq Əliyev kimi insanları qoruyaq!

Mənim üçün Rafiq Əliyevin bu addımı çox dəyərlidir. Uzun illər Lütfi Zadə ilə dostluq edib, birlikdə elmi fəaliyyəti olub. Azərbaycan və azərbaycanlılar haqqında ən yaxşı təəssüratı onda Rafiq müəllim yaradıb. Bu səbəbdən də Lütfi Zadənin Azərbaycan sevgisində, hətta burada dəfn olunmaq istəyində də Rafiq Əliyevin bu mənada böyük rolu olub. Mirasın bağışlanması da böyük işdi. Amma iqtisadi baxımdan. Bu isə çox böyük mənəvi xidmətdir. Lütfi Zadə kimi alimin ABŞ-dan gətirilib Bakıda dəfn olunması tarixi hadisədir. Bunun da səbəbkarı birinci olaraq Rafiq müəllimdir. Onun hər iki addımı çox dəyərlidir. Hər insan öz ruhundan qidalanaraq, nəyəsə münasibət bildirir. Mənim üçün Rafiq müəllimin özü də, onun böyük hərəkəti də çox dəyərlidir!”

**Musa Yaqub,**
**şair**

"Bu dəqiqə bütün Yer üzündə ən böyük problemlərdən biri maddiyyatın mənəviyyatı sıxışdırması, maddi dəyərlərin mənəvi dəyərləri öz təsiri altında daha çox saxlamasıdır. Bu da Yer üzündə böyük gərginliklər yaradır. Bütün Yer üzündə, istənilən sosial sistemdə o zaman tərəqqi yaranacaq ki, bir gün mənəvi dəyərlər önə keçəcək. Professor Rafiq Əliyevin bu addımı mənəvi dəyərlərə verilən önəmin gözəl örnəyidir. Rafiq müəllimi yaxından tanıyanlar yaxşı bilir ki, bu, elə Rafiq müəllimə xas olan bir addımdır. Eyni zamanda da ən doğru addım idi. Çünki Rafiq müəllimin özünün də məktubda yazdığı kimi Zadə ona hər zaman mənəvi dəstək olub. Zadəyə layiq şəkildə bu borcu, ancaq mənəvi tərzdə qaytarmaq lazım idi ki, Rafiq müəllim də bunu etdi. Həmin pulu şəxsi məqsədlərə sərf etmək də olardı. Amma o maddi məbləğ Zadə adından Azərbaycan gəncliyinin, elminin inkişafına yönələcək. Görün, nə gözəl addımdır! Görün, Zadəyə nə qədər rəhmət gətirəcək! Zadənin təkcə mənəvi adı ilə yox, eyni zamanda maddi irsinin dəstəyi ilə də gənclərimiz, elmimiz inkişaf edəcək. Bu elə Zadəyə, Rafiq Əliyevin adına layiq bir addım idi. Buna görə çox sevindim və çox arzu edərdim ki, həmin mənəvi dəyərlər yönündə atılan addım başqaları üçün də bir örnək olsun. Başqaları da ondan nümunə götürsün. Çünki bütün Yer üzünün, ölkəmizin də xilası daha çox mənəvi dəyərlərin inkişafı, mənəviyyat insanlarının çoxluğundan asılıdır. Rafiq Əliyevə bir daha təşəkkür edirəm".

**Əhməd Qəşəmoğlu,**
**sosioloq alim, şair**

"Dəyərli professor Rafiq müəllimin bu addımı və professor Zadənin vəsiyyəti məni hal-hazırda Hoteldə (Berlin, 13.11.2017) çox duyğulandırdı. Bu hadisə elmdə çox önəmli yer tutur. Rafiq müəllimə dərin təşəkkür edirəm, ona cansağlığı arzulayıram. Ümid edirəm və inanıram ki, o var qüvvəsi ilə Zadə irsini etibarla, fəxrlə davam etdirəcək. Süni intellekt tətbiq edilərək müasir texnologiyaların daha da innovativ şəbəkələrdə qərarlaşması, qlobal Cloud və müxtəlif Neyron şəbəkələrinin daha da sürətlə (hyper) çalışması bütün dünyada hələlik alternativi olmayan texnologiyadır. Bu sahədə Microsoft, Google, Amazone, HPE və s. kimi şirkətlər ciddi şəkildə mübarizə aparırlar. Hətta bu şirkətlər bəzi sistemləri (software olaraq əsasən) pulsuz (tələbələr və bəzi elmi işçilər üçün) və ya çox az miqdarda ödəniş təklif edərək öndə olmağa çalışırlar.

Bu hadisəyə həm çox sevindim, həm də çox duyğulandım. Rafiq müəllimə salamlarımı göndərir, ona eşq olsun deyirəm. AI (Artificial İntelligence) tətbiqi sahəsində hazırladığım qısa və kompakt olaraq elmi yekunları hesabat şəklində Rafiq müəllimlə inşallah gələcək üçün nəzərdən keçirəcəyəm.

Bilirəm, bu sahəyə çox alimlər can atırlar, amma problem ondan ibarətdir ki, sistem analizi olduqca çoxşaxəli və mürəkkəbdir. Buna böyük riyaziy-

yatçı olmaq kifayət etmir. Burada mürəkkəb proses qavramına sahib beyin təzahürü gərəkir və bu isə təxminən 100 milyarda yaxın olan neyronların (insan beynindəki neyronlar) Axonla Synapsların daima kommunikasiyasından əmələ gələn nəticələrin hesabına baş verir. Bu isə ən azı 10 % və üstü olarsa böyük effekt verir. Bir çox hallarda əldə edilmiş nəticələr gözləniləndən çox fərqli olur və son olaraq alimlər səbirsizlik sərgiləyirlər. Çünki, onsuz da texnoloji inkişafın sürəti indiki dövrdə çoxdur və "süni köhnəlmə" daha tez baş verir".

**Pərviz Əmiraslanov,**
**Almaniyada çalışan azərbaycanlı alim,**
**texnika elmləri doktoru**
**Moderator.az**

## DÜNYANIN APARICI NƏŞRLƏRİ RAFİQ ƏLİYEV NƏZƏRİYYƏLƏRİNƏ MARAQ GÖSTƏRİRLƏR

Azərbaycanlı professor dünyanın məşhur elmi jurnallarında ən çox istinad olunan alimdir. Dünya şöhrətli alim Rafiq Əliyevin təklif etdiyi və yaratdığı elmi nəzəriyyələr, o cümlədən, mürəkkəb sistemlərdə koordinasiya nəzəriyyəsi, ümumiləşmiş dayanıqlıq nəzəriyyəsi, imperfekt (mükəmməl olmayan) informasiya şəraitində ümumi qərar qəbuletmə nəzəriyyəsi, dünya elmi ictimaiyyətinin böyük marağına səbəb olub. Bu nəzəriyyələr ABŞ-da, Kanadada, Almaniyada, Fransada, Rusiyada və dünyanın müxtəlif ölkələrində keçirilmiş beynəlxalq konfranslarda müəllifin plenar məruzələrində müzakirə olunub, "İnformation sciences", "İEEE Man, Machine, Cybernetics", "Fuzzy sets and systems" və başqa özək elmi indeksli jurnallarda dərc edilib. Bu günlərdə "Springer" nəşriyyatında Rafiq Əliyevin Kanada, ABŞ, İspaniya alimləri ilə birlikdə çap olunmuş "Human–Sentric Decision Making Models for Social Sciences" kitabında bu elmi nəticələrin bəzilərinə yer verilib.

Bu ilin əvvəlində həmin nəşriyyat Rafiq Əliyevin binar məntiqə (Aristotel məntiqinə) söykənən klassik qərar qəbuletmə nəzəriyyəsindən fərqli olaraq real həyata daha adekvat olan qeyri-səlis məntiqə əsaslanan yeni qərar qəbuletmə nəzəriyyəsini ehtiva edən "Fundamentals of the Fuzzy Logic based Generalized Theory of Decisions" monoqrafiyasını çap edib. Müəllifin bu nəzəriyyəsinin inkişafı onun dünyanın mötəbər nəşriyyatlarından olan "World Scintific" də yaxın aylarda dərc olunacaq "Decision Theory with İmperfect İnformation" kitabında öz əksini tapıb.

Bir neçə gün öncə professor, New York, ABŞ, Spingerdən yeni bir təklif alıb:

***"Hörmətli doktor Rafiq Əliyev***

*… Lütfən icazə verin özümü təqdim edim. Mənim adım Hector Nazariodur. Mən Springer elm və biznes mediyasının redaktoruyam.*

*Mən, Sizi təbrik etmək istəyirəm və diqqətinizə çatdırmaq istəyirəm ki, Sizin "İnformation Sciences" jurnalında dərc olunmuş elmi məqaləniz "Type– 2 fuzzy neural networks with fuzzy clustering and differential evolution optimization" müvafiq elm sahəsində ən çox istinad olunan məqalələrdən biridir. Biz sizin iş və elmi cəmiyyətə verdiyiniz töhfəyə görə heyranlığımızı bildiririk. Bunu nəzərə alaraq mən və mənim nəşriyyat direktorum Sizi dəvət edirik ki, bu işinizi və ona yaxın olan başqa işlərinizi kitab kimi bizim nəşriyyatda çap edəsiniz.*

*Lütfən bizə mümkün qədər tez cavab verin ki, bu ideyanı reallaşdıra bilək.*

***Hörmətlə,***
***Hector Nazario,***
***New York, ABŞ".***

Bir neçə ay öncə Rafiq Əliyev fundamental və sosial elmlər sahəsində genişləndirilmiş elmi indeksli "İnternational Journal of İnformation Technology and Decision Making" jurnalından da belə bir məktub alıb.

***"Hörmətli professor Rafiq Əliyev!***

*Biz bu günlərdə Sizin "İnternational Journal of İnformation Technology and Decision Making" jurnalında şap olunmuş "Decision Theory with İmprecise Probabilities" məqalənizin ən çox istifadə (downloaded) olduğunu gördük. Sizin növbəti məqalənizi bizim nəşrdə çap etməyimizdən qürur duyarıq.*

***Dərin hörmətlə,***
***Winny Pratiwi,***
***World Scientific Publishing Company".***

Onu da öyrəndik ki, Rafiq Əliyevin dərc etdirdiyi kitabların və elmi məqalələrinin heç biri tərcümə deyil, o, bunları birbaşa ingilis dilində yazır.

Qeyd edək ki, professor Rafiq Əliyev dünya elmində nüfuz sahibi, söz sahibidir. O, çoxlu sayda mötəbər beynəlxalq jurnalların ya redaktoru, ya da redaksiya heyətinin üzvüdür.

Professor Rafiq Əliyev öz kitabları, məqalələri, elmi diskussiyalardakı çıxışları ilə, öz elmi nüfuzu və şəxsiyyəti ilə Azərbaycanı dünyada tanıdan alimdir.

Zəmanəmizin nəhəng elm dühası professor Lütfi Zadə Rafiq Əliyevin nəzəriyyələrini yüksək qiymətləndirir: "Rafiq Əliyevin nəzəriyyələrinin sadəcə böyük bir töhfə adlandırılması çox azdır. Professor Rafiq Əliyevin qərarvermənin ümumi nəzəriyyəsinin əhəmiyyəti danılmazdır. Onun nəzəriyyələri ənənəvi yanaşmalardan uzaqlaşaraq bir çox yeni konsepsiya və fikir təqdim edir".

**Moderator.az**
01.10.2013

## BÖYÜK "KÖRPÜSALAN" RAFİQ ƏLİYEV BU GÜN "DİVAR HÖRƏNLƏR"İ TƏBƏSSÜMLƏ SÜZÜR

"İnsanlar az körpü salıb, çox divar hörürlər". Bu fikir bəlkə də Nyutonun ağlına o illərdə gəlmişdi ki, "Böyük taun epidemiyası" adamları oraq kimi biçirdi, Hollandiya ilə aparılan uğursuz müharibə ölkəni rəzil günə salmışdı, "Böyük London yanğını" şəhəri bürümüşdü. İngiltərə "lənətlənmiş" total depressiya illərini yaşayırdı. Ardıcıl bəlalar şəhərləri boşaldır, adamları "qın"ına yığırdı. Dahi Nyuton da bağlanan kollecdən kitab-dəftərini, alətlərini evinə daşıyıb, təcrid olub, böyük kəşflərini elə burada eləməyə başlamışdı.

…Sonra adamlar dərk elədilər ki, onları tikdikləri "divar" yox, saldıqları "körpü" qoruyacaq. Tənha azadlıq birgə asılılıqdan yaxşı olsa da, tənha yaşamaq birgə ölməkdən yaxşı deyil – "divar"ları söküb körpü salmaq istədilər.

Amma insan qəlbindən sökdüyü "divar"ı küçədə barrikada şəklində qurdu. Hüqo səfillərinin patron daşıdığı barrikadanı…

Müharibə və epidemiya gətirdiyi səfalətlə insanlar arasında "divar" hördüyü kimi istibdad da cəmiyyətdə qruplar arasında barrikada qurur.

Nyutondan 300 il sonra Avropanı ikiyə bölən "dəmir" divara baxan II İohan Pavel dünyaya bəşəri bir çağırış elədi: "Avropa hər iki ciyəriylə nəfəs almalıdır!"

O dahi alimin dediyi divarla müdrik keşişin bəhs elədiyi divar arasında uzun barrikada illəri yaşandı. Bu gün Nyutonun "insanlar"ı divarları uçurub, sərhədləri söküb, II İohan Pavelin Avropasında "hər iki ciyəriylə nəfəs alır".

* * *

…Bizimsə barrikadalarımız hələ çoxdur. Hər gün yenisi boy verir, çiçək ləkində bitən sırtıq alaq otu kimi. Cəmiyyətimizin barrikadası olmayan heç bir ictimai, siyasi, sosial, mənəvi müstəvisi qalmayıb. Hər düzdə yüz çəpərimiz var.

Hara baxsan barrikadadır, insanlar bir-birinə həris gözlə baxır: müəllim valideynə, valideyn güzgüdəki xəstə canına, xəstə həkimə, həkim xəstə gətirənə, sərnişin sürücüyə, sürücü polisə, polis piketçiyə, piketçi məmura, məmur xalqa, xalq hakimiyyətə, hakimiyyət büdcəyə…

Bu günün barrikadası ta tələsik ələ keçən daş-kəsək, taxta-tuxta, dəmir-dümürdən qurulmur. Bu günün barrikadası qadın isməti, kişi ləyaqəti, əlil protezi, pensiya "knişkası", həkim resepti, əsgər andı, anaların qucağından sürüşüb düşən şəhid şəkli, məktəblərdəki fond pulu, urusetdən göndərilən ər hədiyyəsi, Qarabağ haqqında 4 BMT qətnaməsi, xaricdə oxuyub ölkəyə qayıtmaq istəməyən tələbə məyusluğu… və ziyalı vicdanından qurulur.

Atılan güllələr dəyərlərimizi dəlik-deşik elədi…

* * *

Avropada vaxtilə qurulan barrikadalar bu gün pöhrə verib, gül açıb. Bizdə də belə olacaq! Buna əminəm! Çünki "divarhörənlər"in açdığı güllə deşiklərindən "körpüsalanlar"ın ziyası günəş şəfəqləri kimi süzülüb gəlir.

Bizim də barrikadamızın çiçəkləyən zamanı gələcək! Heç kimin şübhəsi olmasın! Bax, onda – barrikada gül açanda bu gün "divar hörənlər"in nəvə-nəticəsi o gülü dərib bu gün "körpüsalanlar"ın qəbri üstə düzəcək!

Nyuton "körpüsalan" tapmayanda körpünü özü tikməyə başladı. Bu körpüdən indi bütün dövrlərin "divarhörənlər"inin nəvə-nəticəsi keçir.

Böyük "körpüsalan" Rafiq Əliyev barrikadanın gül açacağını bildiyindəndir ki, bu gün "divarhörənlər"i təmkinlə, təbəssümlə süzür…

**Vahid Qazi,**
**yazıçı, publisist**

## ZİYALILIĞIN RAFİQ ƏLİYEV ÖLÇÜ VAHİDİ

***Səlim Əzimov: "Hər il sentyabrın 1-də məktəbdə Rafiq Əliyevin təbrik teleqramı əl-əl gəzərdi".***

Şəklini vaxtilə orta təhsil aldığım Ağdam rayonu Novruzlu kənd orta məktəbinin dəhlizində divardan asılmış xüsusi guşədə görsəm də, ilk tanışlığımız 2009-cu ilə təsadüf edir. Azərbaycan Dövlət Neft və Sənaye Universitetində (keçmiş Azərbaycan Dövlət Neft Akademiyası) gerçəkləşən bu görüşün təəssüratları ömrüm boyu yaddaşımdan silinməyəcək.

Öz adı, fəaliyyəti ilə dünyada tanınmış bu nəhəng təhsil ocağında kiçik bir otağının qapısını döyüb içəri daxil oldum. Oturduğu iş stolunun arxasından qalxıb, mənə doğru addımladı. "Xoş gəlmisiniz" – deyib, otağın künc tərəfindəki kreslonu göstərib, əyləşməyimi xahiş etdi. Özü isə digər boş kresloda əyləşdi. Ümumi hal-əhvaldan sonra özümü təqdim etdim. Ağdam rayonunun Novruzlu kəndindən olduğumu deyəndə, üzündəki səmimiyyətdən doğma el-obasına, o yerin insanlarına hörmət və sevgisinin nə qədər böyük olduğunu sezdim. Atamın adını soruşdu. Malçı kişinin oğluyam – dedim... Bir anlıq dərin fikrə getdi... Otağa dərin bir səssizlik çökdü. Hiss etdim ki, düşüncələri onu Novruzlunun çal-çağırlı günlərinə qaytarıb, o illəri gözü önünə gətirir... Qısa səssizlikdən sonra mülayim səsi araya çökən sükutu pozdu. "Sizin atanızı yaxşı tanıyıram. Çox zəhmətkeş, sakit təbiətli insan idi, bir kimsə ilə işi olmazdı". Sonra kənddəki qonşularımızın adını bir-bir sadalamağa başladı... "Sanki gəlişinizlə o böyük Novruzlunu bu kiçik, darısqal otağıma gətirdiniz. Bunun üçün sizə minnətdarlığımı bildirirəm..." – deyə gəlişimdən məmnun olduğunu bildirdi.

Mən isə bu böyük insanın sadəliyi, səmimiliyi qarşısında donub qalmışdım... Kəndimizlə, onun insanları ilə bağlı söhbətdən sonra gəlişimin səbəbini söylədim. Eşidəndə ki, dəyərli ziyalı Səlim Əzimovun həyat və pedaqoji fəaliyyəti haqqında hazırladığım "Kamillik zirvəsi" adlı kitabla əlaqədar onun fikirlərini almaq istəyirəm, hədsiz dərəcədə sevindi. Dedi ki, Səlim müəllim elimizin, obamızın dəyərli ağsaqqalıdır: "Ağsaqqallıq səlahiyyəti qazanmaq hər insana nəsib olmur. Bu, bioloji ömür yaşı ilə deyil, mənəvi ömür yaşı ilə ölçülür. Bu səlahiyyəti əməlləri ilə minlərə örnək ola bilən insan qazana bilir. O insanlardan biri Tanrının çox mənalı bir ömür payı bəxş etdiyi hamımızın sevimlisi Səlim müəllimdir. Eləcə Səlim müəllim. Müəllimlik onun peşəsidir, alın yazısıdır. O, həm sinif otaqlarında müəllimdir, həm müəllimlər otağında müəllimdir, geniş auditoriyalarda müəllimdir, bütövlükdə həyatda müəllimdir...". Səlim müəllimlə bağlı söhbətimiz xeyli çəkdi. Açığı, danışılası, çözüləsi sözümüz-söhbətimiz çox idi, amma bu dahi insanın dəyərli vaxtını almaq istəmədim. Odur ki, söhbətimizi yekunlaşdırıb, otağın qapısına qədər birlikdə addımladıq. Elə qapıdaca onunla sağollaşıb ayrıldım... Bu görüş, tanışlıq sonrakı əlaqələrimizə bir körpü oldu...

Haqqında danışdığım insan 1989-cu ildən 2011-ci ilə kimi Azərbaycan Dövlət Neft Akademiyasının Avtomatlaşdırılmış idarəetmə sistemləri kafedrasının müdiri olmuş, AMEA-nın müxbir üzvü, professor Rafiq Əliyevdir. Qeyd edək ki, görkəmli alim Rafiq Əziz oğlu Əliyevin fevralın 10-da 75 yaşı tamam olur. Bu ərəfədə dəyərli ziyalımızın mətbuatda dərc olunan müsahibələrini nəzərə alıb, təkrarçılığa yer vermək istəmədik.

Odur ki, istər elmi, istər ziyalı, istər xeyir-şər məclislərində, istərsə də digər tədbirlərdə yeri gəldikcə həmişə professor Rafiq Əliyevin və dünya şöhrətli alim Xudu Məmmədovun adını qürurla çəkən gözəl ziyalı, tanınmış pedaqoq, respublikanın əməkdar müəllimi Səlim Əzimovla görüşüb yubilyarla bağlı fikirlərini öyrənməyi qərara aldım.

* * *

Zəngləşib evdə olduğunu öyrəndim. Bir saatdan sonra Səlim müəllimlə çay süfrəsi arxasında Rafiq müəllimdən söz salıram. Söhbət zamanı dəyərli yubilyarımızın indiyədək geniş ictimaiyyətə, oxuculara məlum olmayan tərəflərinə işıq salınmağa çalışırıq.

Öncə qeyd edim ki, Rafiq Əliyev 1942-ci il fevralın 10-da Ağdam rayonunun Novruzlu kəndində anadan olub. Rafiq Əliyev kəndin adlı-sanlı nəsillərindən idi. Atası Əziz kişi vaxtilə təhsilli, savadlı kişilərdən olub. Kolxozda partkom, rayonda təlimatçı, barama zavodunun direktoru işləmişdir. Anası Sayad xanım kəndin xeyir-şər məclislərində həmişə yaxından iştirak edərdi. Böyük qardaşı Həsən Əliyev rayonda müəllim, sonra maarif şöbəsinin inspektoru vəzifəsində çalışmışdır. Daha sonra Bakıya köçərək, Azərbaycan Dövlət Pedaqoji Universitetində müəllim işləmişdir. Tarix elmləri namizədi idi. Digər qardaşı Səyyaf Əliyev Ağdamın tanınmış ziyalılarından idi. 1961-ci ildə Ağdam rayon Komsomol Komitəsinin II katibi, 1965-ci ildə isə I katib seçilmişdir. 1970-ci ildə Ağdam rayon Təşkilat şöbəsinin müdiri təyin edilmişdir. 1971-1975-ci illərdə Ağdam rayon XDS İcraiyyə Komitəsində sədr müavini, 1975-1979-cu illərdə Ağdam rayon Kənd Təsərrüfatı Texnikumunun direktoru, 1979-1997-ci illərdə Ağdam 50 saylı Texniki Peşə Məktəbinin direktoru, 1997-2004-cü illərdə isə Bakı şəhəri 17 №-li peşə məktəbinin direktoru vəzifəsində işləmişdir.

Bacıları Gülşad və Bilurə tibb baçısı idi. Digər bacısı Dilşad evdar qadın olsa da, övladları alim-ziyalı idi.

Ana babası Şahvələd kişi olduqca zarafatcıl, eyni zamanda şifahi xalq ədəbiyyatına və aşıq yaradıcılığına dərindən bələd idi. Ana nənəsi Zinyət çox zabitəli qadın idi. Kəndin xeyir-şər məclislərində yaxından iştirak edərdi. Bütün bunları deməkdə məqsədim odur ki, azərbaycanlı alim, süni intelellekt sahəsində qeyri-səlis məntiq nəzəriyyəsinin banisi, ABŞ-ın Corciya Universitetinin professoru, Amerikada fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatlarının fəxri sədri Lütfi Zadənin elmi varisi Rafiq Əliyev necə bir ailədə böyüdüyünü hamı bilsin. Rafiq Əliyev 1948-ci ildə 1-ci sinfə Novruzlu kənd məktəbində getsə də, ailəsi rayona köçdüyü üçün orta təhsilini Ağdam 1 nömrəli şəhər orta məktəbində bitirib. Dünya şöhrətli amerikalı ixtiraçı Tomas Alva Edisonun məşhur bir deyimi var:

“Dahiliyin bir faizi ilhamdırsa, 99 faizi isə alın təridir”. Rafiq Əliyev də çox çalışqan idi. Yadımdadır, o, Ağdam 1 nömrəli şəhər orta məktəbində 8-ci sinifdə oxuyarkən ana haqqında bir pyes də yazmışdı. Qeyd edim ki, 1970-1980-ci illərdə ölkədə peşə təhsilinə böyük diqqət vardı. O vaxt respublika üzrə müşavirələrdən biri Ağdam rayonundakı Ordcanikidze adına kolxozda keçirilirdi. Müşavirədə hər rayondan bir nəfər çıxış edirdi. Ağdam rayonunu isə Rafiq Əliyev təmsil edirdi. O, çıxışına Səməd Vurğunun “Zamanın bayraqdarı” poemasının 8-ci fəslini əzbər söyləməklə başladı. Poemadan parça bitər-bitməz hamı ayaqda əl çalmağa başladı. İnanın ki, zalda alqışdan qulaq tutulurdu...

Rafiq müəllim elm sahəsində nə qədər nəhəng görünsə də, həyatda olduqca zərif və kövrəkdir. O, Aidə xanımla ailə qurduqdan sonra çox təəssüf ki, ilk oğlan övladlarını vaxtsız itirdilər. Ən dəhşətlisi o idi ki, oğlu Rafiq müəllim namizədlik dissertasiyasını müdafiə etdiyi gün rəhmətə getdi. Ondan sonra Rafiq müəllim hər dəfə Bakıdan rayona gələndə Novruzlu qəbiristanlığında dəfn olunan övladının məzarını ziyarət etmədən kəndə gəlməzdi.

Onu da xüsusi olaraq vurğulayım ki, Rafiq müəllim bir neçə xarici dil bilsə də, heç vaxt görməmişəm ki, ana dilində danışarkən əcnəbi sözlərdən istifadə etsin. Çünki o, doğma dilimizi mükəmməl bilir və çox sevir.

Rafiq müəllim həm də həddindən artıq sadə və mehribandır. Yeri gəlmişkən, onunla bağlı bir xatirə danışım. Hər il biz yay fəslini ailəlikcə Turşsuda keçirərdik. Bir yayı yenə Turşsuda idik. Rafiq müəllimin qardaşı Səyyaf Əliyev və yeznələri Niyaz müəllimgillə alaçıqlarımız yanaşı idi. Təzə süd-qatıqdan istifadə məqsədilə özümüzlə iki sağılan inək də gətirmişdik. Hər səhər inəkləri sağılandan sonra ötürərdik meşənin bir tərəfinə, buzovları isə başqa bir səmtə. Axşamçağı isə hevanlar özləri qayıdardı alaçığın yanına. Bir axşam inəklər gələndən sonra çox gözlədik, buzovlar qayıtmadı. Onda oğlanlarım Fikrət, Mehman, Vidadi hələ balaca idilər. Artıq qaranlıq düşməyə başlamışdı. Alaçığın ətrafında o tərəfə, bu tərəfə boylandığımı görən Rafiq müəllim soruşdu ki, Səlim müəllim, nə olub? Buzovların örüşdən qayıtmadığını söylədim. Bu zaman Rafiq müəllim əl çəkmədi ki, gedək buzovları özümüz axtaraq. Həmin ərəfədə Rafiq müəllim Moskvadan bir həftəliyə Səyyaf müəllimgilə qonaq gəlmişdi. Rafiq müəllimin israrlı təkidindən sonra birlikdə gedərək meşənin dərinliyindən buzovları tapıb gətirdik... Bu əhvalatı xatırlayanda indi də utanıram ki, dünya şöhrətli alim mənimlə meşədə buzov axtarırdı...

Rafiq müəllim eyni zamanda xeyirxah, öz elinə, obasına yanan insandır. Vaxtilə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin ideoloji şöbəsində çalışan Rafiq Əliyevin xeyirxahlığının, vətənpərvər ziyalılığının bir daha şahidi oldum. Qeyd edim ki, Novruzlu kəndinin qəbiristanlığı yüksəklikdə yerləşdiyi üçün oranı su tutmurdu. O, yaxınlıqdakı üzüm bağının ərazisində artezian quyusu qazdırdı. Həmin arteziandan qəbiristanlığa bulaq çəkdirdi. Başqa bir fakt. Novruzlu kənd orta məktəbinin binası 1930-cu illərdə tikilmişdi. Şagirdlərin sayına görə sinif otaqları azlıq edirdi. Rafiq müəllimin xahişi ilə 1988-1990-cı illərdə məktəbin həyətində 684 yerlik yeni layihə ilə ikimərtəbəli orta məktəb binası tikildi.

Daha bir fakt. Novruzlu kəndi Qarqar çayının sağ sahilində yerləşirdi. Hər il aprel, may, iyun aylarında Qarqar çayı daşardı və çox böyük daşqınlar əmələ gələrdi. Sel gələndə rayondan kəndlərə, eləcə də Ağdama gediş-gəliş çətinləşirdi. Bir müddət, demək olar ki, kəndlə şəhər arasında əlaqə tamam kəsilərdi. Vaxtilə bir çox insan həmin selin qurbanı olmuşdu. Bu səbəbdən də Raftq müəllim Qarqarın üzərindən o regionda ən böyük bir körpü saldırdı. Eyni zamanda, Rafiq müəllimin sayəsində kəndimizdəki 25 çarpayılıq xəstəxana 75 çarpayılıq xəstəxanaya çevrildi. Onu da deyim ki, bütün bu işlər o zaman Ağdam rayon Partiya Komitəsinin birinci katibi, "qurucu katib" adı ilə tanınan Sadıq Murtuzayevin rəhbərliyi və iştirakı ilə həyata keçirilmişdir.

Bildiyiniz kimi, mən 1957-ci ildən 1993-cü ilin sonuna kimi Novruzlu kənd orta məktəbinin direktoru vəzifəsində işləmişəm. Yadımdadır, hər il sentyabrın 1-də məktəbdə Rafiq Əliyevin təbrik teleqramı əl-əl gəzərdi. Teleqramın mətni isə belə idi: "Yeni dərs iliniz mübarək. Ağbirçək, ağsaqqal müəllimlərin əllərindən öpürəm. Vətən torpağına qurban olum". O, bizi heç vaxt unutmurdu. Bir məqamı xüsusilə qeyd edim ki, Rafiq Əliyevə Novruzluda birinci sinifdə dərs deyən Qərənfil Əhmədova hər zaman onun xatirindədir. Rafiq müəllim onu heç vaxt unutmur. Elm, təhsillə bağlı tədbirlərdə çıxış edərkən ona cəmi 4 ay dərs deyən müəlliməsinin adını minnətdarlıqla çəkir. Hər yeni dərs ili başlayanda məktəbin dəhlizində Ağdam ziyalılarının iri portretlərini divardan asaraq, aşağısında xidmətlərini yazdırırdım. Həmin guşənin yuxarı hissəsində isə belə bir başlıq yazılmışdı: "Kimə oxşamaq istəyirsən?" O zaman şagirdlər dünya şöhrətli alimlər Xudu Məmmədovun, Rafiq Əliyevin, şairlərdən Famil Mehdinin portretlərinə baxmaq üçün növbəyə düzülərdilər.

Yubiley ərəfəsində Rafiq müəllimə nə arzu edə bilərəm? Rafiq müəllimi 75 yaşı tamam olması münasibəti ilə təbrik edir, ona həyatın şirin neməti olan cansağlığı arzulayıram. Rafiq müəllimin sadə, mürəkkəb, kövrək, ciddi, elmli, bilikli, uzunömürlü olmasının əsas səbəblərindən biri aşağıdakı misraların mənasındadır:

*Yüz dəfə cəhd etsən, işin düzəlməz,*
*Taleyin öz yönü bəri düşməsə.*
*Ömür gödək olar, tez qocalarsan,*
*Bəxtinə sən deyən pəri düşməsə.*

Taleyin üstündə yar olub, bəxtinə çox istədiyin pəri düşüb, Rafiq müəllim... Ağdamda, Novruzluda görüşmək arzusu ilə...

* * *

Əziz Rafiq müəllim, bilirəm ki, bu arada Sizə çox təbriklər ünvanlanacaq. Düşündüm ki, mən də Sizi yüksək dəyər verdiyiniz Səlim müəllimlə söhbətimizdən ərsəyə gələn bu kiçik yazımla təbrik edim. Allah Sizə və bizlərə doğma el-obamızın, müqəddəs məkanlarımızın ziyarətini nəsib etsin, İNŞALLAH!

**Elbar Şirinov,**
**jurnalist**
07.02.2017

## ÖLKƏDƏN GİZLƏDİLƏN ALİM

Tez-tez soruşurlar, tez-tez müzakirələr açırıq: bizim alimlərdən kimsə Nobel mükafatı ala biləcəkmi? Nobel mükafatları ilə bağlı kitab yazdığımdan və ara-sıra bu barədə məqalə və çıxışlarla mətbuatda göründüyümdən, məndən daha çox soruşurlar bunu.

Özüm də bəzən sual verirəm: bizdən kim ala bilər Nobeli? Bəzən də özümü qınayıram: bu sualı artıq bir-birimizə verməməliyik. Çünki Nobel mükafatını əhatə edən elm sahələrindən edilən kəşflər haqqında məlumatlara baxıb mükafatın adını çəkməyi tərgitməliyik. Düzdür, son vaxtlar türk aliminin parlaq uğuru bizi də ümidləndirə bilər. Axı türk əsilli alim Əziz Sancar "DNT-nin bərpası metodlarının öyrənilməsi sahəsində tədqiqatlara görə" britaniyalı Tomas Lindal və amerikalı Pol Modriçlə 2016-cı ildə kimya sahəsində Nobelə layiq görüldülər. Amma molekulyar biologiya sahəsində böyük alim, iki dəfə Nobelə namizədliyi verilmiş türk əsilli Oqtay Sinanoğlu bu mükafata layiq görülmədi. ABŞ-ın tanınmış universitetlərində professor kimi çalışan bu nəhəng alim daha nə qədər çalışmalı idi ki, mükafata layiq görülsün?! Görürsünüzmü, çox çətindir. İşin başqa bir tərəfi də var ki, Sancar da Türkiyədə qalıb çalışsa idi, buna nail ola bilməzdi.

Amma nə qədər bədbin olsaq da, yenə də inamımız sönmür, yenə də Rafiq Əliyevə və Lütfi Zadəyə ümid bəsləyirik. Lütfi Zadə ABŞ da çalışır. Rafiq müəllim isə burada. Adətən böyük alimlər ilk uğurlarını ölkələrində qazanırlar. Fizika üzrə Nobel mükafatı laureatı Əbdüs Salam 14 yaşında Pəncab Universitetinə daxil olmuş, sonra isə Kembricdə təhsilini davam etdirmişdir. Digər Nobelçi Əhməd Zevayl isə İsgəndəriyyə Universitetini bitirdikdən sonra ABŞ-a oxumağa getmişdi. Yəni böyük elm mərkəzlərinə bağlanmadan böyük uğurlara imza atmaq çox çətindir.

Bizim Rafiq müəllim də dünyanın müxtəlif universitetlərində mühazirələr oxuyur. Böyük alim Lütfi Zadə də onun barəsində çox yüksək rəylər yazır. Ancaq Rafiq müəllim vətəndən kənarda yaşaya bilmir. Mənə görə, bu, Rafiq müəllim kimi istedadlı alimi davamlı tədqiqatlardan kənarda saxlayır, amma ən dəhşətlisi odur ki, onu bütün varlığı ilə bağlı olduğu Neft Akademiyasından da kənarlaşdırdılar.

Cəmiyyətin buna təpkisi olmadı. Görünür ki, böyük alimin kim olduğunu hələ də dərk etmirik. Cəmiyyətin böyük kəsimi alim xarizmasından bixəbərdir. Ölkəmizə gələn böyük alimlərə diqqətlə qulaq asır və biliyinin arsenalına təəccüblənirik. Minlərlə alimin arasından seçilən, xaricilərin həvəslə dinlədiyi Rafiq müəllimi isə yaxşı tanımırıq. Dəhşətə baxın, Berkeleydə mühazirə oxuyan bir alimi AZİ-dən işdən çıxarırlar. Və biz bu acı reallıq içində Nobel mükafatı da gözləyirik.

Hansısa böyük alimin fikridir; "Elm ağlın parlaq naxışıdır". Elm insanın həyat tərzini və düşüncəsini dəyişə bilmək qüdrətinə malikdir. Elm əxlaq və

metafizik dəyərlərdən təşkil olunmuş özüldən ibarətdir. Metafizik dəyərlərə isə gözəllik, həqiqət, düzgünlük, xeyirxahlıq daxildir. Elmin gözəlliyi onun qanunlarının və formullarının naxışlarında özünü göstərir. Rafiq Əliyevin qeyri-səlis məntiq sahəsində işləri onun ağlının naxışlarıdır.

Əsrimizin nəhəng alimlərindən biri sayılan Karl Mayntser inandırıcı surətdə sübut edir ki, indiyə qədər elmin bəzi sahələrində dominantlıq edən xətti təfəkkür müasir şəraitdə təhlükəlidir. "Bizim yanaşma nəzərdə tutur ki, fiziki, sosial, mental reallıq qeyri-xətti və mürəkkəbdir. Xətti təfəkkür isə düzgün diaqnozun qoyulmasında uğursuzluğa düçar ola bilər". Artıq biz də xətti təfəkkürdən yaxa qurtarmalıyıq.

Xətti təfəkkürün gətirdiyi bəlalar bunlardır:

– Elm siyasiləşib;
– Elmi məktəblər, demək olar ki, yoxdur;
– Alimlərin birliyindən çox, konfliktləri müşahidə olunur;
– Gənc nəslə qarşı qısqanclıq var və s.

Rafiq müəllim bu cür problemlərin həllində əsas simalardan biri ola bilərdi. Ancaq kimdir təşəbbüs edən?! Axı sadaladığım işlər həll olunmasa, biz ölkənin elmi potensialının inkişafından danışa bilmərik. Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində minlərlə gəncimiz dünyanın aparıcı ali məktəblərində təbiət və texniki elmlər üzrə təhsil almağa göndərilir. Artıq elmlə məşğul olan yeni gənclik formalaşır. Bu, perspektivli işdir. Ancaq onları dərin elmə yönəldə biləcək alimlərimizin sayı çox azdır. Gənclərimiz təhsil aldıqları nüfuzlu universitetlərdə dərs deyən müəllimlərin oxşarını axtaracaqlar. Elmlə məşğul olan gəncliyə Rafiq Əliyev kimi alimlər yol göstərməlidir.

Bu böyük alimi bir dəfə də olsun televiziyalarda görə bildikmi? Yox. Azərbaycan elmində intriqa yaradanlar bilirlərmi ki, artıq uşaqlar da elmlə məşğul olmağa başlayıblar. Bu, qarşısıalınmaz bir prosesdir. Mən bunu dünən "Sabahın alimləri" V Respublika Müsabiqəsinin açılış mərasimdə gördüm. Müsabiqənin əsas məqsədi yuxarı sinif şagirdlərinə öz elmi nailiyyətlərini nümayiş etdirmək imkanı vermək və onların arasından ABŞ-da hər il keçirilən Intel ISEF – Intel Beynəlxalq Elm və Mühəndislik Sərgisində iştirak edəcək namizədləri müəyyənləşdirmək idi.

Görürsünüzmü, gəncliyin, yeni nəslin qabağını alan təfəkkürdən qurtulmasaq, görülən işlər də hədər gedə bilər. Gənc nəslə bizim Rafiq Əliyev kimi alimlərin tövsiyələri gərəkdir. Ancaq Rafiq müəllim onları harada görə bilər? Alimi ölkədən gizlətməklə nəyə nail ola bilərik? Hələ bunun müqabilində, "Bizdən kim Nobel mükafatı ala bilər?", – deyə bir-birimizə suallar da veririk.

**Etibar Əliyev,**
**fəlsəfə doktoru**
12.02.2016

## AZƏRBAYCANDA RİYAZİYYAT ALİMİNİN AFRİKA SAYAĞI YEYİLMƏSİ

*Mərkəzi Afrikanın sabiq adamyeyən prezidenti və imperatoru Jan Bedel*

Bokassa ölkəsindəki yeganə riyaziyyat alimini yeyibmiş. Müxalifət liderlərini, nazirləri, üzərində onun rəsmləri həkk olunmuş paltarları geyinməkdən imtina edən məktəbliləri, sözünə qulaq asmayan arvadını, fransalı paraşütçünü, öz yaxın qohumu olmuş sələfini, düşmənini müalicə etmiş ölkəsinin yeganə ali təhsilli həkimini, bir sözlə, qəzəbinə tutulmuş hər kəsi həzmi rabedən keçirən Bokassanı Afrika xalqı bağışlaya bilir. Amma mərkəzi afrikalılar Bokassanın ölkədəki yeganə riyaziyyat alimini nədən yediyinin səbəbini hələ də özləri üçün müəyyən etməyiblər.

Bu günlərdə Azərbaycanın dünya şöhrətli yeganə informasiya texnologiyaları və kibernetika alimınə qarşı da təqribən Bokassa sayağı münasibət olub. Doğrudur, onun ətindən Bokassanın aşpazı kimi kotlet və vetçina hazırlamayıblar.

**Kəşfləri kosmosu fəth edir**

R.Əliyevin insan mühakiməsi meyarlarına daha dürüst cavab verən Ali-1, Ali-2, Ali-3 qeyri-səlis-məntiqləri, mürəkkəb sistemlər üçün nəzərdə tutulmuş koordinasiya nəzəriyyəsi, post-modern informasiya texnologiyasının ən əsas istiqamətlərindən biri olan qeyri-səlis neyron şəbəkələrinin genetik alqoritmlərə əsaslanan öyrənmə nəzəriyyəsi, idarəetmə sistemlərinin invariantlıq şərtlərinin formalaşdırılması, paylanmış sistemlər üçün koordinasiya nəzəriyyəsi, qeyri-səlis intellektual robotların nəzəriyyəsi, qeyri-səlis ekspert sistemləri, paylanmış intellektual sistemlərin yaradılması konsepsiyası və nəzəriyyəsi, qeyri-səlis reqresiya və digər araşdırmalarının fundamental elmi nəticələri var. R.Əliyevin araşdırmalarının nəticələri ayrı-ayrı ölkələrdə tətbiq olunur. İndiyə qədər Azərbaycanda heç bir alimin bu qədər elmi nəzəriyyələri olmayıb və xaricdə əcnəbi dillərdə də bu qədər kitabı nəşr olunmayıb. Hələ 1996 və 1999-cu illərdə Rusiyalı alimlər Ali-1, Ali-2, Ali-3 məntiqlərinin digər məntiqlərdən daha səmərəli olduğunu eksperimental nəticələrlə sübuta yetiriblər və kosmik aparatların diaqnostikasına və idarə olunmasına tətbiq ediblər. Alimin elmi nəticələri neftçıxarma, neft emalı, təbabət, konfliktologiya, iqtisadiyyat, təhsil, biznes sahələrində və kosmik obyektlərdə tətbiq olunur. Onun 70-ə yaxın kitabı (və 350-dək məqaləsi) Almaniyanın Zigen və Darmştad, Amerikanın Boston və Kaliforniyanın Berkeley Universitetlərində, Rusiya, Türkiyə, Fransa, Avstriyanın, Kiprin universitetlərində əsas dərs vəsaiti kimi istifadə olunur. Oğlu Rəşad Əliyevlə birgə yazdığı «Soft Computing and Its Applications» kitabı bir neçə il dünya elmi-texniki kitabları içərisində

bestseller olub, birinci və ikinci yerlərdə durub. R.Əliyevin rəhbərliyi altında həyata keçirilən «İstehsalın səmərəliliyinin yüksəldilməsi üçün informasiya və idarəetmə sistemlərinin işlənməsi və tətbiqi işi» 1983-cü ildə SSRİ-nin dövlət mükafatına layiq görülmüşdü.

**Bir ölkədə yaşayıb başqa ölkəyə işə gedən adam**

Amerikada Eynşteyn və Lütfi Zadə haqqında deyirmişlər ki, onlar öz ölkələrində yaşaya-yaşaya başqa ölkələrə işə gedirlər. Rafiq Əliyev də Azərbaycanda yaşayır, amma başqa ölkələrə işə gedib-gəlir. Nə yazıq ki, onun xaricdəki iş yerlərinə də getməsi, geniş auditoriyalar qarşısında mühazirələr söyləməsi ölkəmizdə kimlərinsə xoşuna gəlmirmiş. Çox güman ki, R.Əliyev özü ADNA-da ona qarşı atılan addımı ətrafdakılar qədər emosional qarşılamayıb və bu qərar heç onu qorxutmayıb da. Bizi bu qənaətə R.Əliyevin özü barədə dedikləri gətirir. R.Əliyev onun haqqında çəkilmiş "Alim" sənədli filmində deyir: «Elmə gəlməyimdə dominant tərəf mənəvi tərəf olub. O vaxtdan da başa düşmüşdüm ki, alimin heç vaxt pulu, maddi tərəfdən dəstəyi olmur. Tarixə nəzər salsaq görərik ki, alimin heç biri dəbdəbəli həyat sürməyib, buna vaxtı və pulu olmayıb. Məncə onların heç dəbdəbəyə ehtiyacı da olmayıb. Əvəzində həmişə müstəqil olublar. Onlar həmişə öz zəmanələrində zəmanəyə, o zəmanənin eybəcərliklərinə, çətinliklərinə müxalifətdə olublar. Elə başa düşürəm ki, elmə gəlməyimin bir səbəbi də müstəqilliyi sevməyim olub. Nə qazanmışamsa, o həmişə mənə müstəqillik verib. Elmdəki də bu xarakterimə uyğun olaraq nüfuz qarşısında qorxub-çəkinməyim də olmayıb. Klassikləri də çox oxumuşam, sevmişəm, amma onların nəticələrinə də doğma kimi baxmamışam...

Allah insanı Pareto optimal yaradır. Hər şeyi bir insana verməz. Allah insana çox ağıl verər, dövlət verməz, insana yaxşı qamət verər, şəxsiyyət verməz, yaxşı sağlamlıq verər, pul verməz. Yəni Allah insanı həmişə balansda yaradır. Bu baxımdan xoşbəxtliyi də tam ölçmək mümkün deyil. Ola bilər lokal mənada mən özümü xoşbəxt sayıram. Yəni həyatda, elmdə nə isə deyə bilmişəm. Ailə qurmuşam, övladlarım var. Amma qlobal baxımda götürəndə mən özümü xoşbəxt saya bilərəmmi?! Əgər bu gün Qarabağ azad deyilsə, düşmən tapdağı altındadırsa, mən özümü xoşbəxt saya bilərəmmi?! Mən o zaman arzularımın çin olduğunu (bu da xoşbəxtliyin bir komponentidir, bir atributudur) deyərəm ki, xalqımın imzası dünya xalqlarının imzası içində olsun və işıq qələmi ilə yazılsın. Yəni bu gün dünya xalqlarının çoxu bilik iqtisadiyyatına arxalanan modellə yaşayır. İnsan indeksi çox yüksəkdir. Mən onda özümü xoşbəxt sayaram ki, mənim xalqımın, ölkəmin iqtisadi modeli belə model olsun. Mən onda özümü xoşbəxt sayaram ki, bu dünyada olan təlatümlər, kataklizmlər, ədalətsizliklər azalsın, dünyada balans, ədalət olsun... Anam mənə həmişə deyərdi ki, sən gedib kiməsə qoşulma, qoy kimsə gəlib sənə qoşulsun...».

**Prezidentin "Dostluq" ordeni ilə təltif etdiyi Lütfi Zadə və onun varisi Rafiq Əliyev**

Lütfi Zadə dünya elmində inqilab edən, Nyuton, Eynşteyn səviyyəli şəxsiyyətdir. Onu ən dəqiq öz elmi irsinin varisi elan etdiyi Rafiq Əliyev belə xarakterizə edib: «20 və 21-ci əsrin ən böyük elm dühasıdır Lütfi Zadə. Eynşteyn fizikada inqilab etdi. Və özünə qədər Nyuton mexanikasının hər şeyə qadir olduğu fikrini alt-üst elədi. Və onun elmə verdiyi bir şey oldu – bir sərhəd. Yəni bu sərhəddə kimi Nyuton mexanikası, klassik mexanika işləyər, ondan sonra isə yüksək sürətlər mexanikası – Eynşteyn nəzəriyyəsi işləyər. Amma Lütfi Zadə 1965-ci ildə qeyri-səlis məntiq nəzəriyyəsini təklif etməklə Aristotel məntiqinin çərçivəsini yaxşı mənada dağıtdı, genişləndirdi. Riyaziyyatı ikiləşdirdi. Bu gün dünyada iki riyaziyyat oxunur – klassik riyaziyyat və Lütfi Zadənin – qeyri-səlis riyaziyyatı. Riyaziyyat dəyişdisə, elmin dilləri dəyişdi. Onlara yanaşmalar dəyişdi. Zadə fizikanı dəyişdi, kimyanı dəyişdi, təbiət elmlərinin əksəriyyətini dəyişdi. Bir ömürdə 6-7 elmi nəzəriyyə təklif etmək və bütün dünyanı heyran qoymaq, bütün dünyanı da bu nəzəriyyələrin ətrafında işləməyə vadar etmək, təbii ki, hər adama qismət olmur. Lütfi Zadə mənim dünyanın müxtəlif ölkələrində çıxan 7 kitabıma ön söz yazıb və biryerdə 3 kitab çap etmişik. Onun ən kiçicik bir məsləhəti 5-10 ilə kifayət edən məsləhətlərdir».

**Amerikadan çox əzəmətli görünür, bəs Azərbaycandan?**

R.Əliyev barədə dünya alimlərindən yalnız müsbət fikirlər eşidirik. Məsələn, ABŞ-lı professor Ronald Yager deyir ki, Rafiq Əliyev Amerikadan 7 min mil uzaqlıqda yerləşən Azərbaycanda yaşasa da o, Amerikadan çox əzəmətli görünür. Almaniyalı professor Karl Bonfik isə bu fikirdədir: «Onun elmi nəticələri ümumdünya səviyyəlidir. O, bütün dünyada böyük elmi avtoritet kimi tanınır və ona böyük hörmət bəslənilir. O, dünyanın İnformatika sahəsində ən nüfuzlu beş alimindən biri kimi bu elm sahəsinin perspektivlərini müzakirə etmək üçün beynəlxalq konfranslara dəvət olunur». Rusiyalı professor Aleksey Averkin isə vaxtilə bir professorun məsləhətinə əsasən qeyri-səlis məntiqin incəlikləri ilə tanış olmaq üçün Lütfi Zadə və Rafiq Əliyevin işləri ilə tanış olduğunu bildirib: "O zamanlar süni intellekt sistemlərində geniş istifadə olunan qeyri-səlis riyaziyyat üzrə başqa məktəblər də mövcud idi. Amma onların içində R.Əliyevin rəhbərlik etdiyi Bakı məktəbinin xüsusi yeri vardı. R.Əliyevin rəhbərliyi ilə keçirilən beynəlxalq konfranslarda onun və yetirmələrinin çıxışları qeyri-səlis riyaziyyat sahəsindəki ümumdünya elmi məktəbləri arasında bu elmi məktəbin artıq qəbul olunmuş xüsusi yerini göstərir».

Qayıdaq yazının əvvəlində haqqında bəhs etdiyimiz Bokassaya. Bokassa ölkəsinin vətəndaşlarının bədbəxtliyi, aclıq və səfalət içində çırpınması hesabına 2 ton qızıldan öz heykəlini yapdırmışdı. 1977-ci ildə onun imperator

tacqoyma mərasimi bədbəxt ölkəyə on milyon funt sterlinqə başa gəlmişdi ki, bu da MAR-ın illik dövlət büdcəsini ötüb keçmişdi. Yalnız bu şüurun yiyəsi olan bir adam ölkənin yeganə riyaziyyat alimini gündəlik yemək menyusuna əlavə etdirə bilərdi. Bəndənizi isə sadəcə bir sual düşündürür: Görəsən, R.Əliyev kimi mənəvi dəyərləri hər şeyin fövqünə qaldıran, fövqəladə biliklərinin qarşılığında pulunun olmamasını Allahın insanı Pareto optimal yaratması fəlsəfəsinə bağlayan bir insan standart azərbaycanlılarla illərlə bir yerdə necə çalışıb?!

**Tomris**
16.11.2011

## HAMI GÖYƏ QALXSIN...

*Rafiq Əliyevə edilən haqsızlıq haqqında*

İslam peyğəmbəri Həzrət Məhəmməd belə söyləyib: "Alimin mürəkkəbi şəhidin qanından üstündür". Peyğəmbərimizin bu kəlamı cəmiyyətin işığı sayılan alimlərin şəxsiyyətinə, əməlinə verilən böyük bir dəyər, əvəzsiz qiymətdi.

Hər zaman öyrənib, bildiyini hamıya öyrədən və sağlığında, özündən sonra böyük məktəb qoyub gedən bütün alimlər cəmiyyətin seçilmişləri, möminlərdən hesab ediliblər. Hətta islamın sürətlə yayıldığı və xilafətin get-gedə möhkəmləndiyi bir dövrdə baş verən savaşlar zamanı əsir götürülən alimlər barədə xüsusi qərar da qəbul edilmişdi. Xəlifənin hökmünə görə, əsir götürülən hər hansı yadelli, yaxud xristian alim on müsəlmana elm öyrədəndən sonra qeyd-şərtsiz və ona əməkhaqqı ödənilməsi şərtiylə azad olunmalıydı.

Tanrının nizamında da, möcüzələrində də, insanların həyat fəlsəfəsində və yaşayış tərzində də ən önəmlisi elmə sığınmaq, elm öyrənməkdi. Bəşəriyyətə hər zaman böyük elmi-texniki uğurlar bəxş edən alimlər həm də xeyir və şər kontekstində qavranılan xeyirin güclənməsinə, şərin yenilməsinə real şərait yaradan şəxslərdi.

Hər bir ziyalı alim öz zəmanəsinin siması və bütün hakimiyyətlərin dirənib durduğu böyük bir müqavimət obyektidir. Vətəndaş cəmiyyətində alim məfhumu inkaredilməz faktordu. Alimlərin elmə verdiyi töhfələr və elmin inkişafı mükəmməl bir cəmiyyətin yaranışı deməkdi. Alim şəxsiyyəti elə bir canlı divardı ki, bu divardan böhtan, şər, yalan keçməz.

Alim susmağı bacarmayan kəsdi. Dünyanın bütün ədalətli və bilikli alimləri həm də Tanrının böyük bir missiyasını daşıyırlar. Xalqın içində olub bizlərə düz yol göstərən, tariximizi, yaddaşımızı hər gün təzələyən və yaralarımızı sağaldan ağsaqqalların, aqillərin toplumunun öncülləri həmişə alimlər olub. Əsl alim həmişə ədalətsizliyə dözməyənlərin sırasında durur. Əsl alim hər zaman özünü-sözünü unutmayan və sözünün yerini bilən şəxsdi. Elə buna görə də arxa-dayaq bildiyimiz hər ziyalı alim mənsub olduğumuz cəmiyyətin aynası hesab olunur. Hər alim bu aləmin sözçüsüdür. Alimsiz cəmiyyətdə və elmə dəyər verilməyən bir mühitdə yaşamaq ölümə məhkum olmaq deməkdi.

Hamı göyə qalxsın...

Böyük alimimiz başqa dəyərli ziyalılarımızla bir sırada dayandığına görə qəzəbə gəlib. Bu, taleyin ironiyası deyil, zamanının tanınmış siması, ziyalı alim Rafiq Əliyevin böyüklüyünü təsdiq edən bir faktdı. Onun ədaləti, elmi və işıqlı siması var. Ədalətsiz hakimiyyətdə isə bu qiyafəli insanlardan həmişə çəkiniblər. Qeyri-səlis məntiq nəzəriyyəsinin yolçusu, elmi fəaliyyətiylə gələcəkdə Nobel mükafatı təqdimatına layiq bilinəsi (bunu dünya şöhrətli Lütfi Zadə də təsdiq edir) Azərbaycan alimi öz ölkəsində layiq olduğu yerdən uzaqlaşdırıldı.

Neçə vaxtdı cəmiyyətin "qaymaqları", ictimai və siyasi xadimlər ölkənin ən böyük alimlərindən birinə edilən haqsızlıqdan danışır. Tək bir nəfər təhər-tövrünü pozmadan, hadisələri səbirlə müşahidə edir. Bu, professor Rafiq Əliyevdi. Bu, professor Rafiq Əliyevin alim sanbalı, intellekti, səviyyəsidi.

Alim dövrünün imanlı şəxsidi. İmanlı şəxsi incitmək isə Allah qarşısında ən böyük günahdı. Bir gün bağışlanacağını istəyənlərin Rafiq müəllimə üz tutacağına da inanıram. Onların yeganə bəraəti "biz aldananlardanıq" kəlməsi olacaq. Hələ alim kövrələcək də. Alim olmayanların irəli düşüb alimi ittiham etdiyi çətin bir zamanda yaşayırıq.

Rafiq müəllim elmin zirvəsindən düşməyən şəxsiyyətdi. O ucalığa çatmaq üçünsə Tanrının ALİM adlı əzizi olmaq və Rafiq Əliyevin səviyyəsinə qalxmaq gərəkdi. Ədalət və ədaləti itirməmək xətrinə hamının səsi göyə qalxsın.

Hamı göyə qalxsa...

**Oqtay Qorçu,**<br>
**jurnalist**<br>
18.11.2011

## QİYMƏTLƏNDİRMƏNİN SƏLİS VƏ QEYRİ-SƏLİS MƏNTİQİ

14 dekabr – dünya şöhrətli alimimiz, vətəndaş ziyalı, Qarabağın mərd oğlu Xudu Məmmədovun doğum günüdür. Xudu müəllim cəmiyyətimizin bütün problemlərinə hər zaman diqqət yönəltməyi bacarırdı. Həmçinin bu problemlərin ən yaxşı və mümkün həllərini göstərməyi və eyni zamanda cəmiyyətin nüfuzlu insanlarını, bu problemlərin həlli üçün səfərbər etməyi də bacarırdı. Buna görə də xalq onu sevirdi və bu sevgi hər bir vətənpərvər insanın qəlbində özünə əbədi məskən salıb. Allahdan Xudu müəllimə rəhmət diləyirəm və onun mənəvi zənginliyindən bəhrələnməyi hər kəsə tövsiyə edirəm. Bu məqaləni də Xudu Məmmədovun əziz və unudulmaz xatirəsinə həsr edirəm. Qarabağ torpağının dünya elminə bəxş etdiyi daha bir şəxsiyyət isə, dünya şöhrətli alimimiz Rafiq Əliyevdir. Əslində bu məqalənin mövzu səbəbkarı da elə Rafiq müəllimdir. Onun böyük təəssübkeşlik və vətənpərvərliklə bacarıqlı insanlarımıza dəyər verməsi, məni bu məqaləni yazmağa ruhlandırdı. Hər cür məyusluğu, əsəbiliyi, saxtakarlığı, cinayətləri, insanlığın faciəsini görərək yaşadığımız bu cəmiyyətdə, insana dəyər verildiyini görmək, yaşamaq üçün stimul olur. Rafiq müəllim, sizə cansağlığı arzu edirəm və deyirəm ki, nə yaxşı ki, varsınız!

Həmişə fəxrlə həmyerlimiz saydığımız görkəmli alim Lütfi Zadə qeyri-səlis məntiqi gözəllik anlayışı ilə bağlı bir söhbətin nəticəsi olaraq kəşf etdi. Sonralar isə bu kəşf daha geniş yayıldı və həyatımızla bağlı demək olar ki, bir çox məqamlara tətbiq olundu. Bu ideyanın həmmüəllifi də görkəmli alimimiz Rafiq Əliyevdir. Bu yaxınlarda daha bir görkəmli alimimiz İlham Rəhimli incəsənətin qeyri-səlis məntiqi izahını verdi və bu əsər Rafiq Əliyev tərəfindən yüksək qiymətləndirildi. Rafiq müəllimin bu qədər geniş və təmiz qəlbli olması, onun yüksək əxlaqından xəbər verir.

İnsanlara dəyər verməyin necə gözəl, ali bir hiss olduğunu təlqin etmək də əsl müəllimə xas olan bir xüsusiyyətdir. Rafiq müəllimi tanıdıqca, onun məhz sadə, alicənab bir insan olduğunu anlayıram. Təəssüf ki, bacarıqlı insanlarımız, özbaşına, dar düşüncəli, pulun və vəzifənin əsiri olan məmurların haqsızlıqları ilə tez-tez qarşılaşırlar. Yenə də elm aləminin güclü insanları insanı ümidsizlikdən xilas etməyi bacarır. Görkəmli alimimiz Rafiq Əliyevin öz vətəni Azərbaycan üçün daha çox faydalı ola biləcəyi halda, ona qarşı yaradılan məmur maneəsi də məni çox üzür. Amma bütün hallarda Rafiq müəllim, elmə yaxın olan, ondan faydalanmağa çalışan hər kəs üçün fədakar alim və gözəl müəllimdir. Bu yazımda da məhz Rafiq müəllimin düşüncələrindən, elmi qənaətlərindən faydalanmaq istəyirəm. İyirmi ildən çoxdur ki, orta məktəbdə müəllim işləyirəm. Bu illər ərzində, müəllim kimi, uşaqların davranışında, onların qiymtləndirilməsində cavabını bilməyə çalışdığım suallara, eyni zamanda qərar verməkdə çətinlik çəkdiyim məqamlara məhz qeyri-səlis məntiqin köməyi ilə cavab tapmağa çalışmışam.

Əslində hər bir insanın ona məxsus təqdiri, qiymətləndirilməsi vardır. İstər uşaq olsun, istərsə də böyük. İnsanlara önəm vermək, biliyinə hörmət etmək, daha çox şey öyrənməsinə təkan vermək və şərait yaratmaq deyərdim ki, ən böyük yaxşılıq və xeyirxahlıqdır.

***"Allah insanı Pareto optimal yaradır: kimə, nəyi, nə qədər" – Rafiq Əliyev.***

Hər hansı bir insanı dəyərləndirdikdə, mütləq mənada onun yaxşı və ya pis olduğunu demək çətin olur. Çünki Tanrı insanlara bütün hisslərdən verib, odur ki, pis saydığımız insanda da bəzən yaxşı xüsusiyyətlər görmək istəyirsən və bəzi hallarda bunu görmək mümkündür. Ona görə də mütləq mənada yaxşı, mütləq mənada pis insan da yoxdur. Amma müəyyən pis vərdişlərə yiyələnmiş, şəxsi maraqlarının ardınca gedən və gedilməyə təhrik edilən insanlar, hətta toplumlar (ermənilər kimi) vardır.

İlk dəfə "tolerantlıq" sözünü Rafiq müəllimdən eşitmişdim və bu söz haqqında araşdırma apardım. İnsanın davranışında, münasibətində tolerant olmağı çox önəmlidir, lakin onu da bilmək lazımdır ki, tolerantlıq heç də prinsipiallıqdan, obyektivlikdən uzaq olmaq deyildir. Əksinə davranışda, ünsiyyətdə yüksək mədəniyyət, ziyalılıq göstərməkdir. Mütləq mənada hər şeyi bilən müəllim yoxdur, nə də ki, mütləq mənada heç nə bilməyən. (Əlbəttə ki, ali təhsili olmadan diplom alanlar xaric). Çox zaman dərs prosesində bilik köməkçi vasitəyə çevrilir, əlbəttə ki, bunu bacaran müəllim üçün. Şagirdə çox deyil, lazım olan informasiyanı vermək, ona lazım olanı müəyyən edib bələdçilik etmək əsasdır. Müəllimin bu qabiliyyətini isə heç bir imtahan müəyyən edə bilmir. Çünki bu da illərin təcrübəsi ilə əldə edilir. Müəllim işləmək istəyən şəxsə imkan yaratmaq, onun biliyinə və işləmək hüququna hörmətlə yanaşmaq lazımdır. Əlbəttə ki, bu hal tək müəllimlərə deyil, bütün peşə sahiblərinə aiddir. İnsanların, öz bacarıqlarını göstərmək və minimum həyat şəraitini təmin etmək üçün işləməyə haqqı vardır. İnsanlar daim bir-birindən öyrənirlər, uşaq müəllimdən öyrəndiyi kimi, müəllim də uşaqlardan öyrənir. Çünki birmənalı və ya mütləq şəkildə öyrətmək yoxdur. İnsan öyrədərək öyrənir.

Hörmətli professorumuz Rafiq Əliyevlə bağlı mətbuatda yazılan müsahibələri həmişə maraqla oxumuşam. Onun, cəmiyyətimizin bir çox sahələri ilə bağlı məsələlərə qeyri-səlis məntiqi yanaşmaları da diqqətimi cəlb edib. Gəldiyi elmi nəticələri, qənaətləri o qədər sadə və anlaşıqlı izah edir ki, bu nəticələrin hansı sahələrə tətbiq olunacağını aydın görə bilirsən. Həm iqtisadiyyatın, həm səhiyyənin, həm də təhsilin qiymətləndirilməsində, nəticələrin dəyərləndirilməsində bu qənaətlər çox əhəmiyyətlidir. Rafiq müəllimin elmi nəticələri Almaniya, ABŞ, İran və başqa ölkələrin mütəxəssisləri tərəfindən istifadə olunsa da, təəssüf ki, bizim ölkəmizdə belə bir insanın, istedadlı alimin nailiyyətləri tətbiq olunmur.

**Mehparə Rəhimqızı,**
**müəllimə.**
**Mingəçevir şəhəri.**

## LÜTFİ ZADƏNİN TAMAMLANMAMIŞ SON ELMİ NƏZƏRİYYƏSİ VƏ İLK KİTABI

Bu dəfə Lütfi Zadənin üzərində işlədiyi son elmi nəzəriyyə və kitab haqqında danışacağıq. Maraqlısı budur ki, həm nəzəriyyə, həm də kitab dünyada tanınan bir başqa həmyerlimiz, professor Rafiq Əliyevlə birgə hazırlanırdı.

Əvvəlcə nəzəriyyə haqda. Zadənin üzərində işlədiyi son elmi nəzəriyyə "U-ədədləri nəzəriyyəsi" idi. Ömrünün son illərində Zadə özü bu nəzəriyyə istiqamətində işləmək üçün həmyerlimiz və elmi irsinin varisi Rafiq Əliyevə müraciət edib. Rafiq müəllim o zaman bu sətirlərin müəllifinə Lütfi Zadənin ona etdiyi təklif və "U-ədədlər nəzəriyyəsi"nin mahiyyəti haqqında danışmışdı: "Zadə bir neçə ay bundan əvvəl mənə mesaj göndərib. Yazıb ki, əzizim Rafiq, sən "Z-ədədlər" nəzəriyyəsini yaratdın, daha sonra birlikdə çap etdik. İndi də "U-ədədlər" nəzəriyyəsi ilə məşğul olaq. Bu nəzəriyyənin mahiyyəti odur ki, insan həyatında çox hadisələr təkrarlanır. Qərar qəbuletmə zamanı tez-tez təkrar olunan hadisələrin nəticələrini hesablamaq və ondan qeyri-səlis məntiqə uyğun daha dəqiq nəticələr çıxarmaq bu nəzəriyyənin əsas mahiyyətidir. Son olaraq Avstriyada dünyada ilk dəfə olaraq bu nəzəriyyə barəsində elmi məruzəm oldu".

Diqqəti yuxarıdakı abzasda adıçəkilən "Z-ədədlər nəzəriyyəsi"nə yönəldək. Çünki bu nəzəriyyə dahi Zadənin elmi fəaliyyətində tam olaraq başa çatdırdığı və Rafiq Əliyevlə birlikdə kitab şəklində çap olunan bəlkə də, sonuncu elmi işidir. Nəzəriyyə tam hasilə gələndən sonra dünyanın məşhur "World Scientific" elmi nəşriyyatı tərəfindən çap edildi. Azsaylı alimin yaxın düşə bildiyi mötəbər nəşriyyat professor Lütfi Zadənin və Rafiq Əliyevin birgə yazdıqları "The Arithmetic of Z-number, Theory and Application" (Z-ədədləri hesabı, nəzəriyyə və tətbiq) irihəcmli kitabını məmnuniyyətlə nəşr etdi.

Bu nəzəriyyənin əsas qayəsi klassik ədədlər hesabından və nəzəriyyəsindən köklü surətdə fərqlənir, elmdə yeni bir istiqamət açır. Bu, elm sahəsində ilk kitabdır, tam orijinaldır və müəlliflərin öz ideya və elmi araşdırmalarını əhatə edir.

Rafiq Əliyev yeni hesab kitab barəsində bunları qeyd edib:

"Elmin əsas məqsədi istər təbiətdə, istərsə də cəmiyyətdə baş verən proseslərin, hadisələrin daha adekvat, daha dürüst modelinin, inikasının yaradılmasıdır. Elmi nəzəriyyələr belə modellər (ola bilər riyazi simvollar, ola bilər verbal, yəni sözlərlə təsvir olunsun) üzərində qurulur. O nəzəriyyə daha dürüst, daha səmərəli sayılır ki, real həyat hadisələrinin qeyri-müəyyənliyini daha ətraflı və daha dərin nəzərə ala bilsin.

Bu baxımdan informasiya daşıyıcısı olan ədədlər 2 qismə bölünür: klassik ədədlər və qeyri-müəyyən ədədlər. Elə buna görə də dünya elmində 2 cür

hesab var: klassik hesab, qeyri-müəyyənliklər hesabı. Əfsus ki, Azərbaycan universitetlərində və bütövlükdə ölkə elmimizdə ancaq klassik hesab və analiz öyrənilir və istifadə olunur.

Biz bu kitabda informasiya daşıyıcısı kimi ədədlərin təsnifatını vermişik: klassik ədədlər (0-cı səviyyə, məsələn, 1,9-17); interval ədədlər (1-ci səviyyə, məsələn, hərarət 20-dən 25-dək); təsadüfi ədəd (2-ci səviyyə, məsələn, kişilərin boyu 1m 75 sm ətrafında normal paylanır); qeyri-səlis ədəd (2-ci səviyyə, məsələn onun mənəvi çəkisi "çox böyükdür"); nəhayət, Z-ədədlər (3-cü səviyyə, məsələn dünya bazarında xam neftin qiyməti "kiçik olacaq, inam böyükdür"). Biz kitabda 1-ci və 2-ci səviyyə hesabları haqqında informasiya versək də əsas vurğu 3-cü tip ədədlər hesabına və bütövlükdə riyaziyyatına həsr olunub".

Bir az sadə dildə desək, Z-ədəd 2 hissədən ibarət sözlə təsvir olunmuş bir ədəddir. Birinci hissə, qeyri-səlis ədəd dəyişənin, parametrin öz qiymətini göstərir, ikinci hissə, bu qiymətin etibarlılıq dərəcəsini qeyri-səlis ədəd kimi təsvir edir. Kitabda Lütfi Zadənin yazdığı fəsildən bir misal gətirmək istəyirəm. Hansı ədəd daha böyükdür: (təxminən 100, həqiqidir), ya (təxminən 90, çox həqiqidir). Məsələn, jurnalistdən soruşurlar ki, qonorar bu 2 ədədlə xarakterizə olunur. Hansını seçərsiniz?

Təklif olunan nəzəriyyəsinin əsas tətbiq sahəsi sözlə hesablama texnologiyası olacaq.

Kitab Z-ədədlər hesabı adlansa da, Z-riyaziyyatının əsas elementlərini əhatə edir. Z-ədədlərin əsas xassələri, onlar üzərində hesab əməlləri, Z-ədədlərinin cəbri sistemi, o cümlədən tipik Z-funksiyalar, onların törəmələri, Z-tənliklər və s. kitabda öz əksini tapıb. Kitabın son 2 fəsli Z-hesabın əməliyyatların tədqiqi problemlərində və bir sıra biznes, iqtisadi qərar qəbuletmə problemlərinin həllində tətbiqini ehtiva edir. Düşünürəm ki, kitabda əksini tapmış nəzəri ideyalar və praktiki araşdırmalar yeni texnologiyaların yaranmasına və inkişafına təkan verəcək".

Lütfi Zadə ömrü boyu ən mürəkkəb elmi nəzəriyyələri də özü kitablaşdırmayıb. O, hər nəzəriyyə haqqında məqalə yazar, onların vasitəsilə ideyalar verərdi. Daha sonra həmin məqalə yüzlərlə kitabın yazılmasına səbəb olardı. Amma təəssüf ki, hər zaman məqalələrə üstünlük verən Lütfi Zadə ömründə ilk dəfə olaraq, özünün yazmaq və qismən də həyatını əks etdirmək istədiyi kitabın çapını görmədi. Yəni, kitab yaxın gələcəkdə çap olunsa da belə, yenə də Lütfi Zadə üçün yarımçıq iş sayılır. Amma nə yaxşı ki, Zadə bunu varisi Rafiq Əliyevlə birlikdə edirdi. Ona görə də, tezliklə bu kitabın da çapını görəcəyik.

Kitab qeyri-səlis məntiq nəzəriyyəsinə aid ikihissəli toplu olması düşünülmüşdü. Birinci hissəsi Rafiq Əliyevlə Lütfi Zadənin özü tərəfindən yazılıb və qeyri-səlis məntiq nəzəriyyəsinin yaranma tarixi, metodologiyası, tətbiq sahələri, yeni perspektivləri barədədir. İkinci hissədə isə qeyri-səlis məntiqin tətbiq olunduğu hər elm sahəsinin bir mütəxəssisinin məqaləsi yer alacaqdı.

Məsələn, qeyri-səlis məntiq nəzəriyyəsi fizikada tətbiq olunub. Bu tətbiqi ən yaxşı həyata keçirən fizikin məqaləsi kitaba daxil ediləcəkdi. O cümlədən, kimya, tibb, iqtisadiyyat və s.

Sonda haşiyəyə çıxaraq Lütfi Zadənin Rafiq Əliyevi qeyri-səlis məntiqin ən güclü nümayandələrindən biri kimi dəyərləndirdiyi fikirləri diqqətinizə çatdırırıq:

"Professor Rafiq Əliyevin qeyri-səlis məntiqə əsaslanan iqtisaqiyyatda qərarların qəbulu sahəsində yeni elmi istiqamət açan işini xüsusi qeyd etmək istərdim. Tezliklə onun işi başa düşüləcək və şübhəsiz ki, iqtisadi nəzəriyyəyə mühüm təsir göstərəcəkdir".

**Elmin Nuri,**
**jurnalist**
30.09.2017

## LÜTFİ ZADƏ, RAFİQ ƏLİYEV VƏ BİZ

Dünyada öz nəzəriyyələri ilə elmi inqilab yaratmış, dünya elmində böyük qiymət qazanan və bir çox sahələrində günümüzdə geniş istifadə olunan nəzəriyyələri olan şəxsiyyətlərdən yazmaq böyük məsuliyyət tələb edir.

Bu yazıda məqsədimiz daha çox onları tanımağa səy göstərməkdir...

Hər bir azərbaycanlı kimi, nə qədər alimlərimizlə bağlı fərəhlənsəm də, hər dəfə daha çox ovqatım kədərlənməyə meyilli olur. Çox böyük təəssüflə qeyd etməliyəm ki, əksər insanımız bir ad olaraq Lütfi Zadə ilə tanışdır. Bu tanışlıq yenə də ad olaraq qalmaqda davam edir və bu ad olmaqdan yuxarı mərhələyə yüksələ bilmir. Həm də axı Lütfi Zadə Azərbaycanda yaşamasa da adı bizə məxsus olduğu üçün, biz hələ də onun adını çəkib fərəh hissi keçirməklə kifayətlənirik.

Elon Musk, Mark Zukerburq, Bill Qeyts, Stiv Cobs və s. qədər tanıdığımız qədər tanıya bilməməşik rəhmətlik Lütfi Zadəni, yaşamaqda olan ziyalı Rafiq Əliyevimizi...

Suni intellektin dünyada qızğın mübarizələrinin getdiyi bir vaxtda, dünyada bu sahə üzrə xüsusi mütəxəssis olacaq şəxslərin siyahısında Rafiq Əliyevin olmasının nə demək olduğunu anlamaq bizi vadar edir düçünək: biz elmdən küsmüşük, ya elm bizdən küsüb?!

Süni intellekt bu dünyada yeni eranın adı olacaq. Artıq neftə deyil, süni intellektə ən çox sahib olan sistemlər dünyada öz sözünü deyəcək.

Lütfi Zadəni biz görmədik, dünya bu cövhərdən istifadə edərək inkişaf etdi, böyük nailiyyətlərə imza atdı. Biz sadəcə adını andıq və sonda da Tanrıdan rəhmət diləməklə Lütfi Zadə ilə vidalaşdıq.

Bu irsin davamçısı olan dəyərli Rafiq Əliyev – Allah ömrünü uzun etsin – bizə Lütfi Zadə qədər uzaq deyil, Bakıdadır. O, bizimlə birlikdə yaşayır. Ancaq nə edək ki, ruhumuz çox uzaqdır Rafiq Əliyevdən...

Dünya bu gün yenə də onun elminin bərəkətindən istifadə edir. Biz isə maraqla izləyib tərif deyirik. Dilimizdə bir dənə də olsun Rafiq Əliyevin nə praktikada istifadə olunan nəzəriyyəsi, nə də kitabına rast gələ bilməzsiniz. Ancaq bəli, xaricə baxsaq, Rafiq Əliyevin 70-dən çox kitabının olduğunun şahidi olarıq...

Sanki bizimlə olan, ancaq bizdən olmayan bir şəxsiyyətdir Rafiq Əliyev...

Yaxşı və ləyaqətli yaşamağın minimal olduğu bir cəmiyyətdə Rafiq Əliyev Tanrıya möhkəm inancı, ləyaqətini hər şeydən üstün tutması, böyük səy və zəhmətkeşliyi ilə elmə öz töhfəsini verməyi bacarmışdır...

Lütfi Zadə, Rafiq Əliyev və bizim uzaqlığımız arasındakı məsafəni ölçmək belə olmur... Bizlər bu məsafələri aşmayınca, hər an onlardan daha da uzaqlaşırıq. Onlardan uzaqlşadıqca da elmdən, tərəqqidən uzaqlaşırıq. Elmdən, mənəviyyatdan, tərəqqidən uzaqlaşdıqca da özümüzdən uzaqlaşıb, çox qeyri-müəyyən bir xətlə hərəkət edirik...

Gəlin çox uzaqlaşmayaq...

**Süleyman Rüstəmov,**
**«Dəyərlər»in oxucusu**

## LÜTFİ ZADƏ: «RAFİQ ƏLİYEV «NOBEL» MÜKAFATI ALA BİLƏR»

Professor Rafiq Əliyevin Azərbaycan Dövlət Neft Akademiyasında kafedra müdiri vəzifəsindən kənarlaşdırılmasına onun yaxın dostu, Kaliforniyadakı Berkeley Universitetinin professoru Lütfi Zadədən münasibət öyrənməyə çalışdıq:

«NƏ BAŞ VERİB?»

*– Bu günlərdə professor Rafiq Əliyevi vəzifəsindən kənarlaşdırıblar.*

– Mən bu barədə eşitdim. Amma xəbərin həqiqət olub-olmadığını bilmədim. Tanışlarıma e-mail göndərdim aydınlaşdırım ki, deyilənlər həqiqətdir, ya sadəcə hansısa söz-söhbət.

*– Eşitdikləriniz həqiqətdir. Bu, artıq təsdiqlənib.*

– Nə baş verib? Mənə izah edə bilərsinizmi niyə belə olub? Mənim üçün Rafiq Əliyev çox görkəmli bir alimdir. Ola bilsin ki, o, «Nobel» mükafatı alacaq. Düşündüm yəqin onun işdən çıxarılması şayiə olar. Deməli, gerçək imiş. İşdən çıxardıblarsa, bəs indi o nə edəcək?

«O, «NOBEL» MÜKAFATI ALA BİLƏR»

*– Rafiq Əliyev tez-tez öz çıxışlarında ölkədə korrupsiya, insan hüquqlarının pozulması hallarından danışır. Belə fikirlər var ki, onu işdən bu cür mövqeyinə görə kənarlaşdırıblar.*

– Bilmirəm. Buradan mənə çətindir bütün bunların səbəbini anlamaq. Bəli, mən eşitmişəm ki, o, hakimiyyəti tənqid edir. Amma mənim onunla istər telefon söhbətlərimdə, istərsə də hərdən görüşdüyümüz konfranslarda o, heç vaxt hakimiyyəti tənqid etməyib. Ona görə də, bu tənqidin mahiyyətinin nədən ibarət olmasını anlaya bilmirəm. Deyə biləcəyim odur ki, Rafiq Əliyev Azərbaycanda yox, bütün dünyada ən görkəmli alimlərdən biridir. Və o, «Nobel» mükafatı ala bilər.

*– Bax, belə bir alimi vəzifəsindən kənarlaşdırmaq Sizcə, nə dərəcədə ədalətlidir?*

– Mən artıq sizə demiş olduğumu bir də təkrar edirəm: Rafiq Əliyev dünyanın ən görkəmli alimlərindən biridir. Amma o, hakimiyyəti tənqid edir, yaxud etmir, mən bilmirəm…

*– Yaxşı, tənqidi bir kənara qoyaq. Ümumiyyətlə, Siz dünya səviyyəli bir alimin vəzifəsindən bu cür kənarlaşdırılmasına dünyanın harasındasa rast gəlmisinizmi?*

– Təkrar edirəm ki, mən sizin ölkə barədə öz fikrimi söyləyə bilmək üçün çox uzaqdayam. Amma Rafiq Əliyevi özümün yaxın dostum hesab edirəm. Mən onu uzun illərdir tanıyıram. Mən onun işləri ilə 30 ildən artıqdır tanışam. Odur ki, onun işdən çıxarılması xəbəri mənim üçün gözlənilməz oldu. Sadəcə, inana bilmədim.

**modern.az**

# Təbriklər

## ŞƏR DEMƏSƏN XEYİR GƏLMƏZ

Doğrusu, əziz dostum Rafiq Əliyev haqqında çoxdan yazmaq istəyirdim. Və özümə qalsaydı, bəlkə də bu yazını ləngidə-ləngidə gələn ilin fevralına, onun 70 illiyinə ancaq çatdıracaqdım. Və bu yazı təkcə bir dost sözü yox, həm də bir vicdan borcudur.

Böyük rus yazıçısı Qoqolun dahi rus şairi Puşkin haqqında bir maraqlı fikri var. Hələ XIX əsrin əvvəlində, Puşkinin sağlığında Qoqol yazırdı: "Puşkin inkişafda olan rus adamıdır, hansı ki, bəlkə iki yüz ildən sonra peyda olacaq".

Məncə, Rafiq Əliyev də məhz bu cür inkişafda olan Azərbaycan adamıdır, hansı ki, xoşbəxtlikdən iki yüz il bundan sonra yox, bu gün peyda olub.

Kimin xoşbəxtliyindən?

Əlbəttə ki, bu millətin, bu dövlətin xoşbəxtliyindən!

Yeri gəlmişkən, mən Rafiq müəllim kimi hər addımda etikanı gözləyən, içdən gələn çox dərin mədəniyyətə, əxlaqa və tərbiyəyə sahib olan az adam tanıyıram. Onun adamlarla rəftarında ağlagəlməz sadəliyini, hörmətcilliyini, diqqətcilliyini mən yalnız rəhmətlik Əbülfəz Elçibəylə müqayisə edə bilərəm.

Qədim Dao fəlsəfəsində deyilir: "Dəniz ona görə bütün çayların və arxların hakimidir ki, onların hamısından aşağıda yerləşir".

Doğrudan da, dəniz onlardan yuxarıda yerləşsəydi, çaylar və arxlar dənizə necə axardı?

Bu günəcən dərs dediyi tələbələrin, elmi rəhbəri olduğu alimlərin heç birindən zərrəcə özünü yuxarı tutmayan Rafiq müəllim də, əslində, dəniz kimidir. Amma bu dənizin haçansa coşub dalğalandığını, Rafiq müəllimin bir dəfə də olsun təmkinini pozub səsini qaldırdığını görən olubmu? Özün qarabağlı olasan və bir dəfə də səsini qaldırmayasan. Bu da onun bir bənzərsizliyidir.

Son vaxtlar Rafiq Əliyevlə bağlı qəzetlərdə gedən bir çox yazılarda həm də onun böyük və çoxşaxəli elmi fəaliyyətindən, xüsusən də, çoxlarının adını eşidib mahiyyətini çətin anladığı "qeyri-səlis məntiq"dən danışırlar. Bu yazımın əvvəlində misal çəkdiyim atalar sözünü də, bəlkə hansı mənadasa qeyri-səlis məntiqin ifadəsi saymaq olar: "Şər deməsən xeyir gəlməz".

Bəli, "hə" heç də həmişə təsdiqi, "yox" isə heç də həmişə inkarı bildirmir. Uzun illərdir ki, alimlərə və yazıçılara Nobel mükafatı verilərkən, onların elmi və ədəbi fəaliyyətləri ilə yanaşı, siyasi motivlərin də ciddi rol oynadığı məlumdur. Və bəlkə də, Rafiq Əliyev üçün hazırlanan Nobel medalına bir çəkici də Azərbaycan hakimiyyəti vurdu...

**Ramiz Rövşən**

## ГЛУБОКОУВАЖАЕМЫЙ РАФИК АЗИЗОВИЧ!

От имени Российской ассоциации нечетких систем и мягких вычислений и от себя лично мы хотим поздравить Вас, крупного ученого с мировой известностью, выдающегося организатора науки и талантливого педагога, профессора, члена-корреспондента Национальной академии наук Азербайджана, многолетнего заведующего кафедрой «Автоматизация производственных процессов» Азербайджанской государственной нефтяной академии, почетного профессора Университета штата Джорджия в Атланте (США), Зигенского университета (Германия) и Тебризского университета (Иран), директора программ MBA и BBA Университета штата Джорджия, почетного члена Научного совета Российской ассоциации нечетких систем и мягких вычислений, президента Международной ассоциации «Наследие Л.Заде и искусственный интеллект» с Вашим замечательным юбилеем!

Мы высоко ценим Вашу многогранную научную, научноорганизационную и научно-педагогическую деятельность в области теории управления, прикладных интеллектуальных систем, нечеткой логики и мягких вычислений. Будучи автором нескольких десятков книг и более 300 статей по проблемам искусственного интеллекта, нечетким системам и мягким вычислениям на русском, английском, азербайджанском языках, Вы внесли значительный вклад в развитие науки в этих областях, а также в пропаганду идей «Отца нечеткой логики» Лотфи Заде во всем мире.

Вы создали авторитетную международную научную школу, подготовив более 140 кандидатов наук и 30 докторов наук в Азербайджане, России, Германии, Иране.

Нельзя не восхищаться Вашими усилиями по организации и проведению крупных международных форумов, способствующих установлению тесных контактов и полезному обмену идеями между учеными из разных стран. Начиная с 1994-го года, под Вашим руководством в различных странах Европы проводятся международные научные конференции, ICAFS, посвященные применениям нечётких систем и мягких вычислений. С 2001-го года в городе Анталья (Турция) по Вашей инициативе проходят Международные конференции «Мягкие вычисления, вычисления со словами и перцепциями в системном анализе, принятии решений и управлении». Вы также являетесь председателем и членом программных комитетов многих других международных научных мероприятий, в том числе традиционных международных конференций по интегрированным интеллектуальным системам и мягким вычислениям, проводимых в России.

Вашему перу принадлежат фундаментальные монографии на английском языке «Fuzzy Process Control and Knowledge Engineering», «Fuzzy

Sets Theory and Its Applications», «Soft Computing», «Soft Computing and Its Application», «Decision Making with Second Order Information Granules» и др. Под Вашей редакцией на английском языке вышли в свет более двух десятков крупных сборников трудов международных конференций.

В то же время, нам хотелось бы с особой признательностью вспомнить серию Ваших замечательных книг на русском языке как советской эпохи («Принцип инвариантности и его применение для проектирования промышленных системах управления»,1985г.; «Методы и алгоритмы координации в промышленных системах управления»,1987; «Методы интеграции в системах управления производством», 1989г., «Производственные системы с искусственным интеллектом», 1990г.; «Управление производством при нечеткой исходной информации», 1991г.), так и современного периода («Интеллектуальные роботы с нечеткими базами знаний», 1995г.; «Принципы принятия решений и управления в условиях неопределенности», 1999г.; «Основы информатики», 2004г., «Теория автоматического управления», 2007г.; «Интеллектуальные роботы и информационные устройства роботов», 2010 г.), на которых учились и будут учиться разные поколения студентов, аспирантов и специалистов.

В этом плане Вы внесли и вносите неоценимый вклад в сохранение того обширного интеллектуального пространства, которое определяется нашими давними научными связями и совместными инженерными достижениями, в современную постсоветскую эпоху - такую нелегкую для многих российских и русскоязычных ученых.

Особое место здесь занимает Ваше капитальное учебное пособие «Теория интеллектуальных систем» - один из лучших учебников по мягким вычислениям и гибридным интеллектуальным системам, когда-либо изданных на русском языке.

Мы с глубоким удовлетворением приняли недавнее известие о признании Вас «Человеком 2011-го года» в Азербайджане.

Еще раз примите наши самые искренние поздравления и самые теплые пожелания. Здоровья, счастья, удачи, новых научных свершений Вам.

**С Юбилеем!**

**Президент Российской ассоциации нечетких систем и мягких вычислений, профессор С.М.Ковалев; Вице-президент РАНСМВ, профессор А.Н.Аверкин; Вице-президент РАНСМВ, Член научного совета Российской ассоциации искусственного интеллекта, профессор В.Б.Тарасов**

## MƏLƏKLƏR BİLSƏYDİ...

**Vicdan, yoxsa düşüncə nəhəngi?**

**Bəşərin iftixar mənbəyi, Azərbaycan xalqının vicdan və idrak simvolu professor Rafiq Əliyevin 70 illik yubileyinə ithaf edirəm**

*"Mənim işim vicdanımın məndən tələb etdiyini yerinə yetirməkdir"*

**L.N.Tolstoy**

Məlum olduğu kimi, fevralın 10-da dünya şöhrətli alim, professor Rafiq Əliyevin 70 illik yubileyi tamam oldu. Bütün şüurlu ömrünü elmin tərəqqisinə sərf edən, zaman-zaman yalnız elmi uğurları ilə deyil, həm də cəsarətli çıxışları ilə gündəmə gələn R.Əliyevin elm xadimi kimi böyüklüyü hər kəsə məlumdur. R.Əliyevin dünya elmində əsl inqilaba səbəb olan mülahizələrinin Amerika Birləşmiş Ştatlarından tutmuş Yaponiyaya qədər dünyanın dörd bir yanında böyük şöhrət qazanması və praktiki olaraq tətbiq edilməsi gerçəyi, onun yalnız Azərbaycan və türk dünyası üçün deyil, bütün bəşəriyyət üçün önəmli elm xadimi olduğunu göstərir. Lakin R.Əliyevi digər ziyalılardan fərqləndirən, onu əvəzedilməz edən yeganə nüans yalnız bu deyil. R.Əliyevi Azərbaycan insanına sevdirən, onu hər kəsdən daha uca, daha ali mərtəbəyə qaldıran ən başlıca məqam hörmətli alimin hər bir addımında öz vicdanının səsini dinləməsi, hər bir işdə məhz bu səsə uyğun şəkildə hərəkət etməsidir. Bu gün Azərbaycanda vicdanlı olmaq və öz vicdanın səsini dinləyərək davranmağın intihara bərabər bir addım olduğunu nəzərə alsaq, o zaman R.Əliyevin daxili etirazını bir çoxları kimi içində boğmayaraq, açıq şəkildə dilə gətirməsinin nə qədər cəsarətli və böyük bir addım olduğunu daha aydın dərk etmək mümkündür.

Bəli, R.Əliyev vicdanını öz fəaliyyətinə mayak edərək yaşayan və mübarizə aparan bir ziyalıdır. Ölkə ziyalılarının böyük əksəriyyətinin susmaq və öz vicdanının ziddinə hərəkət etməklə hakimiyyətin rəğbətini qazandığı, öz maddi rifahını məhz bu yolla təmin etdiyi bir zamanda R.Əliyevin demokratiya və insan haqları sahəsindəki acınacaqlı durumla bağlı səsləndirdiyi bəyanatlar, onun bütün fəaliyyətini hakimiyyətə yarınmağa sərf edən dırnaqarası ziyalılardan mənən çox-çox yüksəkdə dayandığını sübut edir. Məhz bu baxımdan R.Əliyevi Azərbaycan xalqının həm vicdan, həm də düşüncə nəhəngi adlandırmaq olar. Hörmətli professoru az da olsa tanıyan, onunla bir kərə də olsun üz-üzə gələn hər bir vicdan sahibi etiraf edər ki, R.Əliyevlə 5 dəqiqə belə olsun söhbət edən hər kəs öz daxili dünyasının nə qədər zənginləşdiyini, qəlbinin və şüurunun işıq və nikbinliklə dolduğunu hiss edir. Yüksək intellekti ilə yanaşı hədsiz səmimiyyəti, humanizmi və qayğıkeşliyi ilə insanların daxili dünyasını

“fəth edən”, hər kəsi onu sevməyə, qəbul etməyə və ömürlük yadında saxlamağa “vadar edən” R.Əliyevin hələ bundan sonra da elmin yeni zirvələri ilə yanaşı, saysız-hesabsız insan qəlblərini də işıq selinə qərq edəcəyi, onlara həyatı və insanlığı sevdirməkdə davam edəcəyi şübhəsizdir.

...Deyirlər ki, Allah insan qövmünü yaradan zaman buna ilk olaraq etiraz edən mələklər olub. İnsanların qan və bədxahlığa olan meylini əsas gətirərək Allahdan insan nəslini yaratmamağı diləyən mələklər, bu yaradılışın yeni fəlakətlərə səbəb olacağını bildirib. İlk insanın meydana gəlməsindən sonra yaşanan olaylar, mələklərin duyduğu qorxu və narahatlığın əslində kifayət qədər əsaslı olduğunu göstərdi. İnsanın fitrəti onun özünün qəniminə çevrildi və insan bütün yer üzünü qırmızıya boyadı. Zaman mələkləri haqlı çıxartdı. Lakin mələklər bilsəydi ki, qəlbində zülmət daşıyan milyonlarla insan arasından hər yüz ildən bir belə, R.Əliyev kimi bircə nəfər işıqlı insan çıxacaq, yəqin ki, bir tək bu işıq naminə öz etirazlarından imtina edər, bunca zülmət və qaranlığa bu işığın sehirli gözəlliyini seyr etmək xətrinə dözərdi. Fəqət mələklər Tanrı deyildi və onlar gələcəkdə baş verəcək hadisələri bunca dəqiqiliklə bilə bilməzdi. Gələcək yalnız Allaha məlum idi və Allah başdan-başa işıqdan ibarət olan insanlar naminə bu gələcəyə “hə” dedi.

**Seymur Əliyev,**
**jurnalist**

## ƏLİYEVİN YANINDA XOŞBƏXT OLMAQ...

Rafiq Əliyevin 70 yaşına yazı yazmaq istəyirəm. Hiss eləyirəm ki, dodaq büzənlər olacaq: "Bu qədər də yox da..."

Məni isə narahat eləyən başqadı; nə yazsam, çox az olacaq. İ-nanın...

İ-nanın... Bu sözü Rafiq müəllim belə deyir. İndi mən də eynən onun durumuna düşmüşəm. Az qalıram, hələ ağzımı açıb onun haqqında nəsə deməmiş, deyəm: "İ-nanın..."

Çünki mən yalnız və yalnız yaxşı sözlər demək istəyirəm. Çünki Rafiq müəllim də əsasən, demək olar, həmişə, hamı haqda yaxşı söz deyir, demək istəyir, amma öz qeyri-səlis məntiqi gəlib durur gözünün qarşısında və sözü xüsusi vurğuyla ayırıb, uzadaraq "i-nanın..." deməklə, əslində, başqalarını yox, özünü inandırmağa, sözün uzunluğunda şübhəni azdırmağa çalışır. O özü bilə-bilə çalışır ki, işıqda qaranlıq, ağda qara olduğunu unutsun.

İnsan təkcə xəzinə yaradıcısı deyil, bəzən özü də xəzinə ola bilir. Onun həyat yolundakı uğurlarını, elmi nailiyyətlərini, kitablarını, fəxri adlarını, vəzifələrini, mükafatlarını sadalamaq bir neçə köşə yazısına gərək olar. Onlar da bir xəzinədi. Lakin sadalananlar Rafiq Əliyevin özünün yanında min bir çalardan bəlkə də biri ola, ya olmaya. Onun 70 yaşı tamam olur. Bu 70 yaşlı xəzinəyə baxıb düşünürəm: Şükür sənə, Tanrım, belə xəzinəni bizə vermisən, bu xəzinəni hələ uzun illər də bu millətə, bəşəriyyətə çox görmə. Demirəm ki, Azərbaycanda dəb olduğu qaydada kimlərinsə ömründən tutub, bizim xəzinəyə cala. Yox, sadəcə, ona özünü tam olaraq insanlığa verməsinə zaman ver.

Azərbaycan xalqı böyük bədbəxtliklər içindədi. Qarabağ dərdi var. Ancaq təkcə Rafiq Əliyev kimi bir xəzinəyə sahib olmaq bu dərdlərin hamısının bədəlidi. Bu xoşbəxtlik o bədbəxtliklərdən daha böyükdü. Çünki Rafiq Əliyev xəzinəsindən yararlanılsa, bütün bu dərdlərdən qurtulmaq olar. Sadəcə, istəmək gərək. Xəzinənin qədrini bilmək və ondan yararlanmaq!

Deyirlər, Tanrı hər xalqa özünə bab hakimiyyət verir. Bu deyim, adamı allahın evinə, yəni öz ürəyinəcən yandırır, ruhdan salır. Amma bəs niyə demirlər ki, Tanrı hər xalqa özünə layiq alim verir? Niyə demirlər? Niyə söz deyən müdriklərin də fikri-zikri həmişə padşahlarda olub? Məgər alim desəydilər, dünyamı dağılardı? Heç deməsinlər. Özüm deyirəm! Və Rafiq Əliyevin sayəsində bu kəlməylə xalqıma sevgimi, inamımı, ümidimi artırıram. Birinci deyimdən bədbəxt olmaqdansa, ikinci deyimdən xoşbəxt olmağı yey tuturam. Padşahlar gəldi-gedərdi, Elm-ürfan zamansız.

...Bir dəfə klinik ölüm deyilən duruma düşdüm. Sərhəddən o üzdə məni qarşılayıb Tanrıya doğru aparmağa başladılar. Onun sevgi dolu işıqlı üzünü bu andakı kimi xatırlayıram. Xatırlayıram yox, O özü imkan düşəndən-düşənə Özünü mənə xatırladır: telefonum zəng çalır, Rafiq Əliyevin səsini eşidirəm, o məni hansısa tədbirinə dəvət edir, mən harada, hansı vəziyyətdə olmağımdan

asılı olmayaraq o tədbirə uçuram... və o İşığı bir də görürəm. Desəm ki, bu dünyada ondan çox görmək istədiyim biri yoxdu... İ-nanın!

Uzun zaman ədəbiyyat-incəsənət Ziqmund Freydin bilincaltıyla nəfəs aldı. Çağımız postmodernizmin quru-sxematik və yayğın nəzəriyyəsinin üstündə. Postmodernizm mənimçün "post" sözündən sonra gələn hissəsindən başqa heç nəyi ilə zərrəcə maraqlı deyil. Halbuki, yaradıcılıq üçün Freydin nəzəriyyəsindən daha qiymətli bir yanaşma var – iki həmvətənimizin qeyri-səlis məntiqi! Sevinirəm ki, binadan, hələ bu məntiq haqda heç nə bilmədən onun prinsiplərilə yazmışam, qismət olsa, yazacam da. Bundan belə daha aydın, daha sistemli.

Xəzinəmizin 70 yaşı tamam olur. Görəsən 70 dəfə xoşbəxt olan biri varmı ki, 1 yaşından 70 yaşınacan hər günündə onun yanında olsun? Var. O, Azərbaycandı! Təkcə elə buna görə Azərbaycanın bir parçası olmağa dəyər.

İ-nanın...

**Pərviz,**
**jurnalist**
10.02.2012

## ÇOX SEVİNİRƏM Kİ, BU GÜN AZƏRBAYCANDA RAFİQ ƏLİYEV KİMİ İNSAN VAR

Artıq elə bir yaşa çatmışam ki, insanlara onların danışdıqlarının, düşündüklərinin və əməllərinin vəhdətinə nəzərən qiymət verirəm. Bu mənada mənim üçün ideal insan Rafiq müəllimdir. Onun əməli, düşüncəsi, sözü hər zaman bir-birinə uyğun gəlib. Onun bütün fəaliyyəti, elmi yaradıcılığı orqanikdir. Çox sevinirəm ki, bu gün Azərbaycanda belə bir insan var. Çoxları o insana elə mənim kimi sevgi-məhəbbətlə baxır. Rafiq müəllimə cansağlığı arzulayıram. Ümid edirəm ki, o, bütün düşündüklərini həm elmdə, həm həyatda həyata keçirəcək...

**Ramiz Həsənoğlu,**
**Xalq artisti, rejissor**

## RAFİQ ƏLİYEV SEÇİLMİŞLƏRDƏN BİRİDİR

Bulağın yer üzündə məkanına, zamanına, yeraltı suxurlardan yerüstü görüntüyə qovuşmaq üçün çəkdiyi əzabın ölçüsü nə qədərdisə, sıradan adamın "seçilmişliyə" gedən yolu da bir bu qədər çiləli olur. Hər millətin gizli bilgilərinin gizli də daşıyıcıları var. Ünlü astroloq, həkim, öncəgörmələri ilə dünya şöhrəti qazanmış Nostrodamusa həsr olunan əsərlərdə yəhudi gizli bilgisinin ona verildiyi yazılmaqdadır. Nə mutlu gizli bilgiləri olan millətlərə və bu bilgiləri estafet ağacı kimi gələcəyə ötürə bilən adamlara!

Şübhəsiz ki, bu günlərdə 75 illiyini qeyd etdiyimiz Rafiq Əliyev millətimizin gizli bilgilərini daşıyan, seçilmişlərindən biridir və onu – böyük alimi, böyük dostu canı könüldən təbrik edirəm.

**Məmməd İsmayıl,**
**şair**

## O, ALLAHA VƏ XALQINA XİDMƏT EDİR...

Böyük rus fiziki Nobel mükafatı laureatı Pyotr Kapitsa Ernest Rezerfordun laboratoriyasında işləyib. Aydındır ki, onun Nobelə layiq görülməsində bu laboratoriyanın müstəsna rolu olub. Ancaq bununla yanaşı Kapitsa Rezerfordun toxunduğu bir maraqlı problemi həmişə xatırlayırmış. Bu, alimin mənəvi məsuliyyəti ilə bağlıdır: "Alim eyni zamanda Allaha və sərvət allahına xidmət edə bilməz".

Kapitsanın Kanadanın Mak Qilla Universitetində oxuduğu mühazirə ilə tanış olmamış da söyləmək olardı ki, bizim ölkədə də eyni zamanda Allaha və sərvət allahına xidmət etməyən böyük alimlər olub və var. Bunlardan biri də professor Rafiq Əliyevdir. Rezerfordla Kapitsanın alimin mənəvi məsuliyyəti ilə bağlı söhbətlərinə bənzər söhbətlər Lütfi Zadə ilə Rafiq Əliyev arasında da olub. Bu barədə Rafiq müəllimin söhbətlərini eşitmişəm. Rafiq müəllim çox işıqlı şəxsiyyət olduğundan elə bilirəm ki, onu məktəb yaşlı uşaqlardan tutmuş yaşlı insanlara qədər hamı tanıyır. Bu, elmin və mənəviyyatın işığıdır.

Elm təkcə biliklərin məcmusu deyil, həm də təfəkkürün xüsusi formasıdır. Onun təfəkkürü elminin hesabına xüsusi formaya malikdir. Onunla söhbətdən insan doymur, yorulmur. Onun müsahibəsini, yazısını oxuyan, söhbətini dinləyən hər bir kəs sözün əsl mənasında böyük alimin kim olduğunu dərhal anlayır.

Böyük ingilis filosofu və riyaziyyatçısı Bertran Rasseldən soruşurlar ki, kimi əsl centlmen hesab etmək olar. Məşhur britaniyalı deyir: "Centlmen o adamdır ki, onunla ünsiyyətdə hər bir kəs istər-istəməz centlmen olur". Rafiq müəllimin timsalında bunun şahidi olanlar çoxdur.

Ən əsası isə odur ki, bizim Rafiq müəllim alimin mənəvi məsuliyyətini dərk edir: Allaha və xalqına xidmət edir.

75 yaşınızı təbrik edirəm, əziz Rafiq müəllim.

**Etibar Əliyev**

# ÇOX XOŞBƏXTİK Kİ, RAFİQ ƏLİYEVLƏ BİR ZAMANI BÖLÜŞÜRÜK

Dünyaya gəlmək insanın istəyi, seçimi ilə olmur. Məkan, zaman, səni seçənlər səni seçir. Bu insanların içərisində xüsusi dəvətlilər, sifarişlilər var. Dünya elminə nəzəriyyələr verən, Azərbaycan elmini dünyada tanıdan, dünyanın nüfuzlu universitetlərində dərs deyən, seçilmiş professor Rafiq Əliyev belə nadir dəvətlilərdəndir.

Rafiq müəllim insanlıq etalonudur. Davranışıyla. Nümunəsiylə. Hər şeydə yaxşını görmək istəyiylə. Xalqına, millətinə, vətəninə, dövlətinə sevgisiylə. İşığıyla ətrafını işıqlandırmaq gücüylə. Əzmiylə.

Olduqca pozitivdir. Onunla bir yerdə olanda, söhbətləşəndə saflaşırsan. Durulursan.

Böyüklüyü sadəlikdə görən Rafiq müəllim insana vətəni, torpağı, yurdu, dostları, tələbələri sevməyi öyrədir.

Bir ziyalı olaraq xalqın ən ağrılı məqamında onun yanında, önündə olur. Fikirlərini bölüşür. Mövqeyini bildirir. Yol göstərir.

Rafiq Əliyev mənəviyyat adamıdı. Əxlaq nümunəsidi.

Millətinə, xalqına, dövlətinə daima şərəf gətirir.

Onu sevənlər arasında düşərgə yoxdur. O çoxdan çoxluğun qəbul etdiyi, sevdiyi adamdı.

Bütün müsbət keyfiyyətlər onda bütövlük, tamlıq yaradır.

Biz çox xoşbəxtik ki, Rafiq Əliyevlə bir zamanı bölüşürük. Bir ölkədə yaşayırıq.

Dəyərini zaman verəcək böyük İnsana, böyük Alimə və özünü ən siravi üzvü saydığı Azərbaycan sevdalı vətəndaşa, vətəninə, yurduna bağlı olan Rafiq müəllimə Ağdamın aeroportunda təyyarədən enib Qarqardan doğma Novruzluya, oradan da Şuşaya qalxmağı arzulayıram.

Uğurları, nailiyyətləri ilə bizi bundan sonra da sevindirsin.

75 yaşınız mübarək, Böyük İnsan. Böyük Rafiq Əliyev.

**Rəfail Tağızadə**

## RAFİQ ƏLİYEV HÜRUFİ, SUFİ KİMİ ÖZ NƏFSİNİ YENƏN BİR İNSAN, BÖYÜK ALİMDİR

Ona həmişə bizim Rafiq müəllim deyirəm. Böyük alimimiz tək bizim yox, dünyanın qürurudur. O, mənim üçün çox əziz bir adamdır. Mən uzun müddət İsmayıllıda və başqa rayonlarda redaktor kimi çalışmışam. O da Mərkəzi Komitədə işləyib. Əlaqələrimiz olsa da, çox az idi. Amma bir neçə ildir ki, Rafiq müəllimlə çox yaxın dostluq edirik. O, bir alim, insan kimi mənim üçün çox doğmadır. İndiki kimi çətin vaxtlarda, əvvəl də, indi də o, elə həmişəki Rafiq müəllimdi. Qəzəbin, kinin, nifrətin tüğyan etdiyi bir zamanda, bir dövrdə Rafiq müəllim kimi insanların varlığı dünyanı ziynətləndirir. O, dərs deyib kitab yazmaqla, halal zəhmətilə dolanır. İslamda ən güclü mücadilə insanın öz nəfsi ilə apardığı mübarizədi. Rafiq müəllim isə bu mübarizədə hər zaman qalib gəlib. Onun müəllimi və yaxın dostu olan Lütfi Zadə də eynən, bu cür həyat tərzi yaşayıb. O, patentlərindən qrandlar alsaydı, çox zəngin insanlardan biri olardı. Amma elmə xidməti seçdi. Rafiq müəllim də onunla dostluqdan qazandığı bu yolla getdi.

Təsəvvüfdə, sufilikdə bir məqam var: İnsan nəfsini yenməklə, ona qalib gəlməklə Allaha varır, onunla birləşir. Dünyanın ən böyük hürufisi də öz nəfsini yenməklə Ali Məqama çatan hürufidi.

Rafiq müəllim də, Zadə də eynilə bu hürufilərin yolu ilə gediblər və bu gün də getməkdədirlər.

Rafiq Əliyev çox təvazökar, sadə insandı, heç vaxt özünün bir xeyir əməli haqqında haradasa danışmaz. Amma onun yaxın dostlarından biri kimi, Rafiq müəllimin nə qədər xeyirxah işlərinin olduğunu bilirəm.

Mən 76 yaşı tamam olan dostuma cansağlığı arzulayıram. İstərdim ki, başqaları onun mənimlə olan yaxın dostluğunu qısqanmasınlar.

**Musa Yaqub**

# Məktublar

## RAFİQ ƏLİYEV NOBELƏ NAMİZƏD OLAN NƏZƏRİYYƏSİ İLƏ BAĞLI DANIŞDI

Azərbaycan elminin son zamanlar yetişdirdiyi ən dəyərli alimlərdən olan Rafiq Əliyevin sonuncu nəzəriyyəsi dünya elmində böyük rezonansa səbəb olub. "Ümumiləşdirilmiş Qərar qəbuletmə" adlanan nəzəriyyəyə dahi alim Lütfi Zadənin də rəğbətini qazanıb. Böyük alimin adını son zamanlar daha çox siyasi proseslərdə hallandıran media nədənsə bu vacib məsələyə biganə yanaşdı. Amma həqiqət özlüyündə qalır ki, Rafiq Əliyev Nobel mükafatı alarsa, bu, Azərbaycanın beynəlxalq arenada qazandığı ən böyük nailiyyət olacaq. Bu məsələ ilə bağlı professorun özüylə əlaqə saxladıq.

– İlk dəfə jurnalist İlqar Rəsul mənimlə bağlı Lütfi Zadə ilə əlaqə saxlayarkən bu haqda söhbət edilmişdi. Onda mənim barəmdə məlum olan söz-söhbətlər başlamışdı. Zadə bildirmişdi ki, "Rafiq Əliyevin elmi işi Nobelin müzakirəsindədir. Sonra isə "Xəzər" televiziyasında bir proqramda bu haqda məlumat verilmişdi. "Xəzər" televiziyası o proqramda Zadədən bu barədə soruşanda Zadə demişdi ki, "mənim ən yaxın dostum Rafiq Əliyevdir və inşallah gözləyirəm ki, o, Nobel mükafatına layiq görülsün".

Nobel mükafatına sahib olmaq tamam başqa proseduradan keçir. Bir də görürsən ki, bizdə bir təşkilat, ya institut yığışaraq kimisə Nobel mükafatına təqdim edir. Amma heç bir ölkənin, təşkilatın və qurumun kimisə Nobelə təqdim etmək ixtiyarı yoxdur. Bu heç Nobelin əsasnaməsində də yoxdur. Orda Nobel komissiyasının üzvləri var ki, onlar kimisə, yaxud kimlərisə daimi izləyir, seçir və onu 1 il, 3 il, ya 5 il ərzində araşdırır. 89 yaşında bir alim Nobel mükafatı aldı. Ona mükafat 5 illik müzakirədən sonra verildi. Əksər Nobeli alan bilmir ki, o, bu mükafata layiq görülüb. Eləsi var ki, Nobel alma xəbərini qəzetdən oxuyub, eləsi var ki, kimsə zəng vurub ona xəbər edib. Kimsə öz işini yaxud kitabını gətirib deyə bilməz ki, buyur gətirmişəm. Onları mütəmadi olaraq izləyir, araşdırmalar aparırlar. Hərdən olur ki, alimlərdən biri, məsələn deyək ki, Amerikada, Almaniyada, yaxud Yaponiyada yaşayır. Onlar heç özləri bir-birilərini tanımırlar. Sadəcə elmi işləri arasında ümumi bir əlaqə olduğundan mükafat hamısına bərabər verilir. Çox vaxt 2, ya da 3 nəfərə birlikdə verirlər. Həm də Nobelin müzakirəsi 50 ildən sonra açıqlanır.

"Nəzəriyyə" kitab halında çıxarkən Lütfi Zadənin Rafiq Əliyevə yolladığı məktubdan bir parça:

***Əziz Rafiq,***

*Göndərdiyin elmi hesabat monumental bir işdir. O, qeyri-müəyyənlik çərçivəsində qərar vermə sahəsində indiyədək görülən bütün işləri xeyli üstələyir. Fikrimcə, bu iş əsasında iqtisadiyyat üzrə Nobel mükafatına namizəd olmalısınız.*

*Qərarın təhlilinə qeyri-səlis həndəsənin (FG-nın) tətbiqi məni heyrətləndirdi. Genişləndirilimiş qeyri-səlis məntiq haqqında işimdən xeyli irəli getdin. Təqdim etdiyin əsas konsepsiyaların misallarını da çəkməlisən. Bu elmi hesabatın həm üçüncü, həm də ikinci hissəsinə aiddir. Başa düşməkdə qəlizlik olarsa, ideyalarının gücü itirilmiş olacaqdır.*

*NAFİPS-də mühazirən necə keçdi? İştirakınla razı qaldınmı? İstərdim ki, NAFİPS-dən sonra Berkeleyə gələ biləsən ki, hesabatı daha təfərrüatı ilə müzakirə edə bilək.*

*Bir çox sualım var, amma onları sonrakı məktublarımda yazacağam.*

***Ən dərin hörmətimlə,***
***Lütfi***
***13.04.2013***

Rafiq Əliyevin "Fundamentals of the fuzzy logic – based Generalized Theory of Decisions" ("Qeyi-səlis məntiq əsasında Ümumiləşdirilmiş Qərar qəbuletmə nəzəriyyəsi") dünya elmində əsl ajiotaj yaradıb. Qeyd edək ki, həmin kitabda ön sözün müəllifi dahi alim Lütfi Zadə olub.

Nobelə namizədlərdən sayılan bu kitabla bağlı qeyri-səlis məntiqin atası Lütfi Zadə Rafiq Əliyevə məktub yollayıb. Məktubda deyilir:

***Əzizim Rafiq,***

*Avtoqraf yazıb mənə göndərdiyin axırıncı kitabını aldım. Desəm ki, sənin kitabın xariqə kimi görünür, bu bizim bəyanatdır. Sənin nəzəriyyən elmdə yeni cığır açır. Bu əsər gerçəkdən şah əsərdir. Tamamilə aydındır ki, sənin bu töhfən Nobel mükafatına layiqdir.*

***Lütfi***
***19.03.2013***

***Əzizim Rafiq,***

*Sənin "Fundamental of the fuzzy logic – Based Generalized Theory of Decisions" (Qeyi-səlis məntiqdə Ümumiləşdirilmiş Qəraraqəbuletmə" nəzəriyyən elmdə yeni cığır açır. Bu əsər gerçəkdən şah əsərdir. Tamamilə aydındır ki, sənin bu töhfən Nobel mükafatına layiqdir.*

***Lütfi Zadə***
***19.03.2013***

***Əzizim Rafiq,***

*Yeni kitabına yazdığım ön sözü sənə göndərirəm.*

*Sənin elmi işinin hədsiz vacibliyini qiymətləndirmək çox çətindir. Xahiş edirəm, bu böyük nailiyyətin münasibəti ilə səmimi hisslərimi və təbriklərimi qəbul edəsən.*

***Dərin hörmətlə və vurğunluqla,***
***Lütfi Zadə***

***Əzizim Rafiq,***

*Sənin son zamanlar çap etdirdiyin kitabları aldım. Ürəkdən təbrik edirəm. Bu elmi işlərin qərar qəbuletmə nəzəriyyəsi və başqa əlaqəli sahələrdə yeni və fundamental vacib olan istiqamət açır. Sən elədiklərini heç kim edə bilməzdi. Sənin bu katablardakı elmi nəticələrin qeyri-müəyyən (imperfekt) informasiya ilə işləmək sahəsində bizim imkanlarımızın genişləndirilməsinə böyük töhfədir.*

***Dərin heyranlıqla,***

***Lütfi Zadə***

**modern.az**

## НОВЫЕ ТЕОРИИ И ИДЕИ ПРОФЕССОРА РАФИКА АЛИЕВА

Дорогой Рафик, посылаю Вам и в издательство World Scientific мое предисловие к Вашей книге. Значимость Вашей работы большая и заслуживает высокой оценки. Пожалуйста, прими мои комплименты, поздравления в связи с Вашим высоким достижением,

***С уважением и восхищением,***

***Лютфи Заде*.**

### Предисловие

Фундаментальный труд профессора Рафика Алиева, Теория решений при недостаточной информации (с предисловием профессора Лютфи Заде) или коротко ТРНИ, является революционным вкладом в лучшее понимание принятия решений в условиях несовершенной информации – т.е. информации, которая неясна, неточна, неполна или частично верна. В условиях реального мира подобная информация скорее правило, нежели исключение. Работа профессора Алиева основана на существующих теориях принятия решений, но оставляет их далеко позади. Теория решений, такая, какой мы знаем ее сейчас, уходит корнями в первопроходческий труд фон Неймана и Моргенштерна, Теория игр и экономическое поведение, 1944. Гениальный труд фон Неймана и Моргенштерна породил целую плеяду исследований. Значительным шагом в теории решений явилась разработка Теории перспектив Канеманом и Тверским в 1979 году – теория, которая в 2002 году принесла разработчикам Нобелевскую премию в области экономики. Теория перспектив была важным шагом в направлении расширения возможностей теории решений касательно проблем реального мира.

Выдающаяся работа профессора Алиева содержит очень глубокий и детальный критический анализ существующих теорий решений. В существующих теориях много глубины, силы и смысла. Тем не менее, есть одна основная проблема. Существующие теории основаны на классической, Аристотелевской, бивалентной логике. Бивалентная логика не терпит нечеткости и неполноты истины. В корне бивалентная логика – не подходящая логика для работы со всеохватывающей нечеткостью реального мира. Работа профессора Алиева переводит основу теории решений от бивалентной логики к нечеткой. Другими словами, нечеткая логика – это система мышления и вычисления, где объекты мышления и вычисления являются классами с неясными (нечеткими) границами. В реальном мире такие классы – скорее правило, нежели исключение. Важно отметить, что

почти все слова в натуральном языке – это обозначения классов с неясными границами. Например: высокий, дешевый, быстрый, обычно, больший, вероятно и т.д. Представление значения таких слов как распределение вероятности неэффективно. В области теории решений особенно важно представление неточных вероятностей и неточных ожиданий как нечетких вероятностей и нечетких ожиданий, соответственно. В работе профессора Алиева выражение этих и других концепций возможно при помощи натурального языка. Один из основных вкладов профессора Алиева – разработка концептуальной рамки для принятия решений и вычислений с использованием информации, выраженной натуральным языком.

Концепция, играющая важную роль в вычислениях с использованием натурального языка – уточнение значений слов и выражений. Другими словами, если p – предположение из натурального языка, то его значение уточняется путем его представления в математической, четко выраженной форме. Более конкретно, p может рассматриваться как носитель информации о переменной X, которая в общем предполагается в p. Информация о X может рассматриваться как ограничение значений, которые X может принять. Существует большое количество ограничений. Принципиально, ограничения бывают возможностными, вероятностными и бимодальными. Бимодальное ограничение – смесь возможностных и вероятностных ограничений. Например, вероятно, что X мало – бимодальное ограничение. В общем, натуральный язык – это в основном собрание возможностных и бимодальных ограничений. Поэтому концепция ограничений занимает важное место в работе профессора Алиева.

В существующих теориях принятия решений и экономического поведения неполная информация обрабатывается при помощи только лишь теории вероятности. Общепринято, что теория вероятности – это все что нужно для работы с любым видом неясностей. Это является ядром Байесианской доктрины. Несогласные с этой доктриной, включая профессора Алиева и меня, не разделяют это мнение. Более конкретно, существуют три основных типа неопределенности.

Первый тип неопределенности относится к случайности. Второй тип неопределенности связан с неполнотой информации. Третий тип неопределенности связан с неточностью (нечеткостью) границ классов. Теория вероятности исходит из первого типа неопределенности. Тем не менее, годами теория вероятности двигается в направлении расширения своего влияния, чтобы включить в себя неопределенность второго типа. Байесианизм – проявление этого движения.

Противоречивый вопрос – подходит ли теория вероятности для работы с неопределенностью третьего типа? С моей точки зрения, нет, не подходит. Для работы с неопределенностью третьего типа нужна нечеткая логика и ее важная составляющая, теория возможности. Теория возможности и теория вероятности – разные теории с разными задачами.

Нечеткая логика играет незначительную роль в существующих теориях принятия решений и экономического поведения. В противоположность этому, нечеткая логика играет решающую роль в ТРНИ.

Для понимания работы профессора Алиева необходимо знакомство с нечеткой логикой. Теория решений при недостаточной информации включает в себя очень понятное и влиятельное изложение нечеткой логики. Что еще примечательно – это то, что в этой теории задействованы не только базовый механизм нечеткой логики, но и самые продвинутые концепции и методы. В частности, в ТРНИ можно найти применение расширенной нечеткой логики, нечеткой геометрии и арифметики Z-чисел. Z-число выражается как пара – (значение переменной, степень достоверности значения). Обычно компоненты Z-чисел выражаются натуральным языком. К примеру, (высокое вознаграждение, вероятно). Что важно относительно Z-чисел, – это то, что в условиях реального мира большая часть неопределенности включает переменные, чьи значения выражены в Z-числах.

Работа профессора Алиева граничит с новыми концепциями, новыми методами и новыми идеями. Мне трудно найти адекватные слова, чтобы описать фундаментальную важность теории, созданной профессором Алиевым – теории, которая найдет широкое применение в условиях реального мира. Вступительное слово профессора Алиева говорит за себя.

Профессор Алиев и издатель его книги, World Scientific Publisher, заслуживают громких аплодисментов за издание этой книги, которая открывает двери к глубоким изменениям в методологии теории принятия решений и моделирования экономического поведения.

Выдающийся труд профессора Алиева не прост в понимании. Он заслуживает пристального изучения и анализа. Понимание глубокой теории, разработанной профессором Алиевым требует значительных затрат времени и усилия – затраты, оправданные пользой, важностью и оригинальностью идей профессора Алиева.

**Лютфи А.Заде**
**Berkeley, CA**



*Rafiq Əliyev həyat yoldaşı Aida xanımla*

# *Dostların təsəlli ismarıcları*

***Dear Rafik muallim,***

*You have been in my thoughts over these last months. I was so sorry to learn of Aida's death. You were a devoted husband and cared for her always. May God's peace be with you and your family.*

*When you journey to Atlanta, I hope we will have a chance to meet again.*

***Warmly,***
***Judy Q (USA; Alabama)***
***07.01.2011***

* * *

***Əziz Qardaşım, Dostum Rafiq Müəllim, Salamlar!***

*Sizin Aidə xanımın əziz xatirəsinə həsr olunmuş GÖZLƏRİN BURAXMIR MƏNİ... adlı "MÜSAVAT"da dərc olunmuş yazınızı iş otağımda ağlaya-ağlaya oxudum və bir daha Sizin Böyük Alim olmağınızla birlikdə Böyük qəlbli insan olduğunuzu anladım. Əziz Qardaşım, nə etmək olar, bizdən istənilən odur ki, taleylə razılaşıb fəaliyyəti davam etdirərək təsəlli tapaq. Allahdan Sizə Səbir və Təsəlli arzulayır, Aidə xanıma Rəhmət diləyirəm.*

*Qucaqlayıb öpürəm.*

***Sizin Rafiq Mehdiyev, professor***
***İSTANBUL, 30.05.2011***

* * *

***Dear Rafik,***

*I am so SORRY to hear that. I pray for her to be blessed by the LORD. Please take care of yourself and keep yourself healthy for the sake of your children and your grandchidren. Please let me know if I can do anything from here -- any medicine, etc. I can send you. Jila and I send our very best wishes to you and the family.*

***Mo Jamshidi (USA)***

* * *

***Dear Rafik:***

Fay and I sent you an email message as soon as we heard that Aida passed away. Have you received it? We can understand the depth of your loss. Our hearts are with you.

With our affection and love.

***Sincerely,***
***Lotfi and Fay (USA)***

***Dear Rafik,***

*I have just recently learned that Aida passed away. I feel very sorry*

*- please accept my deepest condolences. I really enjoyed my meetings with her when visiting Baku- she will be missed very much.*

*If I could be of any help. do not hesitate to let me know.*

***Cordially***
***Professor, Witold Pedrycz, Canada***

* * *

***Dear Rafik,***

*Fay and I were deeply chocked by the slievad news that Aida passed away. Our perception was that she is making good progress toward recovery. Unfortunately, our perception was wrong. We share your grief. With our deepest sympathy.*

***Lotfi and Fay (USA)***

* * *

***Dear Rafik,***

*We were expecting to see you in San Francisco, at the World Conference on Soft Computing. Professor Burhan Turksen informed us that you lost your wife.*

*Please accept our most sincere condolences.*

*Our thoughts and prayers are with you.*

***Professor V.Kreinovich, USA***

* * *

***Дорогой Рафик Азизович,***

*Прими наши с Рано ханум искренние соболезнования в связи с постигшим Вас больщим горем - невосполнимой утраты Аиды ханум (да будет благословенна ее светлая память). Жизнь продолжется и пока Всевышний дает нам возможность, нужно жить и работать.*

***Всегда Ваш***
***Тулкун Бекмуратов , академик, Узбекстан***

* * *

***Unudulmaz ailəvi dostumuz Aidə xanımın əziz xatirəsinə***
***Əzizimiz Aidə xanım,***

*Sizinlə bir daha görüşmək imkanı olmadığına inana bilmirik. Kiprdə keçirdiyiniz son aylar ərzində, Bijan və mən Sizin tezliklə sağalıb Atlantaya gəlməyinizi gözləyirdik. Hələ Bakıda olarkən, Kiprə getməmişdən əvvəl, Sizinlə bir telefon söhbətimiz oldu. Bir daha Atlantaya gəlmək arzusunu bildirdiniz. «Əlbəttə» dedim. «Sizi və Rafiq müəllimi səbirsizliklə gözləyirik» əlavə etdim. O anlar, Sizinlə bir daha birgə günlərimizi*

*keçirmək bizlərə çox təbii görünürdü. Ağlıma belə gəlməzdi ki, Sizinlə olan bu telefon söhbətimiz bizim son danışığımızdı.*

*Ailəvi dostluq münasibətlərindən başqa, digər dəlillər də bizləri doğmalaşdırırdı. Onlardan ən başlıcası doğma Qarabağ həsrətidir. Biz hamımız inanırdıq ki, hər bir Azərbaycanlı, harada böyüyüb başa çatmasından asılı olmayaraq, özünü Qarabağlı bilməli və hər bir Qarabağlı kimi bu dərdimizə şərik olmalıdır. Qarabağ dərdi tək bizlərin yox, bütün azərbaycanlıların dərdi olmalıdır.*

*Bu ümidimiz hələ də ümid olaraq qalıb; üzləşdiyimiz yalnız soyuq bir laqeydlik.*

*Deyirlər ki, insan hər dərdə qatlaşar, hər çətinliyə alışar. Görünür, Qarabağ dərdi bir istisnadır.*

*Əziz Aidə xanım, sadəlövh səslənsə də qeyd etməliyəm ki, yeganə təsəlli Sizinlə olan ünsiyyətimiz idi. Sizin gəlişinizi çox gözlədik. Gözümüzü yolda qoyduz.*

***Sizi həmişə xatırlayan Afaq və Bijan***
***(Atlanta, ABŞ)***

* * *

***My Dear Brother Rafik***

*My very sincere and genuine condolances for your loss of Aida! It must be indeed quite difficult times for you!'*

*Yes live continues dispite all losses of our dear ones!'*

*I will let Prof Omer Akin know of your interest and will ask if he could come to Antalya meeting to meet you and discuss this research approach!'*

***My best regards, always,***
***Burhan (Toronto, Canada)***

* * *

***Dear our brother Rafik,***

*It is only a short moment that we are living on earth. For us, any moment with our Aida has been - and is and will be. A period of common life that we never will forget, all over the year full with happiness, always including her in our heart and soul. So from the beginning on deep from our heart we have been and to have "our mother in our family in Baku" – and this forever!!*

*Aida always will be with us!!!*

***On deep reference***
***Ulrich, Ana – Lena***
***Always your brother Ulrich (Germany)***

## YOXLUĞUN İÇİNDƏ HƏMİŞƏ VAR OLAN SƏN

Yaraları sağaldan zaman SƏNin yoxluğunu unutdura bilmədi. SƏNsizliyi sağalda bilmədi.

Bir günlük xatirəni bir gecəyə danışıb qurtara bilmirdik. İndi bir gecəyə 40 illik xatirəni özüm-özümə danışıram. Öz-özünə danışmaq qədər sürətli heç nə yoxmuş bu sürət zamanında.

* * *

Bir ildir əlim evimin zənginə qalxmır.
Üzümə heç kimin açmadığı qapının çalınan zənginə özüm gedirəm.
Gələn qonaqlar da daha əvvəlki kimi səsli-küylü olmurlar.
Özünəməxsus sükut, səssizlik aparıb dəhlizin nəvaziş şirinliyini.
Evin boşluğunu duyan çaynik də dəyişib səsini.
Divara hopan səslər gecələr olanları, olmuşları ahəstə bir səslə yuxuma danışır.
Düz bir ildir evin hər tərəfindən – gah otaqdan, gah mətbəxdən mənə zillənən baxışların:
– Ac deyilsən?
– Çay içmisənmi?
– Sənə soyuq deyil ki?
– Gecələr üstünü yaxşı ört.
– Bayırda yaman soyuqdur, əynini qalın gey... – söyləyir.

Bu evin hər yerində SƏN varsan. Məni darıxdıran və məni darıxmağa qoymayan SƏN.

Gecələr "yuxun şirin olsun" dediyim SƏNə, "əbədi yuxun şirin olsun" deyirəm bir ildir.

Xəyalların, xatirələrin yola verdiyi bu bir ildə alışa bilmədim SƏNsizliyə.

Hələ də güzgülərdən
– O biri köynəyi gey.
– Bu qalstuk sənə yaman yaraşır.
– Şərfini vur..., – deyirsən.

* * *

Səfərə çıxıram. Dönub arxaya boylanıram. Qapı elə mən örtən qapıdı. Pilləkənlər də qupquru...

**Rəfail Tağızadə**
22.04.2012

## SÜKUTUN 59-CU GÜNÜ

**Professor Rafiq Əliyevin hər zaman var olan sevgi dünyasına ithaf edirəm**

*"Məhəbbət – Xəncərmi? Yoxsa atəşmi?*
*Daha bundan artıq nə demək olar!*
*Gözə tanış olan ovuclar kimi,*
*Doğma bir övladın əziz adıtək,*
*Məhəbbət insanı kəsər, ağrıdar"*

**Marina Tsvetayeva**

"Həyatın qəribə anları varmış. Təzada bax. İndi hər an mən üzülürəm ki, niyə mənimlə bir yerdə deyilsən. Əminəm ki, sən düşünürsən ki, nə yaxşı ki, bir yerdə deyilik".

Yəqin ki, professor Rafiq Əliyevin "40, il oldu" yazısındakı bu sətirlər olmasaydı, indi qələmə aldığım yazı sonsuza kimi yazılmamış qalacaqdı. Lakin hörmətli professorun sevgi və kədər qarışıq daxili dünyasının məhsulu olan məlum yazını oxuduqdan sonra içimdəki duyğuları ortaya qoymağı qərara aldım.

Əslində bu yazını yazmağıma səbəb olan amillərdən biri də hörmətli professora təxminən iki ay bundan öncə verdiyim bir söz oldu. Belə ki, yuxarıda qeyd etdiyim kimi, Rafiq Əliyevin sevimli həyat yoldaşı Aidə xanımın vəfatının ili ərəfəsində ölkə mətbuatında dəyərli ziyalının "40, il oldu" sərlövhəli bir yazısı çap olundu. Başdan-başa sevgi dolu, uşaqcasına məsumiyyət və saflıqla qələmə alınan məqalədə yazı müəllifinin həyat yoldaşından ayrı keçən son bir ili olduqca təsirli bir dillə əks olunmuş, sadə, səmimi və bir o qədər də nisgilli bir şəkildə təsvir edilmişdi. O zaman, yəni sözügedən yazı hələ ölkə mətbuatında çap olunmamışdan öncə həmin yazını elektron ünvanıma göndərən Rafiq müəllim məndən həmin yazıya nəzər salmağı və gərəkirsə bir jurnalist olaraq "əl gəzdirə" biləcəyimi söyləmişdi. Əslində bu, hörmətli professorun həmişəki sadəlik və təvazökarlığının göstəricisi idi və mən dəqiq bilirdim ki, o yazının hansısa cümləsini deyil, hərfini belə dəyişməyim həmin yazıya yalnız xələl gətirə bilərdi. Odur ki, dünyanın ən ağrılı sevgi etirafı, ən böyük nisgil və həsrətindən biri sayılacaq həmin yazını oxuduqdan sonra R.Əliyevə bu yazı ilə bağlı təəssüratlarımı qələmə almaq istədiyimi bildirdim. Lakin hörmətli professorun razılığını alandan sonra anladım ki, bu, o qədər də sadə bir iş olmayacaq. Fəqət düz 59 gündən sonra da olsa verdiyim vədə əməl etməyi, hörmətli professor və onun sevgi dünyası ilə bağlı düşüncələrimi sətirlərdə əks etdirməyə çalışdım. İnanmaq istərdim ki, dəyərli professor onun böyük eşqinə həsr etdiyim bu yazıdakı bütün çatışmazlıqları üzürlü sayacaq və bu nöqsanları mənə bağışlayacaqdır.

**İtki və təsəlli**

Nədənsə, sevdiyini itirən insana təsəlli verməyi hər zaman artıq hesab etmişəm. Ona görə yox ki, bəzən elə anlar olur ki, hətta təsəlli üçün belə heç nə tapıb demək olmur. Ona görə ki, hətta ümid və inamla köklənən ən ovsunlayıcı təsəlli belə həmin itkinin yaratdığı boşluğu zərrə qədər də olsun doldurmur. Zənnimcə, istənilən böyük, bərpası mümkün olmayan itkinin yerini yalnız ağrı doldura bilər və ona görə də bu cür itki ilə üzləşən insana təsəlli verməkdənsə, o itki qarşısında ehtiramla susmaq, qarşı tərəfin kədər və iztirabına lal bir sükutla həmdəm olmaq daha doğrudur. Baxmayaraq ki, bəzən itki o qədər böyük və sarsıdıcı olur ki, insan hətta ən səfeh təsəllini belə qeyri-iradi olaraq ona qarşı qoymağa, ruhi və cismani boşluğun yerini uzaq və reallaşması mümkün olmayan xəyallarla doldurmağa ehtiyac duyur. Lakin bütün hallarda itki itki olaraq qalır və heç bir təsəlli bu itkinin acısına məlhəm ola bilmir. Bu qəbildən olan itkini insana unutduracaq yeganə qüvvə qismində yalnız ölüm çıxış edir. Yalnız ölüm bizim bütün iztirabımıza son qoymaqla bizi həm özümüz, həm də başqaları qarşısında duyduğumuz məsuliyyət hissindən azad edir. Ancaq nə qədər ki, ölüm gəlməyib, nə qədər ki, qəlbin son döyüntüsü başa çatmayıb, ağlın son işartısı sönməyib, itki insanla birgə yaşamaqda davam edir. Bu baxımdan itkinizin günəş və səma altındakı son gününüzə qədər sizinlə birgə yaşayacağına əminəm, professor. Lakin yenə də bir gerçəyi sizə xatırlatmağı lazım bilirəm. Siz daha etibarlı çıxdınız, professor, siz hətta ilahi təqdir qarşısında belə öz sevdiyinizi gözü yaşlı qoyub getmədiniz. Əgər yaşadığı itkidən dolayı iztirab çəkən bir insana təsəlli vermək şərtdirsə, bunu özünüzə ən böyük təsəlli hesab edə bilərsiniz, professor. Bir də unutmayın ki, zamanı yetişincə öz həyat yoldaşınıza yenidən qovuşacaqsınız və o zaman yaşadığınız bütün acıları tək bircə təbəssümlə necə unutduğunuza özünüz də heyrət edəcəksiniz. Bu gün isə sizin üçün nə qədər çətin olduğunu təxmin edə bilirəm. Onu da bilirəm ki, bütün bu təxminlər yaşadığınız ağrının yalnız cüzi bir qismini əks etdirməkdədir və onu tam olaraq duya biləcək yeganə insan yenə də sizsiniz.

**Nə hiss etdiyinizi bilirəm!**

Mən yaşadığınız itkidən dolayı nə hiss etdiyinizi, qəlbinizin və beyninizin dərinliyində nələr düşündüyünüzü bilirəm. Mən yaxşı bilirəm ki, bundan sonra nə birgə gəzdiyiniz yerlərə edəcəyiniz səfərlər, nə xoş, sevincli xatirələrinizin olduğu məkanları təkrar ziyarətiniz sizə ağrıdan, nisgil və qüssədən başqa heç nə qazandırmayacaq. Siz birgə anlarınızın keçdiyi hər məkanda öz tənhalığınız daha dərindən, öz yaranızın böyüklüyü və əbədiliyini daha içdən hiss edəcəksiniz. Xoşbəxt günlərinizi xatırladan hər şey, təbiətin bütün gözəllikləri sizin üçün öz mənasını itirəcək və siz əzab hissi ilə anlayacaqsınız ki, bütün o gözəlliklər, sevgi və sevinc dolu bütün o anlar həmişəlik keçmişdə qalıb. Günəşin hər doğuşu, ləpələrin hər titrəyişi, küləyin hər pıçıltısı sizə qarşı heç kimin duymadığı bir ittihama çevriləcək. İçinizdə hətta özünüzə belə etiraf etməyə

qorxduğunuz qəribə bir günahkarlıq hissi baş qaldıracaq. Sevdiyi insanı torpaq altında buraxan, onu ölümün qollarına təslim edən bir insanın yaşamaqdan dolayı duyduğu günahkarlıq hissi. Bu hiss bütün həyatınız boyu sizi təqib edəcək və nəticədə sizdə həyata qarşı bir laqeydlik formalaşdıracaqdır. Həyatının ən böyük sevincini itirən, öncə cənnət bəxş edilən və daha sonra bu cənnətdən məhrum edilən hər bir insanın həyat və yaşama qarşı duyduğu laqeydlik hissi.

Bəli, mən nələr hiss etdiyinizi bilirəm. Hər kəs yatan gecələrdə sevdiyiniz insanın səsi, gülüşü, qoxusu hopan divarlarla xəyalən necə danışdığınızı, səhəri olmayan axşam təsiri bağışlayan uzun-uzadı gecələrdə keçmişi təkrar-təkrar, ən xırda detallarına qədər minlərlə kəs necə vərəqlədiyinizi bilirəm. Mən yaxşı bilirəm ki, içinizdə həyat yoldaşınızla bağlı elə müəqddəs xatirələr var ki, onu öz doğma övladlarınızla belə bölməyə xəsislik edirsiniz. Sizə elə gəlir ki, yalnız ikinizə məxsus bu xatirələri kimliyindən asılı olmayaraq üçüncü bir şəxslə bölmək həmin xatirələrin saflığına, müqəddəsliyinə xələl gətirə bilər. Odur ki, bu xatirələr üçün ən etibarlı ünvan həmin xatirələrə illər uzunu ev sahibliyi edən yenə eyni ürək olmalıdır. Bir ildir ki, yaralarından axan qanı daxilinə süzülən, sağalması imkansız olan böyük insan – Rafiq Əliyev ürəyi.

**Ölümə gülümsəyin professor...**

Aidə xanımın vəfatından sonra R.Əliyevlə bir neçə dəfə görüşmüş, hörmətli professorun müxtəlif məsələlərlə bağlı mülahizələrini hədsiz maraq və zövqlə dinləmişəm. Bütün bu görüşlər ərzində R. Əliyevin bütün hərəkətlərinə – məmnunluqla gülümsəməsindən tutmuş insanın gözünə zillənsə də, bilavasitə qəlbinə nüfuz edən mehriban və şəfqətli baxışlarına kimi hər bir davranışını diqqətlə izləmişəm. Və hər zaman düşünmüşəm ki, bunca yara alan bir insan içindəki bu qədər iztirab və kədərlə necə gülümsəyə bilir? Ümumiyyətlə, bir insanın param-parça olan, yarıya bölünən bir ruhla başqasını dinləməyə, onunla fikir mübadiləsi aparmağa necə səbri çatır axı?

Lakin çox keçmədən anladım ki, bu, sevdiyini itirən, onu xatirələrin və röyaların boşluğunda axtaran bir insanın təbəssümü deyil. Bu, öz elmi, zəkası, mənəviyyatı ilə bütün bəşəriyyətə bir örnək təşkil edən böyük bir alimin, kamil bir şəxsiyyətin – alim R.Əliyevin təbəssümüdür. Lakin bu təbəsümdə sevən R. Əliyevin payı yoxdur. Bəlkə də alim R.Əliyevin təbəssümünün bir səbəbi də sevən R. Əliyevin qəlbindəki ağrını, ruhundakı iztirabı gizlətməkdir. Bəlkə də R.Əliyev bu sevginin indi ona bəxş etdiyi ağrını belə kimsə ilə bölüşməyi lazım bilmir və düşünür ki, bu müqəddəs ağrı Aidə xanıma məxsus bütün hisslər kimi yalnız öz qəlbində boy atıb böyüməlidir. Bəlkə də hər şey tamam başqa cürdür, kim bilir...

Ümumiyyətlə, sevdiyini itirən hər kəs qanadlarından birini itirən quşa bənzəyir. O, nə qədər mətin, nə qədər güclü, nə qədər iradəli olsa belə, bir daha əvvəlki zirvəyə yüksələ bilmir. Vaxtilə üzərində qanad çaldığı, ətrafındakı hər şeyə bu zirvədən baxdığı yüksəklik onun üçün həmişəlik əlçatmaz, ünyetməz olur. Bir vaxtlar güc və səadətin zirvəyə yüksəltdiyi tale onu əbədilik bu zir-

vəyə həsrət qoyur. Bundan sonra o zirvə yaralı insan qəlbində keçmiş səadətin lal, dilsiz şahidi, xoş xatirələrin uzaq yadigarı kimi yer alır. Geridə qalan xoşbəxtliyin hər xatirəsi insana ötən illərin fərəhini təkrar-təkrar xatırladır. Lakin bu xatırlama insana sevinc gətirmir, əksinə onu daxilən əzib məhv edir. Lakin bununla belə sizi hələ də qarşıda sevincli bir anın gözlədiyini söyləyə bilərəm, professor. Elə bir sevinci ki, siz onu ömrünüzün son dəqiqələrində, bu dünya – onun bütün pislik və gözəllikləri ilə həmişəlik vidalaşan zaman duyacaqsınız. Bütöv bir ömrə bərabər sayılacaq o sevinc sizi ölümlə eyni vaxtda salamlasa da, həmişəlik sizinlə qalacaq.

Deyirlər ki, insan ölənə yaxın Allah onu haqq dərgahına aparmaq üçün həmin adamın artıq haqq dünyasında olan ən çox sevdiyi insanları göndərir. Can verməkdə olan şəxsin gözünə görünən bu insanlar onu doğma, mehriban təbəssümlə özlərinə tərəf səsləyir. Ölüm yatağında olan insan ölümün üzərinə doğma simaların, həsrətini çəkdiyi gözlərin çağırışı ilə yürüyür. Bu, bəlkə də bütün insan ömründə insanın ölümdən qorxmadığı, ona meydan oxuduğu yeganə andır. Bu baxımdan, əmin ola bilərsiniz ki, zamanı yetişəndə Tanrı sizi göylərin əbədi maviliyinə aparmaq üşün ən sevdiyiniz insanları göndərəcək və heç şübhəsiz ki, bu insanlar arasında Aidə xanım da olacaqdır. Əminəm ki, başqa bir dünyanın sərhəddindən sizə baxan o gözlərdə həsrətini çəkdiyiniz mənəvi rahatlığı tapacaqsınız. Və o gözlər sizi son kəs mətin olmağa, ona qovuşmaq, onunla həmişəlik bir yerdə olmaq üçün son kəs cəsarət göstərməyə çağıracaq və sizə səssizcə deyəcəkdir: "Sadəcə bir addım və bundan sonra həmişəlik mənimləsən!"

Odur ki, Tanrı qərarı hasil olduqda ölümə qorxmadan, cəsarətlə gülümsəyə bilərsiniz, professor. Çünki bu dünya ilə vidalaşanda əsla tək olmayacaqsınız. O zaman sizin yanınızda ən çox sevdiyiniz bir insan olacaq və o insan sizin əlinizdən tutaraq səmanın dərinliklərinə doğru qanadlanacaqdır. Bu dünyada yarıda nöqtələnən bir səadəti tamam başqa bir dünyada sonsuza qədər davam etdirmək üçün.

**P.S.** Hörmətli, Rafiq müəllim. Yazının kədərli notlar üzərində qurulduğunun fərqindəyəm və əminəm ki, bu yazı ovqatınıza yaxşı heç nə bəxş etməyəcək, əksinə qəlbinizdəki qüssəni bir qədər də artıracaqdır. Lakin inana bilərsiniz ki, bu sizi sevən, sizin ağrınızı öz ağrısı hesab edən bir insanın düşüncəsidir və bu düşüncədə hər bir kəlmə səmimiyyətlə cilalanıb. Sizə uzun ömür arzulayır və bir səslə deyirik: "Sizi sevirik. Siz hər zaman bizim iftixar mənbəyimiz olaraq qalacaqsınız".

**Seymur Əliyev**

## SƏNSİZLİYİN HARAYI

***yarpaqlar***
***lampayla gizlənpaç oynayır həyətdə,***
***tənha evdə xatirələr***
***... yuxusuz gecədə sənsizlik***
***işığı sönən pəncərə qədər qaranlıq…***

Böyük insanları tanımaq müqəddəs kitabları oxumaq kimidir. Hər dəfə ünsiyyətdə olanda onu yenidən tanıyırsan. Kəşf edirsən. Yeni bir şey öyrənirsən. Yeni nəsə qazanırsan.

Alimliyi ilə insanlığı eyni ucalıqda dayanan Rafiq Əliyev də belə insanlardandır.

Rafiq müəllimin alimliyindən, insanlığından və başqa keyfiyyətlərindən çox yazmaq olar. Bu yazıda yoxluğun, itkinin ağrısını daşıyan, xatirələrin sevgisini yaşadan, yaşayan, nəyə görə, nədən ötrü yaşadığını bilən, ülvi sevgi nümunəsi olan, Rafiq müəllimdən danışılacaq.

Rafiq müəllimin Aidə xanım haqqında yazdığı yazılar bu Böyük İnsanın sənsizlik acısının sevgi dolu səmimi etiraf nümunəsidi. Hər yerdə, hər şeydə gözəl nümunə olan bu insanın daha bir nümunəsi.

Ağrı, acı, itki böyüklük, kiçiklik tanımır. İtkinin özü böyük olanda hər şey onun yanında balaca görünür. Yoxluq elə bir boşluqdur ki, o, hər şeyi, hər kəsi udur.

Bəzən hamıdan çox danışmaq istədiyin kəsin özünə və şəklinə baxıb susursan. Ya da cavab ala bilmədiyin sənə dikilən gözlərlə, baxışlarla danışırsan. Canlıyla danışan kimi.

* * *

Nə yaxşı ki, xatirələr var. Yaşanan günlərin xatirələri. Nə yaxşı ki, xatırlananlar var. Xatirələr xəyallardan yaxşıdı. Xəyalları qurursan. Uydurursan. Xəyallar çox vaxt reallaşmır. Yaşanmır. Xatirələr isə keçmiş reallıqdı. Sənin yaşanan keçmişindi. Yaşanılanların çözümüdür, yada salınmasıdır. İstədiyin vaxt yaddaşa, lap alt yaddaşa müraciət edib onu xatırlaya bilirsən. Evi, ocağı da, qapını, pəncərəni də, küçəni, şəhəri də, dənizi, uşaqları da, ... görəndə xatırlanan günlər var, illər var. Yaxşı ki, xoş olan sevgi dolu illər var. Yoxsa yaşadığımızı nədən biləcəkdik.

Nə yaxşı ki, o xoş illərin, anların təbəssümünü özündə yaşadan şəkillər var. Yaddaş şəkilləri. Sənə oradan canlı kimi boylanan, baxan şəkillər. Baxışlar… Bugünün boşluğunu dolduran, bitib-tükənməyən xatirələr. Bütün günü səninlə yol yoldaşı olan, səninlə gəzən xatirələr. Səninlə pilləkənləri, küçələri, şəhərləri birlikdə addımlayan xatirələr.

Gecələr hər dəfə yanınızdakı xəyalla Bakı bulvarına gəzməyə çıxanda uzaqdan sizi görüb çoşan, üstünüzə qaçan dalğalar üzülərək ləpələrə çevrilib geriyə üz tutur...

Xatirələr qoynunda gəlib yenə həmin o oturacaqda oturursunuz. Baxışlarınızı qaçıra bilmədiyiniz heç kimin oturmadığı, sanki hamının sizə saxladığı, kimsəsiz oturacaqda. Yenə ikiniz. Bu dəfə sizə sıxılan, sığınan canlıdan seçilməyən xəyalla...

Darıxan, darıxdırıcı gecədə evdə kresloda oturub divanın sol tərəfindən sənə baxan, dikilən baxışlara olanları danışırsan. Monoloq kimi.

"...Hara getsəm səni özümlə aparıram. Səni burada tək qoya bilmərəm. Qorxuram darıxasan. Bu doğma şəhərin tanış küçələrini, səfərdə səni xatırladacaq hər yeri danışa-danışa addımlayırıq.

Yoxluğunu nə özümə, nə kimsəyə izah eləyə bilmirəm.

Səni hər zamankı kimi yenə özümlə aparıram.

Artıq qəlbimdə, könlümdə, içimdə...

Getdiyin, getdiyimiz yollarda yenə də birlikdəyik.

Səni məndən ayırmaq mümkünsüz..."

* * *

Zaman bütün yaraları sağaldır, unutdurur – deyirlər.

Yoxluğun acısını hər an yaşayan Rafiq müəllimi yenidən tanıdım. Onun Aidə xanımın ilinə yazdığı yazının təsirindən ona belə bir kiçik yazı da yazıb göndərmişdim:

"Allah Aidə xanıma qəni-qəni rəhmət eləsin. Ruhu şad olsun.

Rafiq müəllim, Sizin yazınız məni çox təsirləndirdi. Son vaxtlar unudulmuş sevgini bu yaşda, bu qədər aliliklə tərənnüm etmək, ancaq Sizin ucalığınızda ola bilərdi. Mümkün idi. Bu yazıda yazıla biləsi, düşünüləsi hər şey var. Sükutun, səssizliyin içindən süzülüb gələn, pıçıltı ilə deyilə biləsi hər şey.

Sizinçün, doğmalar, Sizi sevənlər üçün daha ağır keçən bu bir ildə biz Rafiq müəllimi yenidən kəşf etdik. Və Böyük İnsanın bütün Böyük İşləri ilə bərabər Sevgisinin də Böyük olduğunun şahidi olduq.

Kimsənin yaza bilmədiyi, bəlkə də yazmaq istəmədiyini Siz elə yazdınız, elə dediniz ki, o pıçıltını eşitmək üçün hamımız susmalı olduq. Hamımız diqqət kəsildik. O kövrək pıçıltılar hələ də eşidilir.

Sizi, böyük Alimi, böyük, kövrək Ürəyin sahibini biz çox sevirik. Çünki Sizi tanıdıqca mənən təmizlənirik, saflaşırıq.

Nə yaxşı ki, Sizi tanıdıq. Nə yaxşı ki, varsınız. Var olun.

Siz bizə, bu xalqa, bəşəriyyətə çox lazımsınız, Rafiq müəllim.

Allah səbir versin".

* * *

Şairlərin, yazıçıların, rəssamların, alimlərin, sənət adamlarının, ümumiyyətlə, bütün yaradıcı insanların ömür-gün yoldaşı olmaq çox çətindi. Axşamlar

evə gec gəlməyinə dözmək. Yolunu gözlədiyin kəsin evdə də nə vaxt iş otağından çıxacağını, işindən ayrılacağını gözləmək. İşləyərkən mane olmamaq, toxunmamaq. Onunla harasa getmək üçün mütləq vaxtın və işin olub-olmamasını öyrənmək və yenə gözləmək. Hətta ayda, ildə bir dəfə gediləsi olsa belə. Həmişə "işim var" kəlməsinə dözmək və öyrəşmək ağrısı, acısı…

Adi insan, ömür-gün yoldaşı yaşayışından çox uzaq, məhrumiyyətlərlə dolu bir həyat. Əgər buna həyat demək olarsa.

Bəzisi bunlara sona kimi tab gətirə bilmir. Bütün bunlara dözən və qəbul edənlər də az deyil. Bu həyata, bu yaşayışa dözənlər, tab gətirənlər və bunu qəbul edənlər fəxr ediləsi insanlardır. Hər gün eyni formada təkrarlanan, davam edən bu həyatda sən həm də ömür-gün yoldaşına dayaq olmalısan, ona ilham verməlisən. Onu ruhlandırmalısan. Buna isə hər kəsin gücü çatmır. Dözmür. Ən gözəli, məhrumiyyətlərdən ucalığa gedən bu yolda bunu sevərəkdən etməkdir. Kim dözüb içində onu doğrayan ağrıdan, acıdan fərqli, üzdə xoş bir təbbəssüm yaradırsa, varsa, bunun o biri ucunda mütləq uğur var. Yüksəliş var. Hər ikisinin uğuru. Birinin dözümü ilə o birinin zəhmətinin qarşılıqlı uğuru.

Hamı ailəni onun qayğılarıyla, tələbləri ilə birlikdə yaşamaq istəyir. Amma Yaradanın sənə verdiyi yazmaq, yaratmaq missiyası da var ki, sən onu da yerinə yetirməlisən.

Türk dünyasının böyük şairi Nazim Hikmət deyirdi ki, xoşbəxt o kəsdir ki, səhər sevinə-sevinə işə gedir, axşam sevinə-sevinə işdən evə qayıdır.

Hər bir yaradıcı adamın uğurunun yarısı onun ömür-gün yoldaşınındı. Ona ruh verən, onda xoş ovqat yaradan və onu bu uğura aparan, vadar edən, QADINının. Mənə elə gəlir ki, Rafiq müəllimin əldə etdiyi, qazandığı uğurlarda Aidə xanımın rolu şəksizdir.

Moskvada çox az aspirant maaşıyla kirayədə yaşayaraq ən adi yaşayışın çətinliklərinə, acısına dözmək və bunu bir dəfə də olsun üzə vurmamaq, nəzərinə çatdırmamaq, hələ yoldaşına ürək-dirək vermək və yenə dözmək, dözmək... Bu böyük mətinlik, iradə və ən əsası böyük insanlıq tələb edir. Aidə xanım bu kateqoriya insanlardan idi.

İnsan doğmasının, əzizinin, sevdiyinin narahatçılığının günahını qismən özündə görür. Öz günah süzgəcindən keçirir. Rafiq müəllim Aidə xanım dünyasını dəyişəndən ABŞ-a gedə bilmir. Bəlkə də hər dəfə metrodan çıxanda aylarla bütün günü tanımadığı məmləkətin bir odasında tək-tənha oturmağa tab gətirə bilməyib metronun qarşısında o yan-bu yana gedərək Rafiq müəllimi gözləyən və gərginlikdən görəndə belə onu tanımayan Aidə xanımın indi rastlaşa biləcək kölgəsindən ehtiyat edir. Bəlkə də...

* * *

"Cəhənnəm, insan ürəyində sevginin bitdiyi yerdir", – deyir, Dostayevski.

Rafiq müəllim özünün son kitablarını ona, dünyalar qədər sevdiyinə, onun bu yüksəlişində yardımçı olan, dözüm göstərən Aidə xanıma, həyatını ona həsr edən insana ithaf edir.

Mövlana: "Yalnızlığın ən pisi, səni anlamayanların arasında qalmaqdır", – deyirdi.

Rafiq müəllim, nə yaxşı ki, Sizi anlayan doğmaların, dostların, Sizi çox sevən insanların əhatəsindəsiniz.

* * *

Mən həmişə Sizin səmimiyyətinizə inanmışam. Dediklərinizdə də, hərəkətlərinizdə də, etdiklərinizdə də.

"Gözlərin məni buraxmır" ifadəsinə də.

Aidə xanımın "...səninlə evimizə gedə bilmədiyimə görə məni bağışla...", – söyləyən, məna dolu baxışlarının sizi maşına kimi ötürdüyünü görəndə bu dünyada çox şeylərə inanmağa başladım....

**Rəfail Tağızadə**

## RAFİQ ƏZİZ OĞLUNUN KƏDƏRİ, NAZİM HİKMƏTİN TƏSƏLLİSİ

***(açıq məktub)***

İstəkli dostum, qardaşım, əzizim Rafiq Əziz oğlu!

2011-ci ilin baharı kədər, qəm-qüssə dolu bir ovqatla döydü Sizin könlünüzün, ömrünüzün, evinizin, dünyanızın qapısını və əcəl adlı sirri-xuda içəri keçərək təbəssümü kölgələnmiş, gözlərinin işığı qüruba doğru enmiş, saçları buludlanmış, ürəyinin qanadları çırpınmaqdan taqətdən düşmüş vəfalı könüldaşınız Aida xanımı özüylə götürüb gedər-gəlməz uzaqlara apardı...

Həmən qəmli günlərdə mən də dostlar, tanışlar kimi, yas mərasiminə gəldim, Sizin kömürə dönmüş kişi bənizinizə heyrətlə baxıb, «Allah rəhmət eləsin, təsəlli üçün söz tapmaq çətindir» – deyib keçib getdim...

Şəhərdən kənarda, Şüvəlandakı bağ evində bu yazıya başlayanda yenə də söz gəzən ovçuya döndüm, söz axtarmağa güc verdim, istədim ki, nəsə elə bir söz tapım, fikir söyləyim ki, Sizə, sizin kədərinizə yaraşan olsun, sınıq könlünüzdə, yaralanmış ruhunuzda bir təşəlli vadisi üfüqlənsin, başınız üstə masmavi bir Göy qübbəsi havalansın, içinizə, çölünüzə narın bir yaz yağışı səpələnə bilsin, ayaqlarınız torpaqdan, əlləriniz budaqdan, könül dünyanız bu əzəli-sonu bilinməz sehirli-sirli kainatdan ayrı düşməsin, gecələr ulduza dönüb göylərin dərinliklərinə axıb getməsin...

Mən belə bir ovqatda ikən köməyimə gələn oldu, qolumdan tutan tapıldı, qorxma, qələmi götür − deyən göründü...

Bu bənzərsiz dahi şəxs kim olsa yaxşıdır? Planetimizin ulu şairi, böyük türk oğlu Nazim Hikmət!

Nazim Hikmətlə dərdləşməyə, ondan məsləhət almağa şükürlər olsun ki, cürətim çatdı, ustaddan soruşdum ki, nə deyək, nə söyləyək ki, istəkli qadınına − balalarının anasına, ömür-gün sirdaşına, əvəzolunmaz könüldaşına Qarabağın qədim Qarağacı qəbirstanlığından uzaq, küləkli, qumlu bir torpaqda qəbir yeri qazdırmış elm cəngavəri Rafiq Əziz oğluna təsəlli ola bilsin...

Nazim Əfəndi: – mənim kitablarımı vərəqlə, bəlkə nəsə tapa biləsən, pıçıldadı – itirdiklərimdən, qadınıma məktublarımdan, dostlara söylədiklərimdən bəhs edən yazılarımı təkrar-təkrar oxusana −dedi mənə. (Yeri gəlmişkən, ulu şairimiz Nazim Hikmətə, onun zəngin yaradıcılığına, maraqlı şəxsiyyətinə şər atan, qara yaxan nadan kəslər də tapıldı, təəssüf ki.. Şərə lənət!)

Ürəyimə yatan misraları yenidən oxudum:

*«Ayırma öz anandan torpaq ananı,*
*Torpağı sev, anan qədər!»*

Nə vaxt ayırdıq ki, torpağı anamızdan, ananı torpağımızdan. Tövbə!

Birdən elə bil üstümə qayalar-daşlar uçub töküldü, silkələndim, dalğalandım, tir-tir titrədim, ayıldım:

– Hanı torpağım, hanı anam Qarabağım? Hanı Şuşam, hanı Ağdamım, hanı küçəm, hanı ata evim, hanı oxuduğum 1 nömrəli məktəb, hanı qohum-qonşularım, bağlar, baxçalar, babam, nənəm uyuyan Qarağacı qəbirstanlığı, hanı göylərə qalxan Ağdam – Şuşa – Laçın yolları? Ha boylanıram, ha baxıram görə bilmirəm. Ya yollar kor olub, ya mənim gözlərim...

Qarabağ təkcə zirvəli dağlar, dibigörünməz dərələr, qızıl çəmənlər, üfüqlərədək uzanan çöllər, qara-çəhrayı torpaqlar, bulaqlar, çaylar, meşələr, bağlar ... deyil.

Qarabağ – mənəm, sənsən, bizik, hamımızıq, anamız, atamız, istəkli yarımız, doğmalarımız, yaxınlarımız, canımız, ruhumuzdur, bütün milli mənsubiyyətimizdir Qarabağ! Bəlkə düz demirəm, Rafiq müəllim?! Onun göylərindəki quşu da, çaylarındakı daşı da, ağacı da, kol-kosu da, doğulanı da, öləni də bizimdir.

Sizin könül sirdaşınız Aida xanım da bizimki deyildimi...

Ağdamın ağ günlərini görmüş atanız Əziz kişi, ananız Sayad xala, qardaşlarınız – Həsən müəllim, uşaqlıq dostum Səyyaf da bizimkiydilər, unudulmaz xatirələri ruhumuzun səmasındadı...

Böyük Nazim bəyin səsi gəlir uzaqlardan:

*«Yaşamaq!*
*Bir ağac kimi tək və azad*
*və bir meşə kimi*
*qardaşcasına*
*Bu həsrət – bizim!"*

Hə, Rafiq müəllim, Sizi ovunduracaq, təsəlli verəcək söz hanı ki... Kitablarda olsaydı oxuyub əzbərləyərdim, dükanlarda tapılsaydı alardım, yuxularda görsəydim diksinib ayılardım ... Hanı, hardadır o tilsimli söz...

Və yenə ulu Nazim Əfəndi gəlir köməyimizə, 1954-cü ildə oğlu Məmədə yazdığı məktubda görün bir nələrdən danışır böyük ustad:

*«Qəti olmur*
*dünyadan doymaq,*
*dünyadan doymaq.*
*Dünyada kirakeş kimi deyil,*
*öz doğma evin kimi yaşa,*
*Toxuma, torpağa,*
*dənizə inan*
*insana hamısından əvvəl!*
*Buludu, arabanı;*
*kitabı sev*
*insanı hamısından əvvəl!»*

Uzun müddət məşhur «Şur» ansamblına rəhbərlik etmiş Abbas Yusifov da yas çadıranda mənə "Rafiq müəllim yaman qaralıb", – dedi.

Görəydim, böyük Səttar Bəhlulzadəyə desəydilər ki, (bəlkə də yalvarsaydılar ki...) kədərin rəngini çək, o rəng şairi, kədəri hansı rəngdə təsvir edərdi,

hansı rəngin çalarına oxşadardı kədəri... qarayamı, ağamı, sarıyamı, bəlkə elə yaşıl-yasəmən rəngində «dirildib danışdırardı» kədəri... Bu, Tanrı sirridi, Ulu Yaradandı rəngdən-rəngə salan ömrümüzü, günümüzü, gecəmizi, gündüzümüzü...

Bəs aprel-may aylarının cilvəli və cazibədar boyalarını kədərli ovqat bürüyərsə, onda necə...

O bəxtəvər Qarabağlı günlərimizdə tonqallı, qovurğalı Novruzu yola salıb, nərgizli, laləli, yovşanlı, yasəmənli, qulançarlı, ipək saçlı, yaşıl barmaqlı, zümrüd yağışlı aprel-may ayları göylərdən enib nazlana-nazlana yeriyəndə canımızın, ruhumuzun paytaxtı Ağdamdan üzüyuxarı zirvələri işıqlı dağlara sarı boylanıb cəsarətlə addımlayan yolların sağı-solu cənnətə bənzəyərdi, baldan şirin bulaqlardan, dağ çeşmələrindən çoxalıb gələn, axarının çuxur yerlərində çay daşlarından bənd düzəldib yay aylarında ləzzətlə çimdiyimiz Qarqar çayı, əzgilli, narlı Şelli bağları, minbir dərdin dərmanı olan bedana tutunu silkələyib yeməklə doymadığımız Çaybağça adlanan balaca vadi "gəl-gəl" – deyib, doğma qollarını bizlərə açardı.

Həmin aylarda baba-nənə qəbirstanlığımız Qarağacı da yaşıl bir kədərə bürünərdi, bir az başqalaşardı, zindan kimi ağır yuxulardan oyanmaq möcüzəsi olmayan insanların nisgilli ruhu məzarlar ətrafında qüssəli yaz çiçəklərinə, yaşıl otlara dönüb görünərdi... Bizlər vəfasız çıxdıq, çiçək qədər, ot qədər də ola bilmədik. O bəxti qara qıfılla bağlanmış Qarabağımız indi hanı?...

Bununla belə, mən qəti inanıram ki, erməni yaramazların küllü Qarabağda qalmasının prespektivi yoxdur.

Bütün o xain idbarlar son dığasınadək yurdumuzdan rədd olub itəcəklər, torpağımız təmizlənəcək. Bu, reallıqdır. Düşünürəm ki, o bəxtəvər günləri görəcəyik.

Və o yerlərin behişt aprel-may aylarının ab-havası hələ də beynimizdə, qanımızda qaynamaqdadı, desəm, mənə inanın. O şəfqətli aylarda dəliqanlı oğlanların ədası, məğrur və ötgəm qızların gözəlliyi küçələrə, yollara, Yerə, Göyə Sığmazdı.

Siz Allah, məni qınamayın, Rafiq müəllim, çox-çox uzaqlara gedib çıxdım, deyəsən. Amma əvvəlki söhbətimizə qayıtmağa fürsət tapa bildim, Siz çox həssas və qeyri-adi istedada malik şəxsiyyətsiniz. Bəlkə siz deyəsiniz, 2011-ci ilin aprel-may ayları Sizin yaddaşınızda hansı rəngdə qaldı, o rəng qaradımı, ağdımı, sarıdımı, yaşıldımı... bəlkə elə o ayların rəngi yoxuydu, bəlkə bütün rənglər quşa dönüb uçub getmişdi, qeybə çəkilmişdi?.

Yenə də doğma Nazim Əfəndinin kişi səsini eşidirəm:

*«Keçib getmiş günlər gəlin!*
*Şərab için, sərxoş olun.*
*Tütəklə nəğmələr çalın*
*Bu kədər öldürdü məni!..»*

Əziz dost!

Deyirlər ki, sevdiyin bir adamı itirəndə onu birə ikiqat sevirsən, bu itgi yandırar səni. Aidə həkim sizin tərkibinizdəydi, hava kimi, su kimi, qan kimi siz onunla bütöv idiniz, tanışlığınızın möcüzəsi hər ikinizi bəxtiyar etmişdi. Bir-biri

üçün dünyaya gəlmiş insanların (kişi və qadının!) tapışması, bir-birini kəşf etməsi dünyanın ən nadir möcüzəsidir, məncə... İnsan kəşfə ehtiyacı olan ən yaxın və uzaq planet deyilmi. Hansı kişi deyə bilər ki, ili, günü, saatı, məkanı məlum olan bir yaz gecəsində qadını onun haqqında nə düşünür və yaxud kişinin illərlə bir yastığa baş qoyduğu qadını haqqında fikrindən xanımının xəbəri varmı...

Tamlıq, bütövlük, həmahənglik, istək, duyğu cilvəsi olmayanda belə suallara cavab gəzmək qəti vacib deyil, fikrindəyəm. Ayrılıq Allah işidir, bəndələrə qəti daxli yoxdur ayrılıqların. Bir diqqət yetirin görün Nazim bəy ayrılığın nisgilindən necə yaza bilib, Rafiq müəllim:

*«Bu gündə... sənsiz*
*Yəni yarı-yarıya, dünyamız*
*keçdi bu gün də...*
*Bir azdan açar*
*gecə çiçəkləri*
*qırmızı-qırmızı.*
*Daşıyar havamızda*
*səssiz,*
*igid qanadlar*
*Vətən ayrılığına bənzər*
*ayrılığımızı...»*

Yormadım ki, sizləri istəkli Rafiq Əziz oğlu?!

Söylənilmiş müdrik fikirlər, deyilmiş bayatılar, oxunmuş mahnılar o vaxt sənin olur ki, o düşüncələr silsiləsində sən özünlə görüşə biləsən, üzünü qaranlıqlardan Günəşlərə sarı çevirmək gücünə qadir olasan!

Ən doğma adamların, istəklilərin ölümüylə həyat bitmir, belə itgilərlə Siz az üzləşməmisiniz, Rafiq müəllim.

Yenə də böyük Nazimin «Arvadıma məktub» şeirindən (Bursa dustaqxanası, 1933-cü il) sitat:

*«Yaşamaram səni*
*asarlarsa,*
*Səni itirsəm – deyirsən.*
*Yaşarsan, birdənəm.*
*Qara bir duman kimi*
*xatirəmi*
*dağıdar küləklər.*
*Yaşarsan, qəlbimin*
*qızıl saçlı bacısı.*
*Ən artıq bir il çəkər*
*iyirminci əsrdə*
*ölüm acısı...»*

Beləcə, hər açılan səhər, boylanan Günəş, əsən külək, yağan yağış, ötüb keçən bahar, qış – bütünlükdə əbədi təbiət bizləri fürsət varkən yaşamağa, ya-

ratmağa, sevməyə (hə, həm də nifrət etməyə!) ucalmağa səsləməkdədir. Bu, həmişə belə olub, sabah da, o biri gün də belə olasıdır.

Bununla belə, mən Sizə yenə də müqtədir şairimiz Nazim Hikmətin bir şeirini də xatırlatmaq məqamındayam və bu məşhur şeir 1958-ci ildə Praqada qüdrətli ədəbiyyat alimi Mikayıl Rəfilinin ölümündən (53 yaşında!) bəhs edir:

*"Yəni səsimiz*
*Göy qübbəsinin*
*altında qalacaq deyə*
*təsəllimiz yoxdur.*
*Mən kı, öz payıma*
*buna kədərlənmirəm,*
*təsəllisiz yaşamağı*
*bacardım.*
*Təsəllisiz ölməyi də*
*bacararam*
*Sənin kimi, Rəfili!..."*

Sizin Aida xanımın solmaz xatirəsinə həsr etdiyiniz "Gözlərin buraxmır məni" yazını (elegiyanı!) oxudum, sonuncu cümlələrdən kövrəldim, könlüm, gözüm yaşardı.

Yaxşı ki, o fikirləri yaza bilibsiniz, gücünüz çatıb. Yoxsa içinizdəki qurğuşuna dönmüş ağrılar, Allah eləməsin, qırmaya, gülləyə çevrilib sizə tərəf tuşlanardı… Şükürlər olsun ki, belə bir xətadan qurtara bilmişik... Və sizi lap uşaqlıqdan tanıyan – bilən, (yenə də mötərizə açmağa məcburam – görəsən biz niyə Allahın nadir istedad bəxş etdiyi şəxsiyyətləri bəzən tanımaq – bilmək, qəbul etmək istəmirik, həqiqəti inkar edirik...) səmimiyyətinizə və istedadınıza zərrəcə şübhə etməyən mən, böyük Nazimdən son olaraq aşağıdakı beyti yazmaq məqamına gəldim:

*"Mən səndən çox əvvəl*
*gedəcəyəm,*
*Sən mənsiz qalacaqsan*
*qocalığında ... "*

Qəribə də olsa, istədim ki, bu yazını elə üç qara nöqtəylə bitirim, düşündüm ki, yox, belə sərrast misralarla Sizi bir daha kədərləndirmək, kövrəltmək insafdan deyil. Ona görə də ölümün fəlsəfəsi haqqında qədim yunan alimi Epixarmın dediklərini yada salmağı vacib bildim:

"Qovuşdu və ayıldı, gəldiyi yerə qayıtdı: torpaq – torpağa, ruh – göylərə...
Burda qorxulu nə var ki?
– Heç nə!.. "

Allah köməyiniz olsun!

**Ramiz Məmmədzadə,**
**şair**
24.06.2011, Şüvəlan

## RAFİQ ƏLİYEVİN ACISINA YOLLADIĞIM ACI

Əzizim Rafiq müəllim!

Acınızdan çox gec xəbər tutdum. Və bilmirəm sizə nə deyim. Bilirəm ki, doğmasını itirən adamlara ha təsəlli versən də, itirdiklərinin yerini heç nə vermir, itkilər geri qayıtmır. İllər ötdükcə biz də ürəyimizdəki acılarla itkiyə dönürük və bir-bir itkilərin yanına köçürük. Qərib durnalar kimi.

Aidə xanım da qərib durna kimi köçdü. Eləmi, Rafiq müəllim?

Tanıyıb tanımadığım, görüb görmədiyim Aidənizə içimdən gələn ağrıları qərib durnalar kimi qatara düzüb gedər-gəlməzə yollayıram.

Bilirəm ki, bu yazını Aidə xanım da oxuyacaq və titrək əlləri mənim hələ də bu yazını yaza-yaza yanaqlarımdan cızıldaya-cızıldaya axan qaynar göz yaşlarımı siləcək. Amma nə deyəcək?.. Onu bilmirəm. Çünki...

## XATİRƏ CIĞIRI, XƏYAL CIĞIRI

*Professor Rafiq Əliyevin vaxtsız itirdiyi*
*həyat yoldaşı Aidə xanımın xatirəsinə*

Bir cüt kölgə düşür illərin üstə,
Bir cüt yarpaq kimi saralır ömür.
Bu boyda dünyaya gəldiyi gündən
Yığılıb boğçaya daralır ömür.

Sonra illər keçir, əyyam dəyişir,
Nağıl boğçasını açırsan bir gün.
Gözündə olumla ölüm döyüşür
Durub bu dünyadan qaçırsan bir gün.

Qaçırsan, bilmirsən haradı yönün,
Dəliyə dönürsən, dəli olursan.
Səssizlik içində kəsilir ünün,
Qırılan yollarda sınıq qalırsan.

Bir nəğmə deyirsən, vida nəğməsi.
Qanrılıb baxışın özünə dönür.
İtir diri səsin, itir sağ səsin,
Gözündə işaran ulduzlar sönür.

Baxtın baxtsızlığı, baxtın baxtıymış,
Baxtın gətirməyi gəciymiş demə.
Bir qərib başdaşı qismət payıymış,
Təzədən doğulmaq geciymiş demə.

Nisgillər göyərir, dağlar göz dağı,
Ürək Vətən deyir, Aidə xanım.
Gözlərin yol çəkdi ölümqabağı –
Bakı Ağdam deyil, Aidə xanım.

Ağdam uzaqlarda, xatirələrdə,
Taleyi cavabsız sualdan keçir.
Bir cığır qalmayıb doğma yerlərdə,
Ora bir cığır var, xəyaldan keçir.

Xatirə cığırı, xəyal cığırı,
İtəni-ötəni oyadır belə.
Kimsə uzaqlardan səni çağırır,
Kimsə xəyallardan qayıdır belə.

Bir cüt kölgə düşür üzüaşağı
Bir cüt yarpaq uçur xatirələrdən.
Sonra öləziyir ayın işığı,
Sonra durna köçür xatırələrdən.

## BİLİRSƏN...

***(Professor Rafiq Əliyevin həyat yoldaşı Aidə xanımın sənsizliyinə pıçıltısı... "Bu pıçıltını küləklər qanadında yarpaq-yarpaq gətirdi mənə").***

Elə qopub əllərimdən əllərin,
Əllərimdən tuta bilməz, bilirsən.
Acılardan acı içir ürəyim,
Şirinliyə bata bilməz, bilirsən.

Bir sahiləm, ləpədöyən, dərddöyən,
Yurdum-yuvam bəlli olub, dərddəyəm.
Gözlərinin üstündəki yerdəyəm,
Ordan məni ata bilməz, bilirsən.

Sözün bitib sözlərimin içində,
İzin hanı? İzlərimin içində.
Baxışların gözlərimin içində,
Bir də gəlib yata bilməz, bilirsən.

Bir xatirə yarpağıdır adın da,
Hər an mənim yadımdadır, yadımda.
İnnən belə həsrətinin çatında,
Adam ölər, həsrət ölməz, bilirsən.

Niyə belə əl çəkmisən ömrümə,
Tarix yazıb, qol çəkmisən ömrümə.
Sənsizlikdən yol çəkmisən ömrümə,
Gələn gedər, gedən gəlməz bilirsən...

**Esmira Məhiqızı,**
**şair**

## UNUDULMAYANLAR ÖLMÜRLƏR

### *Elegiya*

Bir yazı oxudum. Onu elegiya da adlandırmaq olar, ağı da. Vida nəğməsi də demək olar, həsrət harayı da. Amma bütün bunların nə fərqi? O, mənə sadəcə bir manqal közünü xatırlatdı. Həmişə bu fikirdə olmuşam ki, böyük məhəbbət böyük ürəklərdə olur. Kiçik ürəklər olsa-olsa yaşamaq üçün vurur. Böyük ürəklər isə böyük məhəbbətləri, həm də böyük dərdləri yaşadırlar.

AMEA-nın müxbir üzvü, dünya şöhrətli alim Rafiq Əliyev "Gözlərin buraxmır məni" adlı yazının altında nə elmi titulunu göstərib, nə də ünvanını. (Həmişə belə sadədir). Ünvan – ÜRƏKdir. Pıçıltıda haray, harayda pıçıltı... Ömür-gün yoldaşı Aidə xanımın məzar daşındakı şəkli ilə söhbət bir ömrün dastanından danışır. "Əzizim Aidə, bu gün sənsizliyimizin 40-cı günüdür", – deyir Rafiq müəllim. 47 illik birgə ömür yolunun sonundakı 40-cı gün!..

Hələ sənin üstünə nə qədər günlər gələcək, həsrətin qırovu düşüb, qarı səpələnəcək. Təqvimdəki günlərdən, ötən illərdən savayı heç nə dəyişməyəcək. İntizar da, hicran da yenə də cavan, üşüdən, göynədən qalacaq. Rafiq müəllim ömrün gəncliyində Aidə xanıma yazdığı "Gözlər" şeirindən misraları xatırlayır:

*Mən nə deyim o gözlərə,*
*Ulduz deyim...*
*Yox, ulduzlar Göydə yanır,*
*O gözlərsə ürəyimin*
*Lap içində alovlanır...*

Həmişə digər sahədə çalışıb, ədəbiyyata, şeirə yaxın insanlara ən həssas, ən böyük duyğu adamları kimi baxmışam. Bu şeir gör neçə illərdir Rafiq müəllimin yaddaşında yaşayır. İşə bax, riyaziyyat alimi, dürlü-dürlü elmi kəşflərə imza atan böyük elm adamı məzar daşından baxan xanımının gözlərinin səmtini müəyyənləşdirə bilmir. Bəlkə o, bu səmti dəqiqləşdirmək istəmir. Bir nöqtəyə tuşlanan nəzərlər bir nöqtədəcə ilişib qala bilir. Rafiq müəllim bu gözlərin işığını hər nöqtədə, hər yerdə görmək istəyir. "Əzizim Aidə. Səni hər gün düşünürəm, düşünəcəm də. Lakin mənim bütün rahatlığımı alan sənin məzar daşındakı şəklindən baxan, yol çəkən, ürəyimdə dilim-dilim alovlanan, közərən, yandıran nisgilli gözlərindir. Hansı səmtdən şəklinə baxıramsa, gözlərin mənimlədir.

... Hava qaralır. Şəklinə baxa-baxa qəbiristanlıqdan çıxmaq istəyirəm. Gözlərin buraxmır məni".

Vaxt olub ki, əzizlərimin, doğmalarımın məzarlarını ziyarətim qəbiristanlığa axşamın toranlığının düşdüyü çağlara təsadüf edib. Belə anlar gözləri yol çəkən məzar daşlarından ayrılmağın nə qədər üzüntülü, ağrılı olduğunu mən bilirəm.

Onları axşamın qoynunda qoyub işıqlı evə qayıtmaq yaman çətin olur. Qəbiristanlıqlarda hər zaman diri olan ölü bir sükut fırlanır. Rafiq müəllimin bir sütunluq qəzet yazısı mənə bəzən bir romanın belə verə bilməyəcəyi duyğunu, kövrəkliyi bəxş elədi. Aidə xanım "dünyamız ədalətə hamilədir. Özü də yarımçıq yox, bütöv bir ədalətə" deyirmiş. Yazının bu yerinə gələndə isə iş həmkarım Yusif Dumanlı: "Bu, həm də ictimai yanğısı, ağrısı olan böyük bir insan itkisidir", – dedi. Bəli, dünya artıq yarımçıq ədalətdən və bir də yarımçıq məhəbbətdən əzab çəkir. Hər şeyin bütöv olmaq və bütöv görünmək zamanı yetişibdir. Məhəbbətini etiraf edənlər böyük insanlardırlar. Biz ömrün bütün anlarında bu böyük məhəbbətin möhtacı deyilikmi?

On il bundan əvvəl Moskvada cərrahiyyə əməliyyatı olunmalı idim. Bakıda qoyulan səhv diaqnozlar məni ölümün bir addımlığına aparıb çıxarmışdı. O çətin məqamlarda olum və ölüm arasında ömür yoldaşıma yazdığım bir şeirin iki bəndini bu yazıda xatırlamadan ötə bilmirəm:

*Kim üçün ölsəm də, səninçün sağam,*
*Dirilləm gözünün yaşını silsən.*
*Torpağı çiynimdə qaldıracağam,*
*Məni uzaqlardan görə biləsən.*

*Bir gün sözlərimi ötər anadil,*
*Ölüm var yalandı, ölüm var haqdı.*
*Ölüm bu dünyada hələ son deyil,*
*Ölüm bu dünyada unudulmaqdı.*

Hörmətli Rafiq müəllim, qələm dostunuzun "Ölüm nədir?" sualına "Ölüm borcdur, bir də ölümsüzlüyün başlanğıcıdır" cavabı vermisiniz. Ölüm həm də unudulmaqdır, yaddan çıxmaqdır. "Əzizim Aidə, səni hər gün, hər an düşünürəm, düşünəcəm də", – deyirsiniz. Heç belə də ölüm olar? Bu, sadəcə gözlərin gözlərə olan həsrətidir. Böyük ürəyinizin pıçıltılı iniltisi qulaqlarımda uzun zaman səslənəcəkdi. Nə olsun ki, bir dəfə də olsun üz-üzə, göz-gözə dayanıb dərdləşməmişik. Hesab edirəm ki, bu ağır məqamı Sizinlə günlərlə bölüşüb danışmışıq. Var olun ki, böyük məhəbbət yiyəsisiniz. Əmin olun ki, unudulmayanlar heç zaman ölmürlər. Bu böyüklükdə məhəbbətinizi qazanan ömür-gün yoldaşınızın yeri behişt olsun!

**Taleh Həmid,**
**şair, publisist**
02.06.2011

## GÖZLƏRİ BURAXMIRDI ONU

Tanışlığımız cəmi-cümlətanı bir ildi. Şəxsi tanışlığı deyirəm, belədə eşitmişdim haqqında, böyük alim olduğunu bilirdim. Təxminən 10 il əvvəl ABŞ səfirliyinin ənənəvi 4 iyul qəbullarından birində kənardan baxmışdım da.

“Baxmaq hələ görmək deyil”, – düz deyirmişlər.

İlk dəfə isə ötən il bir kitab təqdimatında gördüm, yaxınlaşıb: “Siz “Ruhlar şəhəri” yazılarının müəllifi deyilsinizmi?”, – soruşmuşdu. Oxuyurmuş, özü də elə-belə yox, diqqətlə, hansı duyğularla oxuduğu söhbətindən bəlliydi. Həmin günün tanışlığı, sonrakı aylarda hər yazıdan sonra zəng edib dedikləri və nəhayət, o silsilə yazıların eyni adla nəşr olunduğu kitaba “Son söz” yazısı onu bütün varlığı ilə görməyə bəs elədi.

Görmək də hələ tanımaq deyil.

…Xəstə yatan aylarda xanımını yaşatmaq üçün çox çabaları oldu, burda da, xaricdə də. Xanımını itirən gün də gördüm onu, sonrakı 40 gündə də müşahidə elədim. Tünd eynəyi gözlərinin dərinliyini, baxışlarının duruluğunu əvvəllər də gizlədə bilmirdi. Bu 40 gündə isə gözlərindən qəlbinə bir yol çəkilmişdi, hamıya açıq olan yol. Amma bu yoldan hamı keçə bilirdimi?

Bu yolu gedib qəlbinin sərhədsiz ənginliklərinə baş vurmağın bir sirri varmış – sevgi. Onu sevgisiylə tanıdım – ölümünün 40-cı günündə xanımına yazdığı “Gözlərin buraxmır məni” yazısı ilə tanıdım, qəlbinin sonsuzluğu sevgisinin üfüqlərində itən adamı.

“Gözlərin buraxmır məni” sözləri uşaqlığımın zaman qaranlığında itib-batan elə bir xatirəsinə işıq tutdu ki, sanki onu körpəlikdən tanıyırmışam, uzaqlardaymış, qayıdıb gəlib. Gəlib və çox doğma bir adam olub…

* * *

*“Lenin, Lenin yolunda,*
*Qızıl bayraq əlimdə.*
*Çalışırıq, vuruşuruq*
*Lenin baba yolunda”.*

Divarda – atamın çarpayısının başında babamın böyük portreti asılmışdı. Ötən əsrin 20-ci illərində Tiflisdə çəkdiribmiş. Bu, babamın bizdə olan yeganə şəkliydi. Pionerə keçən gün həyatımda nəsə yenə mərhələ başlayırmış kimi sevinmişdim. Evə gələndə babamın şəklinə pioner “salyut”u verib bu şeiri deməyim nənəmin xoşuna gəlməmişdi. Üz-gözünü turşudub mənə elə baxmışdı ki, elə bil şəkli salıb sındırmışam – o bu şəklin üstündə əsirdi. Sonra şəklə çevriləndə üzü tamam dönmüşdü – bu, sevgi etirafı gözləyən sevdalı bir qızın baxışlarıdı elə bil.

Sözləri hələ də qulağımdadı: "Bu sənin babandı, Lenin məktəbdə olur". Sonra boynumu qucaqlayıb: "Ta bir də o şeiri demə", – dedi.

Ta bir də o şeiri demədim…

Hər dəfə babamdan söz düşəndə üzünə qəribə bir hüzur çökürdü, səsi alınırdı. Bu onun uzun illərin o tayında qalan sevgisinə ehtiram nişanəsiydi. Nənəm babamın onu Tiflis teatrlarının birində görüb vurulmasından, əmisigilin Şeytanbazardakı evlərindən faytonla gəlin köçməsindən, yaşadıqları acılı-şirinli günlərdən danışanda uşaq idim, onun qəlb döyüntülərini, hələ də diri saxladığı sevgisini duymurdum. Onu indi, babamla bağlı xatirələrini danışanda sönük gözlərinə qonub can verən parıltını xatırladıqca duyuram.

Babam 1946-cı ildə, nənəmsə ondan düz 46 il sonra – 1992-ci ilin baharında rəhmətə gedib. Bu o vaxtlar idi ki, artıq müharibə ciddi mərhələyə keçmişdi, ilk erməni mərmiləri Ağdama düşmüşdü, Xocalı qırğını olmuşdu, hər axşam atışma səsi gəlirdi. Şuşa yolunun üstündəki Qarahacılı qəbiristanlığında basdırılmasını hələ çoxdan vəsiyyət eləmişdi. Amma indi oralar çox təhlükəliydi. Atamdan başqa bütün oğul-qızı Bakıda yaşadığından elə burada da dəfn edilməsi fikri yaranmışdı. Can üstəykən bu söhbəti qulağı alıbmış. Gözü atamda barmağıyla uzağı göstərib "ora, Həbibin yanına" pıçıldamışdı.

Atam vəsiyyətinə əməl elədi.

Cəbhənin Qarahacılı qəbiristanlığı istiqamətini Ala Yaqubun dəstəsi qoruyurdu. Güllə səsləri lap yaxından eşidilirdi. Uzun inaddan sonra Yaqub dəfnə kömək üçün 5 əsgər vermişdi, onlar qəbiristanlığı müdafiə edib ermənilərin yaxınlaşmasına mane olurdular. Mollanı dilə tutmaq isə daha müşkül imiş, atam onu necə razı saldığını demədi. Nənəm bax beləcə, 46 il sonra, güllələr altında, mollanın qısıla-qısıla, qorxaq səslə oxuduğu "Quran" sədasıyla sevgisinə qovuşdu.

* * *

O şeiri dediyim gün otaqdan çıxanda nənəm dayanıb bir də babamın şəklinə baxmışdı. Sanki çərçivədən baxan gözləri onu buraxmırdı.

Eynən başdaşı üstündəki şəklində Rafiq Əliyevi buraxmayan Aidə xanımın gözləri kimi…

**Vahid Qazi,**
26.06.2011

## "40" DÜŞÜNCƏLƏRİ

### *(Rafiq Əliyevin hüzünlü günündə yağan fikirlər)*

Mənim əmim yoxdu. Olmayıb. Hərdən fikirləşirdim ki, kaş lap elə qocalıb əldən düşmüş, yorğun bir əmim olaydı, onunla 3 yaşımda itirdiyim atam barədə danışaydım ...

Bir gün qarşıma ortayaşlı, səbirli, səliqəli, çox alicənəb bir şəxs çıxıb dedi ki, "mən sənin əminəm, özü də bu mənə xoşdu... "

Və biz onunla mənim atam barədə danışdıq...

Həmin adam indiki dünyanin ən böyük azərbaycanlılarından biri – dünya şöhrətli alim Rafiq Əliyev idi. Əmi, özü də bu boyda. Məsuliyyəti ağır olsa də, ürəyinin hüdudları imkan verdiyi qədər sevməli və sevinməli gözlənilməzlik idi...

Həvəslə razılaşdım ki, hə, siz mənim əmimsiniz...

Və bu mənə xoş idi...

Sonra bizim ikimizə də xoş olmayan hadisə baş verdi...

İşdə kompüterin arxasında oturub gündəlik öhdəliyimlə məşğul idim. Halını soruşmaq üçün ona telefon açdım. Adətinə zidd olaraq dedi ki, "çox pisəm, həyat yoldaşım Aidə xanımın vəziyyəti yaxşı deyil".

"Mən nə edə bilərəm", − deyə soruşanda "Heç nə, − dedi. − Həkim deyir heç nə eləmək mümkün deyil".

Dedim, onda mən dua edəcəm.

"Hə, − dedi, − dua edin...!"

Səsinin ahəngi deyəsən məni bərk vurmuşdu. Dəstəyi yerinə qoyub dua eləməyə başladım. Gördüm getdikcə ümüdsiz bir hissə qapılıram. Gözlərimi yumub ucsuz bucaqsız qaranlıqda Allahı axtardım.

Yorulanda üzümü Yaradanın ola biləcəyi səmtə tütdum:

Doğrudanmı heç nə eləmək mümkün deyil?!

Gümanım gələn tərəfdən cavab gəlmədi...

"Susmaq razılıq əlamətidir" deyə gözlərimi açdım və kompüterin ekranında Deyerler.org saytının qənaətimi təstiqlədiyini gördüm: "Tanınmış alim, professor və ziyalı Rafiq Əliyevə ağır itki üz verib. Bir qədər öncə professor Rafiq Əliyevin ömür-gün yoldaşı dünyasını dəyişib... "

Əllərimi klaviaturadan çəkdim...

Deyəsən, kövrəlmişdim...

Sonra yas oldu. Sonra çümə axşamları, sonra "40" oldu...

İl də olacaq. Ümid edirəm ki, Rafiq Əliyevin cismən Aidə xanımsız illəri də hələ olacaq...

Sonra Rafiq Əliyev də olmayacaq (mənim indisi bir az tək, bir az üzgün, bir az da hüzünlü əmim). Amma bu dəfə mən əvvəlki kimi əmisiz olmayacam.

Mənim göylərdə – öz Aidə xanımının əlindən tutub yenidən mutlu olan və həmişə öz əməlləri ilə yenə yol göstərən əmim olacaq. Və mən Onun göylərdəki mutluluğunu özümə təsəlli edlb, yerdəki yoxluğuna həm də üzülməyəcəm ...

(Əgər əlbəttə ki, o vaxta qalsam) Hələliksə mənim orta yaşlı, səbirli, səliqəli, çox alicənab və çox ləyaqətli bir əmim var. Və bu bizim ikimizə də xoşdur.

Əllərimi klaviaturadan çəkirəm...
Allah səbir versin!..

**İlqar Rəsul,**
**jurnalist**
06.06.2011

## SƏSSİZ VİDA

***Nənəm Aidə Əliyevanın əziz xatirəsinə***

...Səninlə ilk dəfə əbədi olaraq vidalaşdım. Son günlər dəfələrlə telefonla danışdıqdan sonra çox çətin də olsa, sonda vida vaxtının yaxınlaşdığını qəbul edib, gecə boyu (Amerika vaxtilə) bütün sənli uşaqlıq xatirələrimə səyahət edərək gözlərimdə bir damla yaş səninlə hamıdan qabaq səssiz vidalaşdım. Almaniyada və Amerikada yaşamağım mənə savad, mübarizə əzmi və ən əsası təsvir edilməsi mümkün olmayan azadlıq həzzini verib, ancaq öz növbəsində bunlara qarşılıq olaraq məni doğma insanlardan ayrı salıb. Bu səbəbdən mənəvi olaraq hər zaman özümü bu "səssiz vidalara" hazırlamağa çalışırdım.

* * *

...Tənhalığın çarəsizliyini ilk dəfə bu qədər dərindən hiss etdim. Günlərlə müxtəlif yerlərdə şüuraltımda çox qəribə bir şəkildə sənin xatirələrin oyanırdı. İlk öncə xoş xatirələr üzümdə təbəssüm yaradır, daha sonra isə yoxluğunun verdiyi böyük acı, çox böyük bir kədərə çevrilərək ruh halımın birdən-birə dəyişməyinə səbəb olurdu.

Yoxluğun həyatımıza yarımçıqlıq, doldurulması mümkün olmayan bir boşluq gətirdi. Uşaq olarkən oynadığımız parkda bizi diqqətli baxışlarla izlədiyin oturacaqda, radionu açarkən təsadüfən qarşımıza çıxan sevdiyin mahnıda, özünəməxsus yeməkləri bişirdiyin mətbəxində, kafelərdə, küçələrdə, məclislərdə və ən əsası, ən doğma xatirələrimizdə sənin izlərin var, ancaq qəbul etmək nə qədər çətin olsa da, sən artıq yoxsan.

* * *

Çox sevdiyim şairlərdən irlandlı William Butler Yeats bir şeirində deyir:

*çox adam sevdi sənin şərafətini,*
*ancaq bir nəfər sevdi*
*sənin ruh halının dəyişkənliyini,*
*və dəyişən üzünün kədərini...*

Bu misralar hər zaman mənə səni xatırladır. İnsanlar onsuz da doğmalarını xəstə halları və ya pis xatirələri ilə yox, həmişə xoş xatirələri ilə xatırlayırlar, ancaq inan ki, çox nadir insanlardansan ki, xatırlandığın zaman hər kəsin üzündə təbəssüm, gülüş yaranır. Ancaq sənin ən doğmaların dəyişən üzündəki kədəri yaxşı xatırlayır. Bu kədər dünyanın ən gözəl guşəsinə getsən belə, hər zaman bir nəfəs qədər yaxınında olan, yurdsuzluğun həsrətindən üzünün cizgilərinə

hopmuş kədər idi. Bu kədər öz torpağına, suyuna, evinə, o torpaqda yatan ölülərinə, gələcək nəsillərin taleyinə və ən əsası, xatirələrinə nigarançılığın verdiyi yükün təzahürü idi. Bu yurdsuzluq kədəri həm də sənin üçün əbədiyyətə gedən yolun vaxtsız dar başlanğıcı və ən məşəqqətli hissəsi idi. Sən artıq əbədiyyət üfüqündə mənəvi azadlığın zirvəsindəsən...

**Nicat Mehdiyev,**
**Münxen Texniki Universiteti və**
**Augsburg Universitetinin birgə**
**proqramının tələbəsi**




***Sağdan sola: professorlar B.Turksen (Kanada), R.Əliyev (Azərbaycan), L.Zadə (ABŞ), O.Kaynak (Türkiyə), M.Cəmşidi (ABŞ), V.Bonfiq (Almaniya)***

# Rafiq Əliyevə həsr olunan şeirlər

***…Ucalığa və kamilliyə gedən birgə ömür yolumuz birdən-birə daraldı, təkləndi, qırıldı və bitdi. Neynək, bu da Allahın işidi! Düzdür, indi o, yanımda yoxdur, amma yaxşı ki o, hələ mənimlədir…***

**Professor Rafiq Əliyevin xatirə dəftərindən**

## SƏN MƏNİMLƏSƏN

Nə yaxşı bilmisən xəstə halımı
Həqiqət eylədin xoş xəyalımı.
Sənin nəfəsindir, sənin əllərin
Oxşayır ruhumu, ovur alnımı –
Kövrəltdi əlimi isti yaşların...
Var ol, bu istəyə, təmasa görə,
Mənimçin Allaha yalvarışların,
Nə deyim bu nəzir-niyaza görə?..
Mən indi bildim ki, sən mənimləsən...

Nə şirin nağıldı, necə xoş xəyal,
Sehrli uyğudu, uyğuya uydum.
Diksindi, titrədi, soyudu könlüm.
Sədaqət istədim,
Yel aldı məni,
Leylək yuvasında uyudu könlüm –
Mən onda bildim ki, sən mənimləsən.

Kəklik balaları fərələndilər,
Anaları baxıb fərəhləndilər.
Birdən qanadlanıb həvəsə gəldi,
Balalar həm daşdan-daşa uçanda,
Gördüm yuva tikən bir qaranquşu,
Könlüm bu quşlarla uçdu yanaşı,
Payız durnaları qoşa uçanda,
Mən onda bildim ki, sən mənimləsən...

Bu mehr küləyi yerinə düşdü,
Çəmənlər məhəbbət sehrinə düşdü.
Meh vurdu, çiçəklər gəldi baş-başa,
Nə yaxşı aralar aradan gedir,
Quşqonmaz tikanı sıradan gedir.
Damcılar süzülür üstdən aşağı,
Boynu ağırlaşan bənövşələr də

Özcə yarpağına baş qoyub yatar.
Hərə həmdəmini tapır deyəsən,
Daşqapan tayını qapır deyəsən,
Başının altına daş qoyub yatar –
Mən onda görmüşəm kövrələn daşı...
Onda xatirələr durur yanaşı,
Mən onda bildim ki, sən mənimləsən...

İsaq-Musaq quşu nəsə axtarır,
Düşüb bir doğmaca səsə axtarır
Quş dili bilənlər ruh dili bilir,
Süleyman quş dili bilən vaxtları,
Nifrətin, pisliyin ölən vaxtları,
Güllərin baş-başa gələn vaxtları,
Bax, onda bilirəm sən mənimləsən.
Qəzəblər yox olub savaş bitəndə,
Haqqın ətəyinə əlim yetəndə,
Boynu ağırlaşan o bənövşələr
gəlir yanıma,
Eşqi həmişələr gəlir yanıma –
Mən onda bilirəm sən yanımdasan.

İnsafla işləsə elçi daşları,
Mərhəmət könlümə cavab yazanda,
Mələklər çiynimdə savab yazanda,
Yığılar başıma qəm yoldaşlarım,
Ümidlər, işıqlar gələr yanıma,
Bütün yaxşılıqlar gələr yanıma –
Onda bilirəm ki, sən yanımdasan.

Şahdağı yanında Sənəm yaylağı,
Nə Sənəm qocalar, nə də Şahdağı.
Şah qalar əbədi, Sənəm də qalar,
Mən onda qalaram, o məndə qalar.
Yanında ailələr düşərgə salar,
Dağdakı lalələr gələr yanıma,
Eşqi piyalələr gələr yanıma.
Mən onda bilərəm sən mənimləsən.
Sən ey mavi göylər,
Səmavi göylər!
Görəsən göylərin qəfəsi varmı?
Görəsən ruhların nəfəsi varmı?
Üfüqdən-üfüqə uça bilirsə,

Durna qatarında nizam qalacaq.
Bizi o qatara yazan qalacaq.
Qalacaq, məhəbbət təzə qalacaq!
Sədaqət rəmzidir,
Bir yaşam tərzi,
Leylək yuvaları,
Haqq tərəzisi,
Bir gözündə mənəm,
Bir gözündə sən,
Yer üzündə mənəm,
Göy üzündə sən.
Göyün azadlığı saxlayar bizi,
Yerin tarazlığı saxlayar bizi.
Qalarıq yer ilə göy arasında,
Gedərik ələnmiş ələklər ilə,
Gələrik qanadlı mələklər ilə.
Deməli əbədi sən mənimləsən...

**Musa Yaqub**

## EY ALLAHIN ADAMI!

*Rafiq Əliyevə*

Sevgiyə bürünsə, çəkməyə
Dərd axı nədi, nədi ki?!
Sən körpü olmaqdan bezdin,
Uçurumlar bezmədi ki!

Mən zalım adamam, zalım,
Sən dərdin, ahın adamı;
Yaşa, var ol, haqq üçün,
Sən, ey Allahın adamı!"

**Rüstəm Behrudi**

## BU ODA YANDIQCA

*Dünya şöhrətli alimimiz, dostum Rafiq Əliyevə*

Qeybin bir payıdır əsl məhəbbət
Bütün kainatın nurundan gəlir.
Mələklər də ona eyləyir heyrət,
Ancaq saf qəlblərdə dinir, yüksəlir.

Burda bir hikmət var, sirri bilən yox
Çox vaxt nakam olur, tez gedir biri.
Gözdən yox olsa da, qəlbdə daha çox
Boy verir, nur verir onun yox yeri.

Gedənin yerində nur qalır, kövrək
Qalanı kökləyir müqəddəsliyə.
O nur şölə verir, canlıtək, titrək
Duatək qarışır bu yerə, göyə.

Əsl məhəbbətin məqamı uca
İnsanlıq baş əyir bu ülviyyətə.
Daima bu oda belə yandıqca
Daha da layiqsən sonsuz hörmətə.

**Əhməd Qəşəmoğlu**

## NARAHAT RUHLAR

*Böyük alim Rafiq Əliyevə*

Kimsəsiz evlərin eyvanlarından
kədərli, narahat ruhlar boylanır.
Baxışlar kiminin tək üst-başını,
mənim yan-yörəmi baxıb, yoxlayır.

Küçələr, səkilər buraxmır məni,
hər yerdə cüt, qoşa addım izləri.
Addım izlərində maqnit gücü var,
tutub ayağımdan saxlayar məni,
bağlayar özünə, bağlayar məni,
öldürüb, basdırıb, ağlayar məni...

Bu yolda, bu yerdə qəbirlər artar,
təsəlli söylənər, səbirlər artar.
Özümü bu gecə harda basdırım?
İçimdə özümə qəbir yerim yox,
bu gecə dözüm yox, səbir yerim yox...

Döşəmə daşları qəbirdi, Allah...
Yanaşı uzanan, yanaşı yatan,
tanımır bir-birin, nə sirdi, Allah.

**Rəfail Tağızadə**

## XATİRƏ YAŞADIR İNSANI BƏZƏN

*Rafiq Əliyevə*

Günlər ilə dönür, illər yox olur,
ağrılar, həsrətlər hərdən çox olur,
görənin görməzdən gözü tox olur,
gedə bilmədiyi yerlərdən gələn
xatirə yaşadır insanı bəzən.

Ağrıdı, acıdı, şirindi, baldı,
gəldimi, getdimi, itdi, ya qaldı,
yığıb saxladığın yoldamı saldı?
Gedə bilmədiyi yerlərdən gələn
xatirə yaşadır insanı bəzən.

Ömürdən keçəni yaddaşa tikir,
kim deyir evini yad daşa tikir,
sinədən asılan ad daşa tikir,
gedə bilmədiyi yerlərdən gələn
xatirə yaşadır insanı bəzən.

Bəzən qalanından ötəni gözəl,
qəlbin dərinində bitəni gözəl,
əlindən, ovcundan itəni gözəl,
gedə bilmədiyi yerlərdən gələn
xatirə yaşadır insanı bəzən.

**Rəfail Tağızadə**

## HEYRAN EYLƏ DÜNYANI

Elm ilə ey yavərim, heyran eylə dünyanı,
Çünki, elmdir bəşər dərdlərinin dərmanı,
Qoy ziyası elminin fəth eləsin hər yanı,
Ucalt bir övlad kimi, yurdun Azərbaycanı!
Elmin ilə daima yüksələsən, Alimim!
Könüllərdə dastana çevriləsən, Alimim!

Elm meydanı ümman, bu ümmanda ər gərək,
Zəkasıyla cəng edən, basılmayan nər gərək,
Çarpış ey vətən oğlu, mərd sinəni gər görək,
Yar yeni yarğanları dünyaya ver dürr görək!
Elmin ilə daima yüksələsən, Alimim!
Könüllərdə dastana çevriləsən, Alimim!

Yüksəlib həmsər oldun nəhəng Lütfi Zadəyə,
Qoy Xuda versin əcr boylə şərif qayəyə,
Mərhaba, səd mərhaba, səntək əsilzadəyə,
Elmi böyük, özü isə bunca şirin, sadəyə.
Elmin ilə daima yüksələsən, Alimim!
Könüllərdə dastana çevriləsən, Alimim!

Ruhu şad olsun ulu şeyximiz Nizaminin,
Möhtəşəm Fizulinin, böyük Xudu, Tusinin,
Lütfidir bu yurduma, gör necə İlahinin,
Boş qala qoymur yeri zaman-zaman dahinin
Elmin ilə daima yüksələsən, Alimim!
Könüllərdə dastana çevriləsən, Alimim!

Hacı Qubad şeirlə əhli-elmi vəsf edər,
Bu əhli insanlığa ümdə xilaskar bilər,
Dərk edən insanlığı elmi və əhlin sevər,
Yalnız elmlə İnsan cəhlə çün eylər zəfər.
Elmin ilə daima yüksələsən, Alimim!
Könüllərdə dastana çevriləsən, Alimim!

**Hacı Qubad Həsənzadə**

## ÜRƏK ELDƏ, CAN ƏLDƏ

*Görkəmli alim Rafiq Əliyevə*

Nədən hökm eləyir gecə gündüzə,
Namərdlər mərdlərə, əyrilər düzə,
Bütün ömrü boyu durur üzə-üzə,
Alim kitab, cahil naqan əlində.

Dərdini çəkənlər ərdi dünyanın,
Qalıbdı mərdlərə dərdi dünyanın,
Nədən hədəfdədir mərdi dünyanın,
Qananlar məhv olur nadan əlində?

Xalqın qüdrətidir qüdrəti elmin,
Ali tək-tək, zənn etmə ki, ali min,
Körpə uşaq kimi olmaz alimin,
Nə kin ürəyində, nə qan əlində.

İnsantək ucası, alimtək ası,
Alimin ölümü aləmin yası,
Sərhəd tanımayan alim zəkası
Təkcə əsir olur vicdan əlində.

Erkən yağar zirvələrə qar, axı,
Sığmaz bu cahana, cahan dar, axı,
Bu fani dünyada nəyi var, axı,
Ürək elindədir, bir can əlində...

**Surxay Sultan**

# MÜNDƏRİCAT

Rafiq Əziz oğlu Əliyev (Tərcümeyi-hal) ... 4
Ön söz ... 6

**Rafiq Əliyevin publisistik yazıları**

L.Zadə bütün zamanların dahisidir. ... 11
Allah Xudu Məmmədova qoşa qanad. ... 16
Çoxölçülü Bəxtiyar zirvəsi... ... 17
Həmişə yaddaşlarda qalan şair-Famil Mehdi. ... 25
Ramiz Rövşən, metafizika, invariantlıq. ... 28
Böyük şairimiz Musa Yaquba dostluq ismarışı ... 31
Qeyri-səlis məntiq haqqında poetik düşüncələrim ... 33
Səmimiyyət aşiqi, Vətən sevdalısı . ... 37
Zəmanəyə ayna tutan “Zəmanə adamı”. ... 41
İlahidən gələn səs... ... 43
“Yalan”ın həqiqətləri barədə düşüncələrim ... 46
Qiyamətə qalmış 4 dəqiqə ... 50
Yeni sivilizasiyaya doğru və ya qeyri-səlis məntiq və din . ... 52
Ziyalılar ölkə, ölkə ziyalılar axtarışında. ... 57

**Rafiq Əliiyevin həyat yoldaşına yazıları**

Gözlərin buraxmır məni… ... 61
İl oldu ... 63
Çəhrayı paltarlı qadın ... 64
Üç əsrdən uzun üç il… ... 66
Səniz ... 68
İnsan tək valideynlərindən yetim qalmır ... 71
Tənhalıq yükü ağır olurmuş ... 73
Ayrılığın üzü dönsün ... 75
İkinci ömür ... 78
Rafiq Əliyevin aforizmləri ... 80

**Rafiq Əliyevin müsahibələri**

Qarabağ mənim üçün Allahdan sonra hər şeydir.. ... 83
Günəşin üzünü palçıqla suvamaq olmaz ... 90
Sürətlə dəyişən zamanda Zamanla ayaqlaşan İnsan ... 94

Lütfi Zadənin xəbərsiz olduğumuz böyük elmi nəzəriyyələri
Rafiq Əliyevin təqdimatında.. 108
İntellektual robotların üsyanı dünyada ən qorxulu hadisə ola bilər 119
Lütfi Zadə Rafiq Əliyevin Nobel mükafatı nominasiyasını dəstəklədi . 127
Zaman maşınını geri qaytara bilsəydim 134
Все должно быть для человека, а не против него: “Камни всегда
летят туда откуда исходит свет”, - уверен профессор Рафик Алиев 137
Şəxsiyyət üçün ən mühüm meyar xeyirxahlıqdır 141
Bəxtiyar Vahabzadə yaradıcılığında qeyri-səlis məntiq nəzəriyyəsi 150
Nə dünən, nə bu gün Şərqdə Nobel almaq üçün mühit olmayıb 153
Ən böyük bəlamız hikkədir 160
Bu gün informasiya inqilabı qurtarıb və biz başqa bir
inqilabın astanasındayıq 164
İntellektual robotlar artıq istehsal edilir və yaxın zamanlarda
onların hissləri də olacaq. 172
Lütfi Zadənin evi orta statistik azərbaycanlının evindən də
aşağı səviyyədədir. 176
Yeri görünən İnsan 186
“Ağdamda nəyiniz qaldı?” - Tanınmış ağdamlıların
kövrəldici cavabları 190
İnsanlar həqiqətin yox, maddiyatın yanındadırlar 191
20 ildir valideynlərimin məzarını ziyarət edə bilmirəm 194
Ən böyük bəlamız Allahsızlıqdır 199
Bəşəriyyəti Lütfi Zadənin əsasını qoyduğu
qeyri-səlis məntiq idarə edəcək 202
Bu gün qeyri-səlis texnologiyasız təbabəti inkişaf etdirmək olmaz 204
Rafiq Əliyevin təklif etdiyi KİTABLAR. 208
Görkəmli alimimizin Nobel mükafatı üçün üzərində
çalışdığı iş bəlli oldu . 209
Bu vaxtacan heç kimdən hədiyyə almamışam 210
Azərbaycan alimlərinin yeni hesab kitabı. 211
Bu gün Lütfi Zadə mənə zəng etdi 213
Zəka ağlın güzgüsüdür 214

## Rafiq Əliyevin ictimai məsələlərə münasibəti

Əsl ziyalılardan məhrum millət ölümə məhkumdur 219
Azadlıq olmayan yerdə .225
Sındırılan insanlarla Qarabağı azad etmək mümkün deyil 234
Dünya ədalətə hamilədir. 241
Hər 10-un içində bir yaxşısı varsa, kifayətdir. 246
İnstitutlara, iqtisadçı alimlərə müraciət edirəm 250
Mən siyasət adamı deyiləm. 255

Əfsus ki, Azərbaycanda Lütfi Zadə olmağa mühit yoxdur. .......... 258
İnsanlardan və fələkdən o qədər zərbələr almışam ki.......... 261
Dünyanın mənəvi entropiyası çoxalıb .......... 264
Professor Rafiq Əliyev: "Şəxsiyyət olmağın əsas şərti
nəfsinə ağa olmaqdır" .......... 271
Azərbaycanda ictimai mühit çirklidir.......... 278
Rafiq Əliyev 20 noyabr terrorundan danışdı: .......... 282
İndi susmağımın səbəblərindən biri də odur ki .......... 283
Если профессор берет взятку у студента, может ли быть
больший позор? .......... 286
Sərbəst Kürsü - 70 ildə ən yadda qalan tədbir .......... 288
Ən böyük istəyim, arzum hər qarışı mənim üçün müqəddəs
və əziz olan Qarabağımı azad, ölkəmi bütöv görməkdir .......... 293
Heç yerə getməyəcəyəm .......... 296
İnanıram ki, hökmən o torpaqlara yiyə duracağıq…" .......... 298
Rafiq Əliyev, Rüstəm İbrahimbəyov və əlibaltalılar.......... 300
Keçid balının 250-dən 150-yə salınması Azərbaycan təhsilində
faciəvi bir indikatordur .......... 302
Altı min şəhidin ruhundan qorxmaq lazımdır. .......... 306
Çətinlikləri dəf edəcəyiksə, üfüqə ümidlə baxıram .......... 307
Elə belə də yazın: normal yaşamaq istəyirəm.......... 310
Mən həmişə müxalifəm, amma müxalifətçi deyiləm .......... 312
Dəyişməsək, dəyişən dünya bizi qəbul etməyəcək.......... 316

**Rafiq Əliyev haqqında**

Hörmət etdiyim, heyrət bəslədiyim görkəmli şəxsiyyət.......... 321
Dünya alimlərinin Rafiq Əliyev haqqında fikirləri.......... 322
Lütfi Zadə Rafiq Əliyev üçün dünya alimlərinə müraciət etdi.. .......... 328
Su kimi sakit və güclü... .......... 331
Həyatda, elmdə və mənəviyyatda şəxsiyyət obrazı .......... 333
Milli– mənəvi sərvətimiz – Rafiq Əliyev.. .......... 338
Rafiq Əliyev nümunəsi.......... .342
Siyahının başındakı adam.......... 343
Научные результаты, полученные профессором Рафиком Алиевым,
рекомендованы к присуждению Нобелевской премии.......... 345
Alimlik və ziyalılıq missiyası .......... 347
Ləyaqətdən nur içən kamillik… Və yaxud müdrik insan,
dünya şöhrətli alim Rafiq Əliyev barədə.......... 351
Cavanşir Quliyev, Ramiz Həsənoğlu, İsmayıl İbrahimov.
Onun Allah qarşısında məqamı başqadır.......... 356
Azərbaycanın alim insanı .......... 364

Professor Rafiq Əliyevin portret cizgilərinin görünən və görünməyən tərəfləri ... 366
Kəpənək adam.. ... 375
Rafiq Əliyev Lütfi Zadənin ona vəsiyyət etdiyi maddi mirası Zadə Elmi Assosiasiyasına bağışladı ... 377
Rafiq Əliyevin yeni "nəzəriyyəsi" ... 379
Lütfi Zadənin Rafiq Əliyevə vəsiyyət etdiyi maddi mirasına Rafiq Əliyevin "heç vaxt şəxsi məqsədlərim üçün sərf olunmayacaq" fikrinə münasibətlər ... 381
Dünyanın aparıcı nəşrləri Rafiq Əliyev nəzəriyyələrinə maraq göstərirlər. ... 384
Böyük "körpüsalan" Rafiq Əliyev bu gün "divar hörənlər"i təbəssümlə süzür ... 386
Ziyalılığın Rafiq Əliyev ölçü vahidi ... 388
Ölkədən gizlədilən alim.. ... 392
Azərbaycanda riyaziyyat aliminin Afrika sayağı yeyilməsi ... 394
Hamı göyə qalxsın.. ... 398
Qiymətləndirmənin səlis və qeyri-səlis məntiqi ... 400
Lütfi Zadənin tamamlanmamış son elmi nəzəriyyəsi və ilk kitabı ... 402
Lütfi Zadə, Rafiq Əliyev və biz ... 405
Lütfi Zadə: «Rafiq Əliyev «Nobel» mükafatı ala bilər» ... 406

**Təbriklər**

Şər deməsən xeyir gəlməz ... 408
Глубокоуважаемый Рафик Азизович! ... 409
Mələklər bilsəydi ... 411
Əliyevin yanında xoşbəxt olmaq ... 413
Çox sevinirəm ki, bu gün Azərbaycanda Rafiq Əliyev kimi insan var ... 415
Rafiq Əliyev seçilmişlərdən biridir ... 415
O, Allaha və xalqına xidmət edir. ... 416
Çox xoşbəxtik ki, Rafiq Əliyevlə bir zamanı bölüşürük ... 417
Rafiq Əliyev hürufi, sufi kimi öz nəfsini yenən bir insan, böyük alimdir. ... 418

**Məktublar**

Rafiq Əliyev Nobelə namizəd olan nəzəriyyəsi ilə bağlı danışdı ... 420
Новые теории и идеи профессора Рафика Алиева. ... 423

**Dostların təsəlli ismarıcları**

Yoxluğun içində həmişə var olan sən ... .431
Sükutun 59-cu günü ... 432

Sənsizliyin harayı. .......... .436
Rafiq Əziz oğlunun kədəri, Nazim Hikmətin təsəllisi (açıq məktub) .......... 440
Rafiq Əliyevin acısına yolladığım acı .......... .445
Unudulmayanlar ölmürlər. .......... 448
Gözləri buraxmırdı onu .......... 450
“40” düşüncələri .......... 452
Səssiz vida. .......... 454

**Rafiq Əliyevə həsr olunan şeirlər**

Sən mənimləsən.......... 458
Ey Allahın adamı!.......... 461
Bu oda yandıqca. .......... 462
Narahat ruhlar .......... 463
Xatirə yaşadır insanıbəzən.......... 464
Heyran eylə dünyanı.. .......... 465
Ürək eldə, can əldə.......... 466

# SU KİMİ SAKİT VƏ GÜCLÜ

Nəşriyyat redaktoru:
SUĞRA OSMANOVA

Texniki redaktor:
HÜSEYN KƏRİMOV

Tərtibat və dizayn:
SƏDAQƏT KƏRİMOVA

Çapa imzalanmışdır: 29.11.2019.
Nəşrin ölçüsü: 70x100 1/16. Fiziki çap vərəqi: 29,5. Sifariş: 282/19.
Sayı: 500 ədəd.

NURLAR
Nəşriyyat-Poliqrafiya
Mərkəzi

Bakı, Az1122, H.Zərdabi pr. 78
Tel: 4977021 / Faks: 4971295
E-poçtu: office@nurlar.az